İnstitutun "Elmi əsərlər"i 1934-cü ildən nəşr edlir.
"Scientific works" of the institute have been published since 1934.
«Научные труды» института издаются с 1934 года.

İnstitut üzrə 150 nömrəli əmri diqqət mərkəzinə gətirək:
We bring to the attention Order No. 150 of the Institute:
Доводим до сведения приказ № 150 института:



Приказ №150

От 17/I-34г.

Временно утвердить редакционной коллегии Аз.Н.И.И.П.П. в составе ответ. редактора т. Мамедова Гулам /Директора Ин-та/ секретаря т. Малахальцева и членом т. Араслы.

Тов. Малахальцеву 18/I к 1 часу дня представить план выпуска научных трудов Института.

Директор Ин-та: [signature]

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2026.93.3
https://archive.org/details/elmi-s-rl-r-2025-6-1– Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/scientific-works-volume-92-number-6-2025-pdf/284768102 – SlideShare
https://www.calameo.com/read/007335995e7baec127401– Calameo

ISSN 2409-8817
E-ISSN 3078-2813
DOI: 10.69682

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 93, № 3, 2026

НАУЧНЫЕ ТРУДЫ

том 93, № 3, 2026

SCIENTIFIC WORKS

volume 93, № 3, 2026

“Elmi əsərlər” 1934-cü ildən çıxır
İldə 6 nömrə nəşr olunur
Redaksiyanın ünvanı:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu
"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

Baş redaktor:
Akif Abbasov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
Hümeyir Əhmədov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Məsul katib:
İradə Əmirəliyeva – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Redaksiya heyəti: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

Redaksiya Şurası:
B.H. Əliyev (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
A.K. Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
S.P. Lomov (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
Y.P.Zinçenko (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
Ə.Ə. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə)
Y. Romanenko (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
Tran Mai Uos (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

Redaksiya: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2026

Published by the decision of the Academic Council of the Institute of Education
of the Republic of Azerbaijan

Founder: Institute of Education of the Republic of Azerbaijan
The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan

"Research Papers" has been published since 1934.

Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan

Editor in Chief:
Akif Abbasov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Humeyir Ahmadov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Ilham Javadov – *doctor of philosophy in pedagogy, associate professor*

Executive Secretary:
Irada Amiraliyeva – *doctor of philosophy in pedagogy, associate professor*

Editorial board: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc.prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

Editorial Council:
B.H. Aliyev (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
A.N. Rahimov (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
A.K. Kusainov (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
O.M. Topuzov (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
I.Kh. Karimova (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
B.Briller (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
S.P. Lomov (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)

Y.P. Zinchenko (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
A.A. Shahin (professor at Hacettepe University, Turkiye)
Y. Romanenko (doctor of sciences in public administration, professor, Ukraine)
A.S. Sidenko (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
N.V. Naumova (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
Tran Mai Uoc (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2026

Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики

Учредитель: Институт Образования Азербайджанской Республики
Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г.
Министерства Юстиции Азербайджанской Республики

«Научные труды» издается с 1934 года.

Периодичность издания: 6 номеров в год.
«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики

Главный редактор:
Акиф Аббасов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Гумеир Ахмедов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Ильхам Джавадов – *доктор философии по педагогике, доцент*

Ответственный секретарь:
Ирада Амиралиева – *доктор философии по педагогике, доцент*

Редакционная коллегия: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

Редакционный совет:
Б.Г. Алиев (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
А.Н. Рагимов (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
А.К. Кусаинов (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
О.М. Топузов (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
И.Х. Каримова (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)

В. Бриллер (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
С.П. Ломов (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
Ю.П.Зинченко (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
А.А. Шахин (профессор Университета Хаджеттепе, Турция)
Е. Романенко (доктор наук по государственному управлению, профессор, Украина)
А.С. Сиденко (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
Н.В. Наумова (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
Tran Mai Uoc (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
Редакция: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2026

BAŞ REDAKTORDAN
ОТ ГЛАВНОГО РЕДАКТОРА
FROM THE EDITOR-IN-CHIEF

PROFSSOR HÜSEYN MUSTAFA OĞLU ƏHMƏDOV – 100
PROFESSOR HUSEYN MUSTAFA AHMADOV – 100
ПРОФЕССОР ГУСЕЙН МУСТАФА ОГЛУ АХМЕДОВ – 100

UOT 37.01

Akif Nurağa oğlu Abbasov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
https://orcid.org/0000-0002-9210-7141
E-mail: a.abbasov@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(3).5-11

AZƏRBAYCANDA PEDAQOGİKA ELMİNİN İNKİŞAFINDA MÜHÜM ROL OYNAMIŞ ALİM: AKADEMİK HÜSEYN ƏHMƏDOV

Akif Nuragha Abbasov
scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor, Honored teacher

A SCIENTIST WHO PLAYED AN IMPORTANT ROLE IN THE DEVELOPMENT OF PEDAGOGICAL SCIENCE IN AZERBAIJAN: ACADEMICIAN HUSEYN AHMEDOV

Акиф Нурага оглу Аббасов
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор педагогических наук, профессор, Заслуженный учитель

УЧЕНЫЙ, СЫГРАВШИЙ ВАЖНУЮ РОЛЬ В РАЗВИТИИ ПЕДАГОГИЧЕСКОЙ НАУКИ В АЗЕРБАЙДЖАНЕ: АКАДЕМИК ГУСЕЙН АХМЕДОВ

Xülasə. Akademik Hüseyn Mustafa oğlu Əhmədov Azərbaycan pedaqoji fikrinin və məktəb tarixinin görkəmli nümayəndəsidir. O, eyni zamanda pedaqogika nəzəriyyəsi sahəsində də nümunəvi tədqiqatçıdır. Hüseyn müəllim pedaqogika elmləri

doktoru, professor, Prezident təqaüdçüsü idi. Rusiya Təhsil Akademiyasının xarici üzvü seçilmişdi. 600-dən çox elmi əsəri vardır. “Seçilmiş əsərləri”nin 30 cildliyi nəşr edilmişdir. 60 nəfərdən çox fəlsəfə doktoru və elmlər doktoru yetişdirmişdir.

***Açar sözlər**: Azərbaycan pedaqoji elmi, Azərbaycan pedaqoji elminin formalaşması, pedaqoji elminin formalaşması və inkişafı, akademik Hüseyn Əhmədov, pedaqogika elminin inkişafında Hüseyn Əhmədovun rolu*

Abstract. Academician Huseyn Mustafa Akhmadov is a prominent figure in Azerbaijani pedagogical thought and the history of schools. He is also an exemplary researcher in the field of pedagogical theory. Huseyn is a Doctor of Pedagogical Sciences, a professor, and a recipient of a Presidential Scholarship. He was elected a foreign member of the Russian Academy of Education. He has authored over 600 scientific papers and published 30 volumes of "Selected Works." He has supervised over 60 PhDs and Doctors of Science.

***Key words**: Azerbaijani pedagogical science, formation of Azerbaijani pedagogical science, formation and development of pedagogical science, academician Huseyn Akhmadov, role of Huseyn Akhmadov in the development of pedagogical science*

Аннотация. Академик Гусейн Мустафа оглу Ахмедов является выдающимся представителем азербайджанской педагогической мысли и истории школы. В то же время он был образцовым исследователем в области теории педагогики. Гусейн Ахмедов был доктором педагогических наук, профессором, стипендиатом Президента. Он был избран иностранным членом Российской Академии Образования. Ему принадлежит более 600 научных трудов. Издано 30-томное собрание его «Избранных произведений». Под его руководством подготовлено более 60 докторов философии и докторов наук.

***Ключевые слова:** азербайджанская педагогическая наука, формирование азербайджанской педагогической науки, становление и развитие педагогической науки, академик Гусейн Ахмедов, роль Гусейна Ахмедова в развитии педагогической науки*

Hüseyn Mustafa oğlu Əhmədov haqqında bu sətirləri yazarkən bir anlığa düşüncələrə daldım. Məqaləni necə başlayım? İlk növbədə nəyə diqqət yetirim? Ərəblərin bir atalar sözü yadıma düşdü: “Alim odur ki, sözü, fikri, əməli bir ola”.

Gözəl deyilmiş fikirdir! Alim sözündə, fikrində, əməlində dürüst olmalıdır. Onun diqqətəlayiq elmi ilə gözəl şəxsiyyəti vəhdət təşkil etməlidir. Əks təqdirdə “Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir “ *(Aristotel).*

Anadan olmasının 100 illiyini qeyd etməyə hazırlaşdığımız akademik Hüseyn Mustafa oğlu Əhmədov sözü ilə əməlinin, elmi ilə şəxsiyyətinin kamilliyi ilə seçilirdi. Pedaqoji ədəbiyyatda bu böyük şəxsiyyəti ”pedaqogika elminin sonuncu mogikanı” adlandırırdılar.

Həmin fikirdə həqiqət vardır. Akademik pedaqogika sahəsində çoxsaylı elmi kadrlar hazırlamışdı. Aspirant, dissertant və doktorantları onun qayğısını görmüş, xeyirxahlığından qidalanmış, onun qayğısı ilə elmin enişli-yoxuşlu yollarında inamla addımlamış, fəlsəfə doktoru, elmlər doktoru, dosent, professor elmi adlarına yiyələnmişlər. Mütəfəkkirlər məhz belə şəxsləri, belə insanları, elm nümayəndələrini nəzərdə tutaraq demişlər: “Alimlərin qayğısı altında olan camaat, atasının qucağındakı uşaq kimidir” (*Rabiə Abdul əl-Rəhman*).

Hüseyn Əhmədov Toxluca kənd orta məktəbi müəllimliyindən Akademik professorluğa, akademikliyə kimi son dərəcə mənalı həyat yolu keçmiş, şərəfli ali məktəb müəllimi və alim kimi fəaliyyət göstərmişdir. Nəinki respublikamızda, həmçinin keçmiş SSRİ məkanında, MDB ölkələrində, Türkiyə Respublikasında şöhrət tapmışdır.

Hüseyn Əhmədov yetirmələri ilə söhbət zamanı onlara pedaqogika elminin özəlliklərini və gözəlliklərini anlatmaqla yanaşı, deyirdi ki, elmin çətin, daşlı-kəsəkli yollarında nə qədər uğurlu addımlar atsanız da, lovğalanmayın, özünüzü öyməyin, təvazökar olun, bilin ki, "Elmin hüdudları üfüqü xatırladır: nə qədər çox yaxınlaşırsansa, o qədər çox uzağa çəkilir" *(Pyer Büast)*. Ağıllı adamlarla oturub-durun. "Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin *(Əbülhəsən Bəhmənyar)*.

Onun ibrətamiz öyüd-nəsihətlərindən faydalanan yetirmələri anlayırdılar ki:

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.
Hər uca rütbədən biliniz, fəqət,
Alimin rütbəsi ucadır əlbət
(Nizami Gəncəvi).

Uşaqlıq və təhsil illəri, əmək fəaliyyəti. Hüseyn Əhmədov 17 1926-cı il iyulun 17-də Qərbi Azərbaycanın Yeni Bəyazid qəzasının Toxluca kəndində rəncbər ailəsində dünyaya gəlmişdir. Kənd məktəbində təhsil alarkən onda müəllimliyə böyük həvəs və sonsuz maraq oyanmışdır. Təbii ki, onda bu peşəyə sevgi və məhəbbəti, heyranlığı onda dərs aldığı müəllimlər, onların davranış və rəftarı, müəllim-şagird münasibətlərini düzgün qurmaları, uşaqlara öz övladları kimi yanaşmaları, nəzəri və metodik hazırlığa yiyələnmələri yaratmışdı.

Balaca Hüseyn evə verilmiş tapşırıqları yerinə yetirərkən, tədris olunmuş mövzunu öyrəndikdən sonra ayaq üstə qalxar bir müəllim səriştəliyi ilə danışardı. Bir şagird kimi yox, bir müəllim kimi. Müəllimini yamsılayaraq. Heç də təsadüfi deyildir ki, IX sinifdə oxuyarkən ona ibtidai siniflərdə dərs demək tapşırıldı. Sevincinin həddi-hüdudu yox idi. Arzularının qanadlarında əvvəlcə sənədlərini K. Setkin adına Gəncə Pedaqoji Texnikumuna,

sonradan Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə verdi. Ali məktəbdə yaxşı oxuduğuna, tələbə yoldaşlarından savadına, davranışına görə fərqləndiyinə görə Lenin komsomolu təqaüdünə layiq görülmüşdür.

1947-ci ildə - texnikum, 1951-ci ildə institut təhsilini başa vurdu.

Gəncə (keçmiş) Kirovabad Pedaqoji İnstitutunda baş laborant və Gəncədəki Toxuculuq Texnikumunda tarix müəllimi kimi çalışır (1951-1952-ci illər). İnstitutda müəllim işləsə də, onda pedaqoji elmlərə böyük maraq vardı. Tədqiqatlara qoşulmaq, elmin daşlı-kəsəkli yollarında addımlamaq istəyirdi. Bu yolun ağırlığını bilsə də. Əzmkar və iradəli idi. Müəllimlər müəllimi olmaq arzusunda idi.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (hazırda universitet) aspirant (1952-1955), doktorant (1968-1970) oldu. Ömrünün sonuna kimi bu ali təhsil müəssisəsində çalışdı.

Professor Əhməd Seyidovun elmi rəhbərliyi ilə "İbtidai sinif şagirdlərinin əxlaq tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları" (1958) və akademik Mehdi Mehdizadənin elmi məsləhətçiliyi ilə "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" mövzusunda doktorluq (1972) dissertasiyalar müdafiə etdi, professor (1977) oldu.

Bir müddət (1957-1958) Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda (hazırda Təhsil İnstitutu) kiçik elmi işçi işlədi.

Taleyini Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (hazırda universitet) bağladı.

Uzun illər bu universitetinin Ümumi pedaqogika kafedrasına rəhbərlik etdi. O, universitetin tarixində bu kafedranın ən uzun müddət (50 ilə yaxın) müdiri olmuş şəxsdir.

Akademik Hüseyn Əhmədovun pedaqogika elminə töhfələri. Akademik başlıca olaraq pedaqogika tarixçisidir. Məktəb və pedaqoji fikir tarixinə dair çoxsaylı əsərlərin, tədqiqatların müəllifidir. Qeyd etdiyimiz kimi, XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixini hərtərəfli araşdırmış, diqqətəlayiq dissertasiya və monoqrafiya yazmışdır. Məktəb tarixinə dair başqa əsərləri də vardır. Pedaqoji fikir tarixinə gəldikdə isə, üzü Nizami Gəncəvidən tutmuş son dövr mütəfəkkirlərimizin (Nəsirəddin Tusi, Mirzə Şəfi Vazeh, M.F.Axundzadə, Firudin bəy Köçərli, Məhəmməd ağa Şaxtahtlı, Mahmud bəy Mahmudbəyli, Fərhad Ağazadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Nəriman Nərimanov və b. əsərlərini öyrənmiş, pedaqoji görüşlərini sistemləşdirmiş, ümumiləşdirmiş və diqqət mərkəzinə gətirmişdir.

Həmin materiallar akademikin "Azərbaycan məktəb və pedaqoji fikir tarixindən" dərsliyində öz ifadəsini tapmışdır (2001).

Nəriman Nərimanovun pedaqoji görüşləri isə, Hüseyn müəllim xüsusi tədqiqat obyekti olmuş, bu məsələlərlə bağlı bir neçə kitab çap etdirmişdir.

H.M.Əhmədov təkcə pedaqogika tarixi ilə öz elmi yaradıcılığını məhdudlaşdırmamış, pedaqogikanın nəzəri məsələlərinə, eyni zamanda məktəbə rəhbərlik və təhsilin idarə olunmasına, məktəbşünaslığa aid də bir sıra tədqiqatlar aparmışdır. Tarixi mənbələri araşdırmaqla, Azərbaycan, Gürcüstan, Rusiya və Ermənistan arxivlərində günlərlə işləməklə, Azərbaycan məktəblərinin yaranması, inkişafına dair son dərəcə qiymətli materiallar toplamış və respublika pedaqoji ictimaiyyətinə çatdırmışdır. O, SSRİ Pedaqoji Elmlər Akademiyasının

müxbir üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü idi.

Moskvada, Tiflisdə, Daşkənddə, Səmərqənddə, İrəvanda Dissertasiya Şuralarının üzvü, sədr müavini və sədri, rəsmi opponent kimi fəaliyyət göstərib. Elmi rəhbərliyi və elmi məsləhətçiliyi ilə təxminən 60 şəxs fəlsəfə doktoru və elmlər doktoru diplomu almışdır. Professorlar Müseyib İlyasovu, Həsən Bayramovu, Məcid İsmixanovu, Müslüm Nəzərovu və b. nümunə gətirmək olar.

Akademik Hüseyn Əhmədov haqqında səmimi sözlər, diqqətəlayiq fikirlər:

*Hüseyn Əhmədov alim-pedaqoq, müəllim, professor, rəhbər, neçə-neçə akdemiyaların üzvü olmaqla bunların hər birində öz orijinal ziyalı şəxsiyyəti ilə Azərbaycan məktəbşünaslığının patriarxı kimi tanınır. Fikrimizcə, alimin ömründə iki məqam onun xoşbəxtliyinin rəhni, qarantıdır. Bunlardan biri onun ailə həyatıdırsa, ikincisi ömrünü-gününü həsr etdiyi elm sahəsidir. Hüseyn müəllimin taleyində bu iki qanadın hər ikisi qibtə ediləsidir. Təmizlik və paklığın, mənəvi ucalığın timsah olan Göyçə mahalında dünyaya göz açan Hüseyn müəllim təbiətən mülayim, istedadlı, sənəti, sənətkarı duyub qiymətləndirməyi bacarandır (***akademik Teymur Əhmədov***).

*Hüseyn Əhmədovun geniş yaradıcı diapazonu, pedaqogika tarixi və nəzəriyyəsinin aktual problemlərinin həlli sahəsində onun cəsarətli addımları, alimin orijinal ideyaları pedaqoji fikir mühitində böyük hörmət qazanmağa imkan vermişdir. O, respublikada mükəmməl məktəb yarada bilmişdir" (Rusiya Təhsil Akademiyasının sabiq prezidenti, akademik ***N.D.Nikandrov***).

*Akademik Hüseyn Əhmədovla ilk tanışlığım doktorant olduğum vaxtlara təsadüf edir. O kafedra müdiri idi. Mən hansı bir məsələ ilə bağlı onun yanına getmişdim. Kafedrada mövcud olan səliqə-sahman, sakitlik orada hökm sürən elmi mühitin nişanəsi idi. Mənimlə onun arasında vəzifə iyerarxiyası baxımından böyük məsafə olmasına baxmayaraq, əlindəki işi kənara qoydu, məni dinlədi, məsləhətini verdi, fikirlərini bildirdi. Söhbətimiz bitəndən sonra məni qapıya qədər ötürdü. İçəri daxil olanda ürkək addımlarım doktorant olduğumdan xəbər verirdisə, kafedranı tərk edəndə özümü artıq alim kimi hiss edirdim. Bu Hüseyn Əhmədovun idarəetmənin müdrikliyinin nəticəsi idi. Onun müdrikliyi mənə motivasiya vermişdi. İndi mən daha böyük səylə, əzmlə, həvəslə tədqiqatımı davam etdirmək istəyirdim" (***Hikmət Əlizadə***).

"Hüseyn Əhmədov Azərbaycan pedaqoji fikir tarixinin sistemləşdirilməsində və bu sahənin müstəqil tədqiqat istiqaməti kimi formalaşmasında mühüm rol oynamış, bu sahənin elmi əsasları ilə bağlı yol xəritəsi müəyyənləşdirmişdir. Onun elmi araşdırmaları nəticəsində pedaqogika tarixinin bir sıra az öyrənilmiş məsələləri elmi dövriyyəyə daxil edilmişdir" (***prof. İbrahim Bayramov***)

Təltifləri. "SSRİ Maarif əlaçısı", Əməkdar ali məktəb işçisi, Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdü. Prezident təqaüdçüsü idi.

Azərbaycan-Rusiya əlaqələrinin inkişafındakı səmərəli fəaliyyətinə görə, ***"Dolq i çest" ("Şərəf və ləyaqət")*** **ordeni, K.D. Uşinski adına medalı, RTA-nın *"Elmdə nailiyyətlərinə görə"* qızıl medalı,** eyni zamanda "***Türk dünyasına xidmət"*** **qızıl medalı** ilə mükafatlandırılmış, Rusiya Təhsil Akademiyasının qızıl medalına və Fəxri Fərmanına layiq görülmüşdü

Əsərləri:

İlk növbədə qeyd etmək lazımdır ki, Hüseyn Əhmədovun 30 cilddən ibarət “Seçilmiş əsərlər”i işıq üzü görmüşdür. Bundan başqa, akademikin Əhmədov müxtəlif illərdə “XIX əsr Azərbaycan məktəbi”, “Azərbaycan məktəb və pedaqoji fikir tarixindən: Ali təhsil müəssisələri üçün dərslik”, “Xatirələrim və ya nəslimizin şəcərəsi”, “Azərbaycan məktəb və pedaqoji fikir tarixi”, “Nəriman Nərimanovun pedaqoji fikirləri”, “Nəriman Nərimanov (həyati, fəaliyyəti, pedaqoji və tibbi fikirləri”, “Azərbaycanda pedaqoji fikrin inkişafı haqqında” (Ə.Seyidovun “Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən”, “Azərbaycan pedaqoji fikir antologiyası”, “Maarif fədailəri: Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev-150”, “Uşaqların tərbiyəsində valideynin şəxsi nümunəsi”, “Pedaqogikaya giriş”, “100 yaşlı Yuxarı Salahlı kənd məktəbi”, “İdarəetmənin pedaqogika və psixologiyası”, “Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər” və b. kitabları, dərslik və monoqrafiyaları nəşr edilmişdir.

H.M.Əhmədovun dərsliklərimizi transliterasiya və faksimiliya yolu ilə yenidən nəşr etdirməsi sahəsində fəaliyyəti. Bu, son dərəcə faydalı, əhəmiyyətli iş, xeyirxah də diqqətəlayiq fəaliyyətdir. Akademik On doqquzuncu yüzilliyin ikinci yarısı və iyirminci yüzilliyin əvvəllərində Təbrizdə, Tiflisdə, Bakıda ərəb əlifbası ilə nəşr edilmiş dərsliklərimizin transliterasiyası və faksimiliyası ilə məşğul olaraq, bu istiqamətdə nəcib iş görərək onların yenidən nəşrinə nail olmuşdur. Onları diqqət mərkəzinə gətirək: Üzeyir Hacıbəylinin “Hesab məsələləri”ni (Bakı, 1907), Rəşid bəy Əfəndiyevin “Uşaq bağçası” (Tiflis, 1912), “Bəsirət-ülətfal” (Bakı, 1901), S. Vəlibəyovun “Qüdrəti-Xuda” (Tiflis, 1888), A. Çernyayevski və S.Vəlibəyovun “Vətən dili” (II hissə, Tiflis, 1888), N. Dementyevin “Təmsillər və - hekayələr” (Tiflis, 1839), İ.Qriqoryevlə M.Ş. Vazehin “Kitabitürki” (Təbriz, 1855), A.O .Çernyayevskinin "Vətən dili" (I hissə, Tiflis, 1882) yenidən nəşr etdirmişdir.

Pedaqogika elmləri doktoru, professor, Rusiya Təhsil Akademiyasının xarici üzvü, Prezident təqaüdçüsü, Əməkdar ali məktəb işçisi Hüseyn Mustafa oğlu Əhmədovla tanışlığım ötən əsrin 70-ci illərinə təsadüf edir. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu (hazırda ADU) bitirib təyinatla Sabirabad rayonu Şıxsalahlı və Qaragüney məktəblərində ingilis dili müəllimi işləyirdim. Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda (hazırda Təhsil İnstitutu) yeni bir şöbə – Tərbiyənin ümumi problemləri şöbəsi yaradılmışdı. Şöbə üzrə müdir, kiçik elmi işçi, baş elmi işçi vəzifələrini tutmaq üçün müsabiqə elan edilmişdi. Mən də müsabiqədə iştirak etmək üçün sənədlərimi təqdim etmişdim. Müsabiqədən keçdim, institutun adı çəkilən şöbəsində kiçik elmi işçi vəzifəsində işə götürüldüm. Tədqiqatla bağlı müxtəlif təhsil müəssisələrində olur, təhsilə aid tədbirlərdə iştirak edirdik. Belə tədbirlərdə professor Hüseyin Əhmədovla görüşürdüm, əsərlərindən faydalanırdım. Bu, şəxsi tanışlıq idi.

Bir dəfə instituta gəlmişdi. Mənə müraciətlə dedi: “Sənin köməyin lazım olacaq”. Soruşdum ki, nə məsələdir.

O vaxtlar ümumtəhsil məktəblərini tədris planlarına yeni fənn – Ailə həyatının etika və psixologiyası fənni daxil edilmişdi. Professor Əbdül Əlizadə ilə mən 2fəənə aid “Ailə” dərsliyini, “Ailə həyatının etika və psixologiyası” və Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat dər vəsaitlərini

yazmış, fənnin proqramını hazırlamışdıq.

Hüseyn müəllim:

– Mənə televiziyada "Ailə həyatının etika və psixologiyası" ilə bağlı veriliş aparmaq tapşırılıb. Əvvəla, dərslik və dərs vəsaitlərinizi mənə də verin. İkincisi, o verilişi birlikdə aparacağıq. Sən problemə yaxın şəxsən. Mənə kömək edərsən.

Təbii ki, razılaşdım. Ayda bir, yaxud iki dəfə veriliş olurdu. Məktəblərlə, valideynlərlə əlaqələr saxlayır, verilişlərin maraqlı və canlı olmasına çalışırdıq. Mənim Hüseyn müəllimlə bu, artıq yaradıcı, işgüzar əməkdaşlığım idi.

İllər ötdü. Əməkdaşlığımız daha da genişləndi.

Bir gün acı xəbər aldıq: Hüseyn müəllim haqq dünyasına qovuşub. Pedaqogika elminin ağsaqqalına, şah damarına görə çox kədərləndik. Təsəllimiz bu oldu ki, akademik qəlbimizdə əbədi yaşayır, yazdıqlarından, danışdıqlarından, dediklərindən, məsləhətlərindən daim bəhrələnirik..

Bu böyük şəxsiyyətin, görkəmli alimin – akademik Hüseyn Əhmədovun, anadan olmasının 100 illiyi tamam olur. Allah bu gözəl insana, akademikə rəhmət eləsin!!!

Problemin aktuallığı. Akademik Hüseyn Mustafa oğlu Əhmədovun anadan olmasının 100 illiyi ilə bağlı yazılan məqalə aktuallığı ilə seçilir.

Problemin yeniliyi. Məqalə Azərbaycan pedaqoji elminin formalaşması və inkişafında mühüm rol oynamış akademik Hüseyn Əhmədova həsr olunub.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat:

1. Abbasov, A.N. Pedaqogika elminin qüdrətli nümayəndəsi. https://yazarlar.az/2022/07/18/akif-abbasov-akademik-huseyn-mustafa-oglu-%C9%99hm%C9%99dov-96/
2. Abbasov, A.N. Pedaqogika elminin qüdrətli nümayəndəsi // Müasirləri Hüseyn Əhmədov haqqında" kitabında. H.M. Əhmədov. Seçilmiş əsərləri, XI cil. Bakı: 2012. – s.82-91
3. Əhmədov, H.M. Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər / H.M. Əhmədov. - Bakı, -2012. -544 s.
4. Əhmədov, H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H.M. Əhmədov. - Bakı, -2014. -432 s.

Redaksiyaya daxil olub: 15.04.2026.

PROFESSOR NURƏDDİN MUSTAFA OĞLU KAZIMOV – 100
PROFESSOR NURADDİN MUSTAFA KAZİMOV – 100
ПРОФЕССОР НУРЕДДИН МУСТАФА ОГЛУ КАЗЫМОВ – 100

UOT 371

***Akif Nurağa oğlu Abbasov**,*
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
https://orcid.org/0000-0002-9210-7141
E-mail: a.abbasov@arti.edu.az
Rəhiməxanım Rzabala qızı Məmmədzadə
Azərbaycan Dillər Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-2256-3185
E-mail: ragimaxanum.mamedzade@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).12-14

100 İLLİYİN İŞIĞINDA

Akif Nuragha Abbasov
scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan doctor of pedagogical sciences, professor, Honored teacher

Rahimakhanim Rzabala Mammadzade
senior lecturer at the Azerbaijan University of Languages,
doctor of philosophy in pedagogy

IN THE LIGHT FOR 100 YEARS

Акиф Нурага оглу Аббасов
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор педагогических наук, профессор, Заслуженный учитель

Рагимаханым Рзабала гызы Мамедзаде
старший преподаватель Азербайджанского Университета Языков,
доктор философии по педагогике

В СВЕТЕ СТОЛЕТИЯ

Xülasə. Nurəddin Mustafa oğlu Kazımovun anadan olmasının 100 illiyi tamam olur. Nurəddin Kazımov pedaqogika elmləri doktoru, professor, Əməkdar elm xadimi idi. O, elmi-pedaqoji kadrların hazırlanmasında yaxından iştirak etmişdir. N.M. Kazımov 25 aspirant və dissertanta elmi rəhbər olmuş, təxminən 30 doktorluq və namizədlik (fəlsəfə doktoru) dissertasiyalarının müdafiəsi zamanı rəsmi opponent kimi çıxış etmişdir. O, Rusiya Təhsil Akademiyasının xarici üzvü, Prezident təqaüdçüsü idi. Ömrünün son illərində Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının müdiri vəzifəsində (30 il) işləmişdir.

Açar sözlər: *Nurəddin Kazımov, Əməkdar elm xadimi, elmi-pedaqoji kadr hazırlığı, Prezident təqaüdü, professor, elmlər doktoru*

Abstract. The 100th anniversary of Nuraddin Mustafa Kazimov's birth is approaching. Nuraddin Kazimov was a Doctor of Pedagogical Sciences, professor, and distinguished scholar. He was directly involved in the training of academic staff.

N.M. Kazimov supervised 25 postgraduate and doctoral students, and served as an official opponent in the defense of approximately 30 doctoral and candidate dissertations. He was a foreign member of the Russian Academy of Education and a recipient of a Presidential Scholarship. In the last years of his life, he served as the head of the Department of Pedagogics at the Azerbaijan University of Languages (30 years).

***Keywords**: Nuraddin Kazimov, distinguished scholar, training of academic staff, Presidential Scholarship recipient, professor, Doctor of Sciences*

Аннотация. Приближается 100-летие со дня рождения Нураддина Мустафы оглу Казимова. Нураддин Казимов был доктором педагогических наук, профессором и Заслуженным научным деятелем. Он принимал непосредственное участие в подготовке научно-педагогических кадров. Н.М. Казимов был научным руководителем 25 аспирантов и докторантов, а также официальным оппонентом при защите около 30 докторских и кандидатских диссертаций. Он был иностранным членом Российской академии образования, стипендиатом Президента. В последние годы жизни работал заведующим кафедрой педагогики Азербайджанского Университета Языков (30 лет).

***Ключевые слова**: Нураддин Казимов, заслуженный учёный, подготовка научно-педагогических кадров, стипендиат Президента, профессор, доктор наук*

Mərhum professor, gözəl insan Yusif Talıbov Azərbaycanın görkəmli pedaqoqlarını səciyyələndirərkən akademik Mehdi Mehdizadəni, professorlar Əhməd Seyidov və Mərdan Muradxanovu pedaqogika elminin sacayaqları (təməl daşları) adlandırmışdı. Əhməd Seyidov 1882-ci ildə anadan olmuş, 1977-ci ildə; Mehdi Mehdizadə 1903-cü ildə doğulmuş, 1984cü ildə, Mərdan Muradxanov 1907-ci ildə anadan olmuş, 1977-cim ildə dünyasını dəyişmişdir. Azərbaycan pedaqogikasının təşəkkülündə və inkişafında, pedaqogikanın nəzəriyyəsinin və tarixinin (pedaqoji fikir və məktəb tarixi) formalaşmasında hər üçünün özünəməxsus rolları olmuşdur.

Haqqında söz açılan mərhum pedaqoqlarının yolunu onlarla yetirmələri və digərləri davam etdirmişlər. Onlardan sonra gələn nəsil (professorlar və akademiklər Nurəddin Kazımov, Hüseyn Əhmədov və Əjdər Ağayev) sayılıb-seçilməyə, qibtə doğurmağa, pedaqogika elmində ağsaqqallıq vəzifəsini üzərilərinə götürməyə başlamışdır.

Biz bu şəxsləri ***pedaqogika elminin sacayaqları*** (təməl daşları) adlandırardıq.

Professor Nurəddin Kazımovun tədqiqatları daha çox didaktika, pedaqogika nəzəriyyəsi, məktəbşünaslıq, tərbiyə məsələlərinə; professor Hüseyn Əhmədovun tədqiqatları pedaqogikanın tarixinə, o cümlədən Azərbaycanda pedaqoji fikir və məktəb tarixinə, professor Əjdər Ağayevin araşdırmaları həm pedaqogika tarixi və həm də pedaqogika nəzəriyyəsi problemlərini əhatə etmişdir.

Bu məqalədə biz pedaqoji sacayaq nümayəndələrindən birinin, bu il anadan olmasının 100 ili tamam olacaq mərhum professor Nurəddin Mustafa oğlu Kazımovun həyat və yaradıcılığını diqqət mərkəzinə gətirməyi qarşımıza məqsəd qoymuşuq.

Bu məqalənin müəlliflərindən biri professor Akif Nurağa oğlu Abbasovun xatirələri ilə tanış olaq: "1975-ci ilin əvvəlləri idi. Azərbaycan Pedaqoji Dillər İnstitutunun (indiki ADU-nun) ingilis – Azərbaycan dilləri fakültəsini bitirdikdən sonra təyinatla Sabirabad rayonuna göndərilmişdim. Artıq bir neçə il idi ki, rayonun Şıxsalahlı və Qaragünə kənd məktəblərində ingilis dili müəllimi işləyirdim. Səhərlər yaşadığım Əli Bayramlı şəhərində avtobusa oturur, təxminən 20-25 dəqiqədən sonra iş yerində olurdum. Dostum, şair, mərhum İsrafil İbadov o vaxtlar "Azərbaycan məktəbi" jurnalında çalışırdı. O, məsləhət gördü ki, Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda (indiki Təhsil İnstitutu) kiçik elmi işçi yerinə müsabiqə elan olunub. Bəlkə sənədlərini verəsən.

Sənədlərimi verdim, müsabiqədən keçdim. Lakin Sabirabad Rayon Maarif şöbəsinin o dövrdəki müdiri, mərhum Lələş Əliyev məni işdən azad etmək istəmir, qalıb işləməyimi təkid edirdi. Mən isə sistemli şəkildə tədqiqatlara qoşulmaq, institutda çalışmaq istəyirdim. Günlər isə keçirdi. Bu vaxt eşitdim ki, institutun direktoru professor Nurəddin Kazımovla Əli Bayramlı Pedaqoji Məktəbində görüş təşkil olunub. Professor geniş auditoriya qarşısında – müəllimlərin və tələbələrin əhatəsində maraqlı məruzə edir, pedaqogikanın, təhsilin, məktəb quruculuğunun, təlim və tərbiyə prosesinin səmərəli təşkilinə və s. və i.a. dair öz qənaətlərini bölüşür, suallara cavablar verirdi.

Tədbir yekunlaşanda imkan tapıb professorla görüşdüm, müsabiqədən keçdiyimi, lakin işdən azad olunmaqla bağlı əmrimi ala bilmədiyimi ona bildirdim. O, narahat olmamağı məsləhət gördü, qeyd etdi ki, SSRİ Nazirlər Sovetinin xüsusi qərarı var, müsabiqə yolu ilə elmi işçiliyə qəbul olunan şəxslərə kömək göstərilməlidir. Yeni iş yerlərinə gəlməkdə onlara maneçilik törətmək olmaz.

Sonra Nurəddin müəllim pedaqoji məktəbin rəhbərliyindən xahiş etdi ki, onu Sabirabad Rayon Maarif Şöbəsinin müdiri ilə (telefonla) calaşdırsınlar. O, vaxtlar rayonlararası telefonla danışıq indiki kimi asan deyildi, müəyyən çətinliklər vardı. Maarif müdiri ilə danışmaq mümkün olmadı.

Professor bir daha mənə narahat olmamağı tapşırıb bildirdi ki, şəhərə qayıdan kimi bu məsələ ilə məşğul olacaq.

Bu, mənim professor Nurəddin Kazımovla ilk görüşüm idi. Özü də doğulub, boya-başa çatdığım doğma Əli Bayramlı (hazırda Şirvan) şəhərində.

Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda tərbiyənin ümumi problemləri şöbəsinə əmrim digər yoldaşlardan 9 gün sonra – 1975-ci il aprel ayının 9-da verildi və mən elmi fəaliyyətə başladım. Təxminən bir il institutda işləyəndən sonra, 1976-cı ilin iyun ayında hərbi xidmətə yola düşdüm. Geri qayıdanda Nurəddin müəllim artıq bizim institutdan getmişdi – Azərbaycan Dövlət Pedaqoji İnstitutunda elmi işlər üzrə prorektor işləyirdi.

Bir yerdə işlədiyimiz müddətdə professor Nurəddin Kazımov yadımda necə qalmışdı? Bir alim kimi pedaqogika elminin aktual problemlərini məqalələrində, kitablarında, elmi şuranın iclaslarında, respublika elmi-praktik konfranslarında, respublika Pedaqoji Cəmiyyətinin qurultaylarında inamla, məntiqi təfəkkürün bütün imkanlarından faydalanaraq və orijinal deyim tərzi ilə təqdim edirdi".

Bu məqalənin digər müəllifi pedaqogika üzrə fəlsəfə doktoru Rəhiməxanım Rzabala qızı Məmmədzadənin fikirləri: "Professor uzun illər Azərbaycan Dillər Universitetində Pedaqogika kafedrasının müdiri olmuşdur. Mən hazırda həmin kafedranın dosentiyəm. Nurəddin müəllim haqq dünyasına qovuşandan sonra kafedrada işə başlamışam. Çox təəssüf edirəm ki, onunla bir yerdə, onun rəhbərliyi ilə bu kafedrada işləməmişəm. Lakin təsəllim odur ki, professor Nurəddin Kazımovla bağlı xoş xatirələri yaşadıram. Onun əsərlərindən bəhrələnərək auditoriyada mühazirə oxuyur və seminar məşğələləri keçirəm. Eşitdiyimə görə son dərəcə ciddi, tələbkar, prinsipial, obyektiv insan olub. Diqqətəlayiq rəhbərlik üslubu varmış, təşkilatçılıq qabiliyyəti çox yaxşı imiş. Mühazirələri çox məzmunlu, elmi, pedaqogikanın yenilikləri ilə zəngin idi. Kafedranın əməkdaşlarından da mühazirə və seminar məşğələlərinə hazırlıqlı getmələrini, təlim prosesində vaxtdan səmərəli faydalanmağı tələb edirdi. Açıq dərslərdə olur, kafedra müəllimlərinin mühazirə və seminar məşğələlərin təhlilini aparır, müsbət və zəif cəhətləri diqqət mərkəzinə gətirirdi".

Həyatı və təhsil illəri (2) . Nurəddin Mustafa oğlu Kazımov 28 aprel 1926-cı ildə Gəncə şəhərində dünyaya gəlmişdir. 1943-cü ildə ümumtəhsil məktəbində təhsil almış, iki il sonra Azərbaycan Dövlət Universitetinin (hazırda BDU) Tarix fakültəsinin fəlsəfə şöbəsinə qəbul edilmişdir. Sonra təhsilini Sankt-Peterburq Dövlət Universitetində davam etdirmişdir. Həmin universitetin fəlsəfə fakültəsini 1950-ci ildə bitirmişdir.

Ali təhsil almaqla kifayətlənməmiş sənədlərini Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunun (hazırda Təhsil İnstitutu) aspiranturasına vermiş (1953), 1956-ci ildə aspirantura təhsilini başa vurmuşdur.

Əmək fəaliyyəti. Ali təhsil aldıqdan sonra Nuxa (hazırda Şəki) Müəllimlər İnstitutunun pedaqogika və psixologiya kafedrasının müəllimi olmuşdur. Sonralar Bakı Vilayət Maarif Şöbəsində məktəb inspektoru (1952-1953), respublika Maarif Nazirliyində Ali və orta peşə təhsili şöbəsində inspektor vəzifələrində işləmişdir.

Eyni zamanda Nurəddin müəllim M.F. Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda baş

müəllim (1957), Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktor müavini (1957-1973), direktor (1973-1976), Azərbaycan Dövlət Pedaqoji İnstitutunda elmi işlər üzrə prorektor (1976-1982), Azərbaycan Dövlət İncəsənət İnstitutunda Pedaqogika kafedrasının müdiri, Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının müdiri (1984-cı ildən etibarən təxminən 30 il) vəzifələrində çalışmışdır.

Professor Nurəddin Kazımov uzun illər Azərbaycan Pedaqoji Cəmiyyətinin sədri olmuşdur.

Azərbaycanda pedaqogika elminin inkişafında Nurəddin Kazımovun özünəməxsus əməyi vardır.

Elmi müəssisənin rəhbəri kimi yüksək təşkilatçılıq, idarəetmə qabiliyyətinə malik idi, ciddi və tələbkar idi ki, bu da işçilərin öz vəzifələrinə məsuliyyətlə, eyni zamanda vicdanla yanaşmalarını təmin edirdi. Nurəddin müəllim sərt tələbkar olmaqla yanaşı, həm də çox kövrək idi.

Elmi fəaliyyəti. Nurəddin Kazımov, qeyd etdiyimiz kimi, elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının xarici üzvü (2012) idi. 1958-ci ildə "Müqayisə haqqında K.D. Uşinskinin fikirləri və məktəb təcrübəsi üçün bunun əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyası, 1969-cu ildə isə "Məktəbdə müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1973-cü ildə professor elmi adına layiq görülmüşdür.

N.M.Kazımovun orta ümumtəhsil məktəblərinin III, IV sinifləri üçün "Ana dili" (1970-2003) və "Oxu" (1970-2005) dərsliklərinin və 500-dən artıq müxtəlif elmi əsərin, o cümlədən "Nurlu yol" (1983), "Tərbiyənin elmi-pedaqoji əsasları" (1983), "Pedaqogika" (həmmüəlliflə, 1996), "Ali məktəb pedaqogikası" (1999), "Milli pedaqogika yollarında" (2001), "Məktəb pedaqogikası" (2002), "Məktəb pedaqogikası sxemlərdə" (2003), "Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət" (həmmüəlliflə, 2005), "Müqayisənin nəzəri və əməli problemləri" (ağlın sönməz məşəli) (2005), "Pedaqogika kafedrası üzrə təhsil proqramı (kurikulum)" (həmmüəlliflə, 2005), "Mərhələli tərbiyə nəzəriyyəsi" (2007), "Pedaqoji ustalığın problemləri" (2009), "Tətbiqi pedaqogika" (2010), 16 – cilddən ibarət "Seçilmiş əsərlər"in (2011) müəllifidir.

Nurəddin müəllimin dərslik və dərs vəsaitlərindən hazırda da ali təhsil müəssisələrində istifadə edilir.

Elmi kadrların yetişdirilməsi sahəsindəki fəaliyyəti. Professor Nurəddin Kazımov müxtəlif illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində, Tiflis Pedaqoji Universitetində və Gürcüstan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda, Naxçıvan Dövlət Universitetində dissertasiyaların müdafiəsi şuralarının üzvü; bir müddət respublikada Pedaqoji və Psixoloji Elmlər sahəsində Tədqiqatları Əlaqələndirmə şurasının sədri olmuşdur.

Professor N.M. Kazımov 25 aspirant və dissertanta elmi rəhbər olmuş, təxminən 30 doktorluq və namizədlik (fəlsəfə doktoru) dissertasiyalarının müdafiəsi zamanı rəsmi opponent kimi çıxış etmişdir. Təxminən 90 dissertasiyaya rəy vermişdir.

Təltifləri. Azərbaycan təhsilinin və pedaqogika elminin inkişafındakı xidmətlərinə və səmərəli yaradıcılıq fəaliyyətinə görə professor Nurəddin Kazımov bir sıra dövlət təltiflərinə layiq görülmüşdü. "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, Əməkdar elm xadimi fəxri adını almışdı. Prezident təqaüdçüsü idi.

Professor Nurəddin Kazımov 92 il ömür sürdü. 2018-ci il dekabrın 6-da haqq dünyasına qovuşdu.

Bu əvəzedilməz alim, Azərbaycanda pedaqogika elminin bayraqdarlarından biri olan bu gözəl insan 90 yaşını haqlasa da, yaşayıb-yaratmaq eşqi onu tərk etməmişdi.

Professor Nurəddin Kazımov gənc pedaqoq alimlərə ən gözəl nümunədir. Görkəmli pedaqoq, əməkdar elm xadimi, professor, Prezident təqaüdçüsü Nurəddin Kazımov yaddaşlarda yaşayır, əsərləri sevilə-sevilə oxunur!

Görkəmli pedaqoqa Allahdan rəhmət oxuyuruq!

Problemin aktuallığı. Nurəddin Mustafa oğlu Kazımov görkəmli Azərbaycan alimi, respublikamızda pedaqogika elminin bayraqdarlarındandır. Onun 100 illik yubileyi ilə bağlı belə bir məqalənin hazırlanması məqsədəuyğundur.

Problemin yeniliyi. Professor Nurəddin Kazımovun 100 illiyi ilə bağlı məqalənin çap olunması onun Azərbaycanda pedaqogika elminin inkişafına göstərdiyi xidməti diqqət mərkəzinə gətirir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarında maraq doğuracaqdır.

Ədəbiyyat:

1. Abbasov, A.N. Azərbaycan pedaqoji fikrinin qüdrətli nümayəndəsi. / “Pedaqogika elminin fenomeni” kitabında (Professor Nurəddin Kazımov – 80) Bakı: Apostrof, 2016, s. 132-133
2. Abbasov, A.N., Məmmədzadə R.R. Milli pedaqogika elmini zənginləşdirən alim // “Xalq qəzeti”, 2026, aprel

Redaksiyaya daxil olub: 31.03.2026

UOT 37.01

Hümeyir Hüseyn oğlu Əhmədov,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri, pedaqogika elmləri doktoru, professor, Qazaxıstan Pedaqoji Elmlər Akademiyasının xarici üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü,
Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, RTA-nın Əməkdar elm və təhsil xadimi
https://orcid.org/ 0000-0003-0019-4266
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az

Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin aparıcı mütəxəssisi,
pedaqogika üzrə fəlsəfə doktoru,
elmlər doktoru proqramı üzrə əyani doktorant
https://orcid.org/0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
l.memmedli@arti.edu.az

Pərvin Cavanşir qızı Əlizadə,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi,
Türkiyə Respublikası Van Yüzüncü Yıl Universitetinin qiyabi doktorantı
https://orcid.org/0009-0009-5896-2177
E-mail: alizadapari.16@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).15-20

TÜRKOLOJİ QURULTAY VƏ TÜRK DÜNYASINDA TƏHSİLİN ELMİ-METODOLOJİ ƏSASLARININ FORMALAŞMASI (1926–2026: YÜZİLLİK PERSPEKTİVDƏ ELMİ-PEDAQOJİ TƏHLİL)

Humeyir Huseyn Ahmadov,
head of the department of the
Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor,
foreign member of the Academy of Pedagogical Sciences of Kazakhstan,
foreign member of the Russian Academy of Education,
full Member of the Academy of Natural Sciences,
Honored scientist and educator
https://orcid.org/ 0000-0003-0019-4266
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az

Lala Akif Mammadly
leading specialist of the department of Scientific and pedagogical personnel training of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy
doctoral student in the program of doctor of sciences

https://orcid.org/0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
l.memmedli@arti.edu.az

Parvin Cavanshir Alizadeh,
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan
doctoral student in the program of philosophy at
Van Yuzuncu Yil University,Republic of Türkiye
https://orcid.org/0009-0009-5896-2177
E-mail: alizadapari.16@gmail.com

TURKOLOGICAL CONGRESS AND FORMATION OF SCIENTIFIC-METHODOLOGICAL BASES OF EDUCATION IN THE TURKISH WORLD (1926 -2026: SCIENTIFIC-PEDAGOGICAL ANALYSIS IN A CENTENNIAL PERSPECTIVE)

Гумейир Гусейн оглу Ахмедов,
заведующий отделом Института Образования Азербайджанской Республики
доктор педагогических наук, профессор,
иностранный член Академии Педагогических Наук Казахстана,
иностранный член Российской Академии Образования,
действительный член Академии Естественных Наук,
Заслуженный деятель науки и образования

Лала Акиф гызы Мамедли
ведущий специалист отдела подготовки научно-педагогических кадров
Института Образования Азербайджанской Республики
доктор философии по педагогики,
докторант очной формы обучения по программе доктора наук

Парвин Джаваншир гызы Ализаде
ведущий специалист Института Образования Азербайджанской Республики
заочный докторант Университета Ван Юзюнджю Йыл Турецкой Республики

ТЮРКОЛОГИЧЕСКИЙ КОНГРЕСС И ФОРМИРОВАНИЕ НАУЧНО-МЕТОДОЛОГИЧЕСКИХ ОСНОВ ОБРАЗОВАНИЯ В ТЮРКСКОМ МИРЕ (1926-2026: НАУЧНО-ПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ В СТОЛЕТНЕЙ ПЕРСПЕКТИВЕ)

Xülasə. 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və pedaqoji inteqrasiyası baxımından mühüm mərhələ təşkil etmişdir. Qurultay yalnız dilçilik sahəsində elmi müzakirə platforması deyil, həm də türk dünyasında vahid təhsil siyasətinin, ortaq terminoloji sistemin və yazı islahatının metodoloji əsaslarını müəyyən edən strateji hadisə olmuşdur. Məqalədə Qurultayın təhsil sahəsinə təsiri tarixi, elmi və institusional kontekstdə sistemli şəkildə təhlil edilir. Xüsusilə əlifba islahatı, terminoloji vahidləşmə, ali və orta təhsil üçün kadr hazırlığı, dərslik siyasəti, pedaqoji fikrin modernləşməsi və türk dünyasında elmi əməkdaşlığın təşkili məsələləri geniş araşdırılır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Qurultay türk xalqlarının maarif sisteminin modernləşdirilməsində, elmi metodologiyanın yenilənməsində və ortaq pedaqoji platformanın formalaşmasında mühüm rol oynamışdır. Qurultayın yüzillik

yubileyi müasir dövrdə türk dünyasında təhsil inteqrasiyasının yeni mərhələsi kimi qiymətləndirilir.
Açar sözlər: *Türkoloji Qurultay, türk dünyası, təhsil siyasəti, əlifba islahatı, terminoloji vahidlik, pedaqoji fikir, elmi inteqrasiya*

Abstract. The First Turkological Congress held in Baku in 1926 represented a crucial milestone in the scientific, cultural and pedagogical integration of the Turkic world. The Congress was not merely a linguistic forum but a strategic platform that laid the methodological foundations for educational reform, terminological standardization and script modernization across Turkic societies.

This article examines the impact of the Congress on educational systems, curriculum reform, teacher training, textbook policy and the institutionalization of Turkology. The findings demonstrate that the Congress significantly contributed to the modernization of education and the formation of a unified scientific-pedagogical framework in the Turkic world. The centenary of the Congress is evaluated as the beginning of a new phase of educational integration among Turkic states.
Keywords: *Turkological Congress, Turkic world, education policy, Latin alphabet reform, terminology standardization, pedagogical thought, scientific integration*

Аннотация. Первый тюркологический съезд, состоявшийся в 1926 году в Баку, стал важным этапом в научной, культурной и педагогической интеграции тюркских народов. Съезд представлял собой не только научную дискуссионную платформу в области языкознания, но и стратегическое событие, определившее методологические основы единой образовательной политики, терминологической стандартизации и реформы письменности в тюркском мире.

В статье комплексно анализируется влияние съезда на развитие системы образования, модернизацию учебного процесса, подготовку педагогических кадров, обновление учебников и формирование единого научно-педагогического пространства. Делается вывод о том, что съезд сыграл ключевую роль в институционализации тюркологии и формировании интеграционной образовательной модели в тюркском мире.
Ключевые слова: *Тюркологический съезд, тюркский мир, образовательная политика, латинизация, терминологическая стандартизация, педагогическая мысль, научная интеграция*

Giriş

XX əsrin əvvəlləri türk xalqlarının ictimai, siyasi və mədəni tarixində köklü dəyişikliklərlə səciyyələnir. Milli özünüdərk, dil siyasətinin yenilənməsi və maarif sisteminin modernləşdirilməsi paralel şəkildə inkişaf edirdi. Bu proseslərin kulminasiya nöqtəsi kimi 1926-cı ildə Bakı şəhərində keçirilmiş I Türkoloji Qurultay çıxış etmişdir. Qurultay türk xalqlarının dil, mədəniyyət və təhsil məsələlərinin sistemli şəkildə müzakirə olunduğu ilk genişmiqyaslı elmi platforma idi.

Bakı Dövlət Universiteti və onun Şərq fakültəsi türk dillərinin elmi şəkildə tədrisi və mütəxəssis hazırlığında aparıcı rol oynayırdı. Azərbaycan elmi mühiti həm regional, həm də beynəlxalq şərqşünaslıq məktəbləri ilə sıx əlaqədə idi.

Qurultay adətən əlifba islahatı kontekstində qiymətləndirilsə də, onun təhsil sisteminə təsiri daha geniş idi. Yeni yazı sisteminə keçid, terminoloji vahidləşmə, dərsliklərin yenidən hazırlanması və müəllim kadrlarının formalaşdırılması türk dünyasında təhsilin struktur transformasiyasına səbəb olmuşdur.

Türkoloji Qurultay türk xalqlarının intellektual tarixində yalnız elmi hadisə deyil, həm də təhsil strategiyasının yenidən qurulması

mərhələsidir. Qurultayda dilin sistemli tədqiqi, ortaq terminologiyanın yaradılması və yazı sisteminin yenilənməsi məsələləri müzakirə edilmişdir. Bu qərarlar təhsil sisteminin bütün pillələrinə birbaşa təsir göstərmişdir.

Əlifba islahatı məktəb sistemində əsaslı dəyişikliklərə səbəb oldu. Latın qrafikasının tətbiqi fonetik prinsiplərə uyğunluğu ilə savadlanma prosesini sürətləndirdi. İbtidai siniflərdə oxu və yazı bacarıqlarının formalaşması asanlaşdı, dərsliklərin məzmunu yenidən işlənildi və yeni metodik yanaşmalar tətbiq edildi. Bu dəyişikliklər yalnız texniki xarakter daşımırdı; onlar təhsilin keyfiyyətinin yüksəlməsinə və maarifin demokratikləşməsinə xidmət edirdi.

Terminoloji vahidlik ali təhsildə elmi ünsiyyətin əsasını təşkil etdi. Müxtəlif türk xalqları arasında anlayış fərqlərinin aradan qaldırılması ortaq dərsliklərin və elmi nəşrlərin hazırlanmasına şərait yaratdı. Bu isə pedaqoji elmlərin inkişafında yeni mərhələ açdı.

Qurultaydan sonra ali təhsil müəssisələrində türk dillərinin müqayisəli tədqiqinə xüsusi diqqət yetirildi. Vasili Bartold və Aleksandr Samoyloviç kimi alimlərin elmi yanaşmaları metodoloji baza rolunu oynadı. Azərbaycan elmi mühiti türkoloji araşdırmaların institusionallaşdırılmasında aparıcı mövqe tutdu.

Pedaqoji fikir də bu prosesdən kənarda qalmadı. Təhsilin milli əsaslar üzərində qurulması ideyası gücləndi. Anadilli tədris, milli-mədəni irsin dərs proqramlarına inteqrasiyası və müəllim hazırlığının yenilənməsi əsas prioritetlərə çevrildi.

Qurultayın uzunmüddətli təsiri türk dünyasında elmi inteqrasiyanın möhkəmlənməsində özünü göstərdi. Müasir dövrdə türk dövlətləri arasında təhsil sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoymuşdur. Bu kontekstdə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən təhsil layihələri Türkoloji Qurultayın ideyalarının davamı kimi qiymətləndirilə bilər.

Türkdilli dövlətlərlə bağlı təhsilin elmi-metodoloji əsaslarının formalaşması perspektivləri.

1926-cı ildə Bakı şəhərində keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının elmi-intellektual tarixində dönüş nöqtəsi olmaqla yanaşı, təhsil sisteminin struktur və məzmun baxımından yenilənməsində mühüm rol oynamışdır. Qurultay adətən dilçilik hadisəsi kimi təqdim olunsa da, onun qərarlarının təhsil mühitinə təsiri daha geniş və çoxşaxəli olmuşdur. Bu təsir üç əsas istiqamətdə özünü göstərmişdir: yazı sisteminin modernləşdirilməsi və savadlanma prosesinin sürətlənməsi; terminoloji vahidliyin təmin edilməsi və dərslik siyasətinin yenilənməsi; ali və orta təhsil pillələrində türkoloji kadr hazırlığının institusionallaşdırılması [3, s. 29].

Əlifba islahatı təhsilin keyfiyyət göstəricilərinə birbaşa təsir göstərmişdir. Qurultayda la-tın qrafikasına keçidin elmi əsaslandırılması fonetik prinsiplərə uyğun yazı sisteminin tətbiqini təmin etmişdir. Bu isə ibtidai təhsil pilləsində oxu və yazı bacarıqlarının formalaşmasını asanlaşdırmış, savadlanma müddətini qısaltmışdır. M.İ.İsayevin "Языковое строительство в СССР" əsərində qeyd olunduğu kimi, latınlaşma prosesi yalnız texniki dəyişiklik deyil, həm də pedaqoji transformasiya idi [4, s. 19]. Yeni qrafika ilə hazırlanan dərsliklər şagirdlərin fonem–qrafem uyğunluğunu daha sürətli mənimsəməsinə imkan verirdi. Bu isə metodik ədəbiyyatın yenidən işlənməsini və müəllim hazırlığının təkmilləşdirilməsini zəruri etmişdir.

Terminoloji vahidlik məsələsi ali təhsildə elmi diskursun formalaşmasına təsir göstərmişdir. A.N.Kononov “Тюркская филология в СССР (1917-1967)” əsərində qeyd edir ki, Qurultaydan sonra türk dillərinin müqayisəli tədqiqi sistemli xarakter almış və vahid terminoloji baza formalaşdırılmışdır [5, 7]. Bu proses pedaqoji elmlərin inkişafında da əhəmiyyətli rol oynamışdır. Müxtəlif türk xalqları arasında anlayış fərqlərinin azaldılması ortaq dərsliklərin hazırlanmasına və elmi nəşrlərin koordinasiyasına şərait yaratmışdır.

Qurultayın təhsil sahəsinə digər mühüm töhfəsi kadr hazırlığının institusionallaşdırılması ilə bağlı olmuşdur. Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Şərq fakültəsi türkoloji mütəxəssislərin hazırlanmasında aparıcı mərkəzə çevrilmişdir. Akademik H.M. Əhmədov “Azərbaycan məktəb və pedaqoji fikir tarixi” əsərində göstərir ki, XX əsrin əvvəllərində Cənubi Qafaqazda olan tədris müəssisələrində, Qori Müəllimlər Seminariyası və digər təhsil ocaqlarında tədris planında ana dilinə çox az yer verilirdi [1, 238]. 1906-cı ildə Bakıda keçirilən Müəllimlərin Qurultayından sonra 1925-ci ildə də yeni bir Qurultay keçirilmiş, burada da bir sıra aktual məsələlər müzakirə olunmuşdu. 1926-cı ildə keçirilən Türkoloji Qurultayda da bu pro-sesə sistemlilik gətirilməsi qərara alınmış və elmi kadrların hazırlanmasında vahid metodoloji çərçivə yaranması təşəbbüsü göstərilmişdir.

Beynəlxalq şərqşünaslıq məktəbinin nümayəndələrinin – xüsusilə Vasili Bartold və Aleksandr Samoyloviç – elmi fəaliyyəti türkoloji tədqiqatların metodoloji əsaslarını zənginləşdirmişdir. Onların müqayisəli-tarixi yanaşmaları təhsil proqramlarına daxil edilmiş və türk dillərinin yalnız filoloji deyil, həm də tarixi-mədəni kontekstdə öyrənilməsinə imkan yaratmışdır. Bu yanaşma pedaqoji elmlərdə inteqrativ modelin formalaşmasına gətirib çıxarmışdır.

Qurultayın stenoqrafik materiallarında [6, 131] dilin tədrisində sadəlik, fonetik uyğunluq və elmi əsaslandırma prinsiplərinin önə çəkildiyi görünür. Bu prinsiplər müasir kurikulum siyasətinin əsas komponentləri ilə səsləşir. Anadilli tədris, milli-mədəni komponentin proqramlara inteqrasiyası və elmi terminologiyanın standartlaşdırılması kimi məsələlər məhz həmin dövrdə sistemli şəkildə gündəmə gətirilmişdir.

Birinci Bakı Türkoloji Qurultayında terminologiya sahəsində qəbul edilən qərarlara əsasən, türk dilləri üçün ortaq elmi terminoloji sistemin yaradılması zamanı hər dilin mənsub olduğu qrup xüsusiyyətləri nəzərə alınmalı, ilk növbədə həmin dilin daxili leksik imkanlarına üstünlük verilməli, zərurət yarandıqda digər türk dillərindən söz alınmalı, yalnız uyğun qarşılıq tapılmadıqda isə kütlə tərəfindən mənimsənilmiş ərəb və fars mənşəli terminlər saxlanılmalı, gələcəkdə isə yeni terminlərin yaradılmasında Avropa mənşəli köklərə üstünlük verilməli, bütün bu proseslər türk dillərinin etimoloji qatları və söz yaradıcılığı prinsipləri əsasında həyata keçirilməli, terminlərin sadə, anlaşıqlı və geniş kütlələr tərəfindən qəbul edilə bilən olması təmin edilməli, həmçinin hər respublikada daimi terminologiya komissiyalarının fəaliyyət göstərməsi və Türk Elmi Terminlər Lüğətinin hazırlanması məqsədəuyğun hesab edilmişdir [2, 13].

Tədqiqat göstərir ki, Türkoloji Qurultay türk dünyasında təhsil inteqrasiyasının ilkin modelini yaratmışdır. Müasir mərhələdə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən ortaq təhsil

proqramları, akademik mübadilə layihələri və vahid humanitar strategiyalar bu tarixi modelin davamı kimi çıxış edir.

Beləliklə, aparılan təhlil sübut edir ki, Türkoloji Qurultay təkcə dilçilik hadisəsi deyil, həm də türk xalqlarının təhsil sisteminin modernləşdirilməsində konseptual və institusional əsas yaratmış elmi platformadır. Onun qərarları yazı islahatı, terminoloji vahidlik və kadr hazırlığı sahələrində davamlı təsir mexanizmi formalaşdırmış, türk dünyasında ortaq pedaqoji məkanın təşəkkülünə zəmin yaratmışdır.

Problemin aktuallığı. Türk dünyasının tarixi inkişaf mərhələlərində dil, mədəniyyət və təhsil məsələləri həmişə strateji əhəmiyyət kəsb etmişdir. XX əsrin əvvəllərində baş vermiş ictimai-siyasi transformasiyalar türk xalqlarının milli özünüdərk prosesini sürətləndirmiş, bu isə təhsil sisteminin yenidən qurulmasını zəruri etmişdir. 1926-cı ildə Bakı şəhərində keçirilmiş I Türkoloji Qurultay məhz belə bir tarixi mərhələdə ortaya çıxaraq türk xalqlarının elmi və pedaqoji inteqrasiyasına yönəlmiş ilk sistemli təşəbbüs olmuşdur. Lakin mövcud elmi ədəbiyyatda Qurultay əsasən dilçilik və əlifba islahatı kontekstində araşdırılmış, onun təhsil siyasəti, müəllim hazırlığı, dərslik quruculuğu və pedaqoji metodologiyanın yenilənməsi baxımından rolu kifayət qədər sistemli şəkildə tədqiq olunmamışdır.

Müasir mərhələdə türk dövlətləri arasında əməkdaşlıq yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən ortaq təhsil layihələri, akademik mobillik proqramları və vahid mədəni-humanitar strategiyalar tarixi təcrübənin yenidən qiymətləndirilməsini aktuallaşdırır. Bu kontekstdə Türkoloji Qurultayın təhsil sahəsinə təsirinin araşdırılması yalnız tarixi maraq doğuran məsələ deyil, həm də müasir təhsil inteqrasiyası üçün metodoloji əsasların müəyyənləşdirilməsi baxımından aktualdır.

Qloballaşma şəraitində milli kimliyin qorunması və eyni zamanda beynəlxalq elmi məkana inteqrasiya məsələsi xüsusi əhəmiyyət kəsb edir. Türkoloji Qurultay məhz bu iki istiqamətin – milli əsasların möhkəmləndirilməsi və beynəlxalq elmi əməkdaşlığın qurulmasının – tarixi modelini təqdim etmişdir. Buna görə də problemin aktuallığı həm tarixşünaslıq, həm pedaqogika, həm də müasir təhsil siyasəti baxımından əsaslandırılmışdır. Qurultayın yüzilliyi ərəfəsində onun təhsil sisteminə təsirinin kompleks şəkildə öyrənilməsi elmi zərurət kimi çıxış edir.

Problemin elmi yeniliyi. Təqdim olunan tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Türkoloji Qurultay ilk dəfə olaraq yalnız dilçilik hadisəsi kimi deyil, türk dünyasında təhsilin institusional və metodoloji transformasiyasının başlanğıc nöqtəsi kimi kompleks şəkildə təhlil olunur. Əvvəlki araşdırmalarda Qurultayın əlifba islahatı və terminoloji məsələlərə təsiri geniş işıqlandırılsa da, onun pedaqoji sistemin struktur yenilənməsi, müəllim hazırlığı modelinin formalaşması və dərslik siyasətinin qurulması baxımından rolu sistemli şəkildə araşdırılmamışdır.

Bu məqalədə Qurultay qərarlarının ibtidai, orta və ali təhsil pillələrinə təsiri ayrıca istiqamət kimi elmi dövriyyəyə daxil edilir. Latın qrafikasına keçidin savadlanma səviyyəsinə, tədris metodikasına və təhsil materiallarının hazırlanmasına təsiri pedaqoji aspektdən qiymətləndirilir. Eyni zamanda, Bakı Dövlət Universiteti və onun Şərq fakültəsinin türkoloji kadr hazırlığında rolu elmi-tarixi kontekstdə yenidən təhlil olunur.

Tədqiqatda türk xalqları arasında ortaq terminoloji sistemin yaradılmasının təhsil inteqrasiyasına təsiri ayrıca konseptual çərçivədə təqdim edilir. Bu yanaşma türkoloji araşdırmalarda pedaqoji ölçünün gücləndirilməsi baxımından yenilik təşkil edir.

Bundan əlavə, Qurultayın yüzillik yubileyi kontekstində onun ideyalarının müasir dövrdə tətbiq imkanları təhlil edilir və elmi-pedaqoji inteqrasiya modeli kimi dəyərləndirilir. Beləliklə, məqalə həm tarixi faktların yeni interpretasiyasını təqdim edir, həm də Türkoloji Qurultayın təhsil sahəsində sistemli təsir mexanizmini ilk dəfə kompleks elmi yanaşma ilə əsaslandırır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. İlk növbədə,

Türkoloji Qurultayın təhsil sahəsinə təsirinin araşdırılması müasir türk dövlətləri arasında ortaq təhsil strategiyalarının hazırlanmasında tarixi model kimi istifadə oluna bilər. Qurultayın terminoloji vahidlik, əlifba standartlaşdırılması və kadr hazırlığı sahəsində qəbul etdiyi prinsiplər bu gün də aktualdır və inteqrativ təhsil proqramlarının qurulmasında metodoloji əsas rolunu oynaya bilər.

İkincisi, tədqiqat nəticələri ali pedaqoji təhsil müəssisələrində "Türk dünyasında təhsil tarixi", "Türkologiya və pedaqogika", "Dil siyasəti və təhsil" kimi fənlərin tədrisində istifadə oluna bilər. Bu, tələbələrin tarixi təcrübəni müasir kontekstdə dəyərləndirməsinə imkan yaradar.

Üçüncüsü, ortaq dərsliklərin hazırlanması və akademik mübadilə proqramlarının genişləndirilməsi prosesində elmi əsaslandırılmış yanaşmaların tətbiqinə şərait yaradır. Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən təhsil layihələrində vahid metodoloji prinsiplərin formalaşdırılması baxımından bu tədqiqatın nəticələri praktik əhəmiyyət kəsb edir.

Nəhayət, müəllim hazırlığı sisteminin modernləşdirilməsi və anadilli tədrisin keyfiyyətinin artırılması istiqamətində tarixi təcrübənin öyrənilməsi mühüm praktik nəticələr verə bilər. Qurultayın irəli sürdüyü ideyaların müasir kurikulum siyasətinə inteqrasiyası milli-mədəni kimliyin qorunması ilə beynəlxalq standartların uzlaşdırılmasına imkan yaradır.

Beləliklə, tədqiqat yalnız nəzəri xarakter daşımır, həm də təhsil siyasəti, kurikulum quruculuğu və beynəlxalq əməkdaşlıq sahələrində konkret prak-tik tətbiq imkanları təqdim edir.

Nəticə. Aparılmış elmi-pedaqoji təhlil göstərir ki, 1926-cı ildə Bakı şəhərində keçirilmiş I Türkoloji Qurultay türk dünyasında təhsilin elmi-metodoloji əsaslarının formalaşmasında sistemli və uzunmüddətli təsirə malik olmuşdur. Qurultay yalnız dilçilik sahəsində müzakirə platforması deyil, eyni zamanda təhsil siyasətinin yenidən qurulmasına, pedaqoji modelin modernləşdirilməsinə və elmi inteqrasiyanın institusional əsaslarının müəyyənləşdirilməsinə yönəlmiş strateji hadisə kimi çıxış etmişdir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, əlifba islahatı və terminoloji vahidləşmə təhsil sisteminin bütün pillələrində struktur dəyişikliklərə səbəb olmuşdur. Latın qrafikasına keçid savadlanma prosesini sürətləndirmiş, dərslik siyasətinin yenilənməsinə və metodik ədəbiyyatın təkmilləşdirilməsinə şərait yaratmışdır. Terminoloji standartların müəyyənləşdirilməsi isə elmi-pedaqoji diskursun vahid platformada formalaşmasına, ali təhsil müəssisələri arasında əməkdaşlığın genişlənməsinə və ortaq elmi məkanın təşəkkülünə imkan vermişdir.

Eyni zamanda, Bakı Dövlət Universiteti və onun Şərq fakültəsinin fəaliyyəti göstərir ki, Qurultay yalnız nəzəri qərarlarla kifayətlənməmiş, real institusional mexanizmlərlə müşayiət olunmuşdur. Müəllim hazırlığı sisteminin yenilənməsi, türk dillərinin müqayisəli şəkildə tədrisi və elmi kadr potensialının formalaşdırılması türkoloji elmin və pedaqoji fikrin inkişafında davamlı xətt yaratmışdır.

Araşdırma onu da sübut edir ki, Türkoloji Qurultayın ideyaları müasir dövrdə də aktuallığını qoruyur. Xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən təhsil layihələri və humanitar əməkdaşlıq təşəbbüsləri Qurultayın elmi inteqrasiya modelinin müasir davamı kimi qiymətləndirilə bilər. Bu baxımdan, Qurultayın yüzilliyi yalnız tarixi hadisənin qeyd olunması deyil, həm də türk dünyasında ortaq təhsil strategiyasının formalaşdırılması üçün konseptual əsasdır.

Beləliklə, Türkoloji Qurultay türk xalqlarının intellektual tarixində elmi, mədəni və pedaqoji inteqrasiyanın

başlanğıc nöqtəsi kimi dəyərləndirilməlidir. Onun təhsil sahəsində yaratdığı metodoloji baza müasir mərhələdə ortaq kurikulum siyasətinin qurulması, akademik mobilliyin genişləndirilməsi və milli-mədəni kimliyin qorunması ilə beynəlxalq standartların uzlaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H.M.Əhmədov. – Bakı : ADPU nəşriyyatı, –2014. – 432 s.
2. Akalın Ş.H. *Birinci Türkoloji Kurultayı'nın 90. Yılında Terim Çalışmalarının Bugünkü Durumu ve Geleceği* // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans: **Türkologiya elmimədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar** (I hissə). – Bakı, 2016. – S. 13-20
3. Türk, V. *Türkler ve Türklük Bilimi: 1926 Bakü Türkoloji Kurultayı'nın Siyasi ve Kültürel Sonuçları //* Siyaset ve Kültür Dergisi. – 2018. – № 24. – S. 25-35.
4. Исаев М.И. Языковое строительство в СССР: процессы создания письменностей народов СССР / М.И. Исаев. – Москва: Наука, –1979. – 351 с.
5. Кононов А.Н. Тюркская филология в СССР (1917–1967) / А. Н. Кононов. – Москва, 1968. – 328 с.
6. Первый всесоюзный тюркологический съезд: стенографический отчёт: 26 февраля – 5 марта 1926 г. – Баку, 1926. – 426 с.

Redaksiyaya daxil olub: 02.04.2026

UOT 37.01

İlham Ağaqardaş oğlu Cavadov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009-0004-8522-320X
E-mail:i.cavadov@arti.edu.az

https://doi.org/10.69682/arti.2026.93(3).21-24

TƏHSİLİN KEYFİYYƏTİNİN TƏMİN OLUNMASININ NƏZƏRİ, PEDAQOJİ VƏ PRAKTİK ƏSASLARI: STRATEGİYALAR VƏ TƏTBİQ İMKANLAR

Ilham Agagardash Javadov
deputy director of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy, associate professor

THEORETICAL, PEDAGOGICAL AND PRACTICAL FOUNDATIONS OF ENSURING QUALITY EDUCATION: STRATEGIES AND IMPLEMENTATION OPPPRTUNITIES

Ильхам Агагардаш оглу Джавадов
заместитель директора Института Образования Азербайджанской Республики,
доктор философии по педагогике, доцент

ТЕОРЕТИЧЕСКИЕ, ПЕДАГОГИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ОСНОВЫ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ: СТРАТЕГИИ И ВОЗМОЖНОСТИ ВНЕДРЕНИЯ

Xülasə. Məqalədə müasir dövrün çağırışları baxımından təhsilin keyfiyyətinin təmin olunması baxımından məktəbin funksiyaları, təlim-tərbiyə prosesinin müasir tələblərə uyğun qurulması, mənfi amillərin aradan qaldırılması, təhsil işçilərinin fəaliyyətinin və şagirdlərin nailiyyətlərinin obyektiv qiymətləndirilməsi məsələləri araşdırılır. Təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də intellektual, mənəvi və sosial inkişafı təmin edən kompleks prosesdir. Təlim metodları və məzmun müasir yanaşmalar əsasında təkmilləşdirilməli, pedaqoji fəaliyyət strateji planlaşdırma, monitorinq və idarəetmə mexanizmləri ilə dəstəklənməlidir. Azərbaycan təhsil sistemində aparılan islahatlar ölkənin sosial-iqtisadi inkişaf strategiyası ilə bağlıdır və rəqabətqabiliyyətli, yaradıcı və yüksək bilikli gənc nəslin yetişdirilməsini hədəfləyir. Həmçinin, məqalədə təhsilin keyfiyyətinin elmi əsaslara söykənən, sistemli və vahid yanaşma ilə təmin olunmasının əhəmiyyəti vurğulanır. Keyfiyyət yalnız təlim nəticələrinin qiymətləndirilməsi ilə məhdudlaşmır, həm də pedaqoji kadrların peşəkar inkişafı, tədris metodları, idarəetmə və resursların səmərəli istifadəsini əhatə edir. Təhsilin keyfiyyətinin yüksəldilməsi strateji planlaşdırma, innovativ yanaşmalar və müasir monitorinq mexanizmlərinin tətbiqi ilə mümkün olur və bu sahədə elmi və praktik tədqiqatların əhəmiyyəti xüsusi vurğulanır.

Açar sözlər. *keyfiyyətin təmin olunması, keyfiyyət göstəriciləri, təhsilin keyfiyyəti, keyfiyyətin idarə edilməsi, keyfiyyətin qiymətləndirilməsi*

Abstract. The article examines the functions of the school in terms of ensuring the quality of education in terms of the challenges of the modern era, the issues of organizing the educational process in accordance with modern requirements, eliminating negative factors, and objective assessment of the activities of educational personnel and students' achievements. Education is not limited only to the transfer of knowledge, but is also a complex process that ensures intellectual, moral and social development. Training methods and content should be improved based on modern approaches, and pedagogical activity should be supported by strategic planning, monitoring and management mechanisms. The reforms carried out in the Azerbaijani education system are related to the country's socio-economic development strategy and aim to raise a competitive, creative and highly educated young generation. The importance of ensuring the quality of education with a scientific, systematic and integrated approach is also emphasized. Quality is not limited only to the assessment of learning outcomes, but also includes the professional development of pedagogical staff, teaching methods, management and efficient use of resources. Improving the quality of education is possible through strategic planning, innovative approaches, and the application of modern monitoring mechanisms, and the importance of scientific and practical research in this area is particularly emphasized.

Keywords: *quality assurance, quality indicators, quality of education, quality management, quality assessment*

Аннотация. В статье рассматриваются вопросы обеспечения качества образования с точки зрения вызовов современности, функции школы, организация учебно-воспитательного процесса в соответствии с современными требованиями, устранение негативных факторов, а также объективная оценка деятельности работников образования и достижений учащихся.

Образование не ограничивается лишь передачей знаний, а представляет собой комплексный процесс, обеспечивающий интеллектуальное, нравственное и социальное развитие личности. Методы и содержание обучения должны совершенствоваться на основе современных подходов, а педагогическая деятельность – поддерживаться стратегическим планированием, мониторингом и управленческими механизмами.

Реформы, проводимые в системе образования Азербайджана, связаны со стратегией социально-экономического развития страны и направлены на

воспитание конкурентоспособного, творческого и высокообразованного молодого поколения. Также подчеркивается важность обеспечения качества образования на научной основе, с системным и единым подходом.

Качество образования не ограничивается только оцениванием результатов обучения, но включает профессиональное развитие педагогических кадров, методы преподавания, управление и эффективное использование ресурсов.

Повышение качества образования возможно посредством стратегического планирования, внедрения инновационных подходов и современных механизмов мониторинга, при этом особое значение имеют научные и практические исследования в данной области.

Ключевые слова: *обеспечение качества, показатели качества, качество образования, управление качеством, оценивание качества*

Cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması müasir təhsil sisteminin əsas məqsədlərindən biri hesab olunur. Bu məqsədə nail olmaq üçün məktəbin funksiyalarının yenidən müəyyənləşdirilməsi, təlim-tərbiyə prosesinin müasir tələblərə uyğun qurulması, təhsil prosesinə mənfi təsir göstərən amillərin aradan qaldırılması və şagirdlərin təlim nailiyyətlərinin obyektiv qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda təhsil xidmətlərinin səmərəliliyinin müəyyənləşdirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi və müəllimlərin peşəkar fəaliyyətinin təkmilləşdirilməsi də təhsil sisteminin qarşısında duran əsas vəzifələrdəndir. Bu kimi məsələlər uzun illərdir ki, təhsil işçilərini, pedaqoji sahənin tədqiqatçılarını, metodistləri və idarəetmə sahəsində çalışan mütəxəssisləri daim düşündürən aktual problemlərdən biri olmuşdur və bu gün də öz aktuallığını qoruyub saxlayır.

Müasir dövrdə təhsil sistemi yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır. Təhsil insanın intellektual, mənəvi və sosial inkişafına xidmət edən kompleks bir prosesdir. Bu baxımdan məktəbin əsas funksiyalarından biri də şəxsiyyətin hərtərəfli inkişafına şərait yaratmaq, onun yaradıcı potensialını üzə çıxarmaq və müasir cəmiyyətin tələblərinə uyğun bilik, bacarıq və səriştələrin formalaşdırılmasını təmin etməkdir. Bu məqsədlə təlim prosesinin məzmunu və təşkilati formaları daim təkmilləşdirilməli, tədris metodları yenilənməli və pedaqoji fəaliyyət müasir yanaşmalar əsasında qurulmalıdır.

XXI əsrdə təhsil sahəsində baş verən sürətli dəyişikliklər və qloballaşma prosesləri təhsil sisteminin inkişafına yeni tələblər irəli sürür. İnformasiya cəmiyyətinin formalaşması, texnologiyaların sürətli inkişafı və əmək bazarının dəyişən tələbləri təhsilin keyfiyyətinə daha yüksək standartlar qoyur. Bu baxımdan Azərbaycanda təhsil sahəsində həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi inkişaf strategiyası ilə sıx bağlıdır və əsas məqsəd müasir dünyaya inteqrasiya edən, yüksək bilik və bacarıqlara malik, rəqabətqabiliyyətli gənc nəslin yetişdirilməsindən ibarətdir.

Hazırda Azərbaycan pedaqoji elmində və pedaqoji praktikada “təhsilin keyfiyyəti” anlayışına müxtəlif yanaşmalar mövcuddur. Bəzi tədqiqatçılar təhsilin keyfiyyətini təlim nəticələrinin səviyyəsi ilə əlaqələndirir [6], digərləri isə bu anlayışı daha geniş kontekstdə – təhsil mühitinin təşkili, pedaqoji fəaliyyətin səmərəliliyi, idarəetmə mexanizmləri [1-2] və təhsil prosesinin ümumi nəticələri ilə əlaqələndirirlər. Bu yanaşmaların müxtəlifliyi isə təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi prosesində müəyyən çətinliklərin

yaranmasına səbəb olur. Ona görə də təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün elmi əsaslara söykənən, vahid və sistemli yanaşmanın formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Təhsilin keyfiyyətinin təmin olunması və yüksəldilməsi təhsil müəssisələrinin fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Bu istiqamətdə aparılan işlər yalnız təlim nəticələrinin qiymətləndirilməsi ilə məhdudlaşmamalı, həm də təhsil prosesinin bütün komponentlərini – məzmunu, metodları, idarəetmə mexanizmlərini, maddi-texniki bazanı və pe-daqoji kadrların peşəkar inkişafını əhatə etməlidir. Təhsil müəssisələrində keyfiyyətin təmin olunması məqsədilə daxili və xarici monitorinq sistemlərinin yaradılması, təhsil prosesinin müntəzəm qiymətləndirilməsi və əldə olunan nəticələrin təhlili xüsusi əhəmiyyət daşıyır.

Təhsil sahəsində aparılan islahatların uğuru, ilk növbədə, cəmiyyətdə baş verən sosial-iqtisadi və mədəni proseslərlə sıx bağlıdır. Təhsil sistemi cəmiyyətin inkişaf səviyyəsinə uyğun olaraq daim yenilənməli və müasir tələblərə cavab verən mexanizmlərlə zənginləşdirilməlidir. Bu baxımdan təhsil müəssisələrinin inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir [3]. İnkişaf strategiyası təhsil müəssisəsinin fəaliyyət istiqamətlərini müəyyənləşdirir, mövcud problemlərin həlli yollarını göstərir və təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Keyfiyyət təsadüfi şəkildə yaranan bir göstərici deyil. O, məqsədyönlü və sistemli fəaliyyətin nəticəsi kimi formalaşır. Bu baxımdan strateji planlaşdırma təhsil sistemində fəaliyyət göstərən hər bir müəssisənin inkişafının əsas mexanizmlərindən biri hesab olunur. Güclü və səmərəli strateji planlaşdırma təhsil müəssisələrində idarəetmənin təkmilləşdirilməsinə, təlim prosesinin daha səmərəli təşkilinə və təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır. Strateji planlaşdırma eyni zamanda təhsil müəssisələrinin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyə, mövcud resurslardan səmərəli istifadə etməyə və innovativ yanaşmaların tətbiqinə şərait yaradır.

Bütün bunlar göstərir ki, təhsilin keyfiyyətinin təmin olunması müasir təhsil sisteminin əsas vəzifələrindən biridir və bu proses kompleks yanaşma tələb edir. Təhsil sistemində keyfiyyətin yüksəldilməsi yalnız pedaqoji fəaliyyətin təkmilləşdirilməsi ilə deyil, həm də səmərəli idarəetmə, strateji planlaşdırma və müasir monitorinq mexanizmlərinin tətbiqi ilə mümkün olur. Bu baxımdan təhsilin keyfiyyəti probleminin elmi və praktiki aspektdən araşdırılması pedaqoji elmin mühüm istiqamətlərindən biri kimi çıxış edir və təhsil sisteminin davamlı inkişafına xidmət edir.

Təhsil müəssisələrinin fəaliyyətinin keyfiyyətinin təmin olunmasında işçilərin, xüsusilə pedaqoji işçilərin peşə fəaliyyətinin səmərəliliyi əsas rol oynayır. Təhsil müəssisələrində işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün müxtəlif göstəricilər tətbiq olunur. Rəhbərlik üçün bu göstəricilər arasında təhsil alanların fərdi nailiyyətlərinin dinamikası və məktəb daxilində pedaqoji işçilərlə qarşılıqlı fəaliyyətin təşkili yer alır. Pedaqoji işçilər üçün isə fərdi və qrup layihələrinin həyata keçirilməsi, sosial fəaliyyətlər, fərdi nailiyyətlərin monitorinqi, valideynlərlə qarşılıqlı əlaqələrin təşkili, şagirdlərin olimpiada və müsabiqələrdə iştirakı və əsas təhsil proqramının hazırlanması və həyata keçirilməsində iştirak kimi göstəricilər nəzərdə tutulur. Bu göstəricilər pedaqoji işçilərin fəaliyyətini qiymət-

ləndirməyə və təhsilin keyfiyyətini ölçməyə imkan verir.

Statistik göstəricilər pedaqoji işçilərin fəaliyyətinin kəmiyyət ölçüləri ilə təsvirini təmin edir və təhsil prosesi nəticələrinə dair obyektiv məlumat yaradır. Bu göstəricilər vasitəsilə pedaqoji işlərin peşəkarlıq səviyyəsi, onların işinin səmərəliliyi və təhsil alanların nailiyyətləri barədə məlumat əldə etmək mümkündür. Bununla belə, yalnız kəmiyyət göstəricilərinə əsaslanan qiymətləndirmə təhsilin keyfiyyətini artırmaq üçün kifayət etmir. Əsas problemlərdən biri statistik göstəricilər ilə təhsil keyfiyyəti arasında birbaşa əlaqənin olmamasıdır. Optimal səviyyədə kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməməsi və əmək haqqının hesablanmasında sadələşdirilmiş alqoritmlərin tətbiqi də əhəmiyyətli çətinliklər yaradır.

Keyfiyyətin idarə edilməsində statistik yanaşmanın tətbiqi sahəsində öncül tədqiqatçılar Uolter Şuxart [5] və Edvard Deminqin [4] işləri xüsusilə əhəmiyyətlidir. Onlar göstərmişdir ki, yalnız kəmiyyət göstəricilərinə əsaslanan işçilərin fəaliyyətinin qiymətləndirilməsi təhsil təşki-latlarında mənfi nəticələr yarada bilər.

Buradan da göründüyü kimi, beynəlxalq təcrübədə də, yalnız kəmiyyət göstəricilərinə əsaslanan işçilərin qiymətləndirilməsi təşkilat üçün mənfi nəticələr doğura bilər. Səmərəli qiymətləndirmə həm kəmiyyət, həm də keyfiyyət göstəricilərini, işçinin peşə bacarıqlarını və təhsil alanların nailiyyətlərini əhatə etməlidir.

Azərbaycan təhsil sistemində pedaqoji işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün müəyyən edilmiş normativ-hüquqi baza və statistik göstəricilər səmərəli qərarvermə üçün baza rolunu təmin edir. Özünüyoxlama göstəriciləri tədris prosesinin təşkilati və maddi-texniki təminatı, təhsil alanların bilik və bacarıqlarının səviyyəsi, məktəbəqədər və ümumi təhsil müəssisələrində keyfiyyətin monitorinqini əhatə edir. Statistik göstəricilər təhsil müəssisələrinin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək, reytinqləri müəyyən etmək və idarəetməni optimallaşdırmaq üçün əsas rol oynayır.

Məktəb mühitinin bütün səviyyələrində təhsil və təlimin keyfiyyətinin yüksəldilməsi üçün kurikulumun tətbiqi ilə yanaşı, ixtisaslı və motivasiyalı müəllimlərin fəaliyyətinə üstünlük verilməlidir. Müasir məktəblərdə əlavə sahələr, o cümlədən idman, incəsənət və musiqi, şagirdlərin fərdi bacarıqlarını inkişaf etdirməyə xidmət etməli, müvafiq avadanlıq və müəllim resursları təmin edilməlidir.

Aparılmış araşdırmalar nəticəsində bir daha sübut olunur ki, müasir praktikada “təhsilin keyfiyyəti” anlayışı iki komponentdən ibarətdir: təhsil müəssisələrinin texnoloji və təşkili fəaliyyəti, həmçinin təhsil alanların əldə etdiyi bilik, bacarıq və sıriştələr. Bu yanaşma təhsil keyfiyyətinin həm şərtlərini, həm də nəticələrini əhatə etməyə imkan verir. Hazırkı idarəetmə və monitorinq sistemləri üçün kəmiyyət göstəricilərini keyfiyyət parametrləri və pedaqoji strategi-yalarla inteqrasiya etmək prioritet istiqamətdir.

Beləliklə, işçilərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi yalnız statistik göstəricilərə əsaslanmaqla yetərli deyil. Səmərəli qiymətləndirmə sistemi həm kəmiyyət, həm keyfiyyət ölçülərini, həm də təhsil alanların nailiyyətlərini nəzərə almalıdır. Bu yanaşma Azərbaycan təhsil sistemində normativ-hüquqi baza və praktik tədbirlərlə birləşdirilərək təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Problemin aktuallığı. Təhsil sistemində keyfiyyətin təmin olunması və təhsil işçilərinin fəaliyyətinin obyektiv qiymətləndirilməsi cəmiyyətin rəqabətqabiliyyətli, yüksək bilik və bacarıqlara malik nəslin yetişdirilməsi üçün əsas şərtdir. Təhsilin keyfiyyətinə təsir edən amillərin çoxşaxəli olması, həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin inteqrasiya olunmuş qiymətləndirilmə mexanizmlərinin zəruriliyini aktuallaşdırır.

Problemin elmi yeniliyi. Aparılmış elmi-nəzəri təhlil əsasında təhsil işçilərinin fəaliyyətinin qiymətləndirilməsi üçün kəmiyyət və keyfiyyət göstəricilərini inteqrasiya olunmuş model təklif edilir.

Problemin praktik əhəmiyyəti. Məqalə təhsil tədqiqatçıları, doktorantlar, magistrantlar və təhsili idarəedənlər üçün faydalı elmi-metodik baza rolunu oynaya bilər.

Ədəbiyyat

1. Cavadov İ.A. Müəllimin pedaqoji fəaliyyətinin və peşəkarlıq səviyyəsinin təhsilin keyfiyyətinə təsiri // Bakı: ARTİ-nin Elmi əsərləri, – 2026. № 1, –s. 8-14.
2. İlyasov M. İ. İnnovasiyalı təhsil mühiti məktəbdə təlim müvəffəqiyyətinin yüksəldilməsi amili kimi // –Bakı: ARTİ-nin Elmi əsərləri, – 2024. № 6, –s. 41-47.
3. Javadov I.A. General pedagogıcal problems of plannıng the actıvıtıes of general educatıonal ınstıtutıons // Materials of the international scientific and practical conference “Psychology in the Central Asian region: current state and development prospects” at the National Pedagogical University of Uzbekistan named Nizami – Tashkent, –March 28 2026. –p.59-69
4. Deming, W. E. *Improvement of quality and productivity through action by management.* Journal of Quality Technology, –1991. 23(3), – p. 95-111.
5. Shewhart, W. A. *The control chart and the economic design of control charts. The Bell System Technical Journal, –1924. 3*(1), – p. 3-16.
6. Schleicher, A. World Class: How to Build a 21st - Century School System. – Paris: OECD Publishing. – 2018. – 297 p.

Redaksiyaya daxil olub: 08.04.2026

UOT 37.01

Sahib Əmirxan oğlu Məmmədov
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-7064-726X
E-mail: sahib.mammadov@mdu.edu.az

İlahə Yasin qızı Əmrahzadə
Mingəçevir Dövlət Universitetinin müəllimi
https://orcid.org/0009-0004-9491-6315
E-mail: ilahe.emrahzade@mdu.edu.az

https://doi.org/10.69682/arti.2026.93(3).25-28

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN PSİXOLOJİ SAĞLAMLIĞI VƏ FƏRDİ TƏHSİL MƏSƏLƏLƏRİ

Sahib Amirkhan Mammadov
associate professor at Mingachevir State University,
doctor of philosophy in pedagogy

Ilaha Yasin Amrahzade
lecturer at Mingachevir State University

PSYCHOLOGICAL HEALTH OF STUDENTS AND ISSUES OF INDIVIDUAL EDUCATION IN GENERAL EDUCATION SCHOOLS

Сахиб Амирхан оглу Мамедов
доцент Мингечевирского Государственного Университета,
доктор философии по педагогике

Илаха Ясин гызы Амрахзаде
преподаватель Мингячевирского Государственного Университета

ПСИХОЛОГИЧЕСКОЕ ЗДОРОВЬЕ УЧАЩИХСЯ И ВОПРОСЫ ИНДИВИДУАЛЬНОГО ОБУЧЕНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Xülasə. Araşdırmada müstəqillik dövründə Azərbaycanın təhsil sistemində baş verən paradiqma dəyişiklikləri fonunda humanistləşmə və demokratikləşmə prinsiplərinin tətbiqi məsələləri fundamental şəkildə tədqiq edilir. Müasir dövrdə təhsil artıq sadəcə bilik ötürücüsü funksiyasını deyil, şəxsiyyətin özünüreallaşdırması üçün əlverişli psixoloji ekosistemin qurulması vəzifəsini öz üzərinə götürür. Pedaqoji fəaliyyətin səmərəliliyi, müəllimin bu fərdi fərqləri nə dərəcədə nəzərə alması və hər bir uşaqla onun fərdi psixoloji dilində ünsiyyət qura bilməsi ilə ölçülür. Araşdırmanın əsas hissələrindən biri yeniyetməlik dövründə ortaya çıxan sosiogen aqressiya və deviant davranışın köklərinin araşdırılmasıdır. Bu araşdırma müasir pedaqoq və psixoloqlar üçün strateji bir yol xəritəsi təklif edir: şagirdin intellektual inkişafı ilə onun emosional-sosial rifahı arasında balans qorunmalıdır. Çətin uşaqların vaxtında aşkarlanması, onların potensialının reabilitasiyası və inklüziv yanaşma ilə cəmiyyətə inteqrasiyası təlimin prioritet hədəfi kimi müəyyənləşdirilir. Humanist təhsil mühiti yalnız akademik uğuru deyil, həm də ləyaqətli, mənəvi baxımdan sağlam və harmonik şəxsiyyətin formalaşmasını təmin edən yeganə yoldur.

Açar sözlər: *təhsilin humanistləşdirilməsi, fərdi-psixoloji xüsusiyyətlər, temperament tipləri, yeniyetmə aqressivliyi, deviant davranış, müəllim-şagird münasibətləri, fərdi təhsil ehtiyacları, sosiogen amillər*

Abstract. The study fundamentally examines the implementation of the principles of humanization and democratization in the education system of Azerbaijan within the context of paradigm shifts during the period of independence. In the contemporary era, education no longer serves solely as a means of knowledge transmission; it also assumes the role of creating a supportive psychological ecosystem for individual self-realization. The effectiveness of pedagogical activity is determined by the extent to which teachers consider individual differences and are able to communicate with each learner through their unique psychological framework. One of the central aspects of the study is the investigation of the roots of sociogenic aggression and deviant behavior emerging during adolescence. The research proposes a strategic framework for modern educators and psychologists, emphasizing the importance of maintaining a balance between students' intellectual development and their emotional and social well-being. The early identification of "at-risk" children, the rehabilitation of their potential, and their integration into society through inclusive approaches are defined as key priorities of the educational process. A humanistic educational environment is presented as the primary means of fostering not only academic success but also morally sound and harmoniously developed individuals.

Keywords: *humanization of education, individual psychological characteristics, temperament types, adolescent aggression, deviant behavior, teacher–student relationships, individual educational needs, sociogenic factors*

Аннотация. В исследовании фундаментально рассматриваются вопросы реализации принципов гуманизации и демократизации в системе образования Азербайджана в условиях парадигмальных изменений периода независимости. В современную эпоху образование выполняет не только функцию передачи знаний, но и берет на себя задачу формирования благоприятной психологической экосистемы для самореализации личности. Эффективность педагогической деятельности определяется тем, насколько учитель учитывает индивидуальные особенности обучающихся и способен выстраивать взаимодействие с каждым учеником на уровне его индивидуального психологического восприятия. Одним из ключевых аспектов исследования является анализ истоков социогенной агрессии и девиантного поведения, проявляющихся в подростковом возрасте. Работа предлагает стратегическую модель для современных педагогов и психологов, основанную на необходимости поддержания баланса между интеллектуальным развитием учащихся и их эмоционально-социальным благополучием. Ранняя диагностика «трудных» детей, реабилитация их потенциала и их интеграция в общество на основе инклюзивного подхода рассматриваются как приоритетные задачи образовательного процесса. Гуманистическая образовательная среда выступает важным фактором формирования не только академически успешной, но и нравственно зрелой, гармонично развитой личности.

Ключевые слова: *гуманизация образования, индивидуально-психологические особенности, типы темперамента, подростковая агрессия, девиантное поведение, отношения «учитель–ученик», индивидуальные образовательные потребности, социогенные факторы*

Respublikamızın müstəqillik əldə edilməsindən sonra bütün sahələrdə olduğu kimi, təhsil sistemində də əsaslı islahatların aparılması zərurəti meydana çıxdı. Bu islahatların ana xəttini təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsi təşkil edir. Təhsilin humanistləşdirilməsi prinsipi həm dövlət sənədlərində, həm də pedaqoq və psixoloqların əsərlərində zəruri şərt kimi birmənalı şəkildə irəli sürülmüşdür.

Demək olar ki, bütün psixologiya məktəbləri, xüsusilə humanist psixologiyanın nümayəndələri O.Olport, A.Maslou, K.Locers və b. hesab edirlər ki, cəmiyyətin yenidən qurulmasının, dəyişməsinin əsas istiqamətlərindən biri dünyaya gələn hər bir uşağa həyatı boyu öz qabiliyyətlərini mümkün qədər inkişaf etdirməyə və onları cəmiyyətin inkişafı və öz xeyri reallaşdırmağa imkan yaradılmasından ibarət olmalıdır. Humanist psixologiyanın diqqət mərkəzində öz potensialını şəxsi və ictimai yüksəliş üçün gerçəkləşdirən harmonik və səriştəli şəxsiyyətin tərbiyəsi, təhsili və inkişafı durar. Bu gün təhsil sistemində həyata keçirilən təhsilin humanistləşdirilməsi də ilk növbədə şagirdin təlim prosesində inkişaf etdirilməsini, özünü bir şəxsiyyət kimi təsdiq etməsi üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Bu vəzifələrin həyata keçirilməsi üçün biz pedaqoq və psixoloqlar ilk növbədə şagirdlərin psixoloji xüsusiyyətlərinin və fərdi təhsil ehtiyaclarının müəyyənləşdirilməsi məsələlərini diqqət mərkəzində saxlamalıyıq.

Ayrı-ayrı yaş dövrünün özünəməxsus xüsusiyyətləri olduğu kimi, ayrı-ayrı uşağında yaşıdından, həmçinin oğlanı qızdan fərqləndirən xüsusiyyətlər olur. Bu xüsusiyyətləri

nəzərə almadan təlim-tərbiyə prosesində yüksək nəticələr qazanmaq mümkün deyil. Bəzən müəllimlər şagirdləri "açıq kitaba" bənzədirlər və elə zənn edirlər ki, onu öyrənmək asan işdir. Əslində isə hər bir uşaq böyük psixoloq alim Ş.Ağayevin təbirincə desək, "özlüyündə tilsimli qaladır", "sirli aləmdir", " xüsusi açar tələb edən nadir qıfıldır". Hansı cinsə, yaş dövrünə, temperamentə və sinir sistemi tipinə malik olmasından, hansı mikro və makro mühitdə böyüməsindən, həyatında nə kimi tərbiyəvi qüvvələrin, şəxsi və kollektivlərin təsirinə məruz qaldığından, fitrətindəki qabiliyyətlərdən və s. amillərdən asılı olaraq uşaqlar birbirindən kəskin surətdə fərqlənirlər. Bunun nəticəsidir ki, eyni yaş qrupunda, eyni ailədə, eyni sinifdə, eyni kollektivdə, hətta bütün dünyada elə iki uşaq tapılmaz ki, onların duyma və qavrama qabiliyyəti, marağı, düşüncə tərzi, hisslərinin dərinliyi, xarakter əlamətləri, təbiətdən, varisdən keçmiş quruluş və funksiya fondu tam üst-üstə düşsün. Ona görə də deyə bilərik ki, nə qədər insan var bir o qədər fərdi xüsusiyyətlər var. Şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərindən hər birinin fəaliyyət prosesində öz yeri, öz vəzifəsi vardır.

Psixoloqlar insanları, o cümlədən uşaqlar da bura daxil olmaqla, fərdi xüsusiyyətlərinə görə dörd temperament tipinə bölmüşlər: xolerik, sanqvinik, fleqmatik, melanxolik. Fərdi fərqlər bu tiplərin xarakterindən irəli gəlir ki, müəllim və tərbiyəçilər bunu yaxşı bilməlidirlər.

Müəllim və tərbiyəçilər uzun müddətli müşahidələr nəticəsində bu tipləri öyrənməli və buna müvafiq olaraq hərəkət etməlidirlər. Tərbiyə işini məhz bu şəkildə quran müəllim və sinif rəhbərləri sinifdəki uşaqların ailələrini və özlərini dərindən tanıyırlar, şagirdlərdən kimin utancaq və ya şıltaq, kimin diribaş və ya süst, kimin hövsələli və ya hövsələsiz, kimin coşğun və ya sakit olduğunu, kollektivin həyatı ilə hansı uşağın nə dərəcədə bağlandığını, kollektivin fəaliyyətində kimin necə iştirak etdiyini, eləcə də kimə sözlə, kimə sərt baxışla, kimə mənalı təbəssümlə, kimə ciddi tənbehlə təsir göstərməyin daha yaxşı səmərə verəcəyini dəqiq bilir və buna görə də lazım gələndə hər kəslə "öz dilində "danışmağı bacarırlar. Nəticədə onların rəhbərlik etdikləri siniflərdəki hər bir uşaq mənsub olduğu kollektivin ləyaqətli üzvü səviyyəsinə yüksələ bilir.

Müəllim-şagird münasibətləri müasir şəraitdə xüsusi məzmun və əhəmiyyət kəsb edir. Bu münasibətlər təkcə müəllimin bilik verməsi, öyrətməsi, şagirdlərin isə bu bilikləri mənimsəməsi, öyrənməsi prosesindən ibarət olmayıb, böyük tərbiyəvi əhəmiyyət kəsb etməli, şagird şəxsiyyətinin inkişafına, onlarda yüksək əxlaqi keyfiyyətlərin yaranması və formalaşmasına xidmət etməlidir. Biz pedaqoqlar dərs dediyimiz şagirdlərin psixoloji və fərdi xüsusiyyətlərini yetərincə qiymətləndirmədiyimizdən istər-istəməz yetirmələrimiz arasında "çətin" tərbiyə olunan olunan uşaqlarla tez-tez üzləşirik. Məktəbdə intizamın pozulması, davranış qaydalarına əməl edilməməsi uşaq cinayətkarlığına gətirib çıxarır.

Pedaqoji nəzarətdən kənarda qalan "çətin" tərbiyə olunanlar bəzən mikromitin mənfi təsiri altına düşür. Böyüklərdə olduğu kimi, uşaqlar arasında da intizamsızlıq və cinayətkarlığın əksər hallarda spirtli içkilərdən istifadə edilməsi ilə əlaqədardır. Bu da adətən, ya uşağın ailə şə-raiti ilə, ya da onun düşdüyü mikromühitlə əlaqədardır. Hüquq qaydalarını pozmuş yetkinlik yaşına çatmayanların 30-40% valideynlərin və ailənin digər yaşlı üzvlərinin sərxoşluğu, dava-dalaşı və qeyri-əxlaqi davranışının qurbanı olmuşlar.

Yetkinlik yaşına çatmamış olan cinayətkarların hər beş nəfərindən birinin ailəsində əvvəllər məhkumluğa cəlb edilmiş və yaxud mütəmadi olaraq spirtli içkilərdən sui istifadə edən şəxslərin olduğu qeyd edilmişdir.

Yuxarıda qeyd edilən məqamlara istinad edərək deyə bilərik ki, "çətin" tərbiyə edilən uşaqların əksəriyyətinin bu duruma düşməsinin əsas səbəbkarları, məhz valideynlər və onların yaşayış tərzləridir. Tarix boyu aqressivlik və zorakılıq bütün cəmiyyətlərin aktual problemlərindən biri olmuş və müasir dövrdə də vacib olan bir məsələ kimi diqqət mərkəzindədir. Cəmiyyətdə baş verən cinayət halları, müharibələr, sosial-iqtisadi şəraitin çətinliyi, insan münasibətlərində ortaya çıxan uyğunsuzluq və s. bu kimi məsələlər göstərir ki, aqressivlik insanların psixoloji xüsusiyyətlərinin əsas amillərindən biri kimi özünü həmişə neqativyöndə təzahür etdirir.

Son zamanlar qəddarlıqla müşayiət olunan zorakılıq hadisələrinin, münaqişələrin, vandalizmin dinamik artımı bütün dünyada narahatlıq doğurur. Aparılmış tədqiqatlarda, müşahidələrdə aqressivliyin artma səbəbləri kimi medianın fəaliyyətini, televiziyanı, internet resurslarını, mənəvi dəyərlərin deformasiyaya uğramasını və ən başlıcası da yetişməkdə olan gənc nəslin psixoloji xüsusiyyətlərini və fərdi təhsil ehtiyaclarını və s. göstərmək olar ki, bütün bunlar cəmiyyətin sabitliyini pozur, insan amilini hər hansı gözlənilən təhlükə qarşısında qoyur. Bütün bu neqativ təsirlər keçid yaş dövrü olan yeniyetməlik yaş dövründə daha qabarıq əks olunur.

Faktlar göstərir ki, müasir dövrdə yeniyetmələr arasında aqressivliyin artması cəmiyyətin aktual problemlərindən birinə çevrilmiş və yeniyetmə aqressivliyinin faizi durmadan artır. Çox təəssüf ki, kobudluq, ədəbsizlik, səsin tonunun yüksəldilməsi gündəlik həyatımızda ünsiyyət formasına çevrilib və bu hallarla müşahidə olunan aqressiya demək olar ki, sosiogen xarakter alıb.

Müasir dövrdə yeniyetmə aqressivliyinin qarşısının alınması üçün müxtəlif həlli yolları göstərilsə də yeniyetmənin fərdi-psixoloji xüsusiyyətləri, onun yaşadığı milli-etnik zəmin, ailə şəraitinin spesifikliyi bu problemin standart üsullarla həllini çətinləşdirir. Yeniyetmələrdə özünü göstərən aqressiv davranışın təzahürləri və fəsadları aradan qaldırılmazsa bu, davranış formasının asosial və deviant davranışa keçməsi ehtimalı artır və yeniyetmə əsas fəaliyyət növü olan təlim fəaliyyətindən uzaqlaşır, cəmiyyətə faydalı vətəndaş yetişdirmək vəzifəsi arxa plana keçirilir. Bütün bunlarla yanaşı yeniyetməlik yaş dövründə meydana gələn aqressiya halları yalnız qeyd olunan amillərdən qaynaqlanmır, həm də yeniyetmənin mövcud situasiyaya münasibətinin təzahürü kimi də özünü göstərə bilir.

Qeyd olunan faktlar göstərir ki, yeniyetmələrdə aqressivliyin mexanizminin, yaranma səbəblərinin öyrənilməsi və onun fəsadlarının aradan qaldırılması üçün müvafiq yol və vasitələrin tapılması müasir dövr üçün xüsusi ak-tuallıq kəsb edir. Bunun üçün hər şeydən əvvəl biz şagirdlərin psixoloji xüsusiyyətlərini və fərdi təhsil ehtiyaclarını müəyyənləşdirilməsi üçün var gücümüzü səfərbərliyə almalıyıq. Unutmayaq ki, belə uşaqların vaxtında aşkarlanması, dəstəklənməsi və inkişafının təmin edilməsi təlimin prioritet məqsədlərindəndir.

Problemin aktuallığı. Şagirdlərin psixoloji sağlamlığı və fərdi təhsil məsələləri hazırda ən aktual problemlərdəndir.

Problemin yeniliyi. Şagirdlərin psixoloji sağlamlığı və fərdi təhsil məsələləri araşdırılır.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

Ədəbiyyat:

1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali məktəblər üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. Bakı: Mütərcim, -2021. – 608 s.
2. Ağayev, Ş.A. Uşaqların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi./ Ş.A. Ağayev. -Bakı: Maarif, 2002. – 124 s.

Redaksiyaya daxil olub: 10.04.2026

UOT 37.01

Çinarə Məmməd qızı Qəhrəmanova
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti,
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.orc/0000-0002-5928-9019
E-mail: chinara83@gmail.com

https://doi.org/10.69682/arti.2026.93(3).29-35

İQTİSADÇI KADRLARIN HAZIRLANMASINDA İŞGÜZAR KOMMUNİKASİYANIN ROLU VƏ MÖVCUD PROBLEMLƏR

Chinara Mammad Gahramanova
associate professor at Azerbaijan State University of Economics,
doctor of philosophy in philology

THE ROLE OF BUSINESS COMMUNICATION IN THE TRAINING OF ECONOMIC SPECIALISTS AND EXISTING PROBLEMS

Чинара Мамед гызы Гахраманова
доцент Азербайджанского Государственного Экономического Университета,
доктор философии по филологии

РОЛЬ ДЕЛОВОЙ КОММУНИКАЦИИ

В ПОДГОТОВКЕ ЭКОНОМИЧЕСКИХ КАДРОВ И СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ

Xülasə. İnformasiya məkanının hökm sürdüyü müasir dövrdə informasiya mübadiləsi mütəxəssisin əsas göstəricilərindən biridir. İşgüzar nitq işgüzar imicin əsas komponentlərindən biridir. Bu gün iqtisadçı tələbələr işgüzar şifahi ünsiyyət və işgüzar yazışma bacarıqlarına malik olmalıdırlar. İqtisadçı üçün düzgün danışmaq bacarığı zəruridir, çünki bu peşə müştərilərlə işləməyə və dövlət qulluqçuları ilə danışıqlar aparmağa əsaslanır. Bu fəaliyyət sahəsi böyük həcmli iqtisadi və hüquqi sənədləri təhlil etmək və əsas məzmunu xidmət sifarişçisinə aydın şəkildə çatdırmaq bacarığını tələb edir. Buna görə də iqtisadçı tələbə təhsil prosesi zamanı müəyyən kommunikativ bacarıqlar formalaşdırmalı, işgüzar yazışmanın tərtibatına və məzmununa dair tələbləri bilməlidir.

Açar sözlər: *iqtisadiyyat, işgüzar kommunikasiya, nitq mədəniyyəti, peşəkar ünsiyyət, ünsiyyət etikası.*

Abstract. In the modern era dominated by the information space, the exchange of information is one of the key indicators of a specialist's professional competence. Business speech is one of the main components of a professional business image. Today, students of economics must possess skills in oral business communication and business correspondence. For an economist, the ability to speak correctly and clearly is essential, since this profession is based on working with clients and conducting negotiations with government officials. This field of activity requires the ability to analyze large volumes of economic and legal documents and to convey their core content to the client in a clear and accessible manner. Therefore, during the educational process, an economics student must develop specific communicative skills and be familiar with the requirements for the structure and content of business correspondence.

Keywords: *economics, business communication, speech culture, professional communication, communication ethics.*

Аннотация. В современный период доминирования информационного пространства обмен информацией является одним из ключевых показателей профессиональной деятельности специалиста. Деловая речь выступает одним из основных компонентов делового имиджа. Сегодня студенты-экономисты должны обладать навыками устной деловой коммуникации и деловой переписки. Для экономиста умение правильно говорить является необходимым, поскольку данная профессия предполагает работу с клиентами и ведение переговоров с государственными служащими. Эта сфера деятельности требует умения анализировать большие объёмы экономических и юридических документов и ясно доводить их основное содержание до заказчика услуг. Поэтому в процессе обучения студент-экономист должен сформировать определённые коммуникативные навыки, а также знать требования к оформлению и содержанию деловой корреспонденции.

Ключевые слова: *экономика, деловая коммуникация, культура речи, профессиональное общение, этика общения.*

Giriş. İşgüzar ünsiyyət iqtisadçılara peşə fəaliyyətlərini təşkil etməyə, bir-birlərini tanımağa, şəxsiyyətlərarası münasibətləri formalaşdırmağa və inkişaf etdirməyə imkan verir. İşgüzar nitqin əsas prinsip və normalarına riayət olunması hər bir iqtisadçının uğurunun təminatıdır. Lakin intensiv şəkildə inkişaf edən peşə təhsili sistemi müasir cəmiyyətin tələb etdiyi fəaliyyət və inkişaf səviyyəsini tam təmin edə bilmir. İqtisadçı tələbələrin təliminin məzmununda və

texnologiyasında keyfiyyətcə dəyişikliklərə ehtiyac vardır.

İqtisadçılarda işgüzar nitq mədəniyyətinin formalaşdırılmasının əsas problemlərindən biri iqtisadiyyat təhsili zamanı bu aspektə kifayət qədər diqqət yetirilməməsidir. Çox vaxt tələbələr işgüzar ünsiyyət bacarıqlarının inkişafı üçün lazımi sayda praktik məşğələlər səmərəli almırlar ki, bu da həmkarlar və müştərilərlə ünsiyyət prosesində fikirlərini səmərəli və inandırıcı şəkildə ifadə edə bilməmələrinə gətirib çıxarır. Bir çoxları qanunları və qaydaları bilmənin uğurlu hüquqi fəaliyyət üçün kifayət etdiyini düşünür, lakin effektiv ünsiyyətin peşə uğurunun əsas amillərindən biri olduğunu dərk etmirlər. Digər problem isə işgüzar ünsiyyət mədəniyyətinin tədrisində fərdi yanaşmanın olmamasıdır. Hər bir tələbə və iqtisadçı təlimin səmərəliliyinə təsir göstərə bilən fərdi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər nəzərə alınmalı və fərdi təlim proqramları hazırlanmalıdır. Nəhayət, problemlərdən biri də tədris prosesinin səmərəliliyini artırmaq üçün işgüzar ünsiyyət mədəniyyətinin öyrədilməsində müasir texnologiyalardan kifayət qədər istifadə olunmamasıdır. Tələbələrə və iqtisadçılara işgüzar nitq bacarıqlarını inkişaf etdirməyə kömək edə biləcək çoxsaylı onlayn kurslar və tətbiqlər mövcuddur, lakin onlar həmişə tam şəkildə istifadə edilmir.

Müasir dövrdə sənədləşmənin kompüter texnologiyaları ilə hazırlanması, ötürülməsi, işgüzar toplantıların keçirilməsi idarəetmə işlərinin həyata keçirilməsini sürətləndirir. Bu işləri həyata keçirmək üçün məlumat bazası hazırlanır, sənədləşmə işləri daim təkmilləşdirilir. Kompüterlərlə məlumatın işlənməsi metodları müəyyən edilir ki, bu da sənədlərin artıq ölkədaxili və ya beynəlxalq standartlara uyğun hazırlanması işini həm nizama salır, həm də sürətləndirir, işin keyfiyyətini yüksəldir. Hər il idarəetmə sənədlərinin miqdarı və formaları yaranır, mövcud olanlar yenilənir və təkmilləşir. Yaranan sənədlər idarə aparatı işçilərinin əlindən keçir. Məlumatların axtarılmasına xeyli zaman sərf edilir. Bu sahədə çalışan insanlar – iqtisadçılar, mühasiblər, kadrlar şöbəsinin (insan resursları) işçiləri tərəfindən həyata keçirilir. Bu sahənin işçiləri sənədləşmə işinin əsaslarını və təşkilini mütləq şəkildə bacarmalıdırlar. [1, s.55-56].

İşgüzar ünsiyyət mədəniyyəti üzrə apardığımız müşahidələr və tədqiqatlar əsasında belə nəticəyə gəlmək olar ki, işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması yalnız konkret şərtlər daxilində mümkündür. Bu şərtlərə dəyər-mənəvi (effektiv peşə fəaliyyətinə motivasiya), fərdi-psixoloji (işgüzar ünsiyyətin yüksək mədəniyyəti) və kommunikativ-fəaliyyət (peşə fəaliyyətinin məqsədlərinə çatmaq üçün kommunikativ imkanların mövcudluğu) amillər daxildir "L.İ.Çernışova işgüzar ünsiyyət mədəniyyətini iki və ya daha çox insan arasında informasiya mübadiləsi və praktiki fəaliyyətlə müşayiət olunan, konkret məqsədə nail olmağa yönəlmiş verbal qarşılıqlı əlaqə prosesi kimi başa düşür "[5, s.322].

İşgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması problemlərinə həsr olunmuş çoxsaylı elmi əsərlər mövcuddur. Keçən minilliyin pedaqoqları işgüzar etika, etiket və işgüzar kommunikasiya mədəniyyətinin əsaslarını qoymuşlar. Onlar təhsildə yeni yanaşmalar təklif etmiş və onları təkmilləşdirmişlər. Onların fikrincə, nitqin düzgün, aydın və etik qaydalara uyğun olması üçün tələbə məzmunlu söhbətlərdə və debatlarda fəal iştirak etməli, bu isə onun kommunikativ bacarıqlarını – öz mövqeyini müdafiə etmək, başqalarını

dinləmək, müxtəlif mövzuları müzakirə etmək qabiliyyətini inkişaf etdirir.

Xüsusi qeyd etmək lazımdır ki, mütəxəssisin nitqi orfoqrafik və leksik cəhətdən ümumqəbul olunmuş normalara, eləcə də struktur və etik tələblərə uyğun olmalıdır. Bununla əlaqədar olaraq, "..peşəsi birbaşa işgüzar ünsiyyətin və peşəkar qarşılıqlı əlaqələrin həyata keçirilməsi ilə bağlı olan iqtisadçı tələbələrdə işgüzar nitq mədəniyyətinin inkişafı prosesinin öyrənilməsi xüsusilə zəruridir" [6, s.107]. Hazırda mütəxəssislərin peşəkar nitq mədəniyyətinə böyük tələbat mövcuddur, lakin eyni zamanda iqtisadçı tələbələrin təhsil hazırlığında müəyyən problemlər qalmaqdadır. İşgüzar ünsiyyət alimlər tərəfindən çoxfunksiyalı anlayış kimi qiymətləndirilir, yəni o, yalnız bir ünsiyyət sahəsində istifadə oluna bilməz. "Şifahi qarşılıqlı əlaqənin müxtəlif sahələrində funksional sistemlərə və üslublara uyğun ixtisaslaşmış işgüzar ünsiyyət seqmentləri mövcuddur; məsələn, rəsmi-işgüzar üslub, şifahi işgüzar nitq və işgüzar yazışma" [4, s.98].

İşgüzar yazılı nitqin öyrənilməsi şifahi nitqin təkmilləşdirilməsinə kömək edir. İşgüzar dil üzərində aparılan iş funksional üslub və nitq növünə uyğun olaraq dil vasitələrinin yerində tətbiqi bacarıqlarını formalaşdırır, işgüzar ünsiyyət mədəniyyətinin mənimsənilməsinə şərait yaradır və s. Bu keyfiyyətlər danışıq bacarıqlarının səviyyəsini yüksəldir və nəticə etibarilə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılmasının səmərəliliyini əhəmiyyətli dərəcədə artırır.

Müasir təhsil müəssisələri tələbələrə daim dəyişən situasiyalarda işləmək bacarığını və müxtəlif məsələlərə qeyri-standart həll yolları tapmaq qabiliyyətini aşılamağa böyük əhəmiyyət verir. Qeyd olunan bacarıqların formalaşdırılması üçün hər bir tələbəyə fərdi yanaşma zəruridir. Tədrisdə işgüzar ünsiyyət mədəniyyətinə fərdi yanaşmanın olmaması probleminin tədqiqinə bir çox digər tədqiqatçıların elmi işləri həsr olunmuşdur. İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin öyrədilməsində fərdi ya-naşmanın formalaşdırılması üçün aşağıdakı üsullardan istifadə etmək olar:

- **tədris üsulları** – müxtəlif təlim metodları (mühazirələr, seminarlar, treninqlər, işgüzar oyunlar, kiçik qruplarla iş və s.),
- **rəqəmsal (informasiya) üsullar** – müasir texnologiyaların bütün növləri (onlayn kurslar, vebinarlar, mobil tətbiqlər), hansı ki, tələbələrə onlar üçün əlverişli vaxtda və məkanda tədris materiallarına çıxış imkanı yaradır,
- **nəzarət üsulları** – təlim nəticələrinin qiymətləndirilməsi (bu, fərdi yanaşmanı korrektə etməyə, hansı üsulların daha səmərəli işlədiyini anlamağa imkan verir).

Bir çox müəlliflər hesab edirlər ki, tədris prosesinin səmərəliliyinin artırılması məqsədilə müasir texnologiyalardan kifayət qədər istifadə olunmaması probleminin mövcudluğu səbəbindən işgüzar ünsiyyətin struktur və məzmununun sistemli şəkildə yenidən qurulmasına ehtiyac vardır. Bu, həm ölkəmizdə, həm də xaricdə işgüzar ünsiyyətin və şəxsiyyətlərarası qarşılıqlı əlaqənin rolunun artması ilə bağlıdır. Bu artım əsasən beynəlxalq münasibətlərdə şəxsiyyətlərarası ünsiyyətin formalaşması, elektron kommunikasiyanın və virtual əmək bazarının inkişafı hesabına baş verir.

İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin səviyyəsinin yüksəldilməsinə töhfə verən fənlərin olmaması əsas problemlərdən biridir. İqtisadçı tələbələrdə işgüzar ünsiyyətin bir çox bacarıqları

müəyyən tədris fənlərinin öyrənilməsi çərçivəsində formalaşır. Lakin bu kursların əksəriyyəti tədris planında mövcud deyil. İşgüzar ünsiyyət mədəniyyətinin inkişafına töhfə verən fənlərin olmaması iqtisadçı tələbələrin peşə hazırlığına mənfi təsir göstərir.

Məlumdur ki, bütün iqtisadçı tələbələr üçün ən faydalı bacarıqlardan biri müqavilələrin və iqtisadi rəylərin düzgün tərtib edilməsidir. Buna görə də tələbələrin təlimi başlanğıcdan etibarən xüsusi terminologiyadan istifadə etməklə səlis və savadlı yazılı mətnlərin hazırlanmasına yönəldilməlidir. Yazılı tapşırıqlar işgüzar yazı bacarıqlarının inkişafına kömək edir. "Bu istiqamət sayəsində sonrakı kurslarda iqtisadçı tələbələr işgüzar məktublar, protokollar, hesabatlar, arayışlar, izahat məktubları, aktlar, ərizələr və müqavilələr kimi rəsmi sənədlərin xüsusiyyətləri ilə tanış olurlar" [6]. "Şəxsi işgüzar sənədləri (tərcümeyihal, ərizə, bəyanat, izahat və s.), inzibati sənədləri düzgün tərtib etmək, elektron yazışmaları aparmaq hər bir insanın peşə mədəniyyətinin ayrılmaz hissəsidir." [2, s. 3]

Aşağı kurslarda iqtisadi terminologiya öyrənilir, yuxarı kurslarda isə şifahi nitq bacarıqları tədricən təkmilləşdirilir. İqtisadiyyat sahəsində çalışan mütəxəssislər danışıqlar zamanı tərəfdaşı müəyyən mənada yönləndirmək bacarıqlarına mükəmməl şəkildə yiyələnməli, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün kompromisə getməyi və ya zərurət yarandıqda geri çəkilməyi bacarmalıdırlar. İqtisadi ritorikanın bölmələri, xüsusilə "Işgüzar danışıqlar" və "İqtisadi mübahisələrin həlli" iqtisadçı tələbələrə interaktiv şifahi diskursu mənimsəməyə kömək edəcəkdir. Bu fənlər tələbələrə problemləri qeyri-standart şəkildə həll etməyi, xüsusilə mürəkkəb məsələlərdə konsensus əldə etməyi, öz mövqelərini formalaşdırmağı və müdafiə etməyi, müəyyən etik normalara riayət etməyi öyrədir. Lakin bu bölmələr də təhsil sistemində aşağı prioritetli hesab olunur. "İşgüzar danışıqlar" və "İqtisadi mübahisələrin həlli" fənlərinin mənimsənilməsi nəticəsində iqtisadçı tələbələr gələcəkdə vətəndaşlara ixtisaslı iqtisadi yardım göstərməyə imkan verən bacarıqlara yiyələnəcəklər. Bu yanaşmada iqtisadi və mənəvi prinsiplərin sintezi, onların qarşılıqlı əlaqəsi və qarşılıqlı şərtlənməsi müşahidə olunur.

İqtisadçının verbal ünsiyyət prosesində etik normalara əməl etməsi, qanun tələblərinə riayət etməsi, mənəvi- iqtisadi mədəniyyət səviyyəsinin yüksəldilməsi onun həm vətəndaşlar, həm də həmkarlar tərəfindən müsbət qəbul olunmasına şərait yaradır. Peşə fəaliyyəti zamanı iqtisadçı öz nitq davranışını daim təkmilləşdirməli, ünsiyyət mədəniyyətini yüksəltməlidir. Ünsiyyət prosesində təkcə danışmaq deyil, eyni zamanda kənardan özünü dinləmək, ifadələrin inandırıcılığını, aydınlığını, anlaşıqlılığını, müxtəlif nitq və qeyri-nitq ünsiyyət formalarının məqsədəuyğunluğunu, nitqin emosional çalarını və ifadəliliyini qiymətləndirmək vacibdir.

Fikrimizcə, iqtisadçı tələbələr üçün natiqlik sənəti peşə fəaliyyətinin həyata keçirilməsi üçün məcburi şərtdir. Tədqiqatçılar həmçinin hesab edirlər ki, iqtisadiyyat profilli tələbələr cüt və ya qrup halında işləməklə komanda şəklində fəaliyyət bacarıqlarını inkişaf etdirməlidirlər. Lakin müasir dövrdə iqtisadi təhsildə praktikyönlü təlimin tətbiqinə kifayət qədər diqqət yetirilmir, halbuki bu, gələcəkdə digər mütəxəssislərlə əməkdaşlıq etmək və şəxsi bacarıqlardan məqsədə çatmaq üçün istifadə etmək baxımından zəruridir. İşgüzar ünsiyyət mədəniyyətinin for-

malaşmasında əsas amil nəzəri biliklər deyil, onların tətbiq olunması bacarığıdır. İqtisadçının lüğət ehtiyatı zəngin olsa belə, əgər o, bundan istifadə etməyi bacarmırsa, nitq konstruksiyalarının bütün növlərini praktikada tətbiq edə bilməyəcəkdir. İşgüzar ünsiyyətin əsas fərqləndirici cəhəti səmərəli əməkdaşlıqdır və bu da əvvəlcədən praktiki hazırlıq tələb edir. Sualları düzgün formalaşdırmaq və vermək, protokollarla işləmək, onları öyrənmək və təhlil etmək zəruridir.

Müvafiq fənlərin olmaması səbəbindən iqtisadçı tələbələrin tez-tez qarşılaşdıqları konkret etik problemlər mövcuddur. Etik səhvlərə yol verməmək üçün işgüzar və peşə etikası, nitq və təşkilati etiket öyrənilməlidir. Düşünürük ki, "İşgüzar ünsiyyət" və "işgüzar konsultasiya" kurslarının öyrənilməsi nitqdə etik səhvlərin qarşısını almağa kömək edər. Bu fənlər sayəsində iqtisadçı tələbələr sənədləri düzgün tərtib etməyi, materialı səlis şəkildə ifadə etməyi, xidməti etiket tələblərinə riayət etməyi və s. öyrənirlər.

Təqdim olunan bütün kurslar tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaş-ma-sına, xidməti, etik və təşkilati tələblərə əməl etməyə kömək edən ilkin bacarıqların inkişafına şərait yaradır.

Əsas tələblərdən bəziləri aşağıdakılardır:

- korrektlik – rəsmi sənədləri düzgün tərtib etmək bacarığı;
- məntiqilik – iqtisadi standart-klişelərdən istifadə;
- obyektivlik – informasiyanın şəxsiyyətsiz təqdim olunması;
- məqsədəuyğunluq – iqtisadi terminologiyanın düzgün istifadəsi;
- sosial məkanda açıqlıq – materialın görüşlərdə, iclaslarda təqdim edilməsi.

Təklif olunan fənlərin spektri olduqca genişdir. Lakin təəssüf ki, bu fənlərin əksəriyyəti İqtisadiyyat fakültəsinin tədris planına daxil edilməmişdir. Peşəkar terminologiya üzrə ilkin biliklər olmadan iqtisadçı tələbələrə işgüzar ünsiyyətin öyrədilməsi olduqca çətindir. İşgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün hər bir tələbə aşağıdakı tipli fənləri və ya kursları mənimsəməlidir: Danışıqlar və müqavilə kommunikasiyası; Emosional intellekt və kommunikasiya; Beynəlxalq biznes kommunikasiyası, İqtisadi terminologiya və peşəkar dil, Rəqəmsal biznes ünsiyyəti, Nitq mədəniyyəti və peşəkar ünsiyyət, İqtisadçılar üçün işgüzar ünsiyyət mədəniyyəti, İqtisadi ritorika, İctimaiyyətlə əlaqələr, İqtisadi konsultasiya və s.

İqtisadiyyat ixtisası üzrə bakalavr hazırlığının nəticələrinə dair tələblər bölməsində gələcək mütəxəssislərin müxtəlif nitq və dil hazırlığı formalarında kommunikasiya bacarıqlarına yiyələnməsi nəzərdə tutulur ki, bu da qarşılıqlı əlaqənin çoxsaylı formalarında yaranan məsələlərin həllinə imkan verir. Bu məqamlar iqtisadçı olmaq istəyənlər üçün son dərəcə vacibdir və peşənin yüksək tələbləri, eləcə də bacarıq, bilik və ssəriştələrin geniş siyahısı ilə əsaslandırılır: xüsusi sənədlərlə işləmək, xaricdə Azərbaycan müştərilərinin maraqlarını təmsil etmək üçün iqtisadiyyat və dünya iqtisadiyyatı sistemlərini bilmək.

Azərbaycandilli olmayan mütəxəssislərlə qarşılıqlı əlaqə üçün xarici dil biliyi və ondan peşəkar səviyyədə işgüzar ünsiyyətdə məqsədləri, ideyaları və problemləri dəqiq ifadə etmək bacarığı tələb olunur. Qrammatika, morfologiya və sintaksis öyrənilsə belə, ixtisaslaşmış lüğət ehtiyatı olmadan iqtisadi problemlərin müzakirəsində lazımi dəqiqliyi təmin etmək mümkün deyil. Bu fənn aşağıdakı bölmələri əhatə etməlidir:

- Görüşlərin təşkili, rəsmi və qeyri-rəsmi gündəliklərin tərtibi, işgüzar söhbətin aparılması;

• Müsahibədə iştirak, CV, məktubların tərtibi;
• Korporativ mədəniyyət, iş haqqında danışıq;
• Şirkətin təqdimatı və təsviri, reklam;
• Işgüzar məktubun strukturu, təklif məktubu, reklam məktubu, şikayət məktubu, şikayətə cavab; danışıqlar və müqavilələrin bağlanması;
• İqtisadiyyat sistemlərinin növləri.

İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması ilə bağlı problemlərin aradan qaldırılması üçün tövsiyələr aşağıdakılardan ibarədir:

İşgüzar ünsiyyət mədəniyyəti uzunmüddətli inkişaf və təkmilləşmə mərhələlərindən keçən mürəkkəb, çoxsəviyyəli bir strukturdur. İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün effektiv tədris prosesinin yaradılmasına dair konkret tövsiyələrə ehtiyac vardır.

İlk növbədə, iqtisadçı tələbələrin təlimi peşəkar terminologiyanın düzgün istifadəsinə yönəldilməlidir. İqtisadi terminologiyanın düzgün tətbiqi, savadlı yazı bacarığı aşılayan fənlər tədris edilməlidir. Tələbələr sənədləri tərtib etməyi və emal etməyi bacarmalıdırlar, buna görə də tədris prosesi bu bacarıqların inkişafına xidmət etməlidir. Bundan əlavə, tədrisdə mümkün qədər çox yazılı tapşırıqlara yer verilməlidir ki, tələbələr işgüzar yazı bacarıqlarını qazansınlar. Bu, onlara gələcəkdə müxtəlif sənədlərlə (işgüzar məktublar, protokollar, hesabatlar, aktlar, ərizələr, müqavilələr, qərarlar və s.) işləməyə imkan verəcəkdir.

Peşəkar ünsiyyətin spesifikası iqtisadçılardan yüksək səviyyəli kommunikativ keyfiyyətlər, bacarıq və səriştələr tələb edir. Bu keyfiyyətlər həm təhsil prosesində, həm də praktiki fəaliyyətdə formalaşır. İqtisadçı tələbələr kommunikativ bacarıqları inkişaf etdirən xüsusi təlim formaları – debatlar, işgüzar oyunlar və yarışmalarla tanış edilməlidirlər. Ünsiyyət bütün iqtisadçı ixtisasları üzrə peşə fəaliyyətinin əsasını təşkil etdiyindən, kommunikativ bacarıqların işlənib hazırlanmasına yönəlmiş tapşırıqların tətbiqi tədris prosesinin səmərəliliyinin artırılması üçün əsas tövsiyələrdən biridir. “Xidmət sahəsində çalışanların işgüzar ünsiyyət etikasını bilməmələri və ona riayət etməmələri xidmətdən istifadə edənlərin onlarla ünsiyyət qurmaqdan imtina etmələri ilə nəticələnir və bu da xoşagələn bir hal deyil.” [3, s.50]

Xarici dillərə olan mövcud tələbatı nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, təhsil sistemi iqtisadçıların peşə hazırlığının keyfiyyətini xarici dilin öyrənilməsi prosesində işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması texnologiyalarının hazırlanması və tətbiqi yolu ilə artırmalıdır. Bu təlim texnologiyası müəllif metodikasının layihələndirilməsi zamanı pedaqoji məzmun xüsusiyyətlərini (əsas leksik mövzular, “İqtisadçı fəaliyyətində işgüzar ünsiyyət” bölməsi üzrə mövzular), prosessual xüsusiyyətləri (kiçik qruplarda birgə fəaliyyətin təşkili, ənənəvi və interaktiv metodların birləşdirilməsi, tipik situasiyalar, interaktiv təlim, case study, layihə metodu, işgüzar yazışmanın təhlili –“basket-metod”, fəaliyyət yolu ilə öyrənmə), eləcə də diaqnostik metodikalar kompleksini əhatə etməlidir.

Müasir texnologiyalardan kifayət qədər istifadə olunmaması problemini həll etmək üçün iqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılmasına yönəlmiş onlayn kursların və mobil tətbiqlərin yaradılması zəruridir. Bu, tələbələrə istənilən vaxt və dünyanın istənilən nöqtəsindən tədris materiallarına çıxış imkanı verəcəkdir. Biliklərin praktikada tez və anlaşılan şəkildə

tətbiqinə kömək edən oyun və simulyatorlardan da istifadə etmək mümkündür. Bundan əlavə, problemin həlli yollarından biri kimi müasir texnologiyalardan fəal istifadə edərək təcrübə və ideya mübadiləsi aparan iqtisadçı tələbələr icmasının yaradılması da göstərilə bilər.

İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması problemlərinin təhlili əsasında aşağıdakı qanunauyğunluq müəyyən edilmişdir: əgər tələbə işgüzar leksika, qrammatik normalar, işgüzar etiket qaydaları və mədəniyyətlərarası işgüzar kommunikasiya üzrə biliklərə malik deyilsə, bu, effektiv peşəkar qarşılıqlı əlaqənin mümkünsüzlüyünə gətirib çıxarır. [7, s. 98] Ali məktəblərdə iqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması sahəsində tədrisin əsas vəzifəsi təhsil proqramının məqsədlərinin peşəyönümlü təlim nəticələrinə maksimum dərəcədə yaxınlaşdırılmasıdır. Bu vəzifənin həlli tələbələri qrup şəklində işləməyə hazırlayan və onların özünüreallaşdırmasına imkan verən praktik məşğələlərin tətbiqi, ingilis dilinin öyrənilməsi, müasir texnologiyalar vasitəsilə interaktiv təlim metodlarından istifadə ilə mümkün ola bilər.

Hazırda iqtisadçıların peşə fəaliyyətində kommunikativ bacarıqlarını formalaşdıran kursların olmaması ciddi problem olaraq qalmaqdadır. Peşəkar nitq bacarıqlarının inkişafı baxımından uğurlu iqtisadçıların hazırlanmasının əsas vəzifəsi ali məktəb iqtisadiyyat təhsilinin iqtisadiyyat elmi və praktikadan ayrı düşməsi probleminin aradan qaldırılmasıdır. Bu ayrıseçkilik iqtisadçı tələbələrin peşə hazırlığının zəifləməsinə səbəb olur. Göstərilən fənlərin iqtisadçı tələbələrin tədris proqramına daxil edilməsi ilə yanaşı, praktiki məşğələlərin, yazılı tapşırıqların tətbiqi, eləcə də peşəkar-nitq səriştələrinin formalaşdırılması üçün ən yeni interaktiv texnologiyalardan istifadə mühüm rol oynayır. İşgüzar ünsiyyət mədəniyyətinin tədrisində müasir texnologiyalar iqtisadçı tələbələrə tədris materiallarına asan çıxış imkanı yaradır, bu da təlim prosesini yüngülləşdirir və onun səmərəliliyini artırır. Bundan əlavə, müasir texnologiyalar interaktiv təlim metodlarının tətbiqinə şərait yaradır, tədris prosesini daha maraqlı edir və iqtisadçı tələbələrə əldə etdikləri bacarıqları praktikada tətbiq etməyə imkan verir.

Eyni zamanda, işgüzar ünsiyyət mədəniyyətinin tədrisində fərdi yanaşmanın tətbiqi zəruridir. Hər bir tələbə və iqtisadi təlimin səmərəliliyinə təsir göstərə bilən fərdi xüsusiyyətlərə malikdir. Buna görə də bu xüsusiyyətlər nəzərə alınmalı və fərdi təlim proqramları hazırlanmalıdır.

Problemin aktuallığı. Müasir qlobal iqtisadi mühitdə iqtisadçı mütəxəssislərin peşəkar uğuru yalnız analitik və texniki biliklərdən deyil, eyni zamanda onların işgüzar ünsiyyət bacarıqlarından bilavasitə asılıdır. Beynəlxalq danışıqlar, biznes yazışmaları, təqdimatlar, müqavilə müzakirələri və korporativ ünsiyyət müasir iqtisadçının gündəlik fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu baxımdan ali iqtisadi təhsil müəssisələrində təhsil alan tələbələrin işgüzar kommunikasiya sahəsində kifayət qədər hazırlıqlı olması əmək bazarının əsas tələblərindən biri kimi çıxış edir. Lakin müşahidələr və pedaqoji təcrübə göstərir ki, iqtisadçı tələbələrin əksəriyyəti peşəkar yazılı və şifahi ünsiyyət, rəsmi sənədlərin tərtibi, işgüzar dialoqların qurulması və kommunikativ strategiyaların tətbiqi sahəsində ciddi çətinliklərlə üzləşirlər. Bu boşluqlar onların gələcək peşə fəaliyyətində effektiv ünsiyyət qurmasına, qərar qəbul etmə proseslərində iştirakına və karyera inkişafına mənfi təsir göstərir. Buna görə də iqtisadçı tələbələrdə işgüzar ünsiyyət problemlərinin araşdırılması və onların aradan qaldırılması yollarının mü-əyyən-

ləşdirilməsi müasir ali təhsilin aktual elmi və praktik vəzifələrindən biridir.

Problemin elmi yeniliyi. Təqdim olunan tədqiqatın elmi yeniliyi iqtisadçı tələbələrin işgüzar ünsiyyət problemlərinə dilçilik, pedaqogika və peşəkar kommunikasiya aspektlərinin inteqrasiyalı şəkildə yanaşılmasında ifadə olunur. Məqalədə işgüzar ünsiyyət yalnız nitq mədəniyyəti kontekstində deyil, iqtisadçı mütəxəssisin kommunikativ səriştənin struktur komponenti kimi təhlil edilir. Tədqiqat çərçivəsində iqtisadçı tələbələrdə müşahidə olunan kommunikativ çatışmazlıqlar sistemləşdirilir, onların sosial-psixoloji, metodik və tədris-məzmun səbəbləri müəyyənləşdirilir və bu problemlərin iqtisadi fəaliyyətə təsiri elmi əsaslarla izah olunur. Bundan əlavə, işgüzar ünsiyyət bacarıqlarının formalaşmasına yönəlmiş yeni pedaqoji yanaşmalar, kommunikativ modellər və interaktiv təlim strategiyaları təklif edilir ki, bu da mövcud tədqiqatlardan fərqli olaraq problemi praktik nəticələrə istiqamətləndirir.

Problemin praktik əhəmiyyəti. Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr ali iqtisadi təhsil müəssisələrində işgüzar ünsiyyət və peşəkar kommunikasiya fənlərinin tədrisinin təkmilləşdirilməsində istifadə oluna bilər. Tədqiqatda müəyyən edilmiş problemlər və onların həlli yolları iqtisadçı tələbələrin ünsiyyət bacarıqlarının inkişafına yönəlmiş tədris proqramlarının, dərs vəsaitlərinin və metodik göstərişlərin hazırlanmasında əsas mənbə kimi çıxış edə bilər. Eyni zamanda məqalədə irəli sürülən təkliflər müəllimlərə tələbələrin işgüzar yazı, rəsmi nitq, təqdimat və müzakirə bacarıqlarını məqsədyönlü şəkildə formalaşdırmağa imkan verir. Bu isə nəticə etibarilə iqtisadçı məzunların əmək bazarına daha hazırlıqlı çıxmasına, peşəkar mühitdə effektiv ünsiyyət qurmasına və beynəlxalq iqtisadi əlaqələrdə uğurla iştirak etməsinə şərait yaradır.

Ədəbiyyat

1. Qəhrəmanova, Ç. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik / Ç. Qəhrəmanova. – Bakı: MSV-nəşr, –2024. – 286 s.
2. Xəlilov, B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya / Bakı, 2021, –476 səh. // https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Buludxan-X%C9%99lilov-Isguzar-akademik-kommunikasiya.pdf
3. Salayeva, N.N., Fərəcova G.B. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", Orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün dərslik. Birinci nəşr. Bakı–2024, «CLASS PRİNT MMC», 196 səh. https://shamakhi-adpu.az/wp-content/uploads/2025/08/N.Salayeva-G.F%C9%99r%C9%99cova.Az%C9%99rbaycan-dilind%C9%99-isguzar-v%C9%99-akademik-kommunikasiya.pdf
4. Панфилова, А.П. Деловая коммуникация в профессиональной деятельности / А.П. Панфилова. – СПб.: Знание, –2001. –433 с.
5. Чернышова, Л.И. Деловое общение / Л.И.Чернышова. – М.: ЮНИТИ, –2012. –414 с.
6. Большунов, А.Я., Киселева Н.И., Марченко Г.И., Новиков А.В. Деловые коммуникации / ред. А. Г. Тюриков, Л. И. Чернышова.–М.: КноРус, –2019. – 282 с.
7. Бороздина, Г.В., Кормнова Н.А. Психология и этика делового общения / Г.В.Бороздина, Н.А. Кормнова – М.: Юрайт, –2023. –392 с.
8. Hyland, K., & Hamp-Lyons, L. EAP: Issues and Directions // Journal of English for Academic Purposes, 1, –p.1-12. 2002. https://doi.org/10.1016/S1475-1585(02)00002-4
9. Plump, C.M., & LaRosa, J. Using Kahoot! In the Classroom to Create Engagement and Active Learning: A Game-Based Technology Solution for

eLearning Novices // Management Teaching Review, –2017, v2, –p.151-158. https://doi.org/10.1177/2379298116689783

Redaksiyaya daxil olub: 16.04.2026

UOT 37.01

Elnurə Fazil qızı Səfərova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
E-mail: seferovaelnure@mail.ru

Günel Əlimövsüm qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0001-6916-7955
https://doi.org/10.69682/arti.2026.93(3).36-39

PEDAQOJİ TƏCRÜBƏNİN TƏŞKİLİNDƏ STEAM VƏ ƏNƏNƏVİ METODOLOGİYALARIN NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Elnura Fazil Safarova,
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in biology

Gunel Alimovsum Mammadova
teacher at Azerbaijan State Pedagogical University

EVALUATION OF THE RESULTS OF APPLYING STEAM AND TRADITIONAL METHODOLOGIES IN THE ORGANIZATION OF PEDAGOGICAL PRACTICE

Эльнура Фазиль гызы Сафарова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

Гюнель Алимовсум гызы Мамедова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ОЦЕНИВАНИЕ РЕЗУЛЬТАТОВ ПРИМЕНЕНИЯ STEAM И ТРАДИЦИОННЫХ МЕТОДОЛОГИЙ В ОРГАНИЗАЦИИ ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ

Xülasə. Bu məqalədə pedaqoji təcrübənin təşkilində STEAM yanaşması ilə ənənəvi tədris metodlarının müqayisəsi aparılır və onların yekun nəticəsi qiymətləndirilir. STEAM yanaşması şagirdlərin nəzəri bilikləri praktikada tətbiq etməsinə imkan yaradır, onları real həyat problemlərinin həllinə hazırlayır. Bu yanaşma fənlərarası inteqrasiyanı təmin etməklə yaradıcı və tənqidi düşünmə, problem həll etmə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Ənənəvi tədris metodları isə strukturlaşdırılmış və sistemli yanaşma təqdim edərək fundamental biliklərin mənimsənilməsinə kömək edir. Bununla belə, yaradıcı və tənqidi düşünmə bacarıqlarının inkişafında müəyyən məhdudiyyətlərə malikdir. STEAM metodlarının tətbiqi şagirdlərin öyrənmə motivasiyasını artırır, dərs prosesini daha interaktiv və maraqlı edir. Lakin bu yanaşmanın səmərəli tətbiqi üçün məktəblərdə laboratoriyaların və tədris resurslarının artırılması, həmçinin müəllimlərin xüsusi təlimlərdən keçməsi vacibdir.

Açar sözlər: *STEAM, ənənəvi, metodologiya, keyfiyyət, nəticə*

Abstract. This article compares the application of the STEAM approach and traditional teaching methods in the organization of pedagogical practice and evaluates their final outcomes. The STEAM approach enables students to apply theoretical knowledge in practice and prepares them to solve real-life problems. It ensures interdisciplinary integration, fostering creative and critical thinking, problem-solving, and collaboration skills. Traditional teaching methods, on the other hand, provide a structured and systematic approach that supports the acquisition of fundamental knowledge. However, they have certain limitations in developing creative and critical thinking skills. The application of STEAM methods increases students' learning motivation and makes the teaching process more interactive and engaging. At the same time, effective implementation of this approach requires the expansion of laboratories and teaching resources in schools, as well as specialized training for teachers.
Keywords: *STEAM, traditional, methodology, quality, outcome*

Аннотация. В данной статье проводится сравнение применения подхода STEAM и традиционных методов обучения в организации педагогической практики и оцениваются их конечные результаты. Подход STEAM позволяет учащимся применять теоретические знания на практике, готовит их к решению реальных жизненных проблем. Этот подход обеспечивает межпредметную интеграцию, развивает творческое и критическое мышление, навыки решения проблем и сотрудничества. Традиционные методы обучения, в свою очередь, предоставляют структурированный и системный подход, способствуют усвоению фундаментальных знаний. Однако они имеют определённые ограничения в развитии творческого и критического мышления. Применение методов STEAM повышает мотивацию учащихся к обучению, делает учебный процесс более интерактивным и интересным. Вместе с тем для эффективного применения данного подхода необходимо увеличить количество лабораторий и учебных ресурсов в школах, а также обеспечить прохождение учителями специальных тренингов.
Ключевые слова: *STEAM, традиционный, методология, качество, результат*

Müasir təhsil sistemində STEAM yanaşmasının tətbiqi getdikcə daha çox aktuallıq qazanır. Bu yanaşma yalnız nəzəri biliklərin ötürülməsi ilə kifayətlənmir, həm də şagirdlərin həmin bilikləri praktikada tətbiq etməsinə, real həyat problemlərini həll etməyə hazırlaşmasına şərait yaradır. [1] Məsələn, biologiya dərsində fotosintez mövzusu öyrədilərkən şagirdlər sadəcə nəzəri izahı dinləmək əvəzinə, laboratoriyada bitkilərin işıq altında və qaranlıqda böyüməsini müşahidə edir, nəticələri müqayisə edərək elmi nəticə çıxarırlar. Bu, onların həm nəzəri biliklərini möhkəmləndirir, həm də tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir [3].

STEAM yanaşmasının ən güclü tərəflərindən biri fənlərarası inteqrasiyadır. Riyaziyyat, texnologiya və incəsənət elementlərinin biologiya və kimya dərslərinə daxil edilməsi şagirdlərdə yaradıcı və tənqidi düşünməni gücləndirir. Məsələn, şagirdlər ekoloji mövzuda layihə hazırlayarkən həm riyazi hesablamalardan istifadə edir, həm də dizayn bacarıqlarını işə salaraq təqdimatlarını vizual cəhətdən maraqlı hala gətirirlər. Bu prosesdə əməkdaşlıq bacarıqları da inkişaf edir, çünki layihələr adətən qrup şəklində həyata keçirilir. Ənənəvi tədris metodları isə strukturlaşdırılmış və sistemli yanaşma təqdim edir. Bu metodlar

fundamental biliklərin mənimsənilməsində mühüm rol oynayır [2]. Məsələn, biologiya dərsində hüceyrə quruluşunun öyrədilməsi zamanı müəllim lövhədə sxem çəkir, şagirdlər isə onu dəftərlərinə köçürür və əzbərləyirlər. Bu üsul biliklərin əsaslarını möhkəmləndirsə də, yaradıcı və tənqidi düşünmənin inkişafında məhdudiyyətlər yaradır.

Pedaqoji eksperimentin həyata keçirilməsi prosesi müxtəlif mərhələlərdən keçmişdir:

1. Hazırlıq mərhələsində müəllimlər üçün sorğu anketi və başqa tədqiqat ləvazimatları hazırlandı.

2. Müəllimlər üçün hazırlanmış anketdən istifadə edərək sorğular aparıldı. Eksperiment və kontrol siniflər müəyyənləşdirildikdən sonra, kontrol sinfin dərsin ənənəvi qaydada keçirilməsi müşahidə olundu.

3. Eksperiment sinif ilə dərs təşkil olunduqdan sonra, sorğu və eksperimentdən alınan nəticələr ümumiləşdirildi [4].

STEAM metodikasının tətbiqi ilə bağlı aparılan sorğunun məqsədi ənənəvi və STEAM metodları arasındakı fərqləri şagirdlərin motivasiyası, mənimsəmə səviyyəsi və bu metodların şagirdlərin bacarıqlarına təsiri məzmununda müəyyənləşdirməkdir [10]. Sorğunun sualları aşağıdakı şəkildədir:

1. İxtisas:

2. Müəllimlik təcrübəniz (il):

3.Tədris zamanı hansı yanaşmadan istifadə edirsiniz?

– Ənənəvi

– STEAM

4. STEAM təhsili tətbiq edərkən hansı üstünlükləri müşahidə edirsiniz? (məsələn, yaradıcı düşünmə, əməkdaşlıq)

5. Ənənəvi təhsil yanaşmasında gördüyünüz əsas çatışmazlıqlar hansılardır?

6. STEAM metodları ilə şagirdlərin iştirakını necə qiymətləndirirsiniz?

– Yüksək

– Orta

– Aşağı

7. Şagirdlərin ənənəvi təhsildə motivasiyası ilə STEAM təhsili arasında fərq hiss edirsinizmi?

– Bəli

– Xeyr

– Qismən

8. Hər iki təhsil sistemindəki təcrübələrinizi necə müqayisə edərdiniz?

9. STEAM təhsili şagirdlərin hansı intellektual bacarıqlarını inkişaf etdirir?

– Problemləri həll etmə

– Tənqidi düşünmə

– Yaradıcılıq

– Əməkdaşlıq

– Digər: ____

10. STEAM metodologiyasının tətbiqi zamanı hansı çətinliklərlə qarşılaşırsınız?

Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzləri, lisey və orta məktəb müəllimləri arasında aparılan sorğular göstərmişdir ki, STEAM metodikasının tətbiqi şagirdlərin dərs prosesində aktiv iştirakını və motivasiyasını artırır. Şagirdlər daha həvəslə qrup fəaliyyətlərinə qoşulur, dərslər daha interaktiv və maraqlı mühitdə keçirilir. Bu yanaşma onların nəzəri bilikləri praktikada tətbiq etməsinə şərait yaradır və real həyat problemlərinin həllinə hazırlayır [6].

Sorğular həmçinin göstərmişdir ki, STEAM metodikasının tətbiqi şagirdlərin mövzunu mənimsəmə səviyyəsinə müsbət təsir göstərir. Onlar daha çox yaradıcı düşünür, tənqidi yanaşma qabiliyyətlərini inkişaf etdirir və əməkdaşlıq bacarıqlarını gücləndirirlər. Müəllimlər qeyd etmişdir ki, bu metodika şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların öyrənmə motivasiyasını da yüksəldir [11].

Lakin, tətbiq zamanı müəyyən çətinliklər də ortaya çıxır. Əsas problemlərdən biri məktəblərdə resursların və texniki imkanların məhdudluğudur. Laboratoriyaların, müasir tədris avadanlıqlarının və əlavə resursların çatışmazlığı metodikanın tam səmərəli istifadəsinə mane olur. Bu səbəbdən, STEAM yanaşmasının uğurlu tətbiqi üçün məktəblərdə tədris infrastrukturu gücləndirilməli, müasir texnologiyalarla təminat artırılmalıdır. Digər mühüm amil müəllimlərin hazırlıq səviyyəsidir. STEAM metodikasının effektiv tətbiqi üçün müəllimlərin xüsusi təlimlərdən keçməsi, yeni pedaqoji texnologiyalarla tanış olması və innovativ yanaşmaları mənimsəməsi vacibdir. Müəllimlərin bu sahədə peşəkar inkişafı şagirdlərin daha yüksək nəticələr əldə etməsinə birbaşa təsir göstərir [7].

Sorğulardan görünür ki, STEAM metodikasının tətbiqi şagirdlərin motivasiyasını, yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını artırır, dərs prosesini daha maraqlı və interaktiv edir. Bununla belə, metodikanın tam səmərəli olması üçün məktəblərdə resurs bazası gücləndirilməli, müəllimlərin peşəkar hazırlığına xüsusi diqqət yetirilməlidir [5]. Ənənəvi metodlarla birlikdə tətbiq edildikdə isə STEAM yanaşması tədris keyfiyyətini daha da yüksəldərək optimal nəticələr verir.

Digər bir eksperiment VII sinifdə Biologiya fənnində “ Ekoloji amillər” mövzusunun keçirilməsi zamanı təcrübənin tətbiqi ilə həyata keçirilmişdir. Eksperiment zamanı məqsəd müxtəlif torpaq növlərinin bitkilərin böyüməsinə və inkişafına olan təsirinin ölçülməsi idi. Müxtəlif torpaq növlərinə bitki toxumları əkilir. Təcrübə müddətində bitkilərin boyu müntəzəm olaraq ölçülür. Təcrübənin sonunda bitkilərin boyu, çiçəklərin sayı kimi məlumatlar statistik təhlil edilir. Nəticədə müxtəlif torpaq növünün təsiri müəyyənləşdirilir. Sonda şagirdlər statistik təh-lilləri qrafik təsvir edərək təqdim edirlər.[9]

Eksperiment zamanı şagirdlərə verilən suallara cavablar ümumiləşdirilmiş, mənimsəmə səviyyəsi aşağıdakı düstur vasitəsilə hesablanmışdır:

$$U=\frac{a-b}{a}\bullet 100\%$$

Düsturdakı U-mənimsəmə səviyyəsinin faiz göstəricisi, a-ümumi şagirdlərin sayı, b-suala düzgün cavab verməyən şagirdlərin sayını göstərir. Yekun nəticələr aşağıdakı kimidir:

Siniflər	Şagirdlərin sayı	Təqribi mənimsəmə səviyyəsi (%-lə)
Eksperiment X	25	80
Kontrol X	23	60
Eksperiment VII	27	85
Kontrol VII	24	70

Yuxarıdakı nəticələr STEAM metodikasının şagirdlərin mənimsəmə səviyyəsinə müsbət təsirinin göstəricisidir. Bu nəticə, STEAM metodologiyasının inteqrativ və praktik bacarıqların inkişafına şərait yaratması ilə izah oluna bilər. Beləliklə, əldə edilən nəticələr tədris keyfiyyətinin yüksəldilməsi məqsədilə STEAM metodunun daha geniş tətbiqinin zəruriliyini əsaslandırır.[8]

Nəticə: STEAM metodikasının tətbiqi şagirdlərin mənimsəmə səviyyəsinə müsbət təsirinin göstəricisidir. Bu nəticə, STEAM metodologiyasının inteqrativ və praktik bacarıqların inkişafına şərait yaratması ilə izah oluna bilər. Beləliklə, əldə edilən nəticələr tədris keyfiyyətinin yüksəldilməsi məqsədilə STEAM metodunun daha geniş tətbiqinin zəruriliyini əsaslandırır.

Problemin aktuallığı. Ənənəvi və STEAM yanaşmalarının birgə istifadəsi optimal nəticələr verə bilər. Belə yanaşma həm şagirdlərin fundamental bilikləri mənimsəməsinə, həm də bu bilikləri praktikada tətbiq etməsinə şərait yaradır.

Problemin elmi yeniliyi. STEAM yanaşması müasir təhsil sistemində şagirdlərin motivasiyasını, yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını gücləndirən mühüm metodologiyadır. Ənənəvi metodlarla birlikdə tətbiq edildikdə isə tədris prosesinin keyfiyyətini artıraraq daha balanslı və səmərəli nəticələr əldə etməyə imkan verir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Nəticə etibarilə, ənənəvi və STEAM yanaşmalarının birgə istifadəsi optimal nəticələr verir. Ənənəvi metodlar fundamental biliklərin möhkəmlənməsinə kömək edir, STEAM isə həmin biliklərin praktik tətbiqini təmin edir. Bu sintez şagirdlərin həm nəzəri, həm də praktik bacarıqlarını inkişaf etdirərək tədris prosesinin keyfiyyətini yüksəldir.

Ədəbiyyat

1. Alışova, Z. Təbiət fənlərinin hibrid tədrisi və onlayn ünsiyyət / Z. Alışova, G. Şıxməmmədova, – Bakı, 2024. – 243 s.
2. Aray K. Amanova. A systematic review of the implementation of STEAM education in schools. / Laura A. Butabayeva, Eurasia Journal of Mathematics, Science and Technology Education, vol 18, –Türkiyə, 2022. –p. 1-15
3. Bayramova L.B. Kurikulum və pedaqogika. (Ali məktəb tələbələri və müəllimlər üçün nəzərdə tutulmuş vəsait) / –Bakı: Nurlar, –2020. –110-115s.
4. B.M.Tezeren. STEAM bütünleşik öğrenme modelinin çerçevesi ve yetenek gelişimi için önemi. / Tezeren B. M, S. Balım; K. Yürümezoğlu // BAUN Fen Bil.Enst.Dergisi, – İzmir, 2022. 24(2), – s. 857-868.
5. Li, B. Project based learning in a collaborative group can enhance student skill and ability in the biochemical laboratory: a case study. / B.Li, Jia. X, Chi. Y, Liu. X [et al]. // Journal of Biological Education, – Beijing: – 2020. 54(4), – p. 404-418.
6. Cavadov E.M. Steam interaktiv təhsil / Məmmədova R. –Bakı: Müəllim nəşriyyatı, –2024. –284 s.
7. Hacıyeva G.N. Biologiyanın tədrisi metodikasından laborator və seminar məşğələlər (dərs vəsaiti) / Səfərova E.F, Axundova S.M. –Bakı: Müəllim nəşriyyatı, –2020. –204s.

8. Safarova E.F. The key advantages and educational benefits of using the Human Bio Digital Program in biology lessons / Jabrayilzade S.M, Scientific work international scientific journal, volume 20, issue 2, –Baku, 2026. –p. 101- 105.
9. Səfərova E.F. Biologiya müəllim hazırlığında STEAM metodologiyasının tətbiqinin keyfiyyətə təsiri / Məmmədova G.Ə, Təhsil İnstitutunun Elmi əsərləri, №1. –Bakı, 2026. –108-110s.
10. Raúl Prada N.“Trends and challenges of integrating the STEAM approach in education: A Scopus literature review” / Mariana Elena P, Jurnal: Data and Metadata, –İspaniya, 2024, –p. 1-18.
11. Jurado, E. Social STEAM learning at an early age with robotics platforms: A case study in four schools in Spain / E.Jurado, D. Fonseca, J. Coderch // Universitat Ramon Llull, – Barcelona, – 2020. 20(13), – p. 106-127.

Redaksiyaya daxil olub:29.04.2026

UOT 37.01

Afət Şövkət qızı Namətova
Azərbaycan Dillər Universitetinin baş müəllimi
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: a.namatova@adu.edu.az
ORCID ID: https://orcid.org/0009-0002-8011-0949
https://doi.org/10.69682/arti.2026.93(3).40-43

EKOLOJİ TƏHSİL MÜASİR PEDAQOJİ PROSESİN PRİORİTET İSTİQAMƏTİ KİMİ

Afat Shovkat Nametova
senior lecturer at the Azerbaijan University of Languages,
doctor of philosophy in pedagogy

ENVIRONMENTAL EDUCATION AS A PRIORITY DIRECTION OF THE MODERN PEDAGOGICAL PROCESS

Афат Шовкат гызы Наметова
старший преподаватель Азербайджанского университета языков
доктор философии по педагогики

ЭКОЛОГИЧЕСКОЕ ОБРАЗОВАНИЕ КАК ПРИОРИТЕТНОЕ НАПРАВЛЕНИЕ СОВРЕМЕННОГО ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА

Xülasə. Məqalədə ekoloji təhsilin müasir pedaqoji prosesdə rolu, ekoloji təhlükə anlayışının təlim-tərbiyə sistemində yeri və ekoloji şüurun formalaşdırılmasının nəzəri-metodoloji əsasları araşdırılmışdır. Yerli və xarici mənbələrdə əks olunan elmi yanaşmalara əsaslanaraq, ekoloji təhsilin davamlı inkişafın təmin edilməsində, ekoloji risklərin azaldılmasında və sosial məsuliyyətli şəxsiyyətin yetişdirilməsində mühüm amil olduğu əsaslandırılmışdır. Tədqiqatda müəllifin irəli sürdüyü əsas tezis kimi ekoloji təhlükə anlayışının pedaqoji prosesin əsas kateqoriyalarından biri kimi təqdim

edilməsinin zəruriliyi vurğulanır. Nəticə olaraq, ekoloji şüura malik, məsuliyyətli və fəal vətəndaşın formalaşdırılmasının sistemli, demokratik və beynəlxalq standartlara uyğun ekoloji təhsil vasitəsilə mümkün olduğu qənaətinə gəlinmişdir.
***Açar sözlər**: ekoloji təhsil, pedaqoji proses, ekoloji şüur, davamlı inkişaf, sosial məsuliyyət*

Abstract. The article examines the role of environmental education in the modern pedagogical process, the place of the concept of environmental safety within the educational system, and the theoretical and methodological foundations of developing environmental consciousness awareness. Based on scientific approaches reflected in both national local and international sources, the study substantiates that environmental education is a significant factor in ensuring sustainable development, reducing environmental risks, and fostering socially responsible individuals. The author's key thesis emphasizes the necessity the research emphasizes, as a key thesis proposed by the author, the necessity of presenting the concept of environmental safety as one of the core categories of the pedagogical process framework. In conclusion, it is argued that the formation of environmentally aware, responsible, and active citizens is possible only through systematic, democratic, and internationally aligned integrated environmental education.
***Keywords:** environmental education, pedagogical process, environmental awareness, sustainable development, social responsibility*

Аннотация. В статье рассматривается роль экологического образования в современном педагогическом процессе, место концепции экологической безопасности в системе образования, а также теоретические и методологические основы развития экологического сознания. На основе научных подходов, отраженных как в отечественных местных, так и в международных источниках, исследование обосновывает, что экологическое образование является важным фактором обеспечения устойчивого развития, снижения экологических рисков и воспитания социально ответственной личности. В исследовании, в качестве ключевого тезиса, предложенного автором, подчеркивается необходимость представления концепции экологической безопасности как одного из основных категорий педагогического учебного процесса. В заключение утверждается, что формирование экологически осведомленных, ответственных и активных граждан возможно только посредством систематического, демократичного и международно-ориентированного экологического образования.
***Ключевые слова:** экологическое образование, педагогический процесс, экологическое сознание, устойчивое развитие, социальная ответственность*

Giriş. Müasir dünyada ətraf mühitin qorunması və davamlı inkişaf prinsiplərinin təşviqi qlobal prioritetlərdən biri kimi diqqət mərkəzindədir. Ekoloji problemlərin mürəkkəbliyi, iqlim dəyişikliyi, təbii resursların tükənməsi və insan fəaliyyəti nəticəsində yaranan ekoloji təhlükələr pedaqoji prosesdə müvafiq bilik və bacarıqların formalaşdırılmasını zəruri edir. Bu baxımdan ekoloji təhsil yalnız təbiətşünaslıq biliklərinin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda sosial məsuliyyət, ekoloji şüur və aktiv vətəndaş mövqeyinin formalaşdırılmasında həlledici rol oynayır.

Tədqiqatın aktuallığı ekoloji təhsilin müasir pedaqoji prosesdə prioritet istiqamət kimi nəzərə alınmasından irəli gəlir. Yerli və beynəlxalq təcrübə göstərir ki, ekoloji təhsil vasitəsilə gənc nəslin ətraf mühitin qorunmasına məsuliyyətlə yanaşması təmin edilir və davamlı inkişaf məqsədlərinə töhfə verilir. Bu kontekstdə elmi tədqiqatın məqsədi ekoloji təhsilin müasir pedaqoji

prosesdə yerini, ekoloji təhlükə anlayışının təlim-tərbiyə sistemində funksiyasını və ekoloji şüurun formalaşdırılmasının nəzəri-metodoloji əsaslarını araşdırmaqdır.

Tədqiqatın predmetini ekoloji təhsilin prinsipləri, metodları və formalaşdırdığı şəxsi keyfiyyətlər, obyektini isə müasir pedaqoji proses təşkil edir. Tədqiqatın nəticələri ekoloji şüura malik, məsuliyyətli və sosial baxımdan fəal şəxsiyyətin yetişdirilməsi üçün təhsil siyasətinin inkişafına elmi əsaslar təqdim edə bilər.

Əsas hissə. XXI əsrdə insan fəaliyyətinin intensivləşməsi nəticəsində yaranan ekoloji böhranlar – iqlim dəyişiklikləri, biomüxtəlifliyin azalması, təbii resursların tükənməsi – təkcə təbiətə deyil, eyni zamanda insanın sağlamlığına, sosial rifahına və ümumilikdə cəmiyyətin davamlı inkişafına ciddi təhlükə yaradır. Bu proseslər ekoloji təhlükə anlayışını müasir dövrün əsas qlobal problemlərindən birinə çevirmişdir.

Təbriz Əliyevin təbirincə desək, "*ekoloji təhlükə – insan və cəmiyyətin həyati vacib maraqlarına, ətraf mühitə, antropogen və təbii təsirlər nəticəsində təhlükə yaradan vəziyyətdir*" [4,s.17]. Bu yanaşma ekoloji problemlərin yalnız ekosistemlə məhdudlaşmadığını, birbaşa insan və cəmiyyətin təhlükəsizliyi ilə bağlı olduğunu göstərir.

Ekoloji təhlükələrin qlobal xarakter daşıması ekoloji təhsilin beynəlxalq hüquqi sənədlərdə də prioritet istiqamət kimi tanınmasına səbəb olmuşdur. Birləşmiş Millətlər Təşkilatının "Davamlı İnkişaf üçün 2030 Gündəliyi"ndə keyfiyyətli təhsil (Məqsəd 4) ekoloji təhlükələrin azaldılması və davamlı inkişafın təmin olunmasının əsas vasitəsi kimi göstərilir.

Eyni zamanda, Ətraf mühit və inkişaf üzrə Rio Bəyannaməsi (1992) ekoloji problemlərin həllində ictimai iştirakçılığın və maarifləndirmənin vacibliyini xüsusi vurğulayır. Orhus Konvensiyası isə ekoloji məlumatlara çıxış, qərarların qəbulunda iştirak və ədalət mühakiməsinə çıxış hüquqlarını təmin etməklə ekoloji demokratiyanın hüquqi əsaslarını müəyyən edir. Bu beynəlxalq aktlar ekoloji təhsilin demokratik cəmiyyətin formalaşmasında və ekoloji təhlükələrin qarşısının alınmasında mühüm rol oynadığını təsdiq edir.

Onu da nəzərə almaq lazımdır ki "*cəmiyyətin inkişafının elə bir sahəsi yoxdur ki, orada ekologiyadan istifadə etmək lazım olmasın* [3, s. 31]. Bu baxımdan ekoloji təhlükələrin qarşısının alınmasında texnoloji və hüquqi tədbirlərlə yanaşı, ekoloji təhsil mühüm rol oynayır və müasir pedaqoji prosesin prioritet istiqamətlərindən biri kimi çıxış edir.

Ekoloji təhsil fərdin təbiətə münasibətinin formalaşdırılması, ekoloji bilik, bacarıq və dəyərlərin sistemli şəkildə mənimsədilməsi ilə yanaşı, ekoloji təhlükələri dərk edən və onlara qarşı məsuliyyətli mövqe nümayiş etdirən şəxsiyyətin yetişdirilməsini nəzərdə tutur. Bu baxımdan ekoloji təhsil yalnız maarifləndirici deyil, həm də preventiv və sosial xarakter daşıyır.

E.Muradova özünün "Demokratik ekoloji təhsilin prinsipləri" adlı monoqrafiyasında ekoloji təhsilin əhalinin regional inkişafının əsasını təşkil etdiyini xüsusi vurğulayır. Müəllifə görə, ekoloji problemlərin mahiyyəti və təsir dairəsi regionların sosial-iqtisadi xüsusiyyətləri ilə birbaşa bağlı olduğundan, ekoloji təhsilin məzmunu və təşkili də regional ehtiyaclar nəzərə alınmaqla formalaşdırılmalıdır. Məhz bu səbəbdən ekoloji təhsildə demokratiya prinsiplərinin tətbiqi zəruri şərt kimi çıxış edir. Muradova qeyd edir ki, demokratik ekoloji təhsil əhalinin yalnız məlumatlandırılmasını

deyil, eyni zamanda onların ekoloji qərarların qəbulunda fəal iştirakını təmin etməlidir. Açıq dialoq, ictimai müzakirələr, bərabər imkanlar və yerli icmaların təşəbbüslərinin dəstəklənməsi ekoloji təhlükələrin vaxtında müəyyən edilməsinə və qarşısının alınmasına şərait yaradır. Bu yanaşma regionlarda ekoloji məsuliyyətin formalaşmasına, ətraf mühitə münasibətdə passiv müşahidəçi deyil, fəal vətəndaş mövqeyinin yaranmasına xidmət edir.

Bundan əlavə, müəllifin fikrincə, ekoloji təhsildə demokratik mühit şəffaflığın və hesabatlılığın təmin olunmasına, ekoloji biliklərin mərkəzdən regionlara bərabər şəkildə yayılmasına imkan yaradır və nəticədə, ekoloji təhsil regional inkişafın yalnız iqtisadi deyil, həm də sosial və mədəni dayanıqlığını gücləndirən mühüm amilə çevrilir. Beləliklə, E. Muradovanın yanaşması ekoloji təhsilin demokratik prinsiplər əsasında qurulmasının həm regional inkişaf, həm də ekoloji təhlükələrin azaldılması baxımından strateji əhəmiyyət daşıdığını əsaslandırır [5, s. 4].

Bu fikirlər onu göstərir ki, ekoloji təhsil yalnız mərkəzləşdirilmiş yanaşma ilə deyil, ictimai iştirakçılıq, açıq qərarvermə və bərabər imkanlar prinsipləri əsasında həyata keçirilməlidir. Demokratiya ekoloji biliklərin regionlar üzrə yayılmasını, yerli icmaların ekoloji təhlükələrə qarşı fəal mövqe tutmasını və qərarların qəbulunda iştirakını təmin edən əsas mexanizmdir.

UNESCO-nun yanaşmasına görə, ekoloji təhsil davamlı inkişafın əsas komponenti olmaqla, təhsilalanlarda məsuliyyətli davranış və ekoloji etik dəyərlərin formalaşmasına yönəlir [6]. Pedaqoji baxımdan ekoloji təhsil inteqrativ xarakter daşıyır və fənlərarası əlaqələr əsasında həyata keçirilir ki, bu da ekoloji təhlükələrin sosial və hüquqi aspektlərdə dərk olunmasına imkan yaradır.

Ekoloji təhsil müasir pedaqoji prosesdə:

Müasir pedaqoji prosesdə ekoloji təhsilin prioritet kimi çıxış etməsi aşağıdakı amillərlə şərtlənir:

– ekoloji təhlükələrin qlobal və kompleks xarakter alması;

– davamlı inkişaf məqsədlərinin təhsil sisteminə inteqrasiyası;

– ekoloji şüurun erkən yaşlardan formalaş

– insan, cəmiyyət və ətraf mühit arasında ta dırılmasının zəruriliyi;razlığın pozulması riskinin artması;

– demokratik iştirakçılığın ekoloji qərarların effektivliyinə təsiri.

Nəzərdən keçirdiyimiz tədqiqatlar göstərir ki, ekolojiyönlü təlim metodlarının tətbiqi təhsilalanlarda tənqidi düşünmə, sosial məsuliyyət və ekoloji təhlükələrə qarşı həssas vətəndaş möv qeyinin formalaşmasına müsbət təsir edir. Bu baxımdan ekoloji təhsil müasir pedaqoji prosesin strateji komponenti kimi çıxış edir.

Azərbaycan Respublikasında ekoloji təhlükələrin azaldılması və ekoloji mədəniyyətin formalaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biri olmaqla, müasir pedaqoji pro sesin strateji hədəfləri ilə birbaşa uzlaşır. Bu yanaşma onu göstərir ki, ekoloji problemlərin və ekoloji təhlükələrin qarşısının alınması yalnız inzibati və texniki tədbirlərlə deyil, ilk növbədə təhsil vasitəsilə mümkün hesab edilir. Məhz bu baxımdan “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda ekoloji mədəniyyətin formalaşdırılması və davamlı inkişaf prinsiplərinin təhsil prosesinə inteqrasiyası əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir [2]. Bu sənəd ekoloji təhsili pedaqoji prosesin ayrılmaz tərkib hissəsi kimi qəbul edərək, onun prioritet istiqamət statusunu təsdiqləyir.

Bununla yanaşı, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan

Respublikasının Qanunu ekoloji maarifləndirmənin və ekoloji təhsilin hüquqi əsaslarını müəyyən etməklə, bu sahənin sistemli və məqsədyönlü şəkildə inkişafını normativ səviyyədə təmin edir [1]. Qanunda əksini tapan müddəalar ekoloji təhlükələrin qarşısının alınmasında maarifləndirmənin və təhsil prosesinin rolunu xüsusi vurğulayır. Beləliklə, ekoloji təhsil təkcə pedaqoji fəaliyyət sahəsi deyil, eyni zamanda dövlətin ekoloji təhlükəsizlik siyasətinin mühüm aləti kimi çıxış edir və müasir pedaqoji prosesdə prioritet istiqamət statusu qazanır.

Nəticə. Aparılan təhlillər və müxtəlif müəlliflərin elmi yanaşmalarının müqayisəli öyrənilməsi göstərir ki, ekoloji təhsil təkcə təbiətin mühafizəsinə yönəlmiş biliklər sisteminin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şəxsiyyətin dünyagörüşünün, dəyər yönümlərinin və sosial məsuliyyətinin formalaşmasında mühüm pedaqoji mexanizm kimi çıxış edir. Yerli və xarici tədqiqatçıların (ekoloji mədəniyyət, davamlı inkişaf və ekoloji təhlükəsizlik konsepsiyalarını irəli sürən müəlliflərin) mövqeləri sübut edir ki, ekoloji təhsil müasir pedaqoji prosesin prioritet istiqaməti olmaqla ekoloji təhlükələrin qarşısının alınmasında, regional və qlobal inkişafın təmin edilməsində, eləcə də demokratik cəmiyyətin formalaşmasında həlledici rol oynayır.

Müəlliflərin əksəriyyəti ekoloji şüurun formalaşdırılmasını davamlı inkişaf strategiyasının əsas şərti kimi qiymətləndirir və bu prosesin erkən yaşlardan başlayaraq sistemli şəkildə təşkil edilməsinin vacibliyini vurğulayırlar. Bu yanaşmalarla səsləşən müəllifin irəli sürdüyü əsas tezis ondan ibarətdir ki, ekoloji təhlükə anlayışı pedaqoji baxımdan yalnız elmi termin kimi deyil, həm də təlim-tərbiyə prosesinin məzmununda aparıcı kateqoriya kimi təqdim edilməlidir. Məhz bu halda təhsilalanlarda təbiətə qarşı məsuliyyətli münasibət, ekoloji riskləri dərk etmək bacarığı və sosial fəallıq formalaşa bilər.

Qeyd olunanları ümumiləşdirib bu nəticəyə gəlmək mümkündür ki, ekoloji şüura malik, məsuliyyətli və sosial baxımdan fəal şəxsiyyətin yetişdirilməsi yalnız demokratik prinsiplərə əsas lanan, beynəlxalq təhsil standartlarına uyğun və milli xüsusiyyətləri nəzərə alan ekoloji təhsil vasitəsilə mümkündür. Bu kontekstdə ekoloji təhlükə anlayışının pedaqoji prosesin əsas kateqoriyalarından biri kimi elmi əsaslarla təqdim edilməsi müasir təhsilin qarşısında duran prioritet vəzifələrdən biri kimi qiymətləndirilməlidir.

Problemin aktuallığı. Müasir dünyada iqlim dəyişikliyi, təbii resursların tükənməsi və antropogen təsirlər nəticəsində yaranan qlobal ekoloji problemlər pedaqoji prosesdə yeni yanaşmaların tətbiqini qaçılmaz edir ki, bu da tədqiqatın əsas aktuallığını təşkil edir. Ekoloji təhsilin yalnız təbiətşünaslıq biliklərinin ötürülməsi ilə məhdudlaşmayıb, həm də sosial məsuliyyət və aktiv vətəndaş mövqeyinin formalaşdırılmasında həlledici rol oynaması məsələnin strateji əhəmiyyətini artırır.

Problemin elmi yeniliyi "ekoloji təhlükə" anlayışının ilk dəfə olaraq pedaqoji prosesin fundamental kateqoriyalarından biri kimi təqdim edilməsində və bu anlayışın təlim-tərbiyə sisteminin məzmununa inteqrasiyasının zəruriliyinin əsaslandırılmasındadır. Eyni zamanda, ekoloji təhsilin demokratik prinsiplər əsasında qurulmasının regional inkişafın və sosial-mədəni dayanıqlığın gücləndirilməsində mühüm amil olduğu müəllif tərəfindən elmi cəhətdən dəyərləndirilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının “Ətraf mühitin mühafizəsi haqqında” Qanunu // 8 iyun 1999-cu ildə qəbul edilmişdir. – Bakı, 1999.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. – Bakı, 2013.
3. Əliyev, A.H. Ekoloji mühitin müasir vəziyyəti və ekoloji təhsil / A.H.Əliyev, Y.Q.Əliyev // “Ekoloji problemlər və ekoloji təhsil” mövzusunda respublika elmi konfransının materialları, Bakı: ADPU, – 23–24 aprel, – 2013. – s. 197.
4. Əliyev, T.N. Ekoloji menecment / T.N.Əliyev. – Bakı: Çinar-Çap, – 2006. – 454 s.
5. Muradova, E.Ə. Demokratik ekoloji təhsilin prinsipləri: Monoqrafiya / E.Ə.Muradova. – Bakı: Elm, – 2009. – 445 s.
6. UNESCO. Education for Sustainable Development / UNESCO. – Paris: UNESCO, – 2017.

Redaksiyaya daxil olub: 04.05.2026

UOT 37.01

Elvin Səfər oğlu Səmədov,
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun fəlsəfə doktoru proqramı üzrə doktorantı,
Lerik rayonu, Piran kənd tam orta məktəbinin direktoru
https://orcid.org/my-orcid?orcid=0009-0003-9902-4749
E-mail: esmes_tx@list.ru.

Əbdüləzim Tarix oğlu Talıbi
Lerik rayonu, Piran kənd tam orta məktəbinin direktor müavini
https://orcid.org/0009-0006-4718-6684
abdulazimtalibi@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).44-50

TƏHSİLDƏ MƏQSƏD VƏ METODİKANIN ƏHƏMİYYƏTİ

Elvin Safar Samadov
doctoral student at the Nasimi Institute of Linguistics of the Azerbaijan National Academy of sciences, director of full secondary school, of the Piran village of Lerik district

Abdulazim Tarikh Talibi
deputy direktor at full secondary school, of the Piran village of Lerik ddistrict

THE IMPORTANCE OF GOALS AND METHODOLOGICAL APPROACHES IN EDUCATIONT

Эльвин Сафар оглы Самедов
докторант по программе доктора философии Института Языкознания имени Насими Национальной Академии Наук Азербайджана,
директор Пиранской полной средней школы Лерикского района

Абдулазим Тарих оглы Талыби
заместитель директора Пиранской полной средней школы Лерикского района

ВАЖНОСТЬ ЦЕЛЕЙ И МЕТОДИКИ В ОБРАЗОВАНИИ

Xülasə. Məqalədə təhsilin məqsədlərinin aydınlaşdırılması araşdırılmış və onlar bir neçə qrupa bölünmüşdür. İlk olaraq təhsildə məqsəd məsələsi problem olaraq qoyulmuş, sonra isə bu anlayışa müxtəlif tərəflərdən baxış edilmişdir. Belə ki, təhsildə məqsəd vacib və əhəmiyyətli bir yanaşma olduğundan məqalədə bunlar tədqiqata cəlb edilərək onların üç yerə bölünməsi nəticəsinə gəlinmişdir. Burada dövlət, ictimai fə fərdi yanaşma baxımından təhsilin məqsədi təhlil edilmiş və hər bir yanaşmanın özünəxas cəhətləri və tələbləri, eləcə də faydalılığı müəyyənləşdirilmişdir. Məqalədə təhsilin məqsədinin düzgün təyin edilməsi onun faydalılığına edə biləcəyi müsbət təsir məsələsi xüsusi olaraq önə çəkilmişdir.

Məqalədə digər bir məsələ, “Metodika” məsələsi də tədqiqata cəlb edilmiş və ümumi yanaşma ilə təhlil edilmiş, xüsusən metodlar çoxluğu fikri önə çəkilərək onun faydalılığı təhlil edilmişdir. Bununla bərabər, metodlar çoxluğunda tədris prosesi zamanı sərbəstliyin təmin edilməsinin müsbət tərəfləri müzakirə edilmişdir. Həmçinin önəmli bir fikir olan təhsilin suni mühitdən metodların köməyi ilə təbii formaya

gətirilərək daha çox təhsilalanlar üçün faydalı olması fikri təhlil edilmişdir. Bunların fonunda məqalədə təhsilin cəmiyyət, dövlət və fərd üçün daha uğurlu ola biləcəyi fikri əsaslandırılaraq qeyd olunmuşdur.
Açar sözlər: *təhsil, təhsildə məqsəd, dövlət məqsədi, cəmiyyətin təhsildə məqsədi, təhsilalan məqsədi, təhsilə fəlsəfi yanaşma, metodika, metod, təbii tədris prosesi, estetik zövq, təhsilin faydalılığı, təhsilin dəyəri*

Abstract. This article explores the objectives of education and categorizes them into several groups. The issue of educational purpose is initially presented as a problem and subsequently analyzed from multiple perspectives. Recognizing the significance of educational goals, the study classifies them into three main categories: state, societal, and individual objectives. Each perspective is examined in terms of its distinct characteristics, requirements, and practical implications. The article emphasizes that a clear and accurate definition of educational goals positively influences the effectiveness of the learning process.

The study also addresses the topic of methodology, analyzing it from a general perspective. The multiplicity of teaching methods is highlighted, and their effectiveness is evaluated. The benefits of ensuring flexibility in the teaching process within this methodological diversity are discussed. Furthermore, the article examines the principle of aligning teaching methods with a natural learning process rather than an artificial environment, enhancing their utility for learners. Overall, the findings suggest that education can achieve greater success when aligned with the needs of society, the state, and the individual.
Keywords: *Education, goal in education, state objective, society's objective in education, learner's objective, philosophical approach to education, methodology, method, natural teaching process, aesthetic plasure, usefulness of education, value of education*

Аннотация. В статье рассматривается вопрос уточнения целей образования и предлагается их классификация по нескольким направлениям. Первоначально проблема цели в образовании ставится как самостоятельный научный вопрос, затем это понятие анализируется с разных точек зрения. Поскольку цель в системе образования является важным и значимым ориентиром, в работе она подробно исследуется, и в результате автор приходит к выводу о целесообразности выделения трёх основных групп. Цель образования анализируется с позиции государства, общества и личности. Для каждого подхода определяются его характерные особенности, требования и практическая польза.

Особое внимание в статье уделяется тому, что правильное определение целей образования напрямую влияет на его эффективность и результативность. Отдельно в статье рассматривается и вопрос методики. Он анализируется в общем теоретическом контексте, при этом подчёркивается идея многообразия методов и их практическая ценность. Также обсуждаются положительные стороны обеспечения определённой свободы в учебном процессе при использовании различных методов обучения. Кроме того, выдвигается важная мысль о том, что с помощью правильно подобранных методов можно приблизить искусственно организованную образовательную среду к более естественной форме, что делает процесс обучения более полезным и продуктивным для обучающихся. в целом в статье обосновывается идея о том, что при грамотном определении целей и выборе методик образование может быть более успешным и эффективным как для общества и государства, так и для личности.
Ключевые слова: *образование, цель в образовании, государственная цель, цель общества в образовании, цель обучающегося, философский подход к образованию, методика, метод, естественный процесс обучения, эстетический вкус, полезность образования, ценность образования*

Təhsilin məqsədi zaman-zaman filosofları, pedaqoqları düşündürmüş və bunun üçün fikirlər bildirmişlər. İlk olaraq qeyd etmək lazımdır ki, təhsilin məqsədinin düzgün müəyyənləşdirilməsi üçün təhsil fəlsəfəsini, müdrikliyini anlamaq lazımdır. Əks təqdirdə təhsilin məqsədini müəyyənləşdirmək uyğun olmaya da bilər və fərqli, bir-birinə zidd məqsədlərin ortaya çıxmasına gətirib çı-xaracaq. Sual edilə bilər: "Niyə fəlsəfi yanaşma?". Çünki fəlsəfə özü "müdrik yanaşması", "müdrikliyə sevgi" olduğundan və bəşəri dəyər və ideyaları birləşdirdiyindən fəlsəfi baxışın olması vacibdir. "Fəlsəfə "müdriklik sevgisi" deməkdir. Bu, kainatın və insan həyatının mahiyyətini və mənasını sistematik şəkildə araşdırmaq yolu ilə xüsusi bir hikmət axtarışıdır. Təhsil fəlsəfəsi isə dünyada təhsil düşüncələrinə və inkişaflarına təsir edən əsas fəlsəfi fikirlərin öyrənilməsidir" [5, s. 111].

Təhsildə məqsəd bir deyil, bir neçə maraq dairəsindən baxılaraq təyin edilməlidir. Bəzən bu məsələ qarışdırıldığı üçün təhsilin mahiyyəti itir, bu da birbaşa onun dəyər və faydalılığına mənfi təsir edir. Təhsilin məqsədi dövlət, "təhsilalan" və cəmiyyətin sosial sifarişi ilə üst-üstə düşməlidir. Qeyd olunan bu üçlük fonunda irəli gələn digər məsələlərlə (müasir dövr, texnologiyalar, əmək bazarı və s.) birgə təhsilin məqsədlərini seçmək lazımdır. Əgər bu üçlük nəzərə alınmazsa, təhsil uğurlu ola bilməz və təhsil inkişafa xidmət etməyəcək, fayda verməyəcəkdir.

Təhsil dedikdə, əlbəttə ki, tərbiyə onun ayrılmaz hissəsidir. Xüsusən, təhsilin öhdəlikləri məsələlərində ictimai davranış tərbiyəsi məsələsini xüsusi olaraq qeyd etmək lazımdır. Biz məqsəd seçimi dediyimizdə təkcə tədris materialını deyil, həmçinin cəmiyyət üçün faydalı bir insan yetişdirilməsini məqsədimizə daxil etməliyik. Çünki bir insanın cəmiyyət üçün yetişdirilib, formalaşmasının məkanı məhz təhsil ocaqlarıdır və insan ömrünün böyük bir hissəsi, xüsusi ilə formalaşma dövrü məktəb həyatı zamanı keçirir. Buna görə də, burada düzgün məqsəd seçilməsi çox məsuliyyətli və vacib bir məsələdir.

Problemin qoyulma ardıcıllığı ilə ilk olaraq ***dövlət marağı*** mövqeyindən təhsil məqsədinə yanaşmağı düşünürük. Sözsüz ki, cəmiyyətin, icmanın, toplumun özünüifadə və sözün hər mənasında dayanıqlı olmasının strukturlaşdırılmış forması dövlətdir. "Sokrat: -Düşündüyümə görə, bizlərdən hər birimiz öz-özünü təmin edə bilmədikdə və bir çox başqalarına ehtiyac duyduqda dövlət yaranır." [7, s.89]. Bu baxımdan onun davamlı və dayanıqlı olması vacib bir məsələdir və bunun dayanıqlı olmasının ən mühüm təminatçısı təhsil, təlim və tərbiyədir. Qeyd edilənlərdən də aydın görünür ki, dövlət təhsilin ona faydalı formada xidmət etməsi üçün daim maraqlı olmalı və bu strukturu qorumaq öhdəliyi olmalıdır. Bu yanaşma dövlətin üzərinə təhsilin məqsədini düz formada seçmək, onu qorumaq, dayanıqlığını təmin edərək daim nəzarətdə saxlamaq kimi məsuliyyətləri qoyur. Dövlət uzunmüddətli inkişaf strategiyası müəyyənləşdirməli və zamanın, dünyanın dəyişimi ilə ona fayda verən, onu qoruyan formada öz məqsədlərini davamlı şəkildə müəyyənləşdirməlidir. Əks halda dövlətin özünün inkişafı və özünüqoruması təhlükə ilə üzləşə bilər. "Məlumdur ki, təhsil hər hansı müstəqil dövlətin başlıca atributlarından biridir. Bu atribut cəmiyyətin inkişafında, onu təkamül prosesinə qovuşdurmaq işində müstəsna əhəmiyyətə malikdir. Ona görə ki, insan cəmiyyətinin yaranışını, quruculuq fəaliyyətini, inkişaf istiqamətlərini, formalaşma məzmu-

nunu, təkmilləşmə səviyyəsini təhsildən kənarda təsəvvür etmək mümkün deyil.” [8, s.240].

Dövlətin var olması və öz vətəndaşlarına xidmət etməsi üçün onun hər istiqamətdə kadrlarının olması vacibdir. Bunun vacibliyini həm vətəndaşının qayğısına qalması baxımından, həm də öz varlığını qoruması baxımından vacib hesab edə bilərik. Dövləti təşkil edən vətəndaş özünün tələblərinin ödənilməsi üçün buna ehtiyaclıdır. Həmçinin mənəvi dəyərlərə sahib olan vətəndaşın olması, sosial – ictimai münasibətlərdə cəmiyyətin müsbət inkişafına təsir edir ki, bu məsələ də dövlətin marağında olan bir məsələdir. Sağlam düşüncəli cəmiyyət, əlbəttə ki, sağlam bir dövlət və qorunma, dayanıqlılıq vəd edir. Belə bir dövlətdə inkişaf və rifah, sığortalanmış həyat daha möhkəm olacaqdır. Bunların hamısı birlikdə təhsilə bağlı məsələlər olduğu üçün dövlət təhsilə önəmli yer verməyi özü üçün prioritet olaraq seçməlidir. Həmçinin dövlət öz məqsədinə çatmaq üçün hər bir vətəndaşına təhsilin əlçatan və bərabər olmasını təmin etməli və təhsilin dəyərinin dayanıqlığının təminatçısı olmalıdır. Təhsilin dəyəri dedikdə biz əsasən onun təhsilalanlar üçün həm maddi, həm də mənəvi olaraq faydalı olmasını nəzərdə tuturuq. Çünki hər hansı məfhum o zaman dəyərli olur ki, o faydalı olur. Bunun üçün də təhsil cəmiyyətə, təhsilalanlara elə dövlətin özünə də faydalı olmalıdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bir dövlətin varlığı, uğurlu olması onun əhalisinin rifahı və həyat məmnuniyyətindən, onun iqtisadiyyatından, siyasi peşəkarlığından, siyasi gücündən, sağlam cəmiyyətindən, sağlam vətəndaşından, əxlaqi-etik dəyərlərindən, ümumbəşəri dəyər prinsiplərinə sahib insana sahib olmasından asılıdır. Qeyd edilənlər uğurlu, keyfiyyətli təhsillə bağlı olan məsələlər olduğundan, ona görə də dövlətin ən vacib vəzifəsi, məqsədi təhsildir. Bunlara sahib olmaq və dayanıqlı olaraq inkişaf etdirmək düzgün seçilmiş təhsil məqsədi ilə əlaqəlidir. Təhsilsiz bir cəmiyyətin mənfi təsirlərə məruz qalması, yaxud iqtisadi-sosial problemlərlə üzləşməsi qaçılmazdır, sözsüz ki, bu da dövlət üçün təhlükə olmaqla yanaşı, həm də ağır bir yükə çevrilmiş olacaqdır. Bun görə də, hər bir dövlət vətəndaşının təhsilli olmasına maraqlı olmalıdır. Çünki dövlətin vətəndaşı onun üzüdür.

Dövlət maraqları mövqeyindən yanaşanda birinci burada önəm veriləsi məsələ, əlbəttə ki, təhlükəsizlik yanaşması olmalıdır. Dövlətin yaranma səbəblərinə Sokratın yuxarıdakı fikirləri ilə yanaşdıqda bu zaman təhsilin bəlkə də birinci məqsədinin onun təhlükəsizliyini təmin edəcək insan yetişdirməsi istiqaməti əsas olmalıdır. Təhsilin məzmunu həm mənəvi formada ictimai şüur formalaşdırmağa, həm də fiziki olaraq praktik baxımdan dövlətin təhlükəsizliyini qoruya bilən bilik, bacarıq və vərdişlərə sahib cəmiyyət qurmağa köklənməlidir. Bir ifadə ilə qeyd etsək, ümumən, “insan kapitalı” dövlətin əsas maraq dairəsini təşkil etməlidir. “Pedaqoji prosesin strateji məqsədi – milli və ümumbəşəri dəyərləri gənc nəslə məqsədyönlü, planlı və mütəşəkkil aşılamaq yolu ilə respublikamızın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, dövlət müstəqilliyini qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməkdən ibarətdir. [4, s.41].

Təhsilin obyektinin təhsilalanlar olduğunu nəzərə alsaq, o zaman təhsilin birbaşa olaraq məqsəd dairəsinin təhsilalanlar olması şübhəsizdir. Təhsilin anlayışının öndə duran məqsədi təhsilalanların təmin olmasına yönəlməli və onların

formalaşmasına xidmət etməli, təhsilin məzmunu və funksiyası təhsilalanların tələbinin təmin olunması olmalıdır. Əlbəttə ki, bu kor-korana, kimin necə istəməsindən asılı deyil, burada yuxarıda da qeyd etdiyimiz dövlət, cəmiyyət, dəyərlər və s. kimi məsələlər nəzərə alınaraq icra edilməlidir. Yuxarıdakı ardıcıllığa əsasən, ***təhsilalanların tələbi*** məsələsinə nəzər yetirək; belə ki, təhsilalanlar deyərkən burada məktəb şagirdindən tutmuş, ali təhsil tələbəsi və ömürboyu təhsil benifisarları da daxil edilir. Cəmiyyətdə, ümumiyyətlə, həyatda insanın öz mövqeyini tutmaq üçün, onun savad meyarlarının hər hansı bir pilləsinə sahib olması mütləqdir. Düşünürük ki, bu məsələyə bir qədər geniş formada yanaşmağımız məqsədəuyğun olacaqdır. Nəzərə almaq lazımdır ki, tarixin keçmiş qatlarından bu yana insanın müəyyən bacarıqlara sahib olması zamanla cəmiyyət üçün vacib bir məsələyə çevrilmişdir. Çünki dəyişən, inkişaf edən cəmiyyət öz varlığını qorumaq üçün daha çox və daha mürəkkəb biliklərə sahib olmaq ehtiyacında olmuş və əldə edilən bilik, bacarıq və vərdişlər üçbucağı sözsüz ki, cəmiyyətin özünün varlığını qoruması üçün gələcək nəslə ötürülməli idi. Bu ötürülmə əlbəttə ki, təlim, təhisl yolu ilə mövcud ola bilərdi. Demək, təhsilin önəmli məqsədlərindən biri də bir insanın özünü cəmiyyətdə tapa bilməsi üçün ona biliklər verməsi və bu bilikləri bacarıqlara çevirməsi, həmçinin bunların fonunda yeni vərdişlər qazandırmasıdır. Bununla bərabər olaraq bildirmək lazımdır ki, zamanla əlaqəli olduğundan təhsilin təhsilalanlar üçün təşkili heç də eyni xətt üzrə davam etməmişdir, əlbəttə ki, müəyyən siyasi, iqtisadi quruluş və formalar təhsilin insanlara çatmasında müxtəlif mövqelər tutmuş və formalar təşkil etmişdir. Buna baxmayaraq, təhsil həmişə öz fəlsəfəsini – insanın cəmiyyətdə yaşaması üçün bilik, bacarıq və vərdişlər vermək xüsusiyyətini saxlamışdır. Məlum bir haldır ki, cəmiyyətin intellekt səviyyəsi aşağı olarsa, cəmiyyət inkişaf edə bilməz, onun dayanıqlı olması belə sual altında olmuş olacaq və daim mənfi təsirlərə məruz qalmış hala düşəcəkdir. Biz bunu təhsili zəif olan cəmiyyətlərin, dövlətlərin timsalında nümunə olaraq görə bilərik.

Yenidən təhsilin təhsilalanlar üçün dəyəri məsələsinə qayıtmaq istərdik. Təhsilin digər bir dəyəri də onun faydalı olmasıdır. Təhsil təkcə nəzəriyyələri əzbərləməklə faydalı ola bilməz, onun bacarıqlara çevrilməsi və əmək bazarında təhsilalanlar üçün fayda gətirməsi vacib bir məsələdir. Bununla yanaşı, təhsilin praktiki icrası üçün mühit, şərait mövcud olmalıdır ki, onun mənimsənilməsi rahat formada mümkün olsun. Əvvəl də dediyimiz kimi, dəyər o zaman yaranır ki, o fayda gətirsin. Təhsil təhsilalanlarının əmək bazarına hazırlanmasında vacib bir haldır. Həmçinin həyatı dərk etmək, həyati bacarıqları əldə etmək təhsilin məqsədinə çevrilməlidir.

Təhsilin məqsədinin təhsilalanlar üçün digər önəmli bir əhəmiyyəti onun insanın estetik zövqünün təmin etməsi olmalıdır. İnsan təkcə bacarıqlara sahib və əmək bazarına hazırlanan bir robot deyil, o həm də psixoloji bir varlıqdır. Onu insan edən həm də estetik zövqə sahib olmasıdır. İnsanın həyata baxışı, həyatdan zövq ala bilməsi, yaradıcılıq qabiliyyətinə sahib olması və bu kimi potensiallarının üzə çıxarılması, eləcə də reallaşdırlmasına yardım etmək kimi məsələlər təhsilin məqsədinə daxil edilməlidir.

Bir insanın cəmiyyətdə özünü ifadəsi, yanaşması, danışıq tərzi belə təhsilin məqsədi olmalıdır. Estetik tərbiyə fərdin mənəvi keyfiyyətlərini yüksəldir, cəmiyyət üçün yararlı üzvə

çevirir. Estetik tərbiyə təhsilalanların intellekt səviyyəsinə müsbət təsir edən, həmçinin humanizm, əxlaqi və digər prinsipləri cəmiyyətdə inkişaf etdirmək üçün önəmli amildir. “Estetik tərbiyə yalnız fərdi inkişaf üçün deyil, həm də daha harmonik bir cəmiyyətin qurulması üçün vacibdir.” [10.].

Fikrimizcə, estetik tərbiyənin özü də təhsilin dəyərli olması üçün əsasdır. Çünki estetik tərbiyə insanın həyatda zövq almasını təmin edirsə, əlbəttə ki, bu bir faydalılıq yaratmış olur və qeyd etdiyimiz kimi, faydalı olan dəyərdir və dəyər yaradır. Bu yanaşma ilə fiziki tərbiyəni də bura aid etmək düzgün olardı. Fiziki cəhətdən sağlam bir insan həm cəmiyyət, həm dövlət, həm də fərdin özü üçün faydalıdır.

Növbəti baxış kimi təhsilin məqsədi məsələsinə ***cəmiyyət*** formasında yanaşma edək. Belə ki, hər bir cəmiyyətin formalaşması və özünü inkişaf etdirməsi üçün, həmçinin bu qeyd edilənlərlə bərabər, cəmiyyətin etiq-əxlaqi dəyərlərinin qorunub-saxlanılması və dayanıqlı sağlam bir cəmiyyətin olmasından ötrü təhsilin əsas məqsədi fərdin cəmiyyət üçün yetişdirilməsi olmalıdır. Bu məsələ də təhsilin məzmunundan tutmuş, onun metoduna qədər olan hissələrində işlənilib hazırlanmalı və həyata keçirilməlidir.

Fikrimizcə, cəmiyyətlə münasibətdə təhsilin rolunu sıx bir formada qarşılıqlı əlaqədə olaraq nəzərə almaq daha məqsədəuyğundur. Çünki cəmiyyət özü insanın formalaşmasında önəmli rol oynayır və cəmiyyətin formalaşmasında, onun sağlam olmasında önəmli faktor təhsildir. “Təhsil cəmiyyətin bütün təhsil müəssisələrinin şəxsiyyətinə məqsədyönlü təsirlərdən, sosial-mədəni mühitin təsirindən və şəxsiyyətin özünün bu prosesin fəal subyekti kimi iştirakından ibarət sosial, sosial-mədəni prosesdir. Ətraf mühit insan cəmiyyətinin inkişafı və fəaliyyə tinin baş verdiyi təbii və sosial şəraitin məcmusu kimi şəxsiyyətə münasibətdə onun formalaşması və inkişafı üçün zəruri şərt kimi çıxış edir.” [6, s.430].

Hər bir cəmiyyət zamanın axarında özünü qorumaq, inkişaf etdirmək və gələcək nəslə sağlam cəmiyyət ötürmək məsuliyyətini daşıyır və daşımalıdır. Cəmiyyətin sağlam və dayanıqlı olması, sağlam düşüncəyə sahib formalaşması, heç şübhəsiz, təhsildən, təlimdən və tərbiyədən asılıdır. Təhsil bu öhdəliyi öz üzərində etməli və buna uyğun özünü formalaşdırmalıdır. Burada önəmli məsələ yenə də sosial sifariş məsələsinə qayıdır. Maraqlı səslənsə də, bunu sanki **“bumeranq”** olaraq düşünməyimiz daha məqsədəuyğundur. Belə ki, cəmiyyətin təhsilə düzgün sosial sifariş verməsi önəmlidir. Təhsil bu sifarişi öz üzərindən qurmalı və yenidən cəmiyyətin düzgün formalaşmasına xidmət etməlidir. Bu zaman belə bir sual yarana bilər: “Bəs cəmiyyət, həqiqətən, düzgün formada sosial sifarişi necə formalaşdırmalıdır?” Bu artıq çox ciddi, üzərində düşünüləsi bir məsələdir. Burada bir çox prinsiplər rol oynayır; düzgün formalaşdırılmış ənənə prinsipləri, ağsaqqallar institutu, dəyərlər, sosial institutlar, elmi-mədəni mərkəzlər, KİV, yazıçılar, ziyalılar, eləcə də dövlət marağı və s. Demək, təhsilin məqsədi sağlam cəmiyyət qurmaq olmalıdır ki, bunun sayəsində inkişaf və dəyərlər formalaşsın, həmçinin maddi-iqtisadi, mənəvi-estetik faydalılıq artsın, digər tərəfdən də sosial məsələlər cəmiyyət üçün uğurlu olsun.

Metodika

Metodikadan danışmazdan əvvəl ilk olaraq metodika sözünün verdiyi mənanı dəqiqləşdirək. Bu fikrimizi daha dəqiq və aydın ifadə etməyə kömək etmiş olacaqdır. Metodika pedaqoji ədəbiyyatda müxtəlif cür izah

edilsə də, mahiyyət etibarilə "Metodika sözü qədim yunan sözü olub, – tədqiqat yolu‖, – dərketmə qabiliyyəti‖ mənalarını verir." [2, s.8].

Təhsildə metod tədris materialının, eləcə də tərbiyənin təhsilalanlara müxtəlif yol və üsullarla çatdırılması sistemi kimi başa düşülə bilər. Bu metodları öyrənən, araşdıran elm sahəsi isə metodikadır. Həmçinin daha geniş çərçivədə təhsil məqsədinin təhsilalanlara çatdırlma yolu kimi də anlaşıla bilər. Bununla bərabər, xırdalıqla yanaşdıqda, daha dar çərçivədən baxılan zaman hər hansı bir fənnin tədrisi, yaxud, tədris olunan fənnin sinifdə çatdırılması üsulu kimi də qəbul etmək məqsədəmüvafiqdir. "Təhsildə "metodika" dedikdə, müxtəlif tədris proseslərində tətbiq edilən konkret üsulların, qaydaların, pedaqoji fəaliyyət texnikasının təsviri; "tərbiyə fəaliyyətinin qaydalar toplusu "nəzərdə tutulur" [11].

Təhsil, əlbəttə ki, çərçivəyə, ölçüyə salınmış, standartları müəyyən edilmiş, məzmunu formalaşdırılmış bir məfhumdur. Tarixin ənginlilərindən insan övladının əldə etdiyi biliklər, bacarıqlar metodlarla vərdiş halına gətirilib tədris prosesi zamanı təhsilalanlara ötürülür. Sözsüz ki, bu qeyd edilən məsələlər onu ***süni*** bir formaya gətirmiş olur. Bu da təhsilalanlar üçün öyrənmə prosesinin ağır bir bir proses olmasına gətirib çıxarır. Ona görə də metodikanın üzərinə çox böyük bir yük, məsuliyyət düşür. Təsəvvür etmək heç də çətin deyil ki, min illiklər ərzində əldə edilən tədris yükü, həyati bacarıqlar bəlli bir zaman kəsimində təhsilalanlara çatdırılması nə qədər çətin bir məsələdir. Bu baxımdan təhsilin təşkili zamanı mümkün qədər müstəqilliyin verilməsi, sərbəst mühitin yaradılması və metodlar çoxluğundan istifadə bu yükü, ağırlığı azaltmış olacaqdır. Bu formalı yanaşmanı biz keçmiş tarixdə də görə bilirik. Misal üçün Aristotelin liseyini, "Bu məktəbə, eyni zamanda Qərbdə "peripatetiklər məktəbi", Yaxın Şərqdə isə "məşayiə" demişlər ki, bu da "peripatos" kimi, eyni ilə "səyahət", "gəzinti" mənasını ifadə edir. Aristotel adətən Likey bağındakı xiyabanda gəzinti zamanı öz fəlsəfi müddəalarını şagirdlərinə şərh edərmiş" s.6 [1, s.6]. Platonun akademiyasını, yaxud Sokratın yanaşmasını (sorğu metodu) qeyd etmək olar. "Əslində Akademiyada (Platon Akademiyası. Müəllif) dərs deyilmir və ya dərs üsulu, yəqin ki, az yer tuturdu, əsas üsul ortaya məsələ, problem qoyub onu həll etməyə çalışmaq və dialoq idi (Sokrat metodu)." [9.]. Müasir dövrümüzdə inkişaf edən cəmiyyət, sosial münasibətlər, əmək bazarına daima yeni peşələrin daxil olması, yaxud digər Təhsilin tədris edilməsinin sadələşdirilməsinin yollarının, mexanizmlərinin formalaşdırılması daim düşünülməli və təcrübədən keçirilərək istehsalata onu yükləmədən tətbiq edilməlidir.

Təhsildə metod tədris materialının, eləcə də tərbiyənin təhsilalanlara müxtəlif yol və üsullarla çatdırılması sistemi kimi başa düşülə bilər. Peşələrin funksiyalarının azalması, sürətlə dəyişməsi, yeni peşələrin yaranması təhsil texnologiyalarından, metodlarından da yenilənməyi tələb edir. Texnologiyanın, cəmiyyətin sürətlə inkişafı, dəyişimi ilə əlaqəli olaraq artıq fərqli bir təfəkkürə sahib olan təhsilalan formalaşır ki, metod, üsul baxımından onun tələbləri artmış olur və bu da fərqli-fərqli metodlarla dərsin təşkilinə tələbat yaradır. Texnologiya ilə bərabər yeni psixoloji davranışa sahib olan təhsilalanlar standartlaşmış metod və üsullarla deyil, daha fərqli, metodlar çoxluğu, yaxud metodlar kombinasiyası ilə tədrisin təşkilinə maraqlıdırlar. Artıq dünyada formalaşmış yeni yanaşmalar, davranışlar fonunda

bunun tədrisdə nəzərə alınması mütləq bir hala çevrilmişdir. Bunun üçün ilk növbədə təhsil ocaqlarına müəyyən çərçivədə, xüsusən, təhsil texnologiyalarının tətbiqində, metodların icrasında sərbəstlik verilməli və məktəbin öz "yolunu" seçməsinə dəstək olunmalıdır. Əlbəttə ki, bu məsələ "hər kəsin öz istəyinə görə" düşüncəsi ilə deyil, tərtib edilmiş müəyyən üst standartlar əsasında qurulmalıdır. Lakin məktəbin, hətta deyərdik ki, hər bir təhsilverənin öz müstəqil seçimlərinə imkan yaradılmalıdır. Bunun təşkili üçün əsas olaraq məktəblərdə, yaxud digər formalarda müəyyən metodik birliklər yaradılmalı, davamlı müzakirələr edilməli və məktəb özünüidarə orqanları tərəfindən müzakirə edilərək icrasına qərar verilməlidir. Verilən sərbəstlik, metodlar çoxluğundan sərbəst istifadə etmək imkanları təhsilin tədrisinin təbii bir prosesə çevrilməsinə imkan yaratmış olacaqdır. Təhsilin təbii bir prosesə çevriləməsinə də yuxarıda dediyimiz kimi çox böyük ehtiyac vardır. Çünki belə olduqda təhsil daha faydalı olmuş olar. Burada önəmli məsələ təhsilalanların bilik, bacarıq və vərdişlərə sahib olmasının təmin edilməsi və öncə də qeyd etdiyimiz kimi, təhsil məqsədlərinə nail olunmasının təmin edilməsidir. Təhsilin təşkil edilməsinin ilk pillələrində duran məsələlərdən biri də metodika olduğundan düşünür ki, müəyyən məqamlarda sərbəstliyin verilməsi məqsədlərə çatmağa kömək etmiş olacaqdır. Əks təqdirdə tədris prosesinin ağırlığı, qeyri-təbiiliyi və fayda gətirə bilməməzliyindən təhsilin qarşısında duran hədəflərinə, məqsədlərə nail olmaq çətin olacaqdır. "Hazırda müasir məktəb şəraitində tədris metodları təhsilin məqsədlərindəki dəyişiliklər, sistem-fəaliyyət yanaşmasına əsaslanan yeni nəsil Təhsil Standartlarının tətbiqi ilə əlaqəli bir dövrdən keçir. Bütün bu hallar tədris metodları sahəsində yeni pedaqoji tədqiqatların aparılmasını, müasir tədris və informasiya texnologiyalarının işlənib hazırlanması və tədris prosesində tətbiqi ilə bağlı təlim və tərbiyənin innovativ vasitələri, forma və metodlarının axtarışını tələb edir." [3, s.273].

Əgər bir məkanda iş, hal, hərəkət varsa, orada prosesin baş verdiyini demək olar. Bu zaman deyə bilərik ki, proses varsa, orada metod, yanaşma da mövcuddur. Belə yanaşmaya əsasən deyə bilərik ki, metodika təkcə bizə məktəb mühitində deyil, həmçinin məktəbdənkənar və sinifdənxaric işlərin icrası zamanı da vacib hal olaraq lazımdır. Bu yanaşma istər distant, onlayn təhsil, yaxud evdə təhsilin müxtəlif formalarının icrası zamanı da mühüm alət olaraq gərəklidir. Yekun olaraq bildirmək istərdik ki, təhsilin metodikasını tışkil edən metod və üsullar, yanaşmalar çoxlu sayda mövcuddur və bəlkə də hər anın özünü idarə etmək üçün müəyyən bir yanaşmaya, metoda ehtiyac vardır və bu ehtiyac da metodlar çoxluğunun mövcud olmasına səbəb olmuş olur. Bunlardan düzgün istifadə və bu metodlar çoxluğuna çıxış imkanının olması təhsil üçün fayda gətirəcəkdir.

Nəticə. Nəticə olaraq qeyd etmək istərdik ki, təhsilin məqsədinin təyin edilməsi düzgün istiqamət və təhsilin keyfiyyətli olması üçün önəmlidir. Həmçinin burada təkcə məqsədlər barədə məlumat vermək yox, onları kateqoriyalaşdırmaq da vacibdir. Çünki ardıcıllıq və istiqamətin düzgün götürülməsi üçün məqsədlərin kateqoriyalara bölünməsi daha faydalıdır. Digər bir məsələ isə metodlar məsələsidir ki, metodlar üzərində tədqiqat işi aparılarkən nəticə olaraq aydınlaşmışdır ki, təhsildə metodlar çoxluğu və dərsin idarə edilməsində müəyyən sərbəstliyin verilməsi dərsin

keyfiyyətini artırır və tədrisin təşkilində müsbət təsir qoyur.

Problemin aktuallığı. Məlum bir haldır ki, müasir təhsildə artıq o qədər mürəkkəblik və yanaşmalar vardır ki, təhsilin məqsədinin düzgü olaraq təyin edilməsi çox vacib və bir o qədər də əhəmiyyətlidir. Çünki burada önəmli bir məsələ mürəkkəbləşmiş təhsil prosesi zamanı faydalılıq, dəyərlər, təhsilin aktuallığının qorunması kimi məsələlər önə çıxır. Bu baxımdan təhsilin məqsədinin dəqiq olaraq müəyyənləşdirilməsi olmadan təhsilin dəyəri, həmçinin faydası olmayacaqdır. B baxımdan mövzu olduqca aktualdır və təhsil prosesinin təşkili üçün nəzərə alınması vacibdir.

Problemin yeniliyi. Mövzuda təhsilin məqsədlərin daha fərqli üç baxımdan tədqiqi icra edilmişdir ki, bu yanaşmalar mövzunun elmi yeniliyi baxımından qeyd edilə bilər. Bu qeyd edilən yeni baxış təhsilin dəqiq yönləndirilməsi üçün çox əhəmiyyətli hesab edilə bilər. Bununla yanaşı, metodlar çoxluğu məsələsi önə çəkilmiş və metodlardan istifadə sərbəstliyinin təhsil prosesində istifadə edilməsi məsələsi önə çəkilmişdir. Həmçinin təhsilin suni prosesdən, təbii bir prosesə doğru yönlədirilməsi və onun bu zaman daha faydalı ola biləcəyi fikir irəli sürülmüşdür ki, bu düşüncə də elmi yenilik kimi qiymətləndirilə bilər.

Təhsil insan həyatının inkişafını təmin edən bir məfhumdursa, təhsili önəmli, faydalı və uğurlu edən onun məqsədidir. Sözsüz ki, bu məsələ çox ciddi və diqqət tələb edən bir məsələdir. Çünki təhsilə maraq və təhsili faydalı edən ilkin olaraq onun məqsədinin düzgün seçilməsidir. Yəni "Təhsil bizə niyə lazımdır?" sualını ciddi şəkildə sorğulayıb, təhlil edib bundan sonra hədəfləri müəyyən edərək ona doğru addımlamaq üçün metodlar seçmək lazımdır.

Problemin praktiki əhəmiyyəti. Məqalə təhsilə yeni baxış və çağırışlar üçün açar rolunu oynaya bilər və bu tədrisini yeni düşüncə olaraq qurulması yolunda praktik ideya kimi faydalı olacaqdır. Belə ki, məqalədə məqsədlər məsələsi bu istiqamətdə araşdırma edən, həmçinin yeni baxış tətbiq etmək istəyən təhsilverənlər üçün praktiki vəsait kimi faydalı olacaqdır. Həmçinin təhsildə metodika istiqamətində həm araşdırma etmək istəyən, həmçinin sinfin təşşkil edilməsi zamanı yeni ideyalar tətbiq etmək istəyənlər üçün əhəmiyyətlidir. Bununla bağlı təhsildə təbiiliyi təmin etmək istəyənlər üçün ideoloji və motivasiya baxımından bir yazı kimi qiymətləndirilə bilər.

Ədəbiyyat

1. Aristotel. Poetika:/ Aristotel. – Bakı: Şərq-Qərb,– 2006. –120 s.
2. Əmirov, M.M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası: / M.M.Əmirov. –Bakı: Yeni nəşr, –2011. –707 s.
3. İsmayılova, T. M. Coğrafiyanın Tədrisi Metodikası // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, –2023. Cild 90/№6, – s.272-275
4. Kazımov, N. M. Məktəb Pedaqogikası: Dərslik / N.M. Kazımov. – Bakı, Çıraq nəşriyyatı, – 2011. – 440 s.
5. Məmmədov, R.İ. Təhsildə Stratejli Planlaşdırma və İdarəetmə / R.İ. Məmmədov. –Bakı: Elm və Təhsil nəşriyyatı, –2023. –186 s.
6. Məmmədzadə, X.X. Şəxsiyyətin formalaşmasında ətraf mühit və təhsilin rolu // –Bakı: Qızlar Universiteti Elmi əsərlər, –2022. Cild 13/ №2 (50), – s.430-432
7. Platon (Əflatun). Dövlət: Platon. – Sumqayıt: Bilik nəşriyyatı, – 2014. –432 s.
8. Sadıqov, F. B. Pedaqogika: Dərs vəsaiti / Sadıqov, F. B. –Bakı: Adiloğlu nəşriyyatı, – 2009. –600 s.

9. Öztürk, H. Şahin V., Vuran S. Gürses İ. Professional Ethic Dilemma Solving Styles of Teachers in Special Education // - Türkiyə: Education and Science 2024, 49(218), - p.105-132. https:/ /e du ca tio nandscience.ted.org.tr/article/view/2133
10. H.A. İsaxanlı. Elm və fəlsəfə tarixi. Qədim dövr. "Mühazirələr" 5-ci mühazirə. Mətn [Electronic resource]. URL:https://khazar.org/uploads/files/demo/Lecture_5.pdf,https://khazar.org/az/item/111
11. Bəhman Hüseyn/ Estetik tərbiyə: Gözəllik duyğusunun formalaşması [Electronic resource].
12. URL:https://www.tehsil.biz/news/az/79689/Estetik-trbiy-Gzllik-duyusunun-formalamas
13. Azərbaycan Respublikası Təhsil İnstitutu/ Metodika [Electronic resource].
14. URL:https://www.arti.edu.az/az/page/16-metodika

Redaksiyaya daxil olub: 16.03.2026

UOT 37.01

Səadət Vaqif qızı Mənəfova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun mütəxəssisi
https://orcid.org/0009-0001-3664-9309
E-mail: saadattmanafova@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).51-56

MƏKTƏBLİLƏRİN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA MÜASİR PEDAQOGİKANIN ROLU

Saadat Vaqif Manafova
specialist at the Institute of Education of the Republic of Azerbaijan

THE ROLE OF MODERN PEDAGOGY IN THE FORMATION OF SCHOOL STUDENTS' PERSONALITY

Саадат Вагиф гызы Манафова
специалист Института Образования Азербайджанской Республики

РОЛЬ СОВРЕМЕННОЙ ПЕДАГОГИКИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ШКОЛЬНИКОВ

Xülasə. Bu məqalədə pedaqogikanın cəmiyyət və insan həyatındakı rolu, həmçinin müasir təhsil sistemindəki əhəmiyyətindən bəhs olunur. Qeyd edilir ki, məktəb yalnız bilik verməklə kifayətlənmir, eyni zamanda şagird şəxsiyyətinin formalaşmasına, mənəvi dəyərlərin aşılanmasına və sosial bacarıqların inkişafına xidmət edir. Müasir dövrdə pedaqogika sahəsində tətbiq olunan innovativ metodlar, interaktiv dərs üsulları və şagirdyönlü yanaşmalar təlim prosesini daha səmərəli edir.

Məqalədə məktəbin şagirdlərin şəxsiyyətinin formalaşmasındakı rolu xüsusi vurğulanır, müəllim, məktəb və valideyn əməkdaşlığının vacibliyi, şagirdə yaşına uyğun mərhələli nəzarət və istiqamətləndirmənin əhəmiyyəti izah olunur. Müəllimin fərdi yanaşma tərzi və müəllim–şagird münasibətlərinin qarşılıqlı hörmət və anlayış üzərində qurulmasının təhsilin keyfiyyətinə təsiri qeyd edilir. Eyni zamanda ötən əsrdə mövcud olan ənənəvi müəllim–şagird modeli ilə müasir, daha demokratik və əməkdaşlığa əsaslanan model müqayisə olunur.

Bundan əlavə, şagirdlərin ünsiyyət bacarıqları və yaşla bağlı baş verən psixoloji dəyişikliklər də diqqət mərkəzində saxlanılır. Ümumilikdə, məqalədə pedaqogikanın müasir inkişaf istiqamətləri və şagirdlərin hərtərəfli inkişafında məktəbin rolu ümumi şəkildə təqdim edilir.
Açar sözlər: *pedaqogika, müasir təhsil, innovativ təlim metodları, şagirdyönlü yanaşma, şəxsiyyətin formalaşması, müəllim–şagird münasibətləri, valideyn–məktəb əməkdaşlığı, ünsiyyət bacarıqları, yaş xüsusiyyətləri, təhsil modeli*

Abstract. This article discusses the role of pedagogy in society and human life, as well as its significance within the modern education system. It is emphasized that pedagogy is not limited to the transmission of knowledge; it also contributes to the formation of students' personalities, the development of moral values, and the enhancement of social skills. In the contemporary period, the application of innovative methods, interactive teaching techniques, and student-centered approaches in pedagogy makes the learning process more effective.

The article particularly highlights the role of the school in shaping students' personalities. It explains the importance of cooperation among teachers, schools, and parents, as well as the necessity of age-appropriate, gradual supervision and guidance for students. The impact of the teacher's individual approach and the establishment of teacher–student relationships based on mutual respect and understanding on the quality of education is also noted. Furthermore, a comparison is made between the traditional teacher–student model of the past century and the modern, more democratic and collaboration-based model.

In addition, attention is given to the development of students' communication skills and the psychological changes associated with different age stages. Overall, the article presents the contemporary directions of pedagogical development and outlines the role of the school in the comprehensive development of students.
Keywords: *pedagogy, modern school–parent cooperation, communication skills, age characteristics, educational model. education, innovative teaching methods, student-centered approach, personality development, teacher–student relationships*

Аннотация. В данной статье рассматривается роль педагогики в жизни общества и человека, а также её значение в современной системе образования. Отмечается, что педагогика не ограничивается лишь передачей знаний, но также способствует формированию личности учащегося, привитию нравственных ценностей и развитию социальных навыков. В современных условиях внедрение инновационных методов, интерактивных форм обучения и ученико-ориентированного подхода делает образовательный процесс более эффективным.

В статье особо подчёркивается роль школы в формировании личности учащихся. Раскрывается значение сотрудничества учителя, школы и родителей, а также важность поэтапного контроля и сопровождения ребёнка с учётом его возрастных особенностей. Отмечается влияние индивидуального подхода педагога и построения отношений «учитель–ученик» на основе взаимного уважения и понимания на качество образования. Также проводится сравнение традиционной модели взаимодействия учителя и ученика, характерной для прошлого века, с современной, более демократичной и основанной на сотрудничестве моделью.

Кроме того, внимание уделяется развитию коммуникативных навыков учащихся и возрастным психологическим изменениям. В целом статья представляет современные направления развития педагогики и раскрывает роль школы в всестороннем развитии личности учащегося.
Ключевые слова: *педагогика, современное образование, инновационные методы обучения, ученико-ориентированный подход, формирование личности, отношения «учитель–ученик», сотрудничество школы и родителей, коммуникативные навыки, возрастные особенности, модель образования*

“Tərbiyəçi özünü elə aparmalıdır ki, onun hər hərəkəti tərbiyə etsin və həmişə hər an nə istədiyini və nə istəmədiyini bilməlidir. Əgər tərbiyəçi bunları bilmirsə, bu halda o, kimi tərbiyə edə bilər?”

A.S. Makarenko

Müasir cəmiyyətdə təhsil sistemi yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda insan şəxsiyyətinin formalaşmasına, mənəvi dəyərlərin aşılanmasına və sosial bacarıqların inkişafına xidmət edir. Bu baxımdan pedaqogika insanın hərtərəfli inkişafını təmin edən mühüm elmi və praktik fəaliyyət sahəsi kimi çıxış edir. Təhsil vasitəsilə cəmiyyətin gələcək inkişafına təsir göstərən vətəndaşların yetişdirilməsi mümkün olur [1, 60–75]. Buna görə də pedaqogikanın cəmiyyətin həyatındakı rolu daim aktuallığını qoruyur və müasir dövrdə daha da əhəmiyyət daşıyır.

Pedaqogika yalnız dərs proqramının mənimsədilməsi ilə məhdudlaşmayan, eyni zamanda şagirdlərin dünyagörüşünün formalaşdırılmasına, onların sosial və mənəvi keyfiyyətlərinin inkişafına yönəlmiş kompleks bir prosesdir. Müəllim bu prosesdə yalnız bilik ötürən şəxs deyil, həm də tərbiyəçi, istiqamətverici və şəxsiyyətin inkişafına təsir göstərən əsas fiqurlardan biridir. Əsl müəllim yalnız elm öyrətmir, eyni zamanda şagirdin potensialının üzə çıxmasına, onun özünə inamının formalaşmasına və cəmiyyətə faydalı bir şəxsiyyət kimi yetişməsinə şərait yaradır.

Rus tarixçisi və alim-pedaqoq V. Klyuçevski müəllimin rolunu belə ifadə etmişdir: “Yaxşı müəllim olmaq üçün dərs dediyin fənni çox sevməli və eyni zamanda bu fənni kimə sevdirmək istəyirsənsə, onları da sevməlisən.” Bu fikir pedaqoji fəaliyyətin yalnız biliklə deyil, həm də humanist münasibət və mənəvi məsuliyyətlə bağlı olduğunu göstərir.

Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər pedaqogikanın yeni yanaşmalar və metodlarla zənginləşməsinə səbəb olmuşdur [2, s. 10–15]. İnnovativ təlim metodlarının tətbiqi, interaktiv dərs formalarının istifadəsi və şagirdyönlü yanaşmanın geniş yayılması təlim prosesinin səmərəliliyini artırır. Bu yanaşmalar şagirdlərin fəal iştirakını təmin edir, onların tənqidi düşünmə, ünsiyyət və problem həll etmə bacarıqlarını inkişaf etdirir.

Beləliklə, pedaqogika yalnız təhsil sahəsinin deyil, bütövlükdə cəmiyyətin inkişafına təsir göstərən mühüm bir sahə kimi çıxış edir. Müasir təhsil sistemi şagirdlərin hərtərəfli inkişafını təmin etməklə yanaşı, onların gələcək həyat fəaliyyətinə hazırlanmasına da xidmət edir [3, s. 25-35]. Bu baxımdan pedaqogikanın rolu yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda cəmiyyət üçün məsuliyyətli, düşünən və mənəvi dəyərlərə malik vətəndaşların formalaşmasına yönəlir [4, s. 25-35].

Pedaqogikanın şagird şəxsiyyətinin formalaşmasında rolu bir çox alim və tədqiqatçılar tərəfindən geniş şəkildə araşdırılmışdır. Elmi ədəbiyyatda təhsil yalnız biliklərin ötürülməsi prosesi kimi deyil, həm də insanın sosial və mənəvi inkişafını təmin edən mühüm mexanizm kimi qiymətləndirilir [5, s. 21-30]. Bu baxımdan pedaqogika fərdin cəmiyyətə inteqrasiyası, onun dəyərlər sisteminin formalaşması və sosial bacarıqlarının inkişafı ilə sıx əlaqəli elmi sahə hesab olunur.

Təhsil nəzəriyyəsinin inkişafında mühüm rol oynamış alimlərdən biri Con Dyui olmuşdur. Onun fikrincə, təhsil yalnız nəzəri biliklərin mənimsənilməsi deyil, eyni zamanda həyat təcrübəsi ilə bağlı olan sosial

prosesdir. Dyui təlim prosesində şagirdin fəal iştirakını və praktiki fəaliyyətə əsaslanan öyrənməni vacib hesab etmişdir. Bu yanaşma müasir pedaqogikada fəaliyyətli və şagirdyönlü təlim metodlarının formalaşmasına təsir göstərmişdir.

Lev Vıqotskinin sosial-mədəni inkişaf nəzəriyyəsi də pedaqogikanın elmi əsaslarının formalaşmasında mühüm yer tutur. O qeyd edirdi ki, uşağın idrak inkişafı sosial mühit və qarşılıqlı fəaliyyət vasitəsilə baş verir. Vıqotskinin "yaxın inkişaf zonası" anlayışı müasir təlim prosesində müəllimin istiqamətləndirici rolunun əhəmiyyətini göstərir.

Müasir pedaqoji tədqiqatlarda müəllim–şagird münasibətlərinin təhsilin keyfiyyətinə təsiri xüsusi vurğulanır. Hattie tərəfindən aparılmış genişmiqyaslı tədqiqatlar göstərir ki, müəllimin peşəkarlığı, şagirdlərlə qurulan etibarlı münasibətlər və müsbət psixoloji mühit təhsil nəticələrinə birbaşa təsir göstərir [6, s.10-11]. Bu baxımdan müəllim yalnız bilik ötürən deyil, həm də motivasiya yaradan və inkişaf üçün şərait formalaşdıran əsas şəxs kimi çıxış edir.

Son illərdə pedaqogika sahəsində aparılan beynəlxalq tədqiqatlar göstərir ki, təhsil sistemində innovativ metodların tətbiqi şagirdlərin öyrənmə motivasiyasını və akademik nəticələrini artırır [7, s. 1-12]. İnteraktiv təlim metodları, problem əsaslı öyrənmə və layihə əsaslı fəaliyyətlər şagirdlərin tənqidi düşünmə və yaradıcılıq qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir.

The scientific novelty of the study lies in the fact that, based on the communicative and intercultural potential of the English language subject, the integrative development of citizenship qualities has been consistently analyzed, and the pedagogical possibilities of this process have been comprehensively addressed from theoretical and methodological perspectives.

The relevance of the topic is that, in the conditions of new globalization and social transformation, higher education institutions are faced with an important task of not only providing high-level competencies but also socially responsible, conscious, and active citizens. In a rapidly changing world, universities are expected to prepare graduates who can adapt to multicultural environments, engage in constructive dialogue, and contribute to democratic and inclusive societies. This requires a holistic approach to education that combines professional knowledge with civic values, ensuring that students are not only skilled specialists but also ethically aware and socially engaged individuals. The study addresses this pressing need by linking language education with broader social objectives, thereby positioning English language teaching as a powerful tool for civic development and intercultural understanding.

The essence of the research is defined by the possibility of utilizing the obtained results to enrich the content of the English language subject in higher education institutions with citizenship components. This enrichment involves embedding civic themes, ethical considerations, and intercultural awareness into language curricula, thereby strengthening the educational function of teaching. The study emphasizes the creation of new teaching models based on interdisciplinary integration, where language learning is connected with disciplines such as history, sociology, and cultural studies. Such models not only enhance students' linguistic proficiency but also cultivate their civic identity, critical thinking, and social responsibility. By proposing innovative approaches to curriculum design and teaching practice, the research contributes to the modernization of higher education and ensures that language education becomes a dynamic platform for both academic and civic development.

Conclusion

The conducted scientific-theoretical analysis shows that the use of interdisciplinary integration in the formation of citizenship qualities in students acts as one of the priority directions of the modern education system. Teaching the English language subject in the context of interdisciplinary integration has a significant pedagogical potential in the formation of civic consciousness, social responsibility and a way of thinking based on democratic values in students. In this regard, the purposeful enrichment of the content of the English language subject in higher education institutions with citizenship components should be considered a scientifically and pedagogically justified and promising approach.

References

1. Şiriyeva, Z. Şəxsiyyətin sosiallaşması vətəndaşlıq tərbiyəsi kontekstində // Azərbaycan məktəbi, 2022, № 3.
2. Bakı: Rudik, Z.,Gerfanova, E., Dalbergenova, L., & Naviy, L. (2025). Intercultural citizenship in foreign language education: A study with Kazakhstani pre-service English teachers // Journal of Curriculum Studies Research, 7(2). https:// doi. org/ 10. 46303/ jcsr. 2025.18
3. Gerfanova, E., & Rudik, Z. (2024). Intercultural citizenship in the EFL classroom: A survey on Kazakhstani teachers' perceptions. PUPIL:

International Journal of Teaching, Education and Learning, 8(2), 62–75. https://doi.org/10.20319/pijtel.2024.82.6275
4. Kalogerogianni, F. (2025). Teaching in multicultural classrooms through an intercultural perspective on citizenship. Frontiers in Education, 10, Article 1581833. https:// doi. org/ 10. 3389/ feduc.2025.1581833
5. Bayyurt, Y. (2022). Intercultural citizenship and pre-service teacher education. Journal of English as a Lingua Franca, 11(1). Intercultural citizenship and pre-service teacher education
6. UNESCO. (2015). Global citizenship education: Topics and learning objectives. UNESCO. Global citizenship education: topics and learning objectives - UNESCO Digital Library
7. Naghiyeva, G., & Hasanli, F. (2025). The role of modern and patriotic Azerbaijani youth in various fields. *Porta Universorum, 1*(3). https://doi.org/10.69760/portuni.010312

Redaksiyaya daxil olub: 29.04.2026

UOT 37.01

Səminə Sabir qızı Abdullayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6540-3036
E-mail: samina.abdullayeva.80@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).80-85

AZƏRBAYCAN DİLİNDƏ NİSBİ MƏHDUD İŞLƏNƏN SÖZLƏRİN NORMASI

Samina Sabir Abdullayeva
senior lecturer at Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy,

THE NORM OF RELATIVELY LIMITED-USE WORDS IN THE AZERBAIJANI LANGUAGE

Самина Сабир гызы Абдуллаева
старший преподаватель
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

НОРМА ОТНОСИТЕЛЬНО ОГРАНИЧЕННО-УПОТРЕБЛЯЕМЫХ СЛОВ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Xülasə. Azərbaycan dilində bir qrup sözlər vardır ki, onlar leksikonda geniş işlənmə mövqeyinə malik olmurlar. Belə sözlər ya hansısa sosial-ictimai koloriti canlandırır və ya ayrı-ayrı mütəxəssislərin, o cümlədən, sənətkarların və peşəkarların dilində işlənir. Belə sözlər dilin ümumi leksik qatına daxil olur və lüğət tərkibinin ümumi zənginliyini təcəssüm etdirir. Azərbaycan dilinin leksikonunda fəal və ümumişlək səciyyə qazanmayan belə sözlər lüğət tərkibinin bir hissəsi olduğundan onları nisbi məhdud işlənən söz qrupu kimi nəzərə almaq mümkündür. Azərbaycan dilində intensiv işlənə bilməyən bu tipli sözlər qrupuna arxaizmləri, dialektizmləri və o cümlədən, terminoloji leksikanı daxil etmək mümkündür. Arxaizmlər dilin sinxronik qatında məhdud işlənməklə tarixi, ictimai, məişət və digər etnoqrafik anlayışları əks etdirir, milli-etnik kolorit yaradır. Bu, arxaizmlərin ümumi normasını səciyyələndirir. Dialektizmlərdə həm tarixi-diaxronik, həm də müasir-sinxronik anlayışlar bildirilir. Dialektizmlərdə, həmçinin, yerli, etnik mentallıq xüsusiyyətləri ifadə olunur. Müəyyən qisim dialektizmlər, hətta, ümumişlək leksik fonda da daxil ola bilir. Bununla da dialektizmlərin yerli, lokal, areal anlayışlı tiplərində norma qeyri-sabitliyi müşahidə edilir. ümumişlək fonda keçən dialektizmlərdə isə sabit norma bərqərar olunur. Terminlərin ayrı-ayrı fəaliyyət sahələrinə aid olan qismi icbari nitq aktı norması üzrə işlənir. Ümumişlək fonda daxil olan qismi isə həm danışıq, həm də yazı dilində sabit norma qazana bilir.

***Açar sözlər**: arxaizmlər, dialektizmlər, terminlər, leksik norma, Azərbaycan dili, məhdud işlənən sözlər, lüğət tərkibi*

Abstract. In the Azerbaijani language, there exists a group of words that do not have broad possibilities of usage in the lexicon. Such words either reflect a certain socio-cultural context or are used in the speech of specific specialists, including artists and professionals. These words belong to the general lexical layer of the language and reflect its rich lexical diversity. Words of this type, which do not acquire an active and general-usage character in the Azerbaijani lexicon, can be considered a group of relatively limited-use vocabulary, as they are still part of the overall lexical system. This group includes archaisms, dialectisms, and terminological vocabulary. Archaisms, within the synchronic layer of the language, have limited usage and reflect historical, social, everyday, and other ethnographic concepts, creating a national and ethnic color. This constitutes the general norm of archaisms.

Dialectisms express both historical-diachronic and contemporary synchronic concepts. They also reflect local ethnic features of mentality. A certain part of dialectisms may enter the general vocabulary, as a result of which instability of norm is observed in their local and regional forms, whereas in the general vocabulary stable normative functioning is established. Terms related to specific fields of activity function in accordance with the norm of obligatory speech usage. Those that enter the general lexical fund may acquire a stable norm in both spoken and written language.

***Keywords:** archaisms, dialectisms, terms, lexical norm, Azerbaijani language, words of limited usage, vocabulary*

Аннотация. В азербайджанском языке существует группа слов, не обладающих широкими возможностями употребления в лексиконе. Такие слова либо отражают определённый социально-общественный колорит, либо используются в речи отдельных специалистов, включая деятелей искусства и профессионалов. Подобные слова входят в общий лексический слой языка и отражают его богатое словарное разнообразие. Слова такого типа, не получающие активного и общеупотребительного характера в лексике азербайджанского языка, поскольку они являются частью словарного состава, можно рассматривать как группу слов с относительно ограниченным употреблением. К данной группе слов, которые не могут активно функционировать в азербайджанском языке, относятся архаизмы, диалектизмы, а также терминологическая лексика. Архаизмы в синхронном слое языка имеют ограниченное употребление и отражают исторические, социальные, бытовые и другие этнографические понятия, создавая национально-этнический колорит. Это и составляет общую норму архаизмов. В диалектизмах выражаются как историко-диахронические, так и современные синхронические понятия. Они также отражают местные этнические особенности менталитета. Определённая часть диалектизмов может переходить в общеупотребительный словарный фонд, в результате чего в их локальных, региональных типах наблюдается нестабильность нормы, тогда как в общеупотребительной лексике устанавливается устойчивое нормативное функционирование. Термины, относящиеся к отдельным сферам деятельности, функционируют в соответствии с нормой обязательного речевого употребления. Их часть, вошедшая в общеупотребительный фонд, может приобретать устойчивую норму как в устной, так и в письменной речи.

***Ключевые слова:** архаизмы, диалектизмы, термины, лексическая норма, азербайджанский язык, слова ограниченного употребления, словарный состав*

Arxaizmlər dildə bir zaman qazanmış, sonradan isə hansısa mövcud olmuş, fəal işlənmə keyfiyyəti ictimai proseslə, tarixi hadisələrlə,

müəyyən həyati dəyişikliklərlə əlaqədar informasiya əhəmiyyətini itirən və ya zəiflədən söz qruplarından ibarətdir. Arxaizmlərin baş verməsinə ictimai-siyasi yeniliklər, iqtisadi, mədəni həyatda və məişətdə baş verən dəyişikliklər, insanların ayrı-ayrı fəaliyyət sahələrindəki irəliləyişlər və hətta başqa dillərə məxsus alınmalar da təsirsiz və səbəbsiz deyildir. Məsələn, *artıq, darğa, töycü, koxa, kəndxuda, katta, yasovul, çavuş, çərçi, yüzbaşı, biyar, yüzbaşı, pristav, uryadnik, qaradavoy* və s. kimi sözlər ictimai-siyasi quruluşda, idarəetmədə və s. yeniləşmə baş verməsi səbəbindən zamanın tələbindən geri qalaraq işləklik əhəmiyyətini itirmişlər. Yeni ictimai-siyasi quruluşda artıq həmin sözlərə aid anlayışı bildirən sistem olmadığından onlar sıradan çıxmağa başlamışlar. Həmçinin, *toxa, vəl, şana, hodaq, cüt, xış, dəryaz, kərənti kimi təsərrüfat alətləri, tağır, istil, girvənkə, batman, çərək, arva* və s. *kimi ölçü adları, çuxa, çul, qaftan, araqçın, qanovuz, çəpçək, arxalıq, çarıq, qurşaq, ləbbadə, patava, qondura, şiş papaq, fəs motal papaq, belbağı, sirtöv, dolaq* və s. kimi geyim geyimlə bağlı ad bildirən adlar: *nizə, toppuz, qalxan, gürz, sadaq* və s. kimi silah adları bildirən sözlər ictimai-siyasi həyatda baş verən yeniləşmələrin təsiri altında leksik-semantik deqradasiyaya məruz qalmışlar. Lakin müəyyən məqamlarda, xüsusən leksik-semantik anlayış baxımından zamanın tələbindən geridə qalmış belə sözlərdən müəyyən ictimai-tarixi koloriti canlandırmaq üçün istifadə edilə bilər.

Arxaizmlərin bir qismi isə yeni əvəzedici qarşılıq müqabilində başqa dildən söz daxil olması səbəbindən baş verir. Məsələn, qədim mənbələrdə və klassik mətnlərdə işlədilən *əsən* sözü *sağ, dün* sözü *gecə, yanşaq* sözü *aşıq, yəxni* sözü *qovurma, qu* sözü *səs, kölük* sözü *yorğa, aydır* sözü *deyir, irişmək* sözü *yetişmək, yey* sözü *yaxşı, yazı* sözü *çöl, bayımaq* sözü *varlanmaq, kəpənək* sözü *yapıncı, şülən* sözü *qonaqlıq, yaşırmaq* sözü *gizlətmək, yond* sözü at, yovuz sözü *acıqlı*, *yalın* sözü *çılpaq, ədük* sözü *çəkmə, qılavuz* sözü *bələdçi, qutlu* sözü *uğurlu, arı* sözü *təmiz* və s. qarşılıqları müqabilində köhnəlmişdir. Görünür əvəzedici sözlər müvafiq anlayışı daha intensiv şəkildə çatdıra bilmişdir.

Həmçinin, qədim sözlərin bir qismi dilə daxil olan əcnəbi qarşılıqlara görə sıradan çıxmağa üz qoymuşdur. Məsələn, *sayru* sözü ərəb mənşəli *xəstə, uçmaq* sözü *cənnət, ayna* sözü cümə, *al* sözü *hiylə*, *us* sözü *ağıl, ud* sözü *həya, danla* sözü *sabah, tüp* sözü *mərkəz, əsən* sözü *salamat*, *yüklü* sözü *hamilə*; *güz* sözü fars mənşəli *payız, yayaq* sözü *piyada*, *əsrük* sözü *sərxoş, ağız* sözü *sərhəd* kimi sözlərin qarşılığında arxaizmləşmişdir.

Buradan göründüyü kimi, dilə daxil olan əcnəbi sözlər ictimai mühitdə sosioloji və psixoloji aura yaratmaqla intensivləşə bilmiş və milli sözlərin sıradan çıxmasına təsir göstərə bilmişdir. Əlbəttə ki, arxaik milli sözlər xalqın keçmiş ictimai-siyasi, mədəni-məişət və psixoloji dünyagörüşünü canlandıran dil vahidləri kimi maraqlıdır, mənbələrdə mühafizə olunur, tarixi hadisələrlə bağlı əsərlərdə yerli, milli, ictimai-psixoloji təəssüratların canlandırılması vasitəsi kimi işlənir. Hətta mümkündür ki, onların müəyyən qisminin reablitasiyası da baş verə bilsin.

Yaxşı haldır ki, arxaizmlərin leksik-semantik xüsusiyyətləri millilik baxımından təhlil olunur [7, s.99-100], eyni zamanda arxaizmlər lüğəti hazırlanmışdır [9, I c., 468 s; II c., 450 s.; III c., 477 s.] (lüğət haqqında geniş rəylər də yazılmışdır [6]. Arxaizmlər müasir dildə norma hüquqlu sayılmasalar da qədim və klassik

mətnlərdə öz normasını saxlayır, müasir bədii mətnlərdə isə ancaq üslubi norma üzrə işlədilir: “Restoran sahibi də başında *araqçın*, döşündə döşlük qazanlardan müştərilərin istədikləri xörəkləri çəkib verir” (Ə. Haqverdiyev) [2, s. 127]. “Kişi arxalıq, çuxanı atıb kostyum, qalstuk geymişdi, papağını çıxarıb fəs qoymuşdu” (B. Talıblı) [2, s.133-134]. “Vəliqulu kənarda çömbəlib başladı çarıqları çıxartmağa” (C. Məmmədquluzadə) [2, s. 447].

Dialektizmlər. Dialektizmlər dialekt və şivələrə xas olan, yalnız işlədildiyi areal üçün səciyyəvi sayılan və həmin areal səviyyəsində ixtiyari nitq aktı üzrə sərbəst normaya malik olan söz qruplarıdır. Dialekt leksikası areal səciyyəli olduğu üçün hər bir ayrı dialektdə özünəməxsus norma müşahidə edilir. Bu baxımdan dialekt leksikası məhdud çərçivədə işlənən söz qrupları hesab edilir.

Dialekt və şivələrdə işlənən sözlərin bir qismi ancaq dialekt həndəvərində qaldığı halda müəyyən qismi özünün informasiya intensivliyini genişləndirmək qabiliyyətinə də malikdir. Dialektizmlərin bu qismi informasiya intensivliyini genişləndirməklə hətta ümumişlək sözlər qrupuna daxil ola bilir. H. Həsənov yazır ki, “*Ümumxalq dilinin formalaşması prosesində dialekt sözlərinin xeyli hissəsi geniş dairədə işlədilən ümumxalq xarakteri almış, ədəbi dildə işlədilir*: *çeşid, pardax, bardaş, dənəvər, ödək, ayrıc, tıxac, alışqan, örüş, sovruq, davar, qaysaq, sırsıra* və s.” [3, s.284].

Dialekt leksikası məhdud çərçivədə işlənməsinə baxmayaraq ümumilikdə dilin lüğət tərkibinə daxil olan sözlərin məcmusudur, areal səviyyədə işlənsə də belə insanların gündəlik həyatında vacib informasiyaları ifadə etməklə ictimai və işgüzar kommunikasiyaların yerinə yetirilməsinə xidmət göstərir. Odur ki, dialekt leksikasından bədii obrazlılıq, yerli kolorit yaratmaq və personajları səciyyələndirmək məqsədi ilə istifadə edilir. B. Xəlilov yazır ki, “*Dialekt və şivə sözləri bədii ədəbiyyata yazıçılar vasitəsi ilə yol tapır, bununla da ədəbi dil ilə dialekt və şivələr arasında əlaqə yaranır... dialekt və şivə sözləri daha çox nəsr əsərlərində obrazların nitqini fərdiləşdirmək, üslub rəngarəngliyi və xarakterləri yaratmaq, yerli koloriti, xalq məişətini, həyat tərzini vermək üçün üslubi vasitələrdən birinə çevrilir*” [5, s.100-101].

Bu sahədə C. Cabbarlının, M. Müşfiqin, Ə.Vəliyevin, S.Rəhimovun, M.İbrahimovun, Mir Cəlalın, İ.Əfəndiyevin, İ.Şıxlının, M. Süleymanlının xüsusi xidmətlərini qeyd etmək mümkündür. Dialektizmlər xalq həyatının incə məqamlarını canlandıran elə söz qruplarıdır ki, “*Bədii əsərlərdə, kənd həyatının real təsvirini vermək, obrazları fərdiləşdirmək vasitəsi kimi istifadə edilir. Dialektizmlər xalqın geniş həyat tərzi, geyim və adətlərinin təsviri üçün əhəmiyyətlidir*” [1, s.282]. Bədii mətndə dialektizmlərin işlədilməsinə dair aşağıdakı kimi nümunələri misal göstərmək olar: “*Qoyunlar güneylərdə görəniyir, keçilər həmərsin kollarının başını dişləyir, boynu qumrovlu erkəclər arabir səs eləyir, qoyun itləri gah həvirləşir, gah da* həvirləşirdi” [11, s.11]; “Onun papağına dörd *tolamaz* birdən dəydiyi üçün papağın sağanağı *şiltə-şiltə* oldu” [11, s.11];

“Gün getdikcə *yağlanır*, qoyun *kürnəc* bağlayır, köç *dəhmərlənib* gedirdi” [11, s.12]; “*Ayağımızı astanadan içəri qoyanda arxası üstə yerə sərilmiş bir qadın gördük*” [11, s.15]. Bu cümlədəki *görənimək* (sıxlaşmaq), *həmərsin* (itburnu kolu), *həvirləşmək* (yaxınlaşmaq), *tolamaz* (zərbə), *şiltə-şiltə* (tikə-tikə, parça-tikə), *yağlanmaq* (yuxarı qalxmaq), *kürnəc* (baş-başa çatılmaq), *dəhmərlənmək* (yeyin hərəkətə gəl-

mək), *astana* (kandar) sözləri bədii təsvirdə kənd həyatı və məişətinin bir mənzərəsini əks etdirir. Sözlər cümlədə elə işlənir ki, mətndən onların ümumi mənasını duymaq mümkün olur. Bu da dialektizmlərin bədii mətndəki sənətkar yanaşması əsasındakı üslubi, sərbəst normalılığını təcəssüm etdirir.

Terminlər. Terminlər ənənəvi olaraq məhdud dairədə işlənən söz qruplarına daxil edilir. Lakin elm, texnika, iqtisadiyyat, və digər kommunikasiya sahələri inkişaf etdikcə terminlərə olan ehtiyac artır və onların işlənmə potensialı daha da dərinləşir. Terminlər insanın həyat fəaliyyəti sahəsinə aid olan ən ümumi anlayışları özündə əks etdirir, konkretləşdirir, yığcamlaşdırır, fərdiləşdirir. Məsələn, insanın əmək fəaliyyəti sayəsində bir zaman formalaşmış *xış* sözü terminə çevrilərək şumlamada istifadə edilən, şumlanmış torpağın yumşaldılması üçün işlədilən bir alət anlayışını özündə ümumiləşdirmişdir.

Cüt sözü də yeri şumlamaq üçün at, öküz və ya qatır qoşulan kənd təsərrüfatı alətinin adı kimi terminləşmişdir. *Vəl* sözü etnoqrafik ərazilərdə taxıldöyən alət kimi formalaşmış termin olmuşdur. "*Vəl ağır və möhkəm oduncaqlı ağacdan, əsasən palıddan düzəldilirdi. Yerli iqlim şəraitindən, taxıl növünün bəlimindən və qoşqu qüvvəsindən asılı olaraq vəlin tay və qoşa olmaqla quruluşca iki növünə təsadüf edilirdi*" [10].

Kənd təsərrüfatı işlərində xış dedikdə yeri şumlayıb yumşaldan, cüt dedikdə qoşqu heyvanlarına qoşulan əkin aləti, vəl dedikdə taxılı döymək üçün işlədilən alət təsəvvürü yaranırdı. Artıq insan intellektinin inkişafı sayəsində həmin alətlər köhnəlmiş, yeniləri peyda olmuş və onlara aid adlar da yeni terminologiya ilə ifadə olunmuşdur. İnsanların ətraf aləmlə inteqrasiya mühiti məhdud olduğu dövrlərdə təsərrüfat, iş alətləri də məhdud dil çərçivəsində yaranıb işlədilmişdir. Cəmiyyətdə inteqrasiyalar artdıqca, intellektual potensial genişləndikcə zəruri terminlər onlara aid vasitələrin icad edildiyi xalqların dilindən də daxil olmağa başlamışdır. Belə ki, yeniliklər hansı məkanda, hansı xalqda, hansı cəmiyyətdə, baş verirsə terminlər də həmin xalqın dilindən başqalarına yayılmış olurdu. Yeniləşmə insan intellektinin inkişafı ilə bağlı olduğu üçün zaman-zaman formalaşmış və müvafiq ifadə vasitəsi qəlibində yayılaraq qavranılmış, mənimsənilmiş və işlədilmişdir, hər zaman olduğu kimi müasir dövrdə də yeniliklər ayrı-ayrı xalqlarda baş verir və baş verdiyi məkanda da adlandırılır.

Lakin yarandığı yerdən asılı olmayaraq yenilikləri əks etdirən terminlər daha çox beynəlxalq informasiya məkanında dominant mövqe tutan ingilis dili vasitəsi ilə yayılır. İnsanların həyat fəaliyyətinə aid sahələr müasir dövrdə çoxşaxəli olduğu üçün terminologiya şəbəkəsi də genişlənir. Odur ki, hər hansı sahəyə aid olan terminlər bilavasitə həmin sahə mütəxəssisləri üçün, həmin iş rejimində çalışan insanlar üçün daha anlaşıqlı olur. Məsələn, filoloqlar üçün filologiya sahəsindəki terminlər nə qədər aydındırsa riyaziyyat sahəsinə aid terminlər də riyaziyyatçı üçün o qədər anlaşıqlı olur. Yaxud kənd təsərrüfatı sahəsinə aid terminlər kənd təsərrüfatı işçiləri üçün aydın olduğu halda maşınşünaslıq texnologiyalarına aid terminlərin anlaşılması onlar üçün asan olmaya bilər, hərçənd ki, bəzi terminlərin universal şəkildə ayrı-ayrı sahələrdə də işlənməsinə də rast gəlmək mümkündür.

Məsələn, *konqlomerat* termini fiziki-kimya sahəsində işlədildiyi kimi dilçilik tədqiqatlarında da istifadə olunur. Həmçinin, *diferensial, inteqral* terminləri riyaziyyatda və dilçilikdə, *aktant*, *valentlik* terminləri kimyada və dilçilikdə, *hibrid,*

morfologiya terminləri biologiyada və dilçilikdə işlədilir. Müasir dövrdə insanın əməli fəaliyyət sahələri çox geniş bir şəbəkə yaratmış və buna uyğun da saysız-hesabsız terminlər formalaşmışdır. Azərbaycan dili bir növ termin idxalçısına çevrildiyindən dilə məhdudiyyət qoyulmadan terminlər bol-bol daxil olur.

Təkcə onu demək lazımdır ki, son vaxtlar Dilçilik İnstitutunda hazırlanan "Yeni terminlər lüğəti"ndə 2000 termin toplanmışdır. Onların bir qismi Azərbaycan dilində olsa da çox böyük əksəriyyəti alınmalardan ibarətdir. Beləliklə, terminlər barədə məhdud qrup anlayışı onların kəmiyyətinə görə yox, norma keyfiyyətinə görədir. Yəni terminlər sayca çox olsa da onlar ayrı-ayrı sahələr üzrə işləndiyi üçün normada paylaşma baş verir. Başqa sözlə, hər bir sahəyə aid olan terminlər əsas etibarı ilə həmin sahə daxilində norma hüququ daşıyır. Ancaq sahələr arasında kəskin sərhəd olduğunu da söyləmək doğru deyildir. Yəni fəaliyyət sahələri tam qapalı məkan təsəvvürü də yaratmır. Artıq cəmiyyətdə insanların intellekt səviyyəsi 70-80 illər bundan əvvəlki kimi deyildir.

Təhsilin ümumxalq səviyyəsi, kütləvi informasiya vasitələrinin çevikliyi, maariflənmə mühiti və s. insan intellektinə güclü təsir göstərir, odur ki, ayrı-ayrı sahə terminləri də informasiya aktivliyi sayəsində populyarlaşma keyfiyyəti kəsb etməyə başlayır. Bunun nəticəsində bəzi terminlər artıq ümumişlək sözlərə çevrilə bilməklə ümumi norma səciyyəsi qazanır, digər bir qrup terminlər isə maarifləndiricilik meyillərinə müvafiq olaraq populyarlaşma səviyyəsində işlənmək hüququna malik olur. Məsələn, bu gün *karbürator, akkumulyator, stabilizator, referendum, vulkanizasiya, biznes, injektor, debat, birja, holdinq, broker, keşbək, makler, logistika, audit, adapter, modem, lizinq, mesaj, sensor, avtoritet, skupter, kompaniya, mundial, brend, efir, ekran, pult, sponsor, ekzitpol, lizinq, valyuta, provayder* kimi yüzlərlə müxtəlif sahə terminləri vardır ki, hamının gündəlik işlətdiyi ümumişlək sözlərlə bir sıraya daxil ola bilər.

Həmçinin ictimai-siyasi, elmi-texniki, iqtisadi və s. kimi sahələr aid olan bir çox terminlər vardır ki, onlar da cəmiyyətin maariflənmə səviyyəsinə uyğun olaraq populyarlaşma səviyyəsindəki söz qrupu kimi nəzərə alına bilər. Bunlara dair hətta, "İzahlı yeni terminlər lüğəti"ndə [8, s.16] qeydə alınmış aşağıdakı kimi nümunələri göstərmək olar: "*Anklav* (fr.) – *Bir dövlətin, yaxud bir neçə dövlətin quru əraziləri ilə tam əhatə olunmuş ərazisinin bir hissəsi"*; "*Alyans* (fr.) – *Vahid siyasi məqsədlərə nail olmaq üçün iki və ya daha çox siyasi subyektin şifahi və ya yazılı formada bağlanan ittifaqı, birliyi*" [8, s.19]; "*Anneksiya* (lat.) - *Bir dövlət tərəfindən başqa dövlətin ərazisinin və ya əhalisinin zor tətbiq etməklə öz ərazisinə birləşdirmək və buna hüquqi don geydirmək cəhdi*" [8, s.21]; "*Aparteid* (yun.) – *Vətəndaşlığı olmayan, dövlət dağıldığı zaman müxtəlif ölkələrin vətəndaşı olması barədə qanunvericiliyə uyğun gəlməyən hallar*" [8, s.21]; "*Avtoprat* (yun.) – Qeyri-məhdud hakimiyyətə malik mülkiyyətçi" [8, s.25]; "*Banner* (ing.) – *Ayaq üstə dayaqları olan reklam və ya böyük həcmdə nümayiş xarakterli qrafik təsvir (bayraq)*" [8, s.28].

"*Bonus* (lat.)- *Əlavə mükafat, faydalı razılaşma, yaxud saziş şərtlərinə müvafiq satıcının alıcıya etdiyi əlavə güzəştlər*" [8, s.38]; "*Debitor* (lat.) – *Müəyyən müəssisədə, təşkilata, banka pul borcu olan hüquqi və ya fiziki şəxs*" [8, s.45]; "*Depozit* (lat.) – *Banklara və əmanət kassalarına qoyulan əmanətlər*" [8, s.50]; "*Diversiya* (lat.) – *Zərbə vurulacaq yerdən düşmənin fikrini*

yayındırmaq üçün aparılan hərbi əməliyyat" [8, s.58]; "*Drenaj* (fr.) – *Kənd təsərrüfatında su basmış torpaqların, həmçinin, qrunt sularının səthə çıxardığı sahələrin təbii və süni yollarla qurudulması üsulları*" [8, s.60]; "*Emissor* (lat.) – *Bir sıra təşkilat və ya dövlət tərəfindən müəyyən qeyri-rəsmi tapşırıqla başqa təşkilata və ya ölkəyə göndərilən şəxs*" [8, s.68]; "*İnvestor* (ing.) – *İnvestisiya layihələrinə maliyyələşmə, yaxud real aktivlərə xüsusi borc, yaxud digər cəlb edilmiş vəsaitləri qoyan hüquqi və ya fiziki şəxs*" [8, s.103]; "*Liqa* (lat.) – *Birlik, ittifaq, cəmiyyət*" [8, s.136]; "*Petisiya* (lat.) – *Bir qrup vətəndaşlar adından ali hakimiyyət orqanlarına verilən yazılı ərizə*" [8, s.167] və s.

Beləliklə, terminlərin norma prinsipləri haqqında belə ümumiləşdirmə aparmaq olar ki, onların ən məhdud fəaliyyət sahəsində işlədilən növləri transkripsiya, transliterasiya üzrə unifikasiya edilərək icbari nitq aktı əsasında sabit normaya uyğunlaşdırılır. Eyni zamanda ümumdil səviyyəsinə yaxınlaşan, populyarlaşan və ya populyarlaşma prosesi keçirən terminlər, artıq şifahi danışıq dilinin özündə uzual xarakterli ənənəvi, sabit norma hüdudunda işlədilə bilirlər.

Nəticə: Aparılan araşdırma göstərir ki, ar-xaizmlər, dialektizmlər və terminlər dildə məhdud işlənən söz qrupları kimi mühüm funksional və normativ xüsusiyyətlərə malikdir. Arxaizmlər ictimai-siyasi, iqtisadi və mədəni dəyişikliklər nəticəsində aktiv işləkliyini itirsə də, tarixi-mədəni məlumatların qorunmasında və bədii mətnlərdə tarixi koloritin yaradılmasında mühüm rol oynayır. Dialektizmlər isə regional xüsusiyyət daşıyan dil vahidləri olaraq bədii ədəbiyyatda obrazlılıq, yerli kolorit və personajların fərdiləşdirilməsi üçün əhəmiyyətli üslubi vasitə kimi çıxış edir, onların bir qismi zamanla ümumişlək leksikaya keçə bilir. Terminlər isə müxtəlif elmi, texniki və ictimai sahələrə aid anlayışları ifadə edir, elmin və cəmiyyətin inkişafı ilə paralel şəkildə genişlənir və bir çox hallarda ümumi dilə də inteqrasiya olunur.

Ümumilikdə, bu söz qrupları dilin lüğət tərkibinin zənginləşməsinə, onun ifadə imkanlarının genişlənməsinə və funksional üslubların formalaşmasına xidmət edir. Arxaizmlər, dialektizmlər və terminlər müxtəlif norma səviyyələrində fəaliyyət göstərərək Azərbaycan dilinin dinamik inkişafını təmin edən mühüm leksik qatlar kimi çıxış edir.

Problemin aktuallığı. Mövzunun aktuallığı müasir dilçilikdə dilin leksik tərkibinin inkişaf dinamikasının, xüsusilə də məhdud işlənən söz qruplarının – arxaizmlər, dialektizmlər və terminlərin – norma və funksional xüsusiyyətlərinin öyrənilməsinin vacibliyi ilə şərtlənir. Qloballaşma, informasiya cəmiyyətinin formalaşması və elmi-texniki tərəqqi nəticəsində dilin lüğət tərkibində davamlı dəyişikliklər baş verir, yeni terminlər yaranır, bəzi sözlər aktiv istifadədən çıxır, digərləri isə ümumişlək leksikaya keçir.

Problemin elmi yeniliyi: Məqalənin elmi yeniliyi Azərbaycan dilində məhdud işlənən leksik qatların – arxaizmlər, dialektizmlər və terminlərin – vahid yanaşma çərçivəsində sistemli şəkildə təhlil edilməsində özünü göstərir. Araşdırmada bu söz qruplarının yalnız leksik-semantik xüsusiyyətləri deyil, həm də onların norma sistemi daxilində funksional mövqeyi kompleks şəkildə izah olunur.

Problemin praktik əhəmiyyəti. Praktik əhəmiyyət ondan ibarətdir ki, əldə olunan nəticələr Azərbaycan dili dərslərinin tədrisi prosesində, xüsusilə leksikologiya və üslubiyyatın öyrədilməsində istifadə oluna bilər. Arxaizmlərin, dialektizmlərin və terminlərin funksional xüsusiyyətlərinin izahı şagird və tələbələrin dilə daha dərindən yiyələnməsinə, söz ehtiyatının zənginləşməsinə və nitq mədəniyyətinin inkişafına kömək edir.

Ədəbiyyat

1. Ağakişiyeva G. Azərbaycan dilçiliyi və ədəbiyyatşünaslığında dialektizmlərin tədqiqi məsələləri.//Filologiya və şərqşünaslıq, –2021, № 2, – s.281-290.
2. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, I c., –744 s.
3. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası – Bakı: Nurlan, –2005. –452 s.
4. Hüseynova M. Dəyərli leksikoqrafik əsər //Ədəbiyyat qəzeti, 2024, 24 fevral, № 7.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. –Bakı: Nurlan, –2008. –442 s.
6. Məmmədli N., Məmmədli İ. Türk mənşəli arxaizmlər lüğəti. Xalq qəzeti. Sosial həyat, 06.02.2024, xalqqazeti.az//az/sosial-heyat/163682-turkmenseli-arxaizmler-lugeti.
7. Mirzəyeva S. Arxaizmlərin leksik-semantik xüsusiyyətləri //Azərbaycan dili və ədəbiyyat tədrisi, –2021, №2 (268), –s.97-104.
8. Sadıqova S. İzahlı yeni terminlər lüğəti. –Bakı: Elm, 2022. –224 s.
9. Türk mənşəli arxaizmlər lüğəti (XIII-XVIII əsrlər Azərbaycan yazılı abidələri əsasında) 3 cilddə, I c., –Bakı: Elm və təhsil, –2023, 468 s; II c., –Bakı: Elm və təhsil, –2024, 450 s; III c., –Bakı: Elm və təhsil, –2025. –477 s.
10. Devecioğlu, M., & Benzer, A. (2024). Pedagojik ve Dil Bilimsel Yaklaşımla Okul Sözlüğü Maddeleri. *Eğitim Ve Bilim*, *49* (218), –43-77.
11. https://doi.org/10.15390/EB.2024.11765

Redaksiyaya daxil olub: 29.04.2026

ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING LITERATURE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ЛИТЕРАТУРЫ

UOT 372.882

Xəyalə Allahverdi qızı Qəhrəmanova
Bakı şəhəri, Nərimanov rayonu
Evrika liseyinin Azərbaycan dili və ədəbiyyatı müəllimi
https://orcid.org/0009-0001-0326-9131
E-mail: memmedov0603@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).86-89

ƏDƏBİYYAT FƏNNİNDƏ SİMULİYASİYA ƏSASLI TƏDRİSİN ŞAGİRD BACARIQLARINA MÜSBƏT TƏSİRİ

Khayala Allahverdi Gahramanova
teacher of Azerbaijani language and literature at Evrika Lyceum of Narimanov District of Baku city

THE POSİTİVE İMPACT OF SİMULATİON-BASED TEACHİNG İN LİTERATURE ON STUDENT SKİLLS

Хаяла Аллахверди гызы Гахраманова
учитель азербайджанского языка и литературы лицея «Эврика» Наримановского района города Баку

ПОЛОЖИТЕЛЬНОЕ ВЛИЯНИЕ СИМУЛЯЦИОННОГО ОБУЧЕНИЯ НА РАЗВИТИЕ НАВЫКОВ УЧАЩИХСЯ В ПРЕПОДАВАНИИ ЛИТЕРАТУРЫ

Xülasə. Müasir təhsil sistemində şagirdyönlü və fəal öyrənmə metodları xüsusi əhəmiyyət kəsb edir. Simulyasiya əsaslı tədris üsulu şagirdlərin dərs prosesində aktiv iştirakını təmin edən innovativ yanaşmalardan biridir. Bu məqalədə ədəbiyyat dərslərində simulyasiya metodunun tətbiqi, onun şagirdlərin tənqidi təfəkkür, nitq mədəniyyəti, empatiya, yaradıcılıq və problem həll etmə bacarıqlarına təsiri təhlil olunur.

Açar sözlər: *simulyasiya, fəal təlim, ədəbiyyat tədrisi, tənqidi təfəkkür, yaradıcılıq*

Abstract. In the modern education system, student-centered and active learning methods are of particular importance. Simulation-based teaching is one of the innovative approaches that ensures the active participation of students in the learning process. This article analyzes the application of the simulation method in literature lessons and its impact on students' critical thinking, speech culture, empathy, creativity and problem-solving skills.

Keywords: *simulation, active learning, literature teaching, critical thinking, creativity*

Аннотация. В современной системе образования особое значение приобретают активные методы обучения, ориентированные на ученика. Метод симуляционного обучения является одним из инновационных подходов, обеспечивающих активное участие учащихся в учебном процессе. В данной статье анализируется применение метода симуляции на уроках литературы и его влияние на развитие у учащихся критического мышления, культуры речи, эмпатии, творческих способностей и навыков решения проблем.

Ключевые слова: *симуляция, активное обучение, преподавание литературы, критическое мышление, творчество*

Müasir pedaqoji yanaşmalara əsasən, şagird təlim prosesində aktiv subyekt kimi çıxış etməlidir. Konstruktivist nəzəriyyəyə görə bilik hazır formada ötürülmür, şagird tərəfindən qazanılır [1]. Bu baxımdan simulyasiya əsaslı tədris ədəbiyyat dərslərində effektiv metod kimi çıxış edir.

Simulyasiya – real və ya şərti situasiyanın modelləşdirilməsi yolu ilə öyrənmə prosesinin təşkilidir. Ədəbiyyat dərslərində bu metod rollu oyunlar, debatlar və səhnələşdirmə vasitəsilə həyata keçirilə bilər.

Simulyasiya əsaslı tədris sosial konstruktivizm və təcrübəyə əsaslanan öyrənmə nəzəriyyələrinə söykənir. L. Vqotski sosial qarşılıqlı fəaliyyətin idrak inkişafında mühüm rol oynadığını vurğulamış, J.Piaje idrak inkişafının mərhələli şəkildə formalaşdığını qeyd etmişdir. J. Devey

isə təcrübəyə əsaslanan öyrənmənin əhəmiyyətini xüsusi vurğulamışdır.

Təhsil sistemində baş verən yeniliklər müəllim mərkəzli təlimdən şagird mərkəzli təlimə keçidi zəruri etmişdir. Bu yanaşma şagirdlərin hazır informasiyanı qəbul etməsi deyil, onu analiz və interpretasiya etməsi üzərində qurulur. Ədəbiyyat dərsləri isə şagirdlərdə analitik təfəkkürün, müqayisə aparmaq və nəticə çıxarma bacarıqlarının inkişafı üçün əlverişli mühit yaradır.

Tədris prosesində simulyasiyaların tətbiqi ilə yanaşı, müəllimin fərdi xüsusiyyətləri də şagirdlərin yaradıcı potensialının üzə çıxmasında mühüm rol oynayır. Aparılan tədqiqatlar göstərir ki, təcrübəyə (yaşamağa) açıqlıq səviyyəsi yüksək olan müəllimlər sinif daxilində yaradıcılığı daha çox stimullaşdırır və bu, birbaşa şagirdlərin yaradıcılıq göstəricilərinin yüksəlməsinə səbəb olur. Maraqlıdır ki, razılaşma və ya nevrotiklik kimi digər şəxsiyyət xüsusiyyətlərinin yaradıcılıq balları üzərində bənzər bir təsiri müşahidə olunmamışdır. [2]

Simulyativ tədris real və ya şərti situasiyaların modelləşdirilməsi vasitəsilə öyrənməni təşkil edən fəal metodlardan biridir. Bu üsul şagirdləri ədəbi mətnlə “canlı təmas”a gətirir və onları düşünməyə, müzakirə etməyə və qərar verməyə sövq edir. [3]

Ədəbiyyat fənnində similyativ tədrisin şagird bacarıqlarına bir sıra müsbət təsiri vardır. Bunlar aşağıdakılardır:

1. Şagirdlərin tənqidi təfəkkürü formalaşır.

Simulyasiya şagirdlərin analiz, müqayisə və qiymətləndirmə bacarıqlarını inkişaf etdirir. Müasir təhsil sistemində şagirdlərin tənqidi təfəkkür bacarıqlarının inkişafı prioritet istiqamətlərdən biridir. Ədəbiyyat fənni mətn analizi, obrazların təhlili və ideya-məzmunun qiymətləndirilməsi baxımından tənqidi düşüncənin formalaşması üçün geniş imkanlar yaradır. Simulyativ (simulyasiya əsaslı) tədris metodu isə bu prosesdə şagirdlərin fəal iştirakını təmin edərək analitik və müstəqil düşünmə bacarıqlarını gücləndirir.

Simulyativ tədris aşağıdakı istiqamətlərdə şagirdin tənqidi təfəkküründün inkişafına şərait yaradır:

- ✓ **Analiz bacarığı:** Şagirdlər hadisələrin səbəb-nəticə əlaqələrini araşdırır və obrazların davranışlarını əsaslandırırlar.
- ✓ **Müqayisə və qiymətləndirmə:** Fərqli baxış bucaqları ilə tanış olmaq şagirdlərə obyektiv qiymətləndirmə aparmağa imkan verir.
- ✓ **Arqumentasiya:** Debat və müzakirələr zamanı şagirdlər öz mövqelərini fakt və sitatlarla əsaslandırırlar.
- ✓ **Problemin həlli:** Alternativ qərarlar irəli sürmək yaradıcı və tənqidi düşünməni gücləndirir.
- ✓ **Müstəqil nəticə çıxarma:**Şagirdlər müəllimin hazır nəticəsini deyil, öz formalaşdırdıqları qənaəti təqdim edirlər.

2. Nitq və kommunikativ bacarıqlar. Debat və rollu oyunlar şagirdlərin arqument gətirmə və təqdimat bacarıqlarını gücləndirir. Müasir təhsil sistemində şagirdlərin kommunikativ səriştələrinin formalaşdırılması prioritet istiqamətlərdən biridir. Ədəbiyyat fənni nitq mədəniyyəti, ifadə bacarığı və ünsiyyət qabiliyyətinin inkişafı üçün geniş imkanlar yaradır. Simulyativ tədris isə şagirdlərin dərs prosesində fəal iştirakını təmin etməklə onların şifahi və yazılı nitq bacarıqlarını sistemli şəkildə inkişaf etdirir. Ədəbiyyat dərslərində şagirdlərin nitq bacarıqlarını inkişaf etdirmək üçün simulyasiya müxtəlif üsullarla həyata keçirilə bilər:

✓ Rollu oyunlar – obrazların dialoqlarının canlandırılması;

✓ Debatlar – əsərin ideyası ətrafında fikir mübadiləsi;

✓ Ədəbi müsahibə – şagirdlər müəllif və ya qəhrəman rolunda çıxış edirlər;

✓ Səhnələşdirmə – dram parçalarının təqdimatı;

✓ Ədəbi məhkəmə – obrazın hərəkətlərinin müzakirəsi.

Məsələn, Cəlil Məmmədquluzadənin satirik əsərlərinin debat formasında təhlili şagirdlərin arqumentasiya bacarığını inkişaf etdirir. Eyni zamanda M.F. Axundzadənin dram əsərlərinin səhnələşdirilməsi şagirdlərin ifadəli nitq və intonasiya bacarığını gücləndirir.

Simulyativ tədrisin nitq və kommunikativ bacarıqlara təsiri aşağıdakılardır:

✓ **Şifahi nitqin inkişafı:** Şagirdlər çıxış edir, müzakirələrdə iştirak edir və fikirlərini əsaslandırırlar. Bu proses nitqin axıcılığını və düzgünlüyünü artırır.

✓ **Söz ehtiyatının zənginləşməsi:** Bədii mətnlərlə işləmək və obrazların dilini təqlid etmək leksik ehtiyatın artmasına səbəb olur.

✓ **Dinləmə bacarığı:** Kommunikativ fəaliyyət yalnız danışmaq deyil, həm də diqqətli dinləmək bacarığını formalaşdırır.

✓ **Qeyri-verbal ünsiyyət:** Səhnələşdirmə zamanı jest, mimika və intonasiya kimi elementlər də inkişaf edir.

✓ **Yazılı nitqin inkişafı:** Simulyasiya əsasında hazırlanmış esse, dialoq və alternativ sonluqlar yazılı ifadə bacarığını möhkəmləndirir.

✓ **Empatiya və sosial bacarıqlar.**

Obrazların daxili aləmini anlamaq empatiyanın formalaşmasına səbəb olur. Bu, xüsusilə klassik ədəbiyyat nümunələrinin tədrisində effektivdir [3]. Məsələn, Nizami Gəncəvinin qəhrəmanlarının mövqeyindən çıxış etmək şagirdlərin mənəvi dəyərlərini gücləndirir.

4. Yaradıcı təfəkkürün inkişafı. Ədəbiyyat fənninin tədrisində simulyasiya əsaslı tədris şagirdlərin yaradıcı təfəkkürünün inkişafında mühüm rol oynayır. Bu üsul ənənəvi izah və yaddaşa əsaslanan dərs modelindən fərqli olaraq, şagirdləri aktiv iştirakçıya çevirir və onları hadisələri yaşamağa, təhlil etməyə və yenidən qurmağa sövq edir.

Simulyasiya əsaslı tədris – ədəbi əsərlərdəki hadisələrin, obrazların və situasiyaların səhnələşdirilməsi, rollu oyunlar, debatlar, məhkəmə prosesi formatı, alternativ sonluq yazılması kimi fəaliyyətləri əhatə edir. Şagirdlər sadəcə oxucu deyil, həm də müəllif, tənqidçi və ya obraz rolunda çıxış edirlər. Məsələn: Cəfər Cabbarlının əsərlərində sosial problemlərin debat şəklində müzakirəsi, V. Şeksprin "Romeo və Cülyetta" əsərinin alternativ sonluqla səhnələşdirilməsi, İlyas Əfəndiyevin dram əsərlərinin rollu oyun formasında təqdim olunması və s.

Simulyativ əsaslı tədris şagird təxəyyülünü genişləndirir. Şagird obrazın yerinə keçərək onun düşüncəsini, hisslərini və qərarlarını anlamağa çalışır. Bu proses empati və yaradıcı düşünmə qabiliyyətini gücləndirir. [6] Hadisələrin səbəb-nəticə əlaqələrini araşdırmaq, alternativ həll yolları təklif etmək şagirdin müstəqil düşünmə bacarığını artırır.

Simulyasiya zamanı şagirdlər mübahisəli situasiyalara yaradıcı yanaşma nümayiş etdirirlər. Bu da onlarda problem həll etmə bacarığı formalaşdırır.

Simulyasiya əsaslı tədris üsulu ədəbiyyat dərsini passiv öyrənmə mühitindən aktiv yaradıcılıq mühitinə çevirir. [7] Bu yanaşma şagirdlərdə yalnız bilik deyil, həm də düşünmə,

analiz və yaradıcılıq bacarıqlarının formalaşmasına şərait yaradır.

Simulyasiya əsaslı tədris ədəbiyyat dərslərində şagirdlərin idrak, sosial və emosional bacarıqlarının kompleks inkişafına şərait yaradır. Nəzəri mənbələr və pedaqoji yanaşmalar göstərir ki, fəal və təcrübəyə əsaslanan metodlar ənənəvi tədris üsullarından daha effektiv nəticələr verir.[5]

Ədəbiyyat dərslərində simulyasiya müxtəlif formalarda tətbiq edilə bilər. Məsələn,

- ✓ **Rollu oyunlar** – şagirdlər obrazların roluna daxil olur;
- ✓ **Ədəbi məhkəmə** – qəhrəmanın hərəkətləri hüquqi və etik baxımdan qiymətləndirilir;
- ✓ **Debat** – əsərin ideyası və müəllif mövqeyi müzakirə edilir;
- ✓ **Alternativ sonluq qurma** – süjetin fərqli inkişaf variantları təqdim olunur.

Simulyasiya əsaslı tədris üsulu ədəbiyyat dərsini passiv öyrənmə mühitindən aktiv yaradıcılıq mühitinə çevirir. Bu yanaşma şagirdlərdə yalnız bilik deyil, həm də düşünmə, analiz və yaradıcılıq bacarıqlarının formalaşmasına şərait yaradır.

Ədəbiyyat fənnində simulyasiya əsaslı tədris metodunun tətbiqi dərsi sadəcə nəzəri biliklərin ötürülməsi prosesindən çıxararaq, onu canlı, interaktiv və təcrübi bir mühitə çevirir. Bu yanaşmanın əsas faydalarını belə qruplaşdıra bilərik:

- Bilikdən Bacarığa Keçid: Şagird mətni sadəcə oxumur, onu yaşayır. Bu da öyrənilən mövzunun yaddaşda daha dərindən və qalıcı şəkildə həkk olunmasını təmin edir.
- Şəxsiyyətyönlü İnkişaf: Rollu oyunlar, debatlar və ədəbi məhkəmələr vasitəsilə şagirdlərdə özünəinam artır, qərarvermə və kollektivdə işləmə bacarığı formalaşır.
- Analitik və Yaradıcı Potensial: Alternativ sonluqlar yazmaq və obrazları mühakimə etmək şagirdi standart qəliblərdən çıxarır, ona hadisələrə fərqli prizmalardan baxmağı öyrədir.
- Emosional Zəka (EQ): Obrazın daxili dünyasına nüfuz etməklə şagirdlərdə empatiya hissi güclənir ki, bu da onların sosial fərd kimi yetişməsində mühüm rol oynayır.

Problemin aktuallığı. Mövzunun aktuallığı müasir təhsil islahatları, kompetensiya əsaslı yanaşma, şagirdyönlü təlim prinsipləri və yaradıcı şəxsiyyət formalaşdırılması tələbi ilə müəyyən olunur. Simulyasiya əsaslı tədris ədəbiyyat fənninin effektivliyini artıran və şagird bacarıqlarının inkişafına real təsir göstərən innovativ yanaşma kimi xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Simulyasiya əsaslı tədrisin ədəbiyyatın tədrisində interaktiv metodların sistemli, məqsədyönlü və bacarıq əsaslı modelini təqdim edir və onun şagird inkişafına təsirini elmi əsaslarla izah edir. Mövzunun elmi yeniliyi ədəbiyyat tədrisində simulyasiya əsaslı yanaşmanın nəzəri və praktik modelinin hazırlanması, onun bacarıq inkişafına təsir mexanizminin elmi əsaslandırılması və ölçülə bilən nəticələrlə sübut edilməsindən ibarətdir.

Problemin praktik əhəmiyyəti. Ədəbiyyat fənnində simulyasiya əsaslı tədrisin şagird bacarıqlarına müsbət təsiri mövzusunun praktik əhəmiyyəti ondan ibarətdir ki, bu yanaşma nəzəri biliklərin real fəaliyyətə çevrilməsini təmin edir və şagirdlərin çoxşaxəli bacarıqlarını inkişaf etdirir. Simulyasiya əsaslı tədris ədəbiyyat dərslərini daha səmərəli, yaradıcı və şagirdyönlü edir. Bu yanaşma şagirdlərin həm akademik nailiyyətlərini, həm də sosial və kommunikativ bacarıqlarını inkişaf etdirərək onların şəxsiyyət kimi formalaşmasına töhfə verir.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika / A.N. Abbasov. – Bakı: Mütərcim, –2010. –656 s.
2. Feyzullah, Ş. The Effects of Personality Traits of Teachers on the Development of Student Creativity // –Turkish: Education and Science, –2021. 46(205), –s. 191-205. - https:// edu catio nand science .ted.org.tr/article/view/1947
3. Alışov, O.B. Təlim prosesində fəal və interaktiv metodlar / O.B. Alışov. – Bakı: Təhsil,– 2014. – 248 s.
4. Həsənli, B.A. Ədəbiyyatın tədrisi metodikası / B.A. Həsənli. – Bakı: Müəllim, – 2012. – 360 s.
5. Hüseynzadə, R.L. Ədəbiyyatın tədrisi metodikası / R.L. Hüseynzadə. – Bakı: ADPU-nun nəşriyyatı, –2012. –304 s.
6. Mahmudova, Ş.Ə. Uşaq ədəbiyyatı fənninin interaktiv təlim metodları ilə tədrisi / Ş.Ə. Mahmudova. – Bakı: Avropa, –2014. – 160 s.
7. Paşayev, Ə., Həsənov, F. Pedaqogika / Ə. Paşayev, F. Həsənov. – Bakı: Elm və Təhsil, –2010. – 464 s.
8. Novruzova, G.Ə. Ədəbiyyat dərslərində dramatik əsərlərin müqayisəli təhlili üzrə işin təşkili // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri,–2021. № 6, –s. 91-95 – https://journals.arti.edu.az/uploads/f_20240423103408201107139 5.pdf

Redaksiyaya daxil olub: 29.04.2026

UOT 372.893

Sevil Şivəxan qızı Bəhrəmova
Bakı Avrasiya Universitetinin
Ümumi fənlər kafedrasının müdiri
tarix üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0002-4886-0101
E-mail: sevil_behremova@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).90-95

TARİXİN MƏZMUN XƏTLƏRİ ƏSASINDA TƏDRİSİN ƏHƏMİYYƏTİ

Sevil Shivakhan Bahramova
Baku Eurasia University
head of the department of General studies,
doctor of philosophy in history, associate professor

THE IMPORTANCE OF TEACHING HISTORY BASED ON CONTENT LINES

Севиль Шивахан гызы Бахрамова
заведующий кафедрой Общих дисциплин
Бакинского Евразийского Университета
доктор философии по истории, доцент

ЗНАЧЕНИЕ ПРЕПОДАВАНИЯ ИСТОРИИ НА ОСНОВЕ СОДЕРЖАТЕЛЬНЫХ ЛИНИЙ

Xülasə. Məqalədə tarix fənninin məzmun xətləri əsasında tədrisinin əhəmiyyəti araşdırılmışdır. Tədqiqatda tarix kurikulumunda müəyyən edilmiş beş əsas məzmun xətti, tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət əsasında tədrisin şagirdlərdə tarixi düşüncənin, analitik və tənqidi təfəkkürün formalaşmasına təsiri təhlil olunmuşdur. Müəyyən edilmişdir ki, məzmun xətləri əsasında təşkil olunan təlim prosesi tarixi hadisə və proseslərin sistemli və ardıcıl şəkildə mənimsənilməsinə, səbəb-nəticə əlaqələrinin qurulmasına və milli-mənəvi dəyərlərin aşılanmasına imkan yaradır. Məqalədə məzmun xətlərinin tarix təliminin inki-şafetdirici və tərbiyəedici funksiyalarının reallaşdırılmasında rolu əsaslandırılmışdır.
Açar sözlər: *tarix fənni, məzmun xətləri, tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət, mədəniyyət*

Abstract. The article examines the significance of teaching history based on content lines. The study analyzes the impact of instruction organized according to five main content lines defined in the history curriculum, historical time, historical space, state, personality, and culture-on the development of students' historical thinking as well as their analytical and critical thinking skills. It is determined that teaching based on content lines ensures a systematic and consistent understanding of historical events and processes, facilitates the establishment of cause-and-effect relationships, and contributes to the formation of national and moral values. The role of content lines in implementing the developmental and educational functions of history education is substantiated.

Keywords: *history education, content lines, historical time, historical space, state, personality, culture*

Аннотация. В статье рассматривается значение преподавания истории на основе содержательных линий. В исследовании анализируется влияние обучения по пяти основным содержательным линиям, определённым в учебной программе по истории, историческое время, историческое пространство, государство, личность и культура- на формирование у учащихся исторического мышления, аналитического и критического мышления. Установлено, что организация учебного процесса на основе содержательных линий способствует системному и последовательному усвоению исторических событий и процессов, установлению причинно-следственных связей и формированию национально-нравственных ценностей. Обоснована роль содержательных линий в реализации развивающей и воспитательной функций обучения истории.

Ключевые слова: *история, содержательные линии, историческое время, историческое пространство, государство, личность, культура*

Müasir təhsil sistemində tarix fənninin tədrisi yalnız keçmiş hadisələr haqqında məlumat vermək məqsədi daşımır, eyni zamanda şagirdlərdə tarixi düşüncə, vətəndaşlıq mövqeyi, milli-mənəvi dəyərlərə hörmət və analitik təfəkkür formalaşdırmağı qarşıya məqsəd qoyur. Bu məqsədlərin reallaşdırılmasında kurikulum yanaşmasının əsas komponentlərindən biri olan məzmun xətləri xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının ümumi təhsil üzrə tarix kurikulumunda tarix fənninin məzmunu beş əsas məzmun xətti əsasında strukturlaşdırılmışdır: tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət (1).

Tarixin məzmun xətləri əsasında tədrisi təlim prosesinin sistemli, ardıcıl və nəticəyönümlü təşkilinə imkan yaradır. Bu yanaşma şagirdlərin tarixi hadisə və prosesləri parçalanmış şəkildə deyil, bütöv və əlaqəli formada qavramasına şərait yaradır. Məzmun xətləri fənnin əsas ideyalarını, aparıcı anlayışlarını və inkişaf istiqamətlərini əks etdirən struktur komponentlərdir. Onlar təlim məzmununun sistemləşdirilməsinə, məqsədlərin düzgün müəyyənləşdirilməsinə və öyrənmə nəticələrinin ardıcıl şəkildə formalaşdırılmasına xidmət edir (2, s. 18).

Tarixi zaman məzmun xətti şagirdlərdə xronoloji düşüncənin formalaşdırılmasına xidmət edir. Bu məzmun xətti vasitəsilə şagirdlər tarixi hadisələrin başvermə ardıcıllığını, dövrləşdirməni və zaman anlayışını dərk edirlər. Tarixi zaman anlayışının mənimsənilməsi hadisələr arasında səbəb-nəticə əlaqələrinin qurulmasında mühüm rol oynayır (14, s. 31).

Tarixi məkan məzmun xətti isə tarixi hadisələrin coğrafi mühitlə əlaqəsini öyrənməyə imkan verir. Bu yanaşma şagirdlərdə tarixi proseslərin məkan amili ilə qarşılıqlı əlaqəsini anlama bacarığını formalaşdırır. Tarixi məkanın öyrənilməsi coğrafiya fənni ilə inteqrasiyanı gücləndirir və tarixi hadisələrin daha dolğun qavranılmasına şərait yaradır. Tarix fənnində məzmun xətləri şagirdlərin tarixi bilikləri yalnız faktoloji səviyyədə deyil, eyni zamanda analitik və dəyərləndirici səviyyədə mənimsəməsinə imkan yaradır. Beş əsas məzmun xətti tarixi hadisə və proseslərin müxtəlif aspektlərini əhatə etməklə, tarix təliminin çoxşaxəli xarakterini təmin edir.

Dövlət məzmun xətti tarix fənninin ən mühüm istiqamətlərindən biridir. Bu məzmun xətti vasitəsilə şagirdlər dövlətçilik ənənələrinin formalaşması, siyasi quruluşların inkişafı, idarəetmə formaları və

hüquqi münasibətlər haqqında biliklər əldə edirlər. Dövlət məzmun xətti şagirdlərdə vətəndaşlıq şüurunun, hüquqi düşüncənin və ictimai məsuliyyət hissinin formalaşmasına xidmət edir. Tarixin dövlət məzmun xətti əsasında tədrisi şagirdlərin müasir siyasi prosesləri dərk etməsinə, tarixi təcrübədən nəticə çıxarma bacarığının inkişafına şərait yaradır. Bu isə tarix fənninin praktik və tərbiyəvi əhəmiyyətini artırır (1).

Şəxsiyyət məzmun xətti tarixi şəxsiyyətlərin fəaliyyətinin və rolunun öyrənilməsini əhatə edir. Bu yanaşma şagirdlərdə liderlik keyfiyyətlərinin, vətənpərvərlik hissinin və əxlaqi dəyərlərin formalaşmasına mühüm təsir göstərir. Tarixi şəxsiyyətlərin fəaliyyəti konkret tarixi şərait kontekstində təhlil olunduqda şagirdlərdə obyektiv və tənqidi düşüncə inkişaf edir. Şəxsiyyət məzmun xətti şagirdlərə tarixi proseslərdə fərdin rolunu dərk etməyə, tarixi hadisələrin yalnız ümumi proseslər deyil, həm də konkret insanların fəaliyyəti nəticəsində formalaşdığını anlamağa imkan verir (10, s.123).

Mədəniyyət məzmun xətti tarix təliminin tərbiyəvi mahiyyətini daha da gücləndirir. Bu məzmun xətti vasitəsilə şagirdlər maddi və mənəvi mədəniyyət nümunələri, adət-ənənələr, incəsənət, elm və təhsil tarixi ilə tanış olurlar. Mədəniyyət məzmun xətti milli kimliyin formalaşmasında və mədəni irsə hörmət hissinin aşılanmasında mühüm rol oynayır.

Tarixin mədəniyyət məzmun xətti əsasında tədrisi şagirdlərdə tolerantlıq, multikultural dəyərlər və ümumbəşəri mədəni irsə hörmət kimi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Aparılan təhlil göstərir ki, tarixin beş məzmun xətti-tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət-əsasında tədrisi tarix fənninin elmi, tərbiyəvi və inkişafetdirici funksiyalarının həyata keçirilməsində mühüm rol oynayır(13). Bu yanaşma təlimin sistemliliyini, ardıcıllığını və nəticəyönlüyünü təmin edir, şagirdlərin tarixi düşüncə və vətəndaşlıq mövqeyinin formalaşmasına şərait yaradır. Dərslərin tədrisi zamanı məzmun xətləri arasında əlaqəni gözləmək və təhsilalanlara bilik və bacarıqların ötürülməsində inteqrativliyi təmin etmək xüsusi əhəmiyyətlidir.

İnteqrasiya olunmuş dərslərin məzmunu və strukturunun müəyyənləşdirilməsi, ilk növbədə, yaradıcılıq qabiliyyətlərinin inkişafı vəzifələrinə uyğun aparılmalıdır.

Tədqiqat və müşahidələr nəticəsində inteqrasiya olunmuş təlimin aşağıdakı əsas prinsipləri müəyyənləşdirilmişdir:

1. Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prinsipi;
2. Təhsil məzmununun bütövlüyü prinsipi;
3. Assosiativ əlaqələr prinsipi;
4. Yenilik prinsipi (3, s.76).

1. Şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaqla yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prinsipi

Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, yaradıcılıq qabiliyyətlərinin inkişafı inteqrativ təlim mühitində həyata keçirilir və bu proses şagirdin fərdi potensialına əsaslanır. Şagird təlim zamanı əldə etdiyi bilik və bacarıqları müxtəlif situasiyalarda tətbiq etməklə subyektiv yenilik yaradır. Yaradıcı fəaliyyətin inteqrativ xarakteri onu həm proses, həm də nəticə kimi dəyərləndirməyə imkan verir: burada şagird yalnız mövcud bilikləri mənimsəmir, eyni zamanda onları transformasiya edərək yeni ideyalar və məhsullar yaradır.

İnteqrasiya olunmuş dərslərdə bu prinsipin tətbiqi şagirdlərdə aşağıdakı bacarıqların formalaşmasına imkan verir:

- həyati və tədris baxımından əhəmiyyətli bilikləri seçmək və tətbiq etmək;
- qeyri-standart vəziyyətlərdə yaradıcı düşünmək və problem həllinə yönəlmək;
- yeni biliklərə ehtiyac hissi formalaşdırmaq;
- yeni fəaliyyət üsulları və qərar modelləri yaratmaq.

Beləliklə, inteqrasiya olunmuş dərslər yalnız fənlərarası əlaqələrin təmin olunmasına deyil, həm də təhsil prosesinin fərdiləşdirilməsi, yaradıcı potensialın inkişafı və məzmun standartlarının məqsədyönlü reallaşdırılması üçün effektiv mühitin formalaşmasına xidmət edir.

İnteqrasiya olunmuş təlim prosesi şagirdlərin yaradıcılıq fəaliyyətinə aktiv şəkildə qoşulmasını, yeni problemlərin həlli yollarını tapmaq bacarığını və reallığı yaradıcı formada dəyişdirməyə hazırlığını təmin edir. Bu prosesdə şagirdlər aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirlər:

- öyrənilən obyektin yeni funksiyasına yaradıcı baxışın formalaşdırılması;
- mövcud fəaliyyət üsullarını yeniləri ilə sintez etmək bacarığı;
- obyektin strukturuna alternativ baxışın inkişafı;
- verilmiş problemin bir neçə həlli variantının müəyyənləşdirilməsi;
- məlum olanlardan fərqli, orijinal və prinsipcə yeni həllərin yaradılması(3, s.169).

Bu istiqamətlər şagirdlərdə təfəkkürün çevikliyi, alternativ düşüncə tərzi və problemə yaradıcı yanaşma bacarığı kimi əsas səriştələrin inkişafına xidmət edir. Belə bacarıqlar məzmun standartlarında nəzərdə tutulan yaradıcı və tədqiqatyönlü nəticələrin əldə olunması üçün vacib baza yaradır.

2. Tədris məzmununun bütövlüyü prinsipi

Təhsil məzmununun bütövlüyü prinsipi inteqrativ təlimin əsas dayaq nöqtələrindən biridir. Bu prinsip təlim prosesində bilik, bacarıq və vərdişlərin qarşılıqlı əlaqəsini təmin etməklə, tədris materialının parçalanmasının qarşısını alır və şagirdlərdə dünyanın vahid mənzərəsinin formalaşmasına kömək edir. Tədris məzmununun bütövlüyü, həm də fənlərarası və daxili fənn əlaqələrinin koordinasiyasını təmin edir.

Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, ümumi və xüsusi fənlərin sərhədləri arasında süni bölünmələrin aradan qaldırılması məqsədilə onların qarşılıqlı inteqrasiyası həyata keçirilsin. Bununla şagird yalnız ayrı-ayrı bilik sahələrini deyil, həm də onların qarşılıqlı təsirini dərk edir, dünya haqqında sistemli və əlaqəli təsəvvür formalaşdırır. Bu isə kurikulumda müəyyənləşdirilmiş məzmun standartlarının vahid şəkildə reallaşdırılmasına, fənlərarası düşüncə modelinin formalaşmasına və kompleks problemlərin həllinə şərait yaradır.

Təhsil sistemi inteqral bir struktur kimi məqsədlər, tədris məzmunu, pedaqoji ünsiyyət vasitələri, müəllim və şagird fəaliyyət formaları, həmçinin tədris metod və resurslarının qarşılıqlı əlaqəsinə əsaslanır. Tədris prosesinin sistem xarakteri onun bütün komponentlərinin vəhdətini tələb edir: təlim məqsədləri, müəllimin yönəldici fəaliyyəti, şagirdin fəal öyrənmə fəaliyyəti və əldə olunan nəticələr. Bu komponentlərin hər biri dəyişkən olsa da, onların harmonik vəhdəti tədris və təlimin səmərəli birgə fəaliyyətinə çevrilir. Nəticədə, çoxsaylı elementlər və əlaqələr bir-birini tamamlayaraq inteqral təhsil sistemi yaradır.

3. Assosiativ əlaqələr prinsipi

Assosiativ əlaqələr prinsipi inteqrasiya olunmuş təlimdə mühüm psixoloji əsas kimi çıxış edir. Bu prinsipə görə, öyrənmə prosesində şagirdin təfəkküründə yeni biliklər mövcud biliklərlə əlaqələnir və bu əlaqə nəticəsində daha dərin, sabit və mənalı öyrənmə baş verir. Assosiasiyalar şagirdin idrak fəaliyyətində hadisələr, anlayışlar və obrazlar arasında daxili əlaqələr qurmağa imkan verir.

Belə əlaqələr nəticəsində bir anlayışın yaranması digərinə istinad yaradır, bu da təfəkkürün çevikliyini, yaddaşın fəallığını və təxəyyülün genişlənməsini təmin edir. Məhz bu mexanizm yaradıcı potensialın əsasını təşkil edir. Analiz və sintez əməliyyatlarının qarşılıqlı fəaliyyəti nəticəsində şagird müxtəlif obyektlər arasında bənzərlikləri və fərqləri müəyyənləşdirir, fərqli situasiyalarda oxşar düşüncə modellərini tətbiq edə bilir.

Assosiativ əlaqələrin zənginliyi və çevikliyi şagirdin yaradıcı potensialını, yeni bilikləri mənimsəmə və tətbiqetmə bacarığını, həmçinin problemlərə çevik və qeyri-ənənəvi yanaşma qabiliyyətini müəyyənləşdirir. Buna görə də bu prinsipin həyata keçirilməsi inteqrasiya olunmuş dərslərin əsas psixoloji və didaktik şərtlərindən biridir (4, s.93).

Beləliklə, bu üç prinsip yaradıcılıq qabiliyyətlərinin fərdi inkişafı, təhsil məzmununun bütövlüyü və assosiativ əlaqələrin təşkili, inteqrasiya olunmuş dərslərin elmi-metodoloji bazasını təşkil edir. Onların sistemli tətbiqi həm məzmun standartlarının reallaşdırılmasına, həm də təlimin səmərəliliyinin artırılmasına yönəlmiş kompleks pedaqoji mexanizm yaradır.

İnteqrasiya olunmuş dərslərin metodikasının hazırlanmasında assosiativ əlaqələrin inkişafı və zənginləşdirilməsi mühüm istiqamət kimi qəbul edilir. Bu, şagirdlərdə yeni biliklərin formalaşması və onların yaradıcı şəkildə mənimsənilməsi üçün təməl mexanizmdir. Assosiativ əlaqə qurularkən, hər bir yeni anlayış əvvəlkilərlə məntiqi əlaqədə olur və şagird bir anlayışdan digərinə keçid edərək, özünün fərdi idrak və yaradıcılıq təcrübəsini genişləndirir. Bu proses şagirdin təfəkkür tipindən, analitik və müqayisəetmə bacarığından, hadisələr arasındakı oxşarlıq və fərqləri müəyyənləşdirmək qabiliyyətindən asılı olaraq fərdiləşir.

4. Yenilik prinsipi

İnteqrasiya olunmuş dərslərin effektivliyini təmin edən əsas prinsiplərdən biri də yenilik prinsipidir. Bu prinsipin mahiyyəti, təlim prosesində şagirdlərin maraq və motivasiyasını qorumaq üçün yeni məzmun, metod və şəraitin yaradılmasından ibarətdir. Yenilik prinsipi dərsin müxtəlif komponentlərində tədris materialında, onun təqdimat formasında, ünsiyyət situasiyalarında, iş üsullarında və müəllim-şagird qarşılıqlı fəaliyyətinin strukturunda özünü göstərir.

Yenilik üç səviyyədə təzahür edir:

- Sıfır yenilik-material şagirdlərə artıq məlumdur, lakin yeni kontekstdə təqdim olunur;
- Nisbi yenilik-mövcud biliklərin yeni kombinasiyası və tətbiqi formasında təqdim edilməsi;
- Mütləq yenilik tamamilə yeni məzmunun, problemin və ya fəaliyyət növünün öyrənilməsidir (5, s.21).

Bu prinsipin tətbiqi şagirdlərdə yaradıcı müstəqillik, öz fəaliyyətini planlaşdırmaq bacarığı, problemli vəziyyətlərdə qərarvermə, həmçinin kollektiv əməkdaşlıqda ünsiyyət və ideya mübadiləsi kimi keyfiyyətlərin formalaşmasına səbəb olur. Şagirdlər öz hərəkətlərini şüurlu şəkildə planlaşdırır, müstəqil öyrənmə

vərdişləri qazanır və tədris prosesinə fəal subyekt kimi qoşulurlar.

İnteqrasiya olunmuş dərslərdə yenilik prinsipinin həyata keçirilməsi nəticəsində şagirdlər müxtəlif fənlər arasında əlaqə yaradır, yeni məlumatları mənimsəyir və əvvəlki biliklərini yeni situasiyalarda tətbiq etməyi öyrənirlər. Beləliklə, onların əldə etdiyi biliklər daha çevik və funksional xarakter daşıyır, yəni məzmun standartlarında nəzərdə tutulan nəticələrin yaradıcı kontekstdə reallaşmasına şərait yaranır.

Tədris prosesində müəyyən edilmiş bu prinsiplər, assosiativ əlaqə, təhsil məzmununun bütövlüyü, fərdi yaradıcılıq və yenilik inteqrasiya olunmuş dərslərin nəzəri və praktik əsaslarını müəyyənləşdirir. Onların qarşılıqlı əlaqəsi təhsilin məqsədlərini həyata keçirməyə, şagirdlərin tədris və idrak fəaliyyətini fəallaşdırmağa və yaradıcılıq qabiliyyətlərinin inkişafına xidmət edir (6, s. 319).

Biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi, şagirdlərdə yaradıcı potensialı artırmaqla yanaşı, idrak motivasiyasını da gücləndirir. Bu baxımdan, inteqrasiya olunmuş dərslər yalnız fənlərarası əlaqə forması deyil, həm də şagirdin idrak fəallığını, müstəqil düşünmə və problem həll etmə bacarığını inkişaf etdirən tədris modeli kimi çıxış edir.

Müasir elmi yanaşmalara əsasən, inteqrasiya olunmuş təlim dünyanın müxtəlif hadisə və proseslərinin qarşılıqlı əlaqəsini əks etdirən biliklərin sistemləşdirilməsinə yönəlmişdir. Bu yanaşma, şagirdlərin təkcə mövcud məlumatları mənimsəməsini deyil, həm də həmin məlumatlar əsasında yeni reallıq və yeni məzmun formalaşdırmasını nəzərdə tutur (7, s. 44).

Belə dərslərin məzmunu yalnız müxtəlif fənlərdən əldə edilən məlumatların məcmusu deyil, həm də onların qarşılıqlı əlaqəsindən yaranan yeni elmi mənzərədir.

Nəticə: Aparılan tədqiqat göstərir ki, tarixin məzmun xətləri əsasında tədrisi müasir təhsil sisteminin əsas tələblərinə cavab verən, elmi-pedaqoji cəhətdən əsaslandırılmış yanaşmadır. Tarix fənninin məzmun xətləri şagirdlərdə tarixi hadisə və proseslərin sistemli, ardıcıl və məntiqi şəkildə qavranılmasına şərait yaradır. Bu məzmun xətləri tarix təliminin yalnız informasiya xarakterli deyil, eyni zamanda inkişafetdirici və tərbiyəedici funksiyalarını da təmin edir. Müəyyən edilmişdir ki, tarixi zaman və tarixi məkan məzmun xətləri şagirdlərdə xronoloji və məkan təfəkküründün formalaşmasında mühüm rol oynayır, hadisələr arasında səbəb-nəticə əlaqələrinin qurulmasını asanlaşdırır. Dövlət məzmun xətti şagirdlərin dövlətçilik ənənələri, siyasi sistemlər və vətəndaşlıq məsuliyyəti haqqında biliklərinin dərinləşməsinə xidmət edir. Şəxsiyyət məzmun xətti tarixi şəxsiyyətlərin fəaliyyəti əsasında şagirdlərdə liderlik keyfiyyətlərinin, vətənpərvərlik hissinin və obyektiv tarixi qiymətləndirmə bacarığının formalaşmasına imkan yaradır. Mədəniyyət məzmun xətti isə milli-mənəvi dəyərlərin, mədəni irsin qorunması və ümumbəşəri dəyərlərə hörmət kimi keyfiyyətlərin aşılanmasında xüsusi əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, tarixin məzmun xətləri əsasında tədrisi tarix fənninin keyfiyyətinin yüksəldilməsinə, şagirdlərin tarixi düşüncə və analitik bacarıqlarının inkişafına, eləcə də onların vətəndaş kimi formalaşmasına mühüm töhfə verir. Bu yanaşmanın təhsil praktikasında daha geniş və sistemli tətbiqi tarix təliminin səmərəliliyinin artırılması baxımından məqsədəuyğun hesab olunmalıdır.

Problemin aktuallığı. Müasir dövrdə təhsil sistemində aparılan

islahatlar təlim prosesinin şagirdyönlü, nəticəyönlü və səriştəyə əsaslanan yanaşmalar əsasında qurulmasını zəruri edir. Bu baxımdan tarix fənninin məzmun xətləri əsasında tədrisi xüsusi aktuallıq kəsb edir. Tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət məzmun xətləri şagirdlərdə tarixi düşüncənin formalaşdırılmasına, hadisə və proseslərin sistemli şəkildə qavranılmasına imkan yaradır. Lakin təhsil praktikasında məzmun xətlərinin tətbiqində bir sıra metodik və təşkilati çətinliklər mövcuddur. Bu səbəbdən tarixin məzmun xətləri əsasında tədrisinin əhəmiyyətinin elmi-nəzəri və praktik baxımdan araşdırılması müasir təhsil üçün aktual problem kimi çıxış edir.

Problemin yeniliyi. Tədqiqatın yeniliyi tarix fənninin beş əsas məzmun xətti-tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət – əsasında tədrisin əhəmiyyətinin sistemli şəkildə təhlil olunmasından ibarətdir. İşdə məzmun xətlərinin tarixi düşüncənin formalaşmasına, şagirdlərin analitik və tənqidi təfəkkürünün inkişafına təsiri kompleks yanaşma əsasında araşdırılır. Eyni zamanda, məzmun xətlərinin qarşılıqlı əlaqəsi və onların təlim prosesində inteqrativ tətbiqi elmi baxımdan əsaslandırılır ki, bu da mövcud pedaqoji tədqiqatlardan fərqli olaraq problemin yeni aspektdən təqdim olunmasını təmin edir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri tarix fənninin tədrisində məzmun xətlərinin daha səmərəli tətbiqi üçün praktik əhəmiyyət daşıyır. Əldə olunan müddəalar müəllimlər tərəfindən dərslərin planlaşdırılmasında, təlim metodlarının seçilməsində və qiymətləndirmə prosesinin təşkili zamanı istifadə oluna bilər. Tədqiqat materialları ümumtəhsil məktəblərində tarix müəllimləri, metodistlər, eləcə də pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələr üçün metodik vəsait kimi faydalı ola bilər. Bundan əlavə, işin nəticələri tarix kurikulumunun təkmilləşdirilməsi istiqamətində aparılan elmi-tədqiqatlarda tətbiq edilə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ümumi tarix fənni üzrə Təhsil Proqramı (kurikulumu) (VI-XI siniflər). – Bakı: 2013.
2. Abbasov, A. M., Məmmədzadə, R. R. Kurikulum nəzəriyyəsi və təcrübəsi. – Bakı: Təhsil, –2016. – 312 s.
3. Bəhrəmova, S. Ş. Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası / S. Ş. Bəhrəmova. – Bakı: Optimist MMC, –2024. – 224 s.
4. Bəhrəmova, S. Ş. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində ümumi tarix fənninin tədrisinin perspektivləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. – Bakı: 2010. – № 4. – s. 167–172.
5. Cəbrayılov, İ. Azərbaycan tarixinin tədrisi metodikası: Monoqrafiya / İ. Cəbrayılov. – Bakı: Mütərcim, –2006. – 236 s.
6. Əmirov, M. Pedaqoji tədqiqat metodları / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2019. – 88 s.
7. Əmirov, M. İnsan və cəmiyyət: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2010. – 581 s.
8. Əmirov, M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası: Dərs vəsaiti / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2014. – 678 s.
9. Əlizadə, Ə. Ə. Pedaqogikanın aktual problemləri. – Bakı: Elm və Təhsil, –2014. – 286 s.
10. İlyasov, M. Müasir təhsil: ənənədən innovasiyaya: Monoqrafiya / M. İlyasov. – Bakı: Elm və Təhsil, –2021. – 376 s.
11. Musayev, D. Tarixin tədrisində interaktiv metodlardan istifadə imkanları: Monoqrafiya / D. Musayev. – Bakı: ADPU-nun nəşriyyatı, –2022. – 228 s.
12. Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün Azərbaycan tarixi fənn üzrə dərslik. Azərbaycan tarixi: 6-cı sinif üçün dərslik. – Bakı: Şərq-Qərb, –2025. – 114 s.
13. OECD. The future of education and skills: Education 2030. – Paris: OECD Publishing, –2018. – 112 p.
14. Wineburg, S. Historical thinking and other unnatural acts. – Philadelphia: Temple University Press, –2001. – 240 p.

Redaksiyaya daxil olub: 03.03.2026

UOT 372.893

Leyla Qabil qızı Orucova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0009-4701-9300
E-mail: leyla_1989orucova@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).96-100

ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN DİGƏR TÜRK XALQLARI VƏ DÖVLƏTLƏRİNİN TARİXİ İLƏ İNTEQRATİV TƏDRİSİNİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ROLU

Leyla Gabil Orujova
doctoral student of the Institute of Education of the Republic of Azerbaijan

THE ROLE OF INTEGRATIVE TEACHING OF AZERBAIJAN HISTORY WITH THE HISTORY OF OTHER TURKISH PEOPLES AND STATES IN HIGHER SCHOOLS IN THE FORMATION OF PERSONALITY

Лейла Габиль гызы Оруджева
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

РОЛЬ ИНТЕГРАТИВНОГО ПРЕПОДАВАНИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА С ИСТОРИЕЙ ДРУГИХ ТЮРКСКИХ НАРОДОВ И ГОСУДАРСТВ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

Xülasə. Məqalədə ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisinin şəxsiyyətin formalaşmasında rolu araşdırılmışdır. Müasir dövrümüzdə təhsilin əsas məqsədlərindən biri müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Bu məqsədin reallaşmasında ali məktəblərdə tədris olunan Azərbaycan tarixi fənninin rolu böyükdür. Belə ki, Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi tələbə-gənclərdə xalqımızın tarixi keçmişini, soykökünü, milli-mənəvi dəyərlərini daha dərindən və ətraflı mənimsəməyə kömək edir ki, bu da onların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.
Açar sözlər: *ali məktəb, Azərbaycan tarixi, türk xalqları, türk dövlətləri, tədris, inteqrasiya, şəxsiyyət*

Abstract. The article examines the role of the integrated teaching of Azerbaijani history with the history of other Turkic peoples and states in higher education institutions in the formation of personality. In our modern era, one of the main goals of education is to educate independent and creatively thinking citizens and individuals. The role of the subject History of Azerbaijan taught in higher education institutions in the realization of this goal is great. Thus, the integrated teaching of Azerbaijani history with the history of other Turkic peoples and states helps students and young people to more deeply and comprehensively master the historical past, ethnic roots, national and spiritual values of our people, which plays an important role in their formation as individuals.

Keywords: *higher education, Azerbaijani history, Turkic peoples, Turkic states, education, integration, personality*

Аннотация. В статье исследована роль интегрированного преподавания истории Азербайджана с историей других тюркских народов и государств в высших учебных заведениях в формировании личности. Одной из основных целей образования в нашу современную эпоху является воспитание независимых и творчески мыслящих граждан и личностей. Роль предмета История Азербайджана, преподаваемого в высших учебных заведениях, в реализации этой цели велика. Таким образом, интегрированное преподавание истории Азербайджана с историей других тюркских народов и государств помогает студентам и молодежи более глубоко и всесторонне освоить историческое прошлое, этнические корни, национально-духовные ценности нашего народа, что играет важную роль в их становлении как личностей.

Ключевые слова: *высшая школа, история Азербайджана, тюркские народы,* тюркские государства, *преподавание, интеграция, личность*

XXI yüzilliyin əvvəllərində yeni təhsil proqramlarının hazırlanması və tətbiqi ölkəmizdə təhsilin məzmununun nəzəri və praktik baxımdan yenilənməsində mühüm rol oynayır. Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də inkişaf prosesi getməkdədir. İctimai-siyasi həyatda baş verən qloballaşma və modernləşmə təhsil sisteminin əsaslı təkmilləşməsini də mühüm bir vəzifə kimi irəli sürür. Bu vəzifəni yerinə yetirmək üçün fənn kurikulumları tətbiq olunur. Şagirdyönümlü, şəxsiyyətyönlü, nəticəyönlü və tələbəyönlü təhsilə üstünlük verilir. Bu baxımdan müasir dövrün tələblərinə cavab verən şəxsiyyət – vətəndaşın formalaşması ilk növbədə şəxsiyyətyönlü təhsildən keçir. Belə şəxsiyyətlərdə vətəndaş təfəkkürü, müstəqillik, demokratiklik, yaradıcılıq və tədqiqatçılıq qabiliyyətləri daha çox inkişaf edir ki, bu da sərişdə əsaslı təhsilin məzmununun formalaşması ilə bağlıdır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun dördüncü maddəsində təhsilin əsas məqsədlərində qeyd edilir: "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək" (1).

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Birinci strateji istiqamət sərişdəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir" (2).

Həmçinin təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri arasında humanistlik və inteqrasiya mühüm yer tutur. Bu baxımdan tədqiq etdiyimiz problem aktuallığı ilə seçilir.

Müasir təhsilin inkişafı yaradıcı düşünən, yeni təfəkkür mədəniyyətinə yiyələnən şəxsiyyətin formalaşdırılması ilə bağlı olduğu qədər, şəxsiyyətin formalaşdırılması da təlim-tərbiyə prosesində təhsilalanlarda tədqiqatçılığın formalaşdırılması ilə əlaqəlidir (3, s.116).

Elm cəmiyyətin hərəkətverici qüvvəsi olmaqla müasir dövrümüzdə həyatımızın müxtəlif sahələrinin inteqrasiyası vətəndaşların şəxsiyyət kimi formalaşmasında, ictimai həyatda baş verən hadisələrin dərk

olunmasında böyük rolu vardır. İnteqrativ tədris təhsilalanlarda dünyagörüşünü inkişaf etdirməklə bilikləri tam şəkildə qavramağa və real həyatda tətbiq etməyə imkan verir. Bu yanaşma tələbələrdə tənqidi təfəkkürü, yaradıcılıq qabiliyyətlərini, müstəqil qərarvermə bacarıqlarını inkişaf etdirərək təhsilalanların şəx siyyət kimi formalaşmasında mühüm rol oynayır. Ona görə də fənlər arasında sərhəd qoymaq deyil, inteqrasiya elementlərinin inkişaf etdirilməsi, intellektual insan kapitalının formalaşdırılması ali təhsil müəssisələrinin qarşısında duran vacib amillərdən hesab edilir. Eyni zamanda ali təhsil müəssisələrinin qarşısında duran digər mühüm vəzifələrdən biri cəmiyyətə dərin nəzəri və təcrübi biliklərə malik vətəndaşların hazırlanmasıdır. Bu vəzifənin həyata keçirilməsində ali məktəblərdə tədris olunan ictimai-siyasi fənlərin əsasən də Azərbaycan tarixi fənninin rolu böyükdür.

Azərbaycan tarixinin tədrisinin ən ümdə vəzifələri tələbə-gənclərə Vətənimizin tarixi keçmişi haqqında dərin biliklər vermək, onlara tariximizin mürəkkəb və ziddiyyətli dövrlərindən baş açmağı öyrətmək, onlarda tarixi təfəkkürü formalaşdırmaq, cəmiyyətdə baş verən hadisələri obyektiv qiymətləndirmək bacarığı aşılamaqdan ibarətdir (4, s.10). Tələbə – gənclərin vətənimizin qədim və zəngin tarixini öyrənmələri onların dünyagörüşünün hərtərəfli inkişafına və şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Professor İ. Cəbrayılov “Şəxsiyyətyönlü təhsil və vətəndaş cəmiyyəti” adlı monoqrafiyasında şəxsiyyətyönlü təhsilin əsas xüsusiyyətlərini aşağıdakı kimi ifadə etmişdir:

1) təhsilalanlara subyekt kimi yanaşılmalı; 2) dialoji yanaşma; 3) ekzistensiallıq; 4) inteqrativlik; 5) inkişafetdirici xarakterin olması; 6) pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanması; 7) təhsilin fundamentallığı (5, s. 43).

Buradan da aydın olur ki, şəxsiyyətyönlü təhsilin əsas xüsusiyyətlərindən biri olan inteqrativlik fənlərin tədrisinə kompleks yanaşmaqla tədris prosesində şəxsiyyətin formalaşmasına təsir göstərir.

Təhsilalanlarda, o cümlədən tələbələrin mənəvi keyfiyyətlərinin formalaşması qayğısına qalmaq, bu məqsədlə təlim prosesinin, mühazirə və seminar məşğələlərinin, eyni zamanda audito riyadankənar tədbirlərin səmərəliliyinə nail olun ması, milli tərbiyəyə, milli dəyərlərimizə əsaslanmaq mühüm tələb kimi qarşıda dayanır (6, s. 71).

Ölkəmizin gələcək taleyi onun gənclərindən asılı olduğundan təhsildə aparılan islahatlar milli ənənələrimizə söykənərək, soykökünə bağlı şəxsiyyətin formalaşmasına xidmət etməlidir. Gənc nəsli milli-mənəvi dəyərlər ruhunda tərbiyə etmək əsas məqsədlərimizdəndir.

Professor P.B. Əliyev və professor H.H. Əhmədovun “Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi” adlı vəsaitlərində milli-mənəvi tərbiyənin tərkib hissələrini aşağıdakı məzmunda formulə etmişdirlər:

1. Soykökümüzə və adət-ənənələrimizə əsaslanan tərbiyə;
a) mənəvi-əxlaqi keyfiyyətlərin tərbiyəsi
2. İslam dininin təsiri ilə yaranmış mənəvi - əxlaqi keyfiyyətlərin tərbiyəsi;
3. Ümumbəşəri dəyərlərin milli dəyərlərimizlə sintez halında yaranmış tərbiyəsi (7, s.15).

Bu amillərin təlim prosesində nəzərə alınması şəxsiyyətin hərtərəfli inkişafında mühüm rol oynayır.

Gənc nəslin cəmiyyətimizdə milli dəyərlərimiz ruhunda tərbiyə edilməsi onlarda hər cür mənəvi keyfiyyətlərin formalaşmasında vacib amildir (8,

s.75) Şəxsiyyətin mənəvi dünyasının zənginləşməsində dəyərlərin böyük rolu vardır. Bu baxımdan ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi gənclərdə milli ideologiyanın formalaşmasına təsir edir.

Professor İ.H.Cəbrayılov milli tərbiyə sistemi haqqında qeyd etmişdir ki, "müasir dövrdə azərbaycançılıq ideologiyasının formalaşdırılması tariximizə, dövlətçilik ənənələrimizə, mədəniyyətimizə, milli və bəşəri dəyərlərə, torpağa, vətənə, millətə hörmət və məhəbbətdən, milli düşüncəyə, hiss və duyğulara yiyələnməkdən başlayır" (9).

Milli ideologiyanın əsas komponentləri sırasında azərbaycançılıq, dövlətçilik, milli-mənəvi dəyərlər mühüm yer tutur.

Pedaqogika üzrə fəlsəfə doktoru S.S. Bəhrəmova "Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası" adlı dərs vəsaitində mənəvi dünyagörüşünün inkişaf pirinsiplərini aşağıdakı kimi müəyyənləşdirmişdir:

1. Sosial və hədəfyönlülük prinsipi;
2. Milli-mənəvi dünyagörüşünün inkişafı ilə həyat və əmək arasında əlaqə prinsipi;
3. Mənəvi dünyagörüşünün inkişafı prosesinin humanistləşdirilməsi prinsipi;
4. Mənəvi dünyagörüşünün inkişafı prosesinə vahid yanaşma prinsipi;
5. Əxlaqi-mənəvi dünyagörüşünün formalaşması prosesində milli və ümumbəşəri dəyərlərə söykənmək prinsipi;
6. Əxlaqi-mənəvi dünyagörüşünün inkişafında milli ideyaya, ideologiyaya və milli kimliyə söykənmək prinsipi (10, s. 42).

Tədqiqatçı pedaqoji prosesdə bu prinsiplərin təhsilalanların mənəvi-əxlaqi dünyagörüşünün inkişafında əsas olduğunu və təlimin səmərəli təşkilinə xidmət etdiyini göstərmişdir.

Ali məktəblərdə şəxsiyyətyönlü təhsil tələbələri cəmiyyətə layiqli vətəndaş kimi təqdim edir. Belə ki, vətən tarixinin tədrisində azərbaycançılıq ideologiyasının, milli ləyaqətin, milli şüurun formalaşması və inkişafı təlim və tərbiyəvi əhəmiyyət kəsb edir. Bu ideyaların gənclərdə formalaşması onların milli özünüdərkinə, öz xalqına, vətəninə bağlı insan kimi formalaşmasına kömək edir. Bu baxımdan azərbaycançılıq ideyalarının təbliği, vətənə bağlılıq hisslərinin inkişafı gənclərin şəxsiyyət kimi formalaşmasına təsir edir. İnsanın hərtərəfli inkişafı mənəvi tərbiyə ilə sıx bağlıdır.

Ali məktəblərdə təhsil alan gələcəyin gənc mütəxəssislərində milli özünüdərk və özünü dəyərləndirmək xüsusi əhəmiyyət kəsb edir. Bu da onların şəxsiyyət kimi inkişafında və ictimai həyata inteqrasiyasında vacib amillərdəndir. Azərbaycan tarixinin tədrisi həm də tələbə gənclərdə milli şüurun formalaşmasına xidmət edir. Milli şüurun formalaşmasında öz soykökünü tanımaq, milli adət-ənənələrinə hörmət, vətənə məhəbbət və qürur hissləri mühüm rol oynayır. Ali məktəblərdə Azərbaycan tarixi fənninin tədrisi gənclərin geniş dünyagörüşlü, milli-mənəvi dəyərlərə bağlı, vətənpərvər şəxsiyyət kimi formalaşmasında rolu böyükdür.

Bildiyimiz kimi, milli və ümumbəşəri dəyərlərin formalaşmasında şəxsiyyətyönlü təhsilin rolu böyükdür. Ali məktəblərdə tədris olunan Azərbaycan tarixi fənni yetişməkdə olan gənc nəslin tarixi yaddaşının möhkəmləndirilməsində, onlarda vətənə, torpağa sevgi, vətənpərvərlik hisslərinin formalaşmasında, vətənini sevən, onu daim müdafiə etməyə hazır olan vətəndaş kimi formalaşmasında əvəzsiz rola malikdir.

Ali məktəblərdə Azərbaycan tarixi fənninin Türk xalqları və dövlətlərinin

tarixi ilə inteqrativ şəkildə tədrisi xalqımızın tarixi keçmişinin, soykökünün daha ətraflı və dərindən öyrənilməsində mühüm rol oynayır. Hər iki fənn üzrə tədris olunacaq mövzulara diqqət yetirsək geniş inteqrasiya imkanlarının olduğunu görə bilərik.

İnteqrativ öyrənmə, idrak təfəkkürünü təkmilləşdirmək üçün iki və ya daha çox fənnin bilik və düşüncə tərzlərini birləşdirən fənlərarası əlaqənin yaranmasıdır ki, bu da yalnız bir elm sahəsi ilə mümkün deyil (11, s.388). Tarixin tədrisində inteqrativ təlimdən istifadə tələbələrə tarixi hadisələri daha geniş şəkildə əlaqələndirməyə imkan verir ki, bu da onlarda araşdırma, tənqidi düşünmə, məlumat toplama və dərk etmə bacarıqlarının inkişafına kömək edir.

Türk dünyasını öyrənərkən biz türklərin ilkin yaşayış məskənləri, onların adət-ənənələri, etnoqrafik fəaliyyəti, onların yayılma arealı, bu xalqların köçü, mənşəyi, bir çox məkan adlarının, tarixdə iz qoyan şəxslərin türk mənşəli olmasını müəyyənləşdirsək görərik ki, Azərbaycan tarixinin türk xalqları və dövlətlərinin tarixi ilə geniş inteqrasiya imkanları vardır. Belə ki, ali məktəblərdə tədris olunan Azərbaycan tarixi fənninin geniş inteqrasiya imkanlarına malik olduğu fənlərdən biri Türk xalqları və dövlətlərinin tarixi fənnidir.

Belə ki, biz hər iki fənnin proqramına nəzər yetirsək şəxsiyyətin formalaşmasında mühüm rol oynayan bir çox mövzularda inteqrasiya imkanlarını görə bilərik. Buna nümunə olaraq göstərə bilərik ki, Azərbaycan tarixi fənnindən “IX-XII əsrlərdə Azərbaycanın sosial – iqtisadi və mədəni həyatı” mövzusunu tədris edərkən mədəniyyətlə bağlı “Kitabi-Dədə Qorqud” dastanı haqqında danışarkən Türk xalqları və dövlətlərinin tarixi fənnindən “Türk xalqlarının mədəniyyəti” mövzusu ilə inteqrasiya edə bilərik. Hər iki fəndə tədris olunan bu mövzu Azərbaycanın və bütün türk xalqlarının mənəvi sərvəti hesab edilir.

Dastanda xalqımızın mənəvi dəyərləri, tarixi keçmişi, qəhrəmanlığı təsvir edilmişdir. Dastan Azərbaycan xalqının tarixi köklərini, mədəniyyətini, kimliyini nümayiş etdirən mənbə hesab edilir.

Mövzunun inteqrativ şəkildə tədrisi tələbə-gənclərdə igidlik, vətənpərvərlik hisslərinin, o cümlədən xalqımızın mənəvi dəyərlərini milli kimlik şüurunun formalaşmasına təsir edir ki, bu da onların şəxsiyyət kimi formalaşmasına təsir edir. Ali məktəblərdə bu mövzunun tədrisi mədəni irsin qorunması və onun gənc nəsillərə çatdırılmasına xidmət edir.

Beləliklə, nəticə olaraq qeyd edə bilərik ki, ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi vətənimizin tarixi keçmişi haqqında tələbə-gənclərə ətraflı biliklər verməklə onlarda tarixi təfəkkür, yüksək intellektə, geniş dünyagörüşünə malik olan şəxsiyyət kimi formalaşmasında, tarixi köklərinə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərə sahib olan, vətənini, millətini sevən vətəndaş kimi tərbiyə edilməsində mühüm rol oynayır.

Problemin aktuallığı. Azərbaycan Respublikasının təhsil siyasətinin əsas məqsədlərindən biri təhsilin müasir keyfiyyətini təmin etmək, dəyişən informasiya dünyasında yaşamağa qadir olan şəxsiyyətin inkişafı və formalaşmasıdır. Bu baxımdan problemlə bağlı tədqiqatların aparılması zəruri hesab edilir.

Problemin elmi yeniliyi. Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə qarşılıqlı əlaqədə tədrisinin didaktik əhəmiyyəti ondan ibarətdir ki, tələbələr türk xalqları və dövlətlərinin tarixi ilə dərindən tanış olmaqla bu xalqların bir-birini tanıması onların yaxınlaşmasına zəmin yaradır ki,

bu da türk birliyinin möhkəmlənməsinə kömək edir. Türk xalqları və dövlətləri tarixinin inteqrativ tədrisi onlar arasında əlaqələrin, elmi-texniki tərəqqinin, milli-mənəvi dəyərlərin inkişafına da motiv yaradır.

Problemin praktik əhəmiyyəti. Problemlə bağlı aparılan araşdırmalardan ali məktəb müəllimləri, magistrantlar, tələbələr faydalana bilərlər.

Ədəbiyyat

1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu [Elektron resurs]
2. URL:https://edu.gov.az/az/esas-senedler/tehsil-haqqinda-azerbaycan-respublikasinin-qanunu
3. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” [Elektron resurs].
4. URL: https://edu.gov.az/az/dovlet-strategiyasi-ve-konsepsiyalar/12574
5. Cəbrayılov İ.H. Müasir təhsilin məzmununun formalaşdırılmasının aktual problemləri // –Bakı: Azərbaycan məktəbi, – 2018. №3, – s. 107-118.
6. Qəniyev, H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. / H.Q. Qəniyev. – Bakı: “Elm və Təhsil”, –2019. –499 s.
7. Cəbrayılov, İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Monoqrafiya. / İ.H. Cəbrayılov. – Bakı: Mütərcim, –2011. –220 s.
8. Həsənova, X.S. Təhsilin humanistləşdirilməsi və tələbələrin mənəvi inkişafı məsələləri: mövcud ədəbiyyatın təhlili // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2018. №8, –s.70-76.
9. Əliyev, P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. / P.B. Əliyev, H.H. Əhmədov. – Bakı: Təhsil, – 2006. –264 s.
10. İsmayılxanova, Ə.İ. İnsan şəxsiyyətinin formalaşmasında təlim-tərbiyənin rolu// –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. №2, –s.72-76.
11. Cəbrayılov, İ.H. Milli tərbiyə sistemi azərbaycançılıq ideologiyasının əsas mənbələrindən biri kimi [Elektron resurs].
12. URL:https://tehsil.biz/news/az/16143/Milli-trbiy-sistemi-azrbaycanlq-ideologiyasnn-sas-mnblrindn-biri-kimi
13. Bəhrəmova, S.Ş. Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası. (Ali məktəblərin Tarix və coğrafiya fakültəsi tələbələri üçün dərs vəsaiti). / S.Ş. Bəhrəmova. – Bakı: “OPTİMİST” MMC, –2024. – 224 s.
14. Akmal, A. Integrative Learning in History Education: A Systematic Literature Review // Dinamika Ilmu, –2022, Volume 22(2), –p.375-392.

Redaksiyaya daxil olub: 29.04.2026

UOT 372.851

Vüsalə Telman qızı Məmmədova,
Milli Müdafiə Universitetinin Bakı Hərbi Kollecinin
Fundamental fənlər bölməsinin müəllimi-müdiri
https://orcid.org/0009-0002-1358-8483
E-mail: vusala.mammadova@sdu.edu.az
https://doi.org/10.69682/arti.2026.93(3).101-106

Ülviyyə Sanqan qızı Əliyeva
Sumqayıt Dövlət Universitetinin
Riyaziyyat və informatikanın tədrisi texnologiyası kafedrasının baş müəllimi
https://orcid.org/0000-0002-1231-9954
E-mail: ulviyya.aliyeva@sdu.edu.az

BAKALAVRİAT SƏVİYYƏSİNDƏ MƏNTİQ MƏSƏLƏLƏRİNİN TƏDRİSİ METODİKASI: ANALİTİK VƏ TƏNQİDİ DÜŞÜNCƏNİN ELMİ ƏSASLARI

Вюсаля Тельман гызы Мамедова
заведующий и преподаватель Бакинского Военного Колледжа отдела Фундаментальных дисциплин Национального Университета Обороны Азербайджана

Ульвия Санган гызы Алиева
старший преподаватель кафедры Технологий преподавания математики и информатики Сумгаитского Государственного Университета

МЕТОДИКА ПРЕПОДАВАНИЯ ЛОГИЧЕСКИХ ЗАДАЧ НА УРОВНЕ БАКАЛАВРИАТА: НАУЧНЫЕ ОСНОВЫ АНАЛИТИЧЕСКОГО И КРИТИЧЕСКОГО МЫШЛЕНИЯ

Vusala Telman Mammadova
head and lecturer of the department of Fundamental Sciences of National Defense University of Azerbaijan, Baku Military College —

Ulviyya Sanqan Aliyeva
senior lecturer of the department of Mathematics and informatics teaching technology of Sumgayit State University

METHODOLOGY OF TEACHING LOGIC PROBLEMS AT THE UNDERGRADUATE LEVEL: SCIENTIFIC FOUNDATIONS OF ANALYTICAL AND CRITICAL THINKING

Xülasə. Müasir ali təhsil sistemində məntiq fənninin tədrisi tələbələrin intellektual potensialının inkişafında mühüm rol oynayır. Xüsusilə "Məntiq məsələləri"nin öyrədilməsi tələbələrdə analitik düşünmə, səbəb – nəticə əlaqələrinin qurulması, mühakimə aparma və əsaslandırılmış qərarvermə bacarıqlarının formalaş-

masına xidmət edir. Məqalədə ali təhsil müəssisələrində bakalavriat pilləsində “Məntiq məsələləri” fənninin tədrisinin məqsədi, əhəmiyyəti, metodik istiqamətləri və müasir təhsil sistemində rolu hərtərəfli şəkildə araşdırılır. Tədqiqatda Aristotelin məntiq elminin formalaşmasındakı rolu, silloqizmin müasir formal məntiq yanaşmalarına təsiri, Baqomolovun pedaqoji töhfələri, eləcə də Frege, Russell, Wittgenstein kimi müasir məntiqçilərin ideyaları nəzərdən keçirilir. Məqalədə fənnin proqramının elmi-metodik istiqamətləri, IQ testlərinin rolu və növləri, tədris metodikası, qiymətləndirmə mexanizmləri, rəqəmsal texnologiyalar və innovativ yanaşmalar geniş şəkildə şərh olunur. Eyni zamanda, məntiq təliminin müasir təhsil mühitində peşəkar və sosial kompetensiyaların inkişafına verdiyi töhfələr elmi baxımdan əsaslandırılır.

Məntiq fənninin yalnız nəzəri fənn deyil, həm də düşünmə mədəniyyətini formalaşdıran strateji vasitə olduğu vurğulanır.

Açar sözlər: *məntiq, arqumentləşdirmə, , intellektual fəaliyyət*

Abstract. In the modern higher education system, teaching logic plays a crucial role in developing students’ intellectual potential. In particular, studying “Logical Problems” helps cultivate analytical thinking, establish cause-and-effect relationships, perform reasoning, and make well-founded decisions. This article comprehensively examines the goals, significance, methodological directions, and role of the “Logical Problems” course at the bachelor’s level in contemporary education. The study considers Aristotle’s contribution to the development of logic, the influence of syllogism on modern formal logic approaches, Bagomolov’s pedagogical contributions, and the ideas of Frege, Russell, and Wittgenstein. The article extensively discusses the scientific-methodological directions of the course, the role and types of IQ tests, teaching methods, assessment mechanisms, digital technologies, and innovative approaches. It also substantiates the contribution of logic training to the development of professional and social competencies. It emphasizes that logic is not only a theoretical subject but also a strategic tool for forming a culture of thinking.

Keywords: *logic, argumentation, analytical thinking, syllogism, abstract thinking, formal logic, cognitive process, logical inference, rational justification, intellectual activity*

Аннотация. В современной системе высшего образования преподавание логики играет важную роль в развитии интеллектуального потенциала студентов. Особенно изучение «Логических задач» способствует формированию аналитического мышления, установлению причинно-следственных связей, умению рассуждать и принимать обоснованные решения. В статье всесторонне исследуются цели, значение, методические направления и роль курса «Логические задачи» на бакалаврском уровне в современной образовательной системе. Рассматривается вклад Аристотеля в становление логики, влияние силлогизма на современные формальные подходы, педагогические идеи Богомолова, а также концепции Фреге, Рассела и Витгенштейна. В статье подробно обсуждаются научно-методические направления курса, роль и виды IQ-тестов, методы преподавания, оценочные механизмы, цифровые технологии и инновационные подходы. Также обосновывается вклад обучения логике в развитие профессиональных и социальных компетенций студентов. Подчеркивается, что логика является не только теоретическим предметом, но и стратегическим инструментом формирования культуры мышления.

Ключевые слова: *логика, аргументация, аналитическое мышление, силлогизм, абстрактное мышление, формальная логика, познавательный процесс, логический вывод, рациональное обоснование, интеллектуальная деятельность*

Giriş. Müasir dövrdə ali təhsilin qarşısında qoyulan əsas hədəflərdən biri yalnız nəzəri biliklərin ötürülməsi deyil, eyni zamanda tələbələrin analitik təfəkkürünü, məntiqi nəticə çıxarma, problemləri həll etmə və qərarvermə bacarıqlarını inkişaf etdirməkdir. Cəmiyyətin intellektual potensialı bu bacarıqlarla birbaşa əlaqəlidir. İnformasiya bolluğunun, texnoloji dəyişikliklərin və əmək bazarında rəqabətin sürətlə artdığı dövrdə düşünmə qabiliyyəti bilik qədər, bəzən isə ondan da artıq dəyər kəsb edir. Bu səbəbdən ali təhsil sistemində bakalavriat səviyyəsində "Məntiq məsələləri" fənninin tədrisi mühüm yer tutur [7, s. 9]**.**

Ənənəvi təhsil sistemində məntiq ayrıca fənn kimi geniş yer tutmasa da, məntiqi təfəkkürəyönəlik metodlar müxtəlif fənlərin tərkibində mövcud idi. Riyaziyyat dərslərində problemli məsələlər, tarixdə səbəb-nəticə əlaqələrinin araşdırılması, dil və ədəbiyyatda mətn üzərində analiz və interpretasiya fəaliyyətləri öyrənənin düşünmə bacarığını inkişaf etdirirdi. O dövrdə məntiq bacarıqları dolayı yollarla formalaşdırılırdı. Müasir dövrdə isə bu bacarıq müstəqil bir fənnin və metodikanın obyekti halına gəlib. Artıq məqsəd yalnız bilik ötürmək deyil, düşünmə strukturunu formalaşdırmaqdır [6, s. 9]

Məntiq elminin tarixi və fəlsəfi əsasları

Məntiqin elmi əsasları Aristotel dövrünə qədər gedib çıxır. Aristotel insan düşüncəsini formal sistemə salaraq silloqizmlər vasitəsilə mühakimə və nəticə çıxarma mexanizmini yaratdı [1]**.** Onun "Organon" əsəri bu sahədə ilk sistemli yanaşma kimi qəbul olunur. Silloqizm – iki hökmün məntiqi əlaqəsi nəticəsində üçüncü hökmə gəlmək üsulu – məntiq elminin təməl sütunlarından biridir. Aristotel məntiqi yalnız fəlsəfi kateqoriya kimi deyil, həm də elmi idrakın aləti kimi təsbit etmişdir.

Sonrakı dövrlərdə İbn Sina və İbn Rüşd Aristotel məntiqini inkişaf etdirərək onu elmi təfəkkürün ayrılmaz hissəsinə çevirdilər. Orta əsr İslam dünyasında məntiq elmi fəlsəfə, tibb, hüquq və teologiyada geniş tətbiq sahəsi tapdı. XIX-XX əsrlərdə isə Frege, Russell, Wittgenstein və Baqomolov kimi məntiqçilər formal və simvolik məntiqin əsaslarını quraraq bu sahəni müasir mərhələyə gətirdilər. Frege məntiqi riyazi strukturla birləşdirdi, Russell məntiqi dilin strukturlaşdırılmasında əsas alətə çevirdi, Wittgenstein isə düşüncə ilə dil arasında məntiqi əlaqələrin fəlsəfi modelini təqdim etdi [3, 4, 5]**.**

Sovet elmi məktəbinin nümayəndəsi A. Baqomolov məntiqin pedaqoji tədrisinə böyük töhfə vermişdir. Onun metodik yanaşması məntiqi düşünmənin mərhələli inkişafını, tədris proqramlarının sistemləşdirilməsini və interaktiv təlim strategiyalarının formalaşmasını təmin etmişdir. Bu yanaşma bu gün bir çox universitetlərdə məntiq fənninin proqram strukturlarının təməlini təşkil edir.

Məntiq fənninin məqsədi və əhəmiyyəti

"Məntiq məsələləri" fənninin məqsədi yalnız abstrakt qaydaların öyrədilməsi deyil, tələbələrdə analitik, tənqidi, strukturlaşdırılmış və strateji düşünmə bacarıqlarının formalaşdırılmasıdır. Məntiq fənni tələbələrə arqumentləri düzgün qurmağı, arqumentləri qiymətləndirməyi, səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyi, informasiyanı strukturlaşdırmağı və müxtəlif situasiyalarda ən optimal qərarı qəbul etməyi öyrədir.

Bu fənn:

- analitik düşüncənin formalaşmasını təmin edir;
- elmi idrakın metodoloji əsasını möhkəmləndirir;

• magistratura mərhələsinə hazırlığı gücləndirir;
• əmək bazarında tələb olunan düşünmə çevikliyini formalaşdırır;
• qərarvermə, problem həll etmə və strateji planlaşdırma bacarıqlarını inkişaf etdirir [10].

Məntiq təlimində düşünmə mədəniyyətinin formalaşması

Məntiq fənninin ali təhsil sistemindəki əsas funksiyalarından biri tələbələrdə düşünmə mədəniyyətinin formalaşdırılmasıdır. Düşünmə mədəniyyəti anlayışı yalnız düzgün nəticəyə gəlmək bacarığını deyil, eyni zamanda düşünmə prosesinin ardıcıllığını, əsaslandırılmasını və daxili intizamını əhatə edir. "Məntiq məsələləri" fənni bu baxımdan tələbələrin intellektual fəaliyyətini sistemləşdirən mühüm didaktik vasitə kimi çıxış edir.

Məntiqi təfəkkürün formalaşması təsadüfi proses deyil və mərhələli şəkildə inkişaf edir [6]. Bu mərhələlərə anlayışların dəqiq müəyyənləşdirilməsi, mühakimələrin qurulması, arqumentlərin əsaslandırılması və nəticələrin yoxlanılması daxildir. Məntiq fənninin tədrisi zamanı bu mərhələlərin şüurlu şəkildə öyrədilməsi tələbənin düşünmə fəaliyyətində sabit və davamlı mexanizmlərin formalaşmasına şərait yaradır.

Məntiq və tənqidi düşünmə arasında əlaqə

Məntiq fənni ilə tənqidi düşünmə arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Tənqidi düşünmə informasiyanın kor-koranə qəbul edilməsini deyil, onun məntiqi əsaslarla təhlil edilməsini, müqayisə olunmasını və qiymətləndirilməsini nəzərdə tutur. Bu baxımdan məntiq fənni tənqidi düşünmənin struktur bazasını təşkil edir.

"Məntiq məsələləri" fənnində istifadə olunan tapşırıqlar tələbələri arqumentlərin etibarlılığını yoxlamağa, məntiqi səhvləri aşkar etməyə və alternativ yanaşmaları müqayisə etməyə yönəldir. Bu proses tələbənin intellektual müstəqilliyini gücləndirir və onun elmi diskursda fəal iştirakına imkan yaradır.

Məntiq fənninin magistratura və tədqiqat fəaliyyətinə təsiri:

Bakalavriat pilləsində məntiq fənninin sistemli tədrisi tələbələrin magistratura səviyyəsində qarşılaşacaqları tədqiqatyönlü fəaliyyətlər üçün mühüm intellektual baza yaradır. Elmi tədqiqat prosesi problemin düzgün qoyuluşu, hipotezin əsaslandırılması və nəticələrin məntiqi interpretasiyasını tələb edir. Bu bacarıqların formalaşmasında məntiq fənni aparıcı rol oynayır.

Məntiqi düşünmə bacarığı inkişaf etmiş tələbələr elmi mətnlərlə işləməkdə, nəzəri modelləri anlamaqda və müstəqil araşdırmalar aparmaqda daha yüksək nəticələr göstərirlər. Bu baxımdan "Məntiq məsələləri" fənni ali təhsildə tədqiqat mədəniyyətinin formalaşmasına birbaşa təsir göstərir.

Məntiq təliminin sosial və peşəkar kompetensiyalara töhfəsi

Müasir əmək bazarında tələb olunan əsas kompetensiyalar sırasında analitik düşünmə, əsaslandırılmış qərarvermə və problemlərin sistemli həlli xüsusi yer tutur. "Məntiq məsələləri" fənni bu səriştələrin formalaşmasında funksional rol oynayaraq tələbələrin peşəkar fəaliyyətə adaptasiyasını asanlaşdırır.

Məntiq təlimi tələbələrdə yalnız fərdi düşünmə bacarıqlarını deyil, eyni zamanda kollektiv müzakirələrdə arqumentasiya, mövqenin müdafiəsi və rasional dialoq aparma vərdişlərini də inkişaf etdirir. Bu bacarıqlar müasir professional mühitdə mühüm sosial kapital kimi qiymətləndirilir.

IQ testlərinin rolu və növləri

Məntiq fənninin tədrisində IQ testləri yalnız ölçü vasitəsi deyil, həm

də təlim aləti kimi mühüm yer tutur. Bu testlər tələbənin düşünmə reflekslərini, məntiqi əlaqələri tanıma sürətini və strateji qərarvermə bacarıqlarını inkişaf etdirir.

Əsas IQ test növləri:

- Analoqiyalar – anlayışlararası əlaqələri tapmaq bacarığını ölçür;
- Anaqramlar – dil və məntiqi düşünmənin inteqrasiyası;
- Ədədi ardıcıllıqlar – struktur və qanunauyğunluq tapmaq qabiliyyəti;
- Fiqurların açılışı, qırıq fiqurun tamamlanması – məkan təfəkkürü və vizual düşünmə;
- Güzgü effekti, dönmələr və simmetriya – vizual çeviklik və məkan oriyentasiyası;
- Məntiq cədvəlləri və aşkar operatorlar – formal məntiq bacarıqları;
- Çoxparametrli məntiq məsələləri – kompleks qərarvermə və analitik təfəkkür;
- Tapmacalar və uyğunluq məsələləri – fərqli idrak strategiyalarının tətbiqi.

Bu testlər tələbələrdə məntiqi düşünmənin operativliyini, informasiya emal sürətini və intellektual adaptasiya qabiliyyətini formalaşdırır.

Fənnin proqramının əsas elmi-metodik istiqamətləri:

"Məntiq məsələləri" fənninin proqramı çoxşaxəli, mərhələli və strukturlaşdırılmış şəkildə tərtib olunur. Məqsəd tələbələrdə ardıcıl, əsaslandırılmış və çevik məntiqi düşünmə sistemini yaratmaqdır. Proqramın əsas istiqamətləri:

1. Məntiqi mühakimələr və arqumenləşdirmə prinsipləri – arqumentlərin qurulması, silloqizmlərlə işləmə, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi.
2. Eliminasiya və strukturlaşdırma metodları – mümkün alternativlərin məntiqi aradan qaldırılması və düzgün nəticəyə gəlmək.
3. Zəka oyunlarının tətbiqi – çevik düşünmə, sürətli qərarvermə və strategiya qurma bacarığı.
4. Təsnifat və taksonomiya strategiyaları – anlayışların qruplaşdırılması və sistemləşdirilməsi.
5. Ardıcıllıq və silsilə əsaslı düşüncə – qanunauyğunluqların aşkarlanması.
6. Uyğunluq əlaqələrinin modelləşdirilməsi – anlayışlararası əlaqələrin qurulması və interpretasiyası.
7. Vizual analiz və məkan təfəkkürü – məkanyönlü düşünmə qabiliyyətinin inkişafı.
8. Saylar və ədədlərlə işləməyə əsaslanan tapşırıqlar – riyazi və məntiqi bacarıqların inteqrasiyası.
9. Kodlaşdırma və şifrləmə mexanizmləri – strukturlaşdırılmış məlumatın açılması.
10. Verbal məntiq və semantik nəticə çıxarma – dillə məntiqin sintezi.
11. Anlayışlararası əlaqələrin qurulması – iyerarxik və paralel əlaqələr.
12. Səbəb-nəticə əlaqələrinin analizi – hadisələr arasında məntiqi əlaqə.
13. Qeyri-müəyyən və natamam informasiyaların təhlili – ehtimallı mühakimə və qərarvermə.
14. Şərti və hipotetik mühakimələr – alternativ ssenarilərlə işləmək bacarığı.
15. Çoxpilləli və zəncirvari mühakimə modelləri – kompleks düşünmə strukturları.
16. Kombinatorika və mürəkkəb seçim məsələləri – seçim strategiyaları.
17. Strategiya qurma və problemi həll etməyə yönəlmiş yanaşmalar – praktik məntiq.
18. Real situasiyaların məntiqi analizi – nəzəri biliklərin praktik tətbiqi.
19. Funksional və rəqəmsal analiz əsasında tapşırıqlar – müasir analitik yanaşmalar.

20. Çoxparametrli məntiqi məsələlər – yüksək səviyyəli analitik və strateji təfəkkür.

Bu istiqamətlər bakalavr səviyyəsində analitik təfəkkürün formalaşmasına, magistratura mərhələsinə keçid üçün intellektual bazanın yaradılmasına, tədqiqat bacarıqlarının möhkəmlənməsinə xidmət edir.

Metodik yanaşmalar:

Məntiq fənninin tədrisi ənənəvi mühazirə metodlarından kənara çıxaraq interaktiv, tədqiqatyönlü və təcrübəyə əsaslanan yanaşmaları özündə birləşdirməlidir. Əsas metodlar:

- Beyin həmləsi və qrup müzakirələri – kollektiv düşünmə və arqumentləşdirmə bacarığı.
- Situasiya təhlili– real problemlərin məntiqi həlli.
- Simulyasiya edilmiş testlər və oyun texnologiyaları – praktik məşğələlər.
- Rəqəmsal platformalar – adaptiv tədris modelləri.
- Fərdiləşdirilmiş tədris yanaşmaları – tələbənin fərdi inkişaf trayektoriyasına uyğun təlim [11]**.**

Rəqəmsal texnologiyalar və innovasiya perspektivləri

Müasir dövrdə rəqəmsal texnologiyalar məntiq təliminin vacib tərkib hissəsidir [12, 13]**.** Onlayn test platformaları, AI əsaslı analiz sistemləri, adaptiv öyrənmə mühitləri, interaktiv oyunlar və simulyasiyalar tələbələrin düşünmə bacarıqlarını sürətlə inkişaf etdirir. Bu, Baqomolovun mərhələli pedaqoji yanaşmasına tam uyğun gəlir.

Eyni zamanda, innovativ pedaqoji modellər – problemyönlü tədris (PBL), konstruktivist yanaşma, oyun əsaslı öyrənmə – məntiqi fənlərin tədrisində effektivliyi artırır.

Qiymətləndirmə və nəticələrin ölçülməsi

Məntiq fənnində qiymətləndirmə təkcə "düzgün cavab" üzərində qurulmamalıdır. Əsas məqsəd düşünmə prosesinin ölçülməsidir. Qiymətləndirmə formaları:

- Yazılı testlər və situasiya məsələləri,
- Şifahi arqumentləşdirmə və təqdimatlar,
- Real situasiya üzərində problem həlli,
- Simulyasiya edilmiş IQ testləri.

Bu sistem tələbənin yalnız bilik səviyyəsini deyil, həm də düşünmə mexanizmini, məntiqi nəticə çıxarma qabiliyyətini və strukturlaşdırma bacarığını üzə çıxarır.

Problemin elmi yeniliyi. Təqdim olunan tədqiqatın elmi yeniliyi bakalavriat səviyyəsində "Məntiq məsələləri" fənninin tədrisinə **inteqrativ, sistemli və səriştəyönlü metodik yanaşmanın** elmi əsaslarla işlənib hazırlanmasında ifadə olunur. Mövcud elmi-pedaqoji ədəbiyyatda məntiq əsasən ya klassik formal məntiq çərçivəsində, ya da tənqidi düşünmənin ümumi komponenti kimi təqdim edilsə də, bu məqalədə məntiq məsələlərinin **analitik və tənqidi düşüncənin formalaşdırılmasında mərkəzi didaktik mexanizm** kimi çıxış etməsi ilk dəfə kompleks şəkildə əsaslandırılır.

Tədqiqatın elmi yeniliyi aşağıdakı aspektlərdə özünü göstərir:

1. **Məntiq məsələlərinin müstəqil elmi-metodik obyekt kimi təqdim edilməsi.**

Məqalədə "Məntiq məsələləri" yalnız formal məntiqin tətbiqi deyil, düşünmə prosesinin strukturlaşdırılmasını təmin edən xüsusi təlim aləti kimi konseptuallaşdırılır. Bu yanaşma məntiqi qaydalarla praktik idrak tapşırıqları arasında yeni elmi əlaqə yaradır.

2. **Klassik və müasir məntiq nəzəriyyələrinin metodik sintezi.** Aristotelin silloqistik məntiqi, Frege və Russell-in formal məntiq konsepsiyaları, Wittgenstein-in dil–məntiq münasibətləri, eləcə də Baqomolovun mərhələli pedaqoji yanaşması vahid metodik model çərçivəsində birləşdirilir. Bu sintez ba-

kalavriat səviyyəsində məntiq təliminin elmi əsaslarını genişləndirir.

3. **IQ testlərinin didaktik alət kimi yenidən interpretasiyası.** Ənənəvi olaraq ölçmə vasitəsi kimi qəbul edilən IQ testlərinin bu tədqiqatda **təlim prosesinin aktiv komponenti** kimi istifadəsi elmi yenilik təşkil edir. IQ tapşırıqları tələbələrdə operativ məntiqi düşünmə, çoxparametrli analiz və qərarvermə bacarıqlarının formalaşmasına yönəldilmiş elmi əsaslı metod kimi təqdim olunur.

4. **Məntiq təliminin kompetensiya əsaslı modelinin işlənməsi.** Məqalədə məntiq fənninin yalnız bilikyönlü deyil, **peşəkar, sosial və tədqiqat səriştələrini formalaşdıran sistem** olduğu elmi şəkildə əsaslandırılır. Bu, müasir ali təhsil strategiyaları (OECD Learning Compass 2030 və s.) ilə metodik uyğunluq yaradır.

5. **Düşünmə mədəniyyəti anlayışının məntiq təlimi kontekstində elmi əsaslandırılması.** Tədqiqatda "düşünmə mədəniyyəti" anlayışı abstrakt kateqoriya kimi deyil, konkret məntiqi əməliyyatlar, mərhələlər və idrak strategiyaları ilə əlaqələndirilir ki, bu da anlayışın elmi məzmununu zənginləşdirir.

Beləliklə, məqalənin elmi yeniliyi məntiq məsələlərinin bakalavriat səviyyəsində tədrisinin nəzəri, metodik və praktik aspektlərini vahid elmi sistemdə birləşdirərək məntiq təliminə yeni baxış bucağı təqdim etməsində ifadə olunur.

Problemin praktik əhəmiyyəti onun ali təhsil müəssisələrində "Məntiq məsələləri" fənninin tədrisinin **real tədris mühitində tətbiq oluna bilən**, **çevik** və **səmərəli metodik mexanizmlər** təklif etməsindədir. Məqalədə irəli sürülən yanaşmalar yalnız nəzəri xarakter daşımır, eyni zamanda müəllim və tələbə fəaliyyətinə birbaşa inteqrasiya oluna bilən praktik model təqdim edir.

Praktik əhəmiyyət aşağıdakı istiqamətlərdə əsaslandırılır:

1. **Tədris proqramlarının təkmilləşdirilməsi üçün metodik baza.** Məqalədə təqdim olunan 20 istiqamətli proqram strukturu ali təhsil müəssisələrində mövcud məntiq fənni proqramlarının yenilənməsi, zənginləşdirilməsi və mərhələləşdirilməsi üçün praktik çərçivə yaradır.

2. **Müəllimlər üçün tətbiq edilə bilən metodik tövsiyələr.** Beyin həmləsi, situasiya təhlili, simulyasiya edilmiş testlər, rəqəmsal platformalar və oyun əsaslı öyrənmə kimi metodlar müəllimlərin dərs prosesində dərhal tətbiq edə biləcəyi konkret mexanizmlər kimi təqdim olunur.

3. **Magistratura və dövlət imtahanlarına hazırlıq baxımından praktik dəyər.** Tədqiqatda təsvir edilən məntiq tapşırıqları və IQ test modelləri Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin magistratura imtahan proqramı ilə metodik uyğunluq təşkil edir və tələbələrin imtahan nəticələrinin yüksəldilməsinə xidmət edə bilər.

4. **Əmək bazarına uyğun səriştələrin formalaşdırılması.** Məntiq təliminin qərarvermə, problem həlli, strateji düşünmə və arqumentasiya bacarıqlarını inkişaf etdirməsi məqalədə praktik nümunələrlə əsaslandırılır ki, bu da məzunların peşəkar fəaliyyətə adaptasiyasını asanlaşdırır.

5. **Rəqəmsal və innovativ tədris mühitinə uyğunluq.** Məqalədə təqdim olunan metodik yanaşmalar onlayn platformalar, adaptiv öyrənmə sistemləri və süni intellekt əsaslı analiz mexanizmləri ilə inteqrasiya oluna bilər ki, bu da fənnin müasir təhsil mühitində praktik tətbiq imkanlarını genişləndirir [13]**.**

6. **Tələbələrin idrak motivasiyasının artırılması.** Məntiq məsələlərinin oyunlaşdırılmış, problemyönlü və real situasiyalara əsasla-nan formada təqdim olunması tələbələrin dərsə marağını artırır və passiv öyrənmədən aktiv idrak fəaliyyətinə keçidi təmin edir.

Nəticə etibarilə, tədqiqatın praktik yeniliyi "Məntiq məsələləri" fənnini abstrakt və çətin qəbul edilən fənn statusundan çıxararaq, **funksional, tətbiqyönlü və tələbə mərkəzli təlim alətinə** çevirməsində ifadə olunur. Bu yanaşma ali təhsildə məntiq təliminin səmərəliliyinin ar-tırılmasına və müasir təhsil çağırışlarına adekvat cavab verilməsinə real imkan yaradır.

Nəticə

"Məntiq məsələləri" fənni bakalavr pilləsində ali təhsil sisteminin mühüm elmi-metodik komponentlərindən biridir. Bu fənn:

- Düşünmə mədəniyyətini formalaşdırır;
- Analitik və tənqidi təfəkkürü gücləndirir;
- Magistratura mərhələsinə hazırlığı təmin edir;
- Əmək bazarına inteqrasiyada strateji rol oynayır;
- Qərarvermə, problem həlli və strateji düşünmə bacarıqlarını inkişaf etdirir.

Ənənəvi təhsil modellərinin faydalı elementlərini qoruyaraq müasir texnoloji və interaktiv metodlarla birləşdirmək, proqramları yeniləmək və məntiqin praktik tətbiq sahələrini genişləndirmək bu fənnin inkişafı üçün prioritet istiqamətlərdən olmalıdır.

Ədəbiyyat

1. Aristotel, Organon / Oxford University Press. – Oxford, 1984. – 668 s.
2. Богомолов, А. Педагогические основы формальной логики / А. Богомолов. – Москва: Высшая школа, –1982. – 256 с.
3. Frege, G. Begriffsschrift. – Halle: Verlag von Louis Nebert, –1879. – 88 s.
4. Russel,l B., Whitehead A. N. Principia Mathematica. – Cambridge: Cambridge University Press, –1910. – 664 s.
5. Wittgenstein, L. Tractatus Logico-Philosophicus. – London: Routledge, –1922. – 189 s.
6. Vygotsky, L.S. Mind in Society / L.S. Vygotsky. – Harvard University Press, –1978. – 159 s.
7. OECD. Learning Compass 2030. – Paris: OECD Publishing, –2020. – 48 s.
8. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi. Magistratura proqramı. – Bakı, 2024. – 112 s.
9. Halpern, D. F. Thought and Knowledge: An Introduction to Critical Thinking. – Psychology Press, 2014. – 480 p.
10. Jonassen, D. H. Learning to Solve Problems. – Routledge, - 2011. – 273 p.
11. Hmelo-Silver, C. E. Problem-Based Learning. // – Educational Psychology Review, - 2004, 16(3), –pp. 235–266.
12. Mayer, R. E. Multimedia Learning. – Cambridge University Press, 2009. – 304 p.
13. Azərbaycan Respublikası Təhsil İnstitutu. Müasir təlim texnologiyaları və innovativ yanaşmalar / – Bakı, 2021. – 96 s.

Redaksiyaya daxil olub: 30.04.2026

XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING FOREIGN LANGUAGES
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ

UOT: 372.881.111.1

Günay Xəzail qızı Şirəliyeva
Azərbaycan Dillər Universit'tinin dosenti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0009-0003-1075-2273
E-mail:shiraliyevagunay196@gmail.com

https://doi.org/10.69682/arti.2026.93(3).107-113

YUXARI KURSLARDA MƏZMUNLA İNGİLİS DİLİNİN İNTEQRASİYASI: CLIL MODELİNİN TƏDRİS STRATEGİYALARI VƏ ÇAĞIRIŞLARI

Gunay Khazail Shiraliyeva
associate professor of Azerbaijan University of Languages,
doctor of philosophy in pedagogy

INTEGRATION OF ENGLISH WITH CONTENT IN HIGHER COURSES: TEACHING STRATEGIES AND CHALLENGES OF THE CLIL MODEL

Гюнай Хазаил гызы Ширалиева
доцент Азербайджанского Университета Языков,
доктор философии по педагогике

ИНТЕГРАЦИЯ АНГЛИЙСКОГО ЯЗЫКА С ПРЕДМЕТНЫМ СОДЕРЖАНИЕМ НА СТАРШИХ КУРСАХ: СТРАТЕГИИ ПРЕПОДАВАНИЯ И ВЫЗОВЫ МОДЕЛИ CLIL

Xülasə. Bu məqalədə yuxarı kurslarda təhsil alan ingilis dili ixtisası tələbələri üçün məzmunla dilin inteqrasiyasına əsaslanan Content and Language Integrated Learning (CLIL) yanaşmasının nəzəri əsasları, pedaqoji prinsipləri və tətbiqi çətinlikləri təhlil olunur. Qloballaşma və akademik mobilliyin artması fonunda ingilis dili yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda akademik diskursun əsas komponentinə çevrilmişdir. Bu kontekstdə akademik oxu, yazı, dinləmə və danışıq bacarıqlarının inkişafı ali təhsildə prioritet məsələ kimi çıxış edir. Məqalədə CLIL-in Vıqotskinin sosial-konstruktivizm nəzəriyyəsi, Cummins-in BICS və CALP modeli, eləcə də məzmun əsaslı dil təlimi yanaşmaları ilə əlaqəsi izah edilir. CLIL-in 4C modeli – məzmun, ünsiyyət, kognisiya və mədəniyyət – pedaqoji baxımdan çoxölçülü çərçivə kimi təqdim olunur. Tədqiqatda göstərilir ki, CLIL yanaşması akademik dil bacarıqlarının paralel və kontekstual inkişafına şərait yaradır, tələbələrin tənqidi düşünmə və analitik bacarıqlarını gücləndirir. Eyni zamanda, CLIL-in ali təhsildə tətbiqi tələbə motivasiyasını artırır və öyrənməni daha məqsədyönlü edir.

Açar sözlər: *CLIL yanaşması; akademik dil bacarıqları; dil və məzmunun inteqrasiyası; ali təhsil; ingilis dilinin tədrisi; pedaqoji strategiyalar; müəllim hazırlığı*

Abstract. This article examines the theoretical foundations, pedagogical principles, and implementation challenges of the Content and Language Integrated Learning (CLIL) approach in the context of upper-level English language major students. In an era of globalization and increased academic mobility, English has become not only a means of communication but also a core medium of academic discourse. Consequently, the development of academic reading, writing, listening, and speaking skills has become a key priority in higher education. The study analyzes CLIL through major theoretical frameworks, including Vygotsky's sociocultural theory, Cummins' BICS and CALP distinction, and content-based language instruction. Particular attention is given to the 4C framework of CLIL – Content, Communication, Cognition, and Culture – which provides an integrative pedagogical structure for language and subject learning.

Keywords: *CLIL approach; academic language skills; content and language integration; higher education; English language teaching; pedagogical strategies; teacher training*

Аннотация. В данной статье рассматриваются теоретические основы, педагогические принципы и практические трудности реализации подхода Content and Language Integrated Learning (CLIL) в обучении студентов старших курсов, специализирующихся в области английского языка. В условиях глобализации и роста академической мобильности английский язык перестал быть исключительно средством общения и превратился в основной инструмент академического дискурса. В связи с этим развитие академических навыков

чтения, письма, аудирования и говорения приобретает ключевое значение в системе высшего образования. В статье анализируется CLIL с опорой на социокультурную теорию Л. С. Выготского, модель BICS и CALP Дж. Камминса, а также концепции предметно-ориентированного обучения языку. Особое внимание уделяется модели 4C (Content, Communication, Cognition, Culture), которая представляет собой интегративную педагогическую основу CLIL.

Ключевые слова: *подход CLIL, академические языковые навыки, интеграция языка и содержания, высшее образование, преподавание английского языка, педагогические стратегии, подготовка преподавателей*

Giriş

Müasir qloballaşma dövründə ingilis dili təkcə ünsiyyət vasitəsi olmaqdan çıxmış, eyni zamanda elmi dil və akademik səriştələrin əsas elementinə çevrilmişdir. Akademik dil bacarıqları tələbələrin universitet səviyyəsində uğur qazanmasının əsas göstəricilərindən biridir və bu bacarıqlar əhatəli oxu, akademik yazı, nitq və dinləmə qabiliyyətlərini özündə birləşdirir. Ənənəvi dil tədrisi yanaşmaları bu bacarıqları ayrıca və ayrı-ayrı komponentlər kimi öyrədir, halbuki real dünya tələbləri bu bacarıqların məzmunla birlikdə inteqrasiya olunmasını tələb edir. Bu kontekstdə Content and Language Integrated Learning (CLIL) yanaşması müasir təhsil sistemlərində diqqət mərkəzinə çıxmışdır.

CLIL ingilis dili və məzmun sahəsinin eyni zamanda öyrənilməsini təmin edən innovativ pedaqoji mexanizmdir. CLIL-in əsas məqsədi yalnız dil bacarıqlarını inkişaf etdirmək deyil, eyni zamanda tələbələrə məzmunla əlaqəli biliyi təqdim etməsidir. Bunun nəticəsində tələbələr müəyyən bir fənnin konseptual aspektlərini öyrənərkən eyni zamanda həmin sahəyə aid dil strukturunu və terminologiyanı da mənimsəyirlər. Bu baxımdan CLIL yanaşması dil və məzmunu sintez edən müasir pedaqoji model hesab olunur və bu modeli tətbiq etməklə ingilis dili ixtisası tələbələrinin akademik dil bacarıqlarına daha geniş və dərin yanaşma təmin etmək olur.

Məqalənin əsas məqsədi CLIL yanaşmasının ingilis dili ixtisası tələbələrinin akademik dil bacarıqlarının inkişafına təsirini nəzəri cəhətdən araşdırmaqdır. Məqalə çərçivəsində CLIL-in elmi-nəzəri əsasları, akademik dil bacarıqlarının tərifi, CLIL və akademik dil əlaqəsi, həmçinin bu yanaşmanın tətbiqi ilə bağlı müasir təhsil araşdırmaları təhlil olunacaqdır. Xüsusilə yuxarı kurslarda təhsil alan tələbələr artıq yalnız ümumi dil bilikləri ilə kifayətlənmir, onlar akademik diskursu anlamaq, fənn üzrə məqalələri təhlil etmək və elmi müzakirələrdə fəal iştirak etmək bacarığına ehtiyac duyurlar. Bu mərhələdə CLIL modeli tələbələrin tənqidi düşünmə, analitik yanaşma və müstəqil öyrənmə bacarıqlarını gücləndirən effektiv vasitə kimi çıxış edir. Eyni zamanda, CLIL dərsləri tələbələrdə motivasiyanı artırır, çünki dil real və mənalı akademik məzmun vasitəsilə təqdim olunur.

CLIL Yanaşmasının Nəzəri Aspektləri

Content and Language Integrated Learning (CLIL) yanaşması XX əsrin sonlarında Avropada ikidilli təhsil modelləri ilə əlaqədar olaraq meydana çıxmışdır. Bu yanaşma müəyyən bir fənnin məzmunu ilə ingilis dilinin birgə öyrənilməsinə yönəlib və dil öyrənənlərin həm məzmun biliklərini, həm də dil bacarıqlarını eyni vaxtda inkişaf etdirməyə xidmət edir [1].

CLIL-in yaranmasının əsas səbəblərindən biri Avropa İttifaqının

çoxdillilik siyasətidir. Qərb Avropa ölkələrinin təhsil sistemlərində CLIL yanaşması məzmun sahələri ilə ingilis dili öyrənilməsini inteqrasiya edərək tələbələrin real dünya dil istifadəsinə uyğun bacarıqlar qazanmasına şərait yaradır [2]. CLIL-in pedaqoji konsepsiyası müxtəlif nəzəri çərçivələrə əsaslanır. Bunlardan ən mühüm olanları Vıqotskının sosial-konstruktivizm nəzəriyyəsi və Cummins'in akademik dil nəzəriyyələridir. Vygotskiyə görə dil və biliyin öyrənilməsi sosial qarşılıqlı əlaqə yolu ilə baş verir və CLIL də bu qarşılıqlı əlaqə mühitini təmin edən ən effektiv metod kimi qiymətləndirilir.

Eyni zamanda Cummins'in Basic Interpersonal Communicative Skills (BICS) və Cognitive Academic Language Proficiency (CALP) anlayışları vasitəsilə akademik dil bacarıqlarının inkişafı nəzəri çərçivədə təhlil edilir: BICS gündəlik ünsiyyət bacarıqlarını, CALP isə akademik mətnlərin anlaşılması və yaradılması üçün zəruri olan dərin şəkildə düşünmə və dil strukturlarının mənimsənilməsini ehtiva edir. CLIL yanaşmasının nəzəri əsasları həmçinin tətbiqi dilçilik və koqnitiv psixologiya sahəsində aparılan tədqiqatlarla da dəstəklənir. Araşdırmalar göstərir ki, məzmun əsaslı dil təlimi tələbələrin diqqətini yalnız dil formalarına deyil, mənaya və anlayışların qurulmasına yönəldir ki, bu da dilin daha davamlı şəkildə mənimsənilməsinə şərait yaradır [3]. Bu baxımdan CLIL, Krashen-in "input hypothesis" nəzəriyyəsi ilə də əlaqələndirilə bilər; çünki öyrənənlər üçün təqdim olunan məzmun anlaşılan, lakin idrak baxımından çətin olan dil materialı üzərində qurulur.

Bundan əlavə, CLIL-in 4C modeli (Content, Communication, Cognition, Culture) pedaqoji baxımdan inteqrativ çərçivə yaradır və öyrənmə prosesini çoxölçülü şəkildə təşkil edir [4]. Bu model tələbələrin yalnız dil bacarıqlarını deyil, həm də mədəniyyətlərarası kompetensiyalarını inkişaf etdirməyi hədəfləyir. Müasir tədqiqatlar CLIL-in ali təhsil səviyyəsində akademik savadlılığın, tənqidi düşünmənin və öyrənən muxtariyyətinin formalaşmasına əhəmiyyətli töhfə verdiyini təsdiqləyir [5]. Beləliklə, CLIL nəzəri baxımdan çoxşaxəli və elmi əsaslandırılmış pedaqoji yanaşma kimi qiymətləndirilir.

Müasir tədqiqatlar CLIL-in ali təhsil səviyyəsində akademik savadlılığın, tənqidi düşünmənin və öyrənən muxtariyyətinin formalaşmasına əhəmiyyətli töhfə verdiyini təsdiqləyir [5]. Xüsusilə CLIL müəllim hazırlığı və pedaqoji strategiyalar baxımından innovativ yanaşma kimi qiymətləndirilir və bu sahədə aparılan beynəlxalq araşdırmalar CLIL-in ali təhsildə effektivliyini elmi əsaslarla sübut edir **[7]**.

CLIL-in pedagoji prinsipləri

CLIL yanaşmasının təməlində dörd əsas prinsip dayanır: Məzmun (Content), Ünsiyyət (Communication), Kognition (Cognition) və Mədəniyyət (Culture). Bu dörd prinsip, CLIL-i heç bir ayrı-ayrı fəndən ibarət olmayan, daha çox dil və məzmunu sintez edən bir model kimi müəyyən edir [1]. Məzmun tələbələrin müəyyən bir akademik sahədə bilik əldə etməsini təmin edir, ünsiyyət isə həmin bilikləri ifadə etmək üçün tələb olunan dil bacarıqlarını inkişaf etdirir. Kognition isə tələbələrin tənqidi düşünmə və problem həll etmə bacarıqlarını gücləndirir. Mədəniyyət isə qloballaşma şəraitində müxtəlif mədəniyyətlərarası ünsiyyət və təcrübə mübadiləsini təmsil edir.

CLIL-in pedaqoji prinsipləri eyni zamanda konstruktivist təlim yanaşmasına əsaslanır və biliklərin ötürülməsindən daha çox, onların tələbələr tərəfindən fəal şəkildə

qurulmasını hədəfləyir. Bu modeldə müəllim bilik verən əsas mənbə rolundan çıxaraq, öyrənmə prosesini istiqamətləndirən və dəstəkləyən fasilitator funksiyasını yerinə yetirir. Scaffolding (pilləli dəstək) mexanizmi CLIL-in mühüm komponentlərindən biri kimi çıxış edir və tələbələrin mürəkkəb məzmunu mərhələli şəkildə mənimsəməsinə imkan yaradır. Dil dəstəyi vizual materiallar, açar terminlər, konsept xəritələri və strukturlaşdırılmış tapşırıqlar vasitəsilə təmin olunur. Bundan əlavə, CLIL-in pedaqoji prinsipləri həmçinin fəaliyyətə əsaslanan öyrənmə və dilin funksional istifadəsi anlayışları ilə sıx bağlıdır. Tədqiqatlar göstərir ki, məzmun əsaslı tapşırıqlar vasitəsilə təqdim olunan dil daha məqsədyönlü və davamlı şəkildə mənimsənilir, çünki tələbələr dili real akademik problemlərin həlli üçün alət kimi istifadə edirlər [2]. Bu baxımdan CLIL tapşırıqları Bloom taksonomiyasının yuxarı səviyyələrinə – analiz, sintez və qiymətləndirmə mərhələlərinə uyğun şəkildə qurulur ki, bu da koqnitiv dərinliyi artırır [3].

Bundan əlavə, CLIL qiymətləndirmə prosesində də formativ yanaşmanı ön plana çəkir. Davamlı rəy, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə üsulları tələbələrin öyrənmə məsuliyyətini artırır və öyrənmə prosesini şəffaf edir [4]. Müasir araşdırmalar göstərir ki, bu prinsiplərə əsaslanan CLIL mühiti tələbələrin akademik motivasiyasını yüksəldir və öyrənmə nəticələrinin daha stabil olmasına şərait yaradır [5]. Beləliklə, CLIL-in pedaqoji prinsipləri dil, məzmun və idrak inkişafını vahid tədris çərçivəsində birləşdirən effektiv model kimi dəyərləndirilir.

Akademik dil bacarıqlarının mənası və strukturu

Akademik dil bacarıqları ingilis dilini bilən hər bir tələbənin istənilən akademik mühitdə uğur qazanması üçün vacibdir. Bu bacarıqlar əsasən *dörd əsas komponentdən* ibarətdir: akademik oxu, akademik yazı, akademik dinləmə və akademik danışıq. Akademik oxu tələbələrə müxtəlif elmi mətnləri başa düşmək və təhlil etmək imkanı verir. Akademik yazı tələbələrdən əldə etdikləri bilikləri məntiqi şəkildə təsvir etməyi tələb edir. Akademik dinləmə və danışıq isə tələbələrin dərslərdə, seminar və konfranslarda fəal iştirak etmələri üçün zəruridir.

CLIL yanaşmasında bu bacarıqlar bir-birindən ayrılmadan, məzmunla birlikdə inkişaf etdirilir. Məsələn, bir biologiya və ya tarix mövzusunda dərsi ingilis dilində keçərkən tələbələr həmin fənnə aid terminologiyanı öyrənir və eyni zamanda məzmunu anlamaq üçün akademik oxu və dinləmə bacarıqlarını istifadə edirlər. Beləliklə, CLIL akademik dil bacarıqlarını yalnız dilin quruluşu kimi deyil, həm də məzmunun mənimsənilməsi kontekstində inkişaf etdirməyi hədəfləyir [3].

Akademik dil bacarıqları yalnız dil biliyinin yüksək səviyyədə olmasını deyil, həm də akademik diskursun norma və konvensiyalarını anlamağı tələb edir. Bu bacarıqlar tələbələrin mətnlərdə arqument quruluşunu müəyyən etməsinə, müəllif mövqeyini qiymətləndirməsinə və elmi terminologiyadan düzgün istifadə etməsinə imkan yaradır. Akademik yazı prosesində strukturlaşdırılmış mətn qurmaq, mənbələrə istinad etmək və obyektiv üslubdan istifadə əsas tələblər sırasındadır. Dinləmə və danışıq bacarıqları isə təkcə informasiyanı qəbul etməklə məhdudlaşmır, eyni zamanda müzakirə aparmaq, suallar vermək və elmi fikirləri şifahi formada əsaslandırmaq bacarığını formalaşdırır. Bu baxımdan akademik dil bacarıqları sosial və intellektual fəaliyyətlə sıx bağlıdır. Akademik oxu bacarığı tələbələrdən kompleks məzmunları başa düşməyi, məntiqi nəticələr çıxarmağı və tənqidi

düşünməyi tələb edir. CLIL-in strukturunda akademik oxu fəaliyyətləri tez-tez elmi mətnlərin təhlili, məqalə oxu və qısa xülasə yazma kimi tapşırıqlar vasitəsilə həyata keçirilir.

Bu növ tapşırıqlar tələbələrin məzmunla əlaqəli yeni terminologiyanı mənimsəməsinə və akademik strukturlaşdırılmış mətnləri anlamalarına imkan yaradır. Eyni zamanda, oxu prosesi zamanı tələbələr arqumentlərin quruluşunu, əsas və köməkçi ideyaları ayırd etməyi və mətnlərarası əlaqələr qurmağı öyrənirlər ki, bu da onların analitik bacarıqlarını gücləndirir. Bundan əlavə, CLIL mühitində oxu tapşırıqları tez-tez müqayisə, sintez və qiymətləndirmə tələb edən fəaliyyətlərlə zənginləşdirilir ki, bu da oxu bacarığının daha dərin səviyyədə formalaşmasına şərait yaradır.

Akademik yazı bacarığı isə tələbələrin öz fikirlərini formal akademik dildə sistemli və əsaslandırılmış şəkildə ifadə etməsidir. Bu bacarıq CLIL çərçivəsində tədqiqat yazıları, esse və layihə hesabatları vasitəsilə inkişaf etdirilir. Yazı prosesi zamanı tələbələr elmi üslub normalarına riayət etməyi, terminologiyadan düzgün istifadə etməyi və mənbələrlə işləmə bacarığını mənimsəyirlər. Eyni zamanda, planlaşdırma, redaktə və refleksiya mərhələləri yazının keyfiyyətini artırır. Tədqiqatlar göstərir ki, CLIL yanaşması tələbələrin yazılı ifadə qabiliyyətini və məntiqi düşüncə səviyyəsini əhəmiyyətli dərəcədə gücləndirir [1], [3].

Akademik dinləmə bacarığı universitet mühitində keçirilən mühazirələri, seminar müzakirələrini və təqdimatları başa düşməyi əhatə edir. CLIL yanaşması tələbələri müəyyən mövzu üzrə məzmun məlumatını ingilis dilində mənimsəməyə təşviq etdiyindən, tələbələr akademik dinləmə bacarıqlarını sistemli şəkildə inkişaf etdirirlər. Xüsusilə fənnə aid terminologiyanın, əsas anlayışların və məntiqi ardıcıllığın dinləmə prosesi zamanı dərk edilməsi tələbələrin ümumi akademik səriştəsini gücləndirir. Bundan əlavə, CLIL dərslərində dinləmə fəaliyyəti adətən qeydlərin aparılması, əsas ideyaların müəyyənləşdirilməsi və müzakirəyə hazırlıq kimi tapşırıqlarla müşayiət olunur ki, bu da tələbələrin məlumatı strukturlaşdırılmış şəkildə emal etməsinə şərait yaradır.

Eyni zamanda, CLIL çərçivəsində həyata keçirilən interaktiv fəaliyyətlər – debatlar, qrup müzakirələri, şifahi təqdimatlar və sual-cavab sessiyaları – tələbələrə fikirlərini akademik üslubda ifadə etmək imkanı yaradır. Bu proses tə-ləbələrin nitq axıcılığını, arqument qurma və elmi terminologiyadan düzgün istifadə bacarıqlarını formalaşdırır. Şifahi təqdimatlar zamanı tələbələr məzmunu auditoriyaya uyğunlaşdırmağı və fikirlərini məntiqi ardıcıllıqla təqdim etməyi öyrənirlər. Bir sıra tədqiqatlar göstərir ki, CLIL tələbələri müxtəlif auditoriyalarda dil və məzmunu paralel şəkildə tətbiq etməyə yönəltdiyi üçün akademik danışıq bacarıqlarının inkişafını sürətləndirir və nitq prosesini daha təbii, inamlı və məqsədyönlü edir.

CLIL-in Təhsil Sistemində Rolu və Tətbiqi Çətinliklər

CLIL yalnız pedaqoji yanaşma deyil, həm də təhsil siyasətləri çərçivəsində sistemli şəkildə dəstəklənməsi tələb olunan bir modeldir. Bir çox Avropa ölkələrində CLIL artıq milli təhsil strategiyalarında yer alır və tələbələrə erkən mərhələlərdən başlayaraq dil və məzmunu inteqrasiya edən tədris modelləri təqdim edir [2]. Bu yanaşma təhsil sistemində çevikliyi artırmaqla yanaşı, tələbə mərkəzli tədris metodlarının və beynəlxalq

standartlara uyğun kurikulumların formalaşmasına şərait yaradır.

Bununla yanaşı, CLIL-in tətbiqi bir sıra çətinliklərlə müşayiət olunur. Əsas problemlərdən biri müəllimlərin həm dil, həm də fənn üzrə kifayət qədər hazırlıqlı olmamasıdır. Digər çətinliklərə tədris materiallarının məhdudluğu, qiymətləndirmə mexanizmlərinin qeyri-müəyyənliyi və tələbələrin fərdi dil səviyyələri arasındakı fərqlər daxildir. Bu səbəbdən CLIL-in uğurlu tətbiqi üçün institusional dəstək, davamlı müəllim hazırlığı proqramları və uyğun metodoloji çərçivənin yaradılması vacib hesab olunur.

CLIL-in təhsil siyasətləri səviyyəsində dəstəklənməsi onun dayanıqlı və genişmiqyaslı tətbiqi üçün əsas şərtlərdən biridir. Avropa Şurası və Avropa Komissiyasının çoxdillilik və təhsil strategiyaları CLIL-i əsas alətlərdən biri kimi təqdim edir və bu yanaşmanın təhsil keyfiyyətinin yüksəldilməsində mühüm rol oynadığını vurğulayır [1][2]. Xüsusilə ali təhsil müəssisələrində CLIL-in tətbiqi tələbələrin beynəlxalq akademik mühitə inteqrasiyasını sürətləndirir və onların rəqabətqabiliyyətli səriştələr qazanmasına şərait yaradır [3].

Lakin bir çox tədqiqatlar göstərir ki, CLIL-in uğurlu tətbiqi üçün strukturlaşdırılmış qiymətləndirmə modellərinin olmaması və metodoloji standartların qeyri-kafi olması ciddi problemlər yaradır [4]. Bundan əlavə, müəllimlərin CLIL metodologiyası üzrə xüsusi təlim keçməməsi tədris prosesində balanssızlığa səbəb ola bilər [5]. Bu baxımdan institusional səviyyədə strateji planlaşdırma, resurs təminatı və müəllimlər üçün davamlı peşəkar inkişaf proqramlarının yaradılması CLIL-in effektiv və davamlı tətbiqi üçün vacib hesab olunur.

Bununla yanaşı, CLIL-in tətbiqi bir sıra çətinliklərlə müşayiət olunur. Əsas problemlərdən biri müəllimlərin həm dil, həm də fənn üzrə kifayət qədər hazırlıqlı olmamasıdır. Digər çətinliklərə tədris materiallarının məhdudluğu, qiymətləndirmə mexanizmlərinin qeyri-müəyyənliyi və tələbələrin fərdi dil səviyyələri arasındakı fərqlər daxildir. Azərbaycanda aparılan tədqiqatlar da CLIL-in tətbiqi zamanı metodoloji resursların məhdudluğu və müəllim hazırlığı məsələlərinin əsas maneələrdən biri olduğunu göstərir [8].

Müəllim hazırlığı və peşəkarlıq

CLIL-in uğurla tətbiqi üçün müəllimlər yalnız ingilis dilində səlis ünsiyyət bacarığına malik olmamalı, eyni zamanda tədris etdikləri məzmun sahəsi üzrə yüksək səviyyəli pedaqoji və didaktik kompetensiyalara sahib olmalıdırlar. Bu isə mövcud müəllim hazırlığı proqramlarının yenidən strukturlaşdırılmasını və ikili ixtisaslaşmanı nəzərdə tutan çevik modellərin yaradılmasını zəruri edir. CLIL müəllimləri həm dil təlimçisi, həm də fənn üzrə ekspert rolunu eyni vaxtda icra etdikləri üçün dərs planlaşdırılması, qiymətləndirmə və öyrənmə nəticələrinin izlənməsi daha mürəkkəb xarakter alır.

Azərbaycanda müəllim hazırlığı sahəsində aparılan müzakirələr göstərir ki, ingilis dili müəllimlərinin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi, metodoloji hazırlığı və CLIL-ə uyğun tədris bacarıqları baxımından müəyyən boşluqlar mövcuddur ki, bu da yanaşmanın genişmiqyaslı tətbiqini çətinləşdirə bilər [4]. Xüsusilə fənn müəllimlərinin akademik ingilis dili üzrə kifayət qədər hazırlığa malik olmaması CLIL-in effektivliyinə mənfi təsir göstərən amillərdən biridir.

Bu baxımdan müəllimlərin peşəkarlığının artırılması məqsədilə davamlı ixtisasartırma proqramlarının təşkili, CLIL-ə yönəlmiş metodoloji təlimlərin keçirilməsi və beynəlxalq təcrübələrin yerli təhsil sisteminə uy-

ğunlaşdırılması mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, mentorluq mexanizmlərinin tətbiqi, müəllimlər arasında əməkdaşlığın gücləndirilməsi və innovativ tədris texnologiyalarından istifadə CLIL modelinin dayanıqlı və effektiv şəkildə həyata keçirilməsinə töhfə verə bilər.

Beynəlxalq təcrübə göstərir ki, CLIL müəllimlərinin hazırlanmasında ən effektiv yanaşmalardan biri fənn müəllimləri ilə dil müəllimləri arasında əməkdaşlığa əsaslanan komanda-tədris (team teaching) modelidir. Bu model müəllimlərin həm məzmunun, həm də dilin tədrisində qarşılıqlı şəkildə bir-birini tamamlamasına imkan yaradır və tədrisin keyfiyyətini artırır [1][2]. Eyni zamanda, CLIL müəllimləri üçün xüsusi hazırlanmış peşəkar inkişaf proqramları onların qiymətləndirmə strategiyaları, diferensiallaşdırılmış tədris və scaffolding üsulları üzrə bacarıqlarını gücləndirir [3]. Araşdırmalar göstərir ki, CLIL metodologiyası üzrə sistemli təlim keçmiş müəllimlər tələbələrin akademik dil bacarıqlarının inkişafında daha davamlı nəticələr əldə edirlər [5]. Bu baxımdan, Azərbaycanda CLIL-in effektiv tətbiqi üçün ali təhsil müəssisələri və təhsil siyasətini formalaşdıran qurumlar arasında koordinasiyanın gücləndirilməsi, eləcə də beynəlxalq CLIL şəbəkələri ilə əməkdaşlığın genişləndirilməsi məqsədəuyğun hesab olunur [6]. Bu tədbirlər CLIL modelinin yerli kontekstdə uyğunlaşdırılmasına və uzunmüddətli dayanıqlığına xidmət edə bilər.

Araşdırmalar göstərir ki, CLIL metodologiyası üzrə sistemli təlim keçmiş müəllimlər tələbələrin akademik dil bacarıqlarının inkişafında daha davamlı nəticələr əldə edirlər **[7]**. Bu baxımdan, Azərbaycanda CLIL-in effektiv tətbiqi üçün ali təhsil müəssisələri və təhsil siyasətini formalaşdıran qurumlar arasında koordinasiyanın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir **[8]**.

Nəticə

Bu məqalədə CLIL (Content and Language Integrated Learning) yanaşmasının nəzəri əsasları və ingilis dili ixtisası tələbələrinin akademik dil bacarıqlarının inkişafındakı rolu nəzəri baxımdan təhlil edilmişdir. CLIL-in əsas prinsipləri, akademik dil bacarıqlarının strukturu və bu bacarıqların inkişaf mexanizmləri elmi-konseptual çərçivədə sistemli şəkildə izah olunmuşdur.

Aparılan nəzəri təhlil əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. CLIL yanaşması akademik dil bacarıqlarının inkişafında effektiv pedaqoji model kimi çıxış edir. Məzmun və dilin inteqrasiyalı şəkildə tədrisi tələbələrin akademik dili daha dərindən və funksional şəkildə mənimsəməsinə şərait yaradır.
2. Akademik oxu və yazı bacarıqları CLIL çərçivəsində daha səmərəli inkişaf edir. Bu yanaşma tələbələri müxtəlif fənn sahələrinə aid akademik mətnlərlə işləməyə təşviq edir və onların elmi yazı bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.
3. Akademik dinləmə və danışıq bacarıqları CLIL-in tətbiqi ilə güclənir. Tələbələr real akademik kontekstlərdə dil və məzmunu paralel şəkildə öyrənərək öz şifahi ünsiyyət və təqdimat bacarıqlarını təkmilləşdirirlər.
4. CLIL-in uğurlu tətbiqi müəllim hazırlığı və institusional dəstəklə birbaşa əlaqəlidir. Tədris proqramlarının yenilənməsi, davamlı peşəkar inkişaf imkanlarının yaradılması və metodoloji resursların təmin olunması bu yanaşmanın effektivliyini şərtləndirən əsas amillərdir.

Araşdırmanın nəticələri göstərir ki, CLIL yanaşması yalnız dil bacarıqlarının inkişafına deyil, eyni zamanda tələbələrin akademik düşünmə tərzinin formalaşmasına da əhəmiyyətli töhfə verir. CLIL

mühitində tələbələr bilikləri passiv şəkildə qəbul edən subyektlər deyil, məzmunla fəal qarşılıqlı əlaqədə olan öyrənənlərə çevrilirlər ki, bu da onların tənqidi düşünmə, analitik yanaşma və elmi arqumentasiya bacarıqlarını gücləndirir.

Eyni zamanda, CLIL-in ali təhsil müəssisələrində tətbiqi beynəlxalqlaşma prosesinə xidmət edir və tələbələrin qlobal akademik mühitə inteqrasiyasını asanlaşdırır. Xüsusilə yuxarı kurslarda CLIL modelinin tətbiqi tələbələrin elmi məqalələr, konfrans təqdimatları və tədqiqat layihələri ilə daha effektiv işləməsinə imkan yaradır.

Problemin aktuallığı. Müasir qloballaşma və ali təhsilin beynəlxalqlaşması şəraitində ingilis dili akademik biliklərin ötürülməsi və elmi ünsiyyətin əsas vasitəsinə çevrilmişdir. Bu proses yuxarı kurs tələbələrindən yalnız ümumi dil bilikləri deyil, eyni zamanda fənn üzrə akademik oxu, yazı, dinləmə və danışıq bacarıqlarının yüksək səviyyədə inkişafını tələb edir. Ənənəvi dil tədrisi modelləri bu tələbləri tam şəkildə ödəmədiyi üçün dil və məzmunun inteqrasiyasına əsaslanan CLIL yanaşması ali təhsildə xüsusi aktuallıq qazanmışdır. Xüsusilə ingilis dili ixtisası üzrə təhsil alan tələbələrin akademik diskursda fəal iştirakı üçün CLIL-in imkanlarının elmi cəhətdən təhlili zəruri hesab olunur.

Problemin yeniliyi. Məqalədə CLIL yanaşması akademik dil bacarıqlarının inkişafı kontekstində yuxarı kurs tələbələrinin ehtiyacları prizmasından kompleks və sistemli şəkildə təhlil olunur.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri ali təhsil müəssisələrində CLIL-ə əsaslanan dərs strategiyalarının hazırlanması, müəllim hazırlığı proqramlarının təkmilləşdirilməsi və akademik ingilis dili tədrisinin effektivliyinin artırılması baxımındanpraktikəhəmiyyətdaşıyır.

Ədəbiyyat

1. Coyle D., Hood P., Marsh D. *CLIL: Content and Language Integrated Learning.* – Cambridge: Cambridge University Press, –2010. –173 p.
2. Marsh D. *CLIL/EMILE – The European Dimension: Actions, Trends and Foresight Potential.* – Jyväskylä: University of Jyväskylä, –2002. –204 p.
3. Dalton-Puffer C. *Discourse in Content and Language Integrated Learning (CLIL) Classrooms.* – Amsterdam: John Benjamins Publishing Company, –2007. –298 p.
4. Llinares A., Morton T., Whittaker R. *The Roles of Language in CLIL.* – Cambridge: Cambridge University Press, –2012. – 312 p.
5. Pérez-Cañado M. L. CLIL research in Europe: Past, present, and future // *International Journal of Bilingual Education and Bilingualism.* – 2012. – Vol. 15, No. 3. – P. 315–341.
6. Hüseynova F. Azərbaycanda müəllim hazırlığı sahəsində çətinliklər və yeni perspektivlər // *Azərbaycan Məktəbi.* – 2021. – № 4. – S. 45–56.
7. Pérez-Cañado, M. L. (2018). Innovations and challenges in CLIL teacher education. *Theory Into Practice*, **57**(3), 205–211. https://doi.org/10.1080/00405841.2018.1492238
8. Əliyeva, S. A. (2020).Ali təhsildə məzmun əsaslı dil təliminin (CLIL) tətbiqi problemləri *Azərbaycan Müəllimi.* – № 3. – S. 42–48.

Redaksiyaya daxil olub: 10.03.2026

UOT 372.016:796(075.8)

Gülbaba Balasoltan oğlu Quliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
Azərbaycan Respublikasının Əməkdar məşqçisi,
Əməkdar Bədən tərbiyəsi və İdman xadimi
https://orcid.org/0009-0001-5665-827X
E-mail: gulbaba56@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).114-118

FİZİKİ TƏRBİYƏ PROSESİNDƏ ŞAGİRDLƏRİN GİGİYENA MƏDƏNİYYƏTİNİN MAHİYYƏTİ, MƏQSƏDİ VƏ VƏZİFƏLƏLƏRİ

Gülbaba Balasoltan Quliyev
associate professor at Azerbaijan State Pedagogical University
Honored Coach of the Republic of Azerbaijan,
Honored Worker of Physical Education and Sports

THE ESSENCE, PURPOSE, AND OBJECTIVES OF STUDENTS' HYGIENIC CULTURE IN THE PROCESS OF PHYSICAL EDUCATION

Гюльбаба Баласолтан оглу Гулиев
доцент Азербайджанского Государственного Педагогического Университета
Заслуженный тренер Азербайджанской Республики,
Заслуженный деятель Физической культуры и Спорта

СУЩНОСТЬ, ЦЕЛЬ И ЗАДАЧИ ГИГИЕНИЧЕСКОЙ КУЛЬТУРЫ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ

Xülasə. Məqalədə göstərilir ki, böyüməkdə olan nəslin sağlam və fiziki cəhətcə hazırlıqlı olması mövcud cəmiyyətin tələblərindən irəli gəlir. Bu vəzifələri həll edərkən gigiyenik qaydaların əməl edilməsi zəruridir. Gigiyena amillərinin fiziki tərbiyənin köməkçi vasitəsi olduğuna baxmayaraq onlar fiziki tərbiyə vəzifələrini həll etmək üçün xüsusi əhəmiyyətə malikdirlər.
Açar sözlər: *gigiyena amilləri, sanitar qaydaları, rejim, fiziki tərbiyə prosesi, sağlam həyat tərzi, gigiyenik vərdişlər, rasional qida, gigiyena mədəniyyəti, fiziki hərəkət*

Abstract. The article shows that the health and physical fitness of the younger generation stem from the needs of the existing society. Hygiene rules are necessary to solve these problems. Although hygiene is an auxiliary tool for physical education, they are especially important for solving problems of physical education.
Keywords: *hygiene factors, sanitary rules, regimen, physical education process, healthy lifestyle, hygiene habits*

Аннотация. В статье отмечается, что здоровье и физическая подготовленность подрастающего поколения обусловлены требованиями современного общества. При решении этих задач необходимо соблюдение гигиенических правил. Несмотря на то, что гигиенические факторы являются вспомогательными средствами физического воспитания, они имеют особое значение для решения задач физического воспитания.

Ключевые слова: *гигиенические факторы, санитарные правила, режим, процесс физического воспитания, здоровый образ жизни, гигиенические навыки, рациональное питание, гигиеническая культура, физическая активность*

Müasir dövrdə məktəblilərin fiziki tərbiyəsinin əsas vəzifələrindən biri də sağlamlaşdırıcı vəzifələr hesab olunur. Məlum olduğu kimi, məktəblilərlə aparılan fiziki tərbiyə məşğələlərinin sağlamlaşdırıcı vəzifələrinin mahiyyəti bilavasitə yetişməkdə olan orqanizmin hərtərəfli və harmonik inkişafını təmin etməkdən ibarətdir. Çünki böyüməkdə olan nəslin sağlam və fiziki cəhətcə hazırlıqlı olması mövcud cəmiyyətin tələblərindən irəli gəlir. Bu vəzifələri həll edərkən gigiyenik qaydaların əməl edilməsi zəruridir. Gigiyena amillərinin fiziki tərbiyənin köməkçi vasitəsi olduğuna baxmayaraq onlar fiziki tərbiyə vəzifələrini həll etmək üçün xüsusi əhəmiyyətə malikdirlər. Çünki pedaqoji proses nə qədər yüksək səviyyədə təşkil edilsə də, gigiyenik qaydalara əməl edilmədən arzu edilən nəticələrin əldə edilməsi mümkün ola bilməz. Məsələn, sanitar qaydaları və ya qida və yuxu rejimi pozularsa, fiziki tərbiyə prosesinin keyfiyyəti kəskin surətdə aşağı düşə bilər.

Qeyd etdiyimiz kimi, məktəb fiziki tərbiyə dərslərinin əsas vəzifələrindən biridə sağlamlığın möhkəmləndirilməsidir. Sağlamlığın təmin olunması üçün gigiyena amilləri müstəsna əhəmiyyətə malikdirlər. Gigiyenik qaydaların ən önəmlisi iş və istirahətin optimal qaydada növbələşdirilməsi hesab olunur. Düzgün təşkil edilmiş iş və istirahət rejimi orqanizmdə cərəyan edən bioloji proseslərin qanunauyğunluqlarına əsaslanır.

Optimal həyat fəaliyyəti rejiminə əməl edən önəmli fizioloji proseslərin gedişinə daha yaxşı uyğunlaşır. Əmək, yuxu, istirahət və qida rejiminə daim əməl etmək və eləcə də fiziki hərəkətlərlə müntəzəm qaydada məşğul olmaqla həyat tərzinin düzgün təşkil edilməsi zəruridir. Gündəlik rejimə əməl etməklə həmin proseslər çoxlu sayda təkrar edilir və nəticədə onların arasında şərti reflekslər formasında qarşılıqlı əlaqələr yaranır.

Gün rejimi bütün insanlar üçün həyat fəaliyyətinin normativ əsasıdır. Bununla belə o, fərqli olmalıdır. Yəni gün rejiminə düzgün əməl etmək üçün hər bir şagirdin sağlamlıq vəziyyəti, iş qabiliyyətinin səviyyəsi, həyat şəraiti və onun şəxsi maraqları nəzərə alınmalıdır. Yaxşı olar ki, sutka ərzində məktəblinin yerinə yetirdiyi fəaliyyət növünün norması daim təmin edilsin. Məktəblilər üçün müəyyən edilmiş normanın pozulmasına yol vermək məqsədə uyğun deyil. Rejimin real olması üçün əsas şərt onun dinamikliyidir.

Elmi cəhətcə əsaslandırılmış gün rejimini tərtib etməyin müəyyən yolları var. Bunun üçün ilk növbədə dərs, dərsdənkənar və asudə vaxt sərfiyyatının gigiyenik normalara uyğun olması təhlil edilməlidir. Adətən, sutkalıq vaxt büdcəsi iki yerə ayrılır. Onun 12 saatı dərsə, təlimə (6 saatı dərsə, qalan 6 saatı isə müstəqil məşğələlərə sərf edilir) qalan 12 saatı isə orqanizmin bərpa olunmasına (yuxu, istirahət, əyləncə) sərf edilir. İstirahət günlərində vaxtın bölüşdürülməsinin fiziki tərbiyə müəlliminin tövsiyələri və valideynlərin rəhbərliyi altında

həyata keçirilməsi daha məqsədə müvafiqdir.

Orqanizmin gigiyenik təminatı üçün ən önəmli və ən səmərəli gündəlik istirahət formalarından biri də yuxudur. İnsanın sutkalıq yuxu norması təxminən 8 saat hesab olunur. Məktəb yaşlı uşaqlarda yuxu üçün nəzərdə tutulmuş gecə saatlarının başqa məqsədlər üçün istifadə edilməsi yol verilməzdir. Qeyri-normal yuxu yuxusuzluğa və digər sinir pozuntularına səbəb ola bilər.

Mütəxəssislərin fikrincə, gərgin zehni işi yuxudan təxminən 1-2 saat əvvəl qurtarmaq lazımdır. Çünki zehni iş baş-beyin qabığında oyanmalara səbəb olur. Beynin intensiv fəaliyyəti hətta zehni iş bitdikdən sonra da bir müddət davam edir. Buna görə də yatmazdan əvvəl yerinə yetirilən zehni iş yuxuya getmənin çətinləşdirir və oyandıqdan sonra insanın əhvalı pis olur. Yuxudan öncə otağın havasını mütləq dəyişdirmək lazımdır. Bunun üçün pəncərədə olan nəfəsliyin bir qədər açıq saxlanılması daha məqsədəuyğundur.

Məktəblilərdə gigiyenik vərdişlərin formalaşmasında qidalanma mədəniyyətinin də əhəmiyyətli dərəcədə rolu vardır. Hər bir məktəbli rasional qidalanmanın prinsiplərini bilməli və öz normal bədən çəkisini tənzimləməyi bacarmalıdır.

Fiziki hərəkət və idman məşğələləri prosesində enerji itkisi daha çox olur. Buna görə də əsas qida məhsullarının nisbəti dəyişdirilir. Belə ki, əzələ kütləsinin artırılması və əzələ qüvvəsinin inkişaf etdirilməsi üçün yerinə yetirilən fiziki hərəkətlər zamanı qida rasionunda zülalın həcmi 15-20% artırılır. Dözümlülük tələb edən və hərəkətləri uzun müddət yerinə yetirən zaman isə karbohidratların tərkibi təxminən 60-65% artırılır. Yarış dövründə qida rasionuna zülal və karbohidratlarla zəngin və tez həzm olunan məhsulların daxil edilməsi daha məqsədə uyğundur.

Qida fiziki hərəkət və idman məşğələlərindən 2-2,5 saat əvvəl və 30-40 dəqiqə sonra qəbul edilməlidir. İntensiv tərləmələrlə nəticələnən hərəkət fəaliyyətindən sonra xörək duzunun sutkalıq normasını artırmaq (15-30 qram) və eləcə də mineral sulardan istifadə etmək məsləhət görülür.

Beləliklə, fiziki tərbiyə və idmanla məşğul olan hər bir məktəblinin gigiyenik qayda və tələbləri bilməsi zəruridir. İş, istirahət, qidalanma, bədənin gigiyenasına və xüsusən dərinin təmizliyinə əməl etmək son dərəcə vacibdir. Çünki dəri orqanizmi ətraf mühitin əlverişsiz təsirlərindən qoruyur, maddələr mübadiləsində və bədəndə istiliyin tənzimlənməsində yaxından iştirak edir. Bu proseslərin tam həcmdə baş verməsi üçün hər şeydən əvvəl, dəri sağlam və təmiz olmalıdır. Dərinin özünü tənzimləmə xüsusiyyəti də vardır. Piy və tər vəzilərinin vasitəsi ilə müxtəlif zərərli maddələr dəridən xaric edilir. Hər bir məktəbli normada həftə də 2 dəfə çimməli, fiziki hərəkət məşğələlərindən sonra isə isti duş qəbul etməli və alt paltarını dəyişdirməlidir.

Fiziki hərəkətlərin gigiyenasına əməl etmək üçün əsas şərtlərdən biri də idman geyiminin gigiyenik tələblərə uyğun olmasıdır. İdman geyimi seçilərkən üstünlük dəbə deyil, onun gigiyenik tələblərə uyğun olmasına verilməsi daha məqsədəmüvafiq. O, rahat olmalı və hərəkətlərin icra edilməsinə maneçilik törətməməlidir. Ona görə də idman geyimi əsasən yüksək elastikliyi olan pambıq və yun parçadan hazırlanır ki, havanın qəbul edilməsi və tərin buxarlanması prosesi gigiyenik tələblərə uyğun olsun. Sintetik parçadan hazırlanmış idman geyiminin istifadə olunması yalnız küləkdən, yağışdan və qardan qorunmaq üçün

tövsiyə edilir. İdman geyimindən əsasən məşğələ və yarışlarda istifadə edilməlidir. O, müntəzəm qaydada yuyulmalıdır.

Fiziki hərəkət və idman məşğələlərində geyimlə yanaşı, idman ayaqqabısı üçün də müəyyən olunmuş gigiyenik qaydalar tələb olunur. İdman fəaliyyəti üçün nəzərdə tutulmuş ayaqqabı yüngül, elastik və ventilyasiyalı olmalı və eləcədə pəncənin düzgün qoyulmasını təmin etməlidir. Bu göstəriciləri əhatə edən ən keyfiyyətli idman ayaqqabıları təbii dəridən hazırlanır. Bundan başqa, idman ayaqqabısı konkret idman növünün spesifik xüsusiyyətlərinə uyğun olmalıdır.

Məktəblilərin fiziki tərbiyə prosesində əlavə gigiyenik vasitələrə masaj, özünü masaj və hidroprosedurlar da daxildir. Onlar əsasən iş qabiliyyətinin bərpa olunmasını sürətləndirmək üçün tətbiq edilir. Duş orqanizmə mexaniki və temperatur təsirlər göstərir. Qısa müddətli isti və soyuq duşun qəbul edilməsi ürək-damar sisteminin işini yaxşılaşdırır və əzələ tonusunu yüksəldir. Kontrastlı duş isə iş qabiliyyətinin bərpa olunması üçün ən səmərəli vasitə hesab olunur.

Bədənin möhkəmləndirilməsi yüksək və aşağı temperaturların orqanizmə göstərdiyi neqativ təsirlərin profilaktikası üçün ən səmərəli vasitələrdən biridir. Sistematik qaydada tətbiq edilən bədəni möhkəmləndirmə prosedurları soyuqdəymə ilə bağlı olan xəstəliklərin miqdarını müəyyən qədər aşağı salır. Bədənin möhkəmləndirilməsi üçün ən səmərəli vasitə təbiətin sağlamlaşdırıcı qüvvələri hesab olunur. Bu qüvvələrin əsasını günəş, hava və su təşkil edir.

Təlim prosesində fiziki tərbiyə müəllimi diqqətini təkcə şagirdlərə deyil, həmdə məşğələnin keçirilməsi üçün olan şəraitə yönəltməlidir. Dərsin əvvəlində sinifdə olan gigiyenik vəziyyət qiymətləndirilməli və dərsin sonuna qədər bu məsələ diqqət mərkəzində saxlanılmalıdır. Gigiyenik vəziyyət dedikdə idman zalının işıqlandırılması, havanın təmizlənməsi, rütubətin səviyyəsi və temperatur nəzərdə tutulur.

Bu deyilənləri qiymətləndirmək üçün xüsusi cihaza ehtiyac yoxdur. Bunun üçün müəllimin diqqətli olması kifayət ola bilər. Lakin müəllimin diqqətsizliyi nəticəsində ən müxtəlif xoşa gəlməz hadisələr baş verə bilər. Müşahidələr göstərir ki, müəllimlərin böyük əksəriyyəti əsas diqqəti nizam-intizama və şagirdlərin verilən tapşırıqların mənimsənilməsinə yönəldirlər. Lakin məktəblərdə aparılan fiziki tərbiyə məşğələlərində olan real vəziyyət göstərir ki, şagirdlərin gigiyena tərbiyəsinə xüsusi diqqətin yetirilməsi son dərəcə vacibdir. Çünki uşaqların sağlam həyat tərzinin formalaşması bilavasitə gigiyena amillərindən asılıdır. Ona görə də məktəblilərin şəxsi gigiyena qaydalarına əməl etməsi son dərəcə vacibdir.

Şəxsi gigiyena insanın sağlamlığının qorunması və daha da möhkəmləndirilməsini təmin edən gigiyenik qaydalarının vəhdətidir. Şəxsi gigiyenaya bütün yaş dövrləri üçün eyni gigiyenik qaydalar daxil edilir: zehni və fiziki əməyin növbələşdirilməsi, əməyin və fəal istirahətin növbələşdirilməsi, bədən tərbiyəsi və idman məşğələləri, rasional qida və yuxu rejimi və s. Bununla yanaşı, şəxsi gigiyena bədənin, paltarın, yatağın və qida məhsullarının təmiz olması da daxildir.

Məktəb yaşlı uşaqlar da gigiyena mədəniyyətinin formalaşdırılması üçün fiziki tərbiyə daha təsirli vasitə olduğu üçün onun həyata keçirilməsinə xüsusi diqqət yetirmək lazımdır. Fiziki tərbiyə prosesində fiziki hərəkətlərin təbiətin sağlamlaşdırıcı qüvvələri və gigiyena

amilləri ilə kompleks şəkildə tətbiq edilməsi daha məqsədəuyğundur. Fiziki tərbiyənin sağlamlaşdırıcı funksiyasının əsasını orqanizmi ətraf mühitin əlverişsiz şəraitlərinə uyğunlaşdırmaqla müxtəlif xəstəliklərin yaranmasına qarşı müqavimət göstərmək qabiliyyətini yüksəltməkdən ibarətdir. Fiziki tərbiyə uşaqların fiziki inkişafını təmin etməklə yanaşı, həm də uşaqlarda olan anadangəlmə və ya sonradan yaranmış müxtəlif qüsurları aradan qaldırır. Fiziki tərbiyənin böyümək də olan orqanizmin inkişafına müsbət təsir göstərməsi üçün ilk növbədə sanitar-gigiyenik tələblərə əməl edilməlidir.

Fiziki tərbiyənin düzgün təşkil edilməsi üçün müəyyən sanitar-gigiyenik prinsiplər mövcuddur:

1) şagirdin yaş və funksional imkanları nəzərə alınmaqla optimal hərəkət rejiminin tətbiq edilməsi;

2) bədən tərbiyəsinin müxtəlif formalarının sistematik qaydada istifadə olunması;

3) ailədə və məktəbdə əlverişli psixoloji mühitin yaradılması.

Sağlamlığa təsir edən ən önəmli amillərdən biri də sutka ərzində olan hərəkət fəallığı hesab olunur. Çünki hərəkət fəallığı və sağlamlıq arasında qarşılıqlı əlaqə vardır. Hərəkət fəallığının sağlamlaşdırıcı səmərəsi təkcə fiziki tərbiyədən asılı deyildir. Şagirdlərin sağlamlığının qorunması həm də təlim-tərbiyə prosesinin düzgün təşkil edilməsindən və sanitar-gigiyenik qaydaların əməl edilməsindən asılıdır.

Qeyd etmək lazımdır ki, hərəkət qıtlığı (hipodinamiya) və eləcədə onun həddən çox olması (hiperkineziya) məktəblilərin sağlamlığına ən müxtəlif mənfi təsirlər göstərə bilər.

Hipodinamiya nəticəsində orqanizmin immuniteti aşağı düşür, boy artımı və ümumi inkişafda ləngimə baş verir, maddələr mübadiləsi pozulur və bununla da müxtəlif xəstəliklərin meydana gəlməsi üçün zəmin yaranır. Hipodinamiyanın profilaktikası əsasən sanitar-gigiyenik qaydaların əməl edilməsi yolu ilə həyata keçirilir.

Hiperkineziya əsasən idman bölmələrində baş verir. Onun yaranmaması üçün sanitar-gigiyenik tələblərin əməl edilməsi zəruridir. Bunun üçün ilk növbədə fiziki hərəkət və idman məşğələlərində şagirdlərin yaşı, cinsi, fiziki inkişaf və məşqlik səviyyəsi nəzərə alınmalıdır. Çün ki eyni fiziki yükün müxtəlif insanlara göstərdiyi təsir də müxtəlif olur. Yəni eyni hərəkət fəaliyyəti şagirdin biri üçün optimal, digərləri üçün isə çox və ya az ola bilər. Ona görə də aşağı yaşlı məktəblilərin gərginlik tələb edən idman növləri ilə məşğul olmasına icazə verilmir. İlkin fiziki hazırlıq prosesində məşğələlərə mütəhərrik oyunların, yerişlərin, qaçışların və üzgüçülüyün daxil edilməsi daha məqsədə uyğundur.

Bütün bu deyilənlər onu göstərir ki, fiziki tərbiyə prosesinin səmərəli olması üçün gigiyenik tələblərə əməl edilməsi zəruridir. Bunun üçün uşaqlarda müvafiq vərdişlər aşılanmalıdır ki, onlarda gigiyena mədəniyyəti formalaşsın. Bu vəzifənin həyata keçirilməsi üçün müəyyən vaxt tələb olunur. Məktəb yaşlı uşaqlarda gigiyena mədəniyyətinin formalaşdırılması prosesində məktəb və ailənin birgə fəaliyyət göstərməsi daha məqsədəuyğundur.

Nəticə: Aparılan təhlil göstərir ki, müasir dövrdə məktəblilərin fiziki tərbiyə prosesində sağlamlaşdırıcı vəzifələrin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Fiziki tərbiyənin səmərəliliyi bilavasitə gigiyenik qaydalara əməl olunması ilə bağlıdır, çünki gigiyena amilləri orqanizmin hərtərəfli və harmonik inkişafını təmin edən mühüm şərtlərdəndir.

Düzgün təşkil edilmiş iş və istirahət rejimi, rasional qidalanma, yuxu rejimi, şəxsi gigiyena və fiziki fəaliyyətin optimal planlaşdırılması

sağlamlığın qorunmasında əsas rol oynayır. Araşdırma nəticəsində aydın olur ki, gigiyenik tələblərə əməl edilmədən fiziki tərbiyə prosesində gözlənilən nəticələrin əldə olunması mümkün deyildir. Eyni zamanda, idman geyimi, ayaqqabı, təbii sağlamlaşdırıcı amillər (hava, su, günəş) və əlavə gigiyenik vasitələr (masaj, duş, bədəni möhkəmləndirmə prosedurları) şagirdlərin iş qabiliyyətinin artırılmasında və sağlamlığının möhkəmləndirilməsində mühüm rol oynayır.

Nəticə olaraq qeyd etmək olar ki, məktəblilərdə gigiyena mədəniyyətinin formalaşdırılması fiziki tərbiyə prosesinin əsas istiqamətlərindən biridir və bu prosesin səmərəli təşkili üçün məktəb və ailənin birgə fəaliyyəti, elmi əsaslandırılmış gigiyenik rejim və sistemli yanaşma vacib şərtlər kimi çıxış edir.

Problemin aktuallığı. Mövzunun aktuallığı müasir təhsil sistemində məktəblilərin sağlamlığının qorunması və möhkəmləndirilməsi məsələsinin xüsusi əhəmiyyət kəsb etməsi ilə bağlıdır. Gərgin təlim prosesi, hərəkət çatışmazlığı və həyat tərzində baş ve-rən dəyişikliklər şagirdlərin fiziki inkişafına mənfi təsir göstərə bilər. Bu baxımdan fiziki tərbiyə prosesində gigiyenik qaydaların düzgün tətbiqi və gigiyena mədəniyyətinin formalaşdırılması mühüm pedaqoji və sosial vəzifəyə çevrilmişdir.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, fiziki tərbiyə prosesində şagirdlərin gigiyena mədəniyyətinin formalaşması sağlamlaşdırıcı amillərlə kompleks şəkildə təhlil edilir və bu sahədə gigiyenik qaydaların sistemli tətbiqi elmi-pedaqoji baxımdan əsaslandırılır. Tədqiqatda iş və istirahət rejimi, qidalanma, yuxu, şəxsi gigiyena, eləcə də təbii sağlamlaşdırıcı vasitələrin (hava, su, günəş) birgə təsiri vahid sistem kimi nəzərdən keçirilir.

Problemin praktik əhəmiyyəti. Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, orada irəli sürülən nəticə və tövsiyələr məktəblilərin fiziki tərbiyə prosesində gigiyena mədəniyyətinin formalaşdırılması və sağlam həyat tərzinin təşkili üçün bilavasitə tətbiq oluna bilər. Təklif olunan yanaşmalar fiziki tərbiyə müəllimlərinə dərs prosesini daha səmərəli qurmağa, gigiyenik qaydaları sistemli şəkildə tətbiq etməyə və şagirdlərin sağlamlıq göstəricilərini yaxşılaşdırmağa imkan yaradır.

Ədəbiyyat

1. Дубровский, В.И. Гигиена физического воспитания и спорта / В.И. Дубровский. – Москва: Физкультура и спорт, – 2003. – 512 с.
2. Минх, А.А. Общая гигиена / А.А. Минх. – Москва: Медицина, –1984. – 480 с.
3. Петровский, К.С. Гигиена питания / К.С. Петровский, В.Д. Ванханен. – Москва: Медицина, 1982. – 368 с.
4. Babayev, Ə.S. Fiziki hərəkətlərin və idmanın gigiyenası: dərslik / Ə.S. Babayev. – Bakı, 1972. – 245 s.
5. Quliyev, G.B. Çağırışaqədər dövrdə gənclərin güləş üzrə məşğələlərinin təşkili: dərs vəsaiti / – Bakı, 2005. – 96 s.
6. Quliyev, G.B. Güləş üzrə təlim prosesinin nəzəriyyəsi və praktikasının əsasları: dərs vəsaiti / G.B. Quliyev. – Bakı, 2025. – 184 s.
7. Quliyev, G.B. Fiziki tərbiyə dərslərində güləş üzrə texniki elementlərin öyrədilməsinin əsas pedaqoji şərtləri // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2026. №1, – s.131-134.
8. Sports Science Chaabene, H., Negra, Y., Bouguezzi, R., Mkaouer, B., Franchini, E., Julio, U., & Hachana, Y. *Physical and Physiological Attributes of Wrestlers: An Update* // Journal of Strength and Conditioning Research. – 2017. – Vol. 31(5). – p. 1411–1442. DOI: 10.1519/JSC.0000000000001738.

9. Wang, L., Li, Q. *Incorporating wrestling into physical education curriculum for the development of physical activity and anti-bullying intervention* // Frontiers in Psychology. – 2025. – Vol. 16. DOI: 10.3389/fpsyg.2025.1643481.

Redaksiyaya daxil olub: 29.04.2026

UOT 37.01

Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).119-122

FƏAL HƏYAT MÖVQEYİNƏ YİYƏLƏNMƏYİN VACİBLİYİ

Lala Akif Mammadly
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy

THE IMPORTANCE OF MAKING AN ACTIVE LIFE POSITION

Лала Акиф гызы Мамедли
ведущий специалист Института Образования Азербайджанской Республики,
доктор философии по педагогике

ВАЖНОСТЬ ВЫБОРА АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ

Xülasə. Tələbələrdə fəal həyat mövqeyinin təşəkkülündə mühüm amillərdən biri, bu formalaşmanın qanunauyğunluqlarını və prinsiplərini özündə ehtiva edən vahid pedaqoji prosesdir. Pedaqoji prosesin məzmun baxımından tamlığını, toplanan sosial təcrübənin təhsilin məqsəd və məzmununda ifadəsini tapması ilə təmin edilir.
Açar sözlər: *fəal, fəal həyat, fəal həyat mövqeyi, tələbələr, fəal həyat mövqeyinin formalaşdırılması*

Abstract. One of the key factors in developing an active lifestyle in students is a unified pedagogical process that includes the patterns and principles of this development. The comprehensiveness of meaningful pedagogy is ensured by the fact that accumulated social experience is expressed in the goals and content of education.
Keywords: *activity, active life, active lifestyle, students, developing an active lifestyle*

Аннотация. Одним из важных факторов формирования активной жизненной позиции у учащихся является единый педагогический процесс, включающий закономерности и принципы этого формирования. Полнота содержательной педагогики обеспечивается тем, что накопленный социальный опыт находит выражение в целях и содержании обучения.
Ключевые слова: *активность, активная жизнь, активная жизненная позиция, учащиеся, формирование активной жизненной позиции*

Sovet hakimiyyəti illərində “fəal həyat mövqeyi” anlayışından təhsil məqsədi olaraq faydalanırdılar. O zamanlar həyatda fəal mövqe tutmağı bacaran, ölkədə həyatı yaxşılaşdırmağı proqnazlışdırmağı

bacaran, ictimai işlərdə fəallıq göstərən, yaradıcı, təşkilatçılıq qabiliyyətinə yiyələnmiş şəxs nümunə kimi götürülürdü. İyirminci yüzilliyin 70-ci illərində "fəal həyat möv-qeyi" ifadəsi daha dəbdə idi. Həmin mövzuda əsərlər, elmi və kütləvi səpgili məqalələr, dissertasiyalar yazılır, konfranslar keçirilirdi. 1979-ci ildə Bakıda keçirilmiş "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" mövzusunda o vaxtkı SSRİ-ni əhatə edən, yüzlərlə alimin, rəhbər işçinin, fəalın qatıldığı ümumittifaq konfransı deyilənlərə əyani sübutdur. Konfransda əsas məruzə ilə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev çıxış etmişdi.

Fəal həyat mövqeyinə yiyələnmiş bir şəxsin konkret hansı inanclara malik olduğunu başa düşmək aktual pedaqoji problem kimi diqqət mərkəzinə gəlir.

A.O.Antonova yazır: "Gələcək təhsil psixoloqunun proaktiv həyat mövqeyi dedikdə, onun təşkilatçı və lider kimi davranışına və fəaliyyətinə tənzimləyici təsir göstərən sosial və mənəvi münasibətlərin, inancların və vərdişlərin sabit formada təzahürü nəzərdə tutulur. Gələcək təhsil psixoloqunun proaktiv həyat mövqeyi onun təlim və təhsilinin bütün illərində müəyyən çətinliklərin aradan qaldırılması, peşəkar bacarıq və təcrübəyə yiyələnməsi nəticəsində inkişaf edir. Aktiv həyat tərzinin əsasını fərdin sabit dünyagörüşü və sosial məsuliyyətə münasibətində möhkəm əqidəsi təşkil edir" (1).

S.Vəliyev tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılmasının əhəmiyyətindən və vacibliyindən danışarkən yazır: "Fəal mövqe şəxsiyyətin əqidəsini, onun iradə zənginliyini, ideya-mənəvi düşüncələrini və keyfiyyətlərini ifadə edərək, insana yeniyeni məsələləri irəli sürüb həll etməkdə, çətin şəraitdə özünü itirməməkdə, qətiyyətli hərəkət etməkdə, öz üzərinə məsuliyyət götürməkdə kömək edir. Fəal mövqe bəşəriyyətin hazırladığı bütün mənəvi sərvətlər ilə öz daxili aləmini daim zənginləşdirməyi tələb edir" (2).

Tələbələrdə fəal həyat mövqeyini səmərəli şəkildə formalaşdırmaq üçün müəllim aşağıdakı məsələləri aydın təsəvvür etməlidir:

1."Fəal həyat mövqeyi" anlayışının mahiyyətini, məzmununu və başlıca komponentlərini bilmək.

2. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılmasının nəzəri və metodoloji əsasları (yanaşmalar, nümunələr, prinsiplər) barədə zəruri məlumatlara məlum olmaq.

3. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması zamanı istifadə olunan metodların, formaların və modelin səmərəliliyinə əmin olmaq.

4. Tələbələrin vətəndaşlıq mövqeyinin formalaşdırılması üçün elmi və metodoloji tövsiyələr irəli sürmək.

5. Tələbələrdə aktiv həyat mövqeyinin inkişaf etdirilməsi məqsədilə təhsil prosesinin təşkili metodlarını və formalarını müəyyənləşdirmər, eyni zamanda onun modelini işləyib hazırlamaq.

Müasir dövrdə işəgötürənlər bu və ya digər mütəxəssisin proaktiv yanaşmasına diqqət yetirirlər. Həmin yanaşma yeni ideyalara, innovativ yanaşmalara və düzgün qərarların irəli sürülməsinə imkan verir. Bütün bunlar da iqtisadi və sosial inkişafa şərait yaradır. Deməli, proaktiv yanaşma tələbələrin peşəkar və sosial uğurunun çox mühüm amillərindəndir.

Gənc nəsildə, o cümlədən tələbələrdə fəal həyat mövqeyinin formalaşmasında və inkişaf etdiriməsində hər bir şəxs, hər bir təsisat maraqlı olmalı, bu işə öz köməyini göstərməlidir. Pedaqogika üzrə fəlsəfə doktoru, dosent E.R. Hü-

seynovanın qənaətincə, “Şəxsiyyəti yetişdirəcək müəllim özü də nümunəvi olmalı, bir şəxsiyyət kimi seçilməlidir. . Yeni pedaqoji təfəkkür şəraitində cəmiyyətin qarşısında duran ümdə vəzifələrin həyata keçirilməsi ahəngdar və hərtərəfli inkişaf etmiş fəal şəxsiyyətin formalaşdırılmasından çox asılıdır. Azərbaycan mütəfəkkirləri, klassik və müasir pedaqoqlar, maarifpərvərlər şəxsiyyətin başlıca cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində görmüşlər. Bu, təsadüfi deyil, təbiidir. Münasibətlər şəxsiyyətin, o cümlədən təhsilalanların həyat təcrübəsinin nəticəsi olaraq, onların fəaliyyətini və daxili hisslərini müəyyən edir. Müasir dövrdə pedaqogika və psixologiya elmlərinin, fənlərin tədrisi metodikalarının, fəal və interaktiv təlim metodlarının, təhsildə innovasiyaların nailiyyətlərinin təlim prosesinə tətbiqi nəticəsində şagird nailiyyətləri təmin olunur. Şagird şəxsiyyətinin inkişafına öz müsbət təsirini göstərən ictimai təsisatlardan, təlim-tərbiyə müəssisələrindən, məktəbdənkənar uşaq müəssisələrindən, mədəni-maarif ocaqlarından, ictimai təşkilatlardan, KİV-dən, cəmiyyətin əsas hüceyrəsi olan ailənin köməyindən səmərəli istifadə olunması tərbiyəvi, təhsilləndirici və inkişafetdirici imkanları gücləndirir. Şəxsiyyətin fəal mövqeyinin formalaşdırılması üzrə işintarixi-pedaqoji səciyyəsini vermək üçün, təbii ki, mövcud ədəbiyyatı izləmək lazımdır” (3, s. 27).

Müəllifin fikrincə, *səxsiyyətin fəal mövqeyinin formalaşdırılması üzrə işin tarixi-pedaqoji səciyyəsini verilməlidir. Bunun üçün, söz yox ki, mövcud ədəbiyyatı izlənməlidir.*

Tələbələrin həyatının vətəndaş və mənəvi tərbiyə məktəbi olması, təhsil aldığı ali məktəbin, şəhərin, ölkənin həyatında fəal iştirak etməsi lazımdır. Onlar universitetin elmi və ictimai həyatında, həmçinin rayon, şəhər və respublika tədbirlərdə fəal iştirak etməklə təşkilatçılıq bacarıqlarına sahiblənirlər. Təşkilatçılıq bacarığına malik olma fəal həyat mövqeyi sistemində son dərəcə önəmli rol oynayır.

Fəal həyat mövqeyinin əsasında fərdin dünyagörüşü dayanır. Onun başlıca struktur komponentlərini hərtərəfli inkişaf etmiş biliklər, əqidələr, fərdi münasibətlər, sosial və şəxsi əhəmiyyətli xüsusiyyətlər, yüksək emosional sabitlik, cəmiyyətin rifahı naminə hərəkət etməyə hazırlıqdır.

Tələbələrin fəal həyat mövqeyinin formalaşmasının göstəriciləri aşağıdakılardır: 1) fəaliyyətə əsaslanan; 2) emosional; 3) iradi.

Fəaliyyətə əsaslanan meyarın göstəriciləri: məqsədin müəyyənləşdirilməsi, planlaşdırmaq və qarşıda dayanan vəzifələrə nail olmaq qabiliyyəti; sosial fəaliyyətləri həyata keçirməkdə maraqlı olmaq; ictimai-siyasi hadisələrlə tanış olmaq, onlara münasibət bildirmək bacarığı; təşkilatçılıq bacarığı və təşəbbüskarlıq, vətəndaşlıq aksiyalarında iştirak etmək istəyi, cəmiyyətdəki həyat şəraitinə uyğun müxtəlif fəaliyyətlərdə məsuliyyət və fəallıq.

Emosional meyarın göstəriciləri: vətəndaşlıq borcunu anlamaq və onu yerinə yetirməyə səy; xoşagəlməz işlərə, əxlaqsız hərəkətlərə, qanuna, birgəyaşayış qaydalarına hörmətsizlik hallarına qarşı dözümsüzlük; sosial əhəmiyyətli fəaliyyətlərdə iştirakdan məmnunluq; gələcək peşəkar fəaliyyətə müsbət münasibət.

İradi meyarın göstəriciləri: mənəvi dəyərlərə əsaslanan vətəndaş davranışının seçimini və zəruriliyini qiymətləndirməkdə iradi səylərin olması; şəxsi maraqları kollektiv maraqlara tabe etmək bacarığı; cəmiyyətdə hökm sürən davranış

qaydalarını və normalarını gözləmək; özünütəhsil və özünütərbiyə tələbat; öz qüvvələrini səfərbər etmək bacarığı; özünə və başqalarına münasibətdə tələbkarlıq.

Tədqiqatlardan görünür ki, bəzi tələbələrdə vətəndaş mövqeyini inkişaf etdirilməsi səviyyəsi lazımınca deyildir. Aşağıdakı ziddiyyətlər diqqət mərkəzinə gəlir:

- fəal vətəndaş mövqeyinə yiyələnmiş şəxslərə ehtiyacı və onların sosial baxımdan dəyərli fəaliyyətlərin təşkili və vətəndaş mövqeyini nümayiş etdirməkdə müsbət təcrübəsinin tələb olunan şəkildə olmaması;
– yeni pedaqoji təfəkkür şəraitində vətəndaş mövqeyinə malik ali məktəb məzunlarına ehtiyacı və təhsil müəssisəsində oxuduqarı zaman onların vətəndaş mövqeyini formalaşdırmağın məzmununun, metod, forma və vasitələrinin yüksək səviyyədə inkişafdan qalması.

Haqqında söz açılan ziddiyyətlər hesaba alınmaqla, tədqiqat problemini formalaşdırmaq mümkündür: tələbələrin vətəndaş mövqeyinin formalaşdırılması üçün pedaqoji modelin hazırlanması və tətbiqi üçün təşkilati şərtlərin müəyyənləşdirilməsinin vacibliyi.

Biz tələbələrin vətəndaş mövqeyinin formalaşmasını, müəllimlər və tələbələr arasında məqsədyönlü pedaqoji qarşılıqlı əlaqə prosesi kimi nəzərdən keçiririk. Bu fikir baxımından fəal həyat mövqeyi tələbələrin cəmiyyətə və dövlətə, insanlara və ictimai-siyasi hadisələrə şüurlu münasibəti olaraq diqqət mərkəzinə gəlir, vətəndaş davranışında özünü büruzə verir, vətəndaş əqidəsinə əsaslanır.

Hazırda cəmiyyətin fəal həyat mövqeyinə yiyələnmiş mütəxəssislərə ehtiyacı vardır. Bu, vətəndaşlıq təhsilinə, mənəvi və hüquqi davranış, vətənə sevgi və dövlət maraqlarının qorunması kimi anlayışlara müsbət münasibətlərin yüksək səviyyəssini tələb edir.

Tələbələr müstəqil həyata qədəm qoyarkən, mütəxəssis kimi fəaliyyətə başlayarkən və bu zaman uğurlara imza atmaq, fəal həyat mövqeyinə yiyələnmək üçün təkcə fundamental və peşəkar biliklərlə silahlanmaları hələ azdır. Onlar eyni zamanda vətəndaş hüquq və azadlıqları, onları qorumaq, özünüidarəetmədə iştirak etmək bacarıqları, qarşılarına çıxan problemləri həll etmək üçün birləşmək qabiliyyəti və s. barədə biliklərə sahiblənməlidirlər.

Problemin aktuallığı. Həm şagirdlərin, həm də tələbələrin fəal həyat mövqeyinə yiyələnmələri vacibdir.

Problemin yeniliyi. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması kimi mühüm problemin önəmli məsələləri diqqət mərkəzinə gətirilir.

Problemin praktik məsələləri. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. Антонова, О.А. Формирование активной жизненной позиции у будущего педагога-психолога в гуманитарном вузе: диссертация ... кандидата педагогических наук. .- Казань, 2009. - 305 с.
2. Vəliyev, S. Məktəblilərdə fəal həyat mövqeyinin formalaşdırılması haqqında // -Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, 2020. №2, s. 65-69
3. Hüseynova, E.R. Şəxsiyyətin fəal mövqeyinin inkişaf etdirilməsinin tarixi-pedaqoji səciyyəsi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi əsərləri, 2008. № 1, s. 27-28
4. Сидоренко О. А. Социально-культурная деятельность как фактор формирования активной жизненной позиции лиц, оставшихся без работы: дис. ... канд. пед. наук. Тамбов, 2007. 256 с.

Redaksiyaya daxil olub: 01.05.2026

UOT 37.01

Adilə Həsən qızı Nəzərova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
aparıcı elmi işçisi,filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-4340-6882
E-mail: adile1970@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).123-127

MƏNƏVİ TƏRBİYƏ VƏ MƏRHƏLƏLİ İNKİŞAF: İMAM QƏZALİ MODELİ MÜASİR PEDAQOGİKADA

Adila Hasan Nazarova
leading research worker
at the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in philology

SPIRITUAL EDUCATION AND STAGED DEVELOPMENT: IMAM GHAZALI'S MODEL IN MODERN PEDAGOGY

Адила Гасан гызы Назарова
ведущий научный сотрудник
Института Образования Азербайджанской Республики
доктор философии по филологии

ДУХОВНОЕ ВОСПИТАНИЕ И ПОЭТАПНОЕ РАЗВИТИЕ: МОДЕЛЬ ИМАМА ГАЗАЛИ В СОВРЕМЕННОЙ ПЕДАГОГИКЕ

Xülasə. Məqalədə mənəvi tərbiyə və mərhələli inkişaf konsepsiyası İmam Qəzalinin “Cənnətə qovuşduran abidlər yolu” əsəri əsasında araşdırılır. Qəzali yanaşmasının mərhələli inkişaf prinsipi, elm və əməl vəhdəti, müəllim rolu, fərdi təşəbbüs və özünütərbiyə komponentləri müasir pedaqogika ilə müqayisə olunur. Əsər dini-əxlaqi təlim və şəxsiyyətin sistemli inkişafını təmin edən universal pedaqoji model kimi təqdim edilir. Xülasə göstərir ki, Qəzali modeli şəxsiyyətyönlü və özünü inkişaf etdirməyə yönəlmiş tərbiyə yanaşmasını ortaya qoyur.
Açar sözlər: *Mənəvi tərbiyə; mərhələli inkişaf; İmam Qəzali; elm və əməl vəhdəti; özünütərbiyə; müəllim və rəhbərlik modeli; motivasiya; etnopedaqogika; milli-mənəvi dəyərlər; ümumbəşəri dəyərlər*

Abstract. The article examines the concept of spiritual education and gradual development based on Imam Ghazali's work "The Path of the Devotees Leading to Paradise". The principle of gradual development, the unity of knowledge and practice, the role of the teacher, individual initiative and self-education components of Ghazali's approach are compared with modern pedagogy. The work is presented as a universal pedagogical model that provides both religious and moral education and the systematic development of the personality. The summary shows that Ghazali's model reveals an educational approach that is personality-oriented and focused on self-development.

Keywords: *Spiritual education; gradual development; Imam Ghazali; unity of knowledge and practice; self-education; teacher and leadership model; motivation; ethnopedagogy; national-moral values; universal values*

Аннотация. В статье рассматривается концепция духовного воспитания и постепенного развития на основе труда Имама Газали «Путь преданных, ведущий в рай». Принцип постепенного развития, единство знания и практики, роль учителя, индивидуальная инициатива и компоненты самообразования в подходе Газали сопоставляются с современной педагогикой. Работа представлена как универсальная педагогическая модель, обеспечивающая как религиозно-нравственное воспитание, так и систематическое развитие личности. В заключение показано, что модель Газали раскрывает личностно-ориентированный подход, сфокусированный на саморазвитии.

Ключевые слова: *духовное воспитание, поэтапное развитие, Имам Газали, единство знаний и практики, самообразование, модель учителя и лидера, мотивация, этнопедагогика, национально-нравственные ценности, универсальные ценности*

Ümumbəşəri dəyərlərə, həmçinin dünya və milli mədəniyyətlərə istiqamətlənmə pedaqoji mədəniyyətin araşdırılmasında əsas istiqamətlərdən biri kimi çıxış edir. Bu kontekstdə etnik birliklərin əsrlər boyu formalaşdırdığı tərbiyə təcrübəsini öyrənən etnopedaqogika xüsusi əhəmiyyət kəsb edir. Bu sahə milli-mədəni ənənələrin tərbiyə prosesindəki rolunu sistemli şəkildə araşdırır.

Araşdırmalar göstərir ki, xalqın mənəvi sərvəti əxlaqi dəyərlər sistemi və dini prinsiplərlə sıx bağlıdır. Nəsillərarası mənəvi irsin ötürülməsi prosesi əsasən əməyə münasibət, yaradıcılıq fəaliyyəti və xalqın zəngin folklor irsi ilə tanışlıq vasitəsilə həyata keçirilir. Gənclər milli-mədəni ənənələri mənimsədikcə, sosial və mənəvi dəyərləri daxili dünyalarına inteqrasiya edir və bu, onların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. “Özündə çoxəsrlik hikməti qoruyub saxlamış atalar sözləri, bayramlar, dastanlar, ayinlər, əfsanələr və nağıllar mənəvi-etik nəsihət və öyüdlərlə zəngindir. Bunlar həm milli-mənəvi, həm də ümumbəşəri dəyərlərə yiyələnməyə xidmət edən pedaqoji təcrübəni əks etdirir.” (3, s. 96)

İslam düşüncə tarixində mənəvi tərbiyə konsepsiyasını sistemli şəkildə işləyən ən böyük simalardan biri də İmam Qəzalidir. Onun “Cənnətə qovuşduran abidlər yolu” zahiri baxımdan dini-əxlaqi kitab kimi görünsə də, mahiyyət etibarilə bu əsər mərhələli tərbiyə sistemidir. Kitabda təqdim olunan model təkcə ibadət yolunu deyil, insanın mənəvi inkişaf mexanizmini izah edir. Əslində burada “cənnətə aparan yol” ifadəsi metafizik məqsədi ifadə edir və kamil insan modelini simvolizə edir. Bu mənada əsər pedaqoji baxımdan şəxsiyyətin formalaşması proqramıdır. (5, s. 45)

Müasir Azərbaycan pedaqoji düşüncəsində tərbiyə məsələsi prioritet istiqamət kimi qəbul olunur. Ümummilli lider Heydər Əliyev məktəbi təkcə bilik verən müəssisə kimi deyil, şəxsiyyəti formalaşdıran sosial institut kimi qiymətləndirmişdir. Onun fikrincə, müəllim gənc nəslin mənəvi-əxlaqi formalaşmasında əsas fiqurdur. Professor Akif Abbasov qeyd edir ki, “1991-ci ildə Azərbaycan müstəqilliyini əldə etdikdən sonra təhsil sistemimizin təkmilləşdirilməsi, yeniləşdirilməsi, müasirləşdirilməsi istiqamətində səmərəli tədbirlər həyata keçirilməyə başladı. Yeni “Təhsil Qanunu” qəbul olundu və burada təhsilə aid müxtəlif məsələlərlə yanaşı tərbiyəyə geniş yer verilməsi, milli-mənəvi dəyərlərə yiyələnmək,

milli adət və ənənələrimizi qoruyub saxlamaq, onları yaşatmaq diqqət mərkəzində dayandı" (1, s. 81)

Bu yanaşma İmam Qəzali tərəfindən təqdim edilən mənəvi tərbiyə modeli ilə paralellik təşkil edir. Hər iki halda məqsəd təkcə bilik ötürmək deyil, insanın daxili dünyasının inkişafını təmin etmək, mərhələli proses vasitəsilə şəxsiyyətin formalaşmasını dəstəkləməkdir. Müasir məktəblərdə müəllimlər yalnız akademik bilikləri ötürmür, eyni zamanda şagirdlərin mənəvi inkişafına rəhbərlik edən mentor kimi çıxış edir, onların şəxsiyyətyönlü təşəbbüslərini dəstəkləyir və özünütərbiyəyə yönəldir.

Mənəvi inkişaf üçün effektiv təhsil modelləri tələbələrin özünü dərk etməsi və özünü inkişaf etdirməsinə yönəlməlidir. Bu yanaşma onların daxili təkamülünü stimullaşdıran əsas amillərdən biri hesab olunur. Özünə refleksiya əsaslı belə model mövzunun nəzəri əsaslarını birləşdirərək mənəvi inkişafın sistemli şəkildə öyrənilməsi üçün imkan yaradır və müasir pedaqoji tədqiqatlarda mənəvi formalaşmanın əhəmiyyətini göstərir. (7, s. 37)

Bu baxımdan, milli-mənəvi dəyərlərin öyrədilməsi və mənimsədilməsi dövlət siyasəti və pedaqoji praktikalar üçün əsas prioritetdir.

İmam Qəzali insanın kamilliyə birdən-birə çatmadığını xüsusi olaraq qeyd edir. Onun fikrincə, həqiqətə aparan yol mərhələlərlə keçilir, çətinliklərlə müşayiət olunur və şüurlu şəkildə addımlamağı tələb edir. Bu inkişaf yolunu o, müəyyən dayanacaqlar və maneələr vasitəsilə izah edir: elm əldə etmək, tövbə etmək, qarşıya çıxan maneələri dərk etmək, qorxu ilə ümid arasında tarazlığı qorumaq və ixlas sahibi olmaq (5, s. 46-47).

Bu yanaşma müasir inkişaf psixologiyasında qəbul edilən mərhələlilik prinsipinə uyğun gəlir. Şəxsiyyət zamanla, addım-addım formalaşır. Tərbiyə isə bir dəfə baş verən hadisə deyil, uzun müddət davam edən və ardıcıl şəkildə həyata keçirilən bir prosesdir.

Müasir pedaqoji yanaşmada da ümumi təhsil müəssisələrinin fəaliyyəti oxşar prinsiplər üzərində qurulur. Humanitar hazırlıq modeli şagirdlərin mərhələli inkişafını təmin edir və onların fərdi xüsusiyyətlərinə uyğunlaşdırılır. Humanitar təhsilin səmərəli sistemi aşağıdakı prinsiplərə əsaslanır:

- Təhsil cəmiyyət və şəxsiyyətin tələbatına, məktəbin marağına, müəllimlərin pedaqoji və peşəkarlıq səviyyəsinə, mütəxəssisin səriştəsi və mədəniyyətinə uyğunlaşdırılır.
- Təlim-tərbiyə prosesində müxtəlif forma və metodlardan istifadə edilir, şagirdlərin sərbəstliyi və təşəbbüskarlığı dəstəklənir.
- Təlim fərdiləşir; şagirdlərin qabiliyyəti, maraqları və humanitar hazırlığa meyl mərhələli şəkildə inkişaf etdirilir.
- Müxtəlif variantlı məşğələlər, dərs vəsaitləri, alternativ müəllif kursları və yoxlama metodları tətbiq olunur.
- Yeni pedaqoji metodlar, qaydalar, vasitələr və proqramlar sistemli şəkildə reallaşdırılır.

Beləliklə, Qəzali yolu ilə müasir pedaqogikanın yanaşması arasında birbaşa paralellər var: hər ikisi mərhələli inkişafı, çətinliklərin şüurlu öhdəsindən gəlməni və şəxsiyyətin tədricən formalaşmasını əsas götürür. Müasir məktəb isə bu prinsipləri təhsil sistemi çərçivəsində konkret metod və vasitələrlə həyata keçirir, şagirdlərin fərdi inkişafına imkan yaradır.

Qeyd edək ki, İmam Qəzali tərəfindən təqdim olunan **mənəvi-pedaqoji yanaşma** yalnız mərhələli

inkişaf prinsipi ilə məhdudlaşmır. O, elm və əməl vəhdətini, niyyətin və ixlasın təmizliyini, özünütərbiyə və refleksiyanı, qorxu və ümid tarazlığını, tövbə və korreksiya mexanizmini, eləcə də öyrənilən biliklərin mərhələli və praktik tətbiqini əsas prinsiplər kimi vurğulayır. Bu yanaşmalar bir-birini tamamlayaraq şəxsiyyətin mənəvi və əxlaqi formalaşmasına xidmət edir. Qəzalinin mənəvi pedaqogikası yalnız nəzəri və mərhələli öyrənməyə deyil, həm də əməli fəaliyyətə, özünütərbiyə motivasiyasına, refleksiv özünüqiymətləndirməyə və şəxsi təkamülə diqqət yetirir.

İmam Qəzali islamda qeyd-şərtsiz qəbul olunan "Elm əməlin rəhbəridir, əməl isə elmə tabedir" prinsipini əsas götürərək bildirir ki, "...elm özözlüyündə tabe olunan bir həqiqətdir." O, elmi ilk sıraya qoyma səbəblərini izah edir. Qəzali elmə yalnız bilik toplamaq kimi baxmır; onun üçün əsl dəyər elmin davranışa çevrilməsindədir. Elm və əməl birbirindən ayrı olmamalıdır – öyrənilən bilik insanın xarakterində və hərəkətlərində transformasiya yaratmalıdır. Əks halda, bu bilik yarımçıq qalır. Bu yanaşma müasir pedaqogikada sərişt əasaslı təhsillə səsləşir: məqsəd yalnız məlumatlı insan yetişdirmək deyil, məsuliyyətli, əməl sahibi və şəxsiyyət olaraq formalaşmış insan yetişdirməkdir. (5, s. 49)

Tərbiyə prosesində əsas komponentlər – məqsəd, məzmun, əməli fəaliyyət və təhlil-nəticə bu yanaşmanı konkretləşdirir:

- Məqsəd komponenti müəllim və şagirdə tərbiyənin məqsədini müəyyənləşdirməyə imkan verir, uşağın fərdi maraqları ilə cəmiyyətin tələbləri nəzərə alınır.
- Məzmun komponenti şagirdin tərbiyəsinin əsas istiqamətlərini əhatə edir, onun sosial münasibətlərdə müxtəlif rolları yerinə yetirmək bacarığını formalaşdırır.
- Əməli fəaliyyət komponenti isə pedaqoji vasitələr kompleksini və tərbiyə məsələlərinin məqsəd əsasında həllini müəyyənləşdirir.
- Təhlil-nəticə komponenti isə əldə edilmiş transformasiyanı və inkişafı qiymətləndirir.

Qəzali modeli ilə müasir pedaqogika arasında paralellik mövcuddur: hər ikisi mərhələli inkişaf və şəxsiyyətin tədricən formalaşmasını əsas götürür. Elm və əməl vəhdəti mənəvi tərbiyənin və ümumi təhsil prosesinin mərkəzində durur.

Əsərin əsas nüvəsi niyyətdədir. İmam Qəzali göstərir ki, eyni əməl fərqli niyyətlərlə tamamilə başqa nəticə verə bilər. Bu fikir müasir pedaqogikada fərdi təşəbbüs və niyyət anlayışı ilə paralel aparıla bilər. Şagird niyə öyrənir? Qiymət üçün, yoxsa həqiqət üçün? İbadət edən niyə edir? Adət üçün, yoxsa mənəvi yüksəliş üçün? Bu suallar əslində tərbiyənin əsasını təşkil edir. (5, s.78)

Bu baxımdan təlim prosesində motivasiya və dialoq xüsusi əhəmiyyət kəsb edir. Dialoq problemə marağı artırır və iştirakçılar üçün özünü təsdiq etmə imkanını yaradır. Şəxsiyyətlərarası dialoqda inkişafın xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- Obyektiv problemlilik;
- Məna axtarışının subyektiv yaşanan vəziyyəti;
- Dialoq iştirakçıları arasında qarşılıqlı anlaşma və birliyin münasibəti;
- Başqasına tolerant münasibət;
- Zehni fəallığı stimullaşdıran nəticənin natamamlığı.

Təhsilalanlar həmişə özlərini və imkanlarını düzgün dərk edə bilmir. Həm obyektiv, həm də subyektiv çətinliklərlə üzləşən şagirdlər, özünütərbiyədə şəxsi təşəbbüsləri ilə pedaqoji köməyə müraciət edirlər. Bu kömək, özünütərbiyənin

stimullaşması kimi qiymətləndirilir. Stimullaşmanın mahiyyəti şəxsiyyətin tələbat və motivasiya səviyyəsində inkişafında, sağlam tələbatlar və fəaliyyət motivləri yaratmaq üçün şəraitin formalaşdırılmasındadır.

Qəzali müəllimi istiqamət göstərən, ruhu qoruyan şəxs kimi təqdim edir. Bu, sadəcə bilik ötürən müəllim modeli deyil. Burada müəllim mənəvi mentor funksiyasını daşıyır. Müasir təhsildə mentorluq və fərdi yanaşma prinsipləri bu baxımdan Qəzalinin düşüncəsi ilə səsləşir. Tərbiyə prosesi fərdin daxili dünyasını nəzərə almadan mümkün deyil. (5, s.102)

İmam Qəzali insanı davamlı daxili hesaba çağırır:

- Mən bu yolda haradayam?
- Maneələrim nədir?
- Qorxu və ümid tarazlığını qoruyurammı? (5, s.150)

Bu suallar reflektiv pedaqogikanın əsas mexanizmləridir. Özünü dərk etmədən inkişaf mümkün deyil. Özünütərbiyənin effektivliyi yalnız qaydaların və xarici metodların tətbiqindən ibarət olmamalıdır. Şagirdin qarşılıqlı ünsiyyətə hazırlığı, özünütəsdiqə olan tələbatının oyadılması ilə təmin edilməlidir. Bu, müəyyən dəyərlərin və tolerantlığın qəbulunda və ifadəsində özünü büruzə verir.

Əsas hissənin vacib elementlərindən biri korreksiyadır. N.Y.Şurkova korreksiyanı bir növ irəliləyişə, iştirakçıların mövqeyinə, baxışlarına yaxınlaşmaq üçün edilən düzəliş kimi başa düşür (9, s.16).

Korreksiyaedici təsir zamanı nəzərdən keçirilən problemlərin alternativ variantlarını təqdim etmək vacibdir. İş zamanı oyun texnologiyalarından və kollektiv fəaliyyət vasitələrindən istifadə olunur.

Problemin nəzərdən keçirilməsində xüsusi rol son mərhələyə verilir. Onun əsas hissəsi isə refleksiyadır, yəni öz təəssüratlarını təhlil etməkdir. Hər iştirakçı öz işini, iştirakını və hisslərini qiymətləndirir. Empirik nümunələrdə dialoq və refleksiya vasitəsilə şagirdlərin özünü dərk etməsi və mənəvi tərbiyəsi təmin edilir. Bu prosesdə ünsiyyət texnologiyasından istifadə iştirakçıların şəxsiyyətinin inkişafını şərtləndirir, onların mövqeyini formalaşdırır, dialoji təfəkkür və emosional sərbəstlik qazandırır. Bu keyfiyyətlər ünsiyyət texnologiyasını tolerantlığın inkişafı və tolerant şüurun formalaşması üçün effektiv vasitəyə çevirir.

Sistemli yanaşmada özünütərbiyənin stimullaşdırılması ictimai-pedaqoji mühitdə çoxsəviyyəli və məqsədyönlü qarşılıqlı təsir nəticəsində formalaşır. Bunun nəticəsində özünütərbiyədə tələbatlar inkişaf edir. *“Tələbənin mənəvi keyfiyyətlərinin inkişafına əlverişli şərait yaradan şəxsiyyətyönlü tərbiyə texnologiyasından istifadə məqsədəuyğundur”* (8, s.82). Bu kontekstdə “sosial təlim” prinsipi mühüm rol oynayır.

Beləliklə, özünütərbiyə və refleksiya, Qəzali yanaşmasında olduğu kimi, müasir pedaqogikada da şəxsi inkişafın, daxili hesabatın və mənəvi yüksəlişin ayrılmaz hissəsi hesab edilir.

Müasir dövrdə milli maraqlara xidmət edən sistemli və institusional yanaşmanın olmaması xarici modellərin mexaniki tətbiqinə şərait yarada bilər. Bu baxımdan tərbiyə məsələsinə multidissiplinar və qurumlararası yanaşma zəruridir. Təhsil, mədəniyyət, idman, elm və digər sahələrdə vahid ideya əsasında sistemli fəaliyyət göstərilməsi gənc nəslin milli və ümumbəşəri dəyərlər əsasında formalaşmasını təmin edir.

Uşaq və gənclərin tərbiyəsi yalnız məktəbin deyil, bütöv ictimai institutların ortaq məsuliyyətidir. Cəmiyyətin ehtiyac və tələblərinə cavab verən, xalqına və dövlətinə

sədaqətli, mənəvi baxımdan yetkin və vətənpərvər nəsil yetişdirmək bu sistemli yanaşmanın əsas məqsədidir. (3, s.6)

Müasir təhsil mühiti tərbiyə prosesini yeni vasitələrlə zənginləşdirsə də, əsas diqqət yenə də şəxsiyyətin daxili və mənəvi inkişafına yönəlir.

Mənəvi tərbiyə yalnız fərdin daxili aləmi ilə məhdudlaşmır, onun ictimai münasibətlərinə də təsir göstərir. Xarakterin milli xüsusiyyətlərini dərk etmək və tarixi prosesləri anlamaq insanı öz kimliyinə bağlayır və digər xalqları obyektiv qiymətləndirməyə imkan verir. Öz xalqını və ailəsini şüurlu şəkildə sevən insan başqa mədəniyyətə düşmən mövqedə durmaz; əksinə, digər xalqlarda müsbət cəhətləri görmək və onların mədəniyyətini tanımaq tolerant düşüncəni formalaşdırır. İmam Qəzalinin mənəvi saflaşma modeli insanı kin və təkəbbürdən uzaqlaşdıraraq ədalətli və mərhəmətli münasibətə yönəldir. Bu yanaşma göstərir ki, milli kimliklə ümumbəşəri dəyərlər bir-birinə zidd deyil; əksinə, bir-birini tamamlayan mənəvi sahələrdir. Zəngin və çoxqatlı Azərbaycan mədəniyyəti də məhz bu qarşılıqlı təsir və açıq düşüncə sayəsində inkişaf etmişdir.

Nəticə. İmam Qəzali bu əsərində dini-mənəvi dili seçsə də, ortaya qoyduğu model universal tərbiyə sistemidir. O, insanın kamilləşməsini mərhələli proses kimi təqdim edir, elmi əmələ bağlayır, niyyəti əsas prinsip kimi önə çəkir və müəllimi mənəvi rəhbər səviyyəsinə yüksəldir. Bu baxımdan "Cənnətə qovuşduran abidlər yolu" əsəri müasir pedaqogika üçün əxlaqi prinsiplərə əsaslanan və özünütərbiyəni önə çəkən alternativ tərbiyə modeli təqdim edir.

Beləliklə, Qəzalinin mənəvi-pedaqoji sistemi yalnız ibadət yolunu deyil, insanın daxili təkamül yolunu da göstərir. Məqsəd, mərhələli inkişaf əsasında *kamil, məsuliyyətli və şüurlu şəxsiyyət* yetişdirməkdir ki, bu da hər bir tərbiyə modelinin son məqsədini təşkil edir.

Problemin aktuallığı. Müasir dövrdə gənc nəslin mənəvi-əxlaqi formalaşması qlo-ballaşma və informasiya axını səbəbindən daha aktualdır. Təhsil yalnız bilik ötürmək məqsədi daşımır; bu, həmçinin şəxsiyyətin daxili inkişafı və əxlaqi möhkəmlənməsinə xidmət edir.

Problemin elmi yeniliyi. Problemin elmi yeniliyi tədqiqatın İmam Qəzaliyə aid mənəvi tərbiyə modelini sistemli pedaqoji yanaşma kimi araşdırması və müasir pedaqogika ilə müqayisə aparmasından ibarətdir, burada mərhələli inkişaf, elm və əməl vəhdəti, daxildən gələn təşəbbüs və müəllim rolu yeni interpretasiya çərçivəsində təqdim olunur.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun mənəvi tərbiyə proqramlarının hazırlanmasında istifadə oluna bilər. Həmçinin, müəllim hazırlığında, pedaqoji maarifləndirmədə və ailə-məktəb əməkdaşlığında praktiki tövsiyələr verir.

Ədəbiyyat

1. Abbasov A. N. Milli əxlaq və ailə etikası: Orta ixtisas məktəbləri üçün dərslik / A. N. Abbasov. –Bakı: Mütərcim, –2015. –324 s. s. 81
2. Cəbrayılov, İ.H. Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili: Metodik vəsait / İ.H. Cəbrayılov, V.C. Xəlilov, K. Mikayılova. –Bakı: CH Poliqrafiya, –2023. –242 s.
3. Əliyev P.B. Tərbiyə işinin təşkilinin nəzəriyyəsi və metodikası. / Dərs vəsaiti. –Bakı: "CH Poligrafiya", –2023. –460 s.
4. Əliyeva Ş. Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi. Modul: dərs vəsaiti AMKÇİD layihəsi tər. hazırlanıb. –Bakı: ARTN və ARTİ, –2020. –297s.

5. Gazali, İ. *Cennete kavuşturan Abidler yolu (Minhacü'l-Abidin ilel-cenneti)* (Çevirmen: Hamidullah Ünal). –İstanbul: Rauza yayınları, –2016. –448 s.
6. Kazımov N. M. Mərhələli tərbiyə nəzəriyyəsi. –Bakı: Əlfərül nəşriyyatı, –2007. –116 s.
7. Lu, Jane I. (2021). Educational models of spiritual formation in theological education: Introspection-based spiritual formation. Teaching Theology & Religion, 24, 28-41. DOI: 10.1111/teth.12560
8. https://doi.org/10.1111/teth.12560
9. Məmmədzadə R.R., Tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi imkanları, // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 92, №1, – 2025. – s.81-85 https:/ /jour nals. arti. edu. az/up loads/ f_20 250 404083159774037518.pdf
10. Шукшунов В. Е. От сознания парадигмы к образовательной практике // Взаимодействие властных структур и вузов на современном этапе развития общества: Тезисы докладов международной научно-практической конференции. – Тюмень, 1996. – с.14-15.

Redaksiyaya daxil olub: 03.04.2026

UOT 37.01

Əsmət İdris qızı İsmayılxanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1151-4440
E-mail:a.ismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).128-132

YENİYETMƏ VƏ GƏNCLƏRDƏ MİLLI-MƏNLİK ŞÜURUNUN FORMALAŞDIRILMASI

Asmat Idris Ismayilkhanova
associate professor at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

SHAPING NATIONAL SELF-CONSCIOUSNESS AMONG TEENAGERS AND YOUTH

Асмет Идрис Исмаилханова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ У ПОДРОСТКОВ И МОЛОДЁЖИ

Xülasə. Müəllif yazdığı məqaləni yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşdırılması kimi mühüm məsələyə həsr etmişdir. Müəllif qeyd edir ki, öz xalqının, millətinin dilini, mədəniyyətini, tarixini bilməyən şəxs milli mənlik şüurundan məhrumdur. Humanist ideyalar təbliğ edən təhsil sistemimizdə vətəndaşlıq tərbiyəsi, insan hüquq və azadlıqlarına hörmət, ətraf mühitə, təbiətə qayğılı münasibət, vətəninə, ailəsinə məhəbbət, milli adət və ənənələrimizə hörmət tərbiyə prosesinin əsasını təşkil edir. Yeniyetmə və gənclərin milli mənlik şüurunun

formalaşmasında tarixi şəxsiyyətlər, mütəfəkkirlər, bilim adamları haqqında onlara verilən məlumatlar çox güclü rol oynayır. O, qeyd etmişdir ki, tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq milli mənlik şüuru hər insana xas olan müsbət əxlaqi keyfiyyətdir. Milli mənlik şüuru həm insanın daxili xarakterini, həm adamlara, həm də cəmiyyətə olan münasibətini özündə ehtiva edir.

***Açar sözlər**: qloballaşma, adət-ənənə, milli mənlik şüuru, mənəviyyat, salnamə, dəyərlər, vətənpərvərlik, vətəndaşlıq, sağlam həyat tərzi*

Abstract. The article focuses on the significance of shaping national self-consciousness among teenagers and youth. The author notes that a person unaware of the language, culture and history of their own people and nation is deprived of national self-consciousness. Within our education system, which promotes humanistic ideas, civic education, respect for human rights and freedoms, a caring attitude towards the environment and nature, love for one's homeland and family, and respect for national customs and traditions form the foundation of the educational process. Information provided to teenagers and youth about historical figures, thinkers and scholars plays a very positive role in the formation of their national self-consciousness. The author emphasises that, regardless of one's position or occupation, national self-consciousness is a positive moral quality inherent in every individual. National self-consciousness encompasses both a person's inner character and their attitude towards other people and society as a whole.

***Keywords:** globalisation, customs and traditions, national self-consciousness, spirituality, chronicle, values, patriotism, citizenship, healthy lifestyle*

Аннотация. Автор посвятил написанную им статью важной проблеме формирования национального самосознания подростков и молодежи. В статье отмечается, что человек, не знающий язык, культуру и историю своего народа и нации, лишён национального самосознания. В нашей образовательной системе, пропагандирующей гуманистические идеи, основой воспитательного процесса являются гражданское воспитание, уважение к правам и свободам человека, бережное отношение к окружающей среде и природе, любовь к Родине и семье, уважение к национальным обычаям и традициям. В формировании национального самосознания подростков и молодежи большую роль играют сведения, предоставляемые им об исторических личностях, мыслителях и учёных. Отмечается, что независимо от занимаемой позиции и должности национальное самосознание является присущим каждому человеку положительным нравственным качеством. Национальное самосознание включает в себя как внутренний характер человека, так и его отношение к людям и обществу.

***Ключевые слова:** глобализация, обычаи и традиции, национальное самосознание, духовность, летопись, ценности, патриотизм, гражданственность, здоровый образ жизни*

Dövlətimizin qarşıya qoyduğu ən mühüm istiqamətlərdən biri qloballaşma dövründə xalqımızın milli-mənəvi dəyərlərinin və adət-ənənələrinin qorunması olmuşdur. Hal-hazırda tariximiz dərindən öyrənilir və adət-ənənələrimiz, milli dəyərlərimiz yüksək səviyyədə qorunur. İnteqrasiya və qloballaşma prosesi getdiyi bir vaxt-da insanlarımızın xoşbəxt gələcəyini təmin etmək məqsədi ilə mədəni, tarixi, irsi, etnik köklərə söykənən, yeniyetmə və gənclərimizin vətən-pərvərlik tərbiyəsi və milli mənlik şüurunun formalaşdırılması istiqa-mətində güclü siyasət aparılır.

XXI əsrin reallıqları müstəqillik qazanan dövlətimizin və xalqımızın qarşısında mühüm vəzifələr qoymuşdur. Bu vəzifələrdən ən əsası yetişən gənc nəsillərdə vətənpərvərlik tərbiyəsinin və milli mənlik şüurunun formalaşdırılmasıdır. Eyni zamanda dövlətimiz gənc oğlan və qızlarımızın

sosial-mədəni həyatın hər bir sahəsində fəal iştirak etməsi üçün şərait yaradılması missiyasını da yerinə yetirməkdədir. Hal-hazırda yeniyetmə və gənclərimizin özlərinə cəmiyyətdə yer tutması, vətənin müdafiəsinə hazır olması, əməksevərlik və vətəndaşlıq mövqeyinin formalaşdırılması cəmiyyətin bütün yaşlı nəslini düşündürür.

İnamla deyə bilərik ki, bu gün yeniyetmə və gənclərimiz tariximizi, adət və ənənələrimizi dərindən öyrənir, milli ruhda tərbiyə olunurlar. Təlimin prosesinin bütün mərhələlərində onlara xalqa, millətə məhəbbət hissləri aşılanır. Öz xalqının, millətinin dilini, mədəniyyətini, tarixini bilməyən şəxs milli mənlik şüurundan məhrumdur. Humanist ideyalar təbliğ edən təhsil sistemimizdə vətəndaşlıq tərbiyəsi, insan hüquq və azadlıqlarına hörmət, ətraf mühitə, təbiətə qayğılı münasibət, vətəninə, ailəsinə məhəbbət, milli adət və ənənələrimizə hörmət tərbiyə prosesinin əsasını təşkil edir (2, s.151-152).

Bildiyimiz kimi, tərbiyə ailədən başlayır və məktəbəqədər müəssisələrdə uğurla davam etdirilir. Uşaq bağçaları körpələrin və uşaqların gələcək inkişafında mühüm rol oynayır. Bu sahədə dövlətimiz mühüm qərarlar qəbul etmiş və fiziki kamilliyi, əxlaqi saflığı, mənəvi zənginliyi özündə birləşdirən yeni insan tərbiyəsini bu qanunla təsbit etmişdir. Odur ki, bu qanun fiziki cəhətdən sağlam nəsil tərbiyə edilməsi, onlarda vətənpərvərlik tərbiyəsi və milli mənlik şüurunun formalaşdırılması işini məktəbəqədər tərbiyə müəssisələrin qarşısında mühüm tələb kimi qoymuşdur.

Təcrübəli pedaqoqların gəldiyi nəticələr onu göstərir ki, bağçalarda, ümumtəhsil müəssisələrində milli qəhrəmanlarımıza həsr olunmuş tədbirlər, görüşlər uşaqların elmi biliklərinin təkmilləşdirilməsində, mənəvi-əxlaqi keyfiyyətlərin formalaşdırılmasında, vətənə məhəbbət hisslərinin aşılanmasında əvəzsiz rol oynayır. Proqram çərçivəsində şagirdlərin tarixi muzeylərə, Şəhidlər xiyabanına, Qənimətlər parkına, 26 fevral şəhidlərinin xatirəsinə inşa edilmiş tarixi yerlərə ekskursiyaların təşkili də bu baxımdan böyük əhəmiyyətə malikdir.

Uşaqların tərbiyəsinin ailədən başladığını qeyd edən mütəxəssislər bildirirlər ki, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi uşaq anadan olan gündən aşılanmalıdır. Vətəndaşlıq və vətənpərvərlik yeniyetmə və gənclərin əxlaqi-etik, sosial-psixoloji və pedaqoji əqidəsinə çevrilməlidir. Doğma yurduna, dininə, dilinə məhəbbət hər bir insanın öz evindən, ailəsindən başlayır və bu məhəbbətin dayaqları sağlam olur.

Vətənpərvərlik insanın öz hisslərini tərbiyə etməsindən başlayır. Öz məzmununa görə vətənpərvərlik çoxşaxəlidir və bunu adi sözlərlə ifadə etmək qeyri-mümkündür. Elmi biliklərə yiyələndikcə, dünyanı dərk etdikcə, insanları tanıdıqca bu hisslər formalaşır və getdikcə möhkəmlənir.

İnsanlarda milli mənlik şüuru təsadüfdən yaranmır, onlarda bu hisslər ən kiçik yaşlarından formalaşır və aləmi dərk etdikcə möhkəmlənir. Öz xalqının, millətinin malik olduğu müsbət keyfiyyətləri özündə birləşdirməklə insan milli şüura malik ola bilər. Milli mənlik şüuru insan duyğularının və hisslərinin məcmusudur. Burada vicdan da mühüm rol oynayır. Hər bir vicdanlı insan vətənini, torpağını sevməli, onun yeraltı, yerüstü sərvətlərini qorumağı özünün vətəndaşlıq borcu hesab etməlidir. Dədə Qorqudun dediyi kimi, torpağı qorumadınsa onu becərməyinə dəyməz, becərmədinsə onu qorumağa dəyməz. Yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşmasında tarixi şəxsiyyətlər, mütəfəkkirlər, bilim adamları

haqqında onlara verilən məlumatlar çox güclü rol oynayır.

Qeyd edək ki, tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq milli mənlik şüuru hər insana xas olan müsbət əxlaqi keyfiyyətdir. Milli mənlik şüuru həm insanın daxili xarakterini, həm adamlara, həm də cəmiyyətə olan münasibətini özündə ehtiva edir.

Azərbaycanın xalq şairi B. Vahabzadə yazmış olduğu "Vicdan, namus, ləyaqət" adlı məqaləsində qeyd edir ki, milli mənlik şüuru yalnız demokratiya və azadlıq şəraitində formalaşa bilər. İnsana xas olan üç sifət var, bunlar vicdan, namus və ləyaqətdir ki, birinci növbədə cəmiyyət tərəfindən qorunmalıdır. Daha sonra isə hər kəsdən umulmalıdır. Hər bir millət, hər bir xalq öz "mən"ini, vicdanını, milli mənlik şüurunu vətəninin, xalqının çətin vaxtlarında daha dərindən hiss edir, duyur.

Bu bir həqiqətdir ki, 2020-ci ilə qədər vətənimizin 20 faizdən çox ərazisi mənfur düşmənlər tərəfindən 30 il işğal altında saxlanıldı. Bir milyondan artıq soydaşımız qaçqın, köçkün həyatı yaşadılar. Əzəli-əbədi torpağımız olan gö zəl Qarabağımız yağıların ayaqları altında inlədi. Ürəyində, qəlbində milli-mənlik şüuru olan hər kəs Vətənin müdafiəsinə qalxdı. Qəhrəman Vətən oğulları öz qanları ilə Qarabağda tarix yazdılar. Artıq narahat ruhlar canını, qanını bu Vətənə qurban verən şəhidlərin sayəsində rahatlığa qovuşdular. Bu gün şəhidlərimizin ruhu baş verən hadisələri şüurlu dərk etməyə, vətənpərvər olmağa, düşmən qarşısında əyilməməyə çağırır. Mərhum şairimiz Məmməd Aslan iki misra ilə şəhidlərimizin sözlərini indiki gənclərə çatdırmışdır:

Vətən gözdür, biz kirpik,
Gözümüzün keşiyini çəkirik.

Bəli, bu gün Vətənimizi kirpiyimiz gözümüzü qoruduğu kimi qorumalıyıq. Necə ki, şəhidlərimiz, qazilərimiz vətəni gözləri kimi qorudular. Məlumdur ki, mənəviyyatı olmayan insanlar milli mənlik şüurundan məhrumdurlar. Belə insanlar isə heç vaxt vətənpərvər ola bilməz. Xalqımızın tarixində, ürəyində özlərinə məxsus iz qoyan məşhurlarımızı dünyada tanıdan və özündən sonrakı nəsillərə nümunə edən səbəb onların milli mənlik şüuruna, müqəddəs amallara və mənəviyyata sahib olmalarıdır. Əgər dahi şairimiz N. Gəncəvi xalqını, vətənini sevməsəydi ölməz əsərlər yaza bilərdimi?

Vətənini, insanları sevməsəydi Məmməd Araz özünü vətən daşı adlandırardımı? Onun ölməz misraları onun milli mənlik şüurunun bariz nümunəsi idi: "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" deyirdi Məmməd Araz. Yaxud, "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim" misraları da Məmməd Araz şerinin ana xəttidir. Biz gənclərimizi bu ideallarla böyütməliyik. Ümummilli Liderimiz H. Əliyev yeniyetmə və gənclərə qayğı göstərmiş və onların istedadını, vətənpərvərliyini qiymətləndirmişdir.

Uzaqgörən liderimiz Vətənin gələcəyini onlara tapşırmaqla hiss etmişdir ki, Azərbaycanın nicat yolu bu gənclərlə bağlıdır. Hətta gənclərlə görüşündə o belə fikir söyləmişdir: "bizim gənclərimiz tariximizi, dilimizi, keçmişimizi, milli adət-ənənələrimizi yaxşı öyrənməlidir." Bütün bunları bilməyən gənc heç vaxt vətənpərvər ola bilməz. Vətənpərvərlik müsbət əxlaqi dəyərdir və hər bir gəncimiz vətənpərvər olmalıdır. Vətənpərvərlik adi söz deyil və elə-belə deyilmir. Vətənpərvərlik-vətənə sadiqlik, vətəni sevmək, millətinə, xalqına bağlılıq deməkdir. Hələ 1996-ci il fevral ayının 2-də Gənclərin birinci forumundakı tarixi nitqində Heydər Əliyev yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsini yüksək qiymətləndirərək

demişdir: “Vətənə sadiq olmaq, vətənə bağlı olmaq və vətəni sevmək lazımdır. Bütün gənclər müstəqil Azərbaycanın gələcəyini təmin etmək üçün öncə vətənini, ölkəsini, torpağını sevməlidir. Millətini, xalqını, dilini, dinini və milli adət-ənənələrini sevməlidir. Bütün bunları sevməyən, özü üçün mənəvi əsas bilməyən insan heç vaxt həyatda özünə yer tapa bilməz” (9. s.116-117).

Sadəcə gedib hərbidə qulluq etmək də deyil vətənpərvərlik. Vətən onun üçün qurban getməyə hazır olanlar üçün Vətəndir. Vətən belə qəhrəmanlara oğul deyib bağrına basır. Mübarizdirr, Cəbrayıldı, Muxtardır və neçə-neçə şəhid və qazilərimizdir vətən oğulları. Biz bu gün də, sabah da bu igidlərimizlə fəxr edəcəyik. Neçə-neçə əsrlər ötsə də, nəsillər təzələnsə də tarix onları unutmayacaq. Atalarımızın gözəl bir kəlamı var ki, indiki dövrümüzdə çox aktualdır: “İgid ölər, adı qalar”. Bu igidlər Vətən üçün canlarından keçdilər, şəhidlik zirvəsinə yüksəldilər. Ancaq qanlarıyla Azərbaycanın tarixini yazdılar. Indi onlar bizim mərdlik məktəbimiz, qeyrət simvolumuzdur. Azərbaycan xalqının tarixi çox qədimdir və bu xalq at belində döyüşlərdə bərkiyib.

Ata-babalarından ibrət götürüb, onların cəsurluq, mərdlik, qəhrəmanlıq məktəbini keçiblər. Torpağı öz qanlarıyla suvarıblar, amma məğlub olmayıblar. Bu gün xalqımızın tarixi salnaməsini vərəqləsək oradan Babəkin, Koroğlunun, Cavanşirin, Cavad xanın, Şah İsmayıl Xətainin hayqırtısını eşidərik. Qadınlarımız Tomirisin, Nüşabənin, Burlaxatunun varisləridir. Milli mənlik şüuru bu insanların sayəsində indiki gənclərimizdə getdikcə daha sürətlə formalaşır. Azərbaycan gəncliyi dərk edir ki, qəhrəmanlıq təkcə döyüş meydanında göstərilmir. Azərbaycanın bayrağı harada ucalara qaldırılırsa ora döyüş meydanıdır. Biz belə döyüşçülərə misal olaraq idmançı oğlan və qızlarımızı göstərə bilərik ki, üç rəngli bayrağımızı dünyanın bütün ölkələrində şərəflə ucalara qaldırırlar.

Biz bu gün belə gənclərimizlə qürur duyuruq. Onu da qeyd etməliyik ki, böyüyən gənc nəslin sağlamlığının qorunmasında, vətənpərvərlik hissinin aşılanmasında, hər an vətəninin müdafiəsinə hazır olan cəsur qəhrəmanlar kimi yetişmələrində idmanın çox böyük rolu vardır.

Hal-hazırda idmanı daha da inkişaf etdirmək üçün ölkəmizdə çox mühüm addımlar atılır. Hər rayonda böyük idman kompleksi tikilib gənclərin istifadəsinə verilir. Bu möhtəşəm işlərin memarı Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin sədri, Ali Baş Komandan cənab İlham Əliyev cənablarıdır. Onun apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda idman yarışları təşkil edilir, gənclərimiz öz məharətlərini göstərir, bütün dünya artıq bizi tanıyır və hər sahədə bizimlə hesablaşır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinə böyük ümid bəslədiyini və bədən tərbiyəsinin onların vətənpərvərlik tərbiyəsində böyük rol oynadığını qeyd edir. Dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında yüksək nəticə göstərən, vətənə medallarla dönən idmançılarımız öncə dövlət başçımız tərəfindən qəbul edilir və onların uğurları qiymətləndiri

Fikrimizcə milli mənlik şüuru cəmiyyətin uğur qazanmasına stimul verir. Əksinə, keçmişə, tarixə, milli adət-ənənələrə inamı itirmək isə sivilizasiyanı tənəzzülə aparır. Milli mənlik şüuru bəşəriyyətin tərəqqisinin, elm və texnikanın, idman və iqtisadiyyatın inkişafına təkan verir. Insanları vətənpərvərlik hissi birləşdirir, mübariz olmağa səsləyir,

onların vətəndaş kimi formalaşmasına təsir edir. Yeniyetmə və gənclərin vətənpərvərlik hisslərinin və milli mənlik şüurunun formalaşmasında öz kökünə bağlı olan meyarlar, emosional meyarlar və fəaliyyət meyarları mühüm rol oynayır.

Aparılmış müşahidələr onu göstərir ki, yeniyetmə və gənclərin vətənpərvər kimi tərbiyə olunmasında vətəndaşlıq mövqeyinin formalaşması əsas amildir. Burada ən əsas məqam bu gənclərin bir-biri ilə olan münasibətlərinə, əxlaqi dəyərlərin formalaşmasına diqqətin artırılmasıdır (8, s. 362-363). Onu deyə bilərik ki, hal-hazırda milli mədəniyyətimizə, adət-ənənələrimizə, ana dilimizin qorunmasına, vətən qarşısında öz borcunu verməyə, vətənə, torpağa məhəbbətə və sağlam həyat tərzinin formalaşdırılmasına diqqət və qayğı yüksək səviyyədədir.

Bu gün hər bir ailə, hər bir valideyn öz övladının gələcəyi üçün məsuliyyət daşıyır. Ona görə ki, qayğısız yaşayan yeniyetmə və gənclərimiz nə bu gün, nə də sabah dövlətinin, Vətəninin müqəddəratına laqeyd münasibət bəsləməsinlər. Çünki vətənin gələcəyi onlara əmanətdir. Onlar vətəndaşı olduqları dövlətin, üstündə yaşadıqları torpağın mənafeyini canları, qanları bahasına qorumalıdırlar. Sonda qeyd edək ki, yeniyetmə və gənclərimizdə sağlam həyat tərzi, onlarda milli mənlik şüurunun formalaşdırılması, vətənpərvərlik hissinin tərbiyə edilməsi hamının vicdan borcudur.

Nəticə. Son olaraq onu deyə bilərik ki, hal-hazırda milli mədəniyyətimizə, adət-ənənələrimizə, ana dilimizin qorunmasına, vətən qarşısında öz borcunu verməyə, vətənə, torpağa məhəbbətə və sağlam həyat tərzinin formalaşdırılmasına diqqət və qayğı yüksək səviyyədədir. Tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq milli mənlik şüuru hər insana xas olan müsbət əxlaqi keyfiyyətdir. Milli mənlik şüuru həm insanın daxili xarakterini, həm adamlara, həm də cəmiyyətə olan münasibətini özündə ehtiva edir.

Problemin aktuallığı. Milli mənlik şüuru bəşəriyyətin tərəqqisinin, elm və texnikanın, idman və iqtisadiyyatın inkişafına təkan verir. İnsanları vətənpərvərlik hissi birləşdirir, mübariz olmağa səsləyir, onların vətəndaş kimi formalaşmasına təsir edir. Problem bu cəhətdən aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Milli mənlik şüuru bəşəriyyətin tərəqqisinin, elm və texnikanın, idman və iqtisadiyyatın inkişafına təkan verir. İnsanları vətənpərvərlik hissi birləşdirir, mübariz olmağa səsləyir, onların vətəndaş kimi formalaşmasına təsir edir. Milli mənlik şüuru cəmiyyətin uğur qazanmasına stimul verir.

Problemin praktik əhəmiyyəti. Hər bir millət, hər bir xalq öz "mən"ini, vicdanını, milli mənlik şüurunu vətəninin, xalqının çətin vaxtlarında daha dərindən hiss edir, duyur. Odur ki, vətəndaşı olduqları dövlətin, üstündə yaşadıqları torpağın mənafeyini canları, qanları bahasına qorumalıdırlar.

Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası / A.N. Abbasov.–Bakı: Mütərcim, -2008. –335 s.
2. Kazımov, N.M. Milli pedaqogika yollarında / N.M. Kazımov. –Bakı: Ağrıdağ, –2004, –248 s.
3. Talıbov, Y.R. Gənclərin milli-mənəvi tərbiyəsi problemi / Y.R. Talıbov, F.B. Sadıqov, S.M. Quliyev. –Bakı: Ünsiyyət, –1999.
4. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov, V. Məmmədəliyev) //– Bakı: Azərnəşr, –1991.

5. Hajiyeva, LQ (2019). Student-centered learninq and teashers thinking system. Modern Educational Research, 2, 33-41.
6. Plato /The Symposium./ Penquin Classics.2003. –144 p.
7. Eco, U./On Beauty:A History of a Western Idea /–London: Secker@Warburg, –2004.–438
8. Азадалиева Ш.М. (2015) Основные направления диверсификации и развития высшего педагогического образования в Азербайджане (1921-1991 гг.) // Annales – Analiza Istrske in Mediteranske Študije. Series Historia et Sociologia. – Koper (Slovenia), 2015. – S. 359-368. (Web of Science)
9. Azadaliyeva Sh.M. (2023) The role of Heydar Aliyev in the development of education in Azerbaijan // Proceedings of the 4th International Conference on Humanities and Social Sciences (ICSHRS). – Dubai, April 14-16,– P. 115-120
10. Rustamov F. A (2025) Comprehensive Analysis of Family Pedagogy: Theoretical Foundations, Sociocultural Dynamics, Legal Frameworks, and Modern Strategies for Organizing Educational and Upbringing Processes in Contemporary Families. https://imcra-az.org/uploads/public_files/2025-11/8898581212.pdf

Redaksiyaya daxil olub: 08.04.2026

UOT 37.01

Gülşən Oqtay qızı Həsənova
Bakı Biznes Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail:gulsen1971h@gmail.com
https://orcid.orq/0009-0008-1110-2252
https://doi.org/10.69682/arti.2026.93(3).133-136

PEDAQOJİ KADR HAZIRLIĞINDA HUMANİST DƏYƏRLƏRİN FORMALAŞDIRILMASI PROBLEMI

Gulshan Ogtay Hasanova
senior lecturer at Baku Business University
doctor of philosophy in pedagogy,

THE PROBLEM OF FORMING HUMANISTIC VALUES IN TEACHER TRAINING

Гюльшан Октай гызы Гасанова
старший преподаватель Бакинского Университета Бизнеса,
доктор философии по педагогике,

ПРОБЛЕМА ФОРМИРОВАНИЯ ГУМАНИСТИЧЕСКИХ ЦЕННОСТЕЙ В ПОДГОТОВКЕ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

Xülasə. Məqalədə pedaqoji kadr hazırlığında humanist dəyərlərin formalaşdırılması problemi müasir pedaqoji nəzəriyyə və praktikanın aktual istiqaməti kimi elmi müstəvidə təhlil olunur. Təhsilin humanistləşdirilməsi tendensiyası şəraitində müəllim hazırlığı yalnız peşə bilik və bacarıqlarının mənimsədilməsi ilə məhdudlaşmır, eyni zamanda gələcək müəllim şəxsiyyətində etik-mənəvi keyfiyyətlərin, sosial məsuliyyətin və demokratik pedaqoji mövqeyin formalaşdırılmasını tələb edir.

Tədqiqatın məqsədi pedaqoji təhsil prosesində humanist dəyərlərin (insanpərvərlik, tolerantlıq, empatiya, ədalətlilik və pedaqoji etika) formalaşdırılmasının nəzəri-metodoloji əsaslarını müəyyənləşdirmək və onların reallaşdırılması mexanizmlərini sistemləşdirməkdir. Araşdırmada sistemli, struktur-funksional və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Açar sözlər: *pedaqoji kadr hazırlığı, humanist dəyərlər, təhsilin humanistləşdirilməsi, şəxsiyyətyönlü təhsil, pedaqoji etika*

Abstract. The article analyzes the problem of forming humanistic values in teacher training as a significant and conceptually grounded direction in contemporary pedagogical theory and practice. Within the framework of the humanization of education, teacher preparation extends beyond the acquisition of professional knowledge and skills, encompassing the development of ethical and moral qualities, social responsibility, and a democratic pedagogical stance in prospective teachers.

The purpose of the study is to determine the theoretical and methodological foundations for the formation of humanistic values-such as humanism, tolerance, empathy, justice, and pedagogical ethics-within the system of pedagogical education and to systematize the mechanisms for their effective implementation. The research is based on systemic, structural-functional, and comparative analytical approaches.

Keywords: *teacher training, humanistic values, humanization of education, personality-oriented education, pedagogical ethics*

Аннотация. В статье проблема формирования гуманистических ценностей в подготовке педагогических кадров рассматривается как одно из актуальных и концептуально значимых направлений современной педагогической теории и практики. В условиях гуманизации образования подготовка учителя не ограничивается усвоением профессиональных знаний и умений, а предполагает формирование у будущего педагога нравственно-этических качеств, социальной ответственности и демократической педагогической позиции.

Цель исследования заключается в определении теоретико-методологических основ формирования гуманистических ценностей (гуманизм, толерантность, эмпатия, справедливость, педагогическая этика) в системе педагогического образования и систематизации механизмов их реализации. В исследовании использованы системный, структурно-функциональный и сравнительный методы анализа.

Ключевые слова: *подготовка педагогических кадров, гуманистические ценности, гуманизация образования, личностно-ориентированное обучение, педагогическая этика*

Müasir dövrdə pedaqoji təhsil sistemi sürətli sosial-mədəni transformasiyalar, qloballaşma prosesləri və informasiya cəmiyyətinin inkişafı nəticəsində yeni tələblərlə üzləşir. Bu tələblər müəllim hazırlığının yalnız peşəkar bilik və bacarıqların mənimsədilməsi ilə məhdudlaşmamasını, həm də gələcək müəllimlərin şəxsiyyətinin, etik-mənəvi mövqeyinin və sosial məsuliyyətinin inkişafını tələb edir. Beləliklə, pedaqoji kadr hazırlığında humanist dəyərlərin inteqrasiyası müasir pedaqoji nəzəriyyənin və praktik tədqiqatların aktual istiqamətlərindən birini təşkil edir.

Humanist təhsil yanaşması insanı ali dəyər kimi qəbul edir, onun ləyaqətini, hüquq və azadlıqlarını, fərdi xüsusiyyətlərini və inkişaf potensialını ön plana çıxarır. Bu yanaşma müəllim–tələbə münasibətlərində subyekt – subyekt prinsipinin təmin olunmasını, demokratik ünsiyyət mühitinin formalaşdırılmasını və şəxsiyyətyönlü təlim modelinin tətbiqini tələb edir. Belə şəraitdə müəllim yalnız bilik ötürən şəxs deyil, həm də humanist dəyərlərin daşıyıcısı və təbliğatçısı kimi çıxış edir.

Problemin aktuallığı həm də müasir cəmiyyətin mürəkkəb sosial münasibətləri, mədəni müxtəlifliyi və etik çağırışların artması ilə bağlıdır. Bu şərait müəllimdən yüksək səviyyədə empatiya, tolerantlıq, ədalətlilik və pedaqoji etik davranış tələb edir. Humanist dəyərlərin formalaşdırılması isə pedaqoji təhsil prosesində məqsədyönlü və elmi əsaslandırılmış fəaliyyət vasitəsilə mümkün olur.

Humanist dəyərlərin pedaqoji mahiyyəti.

Humanist pedaqoji yanaşma pedaqoji nəzəriyyədə insanın ali dəyər kimi qəbul edildiyi və onun şəxsiyyətinin inkişafına mərkəzilik verildiyi konsepsiya kimi formalaşmışdır. Bu yanaşma müəllimi yalnız bilik ötürən və tədris prosesinin təşkilatçısı kimi deyil, həm də etik-mənəvi və sosial məsuliyyət daşıyıcısı kimi nəzərdən keçirir [5,s.32;3,s.31]. Humanist dəyərlər – insanpərvərlik, empatiya, ədalətlilik, tolerantlıq və pedaqoji etik davranış – müəllimin peşəkar və şəxsi fəaliyyətinin ayrılmaz komponentləri kimi çıxış edir və onun pedaqoji qərar qəbuletmə prosesində prioritet meyar rolunu oynayır [9, s. 41].

Müasir pedaqoji tədqiqatlar göstərir ki, müəllimin humanist dəyərlərə sahib olması təkcə onun peşəkar fəaliyyətinə təsir göstərmir, həm də tələbələrin sosial, emosional və intellektual inkişafına birbaşa təsir göstərir [14, s. 44]. İnsanpərvərlik və empatiya müəllim – tələbə münasibətlərində etibarlı və açıq ünsiyyət mühitinin formalaşmasını təmin edir, bu isə tələbənin fəal iştirakını, özünüifadəsini və kritik düşüncə qabiliyyətinin inkişafını stimullaşdırır.

Humanist pedaqoji yanaşma həmçinin müəllimin etik-mənəvi mövqeyinin formalaşmasına yönəlib. Müəllim yalnız tədris funksiyasını yerinə yetirmir, eyni zamanda tələbəyə model rolunu oynayır, onun davranış və qərar qəbuletmə meyarlarını müəyyən edir. Bu baxımdan humanist dəyərlər müəllimin şəxsiyyət inkişafı ilə yanaşı, tələbələrin sosial və etik yetkinliyinin formalaşmasında vasitəçi rolunu oynayır [13, s. 13].

Əlavə olaraq, humanist pedaqoji yanaşma müəllimlərin özünüinkişafı və reflektiv fəaliyyətinə xüsusi önəm verir. Müəllim pedaqoji təcrübəsini sistemli şəkildə analiz etməyi, etik və humanist prinsipləri praktikada tətbiq etməyi öyrənir. Refleksiya prosesi müəllimin həm şəxsi, həm də peşəkar inkişafına şərait yaradır və onun humanist dəyərlərin daşıyıcısı kimi mövqeyini möhkəmləndirir [8, s. 45].

Humanist dəyərlərin inkişafı yalnız kurikulumun məzmunu ilə məhdudlaşmır. Bu, həm də təlim mühitinin təşkili, interaktiv metodların tətbiqi və müəllim – tələbə

münasibətlərində subyekt – subyekt prinsipinin təmin olunması ilə bağlıdır [14, s.16; 12, s.23].

Kurikulum pedaqoji kadr hazırlığında humanist dəyərlərin formalaşdırılmasında əsas vasitələrdən biridir. Müasir pedaqoji nəzəriyyəyə əsasən, kurikulum yalnız bilik və bacarıqların ötürülməsi funksiyasını yerinə yetirmir, həm də tələbələrin şəxsiyyətyönlü inkişafını təmin edən sistemli struktur kimi nəzərdən keçirilir
[3, s. 36; 9, s.25].

Kurikulumun nəzəri komponenti müəllimlərin humanist prinsipləri mənimsəməsi üçün konseptual əsasları müəyyən edir. Bu mərhələdə təhsil proqramları tələbələrə etik, sosial və pedaqoji məsələlərə humanist perspektivdən yanaşma bacarığını formalaşdırır. Xüsusilə etik dilemmalar, demokratik qərar qəbuletmə və sosial məsuliyyət mövzularında təşkil olunan tədris modulları və seminarlar tələbələrin dəyərlər sistemi ilə bağlı reflektiv düşüncəsini inkişaf etdirir [12; 13].

Kurikulumun praktik komponenti isə müəllim hazırlığında interaktiv və şəxsiyyətyönlü metodların tətbiqinə əsaslanır. Layihə əsaslı təlim, qrup diskussiyaları, rollu oyunlar və problemyönlü tapşırıqlar humanist dəyərlərin formalaşdırılmasında mühüm rol oynayır [8, s. 19]. Bu metodlar tələbənin fəal iştirakını təmin etməklə yanaşı, empatiya, əməkdaşlıq bacarıqları, kritik düşüncə və qərar qəbuletmə sərişətələrinin inkişafına şərait yaradır.

Kurikulum vasitəsilə humanist dəyərlərin formalaşdırılması müəllim – tələbə münasibətlərində subyekt – subyekt prinsipinin tətbiqi ilə daha da gücləndirilir. Bu prinsipə əsasən, tələbə pedaqoji prosesin passiv obyekti deyil, fəal subyekti kimi qəbul edilir və onun təlim prosesində iştirakçılığı təmin olunur [14, s. 54].

Nəticə etibarilə, kurikulum yalnız bilik ötürən vasitə kimi deyil, həm də humanist dəyərlərin praktiki tətbiqinə imkan yaradan sistemli pedaqoji mexanizm kimi çıxış edir.

Azərbaycan pedaqoji təhsilində də humanist yanaşmaların tətbiqi müşahidə olunur. Müəllim hazırlığı proqramlarında interaktiv seminarlar, layihə və diskussiya metodlarının tətbiqi müəllimlərin empatiya, tolerantlıq və etik davranış bacarıqlarının inkişafına müsbət təsir göstərir [9, s. 47]. Bu yanaşma müəllimin həm peşəkar, həm də şəxsiyyətyönlü inkişafını dəstəkləyir.

Tədqiqatlar göstərir ki, humanist dəyərlərin sistemli inteqrasiyası pedaqoji kadrların yalnız peşəkar bilik və bacarıqlarını deyil, həm də onların etik-mənəvi mövqeyini, sosial məsuliyyət hissini və pedaqoji davranış modelini formalaşdırır [5,s.51;3,s.61]. Müasir pedaqoji yanaşmalar müəllim hazırlığında empatiya, ədalətlilik və tolerantlıq kimi sosial-emosional komponentlərin inteqrasiyasını əsas istiqamət kimi müəyyən edir.

Gələcək müəllimlər yalnız fənn bilikləri ilə deyil, həm də pedaqoji fəaliyyətin etik-mənəvi tələbləri ilə silahlanır, subyekt–subyekt ünsiyyətinə əsaslanan davranış strategiyaları formalaşdırırlar. Bu proses müəllimlərin reflektiv fəaliyyətini gücləndirir: onlar öz pedaqoji qərarlarını humanist prinsiplər əsasında təhlil edir, tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq interaktiv və şəxsiyyətyönlü metodlar tətbiq edirlər [13, s.33; 8, s.39].

Azərbaycan təhsil sistemi kontekstində, humanist dəyərlərin inteqrasiyası müəllim hazırlığında strateji əhəmiyyət daşıyır. Təhsil proqramları və təlim mühiti müəllimlərin empatiya, əməkdaşlıq və sosial məsuliyyət bacarıqlarını inkişaf etdirməyə yönəlib. Praktiki təcrübə

zamanı mentor müəllimlərin nümunəvi davranışı, demokratik qərar qəbuletmə və etik prinsiplərin tətbiqi tələbələrin professional və etik-mənəvi inkişafını stimullaşdırır [1, 2023; 2, 2017]. Beləliklə, humanist dəyərlərin sistemli inteqrasiyası müəllimlərin peşəkar səriştələrini və etik-mənəvi mövqeyini paralel şəkildə inkişaf etdirən, şəxsiyyətyönlü və demokratik təhsil mühitinin yaradılmasında əsas determinant rolunu oynayır.

Problemin aktuallığı. Məqalənin aktuallığı müasir təhsil sistemində pedaqoji kadr hazırlığının humanistləşdirilməsi prosesinin getdikcə daha mühüm strateji istiqamətə çevrilməsi ilə bağlıdır. Qlobal təhsil çağırışları, rəqəmsal transformasiya və sosial dəyişikliklər müəllim hazırlığında yalnız peşəkar bilik və bacarıqların deyil, həm də etik-mənəvi və sosial səriştələrin formalaşdırılmasını zəruri edir. Bu baxımdan humanist dəyərlərin pedaqoji kurikuluma inteqrasiyası müasir təhsil siyasətinin və pedaqoji praktikanın aktual problematikasını təşkil edir.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi humanist dəyərlərin pedaqoji kadr hazırlığında sistemli şəkildə nəzəri və praktik müstəvidə kompleks təhlil edilməsidir. Tədqiqatda humanist yanaşma yalnız pedaqoji konsepsiya kimi deyil, həm də müəllimlərin reflektiv fəaliyyəti, qərar qəbuletmə mexanizmləri və subyekt – subyekt münasibətləri kontekstində izah olunur. Eyni zamanda kurikulumun nəzəri və praktik komponentləri arasında humanist dəyərlərin inteqrasiya modeli müəyyənləşdirilərək onların müəllim səriştələrinə təsir mexanizmi göstərilir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Məqalənin praktiki əhəmiyyəti onun nəticələrinin pedaqoji kadr hazırlığı proqramlarında, müəllim təlimlərində və kurikulumun təkmilləşdirilməsində tətbiq oluna bilməsi ilə müəyyən olunur. Araşdırma nəticələri müəllim hazırlığında interaktiv metodların, mentorluq sisteminin və reflektiv təlim yanaşmalarının səmərəliliyini əsaslandırır. Bu yanaşmalar müəllimlərin empatiya, əməkdaşlıq və sosial məsuliyyət bacarıqlarının inkişafına, həmçinin tədris prosesinin demokratik və şəxsiyyətyönlü təşkilinə xidmət edir.

Ədəbiyyat

1. Azərbaycan Təhsil İnstitutu. Müəllim hazırlığında kompetensiya əsaslı yanaşmalar / Azərbaycan Təhsil İnstitutu. – Bakı: ATI, – 2023.
2. Darling-Hammond, L. Teacher education around the world: What can we learn from international practice / L. Darling-Hammond. – European Journal of Teacher Education, – 2017. – 40(3), –291–309.
3. Dewey, J. Democracy and education: An introduction to the philosophy of education / J.Dewey. – New York: Macmillan, – 1916. – 384 p.
4. Freire, P. Pedagogy of the oppressed / P.Freire. – New York: Continuum, – 1970. – 186 p.
5. Hargreaves, A. Teaching in the knowledge society: Education in the age of insecurity / A.Hargreaves. – New York: Teachers College Press, – 2003. – 200 p.
6. Hattie, J. Visible learning: A synthesis of over 800 meta-analyses relating to achievement / J.Hattie. – London: Routledge, – 2009. – 392 p.
7. Illeris, K. *Learning and development: A comprehensive approach* / K.Illeris. – London: Routledge, – 2003. – 304 p.
8. Kozulin, A., Gindis, B., Ageyev, V. S., & Miller, S. M. *Vygotsky's educational theory in cultural context* / A.Kozulin et al. – Cambridge: Cambridge University Press, – 2003. – 512 p.
9. Nəbiyev, R. *Müasir təhsil sistemində humanist dəyərlərin təşviqi* / R.Nəbiyev. – Bakı: Elm, – 2019 –240 p.
10. Noddings, N. *The challenge to care in schools: An alternative approach to education* / N.Noddings. – New York: Teachers College Press, – 2005. – 224 p.

11. Peters, R. S. *Ethics and education* / R.S.Peters. – London: Allen & Unwin, – 1966. – 320 p.
12. Rogers, C. R. *Freedom to learn* / C.R.Rogers. – Columbus, OH: Merrill, – 1969. – 400 p.
13. Schön, D. A. *The reflective practitioner: How professionals think in action* / D.A.Schön. – New York: Basic Books, – 1983. – 374 p.
14. Vygotsky, L. S. *Mind in society: The development of higher psychological processes* / L.S. Vygotsky. – Cambridge, MA: Harvard University Press, – 1978. – 176 p.

Redaksiyaya daxil olub: 28.04.2026

MƏKTƏBƏQƏDƏR TƏHSİL
PRESCHOOL EDUCATION
ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ

UOT 373.21

Gülxar Hidayət qızı Quliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müəllimi
https://orcid.org/0009-0005-8970-5035
E-mail: Gulkharguliyeva@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).137-141

MƏKTƏB TƏLİMİNƏ HAZIRLIQ DÖVRÜNDƏ UŞAQLARIN ESTETİK - YARADICI İNKİŞAFI

Gulhar Hidayat Kulieva
lecturer at the department of Preschool education pedagogy of the Azerbaijan State Pedagogical University

AESTHETIC CREATIVE DEVELOPMENT OF CHILDREN DURING THE PERIOD OF PREPARATION FOR SCHOOL EDUCATION

Гюльхар Хидаят гызы Гулиева
преподаватель кафедры Педагогики дошкольного образования Азербайджанского Государственного Педагогического Университета

ЭСТЕТИКО-ТВОРЧЕСКОЕ РАЗВИТИЕ ДЕТЕЙ В ПЕРИОД ПОДГОТОВКИ К ШКОЛЬНОМУ ОБУЧЕНИЮ

Xülasə. Estetik-yaradıcı inkişaf məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Təsviri fəaliyyət məşğələləri kiçikyaşlı uşaqların estetik tərbiyəsinin imkanlarını artırır. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşməsi, quraşdırma prosesində müxtəlif modellərin qurulması, yeni hekayə və nağılın, musiqi fəaliyyətində sadə melodiyanın dinlənilməsi, mahnının və uşaq musiqi alətlərində ifa məktəbəqədər yaşlı uşaqların estetik inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır.

*A**çar sözlər:** məktəbəqədər dövr, estetik-yaradıcı inkişaf, ətraf aləmin gözəllikləri, təsviri fəaliyyət, uşaq şəxsiyyəti, əməkdaşlıq*

Abstract. Aesthetic-creative development ensures the development of artistic feelings and taste, artistic creativity abilities, the ability to observe and discuss objects in the surrounding world in preschool children. The aesthetic development of children stimulates their creative abilities. Visual activity classes increase the possibilities of aesthetic education of young children. In visual activity, new combinations of colors and shapes, the construction of various models in the assembly process, listening to a new story and fairy tale, simple melodies in musical activity, playing songs and children's musical instruments contribute to the aesthetic development of preschool children. The ability to correctly assess the beauty of the surrounding world and a positive emotional attitude towards the surrounding world begin to form in children.

***Key words:** preschool period, aesthetic-creative development, the beauties of the surrounding world, pictorial activity, child personality, cooperation*

Аннотация. Эстетико-творческое развитие обеспечивает развитие у детей дошкольного возраста художественных чувств и вкуса, способностей к творчеству, умения наблюдать и обсуждать объекты окружающего мира. Эстетическое развитие детей стимулирует их творческие способности. Занятия изобразительной деятельностью расширяют возможности эстетического воспитания детей младшего возраста. В изобразительной деятельности новые сочетания цветов и форм, создание различных моделей в процессе конструирования, сочинение новых рассказов и сказок, в музыкальной деятельности – прослушивание простых мелодий, исполнение песен и игра на детских музыкальных инструментах способствуют эстетическому развитию детей дошкольного возраста. У детей начинает формироваться умение правильно оценивать красоту окружающего мира и положительное эмоциональное отношение к нему.

***Ключевые слова**: дошкольный период, эстетико-творческое развитие, красоты окружающего мира, изобразительная деятельность, личность ребенка, сотрудничество*

Giriş

Müasir təhsil sistemində uşağın məktəb təliminə hazırlıq dövründə yalnız intellektual deyil, eyni zamanda estetik və yaradıcı potensialının inkişafı baxımından həlledici mərhələ hesab olunur. Estetik-yaradıcı inkişaf uşağın emosional dünyasının zənginləşməsinə, təxəyyülünün, fantaziyasının və bədii zövqünün formalaşmasına şərait yaradır.

Estetik inkişaf şəxsiyyətin formalaşmasında mühüm yer tutan çoxşaxəli pedaqoji prosesdir. Estetika anlayışı gözəlliyin dərk olunması, ona emosional münasibət və estetik zövqün formalaşması ilə bağlıdır. Pedaqoji baxımdan estetik inkişaf uşağın ətraf aləmdəki hadisə və obyektlərin gözəlliyini hiss etməsi, qiymətləndirməsi və ona yaradıcı münasibət göstərməsi kimi xarakterizə olunur.

Məktəb təliminə hazırlıq dövründə estetik inkişaf uşağın emosional dünyasının zənginləşməsinə, hiss və duyğularının incəlməsinə şərait yaradır. Bu mərhələdə uşaq rənglərə, formalara, səslərə, ritmə və bədii obrazlara qarşı xüsusi həssaslıq nümayiş etdirir. Estetik qavrayışın formalaşması uşağın dünyanı bütöv və obrazlı dərk etməsinə imkan verir.

Estetik inkişaf yalnız gözəlliyi duymaq deyil, həm də onu yaratmaq bacarığının formalaşmasını nəzərdə tutur. Bu baxımdan estetik tərbiyə uşağın yaradıcılıq fəaliyyətinə cəlb olunması ilə sıx bağlıdır. Rəsm, musiqi, bədii söz, oyun və əmək fəaliyyəti estetik inkişafın əsas vasitələri hesab olunur.

Yaradıcı inkişaf uşağın təxəyyülünün, fantaziyasının, müstəqil düşünmə və orijinal ideyalar irəli sürmə qabiliyyətinin inkişafını əhatə edir. Psixoloji-pedaqoji tədqiqatlarda yaradıcılıq uşağın idraki fəallığının ən yüksək təzahür formalarından biri kimi qiymətləndirilir.

Məktəbə təliminə hazırlıq dövründə uşaqların yaradıcı fəaliyyəti əsasən oyun, təsviri və bədii fəaliyyət vasitəsilə reallaşır. Bu yaş mərhələsində uşaq hazır nümunəni təkrarlamaqdan daha çox, öz təsəvvürlərinə əsaslanaraq yeni obrazlar yaratmağa çalışır. Bu isə onun şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Yaradıcı inkişaf uşağın:

- özünüifadə imkanlarını genişləndirir;
- müstəqil qərarvermə bacarığını formalaşdırır;
- təşəbbüskarlıq və özünə inam hissini artırır;
- emosional və sosial adaptasiyasını asanlaşdırır.

Beləliklə, yaradıcı inkişaf uşağın yalnız intellektual deyil, həm də emosional və sosial inkişafına kompleks təsir göstərir.

Məktəb təliminə hazırlıq dövrü (əsasən 5-6 yaş) uşağın həyatında yeni sosial rolun – şagird rolunun formalaşdığı əsas mərhələdir. Bu mərhələdə estetik-yaradıcı inkişaf uşağın məktəb mühitinə uyğunlaşmasında mühüm əhəmiyyət kəsb edir.

Estetik-yaradıcı fəaliyyətlər uşağın:

- diqqət və yaddaşını inkişaf etdirir;
- təfəkkür və təxəyyülünü zənginləşdirir;
- nitq və ünsiyyət bacarıqlarını möhkəmləndirir;
- emosional gərginliyi azaldır.

Estetik-yaradıcı inkişaf eyni zamanda uşağın məktəb təliminə psixoloji hazırlığının mühüm göstəricilərindən biri hesab olunur. Yaradıcılıqla məşğul olan uşaq təlim fəaliyyətinə daha maraqla yanaşır, tapşırıqları çox həvəslə yerinə yetirir və onda özünəinam hissi formalaşır.

Psixoloji-pedaqoji tədqiqatlarda yaradıcılıq uşağın idraki fəallığının ən yüksək təzahür formalarından biri kimi qiymətləndirilir. Yaradıcı inkişaf uşağın yalnız intellektual deyil, həm də emosional və sosial inkişafına kompleks təsir göstərir.

Məktəb təliminə hazırlıq dövründə uşaqların yaradıcı fəaliyyəti əsasən oyun, təsviri və bədii fəaliyyət vasitəsilə reallaşır. Bu yaş mərhələsində uşaq hazır nümunəni təkrarlamaqdan daha çox, öz təsəvvürlərinə əsaslanaraq yeni obrazlar yaratmağa çalışır. Bu isə onun şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

"Həyata, gerçəkliyə estetik münasibəti daha dolğun ifadə edən ədəbiyyat və incəsənət böyük idraki təsir qüvvəsinə malik olub, xalq kütlələrini həyatda və məişətdə gözəlliklər yaratmağa və bu yaradıcılıq prosesində hərtərəfli inkişaf edərək gözəl mənəvi-əxlaqi keyfiyyətlərə malik olmağa sövq edir" [10,59 s.].

Pedaqoq S.A. Smirnovun redaktəsi ilə çap edilmiş ali məktəb tələbələri üçün "Pedaqogika"[9,157] dərsliyində o, uşağın məktəbə hazırlanması üçün məktəbəqədər müəssisələrdə inkişafetdirici mühitin yaradılmasına geniş yer vermiş və uşağın inkişaf mühitinin yaradılmasını tələb edir. İnkişaf mühiti kompleksinə aşağıdakıları daxil edir: maddi-texniki şərait, sanitar-gigiyenik şərait, psixoloji-pedaqoji şərait, sanitar-gigiyenik şərait, erqonomik şərait, estetik şərait.

F.Frebel uşaqların estetik tərbiyəsinin inkişafı üçün rəsm, musiqi, yapma, nəğmə, təbiətdə əmək və s. məşğələləri vacib sayırdı. Bu məşğələlər vasitəsilə uşaqda sadəcə estetik deyil, həm də fiziki, əqli, əxlaqi qabiliyyətlər inkişaf etdirilir.

Ümumiyyətlə, estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda estetik hisslərin, zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarıqlarının inkişafını təmin edir. Estetik tərbiyə, həmçinin uşaqlarda təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimində gözəllikləri görmək bacarığını inkişaf etdirir və yaradıcı qabiliyyətlərinin formalaşmasına (musiqi duyumu, təsviri fəaliyyət və s.) şərait yaradır.

Təsviri fəaliyyət məşğələlərində istinad olunan rəsm, yapma, applikasiya məşğələlərinin hər birinin uşaqların bədii-estetik tərbiyəsində müəyyən rolu və əhəmiyyəti vardır. Bu məşğələlərdə kiçik yaşlı uşaqların estetik tərbiyəsini daha səmərəli şəkildə inkişaf etdirmək üçün ayrı-ayrı məşğələ növlərinin bədii estetik mahiyyətinə də xüsusi diqqət yetirilməlidir.

Təsadüfi deyil ki, "Azərbaycan Respublikasının Məktəbəqədər təhsilin proqramında (kurikulumunda)" [1] həmin məsələlərə xüsusi diqqət yetirilmişdir. Hər bir məktəbəqədər təhsil müəssisələrində təsviri incəsənətə maraq və tələbatın inkişaf etdirilməsi öz növbəsində təsviri fəaliyyət məşğələlərində kiçikyaşlı uşaqların estetik tərbiyəsinin imkanlarını artırır. Bu imkanlar nəzəri və praktik istiqamətinə görə diqqəti cəlb edir.

Məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafı müxtəlif fəaliyyət növləri vasitəsilə məqsədyönlü şəkildə təşkil olunur. Bu fəaliyyətlər uşağın yaş xüsusiyyətlərinə, maraq və ehtiyaclarına uyğun olaraq seçilir və inteqrativ xarakter daşıyır.

"...Əgər uşaqlıq illərində adam düzgün estetik istiqamət götürmürsə, əgər bədii zövqü-incəsənəti qavramaq, ayrı-ayrı hallara, həyat hadisələrinə, əşyalara onların estetik keyfiyyətləri baxımından qiymət vermək qabiliyyəti inkişaf etdirilmirsə, bir qayda olaraq bu, mənəvi yoxsulluğa gətirib çıxarır, gözəllik haqqında yanlış, təsadüfi

təsəvvürlərin, pis zövqün yaranmasına səbəb olur” [5, s. 155].

Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşmələri, quraşdırma prosesində müxtəlif modellərin qurulması, hekayə və nağılın, musiqi fəaliyyətində melodiyanın dinlənilməsi, mahnı oxumaq və uşaq musiqi alətlərində ifa, rəqslərin öyrənilməsi məktəbəqədər yaşlı uşaqların estetik zövqünün inkişafına kömək edir.

Təsviri fəaliyyət estetik-yaradıcı inkişafın aparıcı istiqamətlərindən biridir. Rəsm, aplikasiya, kollaj, plastilin və gil ilə modelləşdirmə uşağın estetik qavrayışını, rəng və forma duyumunu, həmçinin xırda motorikasını inkişaf etdirir. Uşaq bu fəaliyyət zamanı öz daxili hiss və düşüncələrini sərbəst şəkildə ifadə edir.

Tanınmış metodist alim N.A. Qoryayeva yazır: “Təsviri incəsənət dərsi – bu, xüsusi bir dərsdir. Bu dərsə verilən tələblər də xüsusi səciyyə daşıyır. Bu dərs incəsənət qanunları əsasında qurulmalıdır. Bu tələbdən də bir sıra xüsusiyyətlər, məna tərzləri meydana çıxır. Təsviri incəsənət dərsləri, hər şeydən əvvəl, mənəvi-estetik tərbiyə vəzifələrini yerinə yetirməlidir”[6, s. 112].

Təsviri fəaliyyət məşğələlərinin estetik-emosional əsaslarda aparılması, öz növbəsində, kiçik yaşlı uşaqların şəxsiyyətinin zən ginləşdirilməsinə zəmin yaradır. Buna görə də müxtəlif vasitələrdən istifadə etməklə uşağın şəxsiyyətinin hərtərəfli inkişafına nail olmaq xüsusilə diqqət mərkəzindədir.

Musiqi fəaliyyəti uşaqlarda ritm hissinin, musiqi zövqünün və emosional həssaslığın formalaşmasına kömək edir. Mahnı oxuma, musiqini dinləmə, ritmik hərəkətlər və sadə musiqi alətlərindən istifadə uşağın estetik təcrübəsini zənginləşdirir.

V.A.Suxomlinski qeyd edir ki, “Musiqi tərbiyəsindən kənarda mükəmməl əqli tərbiyə mümkün deyil” [4, s. 64].

Rəsm məşğələləri uşaqların bədii təfəkkürünün inkişafına güclü təsir göstərir. Diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, bu məşğələlərdə ən zəif uşaq belə “öz sözünü” deməyi bacarır.

Rəsm məşğələlərində uşaqlar mövzuda təsvir olunan obrazların, əşya və hadisələrin əks olunmasına xüsusi fikir verir, bədii təfəkkürün köməyi ilə öz məqsədlərinə nail olurlar. O da məlumdur ki, bədii təfəkkürü kifayət qədər inkişaf etməyən uşaq müəyyən süjeti kompozisiya baxımından əhatəli şəkildə diqqətə çatdıra bilmir.

Rəsm məşğələlərində uşaqların böyük əksəriyyəti yaradıcı fəallıq göstərməyə çalışır, mövzu ilə bağlı hər hansı bir hadisəni, obyekti sadəcə olaraq kağıza köçürmür, öz əlavələri, fantaziyaları ilə yaradıcı şəxsiyyət kimi çıxış edirlər.

Kiçikyaşlı uşaqların estetik tərbiyəsində rəsmlərin rolundan bəhs edərkən mövzuların düzgün seçilməsi üzərində də dayanmaq lazımdır.

Estetik tərbiyə həmçinin, təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimdə gözəlliyi görmək bacarığını və yaradıcı qabiliyyətlərin formalaşmasına imkan yaradır. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafında, insani hisslərin təkmilləşməsində mühüm rol oynayır ki, bunun da təməli erkən yaş dövründə qoyulur [2, s. 54].

Təcrübə və apardığımız müşahidələr göstərir ki, mövzuların rəngarəngliyi, maraqlı olması bu prosesdə əsas rol oynayır. Uşaqların marağına, təsviri fəaliyyət imkanlarına uyğun seçilən mövzular daha mükəmməl şəkildə işlənir, tamamlanır. Təbiət mənzərələrini, ilin fəsillərini əhatə edən mövzular uşaqlar tərəfindən böyük maraqla qarşılanır. Məktəbəqədər təhsil müəssisələrində aparılan təsviri fəaliyyət məşğələlərin-

də uşaqların estetik tərbiyəsi üçün geniş imkanlar yaranır.

Rəsm məşğələləri uşaqlarda dərin duyğular və hisslər oyadır. Məsələn, hər hansısa bir təsvir olunmuş mənzərə özündə təbiətin estetik gözəlliklərini göstərməklə bərabər, həm də müəyyən təbiət hadisələrini də əks etdirir. Bu da uşaqları düşünməyə sövq edir.

Bədii söz və ədəbiyyat estetik-yaradıcı inkişafın mühüm vasitələrindəndir. Nağıl, şeir və hekayələrin dinlənilməsi, onların məzmununun müzakirəsi və səhnələşdirilməsi uşağın təxəyyülünü, nitqini və obrazlı düşünməsini inkişaf etdirir.

Oyun fəaliyyəti, xüsusilə rollu və yaradıcı oyunlar uşağın estetik-yaradıcı potensialının üzə çıxarılmasında xüsusi rol oynayır. Oyun zamanı uşaq müxtəlif sosial rolları mənimsəyir, hadisələri yenidən canlandırır və improvizasiya edir.

Məktəbə hazırlıq dövründə müəllim uşaqların estetik-yaradıcı inkişafının təşkilatçısı və istiqamətləndiricisi kimi çıxış edir. Müəllimin əsas vəzifəsi uşaqlar üçün *yaradıcılıq azadlığına əsaslanan inkişafetdirici mühit* yaratmaqdır.

Müəllim:

– uşaqların yaradıcı təşəbbüslərini dəstəkləməli;
– hazır nümunələrin mexaniki təkrarını tələb etməməli;
– uşağın fəaliyyətinə prosesyönlü qiymətləndirmə tətbiq etməlidir.

Müəllimin pedaqoji mövqeyi uşağın özünə inamının və yaradıcılıq fəallığının formalaşmasında həlledici rol oynayır. Tənqid və müqayisə əvəzinə təşviq və motivasiya üsullarından istifadə edilməsi uşağın estetik-yaradıcı inkişafını daha da gücləndirir.

Təhsilalanlarda öyrənməyə həvəs və maraq oyatmaq, onları motivasiya etmək müasir dövrdə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Başlıca məsələ bunu necə və hansı yollarla və hansı formada təşkil etməkdir ki, bu da müəllimin pedaqoji ustalıq məharətindən çox asılıdır. Görkəmli Ukrayna pedaqoqu V.A. Suxomlinski bu münasibətlə yazır: "Biliklərə həvəs qığılcımı dərsdə oyadılmalıdır: yeniyetmənin qəlbində bu qığılcımla alov yandırmaq müəllimin mədəniyyətindən asılıdır" [3, s. 18].

Estetik-yaradıcı inkişafın səmərəli təşkili üçün müəyyən pedaqoji şərtlərin təmin olunması zəruridir. Pedaqoji şərtlərə aşağıdakılar daxildir:

– estetik baxımdan zəngin və təhlükəsiz mühitin təşkili;
– fəaliyyət növlərinin inteqrasiyası;
– uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması;
– ailə və təhsil müəssisəsi arasında əməkdaşlıq.

Mühüm şərtlərdən biri də estetik-yaradıcı fəaliyyətlərin *sistemli və ardıcıl* şəkildə təşkil olunmasıdır. Bu fəaliyyətlər epizodik deyil, planlı şəkildə həyata keçirildikdə uşağın inkişafına daha güclü təsir göstərir.

Uşaqların estetik və yaradıcı inkişafını təmin etmək üçün aşağıdakı tələblərin gözlənilməsi məqsədəmüvafiqdir:

– yaradıcılığa həvəsləndirən *inkişafetdirici mühitin* yaradılması;
– yaradılan mühitin uşağın sərbəst fəaliyyət göstərməsinə, müxtəlif material və vasitələrdən istifadəsinə imkan verməsi;
– rəqs, musiqi, rəsm, yapma və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi;
– qiymətləndirmə bacarığının yaradılması;
– uşaqların fəal şəkildə öyrənməsi, təsəvvür etməsi və yaradıcılıq fəaliyyəti göstərməsi üçün qrup otağında şəraitin yaradılması;
– yaradıcı düşünməni asanlaşdırmaq üçün tərbiyəçinin uşaqlarla interaktiv fəaliyyətinin yaradılması;
– estetik inkişafın təmin edilməsi üçün ailələrin maarıfləndirilməsi.

Nəticə. Məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafının pedaqoji baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu inkişaf istiqaməti uşağın şəxsiyyət kimi formalaşmasına, emosional, idraki və sosial inkişafına kompleks təsir göstərir. Estetik-yaradıcı fəaliyyətlər uşağın estetik zövqünün, təxəyyülünün, yaradıcılıq qabiliyyətlərinin və özünüifadə imkanlarının formalaşmasına şərait yaradır.

Məktəb təliminə hazırlıq dövründə estetik-yaradıcı inkişafın səmərəli təşkili üçün təsviri fəaliyyət, musiqi, bədii söz və oyun fəaliyyəti əsas vasitələr hesab olunur. Bu fəaliyyətlərin inteqrasiyalı və sistemli şəkildə təşkili uşağın məktəb təliminə psixoloji hazırlığını əhəmiyyətli dərəcədə artırır.

Müəllimin estetik-yaradıcı inkişaf prosesində rolu xüsusi əhəmiyyət kəsb edir. Müəllimin yaradıcı mühit yaratması, uşağın təşəbbüs göstərməsini dəstəkləməsi və fərdi yanaşma tətbiq etməsi bu prosesin effektivliyini təmin edən əsas pedaqoji şərtlərdəndir.

Beləliklə, məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafının düzgün təşkili onların məktəb mühitinə uyğunlaşmasını asanlaşdırır və gələcək təlim fəaliyyətində uğur qazanmalarına zəmin yaradır.

Problemin aktuallığı. Müasir təhsil sistemində məktəbə hazırlıq dövrü uşağın yalnız intellektual deyil, eyni zamanda estetik və yaradıcı potensialının inkişafı baxımından həlledici mərhələ hesab olunur. Estetik-yaradıcı inkişaf uşağın emosional dünyasının zənginləşməsinə, təxəyyülünün, fantaziyasının və bədii zövqünün formalaşmasına şərait yaradır. Bu baxımdan mövzunun tədqiqi pedaqoji nəzəriyyə və praktikada aktualdır.

Problemin elmi yeniliyi. Məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafının məqsədyönlü təşkili onların gələcək təlim fəaliyyətində uğurlu adaptasiyasına, yaradıcı və estetik cəhətdən inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Bu baxımdan estetik-yaradıcı inkişaf məktəbəqədər təhsil sisteminin prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

Problemin praktik əhəmiyyəti. Problemin məzmunundan, orada yer alan fikirlərdən pedaqoji ali məktəblərin tələbələri, habelə məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

Ədəbiyyat

1. Azərbaycan respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). –Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, –2014. – 96 s.
2. Həsənov, A. Məktəbəqədər pedaqogika / A. Həsənov. –Bakı: Nasir, –2000. – 374s.
3. İlyasov İ.İ. Müəllim səriştəliliyi şagird şəxsiyyətinin inkişaf etdirilməsinin mühüm amili kimi // – Bakı: Təhsil İnstitutunun Elmi Əsərləri, –2024. №2, –s.16-19.
4. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. –Bakı: –1979. –64 s.
5. Salahov T.T. Dünyagörünüşün və estetik baxışların formalaşmasında təsviri incəsənətin rolu. Sovet mədəniyyəti və əmək adamının mənəvi aləmi (məqalələr məcmuəsi) –Bakı: Azərnəşr, –1982. –315 s.
6. Горяева, Н.А. Первые шаги в мире искусства / Н.А. Горяева. –М.: Просвещение, –1991. –159 с.
7. Лихачев, Б.Т. Педагогика. Курс лекций: Учебное пособие для студентов педагогических учебных заведений и слушателей ИПК и ФПК. / Б.Т. Лихачев. – М.: Прометей, Юрайт, – 1998. – 464 с.

8. Смоляр А.И., Барынкин П.П., Юрикова В.П., Слесарева Т.С. Творчество: Программа художественно-эстетического воспитания и развития детей в детском саду. – Самара: Издательство СамГПУ, –1998. –92 с.
9. Смирнова, С.А. Педагогика / С.А. Смирнова. –М.: Академия. –2001, –157с.
10. Кузнецова, Л.В. Гармоническое развитие личности младшего школьника. Книга для учителя / Л.В. Кузнецова. –М.: Просвещение, –1988. –224 с.

Redaksiyaya daxil olub: 11.03.2026

İBTİDAİ TƏHSİLİN PEDAQOGİKASI VƏ METODİKASI
PEDAGOGY AND METHODS OF PRIMARY EDUCATION
ПЕДАГОГИКА И МЕТОДИКА НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ

UOT 373.3

Məhbubə Ərziman qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
elmlər doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0009-0009-4916-4982
E-mail: pedagogmm57@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).142-146

MÜASİR PEDAQOJİ İDEYALARA ƏSASƏN İBTİDAİ TƏHSİL PROSESİNİN TƏŞKİLİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Mahbuba Arziman Mammadova
Doctoral Candidate (Doctor of Sciences program) in the specialty of
Azerbaijan State Pedagogical University

ORGANIZATION AND DEVELOPMENT DIRECTIONS OF THE PRIMARY EDUCATION PROCESS BASED ON MODERN PEDAGOGICAL IDEAS

Махбуба Арзиман гызы Мамедова
диссертант по программе доктора наук
Азербайджанского Государственного Педагогического Университета

ОРГАНИЗАЦИЯ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРОЦЕССА НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ НА ОСНОВЕ СОВРЕМЕННЫХ ПЕДАГОГИЧЕСКИХ ИДЕЙ

Xülasə. Müasir pedaqoji ideyalara əsasən ibtidai təhsilin təşkili şagirdyönlü, fəal və fərdi yanaşmaya əsası olmalıdır. Bu yanaşmalar təlimin yalnız bilik ötürülməsi ilə məhdudlaşmamasını, şagirdlərin idrak fəallığının, məntiqi təfəkküründün və sosial bacarıqlarının inkişafını təmin edir. Müasir pedaqoji nəzəriyyələrə görə, təlim prosesi şagirdlərin yaş xüsusiyyətlərinə uyğun qurulmalı, onların şəxsi təcrübəsi və maraqları nəzərə alınmalıdır. İnteraktiv metodların və əməkdaşlıq mühitinin tətbiqi şagirdlərin öyrənməyə motivasiyasını artırır və onların müstəqil düşünmə qabiliyyətini inkişaf etdirir. Müasir ibtidai təhsil prosesinin əsas məqsədi hərtərəfli inkişaf etmiş, yaradıcı və fəal şəxsiyyətin formalaşdırılmasına yönəlmişdir.

Açar söz*: şagirdyönlü yanaşma, fəal öyrənmə, fərdi yanaşma, idrak inkişafı, məntiqi təfəkkür, əməkdaşlıq, motivasiya*

Abstract. The organization of the primary education process based on modern pedagogical ideas relies on a student-centered, active, and individualized approach. These approaches ensure that teaching is not limited to the transmission of

knowledge, but also promotes the development of students' cognitive activity, logical thinking, and social skills. According to modern pedagogical theories, the learning process should be structured in accordance with students' age characteristics, as well as their personal experiences and interests. The use of interactive methods and the creation of a collaborative environment increase students' motivation to learn and foster their independent thinking. The main goal of modern primary education is to develop a well-rounded, creative, and active personality.

Keywords: *student-centered approach, active learning, individual approach, cognitive development, logical thinking, collaboration, motivation*

Аннотация. Организация процесса начального образования на основе современных педагогических идей опирается на ученико-ориентированный, активный и индивидуальный подход. Эти подходы обеспечивают то, что обучение не ограничивается только передачей знаний, а способствует развитию познавательной активности учащихся, их логического мышления и социальных навыков. Согласно современным педагогическим теориям, учебный процесс должен строиться с учетом возрастных особенностей учащихся, их личного опыта и интересов. Применение интерактивных методов и создание среды сотрудничества повышают мотивацию учащихся к обучению и развивают их самостоятельное мышление. Основной целью современного начального образования является формирование всесторонне развитой, творческой и активной личности.

Ключевые слова: *ученико-ориентированный подход, активное обучение, индивидуальный подход, когнитивное развитие, логическое мышление, сотрудничество, мотивация*

Tərbiyə təcrübəsi öz kökləri ilə insan sivilizasiyasının dərin qatlarına qədər gedib çıxır . Deyə bilərik ki, insan cəmiyyəti ilə eyni zamanda meydana çıxmışdır. O dövrlərdə uşaqlar heç bir pedaqoji yanaşma olmadan tərbiyə edilib, sistemli şəkildə mövcudluğu barədə belə düşünülmürdü. Ümumilikdə tərbiyə yaşlı nəslin əldə etdiyi bilik, bacarıq və vərdişləri özündən sonrakı nəslə ötürməsi prosesidir. Tərbiyə haqqında nəzəri bilik isə, demək olar ki, fəlsəfə, astronomiya, həndəsə və digər elmlər formalaşdıqdan sonra yaranmışdır. İnsan tərbiyəsinin sistemləşdirilməsi, dəyərlərin şagirdlərə ötürülməsi prosesi özündə dini dəyərləri də əks etdirir.

Tarixi araşdırmalar göstərir ki, bütün elm sahələrinin yaranmasının əsas səbəbi həyatın tələbləri ilə bağlıdır və cəmiyyətin sürətli və ya ləng inkişafı böyüyən nəslin tərbiyəsinin necə qurulmasından asılı olmuşdur.

İbtidai təhsil pedaqogikası baxımından bu yanaşma xüsusilə əhəmiyyətlidir, çünki uşaqların ilkin bilik və davranış vərdişləri bu mərhələdə formalaşır. Tarixi təcrübə göstərir ki, erkən yaş dövründə sistemli təlim və tərbiyə metodlarının tətbiqi cəmiyyətin gələcək inkişafını təmin edən əsas amillərdən biridir. Beləliklə, ibtidai təhsil pedaqogikasının tarixi yalnız elmin formalaşması ilə deyil, həm də cəmiyyətin sosial və mədəni tələblərinə uyğun olaraq uşaqların inkişafını təmin etməklə bağlıdır.

Çin, Hindistan, Misir və Yunanıstanda tərbiyə təcrübəsinin ümumiləşdirilməsi və nəzəri əsaslarının yaradılması sahəsində ciddi cəhdlər müşahidə olunmuşdur. O dövrdə təbiət, insan və cəmiyyət haqqında biliklər əsasən fəlsəfədə cəmləşmiş və burada ilk pedaqoji ümumiləşdirmələr aparılmışdır. Avropa tərbiyə sisteminin beşiyi qədim Yunan fəlsəfəsi hesab olunur. Bu sahədə dahi nümayəndələrdən biri

olan Demokrit (b.e.ə 460-370) uşaqların tərbiyəsi haqqında kitab tərtib etmiş, insanın tərbiyəsi və şəxsiyyətin formalaşması məsələlərini digər Yunan mütəfəkkirləri – Sokrat, Platon və Aristotel – fəlsəfi əsərlərində inkişaf etdirmişlər. Beləliklə, pedaqogika uzun müddət fəlsəfənin bir hissəsi olmuşdur və yalnız XVII əsrdə müstəqil elm kimi formalaşmağa başlamışdır.

Prof. Fərrux Rüstəmov pedaqogikanın tarixini təhlil etdikdə bu prosesdə çex pedaqoqu Y.A.Komenskinin (1592-1670) ideyalarına əsaslı yer vermişdir. Komenski, xüsusilə ibtidai təhsildə əyanilik, təbiətə uyğunluq prinsipləri və sinif-dərs sistemini tətbiq etməyi təklif edərək pedaqoji nəzəriyyənin əsaslarını yaratmışdır. O, müəllimlərə dərsi uşaqların yaş xüsusiyyətlərinə uyğun qurmağı tövsiyə edir və yazır: "Uşaqların təhsili onların təbiətinə uyğun aparılmalıdır ki, bilik və əxlaq birgə inkişaf etsin."

İngilis filosofu və pedaqoqu Con Lokk (1632-1704) tərbiyə nəzəriyyəsinə xüsusi diqqət yetirmiş və "Tərbiyə haqqında düşüncələr" əsərində insanın əxlaqi və intellektual inkişafının vacibliyini vurğulamışdır. Lokk bildirir ki, uşaqların təlimi onların təcrübəsinə əsaslanmalı, öyrənmə prosesində aktiv iştirakları təmin edilməlidir.

Xülasə. Məqalədə "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələr arasında tədqiqat bacarıqlarının inkişafında universitet müəllimlərinin nəzəri və metodoloji hazırlığının əhəmiyyəti nümayiş etdirilir. Müstəqil işin düzgün strukturlaşdırılmasının, eləcə də mərhələli tapşırıqlar sisteminin elmi düşüncəni və idrak müstəqilliyini necə inkişaf etdirdiyi nümayiş etdirilir. Təşkilati-texniki, reproduktiv, reproduktiv-tədqiqat və tədqiqatyönlü tapşırıqların hamısının bu prosesə

əhəmiyyətli dərəcədə töhfə verdiyi vurğulanır. Bundan əlavə, məqalədə tələbələrin şəxsi və motivasiya hazırlığının vacibliyi vurğulanır, tədqiqat bacarıqlarının tədricən təhsilin birinci ilindən başlayaraq inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılır və ali pedaqoji müəssisələrdə müasir təhsil mühitinin və informasiya texnologiyalarının bu prosesə necə əhəmiyyətli dərəcədə töhfə verdiyi vurğulanır.

Açar sözlər: *ibtidai sinif müəllimi, tədqiqatçılıq bacarığı, müəllimlərin nəzəri hazırlığı, müəllimlərin metodik hazırlığı, müstəqil iş*

Аннотация. В статье обосновывается роль теоретической и методической подготовки преподавателя высшей школы в формировании исследовательских умений у студентов, обучающихся по специальности «Учитель начальных классов». Показано, что правильная организация самостоятельной работы и система поэтапных заданий способствуют развитию научного мышления и познавательной самостоятельности. Подчеркивается, что организационно-технические, репродуктивные, репродуктивно-исследовательские и исследовательские задания служат эффективным средством данного процесса. Наряду с этим в статье раскрывается значение личностной и мотивационной готовности студентов, обосновывается необходимость поэтапного развития исследовательских умений начиная с первого курса, а также отмечается, что современная образовательная среда и информационные технологии в высших педагогических учебных заведениях способствуют активизации данного процесса.

Ключевые слова: *учитель начальных классов, исследовательские умения, теоретическая подготовка учителей, методическая подготовка учителей, самостоятельная работа*

Theoretical and methodological teacher training is critical for students' educational advancement and the development of pedagogical professional skills, including research abilities. Determining the purpose of the study, developing a hypothesis, working with various scientific sources, structuring the study, implementing it step by step, summarising and analysing the results all require students to have a strong research culture, which can only be instilled in them by their professors. During our observations, we discovered that the dynamics of the growth of students' research skills are influenced by the teacher's methodological control over this activity.

Excessive teacher care is free of autonomous work. The teacher's role in this process, as well as clarification, are required to independently control autonomous work. The teacher efficiently controls his unique responsibilities. At the start of autonomous labour, "the guiding principles of activity or action" [5, p.164] are established. Another significant aspect of organising students' autonomous work is the teacher's creation of exercises and tasks.

Russian and Azerbaijani scientists have various classifications for educational or pedagogical work. The division can be summarised as follows: 1) Organizational-technical; 2) reproductive; 3) reproductive-research; and 4) research.

When completing organizational-technical tasks, students become acquainted with the technologies, methods, and organisational elements of independent cognitive activity; when conducting reproductive tasks, they learn the ability to solve issues independently using a certain algorithm. When performing reproductive-research projects, students learn to build an action plan for solving specific educational difficulties on their own, to take the

initiative to look out solutions based on their personal knowledge and experience, and to gain new knowledge and skills using proven methodologies.

Students completing research-based activities develop their own answers, summarise the findings, and make the necessary changes. As a result, they conduct research with remarkable efficiency. Students can strengthen their research skills by conducting various forms of research and projects independently [8, p 79]. Research and tasks given for independent work should be logically connected, and each subsequent task should be solved utilising the knowledge and abilities gained from previous projects. The assignments designed should assist students in developing their cognitive activity and independence, as well as forming long-term knowledge and professional abilities. Professor Yusif Talibov is in charge of developing educational tasks and difficulties for Azerbaijani pedagogical science, as well as publishing them in book form. In 1971, he released the first edition of "Issues and Questions from Pedagogy" through the Azerbaijan State Pedagogical University's publishing house. Because pedagogy was a practical subject in pedagogical specialities at the time, this book remained a significant resource for many years. In future years, F. Mammadov [2; 3] and F. Rustamov [6] began compiling pedagogical duties.

1. Students' personal and motivational preparation for research tasks. When we talk about a student's personal and motivational preparedness to conduct research, we imply his comprehension of the importance of learning research skills, his psychological ready for the process, and active cognitive engagement in this area. Thus, students' personal and motivational preparation to engage in scientific and research activities includes the development of the motivation and personal traits essential to assist them complete scientific and research assignments. This could include improved interest in the subject, self-confidence, self-control, and critical thinking abilities. The development of intrinsic motivation is a key aspect of research work. This can be accomplished by including students in educational and scientific projects while allowing them to work autonomously and experience the results of their efforts. Developing pupils' resilience, creativity, and self-expression skills is critical for improving their research abilities. These abilities assist students in over-coming the problems that arise during the research process. Working with scientific literature and original sources teaches students practical skills including hypothesis generation, method selection, and comparison.

2. The student's volume of independent work develops dramatically; he writes and defends course work in several topics (for example, pedagogy in the speciality of primary school teacher, mathematics teaching technology, and Azerbaijani language teaching technology). This process is done out during the third academic year or the first semester of the fourth academic year.4) In addition to doing educational research, students have the option to participate in scientific research during their instructional practice. During this time, students were also given the opportunity to finish their thesis in four weeks (9 credits), discuss it with the faculty, and submit it for defence. Since thesis work has been cancelled, this term is designed for students to write and submit a report on pedagogical practice.

Students who have developed strong research abilities during four years of independent work in and out

of the classroom excel at this stage [10, p. 948]. As a result, students' personal and motivational preparation is a complex process that includes both internal and external aspects that contribute to their scientific success. As a result, students should engage in independent work beginning in the first academic year and develop teaching and research abilities. This cannot be done solely during the training process. Higher pedagogical educational institutions should establish an educational atmosphere and infrastructure that promotes the development of students' research skills [9, p. 36].

3. Establishment of an educational environment and infrastructure that promotes the development of research skills among students in higher pedagogical institutions. In the broadest sense, the concept of environment is typically defined as “a set of these or other conditions and influences surrounding a person” [1]. The environment defines the space and conditions for human life. Researchers define the environment around them in a variety of ways.

The educational environment (subject-spatial environment) plays a significant role in the development of research skills in students' independent work because numerous features of that environment influence the formation of these skills. The subject-spatial environment describes not the quantity of rooms, furniture, electronic boards, or computers, but how they operate in the educational setting. A specifically designed subject-spatial environment that encourages students to develop research skills should include a modern laboratory base, modern scientific and periodical scientific literature, the most recent textbooks in the speciality, modern information technologies, software, and methodological support.

In recent years, the increased number of computer classes has had a considerable impact on the training of high-quality teaching staff. The rise of worldwide computer networks has resulted in a fundamentally different scenario in information management. Computers, telecommunications, and the Internet enable students to increase their cognitive activity, provide additional motivation for studying, and personalise teaching. Students' individual activity nowadays is organised around the building of a flexible framework that allows them to acquire knowledge.

Using Internet search engines necessitates a high level of knowledge and abilities in the areas of seeking, structuring, and storing information. For this reason, D.F. Wettman stated many years ago that "students should develop the ability to obtain information from various sources, process it, store it, and frequently update it using modern computer technologies" [7, p. 27].

Some topics for individual work can be researched using computer training tools. V.I. Zagvyazinsky, noticing the high level of lectures and seminars offered by teachers utilising computer technology, remarked that "the use of computer technology during colloquiums and exams eliminates subjectivity and also saves time" [4, p.121]. Both the teacher and the student learn the exam results quickly.

Students in such an educational atmosphere are highly motivated to master their future speciality, perform educational research, and increase their degree of cognitive activity and cognitive independence. The teacher, by skilfully managing students' independent work, pays constant attention to their research skill development, converts first-year students' interest in teaching and scientific research into a long-term

professional interest, and assists them in developing research skills by developing internal motivation. Future primary school teachers study the subject "Technology of Research in Pedagogical Sciences" in conjunction with the subject "Pedagogy" in the second academic year, as well as the essence, purpose, tasks, and stages of pedagogical research (empirical, hypothetical, theoretical, prognostic), and become acquainted with fundamental, applied, and operational aspects. Students begin to engage in more creative work in the second academic year, as they become acquainted with the theoretical basis of scientific inquiry.

In such an educational environment, students in the third and fourth academic years can easily realise their potential, demonstrate practical skills, use various pedagogical technologies to teach elective subjects, conduct proper design and forecasting, and are fully prepared for an independent work process. The establishment of such an educational environment ensures that future primary school teachers receive adequate theoretical and methodological preparation, promotes their scientific and research activities, and as a result, research abilities are developed in them.

Let us accept that knowledge in pedagogical-psychological and specialised sectors is fast evolving year after year. It is currently extremely difficult to teach future teachers this subject in three years and six months (the second semester of the fourth academic year is dedicated to pedagogical practice).Educational institutions in Europe propose not only extending the term of higher pedagogical education, but also decreasing it to three years. The pedagogical community is confronted with a quandary: how much of the new content, which is continually developing, should be given to future teachers in a meaningful manner without lengthening education?

Let us confess that, in modern times, the content of higher pedagogical education lags behind the needs of the information society. Students graduate from higher pedagogical educational institutions without a thorough understanding of the most recent advances in pedagogical and psychological science, as well as a complete mastery of their speciality material. Teaching future teachers to learn independently, select, and use the materials required for high-quality teaching is an important strategy to improve pedagogical effectiveness.

As a result, individual work serves as the foundation for future primary school teachers' training programs. There are several techniques to developing research skills.

There are two strategies to engage students in scientific research:

1) scientific research conducted through lectures, seminars, and pedagogical practice;

2) Scientific work outside of the classroom.

In the first example, the student's scientific research effort is viewed as an important component of the teaching process. This form of scientific inquiry is known as student educational research activity. This covers individual study, abstracts, coursework, graduation projects, and so on.

The second method for engaging future teachers in scientific research at higher pedagogical schools is to organise extracurricular scientific re-search. In scientific and educational literature, this type of scientific

innovation is known as student scientific research work.

Student scientific research at the Azerbaijan State Pedagogical University's Faculty of Primary Education is governed by the Student Scientific Society Regulations, which are a public legal entity.

The conference program has been published and circulated. The dean of the faculty, department heads, chairman of the Scientific and Technical Committee, scientific supervisors, and students all attend the meeting, which lasts about 1-2 days. Such conferences are held in the Faculty of Primary Education in May and April. The scientific and research works of the conference winners are selected and delivered to the head of the University Scientific and Technical Committee. Conferences dedicated to student-scientific research at the university are usually held on the eve of the Great Leader Heydar Aliyev's birthday, which is in early May. Students who perform well at the university conference receive a one-month scholarship and honours certificates. Although the republic hosts an annual conference for young doctorate students and researchers, no student conferences are organised. However, from 1973 to 1988, the Ministry of Education, the Ministry of Higher and Secondary Specialised Education, and the republican LKGI organised republican conferences of students, and the winners were granted diplomas of I-II-III degrees as well as the medal "For the best scientific work".These certificates and medals were considered when enrolling in postgraduate programs and assigning students (particularly those going to scientific research centers).This provided an excellent incentive for students to participate in scientific study. Students' achievements in public and scientific research activities throughout their student years (diplomas, honorary orders, etc.) are not considered while enrolling in the same speciality, whether for master's or doctorate studies. Despite this, due to the passion of university teachers, a portion of future teachers participate in scientific research. When students participate in scientific research, they must adhere to certain principles. Thus, the participation of all pupils should be prioritised. Scientific research should not only help to consistently involve particularly gifted and capable students in scientific research, but should also assist all students in participating in the creative process in some way.

As a result, prospective primary school teachers must have a comprehensive set of professional competences, with scientific-research skills ranking high alongside strong topic knowledge. Future primary school teachers must be able to conduct pedagogical research to investigate the pedagogical-psychological and physiological characteristics of young schoolchildren, assess the efficacy of teaching methods and pedagogical technologies, and take an innovative approach to teaching and upbringing. The Student Scientific Society (SSC) is regarded as one of the most successful methods for building research abilities in future primary school teachers. SSC is a student-led organization that promotes scientific research and professional growth. SSC's activities include.

Participation allows future primary school teachers to not only learn the essential research skills, but also put them to the test in real-world teaching situations and present the findings of their study at various levels of conferences (faculty, institute, and republic). In addition to scientific conferences, TEC students excel at contests and olympiads, as

well as publishing articles in scientific collections and journals.

Conclusion

Finally, kids' individual work and creative activities assist future primary school teachers in developing a variety of talents, including academic, social-emotional, and cognitive skills. At the same time, it encourages the development of critical thinking and analytical skills in future primary school teachers, as well as the ability to learn independently, hypothesise, diagnose, anticipate, carry out project work, communicate, and present scientific discoveries. These skills are essential for future professional teaching professions.

Scientific novelty. The article presents a systematic approach to developing the research skills of future primary school teachers based on the interaction of independent work, motivational preparation, and the educational environment.

Relevance. In the context of the information society and the rapid development of pedagogical knowledge, the development of research skills among future teachers has become one of the most important and relevant issues of higher pedagogical education.

Practical significance. The approaches proposed in the article can be practically applied in higher pedagogical institutions for organizing students' independent and scientific research activities and for developing the professional competencies of future teachers.

References

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. https://president.az/az/articles/view/9779
2. Məmmədov, F. Pedaqogika: Nəzəri və əyləncəli pedaqogika. I hissə / F. Məmmədov, N. İmamverdiyeva, İ. Şıxəliyeva. – Bakı: Sabah, – 2015. – 935 s.
3. Məmmədov, F. Pedaqogika: Nəzəri və əyləncəli pedaqogika. II hissə / F. Məmmədov, N. İmamverdiyeva, İ. Şıxəliyeva. – Bakı: Sabah, – 2015. – 787 s.
4. Загвязинский, В.И. Теория обучения: Современная интерпретация / В.И. Загвязинский –М.: Академия, 2001. –188 с.
5. Коликова, В.М. Методика формирования у студентов Вузов исследовательских умений в процессе физического лабораторного практикума: / Дисс. … канд. пед. наук. / –Л., 1986. –194 с.
6. Rustamov F. Karimova F. Rustamova S. Pedagogy. A textbook for students studyinng in English. –Bakı: Elm və təhsil, –2022. –388 p.
7. Wetdman J.F. Increasing the use of instructional media in the schools //Educational technology. –1988,- Vol. 28,- № 10, –P. 26-31
8. Məmmədova G.M.Gələcək ibtidai sinif müəllimlərinin tədqiqat bacarıqlarının formalaşdırılmasının əhəmiyyəti // Elmi əsərlər, № 2 –2024. –79-83 s.
9. Mammadova G.M. Prospects for the development of students scientific research skills in higher education institutions of Azerbaijan” // Slovak international scientific journal №93, Partizanska, 1248/2 Bratislava, Slovakia, –2025. –36-42 s
10. Mammadova G.M. The Current State Of Preparıng Future Prımary School Teachers For Research Actıvıtıes Taras Shevchenko 11th Internatıonal Congress On Scıentıfıc Research, Uzhhorod, Ukraine // Uzhhorod National University, –2025. –948-951 p.
11. Pitsoe, V., Maila, W., Towards Constructivist Teacher Professional Development. //Journal of Social Sciences, –2012. - vol. 8, № 3, –p.67-89

Redaksiyaya daxil olub: 16.03.2026

UOT 378: 001.891

Lalə Arif qızı Əbilova
Azərbaycan Dillər Universitetinin
Pedaqogika və psixologiya kafedrasının müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-3967-168X
E-mail: abilzade.guler@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).163-167

AİLƏ-MƏKTƏB ƏMƏKDAŞLIĞININ MÜASİR MODELİ

Lala Arif Abilova
teacher of the department of Pedagogy and Psychology
of Azerbaijan University of Languages, doctor of philosophy in pedagogy

A MODERN MODEL OF FAMILY-SCHOOL COOPERATION

Лала Ариф гызы Абилова
преподаватель кафедры Педагогики и психологии
Азербайджанского Университет Языков, доктор философии по педагогике

СОВРЕМЕННАЯ МОДЕЛЬ СОТРУДНИЧЕСТВА СЕМЬИ И ШКОЛЫ

Xülasə. Müasir dövrdə gənc ailələrin dünyagörüşünün və sosial dəyərlərə münasibətinin dəyişməsinin ibtidai sinif şagirdlərinin tərbiyəsində müəyyən çətinliklərin yaranmasına səbəb olur. Bütün bunlara səbəb isə hazırda cəmiyyətdə baş verən sosial və mədəni dəyişikliklərin ailə institutunun tərbiyəvi roluna birbaşa təsir göstərməsidir. Xüsusilə gənc ailələrin dünyagörüşünün və cəmiyyətə baxış tərzinin dəyişməsi uşaqların tərbiyə prosesində yeni problemlərin yaranmasına səbəb olur. Bu dəyişikliklər bəzi hallarda ibtidai sinif şagirdlərinin davranışına, mənəvi dəyərlərə münasibətinə və sosial adaptasiyasına mənfi təsir göstərir. Məqalədə müasir təhsil sistemində ailə - məktəb əməkdaşlığının rolu və əhəmiyyəti təhlil olunur. Xüsusilə ibtidai təhsil mərhələsində ailə və məktəb arasında qurulan qarşılıqlı münasibətlər şagirdlərin təlim nailiyyətlərinə, sosial davranışlarının formalaşmasına və şəxsiyyət kimi inkişafına mühüm təsir göstərir. Məqalədə ailə - məktəb əməkdaşlığının pedaqoji mahiyyəti açıqlanmış, müasir modellərin əsas xüsusiyyətləri sistemləşdirilmiş və onların təhsil prosesinə verdiyi töhfələr elmi baxımdan əsaslandırılmışdır.
***Açar sözlər*:** A*ilə - məktəb əməkdaşlığı, ibtidai təhsil, müasir təhsil modelləri, valideyn-müəllim əməkdaşlığı, şagirdlərin inkişafı, şəxsiyyət, müasir təhsil modelləri, sosial davranış*

Abstract. In modern times, the change in the worldview and attitude of young families to social values causes certain difficulties in the upbringing of primary school students. The reason for all this is that the social and cultural changes currently taking place in society directly affect the educational role of the family institution.The change in the worldview and the way of looking at society, especially among young families, leads to the emergence of new problems in the process of raising children. These changes in some cases negatively affect the behavior, attitude to moral values,

and social adaptation of primary school students. The article analyzes the role and importance of family-school cooperation in the modern education system. The mutual relations established between family and school, especially at the primary education stage, have a significant impact on students' academic achievements, the formation of their social behavior, and their development as individuals. The article explains the pedagogical essence of family-school cooperation, systematizes the main features of modern models, and scientifically substantiates their contributions to the educational process.

***Keywords*:** *Family-school cooperation, primary education, modern educational models, parent-teacher cooperation, student development, personality, modern educational models, social behavior*

Аннотация. В современную эпоху изменение мировоззрения и отношения молодых семей к социальным ценностям создает определенные трудности в воспитании учеников начальных классов. Причина всего этого заключается в том, что происходящие в обществе социальные и культурные изменения напрямую влияют на воспитательную роль института семьи. Изменение мировоззрения и социальных взглядов, особенно у молодых семей, создает новые проблемы в процессе воспитания детей. Эти изменения порой негативно сказываются на поведении, отношении к моральным ценностям и социальной адаптации учеников начальных классов. В статье анализируется роль и значение сотрудничества семьи и школы в современной системе образования. Взаимоотношения, устанавливающиеся между семьей и школой, особенно на этапе начального образования, оказывают существенное влияние на успеваемость учащихся, формирование их социального поведения и развитие как личностей. В статье разъясняется педагогическая сущность сотрудничества семьи и школы, систематизируются основные особенности современных моделей и научно обосновывается их вклад в образовательный процесс.

Ключевые слова: *сотрудничество семьи и школы, начальное образование, современные образовательные модели, сотрудничество родителей и учителей, развитие ученика, личность, современные образовательные модели, социальное поведение*

Giriş

Müasir cəmiyyətin sürətlə dəyişən sosial-mədəni şəraiti ailənin tərbiyəvi funksiyalarına yeni məzmun gətirmişdir. Bir çox hallarda valideynlərin pedaqoji biliklərinin kifayət qədər olmaması, ailədaxili ünsiyyətin azalması və məktəblə qarşılıqlı əlaqənin sistemli şəkildə təşkil edilməməsi ibtidai sinif şagirdlərinin təlim nəticələrinə və sosial inkişafına mənfi təsir göstərir.

Müasir dövrdə cəmiyyətin sosial, mədəni və texnoloji inkişafı ailə institutunun qarşısında yeni və daha mürəkkəb tərbiyəvi vəzifələr qoyur. Qloballaşma, informasiya bolluğu, rəqəmsal texnologiyaların gündəlik həyata sürətli inteqrasiyası kiçik yaşlı məktəblilərin tərbiyəsinə birbaşa təsir göstərir. Bu şəraitdə uşaqların şəxsiyyətinin sağlam formalaşması, milli-mənəvi dəyərlərə sadiq, sosial cəhətdən fəal fərd kimi yetişdirilməsi ailənin tərbiyə prosesində rolunun daha dərindən araşdırılmasını zəruri edir. Çünki bu gün ailədaxili münasibətlərdə baş verən konfliktlər, boşanma halları, eləcə də milli-mənəvi dəyərlərin get-gedə itirilməsi cəmiyyət üçün həyəcan siqnalı verməkdədir.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020 - 2023-cü illər üçün Milli Fəaliyyət Planı”nda [11] ailə dəyərləri, reproduktiv sağlamlıq və ailə planlaşdırılması ilə bağlı mövzuların ümumi təhsil üzrə müvafiq dərsliklərə

daxil edilməsi əks olunub. Əsas məqsəd ölkədə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ailələrin möhkəmləndirilməsi naminə onların vaxtında və hərtərəfli yardımla təmin edilməsi, məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılmasından ibarət olan sənədin icrası təhsil və səhiyyə nazirliklərinə tapşırılıb.

Müasir dövrdə gənc ailələrin dünyagörüşünün, cəmiyyətə baxış tərzinin dəyişməsi onun yeni prizmadan tədqiq olunmasını zəruri hesab edir. Bu da aydındır ki, bu günün ailəsi artıq 10-20 il bundan əvvəlki ailələrdən fərqlənir. Cəmiyyətdə günü-gündən baş verən dəyişikliklər, cəmiyyətin mikrohissəsi olan ailənin münasibətlər sistemində ortaya çıxan sosial sifarişlərini dəyişdirir.

Müasir təhsil sistemində ibtidai təhsil mərhələsi kiçikyaşlı məktəblinin şəxsiyyətinin əsas xüsusiyyətlərinin formalaşdığı mühüm inkişaf dövrü kimi xarakterizə olunur. Bu mərhələdə şagirdlərin təlimə münasibəti, idraki fəallığı, sosial davranışları və emosional sabitliyi ailədə formalaşmış ilkin tərbiyə təcrübəsi ilə sıx bağlıdır. Ailə uşağın məktəb mühitinə uyğunlaşmasında və təlim fəaliyyətinin səmərəliliyinin təmin olunmasında həlledici rol oynayır. Müasir dövrdə təhsil yalnız məktəbdə baş verən proseslərlə məhdudlaşmır, ailə mühiti ilə sıx qarşılıqlı əlaqədə formalaşır. Ailə uşağın ilk sosial mühiti olmaqla onun dünyagörüşünün, davranış normalarının və dəyərlərinin formalaşmasında əsas rol oynayır. Məktəb isə bu ilkin tərbiyəvi təsiri sistemləşdirərək elmi biliklər və sosial bacarıqlarla zənginləşdirir.

Ümumiyyətlə, ailə – məktəb əməkdaşlığının müasir modeli demokratikliyi, humanistliyi və - müasirliyi ilə diqqəti cəlb edir.

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda uşaqlara münasibətdə ailə və mək-təbin qarşısına aşağıdakı vəzifələr qoyulur:

– uşaqların fiziki və psixi sağlamlığının qayğısına qalmaq;

– uşaqların fitri istedadlarının və təbii imkanlarının inkişafını təmin etmək;

– uşaqların şəxsiyyətinə hörmət etmək;

– uşaqlara Vətənə, dilinə, tarixinə, xalqına, soykökünə, ümumbəşəri dəyərlərə və insan hüquqlarına hörmət hissi aşılamaq [2].

İbtidai sinifdə müəllim və valideynlərin əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Çünki bu mərhələdə uşaq hələ də ailəsi ilə çox sıx bağlı olur. Bu dövrdə uşaq öz davranışına nəzarət etməkdə çətinlik çəkir.

Müəllim və valideynlərin əməkdaşlığı zamanı, əsasən, son illərə kimi ənənəvi formalarından istifadə olunurdu. Hazırda isə ənənəvi iş formaları ilə yanaşı, həm də qeyri-ənənəvi iş formaları həyata keçirilir. Qeyri-ənənəvi formalar, dedikdə, yeni modellər (onlayn məsləhətləşmələr, onlayn müzakirələr, onlayn sinif iclaslarının keçirilməsi və s.) nəzərdə tutulur. Valideynlər onlayn şəkildə övladlarının təhsil aldığı məktəbdə təlim-tərbiyə prosesinin təşkili ilə tanış olur, müəllimlərlə əlaqə saxlayır və övladlarının təhsili ilə əlaqədar fikir mübadiləsi aparırlar [3,20-24].

Müəyyən prinsiplərin nəzərə alınması müəllim – valideyn əməkdaşlığında nəticələrin səmərəli olmasına gətirib çıxarır. Müəllim – valideyn əməkdaşlığının prinsipləri qarşılıqlı əlaqənin təşkili formalarını (kütləvi, qrup, fərdi) və metodlarını (mühazirə, müsahibə, məsləhətləşmə, müzakirə, disput, treninq və s.) müəyyən edən başlıca müddəalardır. Bu prinsiplər tərbiyə prosesinin

prinsipləridir. Müəllim və valideynlər arasındakı qarşılıqlı əlaqə prinsiplərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

– tərbiyəvi təsirlərdə vahidlik;
– müsbət cəhətlərə istinad etmək (nikbinlik);
– fərdi yanaşma;
– subyektivlik;
– şəxsiyyətlərarası münasibətlərin humanistləşdirlməsi.

Tərbiyə prosesində olduğu kimi, müəllim – valideyn əməkdaşlığında da yuxarıda qeyd olunan prinsiplərin tətbiqi kompleks xarakter daşımalı, vəhdətdə çıxış etməlidir.

Müasir dövrdə müəllim – valideyn əməkdaşlığının nəticələrinin səmərəli olması optimal metodların tətbiqindən də çox asılıdır. Müəllim – valideyn əməkdaşlığında daha çox mühazirə, müsahibə, məsləhətləşmə, müzakirə, disput və treninq kimi metodlardan istifadə olunur. Seçilən metodun müəllim – valideyn əməkdaşlığının formasına (kollektiv, qrup, fərdi) uyğunluğu onun səmərəliliyini təmin edir.

Profeessor A.N. Abbasov ailə pedaqogikasının tədqiqat metodlarını belə müəyyənləşdirir:

1) pedaqoji ədəbiyyatla, ailə tərbiyəsinə həsr olunmuş əsərlərlə tanış olmaq;
2) müşahidə metodu;
3) müsahibə metodu;
4) ailədə uşaqların yaradıcılıq məhsullarının öyrənilməsi metodu;
5) pedaqoji eksperiment metodu;
6) reytinqin öyrənilməsi metodu;
7) sosiometriya metodu;
8) modelləşdirmə metodu [1, s. 78].

Yuxarıda adları qeyd olunan metodların bəzilərini olduğu kimi göstərən N. Çələbiyev isə, həmin metodların sırasına diaqnostik metodları, testləri, anket sorğuları metodunu, konkret vəziyyətlərin təhlili metodunu, statistik metodları da daxil edir [5,34].

Ailə – məktəb əməkdaşlığı uşağın təlim-tərbiyə prosesində vahid yanaşmanın formalaşdırılmasına xidmət edir. Bu əməkdaşlıq valideynlərin təhsil prosesinə cəlb olunmasını, müəllimlərin isə ailənin tərbiyə imkanlarını nəzərə almasını təmin edir. Pedaqoji baxımdan ailə-məktəb əməkdaşlığı aşağıdakı məqsədlərə xidmət edir:

– Şagirdin fərdi xüsusiyyətlərinin daha dərindən öyrənilməsi;
– Təlim və tərbiyədə ardıcıllığın təmin olunması;
– Şagirdin sosial və emosional inkişafının dəstəklənməsi;
– Məktəbə və təlim fəaliyyətinə müsbət münasibətin formalaşdırılması.

Bu əməkdaşlıq nəticəsində məktəb - ailə arasında qarşılıqlı etimad və məsuliyyət mühiti ibtidai təhsil mərhələsində isə ailə - məktəb əməkdaşlığı xüsusilə aktualdır. Bu mərhələdə şagirdlərin psixoloji xüsusiyyətləri, təlimə uyğunlaşma səviyyəsi və emosional vəziyyəti ailə və məktəbin birgə fəaliyyətini zəruri edir. Təhsil sistemində baş verən innovativ dəyişikliklər ailə – məktəb əməkdaşlığının müasir modellər əsasında yenidən qurulmasını tələb edir. Ailə - məktəb əməkdaşlığı uşağın təlim-tərbiyə prosesində vahid yanaşmanın formalaşdırılmasına xidmət edir. Bu əməkdaşlıq valideynlərin təhsil prosesinə cəlb olunmasını, müəllimlərin isə ailənin tərbiyə imkanlarını nəzərə almasını təmin edir. *Müasir dövrün tələbləri müəllimlərin üzərinə ciddi vəzifələr qoyur. Şagirdlərin ehtiyaclarını müəyyənləşdirmək və buna uyğun düzgün təhsil proqramı seçmək üçün ailənin məktəblə sıx əlaqəsi vacibdir.*

Müasir təhsil yanaşmaları ailə – məktəb əməkdaşlığını yalnız məlumatlandırma ilə məhdudlaşdırmır, onu aktiv tərəfdaşlıq səviyyəsinə qaldırır. İbtidai təhsil kon-

tekstində aşağıdakı müasir modellər daha geniş tətbiq olunur:

1. Tərəfdaşlıq modeli – Bu modeldə ailə və məktəb uşağın inkişafında bərabər məsuliyyət daşıyan tərəfdaşlar kimi çıxış edir. Valideynlər təlim prosesində passiv müşahidəçi deyil, fəal iştirakçı rolunu oynayırlar.

2. Rəqəmsal əməkdaşlıq modeli – Elektron gündəliklər, onlayn platformalar və mobil tətbiqlər vasitəsilə valideynlərlə müəllimlər arasında operativ əlaqə yaradılır. Bu model məlumat mübadiləsini sürətləndirir və əməkdaşlığın davamlılığını təmin edir.

3. Ailəyönümlü pedaqoji yanaşma – Bu model ailənin sosial-mədəni xüsusiyyətlərini və tərbiyə potensialını nəzərə alaraq təlim-tərbiyə prosesinin təşkili ilə xarakterizə olunur. Müəllim ailənin imkanlarına uyğun fərdi yanaşmalar formalaşdırır.

4. Məktəb-ailə-icma modeli – Bu model məktəbin ailə və yerli icma ilə birgə fəaliyyətini əhatə edir. Birgə tədbirlər və layihələr şagirdlərin sosial fəallığını və vətəndaşlıq tərbiyəsini gücləndirir.

Ailə – məktəb əməkdaşlığının müasir modelləri ibtidai sinif şagirdlərinin təlimə marağını artırır və onların davranışında müsbət dəyişikliklər yaradır. Valideynlərin təhsil prosesində tətbiq olunması məktəblinin özünəinamını gücləndirir və onlarda məsuliyyət hissini formalaşdırır.

Bununla yanaşı, müasir əməkdaşlıq modelləri müəllimlərin pedaqoji fəaliyyətini daha məqsədyönlü edir, təlimdə fərdiləşdirilmiş yanaşmanın tətbiqinə imkan yaradır və yarana biləcək problemlərin vaxtında aşkarlanmasını və aradan qaldırılmasını təmin edir.

Problemlə bağlı bir sıra xarici ölkələrin müsbət, faydalı iş təcrübəsinə də nəzər salaq:

Amerika Birləşmiş Ştatlarında məktəb-valideyn və cəmiyyət münasibətləri mühüm amillərdən hesab olunur. Bu məqsədlə ölkədə valideyn-məktəb dərnəkləri yaradılıb. Həmin dərnəklər isə milli valideyn-müəllim dərnəkləri konfederasiyasına tabedir. Dərnəklərin fəaliyyətinin əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsidir. ABŞ-da şagirdlərə pedaqoji rəhbər təyin edilməsi üçün valideynlərə xüsusi təhsil verilir. Bu isə özlüyündə “yalnız savadlı valideynlər bilikli rəhbəri seçə bilərlər” anlamı daşıyır. Həmçinin, şagirdlərin sağlam yetişdirilməsi üçün ailə dərnəkləri də fəaliyyət göstərir.

Türkiyədə ailə-məktəb əməkdaşlığının müasir modeli demokratiklik, humanistlik və rəqəmsallaşma prinsiplərinə əsaslanır. Bu modeldə valideynlər təhsil prosesinin passiv müşahidəçisi deyil, “Ailə Akademiyaları” və rəqəmsal platformalar (məsələn, e-Okul) vasitəsilə aktiv iştirakçılarıdır. Əsas fokus şagirdin hərtərəfli inkişafı, ailə-müəllim şəffaflığı və peşə təhsilində istehsalatla inteqrasiyadır. Türkiyədə valideyn-müəllim əlaqələrinə xüsusi əhəmiyyət verilir. Bunun üçün ildə iki dəfə valideyn-müəllim görüşü təşkil edilir, bu görüşlərdə şagirdlər iştirak edə bilməz. Görüş öncədən müəyyənləşən vaxtda və məktəbdəki sinif otaqlarının birində baş tutur. Hər valideyn övladının müəllimləri ilə 2, yaxud 3 dəqiqə müddətində təkbətək söhbət edir. Digər valideynlər də həmin söhbət zamanı sinifdə ola bilərlər. Görüş zamanı şagirdlə bağlı fikir mübadiləsi aparılır və ayda bir dəfə də olmaqla müəllim-şagirdin fərdi, ayda 2 dəfə isə şagird-valideyn-müəllimin üçtərəfli görüşü təşkil edilir.

Nəticə. Beləliklə, ailə – məktəb əməkdaşlığının müasir modelləri ibtidai təhsil sistemində təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Ailə və

məktəbin qarşılıqlı və sistemli fəaliyyəti şagirdlərin hərtərəfli inkişafına, məktəb mühitinə uğurlu adaptasiyasına və müsbət sosial davranışların formalaşmasına, təlim – tərbiyə prosesinin daha səmərəli və məqsədyönlü təşkilinə şərait yaradır.

Bu baxımdan ibtidai sinif müəllimlərinin valideynlərlə əməkdaşlıq bacarıqlarının inkişaf etdirilməsi və innovativ yanaşmaların təhsil praktikasına inteqrasiyası mühüm pedaqoji vəzifə kimi qiymətləndirilməlidir.

Problemin aktuallığı. İbtidai təhsil mərhələsində ailənin tərbiyə imkanlarından məqsədyönlü istifadə olunması şagirdlərdə məsuliyyətli münasibətin, müstəqil düşünmənin, sosial bacarıqların və müsbət mənəvi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Buna görə də ailənin ibtidai təhsildə yeri və funksiyalarının tədqiqi, mövcud problemlərin müəyyənləşdirilməsi və onların həlli yollarının göstərilməsi aktual pedaqoji problem kimi xüsusi əhəmiyyət kəsb edir.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi ailə – məktəb əməkdaşlığının ibtidai təhsil kontekstində müasir pedaqoji yanaşmalar əsasında sistemli model kimi təhlil edilməsindən ibarətdir. Məqalədə valideynlərin təlim-tərbiyə prosesində ak-tiv tərəfdaş kimi rolu əsaslandırılır, eləcə də ailə - məktəb əməkdaşlığının şagirdin sosial və akademik inkişafına təsiri yeni baxış bucağından şərh olunur.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Məqalənin praktik əhəmiyyəti ibtidai sinif müəllimləri və məktəb rəhbərləri üçün ailə - məktəb əməkdaşlığının təşkili istiqamətində metodik tövsiyələrin verilməsindən ibarətdir. Tədqiqat nəticələri valideynlərlə işin səmərəliliyinin artırılmasında və şagirdlərin təlim motivasiyasının gücləndirilməsində tətbiq oluna bilər.

Ədəbiyyat

1. Abbasov A. Ailə pedaqogikası. –Bakı: Mütərcim, –2019. –270 s.
2. “Azərbaycan Respublikasının Təhsil Qanunu” Bakı, 19 iyun, 2009-cu il // Təhsil - xəbərləri. –2009 -cu il, №6, –s.12-57.
3. Baxışova Ş. Uşaqların inkişafında valideynlərlə əlbir işin yolları // Bakı: Məktəbəqədər və ibtidai təhsil, –2015. №3, –s.20-24
4. İlyasov İ.İ. Müəllim səriştəliliyi şagird şəxsiyyətinin inkişaf etdirilməsinin mühüm amili kimi //– Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2024. № 2, –s.16-19.
5. Çələbiyev N. Ailə psixologiyası. –Bakı: Mütərcim, –2015. – 422 s.
6. Quliyeva S. Azərbaycanda ailə-məktəb əməkdaşlığının formalaşdırılması modelləri // Bakı: Məktəbəqədər və ibtidai təhsil, –2020, № 3, –s. 67-80
7. Əhmədova N. Şagirdlərin öyrənmə fəaliyyətinin inkişafında məktəb mühitinin rolu// Bakı: Təhsil İnstitutunun Elmi əsərləri, –2025, №5, –s.66-70
8. Məmmədova K. Müasir dövrdə məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə valideynlərlə əməkdaşlığın təsiri // –Bakı: Təhsil İnstitutunun Elmi əsərləri, – 2025, №5, –s.190-197
9. Пузырева О. И. Совместная работа школы, семьи и общины по обучению и воспитанию сельских школьников в США: Дис. ...канд. пед. наук:13. 00.01 : –Москва, 2005, –260 с.
10. How Family Engagement Leads to Student Success. https://www. waterford. org/education/how;
11. 7 july 2022.
12. https://e-qanun.az › framew

Redaksiyaya daxil olub: 29.04.2026

UOT 378: 001.891

Mailxan Zülfüqar oğlu Abdin
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0006-6680-4724,
E-mail:mailxan.20@mail.ru, mob:070 826 05 10
https://doi.org/10.69682/arti.2026.93(3).168-174

ƏSAS BEYNƏLXALQ UNİVERSİTET REYTİNQLƏRİNİN MÜQAYİSƏLİ METODOLOJİ TƏHLİLİ (QS, THE, ARWU)

Mailkhan Zulfugar Abdin
doctorial student in the program of doctor of philosophy of the
Institute of Education of the Republic of Azerbaijan

COMPARATIVE METHODOLOGICAL ANALYSIS OF THE MAJOR INTERNATIONAL UNIVERSITY RANKINGS (QS, THE, ARWU)

Маилхан Зульфугар оглы Абдин
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

СРАВНИТЕЛЬНЫЙ МЕТОДОЛОГИЧЕСКИЙ АНАЛИЗ ОСНОВНЫХ МЕЖДУНАРОДНЫХ РЕЙТИНГОВ УНИВЕРСИТЕТОВ (QS, THE, ARWU)

Xülasə. Ən nüfuzlu və geniş istifadə olunan beynəlxalq reytinqlər QS Dünya Universitetləri Reytinqləri, Times Higher Education Dünya Universitetləri Reytinqləri (THE) və Dünya Universitetlərinin Akademik Reytinqləridir (ARWU). Universitetləri nailiyyətlərinə əsasən qlobal miqyasda reytinqləndirmək kimi ortaq məqsədlərinə baxmayaraq, bu sistemlər metodoloji yanaşmaları, göstəriciləri, çəki faktorları və məlumat mənbələri baxımından əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərqlər çox vaxt akademik müzakirə mövzusuna çevrilən qeyri-bərabər reytinq nəticələrinə gətirib çıxarır. Reytinqlərin metodoloji xüsusiyyətləri çox vacibdir, çünki seçilmiş meyarlar yalnız universitetin yekun reytinqinə deyil, həm də ali təhsildə "keyfiyyət", "prestij" və "səmərəlilik" anlayışlarının şərhinə təsir göstərir. Məsələn, bəzi reytinqlər əsasən elmi nəşrlərə və istinadlara, digərləri isə akademik nüfuza, beynəlmiləlləşməyə və ya tədris fəaliyyətinə yönəlir. Buna görə də, aparıcı beynəlxalq reytinqlərin metodologiyalarının müqayisəli təhlili onların güclü və zəif tərəflərini müəyyən etməyə, eləcə də nəticələrinin obyektivliyini və təmsilçiliyini müəyyən etməyə imkan verir. Məqalənin məqsədi universitetlərin qiymətləndirilməsinə yanaşmalardakı fərqləri müəyyən etmək, onların konseptual əsaslarını müəyyən etmək və metodoloji xüsusiyyətlərin yekun reytinq nəticələrinə təsirini qiymətləndirmək üçün QS, THE və ARWU-nun beynəlxalq reytinqlərinin müqayisəli metodoloji təhlilini aparmaqdır.

Açar sözlər: *universitet, qiymətləndirmə, keyfiyyət, beynəlxalq reytinq, beynəlxalq sıralama*

Abstract. The most influential and widely used international rankings are the QS World University Rankings, the Times Higher Education World University Rankings (THE), and the Academic Ranking of World Universities (ARWU). Despite

their shared goal of globally ranking universities based on their achievements, these systems differ significantly in their methodological approaches, indicators, weightings, and data sources. These differences often lead to uneven ranking results, which frequently become the subject of academic debate. The methodological features of rankings are of great importance, as the selected criteria influence not only the final university ranking but also the interpretation of the concepts of “quality,” “prestige,” and “effectiveness” in higher education. For example, some rankings focus primarily on scientific publications and citations, while others focus on academic reputation, internationalization, or teaching. Therefore, a comparative analysis of the methodologies of leading international rankings allows us to identify their strengths and weaknesses, as well as determine the objectivity and representativeness of their results. The purpose of this article is to conduct a comparative methodological analysis of the international rankings of QS, THE, and ARWU to identify differences in their approaches to university assessment, determine their conceptual foundations, and assess the impact of methodological features on the final ranking results.

Keywords: *university, assessment, quality, international rating, international ranking*

Аннотация. Наиболее влиятельными и широко используемыми международными рейтингами являются QS World University Rankings, Times Higher Education World University Rankings (THE) и Academic Ranking of World Universities (ARWU). Несмотря на общую цель – глобальное ранжирование университетов на основе их достижений, эти системы значительно различаются по методологическим подходам, показателям, весовым коэффициентам и источникам данных. Эти различия часто приводят к неравномерным результатам ранжирования, которые нередко становятся предметом академических дискуссий. Методологические особенности рейтингов имеют большое значение, поскольку выбранные критерии влияют не только на итоговый рейтинг университета, но и на интерпретацию понятий «качество», «престиж» и «эффективность» в высшем образовании. Например, некоторые рейтинги в основном ориентируются на научные публикации и цитирования, в то время как другие – на академическую репу-тацию, интернационализацию или преподавательскую деятельность. Поэтому сравнительный анализ методологий ведущих международных рейтингов позволяет выявить их сильные и слабые стороны, а также определить объективность и репрезентативность их результатов. Цель статьи – провести сравнительный методологический анализ международных рейтингов QS, THE и ARWU, чтобы выявить различия в подходах к оценке университетов, определить их концептуальные основы и оценить влияние методологических особенностей на итоговые результаты ранжирования.

Ключевые слова: *университет, оценивание, качество, международный рейтинг, международный рейтинг, международное ранжирование*

Ali təhsilin qloballaşması ilə beynəlxalq universitet reytinqləri təhsil və tədqiqat müəssisələrinin keyfiyyətinin qiymətləndirilməsi və müqayisəsi üçün əsas vasitəyə çevrilib. XXI əsrdə universitetlər istedadlı tələbələr, ixtisaslı tədqi-qatçılar, maliyyə resursları və beynəlxalq tanınma uğrunda rəqabətin gücləndiyi bir mühitdə fə-aliyyət göstərirlər. Nəticə etibarilə, reytinq sistemləri yalnız ictimai məlumat mexanizmi deyil, həm də qlobal təhsil bazarında strateji idarə-etmə, imic formalaşması və universitetin mövqeyində mühüm amilə çevrilir.

İnsanlar uşaqlıq dövründə qarşılaşdıqları hadisələri müəyyən meyarlara görə təsnif etmək və sıralamaq meylinə yiyələnirlər və bu bacarıq ömür boyu davam edir. XXI əsrdə sıralama mədəniyyəti artıq fərdi

seçimlərlə məhdudlaşmır; ölkələrin iqtisadi göstəriciləri və demokratik inkişaf səviyyələri kimi makrosəviyyəli sahələr də müxtəlif indekslər vasitəsilə müqayisəli şəkildə qiymətləndirilir.

Sıralama praktikalarının geniş yayılması ali təhsil müəssisələrinin də müqayisəli qiymətləndirmə sistemlərinə cəlb olunmasını zəruri etmişdir. Uzun illərdir ki, müxtəlif təşkilatlar "ən yaxşı universitetlər" siyahılarını dərc edirlər və bu reytinqlər ictimaiyyətin diqqətini cəlb edir. Lakin "ən yaxşı" və ya "ən uğurlu" anlayışlarının əsaslandığı meyarlar, cəmiyyətin bu nəticələri necə şərh etməsi və universitetlərin bu gözləntilərə necə cavab verməsi ayrıca bir müzakirə sahəsi təşkil edir. Universitet reytinqləri, xüsusən də tələbə seçimlərində mühüm rol oynayır. Yüz minlərlə abituriyent qərar qəbuletmə prosesində bu siyahılardan təsirlənir. Beynəlxalq tələbə mobilliyi kontekstində reytinqlər tələbələrin xarici ölkələrdəki universitetlər haqqında məlumat axtararkən müraciət etdikləri əsas istinad mənbələrindən biridir.

Reytinqlər qanunvericiliyə və təcrübələrə də təsir göstərə bilər. Bundan əlavə, reytinqlər universitetlərin institusional imicinin və nüfuzunun idarə olunmasında mühüm ünsiyyət vasitəsidir. Yüksək reytinqə malik qurumlar ictimaiyyət tərəfindən "ixtisaslı" və "uğurlu" kimi qəbul edilir və bu da təşviqat və ictimaiyyətlə əlaqələr səylərində güclü bir istinad nöqtəsi yaradır [4, s.95].

Keyfiyyət təminatı aspekti reytinq sistemlərinin digər diqqətəlayiq ölçüsüdür. Universitetlər bu sistemlərdən müstəqil metriklərlə fəaliyyətlərini izləmək, strateji məqsədlərini nəzərdən keçirmək və idarəetmə proseslərini təkmilləşdirmək üçün istifadə edirlər. Bu baxımdan reytinqlər yalnız xarici müqayisə vasitəsi deyil, həm də institusional inkişafı dəstəkləyən idarəetmə mexanizmidir.

Nəticə etibarilə, universitet reytinq sistemləri ali təhsil ekosistemindəki çoxsaylı maraqlı tərəflər üçün mənalıdır. Tələbələrdən və valideynlərdən tutmuş akademiklərə, universitet administratorlarına, siyasətçilərə və iş dünyasına qədər geniş insan dairəsi universitetlərin fəaliyyət göstəricilərini yaxından izləyir. Buna görə də, maraqlı tərəflərin informasiya ehtiyaclarını ödəməyə davam etdikləri müddətcə reytinqlər mövcud olmağa və təsirini artırmağa davam edəcəkdir.

Universitetlərin qiymətləndirilməsi üçün milli və ya beynəlxalq miqyasda fəaliyyət göstərən çoxsaylı müxtəlif sistemlər mövcuddur. Ən tanınmış və geniş izlənilən beynəlxalq reytinq sistemləri arasında aşağıdakıları qeyd etmək olar [3, s.20]:

1. QS Dünya Universitetləri Reytinqi (Bö yük Britaniya)
2. Times Higher Education Dünya Universitetləri Reytinqi (Böyük Britaniya),
3. Şanxay Jiao Tong Universitetinin Dünya Universitetləri Akademik Reytinqi (ARWU) (Çin),
4. Newsweek jurnalının "Dünyanın Ən Yaxşı 100 Universiteti" siyahısı,
5. Cybermetrics Laboratoriyası tərəfindən hazırlanmış Webometrics reytinqi,
6. Google-da yerləşən G-Factor Beynəlxalq Universitet Reytinqi,
7. MINES ParisTech-in Peşəkar Dünya Universitetləri Reytinqi,
8. Elmi nəşr performansına əsaslanan HEETACT reytinqi
9. Wuhan Universitetinin Qlobal Universitet Reytinqi

Bu sistemlər qlobal miqyasda ən çox tanınan və izlənilən reytinqlər arasındadır və əlavə olaraq, müxtəlif universitet reytinq sistemləri regional və yerli səviyyələrdə tətbiq olunur.

Reytinq sistemləri çox vaxt, əsasən metodoloji etibarlılığına görə tənqid olunur. Əsas arqumentlərdən biri istifadə olunan göstəricilərdəki balanssızlıqdır: vurğu əsasən nəşr fəaliyyətinə, sitatlara və nüfuz qiymətləndirmələrinə yönəldilir, innovativ tədris metodları, proqramların praktik istiqaməti və ya təhsil yollarının abituriyentlər üçün cəlbediciliyi kimi aspektlər isə çox vaxt nəzərdən qaçırılır. Buna baxmayaraq, bu tənqidlərə baxmayaraq, reytinqlər abituriyentlər, tələbələr, müəllim heyəti və digər maraqlı tərəflər arasında populyar olaraq qalır. Bundan əlavə, onlar universitetlər arasında rəqabət mühiti yaradır, akademik məzmunun yenilənməsini, təlimin keyfiyyətinin yaxşılaşdırılmasını və idarəetmə qərarlarının maraqlı tərəflərin tələbləri ilə uyğunlaşdırılmasını stimullaşdırır.

Qeyd etmək lazımdır ki, reytinqlər təhsil prosesinin keyfiyyətinin universal və hərtərəfli göstəricisi hesab edilmir. Bəzi hallarda, xüsusən də inkişaf etməkdə olan ölkələrin universitetləri üçün, beynəlxalq tədqiqat resurslarına məhdud çıxış və ya qlobal verilənlər bazalarında kifayət qədər məlumat olmaması səbəbindən reytinq mövqeləri aşağı düşə bilər.

1990-cı ildə Nunzio Quacquarelli tərəfindən təsis edilən QS, akademik karyeralarını planlaşdıran bakalavr, magistr və doktorantura tələbələrinə universitet seçimi, təqaüd imkanları və tədqiqat maliyyələşdirilməsi ilə bağlı rəhbərlik edən Böyük Britaniyada yerləşən bir şirkətdir. QS-in təsis məqsədi ali təhsildə iki əsas aktyor olan universitetlər və tələbələr arasında körpü qurmaq və bu sahədə etibarlı məlumat və məsləhət xidmətləri göstərməkdir. Qurum statistik təhlillər aparmaq, fərdlərə və qurumlara strateji dəstək vermək və ali təhsildə həllyönlü xidmətlər inkişaf etdirmək məqsədi ilə fəaliyyət göstərir. Bu baxımdan, o, həm universitetlər üçün strateji biznes tərəfdaşı, həm də tələbələr üçün akademik bələdçi kimi çıxış edir, dünya miqyasında ali təhsil müəssisələrinin təhlillərini aparır [5].

QS-in dünya universitet reytinqləri ilk dəfə 2004-cü ildə Times Higher Education Supplement (THES) ilə əməkdaşlıq çərçivəsində dərc edilmişdir. 2004-2009-cu illərdə davam edən bu tərəfdaşlıq, THE-nin artıq QS tərəfindən toplanan məlumatlardan istifadə etməyəcəyini elan etməsi ilə başa çatmışdır; 2010-cu ildən bəri QS reytinqləri müstəqil şəkildə dərc olunur [1].

QS əvvəlcə universitet qiymətləndirmələrini altı əsas göstəriciyə əsaslandırmışdır. Lakin, 2023-cü ildən etibarən metodologiyasını yeniləmiş və mövcud meyarlara üç yeni göstərici əlavə etməklə qiymətləndirmə çərçivəsini genişləndirmişdir. Beynəlxalq tədqiqat şəbəkələri, məzunların məşğulluq nəticələri və davamlılıq göstəriciləri kimi yeni ölçülərin əlavə edilməsi ilə göstəricilərin çəkisi də yenidən müəyyən edilmişdir. QS, məşğulluq və davamlılıq kimi müasir ali təhsil gündəliyini əks etdirən elementləri reytinq metodologiyasına sistematik şəkildə daxil edən yeganə təşkilat olduğunu vurğulayır və bu dəyişikliklərin həm sektorun kollektiv biliklərini, həm də tələbələrin dəyişən gözləntilərini və prioritetlərini əks etdirdiyini bildirir. Bundan əlavə, qurum tələbələrə ixtisaslaşmaq istədikləri sahələrdə aparıcı universitetləri daha şüurlu şəkildə müəyyən etməyə kömək etməyi hədəflədiyini bildirir [2, s. 278].

QS tərəfindən istifadə edilən göstəricilər və onların çəkiləri aşağıdakı kimi müəyyən edilir [5]:



Şəkil 1. QS-2025 qiymətləndirmə üzrə göstəricilər və çəkisi (faizlə)

Şəkil 1-dən görünür ki, ilk növbədə, akademik nüfuz ən yüksək çəkini (30%) saxlayır. Bu, QS-nin akademik ictimaiyyət nümayəndələrinin ekspert rəyinə üstünlük verməyə davam etdiyini təsdiqləyir. Bu yanaşma reytinqin nüfuz komponentini artırır, eyni zamanda onu qismən subyektiv qiymətləndirmələrdən asılı edir. İkinci ən vacib göstərici universitetin tədqiqat məhsuldarlığını və elmi təsirini əks etdirən müəllim heyətinə düşən sitat sayı (20%) olaraq qalır. Bu meyar nəşr fəaliyyətinə və tədqiqat nəticələrinin beynəlxalq görüntürülüyinə diqqət yetirir və bununla da reytinqin tədqiqat komponentini gücləndirir. İşəgötürənin nüfuzu (15%) təhsilin praktik aktuallığına və əmək bazarında məzunlara tələbata artan diqqəti nümayiş etdirir. Bu göstəricinin daxil edilməsi QS-nin universitetlərin yalnız akademik deyil, həm də sosial-iqtisadi göstəricilərini nəzərə almağa sadiq olduğunu göstərir. Müəllim-tələbə nisbəti (10%) təhsil mühitinin keyfiyyətini və öyrənmənin fərdiləşdirilməsi səviyyəsini əks etdirir. Daha aşağı müəllim iş yükü tələbələr üçün potensial olaraq daha yüksək akademik dəstək səviyyəsi kimi şərh olunur. Qalan göstəricilər (hər biri 5%) – beynəlxalq müəllim heyətinin payı, beynəlxalq tələbələrin payı, beynəlxalq tədqiqat şəbəkəsi, məzunların məşğulluq nəticələri və davamlılıq – qlobal ali təhsilin müasir gündəliyini formalaşdırır. Reytinqin yeni qlobal prioritetlərə: davamlı inkişaf, sosial məsuliyyət və məzunların karyera uğurlarına uyğunlaşmasını nümayiş etdirən Məşğulluq Nəticələri və Davamlılıq meyarlarının daxil edilməsi xüsusilə əhəmiyyətlidir.

Beləliklə, QS 2025 göstərici strukturu nüfuz, tədqiqat, təhsil və sosial-iqtisadi göstəriciləri birləşdirən hərtərəfli yanaşmanı əks etdirir. Eyni zamanda, nüfuz və nəşr göstəricilərinin dominantlığı qalır ki, bu da beynəlxalq görünürlük və tədqiqat resurslarının məhdud olduğu inkişaf etməkdə olan ölkələrin universitetlərinin mövqelərinə təsir göstərə bilər.

Times Higher Education (THE), 2010-cu ildən bəri dünya reytinqlərini dərc edən və universitetlər üçün performans məlumatları təqdim edən Böyük Britaniyada yerləşən kommersiya təşkilatıdır. THE ilk dəfə qlobal reytinqini 2010-cu ildə 200 universiteti əhatə etmək üçün başlatmışdır; 2015-ci ilə qədər bu rəqəm 800-ə çatmışdır. 2024-cü il reytinqlərində 108 ölkə və bölgədən ümumilikdə 1906 universitet təhlil edilmişdir. THE məlumat mənbəyi kimi

Elsevier-in Scopus sitat indeksindən istifadə edir [3, s.26].

2023-cü ildən etibarən THE metodologiyasını yeniləyərək performans göstəricilərinin sayını 13-dən 18-ə çatdırmış və daha balanslı müqayisələr aparmaq üçün bu yeni göstəriciləri qiymətləndirmə sisteminə daxil etdiyini bildirmişdir. Göstəricilərdən biri olan "xaricdə təhsil" meyarının hazırda sıfır çəkisi olduğundan, ümumilikdə faktiki olaraq 18 göstərici var. Yenilənmiş göstəricilərin adlarında bəzi dəyişikliklər edilsə də, bu göstəricilər hələ də beş əsas başlıq altında qruplaşdırılıb və bu çərçivədə təqdim olunur [7].



Şəkil 2. THE 2025 – göstəricilər və çəkisi (faizlə)

QS-dən fərqli olaraq, THE 2025 çərçivəsi tədqiqat komponentinə diqqət yetirir. Tədqiqatla əlaqəli göstəricilərin (Tədqiqat Mühiti + Tədqiqat Keyfiyyəti) ümumi çəkisi 59% təşkil edir ki, bu da reytinqi əsasən tədqiqata yönəlmiş edir.

"Tədris" komponenti (29,5%) də əhəmiyyətli bir paya malikdir və nüfuz sorğularını, doktorantura hazırlığı göstəricilərini və resurs mövcudluğunu əhatə edir. Beynəlxalq fəaliyyət (7,5%) və sənaye ilə əlaqə (4%) nisbətən daha az çəkiyə malikdir, lakin ali təhsilin qloballaşmasını və tədqiqat nəticələrinin kommersiyalaşdırılmasını əks etdirir.

Beləliklə, THE 2025 QS ilə müqayisədə daha strukturlaşdırılmış və tədqiqata yönəlmiş universitet qiymətləndirmə modeli kimi xarakterizə edilə bilər.

Şanxay Jiaotong Universitetinin tərkibində fəaliyyət göstərən Reytinq Məsləhətçiliyi bölməsi (ARWU) 2003-cü ildən bəri hər il dünyanın ən yaxşı 500 universitetinin reytinqini aparır. Universitet reytinqlərində aparıcı qurumlardan biri olan Şanxay Jiaotong Universiteti əvvəlcə Çin universitetlərini dünyanın aparıcı ali təhsil müəssisələri ilə müqayisə etməyi hədəfləmişdir.

Reytinq prosesində şəffaf və ardıcıl metodoloji yanaşmaları sayəsində bu sahədə ən etibarlı və hörmətli təşkilatlardan birinə çevrilib-lər. Bu beynəlxalq nüfuza görə Fransa, Norveç və Danimarka kimi ölkələrin təhsil nazirləri universitetlərinin qlobal reytinqlərdəki mövqelərini yaxşılaşdırmaq üçün Şanxay Jiaotong Universitetinə səfər ediblər [6]. Dünya universitetlərinin reytinqini müəyyən etmək üçün ARWU altı əsas və obyektiv göstəricidən istifadə edir. Bu göstəricilərə məzunlar və akademik heyət arasında Nobel mükafatı və Fields medalı sahiblərinin sayı; Nature and Science jurnallarında dərc olunmuş məqalələrin sayı; Clarivate tərəfindən müəyyən edilən yüksək sitat gətirilən tədqiqatçıların sayı; Genişləndirilmiş Elmi Sitat İndeksində (SCIE) və Sosial Elmlər Sitat İndeksində (SSCI)

indekslənmiş nəşrlər; və hər təhsil müəssisəsi üzrə akademik göstəricilər daxildir.

Akademik heyətin sayı haqqında məlumatlar Milli Təhsil Nazirliyi, Milli Statistika Bürosu, Universitetlər və Kolleclərin Milli Assosiasiyası və Rektorların Milli Konfransı kimi milli və regional rəsmi qurumlardan əldə edilir.

Hər il 2500-dən çox universitet qiymətləndirilir və ən yaxşı 1000 universitet müəyyən edilmiş meyarlara əsasən aparılan təhlil əsasında açıq şəkildə siyahıya alınır. ARWU tərəfindən istifadə edilən göstəricilər və onların çəkiləri aşağıdakılardır [6]:

Cədvəl 1. **ARWU meyarları və çəkiləri, 2025 (faizlə)**

ARWU Kriteriyası	**Çəkisi (%)**
Məzunlar arasında Nobel mükafatı və Fields medalçıları (Alumni)	10%
Akademik heyət arasında Nobel mükafatı və Fields medalçıları (Award)	20%
Yüksək sitat gətirilən tədqiqatçılar (Highly Cited Researchers – Clarivate)	20%
Nature və *Science* jurnallarında dərc olunan məqalələr (N&S)	20%
SCIE və SSCI indekslərində yer alan məqalələr (PUB)	20%
Adambaşına akademik performans (Per Capita Performance – PCP)	10%

Dünya Universitetlərinin Akademik Reytinqi (ARWU) ənənəvi olaraq ən obyektiv və kəmiyyətyönlü universitet qiymətləndirmə sistemi hesab olunur. QS və THE-dən fərqli olaraq, ARWU metodologiyası nüfuz sorğularını və subyektiv ekspert qiymətləndirmələrini tamamilə aradan qaldırır. Bütün göstəricilər yalnız ölçülə bilən elmi nəticələrə əsaslanır.

Çəki strukturu reytinqin açıq tədqiqat fokusunu nümayiş etdirir (Cədvəl 1):

Ümumi çəkinin 40%-i nüfuzlu beynəlxalq mükafatlarla əlaqəli göstəricilərə (məzunlar və işçilər arasında Nobel mükafatları və Fields medalları) ayrılır.

Qiymətləndirmənin 60%-i nəşr fəaliyyəti, sitat təsiri və akademik məhsuldarlıqla müəyyən edilir.

Clarivate-ə görə, Nature və Science jurnallarındakı nəşrlərə, eləcə də yüksək sitat gətirilən tədqiqatçıların sayına xüsusi əhəmiyyət verilir. Bu, fundamental tədqiqatlara yönəlmiş və qlobal elmi verilənlər bazalarında təmsil olunan universitetlərin mövqeyini gücləndirir.

Eyni zamanda, ARWU tədris keyfiyyəti, beynəlmiləlləşmə, məzunların işə qəbulu və ya davamlı inkişaf kimi aspektləri demək olar ki, nəzərə almır. Bu səbəbdən, reytinqə çox vaxt təhsil fəaliyyətlərinin hərtərəfli keyfiyyətindən daha çox akademik elitanın qiymətləndirilməsi üçün bir vasitə kimi baxılır.

Beləliklə, ARWU 2025 aparıcı qlobal universitet reytinqləri arasında ən ciddi şəkildə tədqiqat mərkəzli model kimi xarakterizə edilə bilər.

Deyilənləri nəzərə alaraq, üç əsas beynəlxalq universitet qiymətləndirmə reytinqlərinin müqayisəli cədvəli aşağıdakı kimi təqdim oluna bilər:

Cədvəl 2. **QS, THE və ARWU reytinqlərinin meyarlar üzrə müqayisəli cədvəli**

Müqayisə Meyarları	QS Dünya Universitetləri Reytinqləri	Times Higher Education (THE)	ARWU (Şanxay Reytinqi)
Əsas Fokus	Reputasiya + Tədqiqat + İşə Qəbul	Tədqiqat + Tədris	Elmi Nailiyyətlər
Reputasiya Göstəricilərinin Payı	45% (akademik + işəgötürən nüfuzu)	~33% (tədris və tədqiqat sahəsində nüfuz)	0% (nüfuz sorğuları aparılmayıb)
Tədqiqat Komponenti	25% (istinadlar + beynəlxalq şəbəkə)	59% (tədqiqat mühiti + tədqiqat keyfiyyəti)	60% (istinadlar, nəşrlər, elmi mükafatlar)
Tədris Qeydləri	10% (müəllim-tələbə nisbəti)	29.5% (ayrı böyük blok)	Dolayı yolla (kadr ölçüləri vasitəsilə)
Beynəlxalq Fəaliyyətlər	10% (beynəlxalq tə-ləbələr və müəllim heyəti)	7.5%	Birbaşa ölçülmür
Məzunların İşlə Təşkili	5%	Qismən daxildir	Ölçülmür
Davamlı İnkişaf	5%	Ayrı blok deyil	Ölçülmür
Tədqiqat Mükafatları (Nobel, Sahələr)	Daxil deyil	Birbaşa daxil deyil	30%
Əsas Məlumat Mənbəyi	Scopus + sorğular	Scopus (Elsevier) + sorğular	Web of Science + Clarivate
Metodologiya Növü	Birləşdirilmiş (nüfuz + göstəricilər)	Strukturlaşdırılmış, çoxkomponentli	Ciddi kəmiyyət, obyektiv

Müqayisəli cədvəl məlumatlarına görə, QS nüfuz sorğularına güclü etibar və əmək bazarı və tələbə gözləntilərini nəzərə almaq öhdəliyi ilə xarakterizə olunur (Cədvəl 2). Model qəbul edilən keyfiyyətə və universitetin qlobal görünməsinə diqqət yetirir. THE tədqiqatlara diq-qəti cəlb edir, lakin əhəmiyyətli tədris komponentini saxlayır. Metodologiya daha ətraflıdır və beş qiymətləndirmə sahəsinə bölünür. ARWU ən tədqiqat mərkəzli sistemdir. Elmi nailiyyətlərə, nəşr fəaliyyətinə və nüfuzlu beynəlxalq mükafatlara diqqət yetirərək subyektiv göstəriciləri ta-mamilə aradan qaldırır.

Beləliklə, QS nüfuz-bazar modelini, THE balanslaşdırılmış tədqiqat-təhsil modelini və ARWU universitet qiymətləndirməsinin elit-tədqiqat modelini əks etdirir.

Problemin aktuallığı. Bu tədqiqatın aktuallığı reytinqlərin milli təhsil siyasətinə, universitetlərin strateji inkişafına və tələbələrin akademik mobil-liyinə artan təsirindən irəli gəlir. Bundan əlavə, bir sıra ölkələrdə beynəlxalq rey-tinqlərin nəticələri qaydalar, maliyyələşdirmə proqramları və diplomların tanınması mexanizmləri ha-zırlanarkən nəzərə alınır.

Problemin elmi yeniliyi. Bu tədqiqatın elmi yeniliyi aparıcı beynəlxalq universitet reytinqlərinin - QS, THE və ARWU-nun müqayisəli metodoloji təhlilində və onların qiymətləndirmə modellərindəki kon-septual fərqləri müəyyən etməkdədir. Tədqiqat reytinq meyarlarını sistemləşdirir, göstərici çəkilərinin paylanmasını təhlil edir və ali təhsilin

keyfiyyətini anlamaq üçün dominant yanaşmaları müəyyən edir. Reputasiya, tədqiqat və institusional göstəricilərin müqayisəsinə, eləcə də onların obyektivliyinin və ölçülə bilənliyinin qiymətləndirilməsinə xüsusi diqqət yetirilir. Tədqiqatın yeniliyi reytinqlərin yalnız reytinq alətləri kimi deyil, həm də universitet inkişaf strategiyalarının formalaşdırılması və təhsil siyasətinə təsir mexanizmləri kimi hərtərəfli araşdırılmasındadır. Bu yanaşma bizə universitet fəaliyyətinin hansı aspektlərinin müxtəlif reytinq sistemləri tərəfindən prioritetləşdirildiyini və bunun qlobal akademik rəqabətə necə təsir etdiyini müəyyən etməyə imkan verir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktiki əhəmiyyəti əldə edilmiş nəticələrin universitetlərin strateji idarəetməsini təkmilləşdirmək üçün potensial istifadəsindədir. QS, THE və ARWU-nun metodoloji xüsusiyyətlərinin təhlili təhsil müəssisələrinə tədqiqatlara, beynəlxalq səviyyəyə yüksəlməyə, akademik nüfuzlarının artırılmasına və əmək bazarı ilə əlaqəyə daha şüurlu şəkildə üstünlük verməyə imkan verir. Bu tapıntılar universitet administratorları, keyfiyyət təminatı mütəxəssisləri və təhsil siyasətçiləri üçün beynəlxalq səviyyədə universitet rəqabət qabiliyyətini artırmaq üçün proqramlar hazırlayarkən faydalı ola bilər. Bundan əlavə, tədqiqat reytinqlərin daha tənqidi və balanslı qiymətləndirilməsini təşviq edir və onlara keyfiyyətin mütləq göstəricisi kimi deyil, müəyyən bir metodoloji qiymətləndirmə modelinin əks olunması kimi baxmağa imkan verir.

Ədəbiyyat

1. Baty, P. (2018). World university rankings 2018: Now starring a cast of thousands. Times Higher Education Supplement. https://www.timeshighereducation.com/world-university-rankings-2018-now-starring-cast-thousands
2. Brankovic, J., Ringel, L., & Werron, T. (2018). How rankings producecompetition: The case of global university rankings. Zeitschrift Für Soziologie,47(4), pp.270-288. https://doi.org/10.1515/zfsoz-2018-0118
3. Doğan, G., & Al, U. (2019). *Is it possible to rank universities using fewer indicators? A study on five international university rankings.* ASLIB Journal of Information Management, 71(1), 18–37.
4. Holmes, R. The THES-QS World University Rankings, 2004–2009. Asian Journal of University Education, 6(1), 91–113,
5. Quacquarelli Symonds (QS). QS World University Rankings 2025: Methodology and indicators. *QS Insights Report*, 2024, https://www.topuniversities.com/world-university-rankings/methodology.
6. ShanghaiRanking Consultancy. Academic Ranking of World Universities 2025 methodology. *ARWU Methodology Report*, 2024, https://www.shanghairanking.com/methodology/arwu/2025
7. Times Higher Education (THE). World University Rankings 2025 methodology. *Times Higher Education Data Report*, 2024, https://www.timeshighereducation.com/world-university-rankings/world-university-rankings-2025-methodology

Redaksiyaya daxil olub: 16.03.2026

UOT 378: 001.891

Xavərxanım Ağamehdi qızı Bakıxanova
Bakı Dövlət Universitetinin Gender və tətbiqi psixologiya kafedrasının fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-3031-5770
E-mail: khaverbakikhanova@bsu.edu.az
https://doi.org/10.69682/arti.2026.93(3).175-179

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN SOSİO-EMOSİONAL KOMPETENSİYALARININ İNKİŞAFI

Khavarkhanim Agamehdi Bakikhanova
doctorial student in the program of doctor of philosophy of the department of Gender and applied psychology of Baku State University

DEVELOPMENT OF STUDENTS' SOCIO-EMOTIONAL COMPETENCES IN HIGHER EDUCATIONAL INSTITUTIONS

Хаварханум Агамехди гызы Бакиханова
докторант по программе доктора философии кафедры Гендерной и прикладной психологии Бакинского Государственного Университета

РАЗВИТИЕ СОЦИО-ЭМОЦИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ СТУДЕНТОВ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

Xülasə. Araşdırmalar sübut edir ki, tələbələrin gələcəkdə özlərini təsdiq edə bilməsi və uğurlu peşə fəaliyyəti ilə məşğul olmasına əngəl törədən əsas amillərdən biri sosio-emosional səriştələrin lazımi qədər inkişaf etdirilməməsidir. Təəssüflər olsun ki, sosio-emosional səriştələrin mahiyyətinin olduğundan aşağı qiymətləndirilməsi beynəlxalq problemdir. Son dövrlərdə sosio-emosional səriştələrin təhsilalanlarda inkişaf etdirilməsi təhsil siyasətinin başlıca məqsədlərindən biri hesab olunur.

Məqalədə tələbələrin peşəkar bilikləri ilə paralel olaraq sosio-emosional səriştələrin inkişaf etdirilməsinin vacibliyi mövzusuna toxunacağıq. Tədqiqatlar göstərir ki, sosio-emosional səriştələri tədris proqramlarına inteqrasiya edə bilmək üçün müəyyən vasitələr mövcuddur. Təlim metodları, qrup layihələri, tələbə özünidarəetmə orqanlarının fəaliyyəti və psixoloji dəstək xidmətləri ali təhsil mühitində sosio-emosional səriştələrin formalaşması və inkişafına bilavasitə töhfə verir. Onların təzahürü tələbənin həm təhsil prosesindəki (uğurlu adaptasiya, akademik performans, münaqişələrin konstruktiv həlli), həm də şəxsi həyatındakı (stressə davamlılıq, münasibətlərin qurulması) uğurlarında aşkar şəkildə müşahidə olunur. Ali məktəblərin sosio-emosional öyrənməyə daha çox diqqət yetirməsi və tələbə mərkəzli mühit yaratması ilə gələcək mütəxəssislərin peşəkar və şəxsi uğurlarının artacağı gözlənilməndir.

***Açar sözlər**: tələbə, sosio – emosional kompetensiyalar, mühit, təhsil, peşə, fəaliyyət*

Abstract. Studies prove that one of the main factors that prevents students from asserting themselves in the future and engaging in successful professional activities is the insufficient development of socio-emotional competencies. Unfortunately, the underestimation of the essence of socio-emotional competencies is an international problem. Recently, the development of socio-emotional competencies in students is considered one of the main goals of educational policy.

In the article, we will touch on the importance of developing socio-emotional competencies in parallel with students' professional knowledge. Studies show that there are certain tools to integrate socio-emotional competencies into educational programs. Training methods, group projects, the activities of student self-government bodies and psychological support services directly contribute to the formation and development of socio-emotional competencies in the higher education environment. Their manifestation is clearly observed in the student's successes both in the educational process (successful adaptation, academic performance, constructive resolution of conflicts) and in his personal life (stress resistance, building relationships). It is expected that as higher education institutions pay more attention to socio-emotional learning and create a student-centered environment, the professional and personal success of future professionals will increase.

Keywords*: student, socio-emotional competencies, environment, education, profession, activity*

Аннотация. Исследования доказывают, что одним из главных факторов, препятствующих самореализации студентов в будущем и успешной профессиональной деятельности, является недостаточное развитие социально-эмоциональных компетенций. К сожалению, недооценка сущности социально-эмоциональных компетенций является международной проблемой. В последнее время развитие социально-эмоциональных компетенций у студентов рассматривается как одна из главных целей образовательной политики.

В статье мы затронем важность развития социально-эмоциональных компетенций параллельно с профессиональными знаниями студентов. Исследования показывают, что существуют определенные средства для интеграции социально-эмоциональных компетенций в образовательные программы. Методы обучения, групповые проекты, деятельность органов студенческого самоуправления и службы психологической поддержки напрямую способствуют формированию и развитию социально-эмоциональных компетенций в среде высшего образования. Их проявление отчетливо видно в успехах студента как в учебном процессе (успешная адаптация, академическая успеваемость, конструктивное разрешение конфликтов), так и в личной жизни (стрессоустойчивость, построение отношений). Ожидается, что по мере того, как высшие учебные заведения будут уделять больше внимания социально-эмоциональному обучению и создавать ориентированную на студентов среду, профессиональный и личный успех будущих специалистов будет расти.

Ключевые слова*: студент, социально-эмоциональные компетенции, среда, образование, профессия, деятельность*

Problemin aktuallığı Müasir dövrdə təhsil prosesinin məqsəd və vəzifələri dövrün tələblərinə uyğun olaraq kəskin şəkildə genişlənmişdir. Qeyd etsək yanılmarıq ki, texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə peşəkar biliklərə yiyələnmək tələbənin mütəxəssis kimi uğur qazanmasının yeganə yolu deyil. Dünya Təhsil Forumu, UNESCO və nüfuzlu tədqiqat mərkəzlərinin göstəricilərinə görə, işəgötürənlər indi məzunlardan texniki bacarıqlarla yanaşı yüksək inkişaf etmiş “yumşaq bacarıqlar” (soft skills) – məsuliyyət, uyğunlaşma qabiliyyəti, əməkdaşlıq, emosional müdriklik və mürəkkəb kommunikasiya vərdişləri gözləyirlər.

Məlumdur ki, ənənəvi təhsil sistemi əsasən koqnitiv biliklərin çatdırılmasına və qiymətləndirilməsinə yönəlmişdir. Bu da müəyyən ziddiyyətlərə səbəb olur. Buna nümunə olaraq iş bazarının tələbləri ilə təhsil prosesinin real nəticələri arasındakı ziddiyyət və tələbələrin formal bilikləri ilə sosio-emosional hazırlıq səviyyələri arasındakı ziddiyyəti qeyd etsək yanılmarıq.

Bu ziddiyyət özünü konkret problemlərdə göstərir:



Şəkil 1.1. Ənənəvi və müasir təhsil sistemləri arasındakı ziddiyyətlər nəticəsində yaranan konkret problemlər

Araşdırmalar sübut edir ki, ali təhsil müəssisələrində tələbələrin sosio-emosional səriştələrin sistemli şəkildə inkişaf etdirilməsinə lazımi diqqətin ayrılmaması son dərəcə aktual problemdir. Qeyd olunan problemlərin həll yolunu tapmaq nəinki tələbələrin şəxsi rifahı və peşəkar uğuru üçün vacibdir, eyni zamanda insan kapitalının keyfiyyətinin artırılması, innovativ iqtisadiyyatın inkişafı və sağlam cəmiyyətin qurulması baxımından strateji əhəmiyyətə malikdir. Problemin aktuallığını və kifayət qədər elmi ədəbiyyatın olmadığını nəzərə alaraq bu istiqamətdə araşdırılmaların aparılması məqsədəuyğun hesab edilmişdir.

Problemin işlənmə dərəcəsi Bu mövzunun araşdırılmasına olan tələbatın son 20-25 ildə kəskin şəkildə artdığı müşahidə olunur. Qərb də bu mövzu ilə bağlı əsaslı ədəbiyyatların olduğu müşahidə olunur. Son dövrlərdə isə Organization for Economic Co-operation and Development (OECD) təşkilatının “Future of Education and Skills: Education 2030”, “İnnovation and Education 2025” kimi layihələrin həyata keçirilməsi nəticəsində sosio-emosional öyrənmənin ali təhsilin ayrılmaz komponenti olduğunu təsdiq edən konseptual sənədlər hazırlanmışdır. Lakin, problem qlobal səviyyədə yüksək aktuallığa və kifayət qədər işlənmiş nəzəri-empirik bazaya malik olsa da, Azərbaycan təhsil kontekstində onun işlənmə dərəcəsi bir neçə tezis, konfrans materialları, məqalə, dissertasiya ilə məhdudlaşır.

Məqsəd və vəzifələr. Bu məqalənin məqsədi ali təhsil mühitində tələbələrin sosio-emosional kompetensiyalarının formalaşma dinamikasını, bu prosesə təsir edən amilləri

və bu bacarıqların təhsil-şəxsi həyatda necə özünü göstərdiyini araşdırmaqdır. Tədqiqatın əsasında elmi ədəbiyyatın, müxtəlif tarixi faktların təhlili durur.

Əldə edilən nəticələr. Məlumdur ki, sosio-emosional səriştələrinin təhsilalanlar arasında inkişaf etdirilməsi məsələsi bir çox ölkələrin, həmçinin Azərbaycan təhsil sistemində əsrlər boyu ikinci planda olmuşdur. Yaranan ciddi problemlər bu sahənin araşdırılmasına şərait yaratmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, ali təhsil müəssisələrində sosio-emosional səriştələrinin nkişafı formal, qeyri-formal və informal kontekstdə baş verir.

Formal təhsil kontekstində sosio-emosional səriştələrin inkişafını nəzərdən keçirsək şahidi olarıq ki, sosio-emosional səriştələrin humanitar və sosial-elmi fənlərin tədrisi prosesində tələbələrə mənimsədilir. Bu zaman nəzəri istiqamət əsas hesab olunur. Lakin araşdırmalar sübut edir ki, tələbələr debatlar, qrup layihələri, müzakirələr, problem həlledici simulyasiyalar zamanı sosio-emosional səriştələrin əsas səriştələrindən olan əməkdaşlıq, təzyiq altında işləmə və öz fikrini ifadə etmə bacarıqlarını daha sürətli mənimsəyirlər. Nəinki informasiyaları nəzəri qəbul edib, ona uyğun müvafiq imtahanlardan keçərək.

Qeyri-formal kontekst sosio-emosional inkişafın ən səmərəli platforması hesab olunur. Qeyri-formal mühitə tələbə klub və assosiasiyaları, könüllü təşəbbüslər, idman yarışları, tələbə özünüidarəetmə orqanları və s. aid edilir. Burada tələbələr real sosial vəzifələr daşıyır, müxtəlif insanlarla qarşılıqlı əlaqədə olur, məsuliyyət alır və münaqişələrdən çıxış yolları axtarır. Anket sorğuları göstərdi ki, bu cür fəaliyyətlərdə aktiv iştirak edən tələbələr, passiv tələbələrlə müqayisədə, özünüidarəetmə və sosial məsuliyyət göstəricilərində 30-40% daha yüksək nəticələr əldə etmişlər.

İnformal qarşılıqlı əlaqə zamanı tələbə yataqxanası, qruplararası ünsiyyət, müxtəlif mədəni mühitlərdən gələn tələbələrlə qarşılıqlı münasibətlər də inkişaf üçün güclü amil rolunu oynayır. Bu mühitdə tələbələr tolerantlıq, çoxtərəflilik və mədəni həssaslıq kimi keyfiyyətləri mənimsəyirlər.

Araşdırmalar sübut edir ki, sosio-emosional inkişafın sürəti və keyfiyyəti birbaşa olaraq tələbənin özünü inkişaf etdirmək istəyinə nə qədər məsuliyyətlə yanaşmasıyla əlaqəlidir. Özünün zəif cəhətlərini anlayan və onları aradan qaldırmaq üçün fəal addımlar atan tələbələr daha sürətli irəliləyiş göstərir.

Məlumdur ki, sosio-emosional bacarıqlar tələbə həyatının müxtəlif sahələrində aydın şəkildə özünü büruzə verir. Geniş mövzu olduğunu nəzərə alaraq mümkün qədər sistemləşdirməyə çalışsaq yığcam şəkildə aşağıdakı sahələri nəzərdən keçirə bilərik:

- Akademik fəaliyyətdə sosio-emosional bacarıqları aşağı olan tələbələrdə dərs cədvəlinin planlaşdırılması, görüləcək işləri təxirə salma, semestr imtahanları zamanı stressin idarə olunması və s. kimi hallarda daha çox çətinliklər müşahidə olunur. Müşahidələr göstərir ki, münaqişələri həll etmək bacarığı olmayan qrupların əksəriyyətində sosio-emosional bacarıqlı zəif olan tələbələr üstünlük təşkil edir. Təbii ki, bu da layihənin keyfiyyəti və iş sürətinin aşağı olması ilə nəticələnir. Digər tərəfdən akademik fəaliyyətdə sosio-emosional bacarıqları aşağı olan tələbələrdə müəllimin təqdim etdiyi materiala passiv yanaşma, sual vermə və alternativ həll yolları axtarmağa təşəbbüs etməmək üstünlük təşkil edir.
- Şəxsi və sosial həyatda sosio-emosional səriştələri aşağı olan

tələbələrdə yeni mühitə, yataqxana həyatına, müxtəlif sosial qruplara uyğunlaşmaqda ciddi problemlər müşahidə olunur. Xüsusilə də ilk kursun birinci semestrində. Bu tələbələrdə otaq yoldaşları, qrup yoldaşları, müəllimləriylə ünsiyyət qurmaqda, öz hərəkətlərinin və onların başqalarına təsirinin anlamaqda, öz güclü və zəif tərəflərini, maraqlarını və dəyərlərini dərk etməkdə, faydalı əlaqələr qurmaq və onları qoruyub saxlamaqda, özünü ifadə etmək və öz keyfiyyətlərini vurğulamaqda, təzyiq altında sakitliyini qorumaqda müəyyən çətinliklər bariz şəkildə müşahidə olunur.

Araşdırmalar sübut edir ki, sosio-emosional səriştələrin təzahürü inteqral xarakter daşıyır. Məsələn, yüksək səviyyəli özünüidarəetmə bacarığı həm akademik uğura, həm psixoloji sabitliyə, həm də peşəkar nailiyyətlərə birgə təsir göstərir. Bunları nəzərə alaraq uğurlu gələcək nəslin yetişdirilməsi üçün sosio-emosional səriştələrin inkişafına xüsusi önəm vermək məqsədəuyğundur.

Müşahidələr göstərir ki, mövcud təhsil sistemində sosio-emosional səriştələrin təhsilalanlar arasında inkişafının qarşısında əhəmiyyətli maneələr mövcuddur:

Sosio-emosional səriştələrin təhsilalanlar arasında inkişafının qarşısında duran maneələr

İnstitusional maneələr **Şəxsi və mədəni maneələr**

Şəkil 1.2. Mövcud təhsil sistemində sosio-emosional səriştələrin təhsilalanlar arasında inkişafının qarşısında əhəmiyyətli maneələr

İnstitusional maneələr dedikdə əsas problem kəmiyyət üstünlüyünün keyfiyyət üstünlüyündən yüksək qiymətləndirilməsi hesab olunur. Proqramların həddən artıq ağırlığı “yumşaq bacarıqlar”a verilən vaxt və diqqəti aşağı salır. Digər tərəfdən sosio-emosional bacarıqlar adətən rəqəmsal şkala ilə qiymətləndirilməməsi təhsilalanlar arasında bu sahəni mənimsəməyə olan tələbatı aşağı salır. İmtahanlarda riyaziyyat , ana dili fənləri kimi yüksək nəticə tələb edən fənn olmadığı üçün təhsilalanlar, müəllimlər və valideynlər tərəfindən vacib hesab olunmur.

Eyni zamanda bir çox müəllimlər öz fənlərini sosial-emosional komponentlərlə zənginləşdirmək üçün lazımi metodiki bilik və motivasiyaya malik deyillər.

Şəxsi və mədəni maneələr dedikdə isə ənənəvi təhsil sisteminin əvəzolunmaz olduğuna inanılması hesab olunur qeyd etsək yanılmarıq. Cəmiyyətin bir hissəsində ali təhsilin yalnız konkret bilik və diplom verməli olduğu stereotipi mövcuddur. Tələbənin passiv "bilik alıcısı" olduğuna inanan bəzi təhsil işçiləri təhsilalanları aktiv "inkişaf edən şəxs" kimi qəbul edə bilmir və nəticədə maneələr yaranır. Təəssüflər olsun ki, bir çox ali məktəblərdə psixoloji dəstək xidmətləri formal xarakter daşıyır və ya ümumiyyətlə effektiv deyil.

Problemin praktiki əhəmiyyəti. Məqalədə irəli sürülən elmi – nəzəri fikirləri, texnikaları müəllimlər tərəfindən gündəlik dərs praktikasında şagirdlərin fəallığının artırılmasında, təhsil işçiləri, praktik psixoloqlar, valideynlər, bu sahədə tədqiqat aparan elmi işçilər öz fəaliyyətlərində istifadə edə bilərlər.

Problemin elmi yeniliyi. Sosio-emosional səriştələrin təhsil sistemində olan boşluğu beynəlxalq səviyyədə araşdırılır və müəyyən islahatlar həyata keçirilir. Ölkəmizin heç bir yeniliklərdən geri qalmadığını nəzərə alsaq yaxın gələcəkdə müxtəlif araşdırmaların işıq üzü görəcəyi danılmazdır.

Nəticə Qeyd edilənləri nəzərə alaraq bildirə bilərik ki, ali təhsil müəssisələrində tələbələr arasında sosio-emosional səriştələrin inkişaf etdirilməsi üçün təhsil sistemində köklü islahatların aparılması labüddür. Bütün ixtisaslar üzrə tədris proqramlarına "Sosio-emosional səriştələrin inkişafı" modulu kimi daxil edilə bilən praktik fənlərin daxil edilməsi məqsədəuyğun olardı. Buna nümunə olaraq "Kommunikasiya və təqdimat", "Stress menecmenti", "Komanda quruculuğu", "Karyera planlaşdırması" və digər bənzər fənlərin təşkili və sonda qiymətləndirilməsi sosio-emosional səriştələrin təhsilalanlara mənimsədilməsində səmərəli rol oynaya bilərdi.

Digər tərəfdən tədris metodlarının yenilənməsi ilə problem əsaslı öyrənmə, xidmət öyrənməsi, təcrübəvi oyunlar, refleksiya sessiyaları kimi metodlardan daha geniş istifadə sosio-emosional səriştələrin inkişafının əsasını təşkil edir.

Eyni zamanda tələbələrin müəyyən klublara, dərnəklərə, könüllülük proqramlarına qoşulmalarının maliyyələşdirilməsi və ya "kredit" kimi tanınması da bu sahələrə olan marağın artması ilə nəticələnə bilər.

Müəllimlər üçün "Tədris prosesində sosio-emosional inkişafın dəstəklənməsi" mövzusunda xüsusi treninqlər və metodik materialların hazırlanması, sosio-emosional göstəricilərin portfel, özünüqiymətləndirmə, 360 dərəcəli rəy kimi alternativ üsullarla ölçülməsi və nəticələrinin təhlili məqsədəuyğun olardı.

Yekun nəticə kimi qeyd etmək olar ki, ali təhsil müəssisəsi tələbənin sosial-emosional cəhətdən yetkin bir şəxs kimi formalaşması üçün unikal mühitdir. Lakin bu proses öz-özünə, təsadüfi və qeyri-bərabər baş verir. Onun effektivliyini artırmaq üçün məqsədyönlü, sistemli və bütün təhsil iştirakçılarını (idarəetmə, müəllim heyəti, tələbələr) əhatə edən inteqrasiya olunmuş yanaşma tələb olunur. Belə yanaşma nəinki tələbələrin indiki uğurunu, həm də onların uzunmüddətli peşəkar və şəxsi rifahını təmin edəcək, eyni zamanda cəmiyyətə uyğun, məsuliyyətli və uyumlu vətəndaşlar yetişdirilməsinə kömək edəcəkdir.

Ədəbiyyat

1. Arbués, E., Abad-Villaverde, B., Costa-Paris, A., Balaguer, Á., Conesa-Lareo, MD, & Beltramo, C. Social-emotional competencies for sustainable development: An exploratory view. *Education*(7) –2025. –1-7 s.
2. Arslan, K. Eğitimde Yapay Zeka ve Uygulamaları // Batı Anadolu Eğitim Bilimler Dergisi – 2020. –71-88 s.

3. Durlak, JA, Weissberg, RP, Dymnicki, AB, Taylor, RD, & Schellinger, KB . The impact of strengthening students' social and emotional learning: A meta-analysis of universal school-based interventions. Child Development (1), 40 – 2011. –405-432 s.
4. Mayer, JD, Salovey, P., & Caruso, DR. Emotional intelligence: Theory, findings, and implications /Psychological İnguiry, 15(3)– 2004. –197-215 s.
5. Romero-García, C., Buzón-García, O., & Marcano, B. Social-emotional competence and identity of future secondary school teachers.*Edu*(3) – 2022. –161- 163 s.
6. Zins, JE, Weissberg, RP, Wang, MC, & Walberg, HJ. *Achieving academic success based on social and emotional learning: Teacher* – 2004. –244 s.
7. Azərbaycan Respublikası Elm və Təhsil Naziliyi. Azərbaycan məktəbi elmi pedaqoji jurnal chromeextension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://arti.edu.az/wp-content/uploads/2024/10/Azərbaycan-məktəbi-jurnali-N3-2024
8. Demokratiyanın İnkişafı Problemləri Mərkəzi. Tələbələrin sosiallaşması: mövcud reallıqlar və problemlər https://avropa.info/2025/07/23/t%C9%99l%C9%99b%C9%99l%C9%99rin-sosiallasmasi-movcud-realliqlar-v%C9%99-probleml%C9%99r/https:/ /www. google. com/url?sa =i& url= https % 3A % 2F%2 Fwww .elchapulind emontealban.com
9. Vəliyeva S. Tələbələrin Emosional və Psixoloji İnkişafının Aktual Məsələləri https:// dergipark. org.tr/tr/pub/atdd/article/1807788

Redaksiyaya daxil olub: 07.04.2026

MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ
HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT
ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ

UOT 37.01(075.8)

Təranə Şəmistan qızı Paşayeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0000-0001-1201- 3740
E-mail: terane.pashayeva.82@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).180-183

SƏFƏRƏLİ BƏY VƏLİBƏYOVUN PEDAQOJİ İRSİNDƏ OXUYUB ANLAMA BACARIQLARININ İNKİŞAFI

Tarana Shamistan Pashayeva
doctoral student in the program of doctor of philosophy
at Institute of Education of the Republic of Azerbaijan

THE PEDAGOGICAL HERITAGE OF SAFARALI BAY VALIBAYOV DEVELOPMENT OF READING COMPREHENSION SKILLS

Тарана Шамистан гызы Пашаева
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

РАЗВИТИЕ НАВЫКОВ ПОНИМАНИЯ ПРОЧИТАННОГО В ПЕДАГОГИЧЕСКОМ НАСЛЕДИИ САФАРАЛИ БЕКА ВЕЛИБЕКОВА

Xülasə. Bu məqalə Azərbaycan təhsil sistemində oxuyub anlama bacarıqlarının inkişafı problemini tarixi və pedaqoji aspektdə araşdıraraq, bu sahədə görkəmli maarifçi-pedaqoq Səfərəli bəy Vəlibəyovun rolunu elmi şəkildə təhlil etməyə həsr olunmuşdur. Tədqiqatın əsas məqsədi oxu-anlama bacarıqlarının formalaşmasında milli pedaqoji ənənələrin, xüsusilə Səfərəli bəy Vəlibəyovun pedaqoji irsinin əhəmiyyətini müəyyənləşdirməkdir. Araşdırma zamanı həm istifadə olunan elmi mənbələr, həm də təqdim olunmuş materiallar əsasında müəyyən edilmişdir ki, oxu və anlama bacarıqları yalnız texniki savadın deyil, həm də şagirdin idrak, təfəkkür və şəxsiyyət inkişafının əsas səriştələrin biridir.

Açar sözlər: oxuyub anlama bacarığı, Azərbaycan təhsil sistemi, Səfərəli bəy Vəlibəyov, ana dili tədrisi, şagird mərkəzli təlim, pedaqoji irs, maarifçilik fəaliyyəti

Abstract. This article is devoted to the historical and pedagogical aspect of the problem of developing reading comprehension skills in the Azerbaijani education system, and to the scientific analysis of the role of the prominent educator and pedagogue Safaraly bay Valibayov in this field. The main purpose of the study is to determine the importance of national pedagogical traditions, especially the pedagogical heritage of Safaraly bay Valibayov, in the formation of reading comprehension skills. During the study, it was determined, based on both the scientific sources used and the materials presented, that reading comprehension skills are one of the main components of not only technical literacy, but also the student's cognitive, thinking and personality development.

Keywords: reading comprehension, Azerbaijani education system, Safaraly bay Valibayov, mother tongue teaching, student-centered learning, pedagogical heritage, educational activity

Аннотация. Данная статья посвящена историко-педагогическому аспекту проблемы развития навыков понимания прочитанного в азербайджанской системе образования, а также научному анализу роли выдающегося педагога и деятеля педагогики Сафарали-бека Велибекова в этой области. Главная цель исследования – определить значимость национальных педагогических традиций, особенно педагогического наследия Сафарали-бека Велибекова, в формировании навыков понимания прочитанного. В ходе исследования, на основе как использованных научных источников, так и представленных материалов, было установлено, что навыки понимания прочитанного являются одним из главных компонентов не только технической грамотности, но и познавательного, мыслительного и личностного развития учащегося.

Ключевые слова*: понимание прочитанного, азербайджанская система образования, Сафарали-бек Велибеков, преподавание на родном языке, ориентированное на ученика обучение, педагогическое наследие, образовательная деятельность*

Müasir təhsil sistemində oxuyub anlama bacarıqları şagirdlərin intellektual inkişafının əsas göstəricilərindən biri kimi qəbul edilir. Bu bacarıqlar yalnız mətnin səthi qavranılması ilə məhdudlaşmır, eyni zamanda informasiyanın təhlili, müqayisəsi, ümumiləşdirilməsi və tətbiqi kimi mürəkkəb idrak proseslərini də əhatə edir. Xüsusilə XXI əsrdə informasiya axınının sürətlə artdığı bir şəraitdə oxuyub anlama bacarıqları şagirdlərin uğurlu akademik fəaliyyəti və sosial adaptasiyası üçün zəruri səriştələrindən biri hesab olunur. Azərbaycan təhsil

sistemində də bu bacarıqların inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir və kurikulum islahatları çərçivəsində xüsusi diqqət mərkəzində saxlanılır.

Oxu və anlama bacarıqlarının inkişafı problemi yalnız müasir dövrə aid deyil, bu məsələ Azərbaycan pedaqoji fikir tarixində də mühüm yer tutmuşdur. XIX əsrin sonu – XX əsrin əvvəllərində baş verən maarifçilik hərəkatı dövründə milli təhsilin formalaşması ilə yanaşı, şagirdlərin ana dilində oxu və düşünmə bacarıqlarının inkişafı əsas məqsədlərdən biri olmuşdur. Bu dövrdə fəaliyyət göstərən maarifçi-pedaqoqlar tədris prosesində yeni metodların tətbiqinə çalışaraq ənənəvi təlim üsullarını təkmilləşdirmişlər. Onların sırasında Səfərəli bəy Vəlibəyov xüsusi yer tutur. Onun pedaqoji fəaliyyəti və metodik yanaşmaları Azərbaycan təhsil tarixində dönüş nöqtəsi hesab edilə bilər [3, s.67].

Səfərəli bəy Vəlibəyov tədris prosesində şagirdlərin passiv dinləyici deyil, aktiv iştirakçı olmasını vacib hesab edirdi. Bu yanaşma oxuyub anlama bacarıqlarının inkişafı üçün fundamental əhəmiyyət daşıyır, çünki şagird yalnız mətnlə aktiv qarşılıqlı əlaqədə olduqda onun məzmununu dərk edə bilir. Səfərəli bəy dərslərində sual-cavab, müzakirə və praktik tapşırıqlardan istifadə edərək şagirdlərin mətn üzərində düşünmə və təhliletmə bacarıqlarını inkişaf etdirməyə çalışırdı.

Onun pedaqoji fəaliyyətində ana dilində tədris prinsipi xüsusi yer tutur. Vəlibəyov hesab edirdi ki, şagirdlər yalnız ana dilində oxuyub yazdıqda mətnləri daha dərindən anlaya və mənimsəyə bilirlər. Bu baxımdan onun hazırladığı dərsliklər, xüsusilə “Vətən dili” kitabı, oxu materiallarının məzmun və struktur baxımından sistemli təqdimatı ilə seçilir. Bu dərsliklərdə yalnız dil qaydaları deyil, həm də milli-mədəni məzmunlu mətnlər təqdim olunurdu ki, bu da şagirdlərin həm oxu bacarıqlarını, həm də dünyagörüşünü inkişaf etdirirdi.

Oxuyub anlama bacarığı üç əsas komponentdən ibarətdir: dekodlaşdırma (mətni texniki oxuma), interpretasiya (mətnin məzmununu dərk etmə) və refleksiya (mətnə münasibət bildirmə və onu yeni biliklərlə əlaqələndirmə). Azərbaycan məktəblərində uzun müddət bu komponentlərdən yalnız birincisinə üstünlük verilməsi şagirdlərin funksional savadlılığının zəif inkişafına səbəb olmuşdur. Halbuki, müasir pedaqoji yanaşmalar göstərir ki, oxu yalnız səsli və ya səssiz mətn qavrayışı deyil, həm də düşünmə fəaliyyətidir. Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyətində isə bu komponentlərin hamısının ilkin formalarının mövcud olduğu müşahidə edilir.

Onun tədris metodikasında oxu prosesi passiv qəbul deyil, aktiv idrak fəaliyyəti kimi təşkil olunurdu. Vəlibəyov şagirdlərin mətni sadəcə oxumasını deyil, onun üzərində düşünməsini, suallar verməsini və nəticələr çıxarmasını təşviq edirdi. Bu yanaşma müasir konstruktivist təlim nəzəriyyəsi ilə səsləşir. Konstruktivizmə görə, bilik hazır şəkildə ötürülmür, şagird tərəfindən aktiv şəkildə qurulur.

Oxuyub anlama bacarıqlarının inkişafında mətnin məzmunu və strukturu da mühüm rol oynayır. Əgər mətn şagirdin yaş xüsusiyyətlərinə, maraqlarına və həyat təcrübəsinə uyğun deyilsə, onun dərk edilməsi çətinləşir. Vəlibəyov bu məsələni nəzərə alaraq dərsliklərində real həyatla bağlı, milli-mədəni dəyərləri əks etdirən mətnlərdən istifadə etmişdir. Bu yanaşma yalnız didaktik deyil, həm də motivasiyaedici xarakter daşıyır. Şagird tanış və mənalı mətnlə qarşılaşdıqda onu daha asan anlayır və oxuya marağı artır.

Bu, müasir pedaqogikada “məna yönümlü oxu” prinsipi kimi tanınır.

Digər mühüm məsələ isə oxu strategiyalarının formalaşdırılmasıdır. Müasir təhsil sistemində oxuyub anlama bacarıqları müxtəlif strategiyalar vasitəsilə inkişaf etdirilir: proqnozlaşdırma, əsas ideyanı müəyyən etmə, suallar qurma, ümumiləşdirmə və s. Səfərəli bəy Vəlibəyovun dərs metodikasında bu strategiyaların intuitiv şəkildə tətbiq edildiyi müşahidə olunur. O, şagirdlərə mətni oxumazdan əvvəl mövzu haqqında düşünməyi, oxu zamanı əsas məqamları ayırmağı və oxudan sonra nəticə çıxarmağı öyrədirdi. Bu yanaşma şagirdlərdə metakoqnitiv bacarıqların – yəni öz düşünmə prosesini idarə etmə qabiliyyətinin inkişafına xidmət edir.

Oxuyub anlama bacarıqlarının inkişafı yalnız fərdi deyil, həm də sosial prosesdir. Şagirdlər müzakirə və əməkdaşlıq mühitində daha səmərəli öyrənirlər. Vəlibəyovun dərs prosesində tətbiq etdiyi kollektiv müzakirələr və qarşılıqlı öyrənmə elementləri bu baxımdan xüsusi diqqətəlayiqdir. Bu metodlar şagirdlər arasında fikir mübadiləsini gücləndirir, müxtəlif baxış bucaqlarının formalaşmasına şərait yaradır və nəticədə mətnin daha dərindən anlaşılmasına gətirib çıxarır [2, s. 202].

Azərbaycan təhsil sistemində müasir kurikulum islahatları çərçivəsində oxuyub anlama bacarıqlarının inkişafına xüsusi diqqət yetirilsə də, praktiki tətbiqdə müəyyən problemlər mövcuddur. Bu problemlər əsasən müəllimlərin metodik hazırlığının yetərli olmaması, dərsliklərin məzmununda balansın qorunmaması və qiymətləndirmə mexanizmlərinin daha çox reproduktiv biliklərə

Oxuyub anlama bacarıqlarının inkişafı kontekstual öyrənmə mühiti ilə sıx bağlıdır və şagirdin sosial təcrübəsi bu prosesə birbaşa təsir göstərir. Bu baxımdan tədris prosesində real hə-yat situasiyalarına əsaslanan mətnlərdən istifadə şagirdin mətnlə emosional və intellektual əlaqəsini gücləndirir. Oxu prosesinin yalnız fərdi deyil, həm də kollektiv fəaliyyət kimi təşkili şagirdlərdə kommunikativ bacarıqların inkişafına müsbət təsir göstərir. Bu yanaşma mətnin müxtəlif interpretasiyalarını ortaya çıxararaq daha dərin anlama səviyyəsinə şərait yaradır.

Eyni zamanda, oxuyub anlama bacarıqlarının inkişafı üçün diferensial təlim yanaşmasının tətbiqi zəruridir, çünki hər bir şagirdin idrak səviyyəsi və öyrənmə tempi fərqlidir. Bu kontekstdə fərdi tapşırıqlar və adaptiv mətn seçimi şagirdlərin potensialını maksimum səviyyədə reallaşdırmağa imkan verir. Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyətində fərdi yanaşma prinsipinin tətbiqi bu gün də aktuallığını qoruyur və müasir inklüziv təhsil prinsipləri ilə uzlaşır.

Oxu prosesində vizual və auditiv elementlərin inteqrasiyası da anlama səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Multimodal yanaşma şagirdlərin müxtəlif qavrama kanallarını aktivləşdirərək məlumatın daha səmərəli mənimsənilməsini təmin edir. Bu baxımdan müasir texnologiyaların tədris prosesinə inteqrasiyası oxuyub anlama bacarıqlarının inkişafına yeni imkanlar açır. Lakin texnologiyanın tətbiqi məqsədyönlü və pedaqoji əsaslandırılmış şəkildə həyata keçirilməlidir.

Digər tərəfdən, oxu materiallarının seçimi zamanı tənqidi düşünmə potensialı yaradan mətnlərə üstünlük verilməsi vacibdir. Belə mətnlər şagirdləri yalnız məlumatı qəbul etməyə deyil, həm də onu sorğulamağa və alternativ baxışlar formalaşdırmağa təşviq edir. Bu isə oxuyub anlama bacarıqlarının daha

yüksək səviyyədə inkişafına səbəb olur. Mətnlə işləmə zamanı reflektiv fəaliyyətin təşkili şagirdin öz düşünmə prosesini dərk etməsinə və onu tənzimləməsinə şərait yaradır.

Oxuyub anlama bacarıqlarının qiymətləndirilməsi də yenidən nəzərdən keçirilməlidir, çünki ənənəvi qiymətləndirmə üsulları bu bacarıqları tam əks etdirmir. Formativ qiymətləndirmə üsullarının tətbiqi şagirdin inkişaf dinamikasını izləməyə və ona fərdi dəstək göstərməyə imkan verir. Bu yanaşma şagirdin yalnız nəticəsini deyil, öyrənmə prosesini də qiymətləndirməyə şərait yaradır.

Nəhayət, oxuyub anlama bacarıqlarının inkişafı uzunmüddətli və davamlı prosesdir və bu proses yalnız məktəblə məhdudlaşmamalıdır. Ailə və sosial mühit də bu bacarıqların formalaşmasında mühüm rol oynayır.

Oxuyub anlama bacarıqları yalnız mətnin semantik məzmununun qavranılması ilə məhdudlaşmır, eyni zamanda şagirdin daxili psixoloji aləminin dərk edilməsi ilə də sıx bağlıdır. Bu baxımdan anlama bacarığı perseptual xarakter daşıyaraq şagirdin emosional vəziyyətini, düşüncə tərzini və fərdi xüsusiyyətlərini düzgün qiymətləndirmə qabiliyyətini əhatə edir. Belə yanaşma göstərir ki, anlama prosesi həm koqnitiv, həm də psixoloji müşahidəçilik bacarığı kimi çıxış edir və müəllimin şagird şəxsiyyətinin daxili dünyasına nüfuz etməsini tələb edir. Bu proses zamanı müəllim yalnız mətnin necə qavranıldığını deyil, həm də şagirdin həmin mətnə münasibətini, onun düşüncə ziddiyyətlərini və emosional reaksiyalarını analiz etməlidir [1, s. 30].

Oxuyub anlama bacarıqlarının inkişafı milli-mədəni kontekstdə də aktuallıq daşıyır. Ana dilində oxu və anlama bacarıqlarının zəifləməsi milli kimliyin və mədəni dəyərlərin ötürülməsinə mənfi təsir göstərə bilər.

Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyətində ana dilinə və milli-mədəni məzmunlu tədris materiallarına verdiyi önəm bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Onun yanaşması göstərir ki, oxu yalnız bilik əldə etmə vasitəsi deyil, həm də milli şüurun formalaşmasının mühüm alətidir. Bu baxımdan oxuyub anlama bacarıqlarının inkişafı problemi həm nəzəri, həm də praktik baxımdan son dərəcə aktualdır. Bu problemin həlli üçün müasir pedaqoji yanaşmalarla yanaşı, milli pedaqoji irsin də sistemli şəkildə öyrənilməsi və tətbiqi vacibdir. Səfərəli bəy Vəlibəyovun pedaqoji irsi bu baxımdan yalnız tarixi deyil, həm də müasir təhsil üçün aktual və perspektivli elmi mənbə kimi çıxış edir.

Problemin aktuallığı. Müasir dövrdə oxuyub anlama bacarıqlarının inkişafı yalnız pedaqoji deyil, həm də sosial-iqtisadi və mədəni inkişaf baxımından strateji əhəmiyyət kəsb edən problemlərdən biridir.

Problemin elmi yeniliyi. Təqdim olunan tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, oxuyub anlama bacarıqları problemi Azərbaycan pedaqoji fikir tarixi kontekstində sistemli şəkildə araşdırılaraq, bu sahə Səfərəli bəy Vəlibəyovun pedaqoji irsi ilə əlaqələndirilmişdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti onun nəticələrinin Azərbaycan təhsil sistemində birbaşa tətbiq imkanları ilə müəyyən olunur.

Ədəbiyyat

1. Əhmədov H.H. Pedaqogika: Dərslik. / H.H. Əhmədov, N.E. Zeynalova. –Bakı: Elm və təhsil, –2019, –352 s.
2. Əhmədov, H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi: dərslik / H. M. Əhmədov; elmi red. F. A. Rüstəmov; Azərbaycan Dövlət Pedaqoji Universiteti. – Bakı: ADPU nəşriyyatı, –2014. – 432 s.
3. Muradova Z. Şuşadan Qoriyə gedən yol. –Bakı: Orxan NPM, –2022. – 176 s.
4. Paşayeva T. Ş. Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti və müəllimlik irsi. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. №5, –s. 211-214
5. Sahib qızı Gülmirə. Səfərəli bəy Vəlibəyovun pedaqoji və maarifçilik ideyalarının müasir Azərbaycan təhsilində əksi // Qədim Diyar, Beynəlxalq elmi jurnal. –2025. № 7. –s. 50-53

Redaksiyaya daxil olub: 20.04.2026

UOT 316:37

Mehriban Ağa qızı Həsənova
Gəncə Dövlət Universitetinin İnformatika və cəbr kafedrasının professoru,
pedaqogika elmləri doktoru
https://orcid.org/0000-0002-7627-5196
E-mail: mehriban-70 @mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).184-190

MÜƏLLİMLƏRİN PEDAQOJİ SƏRİŞTƏLƏRİNİN SÜNİ İNTELLEKT DƏSTƏYİ İLƏ İNKİŞAFI

Mehriban Aga Hasanova
professor of the department of Informatics and algebra at Ganja State University,
doctor of pedagogical sciences

DEVELOPMENT OF TEACHERS' PEDAGOGICAL COMPETENCIES THROUGH ARTIFICIAL INTELLIGENCE SUPPORT

Мехрибан Ага гызы Гасанова
профессор кафедры Информатики и алгебры
Гянджинского Государственного Университета
доктор педагогических наук

РАЗВИТИЕ ПЕДАГОГИЧЕСКИХ КОМПЕТЕНЦИЙ УЧИТЕЛЕЙ ПРИ ПОДДЕРЖКЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

Xülasə. Bu məqalədə süni intellekt (Sİ) alətlərinin müəllimlərin pedaqoji səriştələrinin inkişafını necə dəstəklədiyi və bu təsirlərin orta gəlirli bir təhsil sistemində – nümunə kontekst kimi Azərbaycanın timsalında – geniş miqyasda tətbiqi üçün hansı siyasət şərtlərinin tələb olunduğu araşdırılır. 2018–2025-ci illəri əhatə edən siyasət sənədləri, ekspert açıqlamaları, rəydən keçmiş tədqiqatlar və etibarlı media mənbələri üzrə keyfiyyət yönümlü sübutların sintez təhlilinə əsaslanaraq nəticələri üç sahə üzrə sistemləşdiririk: (i) müəllim motivasiyası və peşəkar inkişafı; (ii) planlaşdırma, tədris, formativ qiymətləndirmə, sinfin idarə edilməsi və fasiləsiz təkmilləşmə istiqamətində səriştələrin gücləndirilməsi; və (iii) öyrənmə imkanlarına çıxışda bərabərlik. Sübutlar göstərir ki, Sİ rutin iş yükünü azalda, formativ qiymətləndirməni gücləndirə və diferensiallaşdırmanı dəstəkləyə, habelə Azərbaycan dilində təqdim olunduqda repetitorluğa bənzər dəstək imkanlarını genişləndirə bilər. Əsas məhdudiyyətlərə rəqəmsal infrastrukturun bərabər olmayan səviyyəsi, tapşırıq-spesifik müəllim peşəkar inkişafı üçün məhdud imkanlar, eləcə də məxfilik, şəffaflıq və məsuliyyətli istifadə ilə bağlı həllini tapmamış narahatlıqlar daxildir.

Açar sözlər: *süni intellekt, təhsil siyasəti, müəllimin pedaqoji səriştələri, peşəkar inkişaf, idarəetmə, bərabərlik, verilənlərə əsaslanan qərarvermə*

Abstract. This article explores how artificial intelligence (AI) tools support the development of teachers' pedagogical competencies and examines the policy conditions required for large-scale implementation of these impacts within a middle-

income education system, using Azerbaijan as a contextual example. Based on a synthetic analysis of qualitative evidence from policy documents, expert statements, peer-reviewed research, and reliable media sources covering 2018–2025, we systematize the findings into three areas: (i) teacher motivation and professional development; (ii) strengthening competencies in planning, instruction, formative assessment, classroom management, and continuous improvement; and (iii) equity in access to learning opportunities. Evidence suggests that AI can reduce routine workload, enhance formative assessment, and support differentiation, as well as expand tutor-like support opportunities when provided in the Azerbaijani language. Key limitations include uneven levels of digital infrastructure, limited opportunities for task-specific professional development, and unresolved concerns regarding privacy, transparency, and responsible use.

Keywords: *artificial intelligence, education policy, teacher pedagogical competencies, professional development, governance, equity, data-driven decision-making*

Аннотация. В данной статье исследуется, как инструменты искусственного интеллекта (ИИ) способствуют развитию педагогических компетенций учителей, и какие политические условия необходимы для широкомасштабного внедрения этих эффектов в образовательной системе со средним уровнем дохода (на примере Азербайджана). На основе синтетического анализа качественных данных из политических документов, экспертных заключений, рецензируемых исследований и достоверных медиа-источников за 2018–2025 годы, результаты систематизированы по трем направлениям: (i) мотивация и профессиональное развитие учителей; (ii) укрепление компетенций в области планирования, преподавания, формативного оценивания, управления классом и непрерывного совершенствования; и (iii) равенство в доступе к возможностям обучения. Доказательства показывают, что ИИ может снизить рутинную нагрузку, усилить формативное оценивание и поддержать дифференциацию, а также расширить возможности поддержки, аналогичной репетиторству, при условии доступности инструментов на азербайджанском языке. К основным ограничениям относятся неравномерный уровень цифровой инфраструктуры, ограниченные возможности для предметно-ориентированного профессионального развития, а также нерешенные вопросы конфиденциальности, прозрачности и ответственного использования.

Ключевые слова: *искусственный интеллект, образовательная политика, педагогические компетенции учителя, профессиональное развитие, управление, равенство, принятие решений на основе данных*

Giriş. Süni intellektin (Sİ) sürətli inkişafı təhsil sahəsində müəllim hazırlığı sistemləri üçün yeni imkanlar və çağırışlar yaradıb. Sİ-yə əsaslanan texnologiyalar getdikcə daha çox təlim və öyrənmə proseslərinə inteqrasiya olunur, müəllimlərə müəllim-mərkəzli yanaşmaların dizaynında, rutin tapşırıqların avtomatlaşdırılmasında və adaptiv öyrənmə təcrübələrinin təmin edilməsində dəstək verir. Bir çox tədqiqatlar vurğulayır ki, Sİ müəllimlərin yaradıcılığını, adaptivliyini və səmərəliliyini artırmaqla, ənənəvi pedaqoji təcrübələri transformasiya etmək potensialına malikdir (məsələn, [1]). Lakin Sİ-nin inteqrasiyası eyni zamanda etik istifadə, məlumatların məxfiliyi və texnoloji sistemlərə həddindən artıq etibar olunması riski ilə bağlı suallar doğurur.

Azərbaycan kontekstində Sİ-nin təhsilə tət biqi xüsusilə aktualdır. Hər il ali məktəblərə qəbul üçün hazırlaşan abituriyentlərin təxminən 80–85%-i yüksək məzmunlu imtahanlara hazırlaşmaq üçün fərdi repetitor xidmətlərindən asılıdır. Bu cür baha başa gələn əlavə təhsil imkanlarına güvənmək, hamının fərdi

müəllim tuta bilməməsi səbəbindən, təhsilə çıxışda bərabərsizlik yaradır. “Sİ-dən istifadə edən repetitor sistemləri”nin tətbiqi təhsil ekspertləri və siyasətçilər tərəfindən bu problemə perspektivli cavab kimi ictimai müzakirə olunur. Azərbaycan dilində başa düşə və ünsiyyət qura bilən belə sistemlər əlçatan və interaktiv öyrənmə təcrübələri təqdim etməklə, keyfiyyətli təhsilə çıxışı demokratikləşdirə bilər.

Bu inkişaflara baxmayaraq, Azərbaycanda Sİ-nin müəllimlərin pedaqoji səriştələrini formalaşdırmadakı rolunu araşdıran akademik ədəbiyyat hələ ki, məhduddur. Müəllim səriştələrini – səmərəli tədris üçün zəruri olan bilik, bacarıq, dəyərlər və münasibətlərin inteqrasiyası kimi başa düşülür – təhsilin keyfiyyətinin və şagird nəticələrinin yaxşılaşdırılmasında mərkəzi mövqe tutur. Xüsusilə, ənənə ilə innovasiya arasında tarazlıq axtaran keçid təhsil sistemlərində Sİ-nin bu səriştələrinin gücləndirilməsinə necə töhfə verə biləcəyini anlamaq olduqca vacibdir.

Bu tədqiqatın məqsədi, Azərbaycanda müəllimlərin pedaqoji səriştələrini dəstəkləyən bir vasitə kimi Sİ-nin rolunu araşdırmaqdır. Xüsusilə, aşağıdakı tədqiqat sualları cavablandırılır:

1. Sİ müəllimlərin motivasiyasını və peşəkar inkişafını necə dəstəkləyə bilər?
2. Sİ müəllimlərin yaradıcılıq, adaptivlik və müəllim-mərkəzli pedaqoji praktikaların inkişafına hansı yollarla töhfə verə bilər?
3. Sİ əsaslı repetitor sistemlərinin Azərbaycanda təhsilə çıxış və bərabərlik üçün hansı nəticələri vardır?

Bu suallara cavab verməklə, məqalə Sİ və təhsil mövzusunda beynəlxalq diskursa töhfə verir və siyasətçilər, məktəb rəhbərləri və müəllim hazırlığı institutları üçün həm nəzəri, həm də praktik nəticələr təqdim edir.

Ədəbiyyat icmalı.

Təhsildə Sİ: qlobal baxışlar. Son illərdə süni intellektin (Sİ) təhsildə tətbiqi əhəmiyyətli sürət qazanmış və təlim–öyrənmə proseslərinin təşkil olunma tərzini dəyişdirmişdir. Sİ-yə əsaslanan sistemlər hazırda adaptiv öyrənmə, fərdiləşdirilmiş repetitorluq, avtomatlaşdırılmış qiymətləndirmə və tələbə dəstək xidmətləri üçün geniş istifadə olunur. YUNESKO-ya [2] görə, Sİ sosial-iqtisadi mənşəyindən asılı olmayaraq bütün öyrənənlər üçün yüksək keyfiyyətli resurslara çıxış təmin etməklə təhsili daha inklüziv və ədalətli edə bilər.

Tədqiqatçılar vurğulayırlar ki, Sİ müəllimlərə daha səmərəli təlim strategiyaları dizayn etməyə imkan verir və müəllim-mərkəzli pedaqogikadan öyrənən-mərkəzli pedaqogikaya keçidi dəstəkləyir [1]. Məsələn, adaptiv öyrənmə platformaları tələbələrin göstəricilərinə dair məlumatları real vaxtda təhlil edə və fərdiləşdirilmiş tövsiyələr verə bilər; bu da müəllimlərə öyrənənlərin güclü və zəif tərəflərini daha səmərəli şəkildə müəyyənləşdirməkdə kömək edir [3]. Bu funksiya müəllimlərin iş yükünü azaldır və onlara pedaqogikanın yaradıcılıq tələb edən cəhətlərinə və tələbə ilə qarşılıqlı əlaqəyə daha çox vaxt ayırmağa imkan yaradır.

Təlimin səmərəliliyini artırmaqla yanaşı, Sİ təhsildə yeniliyi də təşviq edə bilər; bunu isə intellektual repetitor sistemləri, avtomatlaşdırılmış rəyvermə alətləri və tələbə nailiyyətləri üçün proqnozlaşdırıcı analitika vasitəsilə həyata keçirir [4]. Bu texnologiyalar yalnız fərdiləşdirilmiş öyrənmə trayektoriyalarını asanlaşdırmır, eyni zamanda müəllimləri yeni pedaqoji modellərlə sınaq aparmağa həvəsləndirir. Bununla belə, tədqiqatçılar Sİ-yə həddindən artıq güvənməmək barədə

xəbərdarlıq edir və müəllimlərin peşəkar mühakiməsinin, etik standartların və məlumatların məxfiliyinə dair təminatların qorunmasının vacibliyini vurğulayırlar [5].

Ümumilikdə qlobal təcrübə göstərir ki, təhsildə Sİ iki tərəfli qılınc rolunu oynayır: bir tərəfdən təlim və öyrənməni təkmilləşdirmək üçün misilsiz imkanlar yaradır, digər tərəfdən isə bərabərsizlik, nəzarət (surveillance) və təhsilin dehumanizasiyası ilə bağlı risklərin azaldılması üçün diqqətli idarəetmə tələb edir.

Müəllim səriştələrin və motivasiya. Müəllim səriştələri (planlaşdırma, tədris, qiymətləndirmə, sinfin idarə edilməsi və peşəkar inkişaf) təhsilin keyfiyyətinin və şagird nailiyyətlərinin əsas dayaqlarından biri kimi geniş şəkildə tanınır. Səriştələr yalnız fənn biliklərini və pedaqoji bacarıqları deyil, həm də dəyərləri, münasibətləri və müxtəlif öyrənmə kontekstlərinə uyğunlaşma qabiliyyətini əhatə edir [6]. Shulmanın [7] pedaqoji məzmun biliyi (pedagogical content knowledge) konsepsiyasına görə, səmərəli tədris fənn üzrə ixtisas biliyinin öyrənənlər üçün əlçatan olan formalarda təqdim edilməsinə imkan verən metodlarla inteqrasiyasını tələb edir.

Son illərdə tədqiqatçılar müəllimlərin bu səriştələrin daim təkmilləşdirməsi üçün ömürboyu peşəkar inkişafın əhəmiyyətini xüsusi vurğulayırlar [22]. Avropa Komissiyası (2013) qeyd edir ki, müəllim hazırlığı proqramları XXI əsr siniflərinin tələblərinə müəllimləri hazırlamaq üçün həm texniki, həm də sosial-emosional bacarıqları inteqrasiya etməlidir. Bundan əlavə, qloballaşma və sürətli texnoloji dəyişikliklər müəllimlərdən yalnız yeni bacarıqlar əldə etməyi deyil, həm də yaradıcılıq, tənqidi düşüncə və innovasiya qabiliyyətini inkişaf etdirməyi tələb edir.

Motivasiya isə müəllimlərin səmərəliliyinə təsir edən digər mühüm amildir. Ryan və Decinin [8] Özünümüəyyənləşdirmə Nəzəriyyəsi-nə (Self-Determination Theory) əsasən, daxili motivasiya, muxtariyyət (öz fəaliyyətinə nəzarət hissi) və kompetentlik hissi peşəkar fəaliyyətin əsas hərəkətverici qüvvələridir. Tədqiqatlar göstərir ki, motivasiyalı müəllimlər daha çox innovativ praktikalar tətbiq edir, yeni texnologiyaları inteqrasiya edir və peşəkar öyrənməyə davamlı şəkildə cəlb olunurlar [9]. Əksinə, motivasiyanın zəif olması və ya peşəkar dəstəyin məhdudluğu tükənmişlik və dəyişikliklərə müqavimət ilə nəticələnə bilər.

Əhəmiyyətlidir ki, texnologiyadan təhsildə istifadə müəllim motivasiyasına ikili təsir göstərir. Bir tərəfdən, texnologiya rutin tapşırıqları asanlaşdırmaq və yaradıcı pedaqoji yanaşmalara imkan verməklə müəllimləri gücləndirə bilər. Digər tərəfdən, sürətli texnoloji yeniliklər, xüsusilə müəllimlər adekvat təlim və institusional dəstək almadıqda, stress yarada bilər [10]. Buna görə, Sİ dövründə müəllim motivasiyasının möhkəmləndirilməsi yalnız texniki təlimlə məhdudlaşmamalı, həm də müəllimləri təhsil transformasiyasının mərkəzi aktorları kimi tanıyan sistemli siyasətləri əhatə etməlidir.

Pedaqoji səriştələrin gücləndirilməsi üçün Sİ-nin rolu. Son tədqiqatlar süni intellektin (Sİ) müəllimlərin pedaqoji səriştələrini dəstəkləmək və genişləndirmək baxımından transformativ potensialını ön plana çəkir [23]. Qiymətləndirmə, davamiyyətin qeydiyyatı və rəyvermə kimi rutin inzibati tapşırıqları avtomatlaşdırmaqla Sİ müəllimlərə daha yüksək səviyyəli pedaqoji fəaliyyətlər – o cümlədən kurikulumun dizaynı və fərdiləşdirilmiş tələbə dəstəyi – üçün daha çox vaxt ayırmağa imkan verir

[11]. Bu cür səmərələşmə müəllimlərin tədris praktikasında yaradıcılıq, innovasiya və tənqidi düşüncəyə fokuslanmaq imkanlarını artırır.

Sİ-nin pedaqogikaya ən mühüm töhfələrindən biri öyrənən-mərkəzli yanaşmaların tətbiqinə şərait yaratmasıdır. İntellektual repetitor sistemləri və adaptiv öyrənmə platformaları real vaxt rejimində rəy təqdim edir, tələbələrin irəliləyişini izləyir və məzmunu fərdi öyrənmə üslublarına uyğunlaşdırır [12]. Müəllimlər üçün bu alətlər tədrisi fərdiləşdirmək və tələbələri aktiv öyrənməyə cəlb etmək imkanlarını genişləndirən "gücləndiricilər" rolunu oynayır. Bu, müəllim səriştələrinin müasir tərifləri ilə üst-üstə düşür; həmin tərifl ər çevikliyi, adaptivliyi və öyrənənlərin müxtəlif ehtiyaclarına həssas olmağı önə çəkir [13].

Bundan əlavə, Sİ müəllimlərin peşəkar inkişafına verilənlərə əsaslanan refleksiya imkanları yaratmaqla töhfə verir. Proqnozlaşdırıcı analitika və öyrənmə idarəetmə sistemləri (learning-management systems) tələbə nailiyyətlərindəki nümunələri müəyyənləşdirə bilər; bu isə müəllimlərə öz strategiyalarının səmərəliliyini qiymətləndirmək və uyğun olaraq səriştələrini təkmilləşdirməkdə kömək edir. Sübutlara əsaslanan praktikaların gündəlik tədris fəaliyyətinə bu şəkildə inteqrasiyası tədqiqatla pedaqogika arasında körpü rolunu gücləndirir və müəllimləri öz bacarıqlarını fasiləsiz şəkildə inkişaf etdirməyə səlahiyyətləndirir.

Bununla belə, tədqiqatçılar xəbərdarlıq edirlər ki, Sİ-ni müəllim kompetensiyalarının əvəzedicisi kimi deyil, tamamlayıcı alət kimi nəzərdən keçirmək lazımdır. Sİ müəllimlərin sinifdəki mürəkkəblik və müxtəlifliyi idarə etmək imkanlarını genişləndirə bilsə də, pedaqogikanın münasibətə (relational) və etikaya dair ölçüləri mahiyyətcə insanidir və əvəzolunmazdır [14]. Odur ki, əsas çağırış müəllimlərin həm Sİ-dən səmərəli istifadə üçün texniki biliklərlə, həm də onu məsuliyyətli şəkildə tətbiq etmək üçün pedaqoji mühakimə ilə təchiz olunmasını təmin etməkdir.

Təhsildə bərabərlik və çıxış məsələləri. Bərabərlik və təhsilə çıxış, xüsusilə sosial-iqtisadi fərqliliklərin şagirdlərin keyfiyyətli öyrənmə imkanları əldə etmə qabiliyyətinə təsir etdiyi kontekstlərdə, qlobal təhsil sistemlərinin əsas narahatlıq mövzuları olaraq qalır. Şəxsi repetitorluğa (tez-tez "kölgə təhsil sistemi" kimi xarakterizə olunur) güvənmə həm öyrənənlər üçün dəstək mexanizmi, həm də bərabərsizliyin mənbəyi kimi geniş şəkildə sənədləşdirilmişdir [15]. Fərdi repetitorluq şagirdlərin rəqabətli imtahanlara hazırlaşmasına kömək etsə də, onun yüksək qiyməti sosial cəhətdən daha zəif ailələr üçün maneə yaradır və sosial-iqtisadi təbəqələşməni davam etdirir.

Sİ, geniş miqyasda yüksək keyfiyyətli təhsil resurslarına çıxışı artırmaqla bu bərabərsizlikləri aradan qaldırmaq üçün potensial həll yolu kimi təqdim olunur. Sİ ilə işləyən repetitor sistemləri fərdi repetitorluqla müqayisədə xərclərin kiçik bir hissəsinə fərdiləşdirilmiş tədris imkanı verə bilər və bununla da müxtəlif təbəqələrdən olan öyrənənlər üçün "şərtləri bərabərləşdirə" bilər [16]. Məsələn, intellektual repetitor sistemləri müxtəlif sosial-iqtisadi qruplar üzrə şagirdlərin riyaziyyat və təbiət elmləri öyrənməsində müsbət təsirlərə malik olduğunu göstərmişdir.

Bundan əlavə, Sİ əsaslı onlayn platformalar, ixtisaslı müəllim çatışmazlığının olduğu ucqar və ya zəif təmin olunmuş regionlardakı öyrənənlərə çatmaq baxımından xüsusilə effektiv olmuşdur [2].

Adaptiv rəy, dil dəstəyi və interaktiv məzmun təqdim etməklə bu sistemlər coğrafiya, əlillik və ya iqtisadi çatışmazlıqla bağlı maneələri azalda bilər. Bu inkişaflar Sİ-nin ikili potensialını ön plana çıxarır: o, müəllimləri və öyrənənləri gücləndirə bilər, lakin eyni zamanda texnoloji yeniliklərin mövcud təhsil uçurumlarını genişləndirməməsi üçün bərabərlik prizması ilə həyata keçirilməlidir [17].

Bu kontekstdə Azərbaycanda təklif edilən Sİ əsaslı, Azərbaycan dilli repetitor sistemləri təhsilə çıxışla bağlı yerli problemlərə texnoloji həllərin necə cavab verə biləcəyinə dair nümunə hesab oluna bilər. Əlçatan, Azərbaycan dilli repetitor alternativləri təqdim etməklə bu sistemlər bahalı fərdi dərslərdən asılılığı azalda və daha inklüziv təhsil mühitini dəstəkləyə bilər.

Azərbaycan konteksti. Azərbaycanda təhsildə bərabərlik, xüsusilə ali məktəblərə qəbul imtahanları üçün geniş yayılmış fərdi repetitorluq asılılığı səbəbindən ciddi şəkildə çətinləşir. Təxmini hesablamalara görə, ali məktəbə sənəd verən abituriyentlərin təqribən 80-85%-i yüksək rəqabətli qəbul prosesinə hazırlaşmaq üçün fərdi məşğələlərə gedir. Bu məşğələlər çox zaman nəticələri yaxşılaşdırsa da, bütün ailələr bu cür dəstəyi qarşılaya bilmədiyi üçün ciddi sosial-iqtisadi fərqlərə səbəb olur [18].

Müəllim səriştələri formal təhsilin keyfiyyətinin yüksəldilməsi və əlavə tədrisə (kurslara, repetitorluğa) olan asılılığın azaldılması baxımından əsas rol oynayır. Milli siyasət sənədlərində müəllimlərin pedaqoji bacarıqlarının, motivasiyasının və sinifdə rəqəmsal texnologiyaları inteqrasiya etmək qabiliyyətinin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanır [19]. Bununla belə, müəllimlər üçün peşəkar inkişaf imkanlarına qeyri-bərabər çıxış, müasir tədris texnologiyalarından məhdud istifadə və davamlı iş yükü təzyiqləri kimi problemlər hələ də qalmaqdadır [7].

Son illərdə Sİ azərbaycanlı siyasətçilər və təhsil ekspertləri tərəfindən bu çağırışlara mümkün cavab kimi dəyərləndirilir. Ən çox diqqət çəkən təşəbbüslərdən biri milli ehtiyaclarla uzlaşdırılmış, əlçatan Sİ əsaslı, Azərbaycan dilli repetitor sistemlərinin təklif edilməsidir. İdarəetmə Sistemləri İnstitutunun baş direktoru akademik Əli Abbasovun fikrincə, bu cür sistemlər riyaziyyat, tarix və coğrafiya da daxil olmaqla müxtəlif fənlər üzrə şagirdlər üçün interaktiv, Sİ dəstəkli öyrənmə mühitləri yaradaraq fərdi repetitorluğa alternativ kimi çıxış edə bilər [20]. Bu təşəbbüs, inklüzivliyi təşviq etmək və tədrisin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə qabaqcıl texnologiyaların təhsilə inteqrasiyasına dair daha geniş siyasət xəttini əks etdirir.

Bu ümidverici inkişaflara baxmayaraq, Azərbaycan təhsil sistemində Sİ-yə dair elmi tədqiqatlar hələ də məhduddur. Sİ-nin müəllimlərin səriştələrinə, motivasiyasına və peşəkar kimliyinə necə təsir etdiyini empirik şəkildə araşdıran işlər azdır. Buna görə də, bu tədqiqat Azərbaycan hadisəsini təhsildə Sİ-yə dair qlobal müzakirələr fonunda nəzərdən keçirməklə və Sİ-nin keçid mərhələsində olan təhsil sistemində pedaqoji səriştələr üçün dəstəkləyici mexanizm kimi necə fəaliyyət göstərə biləcəyini araşdırmaqla ədəbiyyatda mühüm boşluğu doldurmağa çalışır.

Metodologiya. Bu tədqiqat Azərbaycanda müəllimlərin pedaqoji səriştələrini dəstəkləyən vasitə kimi Sİ-nin rolunu araşdırmaq üçün keyfiyyətyönlü sübut sintezi və hadisə təhlili dizaynından istifadə etmişdir. Keyfiyyət ya-naşmasının seçilməsinin səbəbi ondan ibarət idi ki, bu ya-naşma Sİ-nin təhsil praktikasına inteqrasiyası ilə bağlı müəllimlərin

təcrübələrini, motivasiyalarını və baxışlarını daha dərindən anlamağa imkan verir [21].

Keyfiyyətyönlü sübut sintezi və hadisə təhlili, ənənəvi müəllim-mərkəzli yanaşmaların yeni texnologiya əsaslı innovasiyalarla yanaşı mövcud olduğu keçid mərhələsindəki təhsil sistemi kimi Azərbaycanın timsalında aparılmışdır. Tədqiqatın məqsədi Sİ əsaslı təşəbbüslərin – məsələn, Azərbaycan dilli Sİ-yə əsaslanan repetitor sistemləri üzrə təkliflərin – müəllim səriştələri, motivasiya və təhsilə çıxış məsələləri ilə necə kəsişdiyini araşdırmaq idi.

Təhlil aşağıdakı açıq mənbələrə əsaslanmışdır:

• Siyasət sənədləri – Azərbaycan Respublikasının Təhsil Nazirliyinin milli strategiyaları və hesabatları;

• Ekspert açıqlamaları – siyasətçilər və təhsil mütəxəssislərinin çıxışları və müsahibələri (məsələn,[20]);

• Akademik nəşrlər – təhsildə Sİ və müəllim səriştələri üzrə resenziyadan keçmiş tədqiqatlar;

• Media materialları – Azərbaycan məktəblərində Sİ alətlərinin tətbiqi ilə bağlı davam edən müzakirələri əks etdirən media xəbərləri və reportajlar.

Nəticələr: Mexanizmlər və dəstəkləyici amillər. Mövcud sənədlərin, ekspert rəylərinin və siyasət müzakirələrinin təhlili Azərbaycanda Sİ-nin müəllimlərin pedaqoji səriştələrini dəstəkləyən vasitə kimi roluna dair bir-biri ilə əlaqəli üç əsas nəticəni üzə çıxarır.

1. Müəllim motivasiyasının gücləndirilməsi üçün alət kimi Sİ. Nəticələr göstərir ki, Sİ qiymətləndirmə və davamiyyətin qeydiyyatı kimi təkrarlanan tapşırıqları avtomatlaşdırmaqla müəllimlərin inzibati iş yükünü azalda bilər. Bu isə pedaqoqlara şagirdlərlə qarşılıqlı əlaqəyə, yaradıcılığa və innovativ təlim praktikalarına daha çox diqqət yetirməyə imkan verir. Bir neçə ekspert vurğulamışdır ki, Sİ dəstəkli sistemlər müəllimlərdə peşəkar muxtariyyət hissini gücləndirə bilər və bu da yüksək daxili motivasiya səviyyələri ilə sıx bağlıdır. Bununla belə, müəllimlər üçün strukturlu təlim proqramlarının olmaması Sİ-nin motivasiyaedici təsirini məhdudlaşdırır, çünki bir çox müəllimlər Sİ alətlərini effektiv şəkildə inteqrasiya etməyə hazır olmadıqlarını bildirirlər [24].

2. Pedaqoji səriştələrin gücləndirilməsi. Sİ əsaslı platformalar şagirdlər üçün fərdiləşdirilmiş öyrənmə trayektoriyalarını təmin etməklə müəllimlərə daha müəllim-mərkəzli (yəni, müəllimin rəhbərliyi altında, lakin şagird ehtiyaclarına uyğunlaşdırılmış) yanaşmaları tətbiq etmək imkanı yaradır. Müəllimlər qeyd etmişlər ki, Sİ bilik boşluqlarını müəyyənləşdirməyə, şagirdlərin irəliləyişini real vaxtda izləməyə və fərdiləşdirilmiş təlim strategiyaları tövsiyə etməyə kömək edir. Bu, birbaşa olaraq adaptivlik, yaradıcılıq və reflektiv praktika kimi səriştələri dəstəkləyir. Bununla belə, nəticələr həmçinin göstərir ki, texnoloji potensial ilə sinifdə real tətbiq arasında boşluq mövcuddur; bir çox müəllimlər institusional dəstəyin kifayət etmədiyini və rəqəmsal infrastrukturun zəif olduğunu vurğulayırlar.

3. Təhsildə bərabərlik və çıxış məsələlərinin həlli. Nəticələr Azərbaycanda özünəməxsus bir problemi – sosial-iqtisadi bərabərsizliyi gücləndirən geniş yayılmış fərdi repetitorluq asılılığını – ön plana çıxarır. Sİ əsaslı təşəbbüslər, xüsusilə Azərbaycan dilli Sİ-yə əsaslanan repetitor sistemləri layihəsi, bahalı fərdi dərslərə alternativ kimi dəyərləndirilir. Bu sistemlər Azərbaycan dilində və riyaziyyat, tarix kimi fənlər üzrə yüksək keyfiyyətli repetitorluğa çıxışı demokratikləşdirə

bilər. Bununla belə, bərabərliklə bağlı narahatlıqlar qalmaqdadır; xüsusilə internet bağlantısı və rəqəmsal cihazlara çıxış imkanları məhdud olan kənd məktəbləri üçün bu risk daha kəskindir.

Ümumilikdə, nəticələr göstərir ki, Sİ pedaqoji səriştələr üçün aşağıdakı istiqamətlərdə mühüm "gücləndirici" rol oynaya bilər:

• iş yükünün azaldılması vasitəsilə müəllim motivasiyasının gücləndirilməsi;

• adaptiv və müəllim-mərkəzli tədrisin dəstəklənməsi;

• əlçatan repetitor alternativləri vasitəsilə təhsildə bərabərliyə töhfə verilməsi.

Eyni zamanda, bu faydaların reallaşması müəllim hazırlığı, rəqəmsal infrastruktur və məsuliyyətli Sİ tətbiqini təmin edən etik idarəetmə çərçivələrinə sistemli investisiyalardan asılıdır.

Problemin aktuallığı. Tədqiqatın aktuallığı süni intellektin təhsildə sürətlə yayılması, lakin onun müəllimlərin pedaqoji kompetensiyalarına təsirinin Azərbaycan kontekstində yetərincə araşdırılmaması ilə bağlıdır. Xüsusilə orta gəlirli və keçid xarakterli təhsil sistemlərində Sİ-nin müəllim motivasiyası, peşəkar inkişafı və təhsildə bərabərliyə təsiri məsələsi xüsusi elmi və praktik əhəmiyyət daşıyır**.**

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, burada süni intellektin müəllimlərin pedaqoji səriştələrə təsiri Azərbaycan təhsil sistemi nümunəsində kompleks şəkildə təhlil olunur. Məqalədə bu təsir müəllim motivasiyası, səriştələrin gücləndirilməsi və təhsildə bərabərlik istiqamətləri üzrə sistemləşdirilir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktiki əhəmiyyəti onun nəticələrinin müəllim hazırlığı proqramlarında, ixtisasartırma kurslarında və təhsil siyasətində istifadə oluna bilməsidir. Məqalədə irəli sürülən yanaşmalar Sİ-nin müəllimlərin planlaşdırma, qiymətləndirmə, diferensiallaşdırma və peşəkar inkişaf fəaliyyətlərinə daha məqsədyönlü inteqrasiyası üçün əsas yaradır.

Ədəbiyyat

1. Holmes, W., Bialik, M., & Fadel, C. (2019). Artificial Intelligence in Education: Promises and Implications for Teaching and Learning. Center for Curriculum Redesign.
2. UNESCO.(2021). AI and education: Guidance for policy-makers. UNESCO Publishing.
3. Luckin, R. (2021). Machine Learning and Human Intelligence: The Future of Education for the 21st Century. UCL IOE Press.
4. Chen, X., Xie, H., & Hwang, G. J. (2020). A literature review of artificial intelligence in education. Educational Technology & Society, 23(1), 1–12.
5. Williamson, B., & Eynon, R. (2020). Historical threads, missing links, and future directions in AI in education. Learning, Media and Technology, 45(3), 223–235.
6. OECD. (2019). Teaching for the Future: Effective Classroom Practices to Transform Education. OECD Publishing
7. M.A. Həsənova, L.E. Mehdiyeva Ali məktəblərin informatika müəllimliyi ixtisasında tədris proqramları və dərsliklərin problem baxımından təhlili // –Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, –2023. № 3, –s.113-115.
8. Ryan, R. M., & Deci, E. L. (2000). Self-determination theory and the facilitation of intrinsic motivation, social development, and well-being. American Psychologist, 55(1), 68–78.
9. Klassen, R. M., & Tze, V. M. C. (2014). Teachers' self-efficacy, personality, and teaching effectiveness: A meta-analysis. Educational Research Review, 12, 59–76.

10. Ertmer, P. A., & Ottenbreit-Leftwich, A. T. (2010). Teacher technology change: How knowledge, confidence, beliefs, and culture intersect. Journal of Research on Technology in Education, 42(3), 255–284.
11. Zawacki-Richter, O., Marín, V. I., Bond, M., & Gouverneur, F. (2019). Systematic review of research on artificial intelligence applications in higher education – where are the educators? International Journal of Educational Technology in Higher Education, 16(39), 1–27.
12. Woolf, B. P. (2021). Building intelligent interactive tutors: Student-centered strategies for revolutionizing e-learning. Morgan Kaufmann.
13. Darling-Hammond, L., & Bransford, J. (2005). Preparing teachers for a changing world: What teachers should learn and be able to do. Jossey-Bass.
14. Luckin, R. (2017). Towards artificial intelligence-based assessment systems. Nature Human Behaviour, 1(3), 0028.
15. Bray, M. (2017). Shadow education: Private supplementary tutoring and its implications for policy makers in Asia. UNESCO.
16. Roll, I., & Wylie, R. (2016). Evolution and revolution in artificial intelligence in edu- cation. International Journal of Artificial Intelligence in Education, 26(2), 582–599.
17. Selwyn, N. (2019). Should robots replace teachers? AI and the future of education. Polity Press. https://research.monash.edu/en/publications/should-robots-replace-teachers-ai-and-the-future-of-education/
18. Aliyev, R., & Kərimli, T. (2020). **Azərbaycanda özəl repetitorluq və təhsildə bərabərsizlik: Çətinliklər və siyasət nəticələri.** *Journal of Education Policy*, **35**(4), 553–567. https://www.researchgate.net/publication/267374422_Azerbaijan_How_Equitable_is_Access_to_Higher_Education
19. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2022). **Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət proqramı.** Bakı. https://edu.gov.az/en/programmes/2019-2023-dovlet-proqrami
20. Abbasov, A. (26 avqust 2025). **Azərbaycanda "robot-repetitor" layihəsi hazırlanır.** *AzEdu.az*. https://azedu.az/news/95824/
21. Creswell, J. W., & Poth, C. N. (2018). Qualitative inquiry and research design: Choosing among five approaches (4th ed.). SAGE Publications.
22. Tan, X., Cheng, G., & Ling, M. H. (2025). Artificial intelligence in teaching and teacher professional development: A systematic review. *Computers & Education: Artificial Intelligence, 8*, 100355. https://doi.org/10.1016/j.caeai.2024.100355
23. Li, K., Wang, P., & Chen, G. (2025). How can AI be integrated into teacher professional development programs? A systematic review based on an adapted technology-based learning model. *Teaching and Teacher Education, 168*, 105219. https://doi.org/10.1016/j.tate.2025.105219
24. Chen, R., Lee, V. R., & Lee, M. G. (2025). A cross-sectional look at teacher reactions, worries, and professional development needs related to generative AI in an urban school district. *Education and Information Technologies, 30*, 16415–16439. https://doi.org/10.1007/s10639-025-13350-w

Redaksiyaya daxil olub: 07.04.2026

UOT 37.01

Fidan Zəmani qızı Əskərova

Azərbaycan Dillər Universitetinin Psixologiya və Pedaqogika kafedrasının müəllimi,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0004-4587-6302
E-mail: fidan.askerova.90@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).191-194

TƏHSİL 4.0 VƏ SÜNİ İNTELLEKT ƏSASLI TƏLİM TEXNOLOGİYALARININ BAKALAVR SƏVİYYƏSİNDƏ TƏTBİQİ

Fidan Zamani Askerova
teacher of the department of Psychology and pedagogy of Azerbaijan University of Languages,
doctoral student in the program of doctor of philosophy
at the Institute of Education of the Republic of Azerbaijan

APPLICATION OF EDUCATION 4.0 AND ARTIFICIAL INTELLIGENCE-BASED EDUCATIONAL TECHNOLOGIES AT THE BACHELOR'S LEVEL

Фидан Замани Аскерова
преподаватель кафедры Психологии и Педагогики Азербайджанского Университета Языков,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики,

ПРИМЕНЕНИЕ ОБРАЗОВАНИЯ 4.0 И УЧЕБНЫХ ТЕХНОЛОГИЙ НА ОСНОВЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА НА УРОВНЕ БАКАЛАВРА

Xülasə. Təhsil 4.0 müasir ali təhsilin innovativ inkişaf modelini əks etdirərək rəqəmsal texnologiyaların təlim prosesinə sistemli şəkildə inteqrasiyasını nəzərdə tutur. Bu model çərçivəsində süni intellekt əsaslı təlim texnologiyaları tədrisin fərdiləşdirilməsinə, tələbələrin öyrənmə ehtiyaclarının daha dəqiq müəyyənləşdirilməsinə və təlim nəticələrinin optimallaşdırılmasına imkan yaradır. Süni intellekt vasitəsilə adaptiv öyrənmə mühitlərinin formalaşdırılması bakalavr səviyyəsində təhsilin keyfiyyətinin yüksəldilməsinə və tələbələrin müstəqil öyrənmə bacarıqlarının inkişafına şərait yaradır. Eyni zamanda, bu texnologiyalar interaktivlik və çeviklik təmin edərək tələbələrin təlim prosesində fəal iştirakını stimullaşdırır.

Məqalədə Təhsil 4.0 kontekstində süni intellekt əsaslı təlim texnologiyalarının bakalavr səviyyəsində tətbiq imkanları və pedaqoji əhəmiyyəti təhlil olunur.

Açar sözlər: *Təhsil 4.0, süni intellekt, rəqəmsal təhsil, adaptiv öyrənmə, fərdiləşdirilmiş təlim, ali təhsil, bakalavr səviyyəsi*

Abstract. Education 4.0 reflects the innovative development model of modern higher education and involves the systematic integration of digital technologies into the learning process. Within this model, artificial intelligence-based learning technologies allow for the individualization of teaching, more accurate identification of students' learning needs, and optimization of learning outcomes. The formation of adaptive learning environments through artificial intelligence creates conditions for improving the quality of education at the undergraduate level and developing students' independent learning skills. At the same time, these technologies provide interactivity and flexibility, stimulating the active participation of students in the learning process.

The article analyzes the application possibilities and pedagogical significance of artificial intelligence-based learning technologies at the undergraduate level in the context of Education 4.0.
Key words: *Education 4.0, artificial intelligence, digital education, adaptive learning, personalized learning, higher education, bachelor's level*

Аннотация. Образование 4.0 отражает инновационную модель развития современного высшего образования и предполагает систематическую интеграцию цифровых технологий в учебный процесс. В рамках этой модели технологии обучения на основе искусственного интеллекта позволяют индивидуализировать преподавание, более точно определять потребности студентов в обучении и оптимизировать результаты обучения. Формирование адаптивных учебных сред с помощью искусственного интеллекта создает условия для повышения качества образования на уровне бакалавриата и развития у студентов навыков самостоятельного обучения. Одновременно эти технологии обеспечивают интерактивность и гибкость, стимулируя активное участие студентов в учебном процессе.

В статье анализируются возможности применения и педагогическое значение технологий обучения на основе искусственного интеллекта на уровне бакалавриата в контексте Образования 4.0.
Ключевые слова: *Образование 4.0, искусственный интеллект, цифровое образование, адаптивное обучение, персонализированное обучение, высшее образование, уровень бакалавриата*

Müasir dövrdə cəmiyyətin sürətli rəqəmsallaşması təhsil sistemində də köklü və struktur xarakterli dəyişiklikləri zəruri etmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının geniş yayılması, biliklərin sürətlə yenilənməsi və əmək bazarının yeni tələbləri təhsilin məqsəd və məzmununun yenidən formalaşdırılmasını tələb edir. Bu baxımdan Dördüncü sənaye inqilabı (Industry 4.0) ilə səsləşən Təhsil 4.0 konsepsiyası ənənəvi tədris modellərindən fərqli olaraq texnologiya, innovasiya və fərdiləşdirilmiş öyrənməni ön plana çıxarır. Tədqiqatçılar Nelson S.Lubguban, Jr. və Marleonie M.Bauyot *"Təhsil 4.0 və onun sonrakı inkişaf mərhələlərində süni intellektin tətbiqi: sistematik baxış" ("Utilizing Artificial Intelligence for Education 4.0 and Beyond: A Systematic Review")* adlı tədqiqatlarında süni intellektin təhsil sistemlərində pedaqoji yanaşmaları transformasiya edərək fərdiləşdirilmiş öyrənmə imkanları və innovativ təlim strategiyaları yaratdığını vurğulayırlar (1, s. 162-83). Müəlliflər araşdırmada Təhsil 4.0 kontekstində süni intellektin əsas təhsil sahələrinə inteqrasiya istiqamətlərini və bu sahədə gələcək elmi tədqiqat perspektivlərini müəyyənləşdirirlər. Təhsil 4.0 çərçivəsində təlim prosesi yalnız bilik ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin yaradıcı düşünmə, problem həll etmə, tənqidi yanaşma və rəqəmsal bacarıqlarının inkişafını qarşıya məqsəd qoyur. Bu kontekstdə süni intellekt (Sİ) əsaslı təlim texnologiyaları xüsusilə ali təhsilin bakalavr pilləsində təlimin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Süni intellekt texnologiyaları tələbələrin öyrənmə üslublarını və bilik səviyyələrini analiz edərək fərdi ehtiyaclara uyğun adaptiv təlim mühitlərinin yaradılmasına imkan verir. Nəticədə tədris prosesi daha çevik, interaktiv və nəticəyönlü xarakter alır. Bununla yanaşı, Sİ əsaslı sistemlər tələbələrin səriştələrinin inkişafına, onların müstəqil öyrənmə bacarıqlarının formalaşmasına və real əmək

bazarının tələblərinə uyğun hazırlanmasına şərait yaradır. Virtual təlim köməkçiləri, avtomatlaşdırılmış qiymətləndirmə mexanizmləri və öyrənmə analitikası vasitəsilə təhsilalanların akademik nailiyyətləri davamlı şəkildə izlənilir və təlim prosesinin səmərəliliyi artırılır (3, s. 214). Belə ki, Təhsil 4.0 və süni intellekt əsaslı təlim texnologiyalarının inteqrasiyası ali təhsildə innovativ və davamlı inkişafın təmin olunmasında əsas amillərdən biri kimi çıxış edir.

Təhsil 4.0 anlayışı texnoloji inkişafların təhsil sisteminə sistemli və məqsədyönlü şəkildə inteqrasiyasını, tələbəyönlü və çevik öyrənmə mühitlərinin formalaşdırılmasını nəzərdə tutur. Bu konsepsiya biliklərin sürətlə yeniləndiyi və peşə tələblərinin davamlı şəkildə dəyişdiyi müasir dövrdə təhsilin funksional mahiyyətinin yenidən müəyyənləşdirilməsinə xidmət edir. Təhsil 4.0 ənənəvi müəllimmərkəzli tədris modelindən fərqli olaraq öyrənənlərin aktiv iştirakına, müstəqil düşünməsinə və praktiki bacarıqlarının inkişafına əsaslanır. Təhsil 4.0 anlayışı texnoloji inkişafların təhsilə inteqrasiyasını, tələbəyönlü və çevik öyrənmə mühitlərinin yaradılmasını nəzərdə tutur. Bu model çərçivəsində:

- rəqəmsal platformalardan geniş istifadə;
- layihə və problem əsaslı təlim;
- fərdiləşdirilmiş öyrənmə trayektoriyaları;
- ömürboyu təhsil prinsipi əsas prioritetlər kimi çıxış edir (4, s. 27).

Süni intellekt əsaslı təlim texnologiyaları məlumatların analizi, öyrənən davranışlarının izlənməsi və təlim prosesinin avtomatlaşdırılması imkanlarına əsaslanır. Bu texnologiyalara adaptiv öyrənmə sistemləri, virtual müəllimlər (chat-botlar), avtomatik qiymətləndirmə alətləri, tövsiyə sistemləri və öyrənmə analitikası daxildir. Sİ texnologiyaları təlim prosesində tələbələrin fərdi ehtiyaclarını müəyyənləşdirməyə və onların bilik səviyyəsinə uyğun məzmun təqdim etməyə imkan verir.

Bakalavr səviyyəsində süni intellekt əsaslı texnologiyaların tətbiqi tədris prosesinin səmərəliliyinin artırılması ilə yanaşı, tələbələrin müstəqil öyrənmə bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. Belə ki, bakalavr səviyyəsində süni intellekt əsaslı texnologiyaların tətbiqi tədrisin səmərəliliyini artırmaqla yanaşı, tələbələrin müstəqil öyrənmə bacarıqlarını da gücləndirir. Bu səviyyədə Sİ:

- tələbələrin akademik göstəricilərinin monitorinqində,
- fərdi öyrənmə sürətinin müəyyənləşdirilməsində,
- interaktiv və multimodal dərs materiallarının hazırlanmasında,
- qiymətləndirmə sisteminin avtomatlaş-dırılmasında geniş imkanlar yaradır (5, s. 1585–1597).

Süni intellekt sistemləri tələbələrin öyrənmə davranışlarını təhlil edərək onların fərdi ehtiyaclarına uyğun tədris strategiyalarının müəyyənləşdirilməsini təmin edir. Bu səviyyədə süni intellekt tələbələrin akademik göstəricilərinin monitorinqində geniş tətbiq olunur. Öyrənmə analitikası və böyük verilənlərin emalı vasitəsilə tələbələrin dərsə davamiyyəti, tapşırıqların yerinə yetirilmə səviyyəsi və imtahan nəticələri sistemli şəkildə izlənilir. Bu isə erkən müdaxilə imkanları yaradır və akademik risklərin qarşısının alınmasına şərait formalaşdırır. Eyni zamanda, fərdi öyrənmə sürətinin müəyyənləşdirilməsi tələbələrin bilik boşluqlarının vaxtında aşkarlanma-

sına və uyğun dəstək mexanizmlərinin tətbiqinə imkan verir.

Süni intellekt əsaslı texnologiyalar interaktiv və multimodal dərs materiallarının hazırlanmasında da mühüm əhəmiyyət kəsb edir. Mətn, səs, video və vizual elementlərin inteqrasiyası tələbələrin təlim prosesinə marağını artırır və öyrənmənin effektivliyini yüksəldir. Bununla yanaşı, virtual laboratoriyalar, simulyasiyalar və ağıllı təlim platformaları vasitəsilə nəzəri biliklərin praktiki tətbiqi təmin olunur. Formativ və summativ qiymətləndirmənin avtomatlaşdırılması isə qiymətləndirmə prosesinin obyektivliyini artırmaqla yanaşı, müəllimlərin iş yükünü azaldır.

Eyni zamanda, süni intellekt tələbələrin real problemlərin həllinə yönəlmiş bacarıqlarını inkişaf etdirərək onların peşə hazırlığını gücləndirir. Problemyönlü tapşırıqların və layihələrin Sİ vasitəsilə təhlili tələbələrin tənqidi düşünmə, analitik yanaşma və qərarvermə bacarıqlarının inkişafına müsbət təsir göstərir. Beləliklə, süni intellektin bakalavr səviyyəsində tətbiqi müasir ali təhsilin keyfiyyətinin yüksəldilməsində və rəqabətədavamlı mütəxəssislərin hazırlanmasında əsas amillərdən biri kimi çıxış edir.

Süni intellekt əsaslı təlim texnologiyalarının təhsil prosesinə tətbiqi bir sıra obyektiv və subyektiv çətinliklərlə müşayiət olunur. Bu çətinliklər texnoloji, pedaqoji, etik və sosial aspektlər üzrə özünü göstərir və onların nəzərə alınması süni intellektin tədrisdə səmərəli istifadəsi baxımından mühüm əhəmiyyət daşıyır. İlk növbədə, texniki infrastrukturun yetərsizliyi və rəqəmsal resurslara bərabər çıxış imkanlarının olmaması ali təhsil müəssisələrində süni intellekt texnologiyalarının geniş tətbiqini məhdudlaşdıran əsas amillərdən biridir. Xüsusilə regionlarda yerləşən təhsil müəssisələrində müasir avadanlıqların və stabil internet bağlantısının çatışmazlığı bu prosesin qarşısını alan faktorlar kimi çıxış edir.

Digər mühüm məhdudiyyət müəllimlərin rəqəmsal və texnoloji səriştələrinin kifayət qədər formalaşmaması ilə bağlıdır. Süni intellekt əsaslı təlim sistemlərinin effektiv tətbiqi üçün pedaqoji kadrların bu texnologiyalardan istifadə bacarıqlarına, həmçinin onların didaktik potensialını düzgün qiymətləndirmə qabiliyyətinə malik olmaları vacibdir. Müəllimlərin bu sahədə hazırlıq səviyyəsinin aşağı olması süni intellektin imkanlarından tam şəkildə yararlanmağa mane olur və təlim prosesində gözlənilən nəticələrin əldə edilməsini çətinləşdirir.

Bununla yanaşı, etik məsələlər və məlumat təhlükəsizliyi problemləri süni intellekt əsaslı təlim texnologiyalarının tətbiqində xüsusi diqqət tələb edir. Tələbələrə dair şəxsi məlumatların toplanması, emalı və saxlanılması prosesində məxfilik prinsiplərinin pozulması riski mövcuddur. Eyni zamanda, alqoritmik qərəzlilik və qərarların avtomatlaşdırılması təhsil prosesində ədalətlilik və obyektivlik prinsiplərinə mənfi təsir göstərə bilər. Bu səbəbdən süni intellekt sistemlərinin tətbiqi zamanı etik normalara riayət edilməsi və hüquqi tənzimləmələrin təmin olunması zəruridir.

Həmçinin süni intellektin tədris prosesində həddindən artıq istifadəsi insan amilinin zəifləməsi, müəllim-tələbə münasibətlərinin formal xarakter alması və sosial ünsiyyət bacarıqlarının məhdudlaşması kimi risklər yarada bilər. Təhsil prosesində müəllimin rolu yalnız texnologiya ilə əvəz edilə bilməz; əksinə, süni intellekt müəllimin pedaqoji fəaliyyətini dəstəkləyən vasitə kimi çıxış etməlidir. Buna görə də süni intellekt əsaslı texnologiyaların tətbiqi balanslı, mərhələli və pedaqoji prinsiplərə əsaslanan yanaşma tələb edir.

Nəticə etibarilə, təhsil 4.0 konsepsiyası çərçivəsində süni intellekt əsaslı təlim texnologiyalarının bakalavr səviyyəsində tətbiqi ali təhsilin müasirləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bu texnologiyalar tələbəyönlü, çevik və effektiv öyrənmə mühitinin formalaşmasına şərait yaradır. Lakin onların səmərəli tətbiqi üçün pedaqoji kadrların hazırlanması, texniki infrastrukturun gücləndirilməsi və etik normalara riayət edilməsi vacibdir.

Problemin aktuallığı. Müasir dövrdə rəqəmsal transformasiyanın sürətlənməsi və əmək bazarının dinamik tələbləri ali təhsil sistemində innovativ yanaşmaların tətbiqini zəruri edir. Dördüncü sənaye inqilabı ilə səsləşən Təhsil 4.0 konsepsiyası çərçivəsində süni intellekt əsaslı təlim texnologiyalarının tətbiqi bakalavr səviyyəsində təhsilin keyfiyyətinin artırılması, tələbələrin rəqabətədavamlı səriştələrinin formalaşdırılması baxımından xüsusi aktuallıq kəsb edir. Ənənəvi tədris modellərinin müasir çağırışlara tam cavab verməməsi bu texnologiyaların təhsil prosesinə inteqrasiyasını zəruri edən əsas amillərdən biri kimi çıxış edir.

Problemin yeniliyi. Süni intellekt əsaslı təlim texnologiyalarının Təhsil 4.0 kontekstində bakalavr səviyyəsində tətbiqi ali təhsildə nisbətən yeni və inkişaf etməkdə olan istiqamətlərdən biridir. Mövzu adaptiv öyrənmə sistemləri, öyrənmə analitikası, avtomatlaşdırılmış qiymətləndirmə və fərdiləşdirilmiş təlim yanaşmalarının pedaqoji aspektdən təhlilini əhatə etməklə yenilik xarakteri daşıyır. Məqalədə süni intellektin tədris prosesində imkanları və məhdudiyyətləri müasir elmi yanaşmalar əsasında araşdırılaraq mövcud tədqiqatların nəticələri ümumiləşdirilir və yeni yanaşmalar irəli sürülür.

Problemin praktik əhəmiyyəti. Məqalə ali təhsil müəssisələrində süni intellekt əsaslı təlim texnologiyalarının səmərəli tətbiqi üçün müəllimlər, təhsil menecerləri və metodistlər üçün praktiki əhəmiyyət kəsb edir. Təqdim olunan nəzəri müddəalar və praktik tövsiyələr bakalavr səviyyəsində təlim prosesinin daha çevik, fərdiləşdirilmiş və effektiv şəkildə təşkilinə imkan yaradır. Eyni zamanda, irəli sürülən yanaşmalar tələbələrin tədris prosesində fəal iştirakını təmin edərək onların peşə hazırlığının gücləndirilməsinə və ali təhsildə innovativ öyrənmə mühitinin formalaşmasına zəmin yaradır.

Ədəbiyyat

1. Jr., Nelson S. Lubguban, and Marleonie M. Bauyot. 2025. “Utilizing Artificial Intelligence for Education 4.0 and Beyond: A Systematic Review”. Asian Journal of Education and Social Studies 51 (6): - p. 162-83. https://doi.org/10.9734/ajess/2025/v51i61985.
2. Holmes, W., Tuomi I. State of the art and practice of AI in education // European Journal of Education. – 2024. – Vol. 59, No 1. - p. 5–21.
3. Luckin, R., Holmes, W., Griffiths, M., & Forcier, L. B. Intelligence Unleashed: An Argument for AI in Education. London: Pearson Education. -2023, - p. 214.
4. Zawacki-Richter, O., Marín, V. I., Bond, M., Gouverneur, F. Systematic review of research on artificial intelligence applications in higher education // International Journal of Educational Technology in Higher Education. -Vol.20, - 2023, 1-27.
5. Selwyn, N. Should robots replace teachers? AI and the future of education. British Journal of Educational Technology, -50(4), - 2019, -p.1585–1597.
6. UNESCO. Guidance on generative AI in education and research. – Paris: UNESCO Publishing, 2023. – p. 17.
7. OECD. Artificial Intelligence in Education: Challenges and Opportunities for Sustainable Development. – Paris: OECD Publishing, 2024. – 110 p.
8. https://www.scribd.com/document/520396541/InteligenciaArtificialGuiaPoliticasEducacion

9. Pedro, F., Subosa, M., Rivas, A., Valverde, P. Artificial Intelligence in Education: Challenges and Opportunities for Sustainable Development. – Paris: UNESCO, 2019. – p. 95.
10. Williamson, B., Eynon, R., & Potter, J. Pandemic politics, pedagogies and practices: Digital technologies and distance education during the coronavirus emergency. Learning, Media and Technology, – 2020. – 45(2), p. 107–114.

Redaksiyaya daxil olub: 29.04.2026.

İNFORMASİYA MƏDƏNİYYƏTİ VƏ TEXNOLOJİ SAVADLILIQ
INFORMATION CULTURE AND TECHNOLOGICAL LITERACY
ИНФОРМАЦИОННАЯ КУЛЬТУРА И ТЕХНОЛОГИЧЕСКАЯ ГРАМОТНОСТЬ

UOT 002.001.1

Firədun Nadir oğlu İbrahimov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının professoru,
pedaqogika elmləri doktoru
https: //orcid org/0000-0002-0775-1048
E-mail: firedun52@gmail.com

Sevinc İlqar qızı Kərimova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının baş müəllimi
https://orcid.org/0009-0004-3317 -4215
E-mail: kerimovasevinc2410@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).196-204

İNFORMASİYA MƏDƏNİYYƏTİNİN VƏ TEXNOLOJİ SAVADLILIĞIN SUBYEKTİNƏ MƏXSUS BACARIQLARIN ŞAGİRDLƏRDƏ FORMALAŞDIRILMASI MÜHİTİNİN TƏNZİMLƏNMƏSİ

Firadun Nadir Ibrahimov
professor of the Sheki branch of the Azerbaijan State Pedagogical University,
doctor of pedagogical sciences

Sevinj Ilgar Karimova
senior lecturer of the Sheki branch of the Azerbaijan State Pedagogical University

REGULATION OF THE ENVIRONMENT FOR DEVELOPING STUDENTS' SKILLS RELATED TO INFORMATION CULTURE AND TECHNOLOGICAL LITERACY

Фирадун Надир оглы Ибрагимов
профессор Шекинского филиала
Азербайджанского Государственного Педагогического Университета,
доктор педагогических наук

Севиндж Ильгар гызы Керимова
старший преподаватель Шекинского филиала
Азербайджанского Государственного Педагогического Университета

РЕГУЛИРОВАНИЕ СРЕДЫ ФОРМИРОВАНИЯ У УЧАЩИХСЯ НАВЫКОВ, ОТНОСЯЩИХСЯ К СУБЪЕКТУ ИНФОРМАЦИОННОЙ КУЛЬТУРЫ И ТЕХНОЛОГИЧЕСКОЙ ГРАМОТНОСТИ

Xülasə. Məqalədə göstərilir ki, “Texno – demokratik - informasiya cəmiyyəti”ndə yaşayan hər kəsin intellektual, yaradıcı fəaliyyət göstərməsi üstün tələbata çevrilir və bunun üçün bu cəmiyyətin hər bir üzvünün intellektual bacarıqların subyekti səviyyəsinə yüksəlməsi arzuolunandır, onlar informasiya mədəniyyətinə və texnoloji savadlılığa malik olmalıdırlar.

Tədqiqat işində intellektual bacarıqların(informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların) təhsialanlarda formalaşdırılması üçün səmərəli mühit sərgiləyən “Təhsil 4.0”-ın xüsusiyyətləri, bu sistemdə sözügedən bacarıqların müəyyən məntiqi əsasla formulə edilən qrupları təqdim edilmişdir.

Məqalədə diqqətə çatdırılır ki, bu tapşırıqlar müxtəlif intellektual bacarıqların strukturunun modelləşdirilməsi prinsipi əsasında tərtib edilir. Şagirdlər onları yerinə yetirdikcə öz işinin məqsədini müəyyən etmək, bu baxımdan tədris materialını sistemləşdirmək, müstəqil surətdə material toplamaq və s. kimi intellektual bacarıqlara yiyələnirlər.

İşdə informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların(intellektual bacarıqların) formalaşdırılması məqsədi ilə tətbiq ediləcək tapşırıqların seçilməsi, sistemə salınması və onların üzərində şagirdlərin fəaliyyətinin təşkil olunmasında zəruri olan, əldə rəhbər tutulmalı didaktik prinsiplərə diqqət yönəldilmişdir.

Açar sözlər: *intellektual bacarıqlar; metaidrak; metakoqnitiv bacarıqlar; yaradıcı təfəkkür; ideya; tapşırıq; interaktiv təlim; psixoloji dəstək; fasilitator; motivasiya; refleksiya*

Abstract. The article states that in the “techno-democratic information society,” intellectual and creative activity becomes a dominant necessity for every individual. It is desirable for each member of this society to rise to the level of a subject possessing intellectual competencies and have both information culture and technological literacy.

The research presents the characteristics of “Education 4.0,” which provides an effective environment for developing intellectual skills (skills inherent to the subject of information culture and technological literacy) in learners. It also introduces logically structured groups of these skills within this system.

The article emphasizes(highlights) that these tasks are designed based on the principle of modelling the structure of various intellectual skills. As students complete them, they acquire intellectual abilities such as defining the purpose of their work, systematizing educational materials accordingly, independently collecting information, and so on.

The study focuses on the selection and systematization of tasks aimed at developing skills related to information culture and technological literacy (intellectual skills), as well as on the didactic principles that should guide organizing students’ activities in working with these tasks.

Keywords: *intellectual skills; metacognition; metacognitive skills; creative thinking; idea; task; interactive learning; psychological support; facilitator; motivation; reflection*

Аннотация. В статье отмечается, что в «техно-демократическом информационном обществе» интеллектуальная и творческая деятельность становится приоритетной потребностью каждого человека. В связи с этим желательно, чтобы каждый член данного общества достиг уровня субъекта интел-

лектуальных способностей и обладал информационной культурой и технологической грамотностью.

В исследовании представлены особенности «Образования 4.0», обеспечивающего эффективную среду для формирования у обучающихся интеллектуальных навыков (навыков, присущих субъекту информационной культуры и технологической грамотности), а также даны логически обоснованные группы указанных навыков в рамках этой системы.

В статье подчёркивается, что задания разрабатываются на основе принципа моделирования структуры различных интеллектуальных навыков. По мере их выполнения учащиеся овладевают такими интеллектуальными умениями, как определение цели своей деятельности, систематизация учебного материала в соответствии с этой целью, самостоятельный сбор информации и др.

В работе акцентируется внимание на необходимых дидактических принципах, которыми следует руководствоваться при выборе, систематизации заданий и организации деятельности учащихся над ними с целью формирования навыков, присущих субъекту информационной культуры и технологической грамотности (интеллектуальных навыков).

Ключевые слова: *интеллектуальные навыки, метапознание, метакогнитивные навыки, творческое мышление, идея, задание, интерактивное обучение, психологическая поддержка, фасилитатор, мотивация, рефлексия*

Mövzunun aktuallığı. Hələ XXI əsrin əvvəllərində dövrün tələblərinə uyğun insanın necə yetişdirilməsi sualı qlobal müzakirələrə səbəb olmuşdur. Müasir dövrdə uğur qazanmaq üçün yalnız oxuyub yazmaq, riyazi və təbiət elmlərinə aid biliklərə malik olmaq azdır və daha çox səriştələrш nümayiş etdirmək tələb olunur. XXI əsrin xüsusiyyətləri tələb edir ki, insan yaradıcı fəaliyyət üçün zəruri keyfiyyətləri(sürətlə dəyişən, inkişaf edən dünyada yaşamaq və irəliləmək üçün qərar qəbuletmə, problem həlletmə, müstəqil öyrənmə, əməkdaşlıq, komandada çalışmaq, müxtəlif yanaşmaları dəyərləndirmək, yeni fikirlər irəli sürmək, təşəbbüs göstərmək və s. bacarıqları) inkişaf etdirməlidir. Bu, cəmiyyətin gələcəyinin inkişafı üçün dayanıqlılığa şərait yaradır. “Texno – demokratik - informasiya cəmiyyəti”ndə yaşayan hər kəs intellektual, yaradıcı fəaliyyət göstərməli olur. Bunun üçün insan informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların (intellektual bacarıqların) səviyyəsinə yüksəlməlidir. Odur ki, intellektual bacarıqların əldə olunmasının optimal yollarını müəyyənləşdirilməsi, adekvat yolları özündə ehtiva edən mühitin tənzimlənməsi zəruridir. Sözügedən məsələnin həllinin metodik sistemi isə kifayət qədər elmi əsaslarla işlənilməmişdir. Odur ki, “ İnformasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların şagirdlərdə formalaşdırılması mühitinin tənzimlənməsi” mövzusunun tədqiqatının aktuallığını iddia edirik.

Tədqiqatın məqsədi ümumi təhsilin həyata keçirilməsi prosesində informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların şagirdlərdə formalaşmasına yönələn pedaqoji təsirin istiqamətləri barədə ideya müəyyənləşdirməkdir. Nəzərə alınır ki, ideya vacib dəyərdir; insanın fəaliyyət dünyası həmişə ideyaya söykənir; hər kəs fəaliyyətinin nəticəsinin məqbul hesab etdiyi ideyaya adekvatlığını yoxlaya-yoxlaya addımlar atır.

Tədqiqatın metodoloji əsası. Tədqiqatın aparılması prosesində L. Bertalanfinin “Sistem təhlili ideyası”[2;8] əsasında(*mənası obyektin xassələrini onun hissələrinin xassələrinə əsasən öyrənmək cəhdi*

kimi izah olunan ideya-kursiv bizimkidir- F.İ., S.İ.) dialektikanın mühüm qolu kimi formalaşaraq onun alternativi səviyyəsinə yüksəlmiş "Sistem-struktur yanaşma"dan, elmi idrakın empirik, empirik-nəzəri və nəzəri metodlarından, elmi idrakın formalarının daxili əlaqələrindən, müxtəlif pedaqoji və psixoloji araşdırma ümumiləşdirmələrindən metodoloji əsas kimi istifadə olunmuşdur.

Tədqiqat materialları üzrə ümumiləşmələrin interpretasiyası: Danılmazdır ki, bəşər təcrübəsinin paylaşılması prosesi olan təhsil ictimai praktikanın(məxsusi olaraq pedaqoji elmin) məhsulu olaraq mərhələlər üzrə sənaye inqilablarının xüsusiyyətlərini özündə ehtiva etməklə inkişaf etmişdir. IV sənaye inqilabi dövründə yaradıcı, innovativ və qlobal miqyasda rəqabət apara biləcək nəsil formalaşdıra bilən təhsil sistemi tələb olunur və hazırda sözügedən inqilabının təhsil prosesinə təsiri və "*gələcəyin təhsili*" məsələsi müxtəlif platformalarda müzakirə olunur və müvafiq zəruri addımlar atılır [11], [12, s. 92-97] .

IV Sənaye İnqilabı həyatımızın müxtəlif sahələri üçün fərqli təsirlərə malikdir. Bu nöqteyi-nəzərdən təhsil üçün həm imkanlar, həm də problemlər mövcuddur. Lot, 3D çap, kvant hesablamaları, süni intellekt və s. kimi fərqli texnologiyaların istifadəsi informasiyanın daha effektiv şəkildə ötürülməsinə və yeni "təhsil çərçivəsinin" inkişafına imkan verir.[14; 78-94].

IV Sənaye inqilabının çağırışları ilə bağlı təhsil sistemində və onun həyata keçirilmə sistemində aparılan islahatların əsas hesab edilən iki səbəbini xüsusi fərqləndirmək lazımdır. *Birincisi,* sürətlə dəyişən qlobal iqtisadiyyatın tələbatlarına uyğun bilik (informasiyaya) və bacarıqlara sahib olan işçi qüvvəsinin yetişdirilməsi, *ikincisi,* sənaye inqilabı dövründə ona adekvat informasiya cəmiyyətinin inkişafı üçün lazım olan məhsuldar qüvvələri (işçi qüvvəsini) ərsiyə gətirə biləcək təhsil və onun həyata keçirilmə sisteminin qurulmasıdır. [9, s. 288]

Hazırda insanı daha güclü edən "texno-demokratik-informasiya cəmiyyəti" kimi sistem vardır. Bütün üzvlərinin lazımı şəkildə, kifayət qədər informasiya ilə təminatı və yüksək səviyyədə informasiya xidmətlərinin həyata keçirilməsi sözügedən cəmiyyətin məxsusi xüsusiyyətidir. İnformasiya cəmiyyəti sənaye cəmiyyətindən fərqli olaraq daha intellektual cəmiyyətdir və insanların yüksək təhsilli, bacarıqlı, qərarlı, hərtərəfli inkişafı üçün şərait yaradır**.**

İnformasiya cəmiyyəti dedikdə – informasiyanın istehsalı və istifadəsi, informasiya resursları, informasiya cəmiyyətinin baza texnologiyaları və texnikası, yeni informasiya – telekommunukasiya texnologiyaları və texnikası və s. başa düşülür. İnformasiya cəmiyyətinin əsas xarakterik xüsusiyyətləri bunlardır: cəmiyyətdə kütləvi şəkildə informasiya ehtiyaclarının ödənilməsi; cəmiyyətdə informasiya iqtisadiyyatı; cəmiyyət üzvlərinin yüksək səviyyədə informasiya tələbatı; cəmiyyətdə yüksək informasiya mədəniyyəti, cəmiyyət üzvləri üçün açıq informasiya şəbəkələrinin genişlənməsi; vahid informasiya mühitinin formalaşması və inkişaf etdirilməsi perspektivləri; cəmiyyət üzvləri üçün informasiya təhlükəsizliyi; qloballaşma və inteqrasiya səviyyəsi və s. "Texno-demokratik-informasiya cəmiyyəti"inin üzvləri informasiya mədəniyyətinə və texnoloji savadlılığa malik olmalıdırlar, əks halda onlar sözügedən cəmiyyətin fəal və yaradıcı üzvləri kimi özlərini təsdiq etmək iqtidarında olmazlar.

İnformasiya mədəniyyət (*information culture*) – insanın informasiya cəmiyyətinə uyğunlaş-

ması üçün zəruri olan bilik, intellektual bacarıq və vərdişlərdir. İnformasiya mədəniyyətinin formalaşmasında kompüter şəbəkəsinin rolu böyükdür. İnformasiya mədəniyyəti: cəmiyyətin informasiya resurslarından və informasiya kommunikasiya vasitələrindən istifadə etmək bacarığıdır; cəmiyyətdə informasiyalaşma və informasiya texnologiyaları vasitələrinin inkişafı sahəsində qabaqcıl nailiyyətlərin tətbiqidir; müasir texniki vasitə və metodlardan, kompüter texnologiyalarından istifadə etməklə informasiyanın əldə edilməsi və ötürülməsi bacarığıdır.

Texnoloji savadlılıq – insanların müxtəlif rəqəmsal texnologiyalardan istifadə etmə bacarığı, məlumatları təhlil etmə və təhlükəsiz şəkildə rəqəmsal mühitdə fəaliyyət göstərmə qabiliyyətidir. "Bu bacarıq sadəcə kompüter və internetdən istifadə etməklə məhdudlaşmır, həmçinin: 1) Rəqəmsal təhlükəsizlik və kibertəhlükəsizlik qaydalarına riayət etməyi; 2) Süni intellekt və avtomatlaşdırma ilə işləməyi; 3) Rəqəmsal analitika və data emalı bacarıqlarını; 4) Bulud texnologiyalarından istifadə etməyi; 5) Yeni texnologiyalara tez uyğunlaşmağı əhatə edir". [5]

Texnoloji savadlılıq informasiya və kommunikasiya texnologiyalarından istifadə etmək bacarığını ehtiva edir. *Rəqəmsal təhsil*, insanlara sosial həyatda müstəqil şəkildə iştirak etməyə imkan verir. Bundan əlavə, *rəqəmsal təhsil* və *rəqəmsal inqilab* gerçəyi mənəvi əxzetmə forma və metodlarında əsaslı dəyişiklikləri tələb edir, rəqəmsal bacarıqların ən vacib qabiliyyətə çevrilməsinə gətirib çıxarır. [16, s. 58-64]

Rəqəmsal bacarıqların inkişafı onların gələcəkdə rəqəmsal texnologiyalarla təhlükəsiz və effektiv şəkildə əlaqələndirilməsini təmin etmək üçün vacibdir. Təhsil sistemlərinin hərtərəfli və vahid yanaşma etməsi, bütün təhsilalanların rəqəmsal texnologiyaların aktiv və etik istifadəçisi olmaq bacarıqlarını inkişaf etdirməsinə dəstəyi lazımdır. [17, s. 57-79]

Rəqəmsal texnologiyalara əlçatanlığın təmin edilməsi məqsədilə təhsilalanların məktəbdə və evdə istifadə edə biləcəyi cihazlarla təmin etmək və ya BYOD (*Bring Your Own Device*) strategiyalarından istifadə olunur. Rəqəmsal bacarıqların formalaşdırılması üçün tədris planının yenilənməsi, *"təlim çərçivələri"*nin formalaşdırılması (*learning frameworks*), təhsilverənlərin təlimlərə cəlb olunması, rəqəmsal təhsil resurslarının inkişaf etdirilməsi kimi bir sıra addımlar atmaq olar [15].

Rəqəmsal texnologiya ilə təchiz edilmiş təhsilalanlar dünyanın müxtəlif yerlərindən olan həmyaşıdları ilə öyrənə və problemləri həll etmək üçün komanda şəklində həll yollarını inkişaf etdirə bilirlər (belə bir imkana sahib olurlar). Şübhə yoxdur ki, təhsilalanların rəqəmsal bacarıqlarının inkişafı onların gələcəkdə *rəqəmsal vətəndaşlar (digital citizenship)* kimi cəmiyyətdə daha fəal iştirakına səbəb olacaq. [15], [17, s. 57-79]

Təhsilalanların IV sənaye inqilabının təsiri ilə yaranan yeni sahələrdə bacarıq və qabiliyyətlərini nümayiş etdirə bilmələri üçün texnologiya və tədris olunan fənn proqramlarında əsaslı dəyişikliklərin həyata keçirilməsi zəruri hala gəlir. Yeni tədris proqramlarında "*baza elmlə*r" hesab edilən kimya, biologiya, fizika və s. əsasında formalaşan fənlərin tədris plan-layihələri yenidən nəzərdən keçirilməklə, IV sənaye inqilabı savadlılığının formalaşmasında əsas rol oynayan kompüter elmləri üzrə fənlərin tədrisinə daha çox yer verilməsi diqqət mərkəzinə çəkilməli olur. Təbii olaraq sözügedən fənlərin tədrisinə

daha çox yer verilməlidir. [20, s. 432-466]

Texnologiyanın sürətli inkişafı ilə əlaqədar olaraq, təhsilalanların təhsil müddətində öyrəndikləri bilik və bacarıqlar onlar təhsili başa vurana qədər köhnəlir. Elmi və texniki təhsildə günümüzün ən sürətlə inkişaf etməkdə olan texnologiyaların istifadəsinin inkişafına və formalaşmasına kömək etmək üçün təhsilalanları öyrətmək və onları rəqəmsal mühitə hazırlamaq lazımdır. Sürətlə dəyişən mühitə adaptasiya olmaq məzun olduqdan sonra belə, təhsilalanın təhsil müəssisələri ilə əlaqə qurmasını vacib edəcək və həm işçilərə yenilənmiş bacarıqları, həm də gənc təhsilalanlara (və müəllim heyətinə) sənaye və koorporativ sektorda sürətlə dəyişən həqiqətlərlə əlaqəli yeni bir istiqamət təqdim edəcək.[18, s. 25-30], [19, s. 579-592]

Danılmazdır ki, hər bir sənaye inqilabının çağrışlarında məxsusilik mövcuddur. Bu, dünyada gedən qlobal dəyişikliklərin fonunda təzahür edir, eyni zamanda informasiya mədəniyyətində də, texnoloji savadlılığın məzmununda da yeni çalarların mövcudluğunu şərtləndirmiş olur. Dünya tarixinin müxtəlif mərhələlərində insanlıq ciddi dəyişikliklərlə üz-üzə qalmış və aparılan islahatlarla nəticələr əldə etmişdir. Sənaye inqilablarının fonunda təhsil proqramları tərtibçiləri aşağıda özünə yer alan fundamental suallara cavab axtarmalı olmuşlar: 1) Hansı bilik, bacarıq və dəyərlər təhsil proqramlarında öz əksini tapmalıdır?; 2) Bu bilik, bacarıq, dəyərlər və səriştələr təhsilalanlarda zəruri həyati bacarıqları formalaşdıracaqmı?; 3) Təhsilin həyata keçirilmə prosesini təhsilalanlar üçün necə uyğun və maraqlı etmək olar?; 4) Qiymətləndirməni (təhsilin həyata keçirilməsi prosesinin ayrılmaz hissəsini) daha məhsuldar və səmərəli necə etmək olar?

Çağdaş zamanımızda təhsil proqramının keyfiyyətli olmasının göstəricisi olaraq onun aktuallığı, praktik olması, səmərəliliyi və davamlılığı kimi parametrlər diqqət mərkəzinə çəkilir, uğurlu olmasının göstəricisi isə təhsilalanlarda mənimsəmənin keyfiyyəti və təhsilalanların mənimsədiklərini nə dərəcədə səmərəli şəkildə öz şəxsi, sosial, idraki, psixoloji və emosional inkişafları üçün istifadə edə bilmələridir [3, s. 5].

Yeri gəlmişkən, qeyd edək ki, UNESCO-nun keyfiyyətli təhsil proqramı üçün aşağıdakı meyarlar vardır. Təhsil proqramının: aydın məqsədlərinin olması; bu günün tələblərinə cavab verməsi; təhsilalanların bugünkü və gələcək həyatları, təcrübələri, arzu və istəklərinə uyğunluğu; yaşadıqları ölkənin tarixini və mədəniyyətini nəzərə almaqla sosial və iqtisadi baxımdan təhsilalanlar üçün firavan gələcək qura bilmək məqsədinin olması; ədalətli və inklüziv olması (təhsilalanların fərdiliklərinin, fərdi ehtiyaclarının nəzərə alınması və s.); şagirdyönlü olması (təhsilalanın ehtiyaclarını nəzərə alırmı, təhsilalanın yaşına müvafiq olması, şəxsi inkişafa və həyat bacarıqlarının formalaşmasına kömək etməsi və təhsilalanların həddindən artıq yüklənməməsi); açıq və çevik olması (baş verən yeniliklərin məzmuna inteqrasiya etməsi); ardıcıl və əlaqəli olması [3, s. 5].

IV Sənaye İnqilabı sosial-iqtisadi sahələrdə olduğu kimi, təhsil sisteminə də öz təsirini göstərməkdədir. Sənaye inqilablarına uyğun "dərk və dəyişdirmə təcrübəsinin paylaşılması prosesi olan təhsil" – mərhələlər (sənaye inqilablarının məxsusi xüsusiyyətlərini özündə ehtiva etməklə) üzrə inkişaf etmişdir. Vurğulamaq yerinə düşər ki,

təhsil sistemində gözlənilən *paradiqmal dəyişikliklər və qlobal təhsil islahatının aparılması* IV Sənaye İnqilabının təsiri ilə daha da sürətlənmişdir.[21, s. 147-171]

Təhsil sistemi təhsilalanları sürətli iqtisadi və sosial dəyişikliklərə, hələlik mövcud olmayan işlərə, kəşf edilməmiş texnologiyalara, gözlənilməz sosial problemləri məqamında dərk etmək və onları sərişləli şəkildə aradan qaldırmağa qadir səviyyədə hazırlanmasına yönələn tələblə üzüzədir. Odur ki, təhsil sistemi bu tələbi yerinə yetirmək üçün davamlı şəkildə tənzimlənməli və həmin hədəfləri diqqət mərkəzinə almalıdır. IV Sənaye İnqilabı dövründə təhsil cəmiyyəti inkişaf etdirə biləcək potensiala, kompleks və dialektik imkanlara sahib olmalıdır. Təhsil müəssisələri təhsilalanların bilik əldə etməsi ilə yanaşı, *rəqəmsal və texnoloji savadlılıq* (*digital and technology literacy*) – intellektual bacarıqlar qazanmalarına nail olmalıdır [10].

Yuxarıda qeyd etdiyimiz kimi, texnoloji savadlılıq informasiya və kommunikasiya texnologiyalarından istifadə etmək bacarığını ehtiva edir. Rəqəmsal təhsil, insanlara sosial həyatda müstəqil şəkildə iştirak etməyə imkan verir. Rəqəmsal inqilab gerçəyi mənəvi əxzetmə forma və metodlarında əsaslı dəyişiklikləri tələb edir.

Sənaye 4.0 ilə əlaqədar olaraq *"innovasiyanın təhsil sistemlərində hakim olmağa başladığını*" söyləsək yanılmarıq. Təhsil müəssisələri yeniliyi yalnız qloballaşmanın təsiri ilə qlobal rəqabət qabiliyyətinin artmasını təmin etmək məqsədi ilə deyil, həm də onu təhsil sisteminin əsas hissələrindən biri kimi görməli olacaqdır. Dövrün tələbinə uyğun olaraq, yeni texnologiyaların öyrədilməsi əsas ehtiyaclardan biri kimi məntiqi əsasa dayanmaqla qəbul ediləcəkdir. "Həyat boyu öyrənmə" (*lifelong learning*) təhsil sisteminin əsas devizi olacaqdır. Təbidir ki, təhsilin məzmununda XXI əsr bacarıqları da nəzərə alınmalıdır: biliklə yanaşı kompleks problem həll etmə, tənqidi düşünmə, yaradıcılıq, liderlik, rəqəmsal savadlılıq, emosional zəka, qlobal vətəndaşlıq, əməkdaşlıq, müzakirə, mühakimə və qərarvermə kimi qabiliyyət və bacarıqların inkişafı da əsas öyrənmə nəticəsi olaraq qəbul ediləcəkdir.

Təhsil 4.0 cəmiyyətdəki dəyişikliklərə müvafiq olaraq təhsilalanların inkişafına kömək edən yeni texnologiyalardan istifadə bacarıqlarının (intellektual bacarıqların) formalaşmasına xidmət etməlidir. Təhsilalanlarda sadəcə oxumaq və yazmaq deyil, bütün həyatı boyunca istifadə edə biləcəyi bilik və bacarıqlar formalaşdırmalıdır. Beləliklə, sistem insan kapitalının ehtiyacını ödəmək üçün sosial və iqtisadi mühitdəki dəyişikliklərə cavab verməlidir. Təhsil 4.0 fərdləri yaradıcı və yenilikçi olmağa hazırlamaq məqsədi daşıyır. Təhsil təhsilalanların yaşadığı mühitlə uyğunlaşmalı, onlara etibarlı və uğurlu gələcək təmin etməlidir. Bu yeni sistem "ağıllı"*(smart)* məktəb idarəetmə sistemlərindən, öyrənmə idarəetmə proqramlarından, kommunikasiya vasitələrindən və təlim-tədris vasitələrindən istifadə edir [13, s. 238-254].

Təhsil 4.0 yanaşmasında, konstruktivist təhsil sistemləri və Blum taksonomiyasından kənara çıxmaqla, xüsusilə aşağıdakı istiqamətlərə əsaslanan, intellektual bacarıqların formalaşmasına və inkişafına yönələn mühitin - bir tədris prosesinin tətbiq ediləcəyi müəyyən edilmişdir: 1)Anlamanı tənzimləyən 3R (Recalling – Yada salma, Relating – Əlaqələndirmə, Refining–Yeniləmə); 2)Araşdırmağa təşviq edən 3I (Inquiring–Sorğulama, Interacting – Qarşılıqlı əlaqə, Interpreting – İzahetmə); 3)Nəticə çıxarmağa əsaslanan 3P (Participating–iştirak

etmə, Processing – tətbiq etmə, Presenting –təqdim etmə). [22; 92-98], [23; 40-45]

İnformasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların təhsilalanlarda formalaşması üçün səmərəli mühit sərgiləyən Təhsil 4.0 aşağıdakı xüsusiyyətlərə malikdir: 1) Zaman və məkandan asılı olmadan öyrənmə (həyat boyu öyrənmə, e-təhsil və s.); 2) Təhsilalanların bacarıq və qabiliyyətlərinə uyğun fərdiləşdirilmiş təhsil almaq imkanı; 3)Tədris planının hazırlanması zamanı təhsilalanların təkliflərinin nəzərə alınması; 4) Layihə əsaslı təlimin *(project based learning)* üstünlük təşkil etməsi; 5)Təhsilalanların böyük ölçülü verilənlər *(Big Data)* üzərində analizləri aparmaq qabiliyyətinin formalaşdırılması; 6) Təhsilalanların biliklərinin layihələrə tətbiq prosesində qiymətləndirilməsi; 7) İnkişaf etməkdə olan yeni texnologiyaların təhsil sisteminin bir hissəsinə çevrilməsi və s. [11, s. 12]

IV sənaye inqilabı dövründə "*ağıllı*" təhsil vasitələri və resursları fərdlərin daha mükəmməl təcrübə, bilik və bacarıqlara yiyələnməsinə, yenilikçi perspektivlərini üzə çıxarmasına imkan verməlidir.

Təhsil-tərbiyədə intellektual idrak bacarıqlarının formalaşması yolu çağdaş zəmanəmizdə tətbiq olunan, innovasiyanı özündə ehtiva edən təlimin məziyyətləri ilə adekvatdır.

Elmi mənbələrdə göstərilir ki, ümumi təhsilin həyata keçirilməsi prosesində təhsilalan (şagird) özünün əqli məziyyətlərini reallaşdırmaq, idrak fəaliyyətini məqsədyönlü tənzim etmək üçün zəruri intellektual bacarıqlara yiyələnməlidir. İntellektual bacarıqlar çoxsaylıdır. N.A. Mençinskayanın bu sahədəki araşdırmalarını nəzərə alaraq intellektual bacarıqları belə qruplara ayırmaq olar: 1. Ümumi intellektual bacarıqlar (planlaşdırma, kitabla iş, özünənəzarət); 2. Psixi fəaliyyətin təşkili üçün zəruri olan intellektual bacarıqlar(mətndə əsas fikri ayırd etmək, mətni mənasına görə hissələrə bölmək, hadisələri tutuşdurmaq və s.); 3. Xüsusi intellektual bacarıqlar (onlar bu və ya digər fənnin xüsusiyyətlərini əks etdirir, məsələn, qrafik bacarıqları). İntellektual bacarıqların İ. Untun müəllifi olduğu başqa bir təsnifatı isə belədir: 1.Tədris materialının qavranılması ilə bağlı bacarıqlar (oxu, müşahidə, dinləmək bacarığı); 2.Tədris materialı ilə məntiqi əməliyyat aparmaq bacarığı(mühüm olanın aid edilməsi, müqayisə, nəticə çıxarmaq bacarığı və s.); 3. Yaradıcılıq bacarıqları (kompozisiya qurmaq bacarığı və s.). [1; 60]

İnformasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların başlıca funksiyası fikri əməliyyat eksteriorizasiyası (psixi fəaliyyətə xarici, praktik fəaliyyətin interiorizasiyası, buna müvafiq olaraq, praktik fəaliyyətə daxili, psixi fəaliyyətin eksteriorizasiyası-xarici olana çevrilmə kimi baxılır) ilə əlaqədardır: idrak fəaliyyətinin məzmunu fikri əməliyyatlarla şərtlənir, onların fəaliyyəti prosesində reallaşması isə bilavasitə intellektual bacarıqların səviyyəsindən asılıdır. [1, s. 60], [7, s. 174]

İnsanın özünü dərk etməsi həmişə dünya fəlsəfəsi, psixologiyası və pedaqogikasının aktual problemi olub. Elm xadimləri insanın özünü dərk etməsinə şəxsiyyət yönümündən yanaşıb, onun köklərini insanın öz "Mən"i haqqında təsəvvürlərinin formalaşması prosesində axtarıblar. Təəssüf ki, tədqiqatçılar son dövrlərədək insanın öz ağıl dünyasının, təfəkkür aləminin, koqnitiv proseslərinin xüsusiyyətlərini dərk etməsini kifayət qədər dəyərləndirməyiblər.

Məktəb təcrübəsində də idrak fəaliyyətinin psixologiyası yetərincə öyrənilməyib, şagirdlər özlərinin hafizə və ya təfəkkürünün xüsusiyyətləri ilə maraqlansalar da, onların maraqları təmin olunmayıbdır. Çağdaş Amerika psixologiyasında bu məsələ diqqət mərkəzinə çəkilərək metaidrak sistemi kimi öyrənilməyə başlanılmışdır. Müəyyən edilmişdir ki, uşaqlar inkişaf etdikcə onlarda koqnitiv (idrak) proseslər haqqında müəyyən təsəvvürlər formalaşır və özlərinin əqli fəallıqlarını tənzim etməyə başlayırlar.

Vurğulamaq yerinə düşər ki, özünümonitorinq, özünütənzimləmə, özünüqiymətləndirmə metakoqnitiv bacarıqlar olub, bir-biri ilə əlaqəli, lakin fərqli anlayışlardır. İnsanın özünün dərk proseslərindən agah olması və dərk etməsidir. *Özünümonitorinq* tapşırıq zamanı hərəkətlərini, davranışlarını və idraki proseslərini müşahidə etmək və izləməkdən ibarətdir. Burada təhsilalan (şagird) özünü nəzarətdə saxlamağa cəhd etmir, öz fəaliyyətini mühakimə etmir, dəyərləndirmir. Sadəcə özünü müşahidə edərək performansı haqqında məlumat toplayır. Bu prosesin əsas komponentləri bunlardır: müşahidə; agah olmaq; rəy. *Özünütənzimləmə* insanın məqsədə çatmaq üçün idrakını, emosional vəziyyətini və davranışını nəzarətdə saxlaması və idarə etməsidir. Bu prosesin əsas komponentləri bunlardır: məqsədin müəyyən edilməsi; planlaşdırma; emosional tənzimləmə; uyğunlaşma. Özünüqiymətləndirmə özünün fəaliyyəti və ya öyrənməsi haqqında mühakimə yürütmək və ya qiymətləndirməkdir. Bu prosesin əsas komponentləri bunlardır: qiymətləndirmə; refleksiya. [3, s. 50]

Flavell metaidrakın bəzi funksiyalarını ətraflı öyrənmiş və təsvir etmişdir. Onlardan aşağıdakıları qeyd etmək olar: 1. Problemin qoyuluşu və onun mümkün həll yolunun müəyyən edilməsi; 2. Tapşırığın həlli üçün hansı koqnitiv prosesin zəruri olmasını bilmək; 3. İdrak qaydaları və üsullarının aktivləşdirilməsi; 4. Təfəkkürün imkanlarına inam; 5. Tapşırıqları daha səmərəli həll etmək cəhdi. Bu funksiyalar bir-biri ilə qarşılıqlı əlaqədədir. Birinci funksiya uşaqlarda fəaliyyətin məqsədləri haqqında təsəvvürlərin əmələ gəlməsi ilə şərtlənir. Yaş artdıqca onlar məlum yolları müxtəlif situasiyalara tətbiq etməyi öyrənirlər. Tədricən şagirdlərdə koqnitiv proseslər haqqında təsəvvürlər formalaşır. Onlar başa düşürlər ki, materialı yadda saxlamaq üçün müəllimə diqqətlə qulaq asmaq, yada salmaq üçün xatırlamaq lazımdır. Şagirddə bu psixoloji proseslər haqqında təsəvvürlər aydın olanda, o, tapşırığın xarakterindən asılı olaraq bir halda diqqəti, başqa halda hafizəni fəallaşdırır. Bu prosesdə onun səriştəsi tədricən artır: o, məsələni həll etmək üçün yeni-yeni yollar axtarır. Şagird öz təfəkkürünün imkanlarına inananda çətinliklərdən çəkinmir, uğursuzluğa düçar olsa da belə, fikirləşir və məsələni həll etməyə çalışır. Bu prosesdə də onun özünə münasibəti dəyişir. Tapşırığı tələm – tələsik, başdansovdu deyil, səmərəli yollarla həll edir [1, s. 60].

P.Mussen, C.Konqer, C.Kaqan və A. Hyustonun fikrincə, qeyd olunan funksiyalar bütün uşaqlarda bu və ya digər dərəcədə inkişaf edir. Lakin onların inkişaf səviyyəsinə tərbiyə şəraiti mühüm təsir göstərir. Metaidrak funksiyaları yaxşı təşkil olunmuş şagirdlər tədris (idrak) tapşırıqlarını planauyğun və məqsədyönlü həll edirlər. Bu funksiyalar uğurlu təlimin (təlim elə fəaliyyətdir ki, onun bilavasitə məqsədi müəyyən məlumatları, hərəkətləri, davranış formalarını mənimsəməkdən ibarətdir) zəruri şərtidir [7, s. 192]. Onları hər vasitə ilə inkişaf etdirmək lazımdır. Məsələnin aktuallığı elmi

metodik surətdə bütün aydınlığı ilə dərk edilməli və bu sahədə məktəbdə sistemli iş aparılmalıdır.

İnformasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların şagirdlərdə formalaşdırılması məqsədilə xüsusi tapşırıqlar sistemi tətbiq olunur. Bu tapşırıqlar müxtəlif intellektual bacarıqların strukturunun modelləşdirilməsi prinsipi əsasında tərtib olunur. Şagirdlər onları yerinə yetirdikcə öz işinin məqsədini müəyyən etmək, bu baxımdan tədris materialını sistemləşdirmək, müstəqil surətdə material toplamaq, inşa yazmaq və s. kimi intellektual bacarıqlara yiyələnirlər. İnkişafetdirici təlim prinsipi baxımından bu yol səmərəli sayılır. Lakin ondan məqsədyönlü istifadə etmək üçün intellektual bacarıqların siniflər və fənlər üzrə sistemi və məzmunu əsaslı şəkildə işlənilməlidir.

Subyektiv anlamımıza görə, ümumtəhsil məktəblərində tətbiq edilməkdə olan kurikulum modelindən yaradıcılıqla istifadə etməklə (bu, müəllimin elmi-nəzəri hazırlığı və pedaqoji ustalığı ilə şərtlənir) informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların (intellektual bacarıqların) şagirdlərdə inkişafı məqsədini də hədəfləyən tapşırıqlar sistemini formalaşdırmaq mümkündür.

Ümumi, spesifik təlim nəticələrinə və fəaliyyət göstəricilərinə yönələn fəal təlim üçün tapşırıqların hazırlanmasında təfəkkür növlərinin iyerarxiyası sadədən mürəkkəbə doğru aşağıdakı qayda ilə qurulur: *məntiqi təfəkkür-tənqidi təfəkkür-yaradıcı təfəkkür.* Təfəkkürün əməliyyatları onun növünü müəyyən etməyə əsas verir. Bu amildən də təlimin idarə olunmasında faydalanmaq olur.

Tapşırıqlar və onların sistemi**:** dərsin məqsədinə uyğun və qoyulan tədqiqat probleminin həllinə yönəlmiş olmalıdır(təfəkkürün növünə görə, məlumat mənbələrinə görə, nəticələri təqdimetmə formasına görə və s.); şagirdlərin yaşına, bilik və intellektual səviyyəsinə, qabiliyyətlərinə və maraqlarına uyğun olmalı, diferensial xarakter daşımalıdır; dövlət proqramına və milli dəyərlərə əsaslanmalıdır; aktual, real həyatla və şagirdlərin təcrübələri ilə bağlı olmalıdır; kəşfetmə həvəsini artıran, maraqlı, cəlbedici olmalıdır; dəqiq ifadə edilməlidir; aydın və açıq sualları özündə ehtiva etməlidir.

Tapşırıqlar sisteminin formalaşdırılması təlim prosesində şagirdlərin intellektual bacarıqlarının inkişafını hədəfləyən işin yalnız bir hissəsidir. Mühüm məsələlərdən biri də şagirdlərin tapşırıqlar üzərində işləyərkən idrak fəallığının əmələ gəlməsinə və bütün proses ərzində (davamlı) saxlanılmasına nail olmaqdır. Diqqət mərkəzində saxlanılmalıdır ki, təhsilalan mərkəzli təlimin, başqa sözlə, fəal (interaktiv) təlimin (bu prosesin əsas qayəsi tədqiqatdır) dörd əsas mexanizmi idrak fəallığının əmələ gəlməsinə və dərs zamanı saxlanılmasına səbəb olur. Bunlar aşağıdakılardır: Problem situasiyanın yaradılması (Şagirdin qarşısına problem qoyulur və onun problemi həll etməyə yönəldilməsi nəticəsində idrak fəallığı yaranır); Şagirdin tədqiqatçı, müəllimin fasilitator funksiyasında çıxış etməsi (Fəal (interaktiv) təlim zamanı şagird subyekt mövqeyində dayanmalı, bu prosesin bərabər iştirakçısı olmalı, o, bilikləri müstəqil şə-kildə tədqiqat zamanı əldə etməlidir); Dialoqun və əməkdaşlığın zəruriliyi (Fəal (interaktiv) təlim dialoji şəkildə əməkdaşlıq şəraitində keçirilir); Psixoloji dəstək: hörmət və etibar (Şagirdlərin idrak fəallıqlarını saxlamaq vasitəsi-onların psixoloji dəstəklənməsidir, hansı ki, bu, müəllimin xeyirxah münasibəti, şagirdlərə hörmət və etibarı, onların bacarığına

inamı sayəsində mümkün olur). [8; 49-50]

Şagirdin tədqiqatçı mövqeyində çıxış etməsi o zaman mümkün olur ki, təlim materialının məzmunu, vasitə və metodların hərəkət forması (təlim prosesində təlim materialının məzmunu, vasitə və metodlar təşkilat formasına nəzərən məzmun yerində çıxış edir) tədqiqat prosesinə uyğun olsun. Tədqiqat prosesinə uyğun qurulan təlimin təşkilat formasının özünəməxsus quruluşu vardır (fəal dərsin quruluşu tədqiqat prosesinin mərhələlərini xatırladır) .

Fəal dərs adlanan bu forma özündə aşağıdakı mərhələləri ehtiva edir: 1. Motivasiya mərhələsi (problemin qoyulması, fərziyyələrin irəli sürülməsi); 2. Tədqiqatın aparılması mərhələsi (fərziyyələri yoxlamaq üçün faktların axtarılması); 3. Məlumat mübadiləsi mərhələsi (əldə edilmiş məlumatların təqdimatı); 4. Məlumatın mü-zakirəsi və təşkili mərhələsi (əldə edilmiş məlumatların müzakirəsi, müxtəlif faktların əlaqələndirilməsi, onların sistemləşdirilməsi); 5. Ümumiləşdirmə və nəticələrin çıxarılması mərhələsi (ümumiləşdirmələr, nəticələrin fərziyyələrlə müqayisəsi və onların təsdiq və ya təkzib edilməsi haqqında nəticə, tədqiqat sualına cavab); 6. Produktiv (yaradıcı) tətbiqetmə mərhələsi (yeni şəraitdə tətbiqetmə, praktiki məsələlərin həlli; 7. Qiymətləndirmə və ya refleksiya mərhələsi (fəaliyyətin qiymətləndirilməsi, öyrənməyin qaydalarının mənimsənilməsi, artıq başa çatmış prosesin şüurda inikası, biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dəridən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biri). [4; 646-652]

İnformasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların şagirdlərdə formalaşdırılması məqsədi ilə tətbiq ediləcək tapşırıqların seçilməsi, sistemə salınması və onların üzərində şagirdlərin fəaliyyətinin təşkil olunmasında aşağıdakı prinsiplər diqqət mərkəzində saxlanılmalıdır: təlim prosesinin tamlığı; təlimdə bərabər imkanların yaradılması; şagirdyönlülük; inkişafyönlülük; fəaliyyətin stimullaşdırılması; dəstəkləyici mühitin yaradılması.

Problemin elmi yeniliyi. ümumi təhsilin həyata keçirilməsi prosesində informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların şagirdlərdə formalaşmasına yönələn pedaqoji təsirin istiqamətləri barədə ideya müəyyənləşdirilmişdir.

Problemin nəzəri əhəmiyyəti cəmiyyətin gələcəyinin inkişafı üçün dayanıqlılığa şərait yaradılması problemin həllinin nəzəri və praktik yollarının geniş tədqiqatı üçün sonrakı elmi fəaliyyətin yönləndirilməsində təqdim olunan mövzu üzrə araşdırmanın məxsusi funksiyaya malik olmasıdır.

Problemin praktik əhəmiyyəti. Real pedaqoji prosesdə praktik pedaqoqlar fəaliyyətlərində informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların şagirdlərdə yönələn pedaqoji təsirin istiqamətləri barədə ideyadan faydalanma imkanları əldə etmiş olurlar.

Nəticə. **1.** “Texno – demokratik - informasiya cəmiyyəti”ndə yaşayan hər kəsin intellektual, yaradıcı fəaliyyət göstərməsi üstün tələbata çevrilir və bunun üçün bu cəmiyyətin hər bir üzvünün informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyekti səviyyəsinə yüksəlməsi zəruridir; **2.** IV sənaye inqilabının çağırışlarına uyğun formalaşan cəmiyyətinin hər bir üzvündə *informasiya mədəniyyətinin və texnoloji savadlılığın* mövcudluğu arzuolunan keyfiyyətdir; **3.** “Texno – demokratik - informasiya cəmiyyəti”nə adekvat olan təhsil sistemi “Təhsil 4.0” istilahı ilə elmi mənbələrdə, pedaqoji praktikada özünə yer almış və məntiqi əsaslarla üst qurum qismində interpretasiya olunmuşdur; **4.** İntellektual bacarıqların formalaşması üçün səmərəli mühit sərgiləyən “Təhsil 4.0”-ın məxsusi xüsusiyyətlərə malikdir və bu sistemdə formalaşdırılması zəruri

olan intellektual bacarıqları müəyyən məntiqi əsasla qruplara ayırmaq mümkündür; **5.** Ümumtəhsil məktəblərində informasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların(intellektual bacarıqların) şagirdlərdə formalaşdırılması məqsədilə xüsusi tapşırıqlar sistemi tətbiq olunur və bu tapşırıqların müxtəlif intellektual bacarıqların strukturunun model-ləşdirilməsi prinsipi əsasında tərtib edilməsi məqsədəuyğundur; 6.İntellektual bacarıqların formalaşdı-rılması məqsədi ilə tətbiq ediləcək tapşırıqların seçilməsi, sistemə salınması və onların üzərində şagirdlərin fəaliyyətinin təşkil olunmasında: **1**)Təlim prosesinin tamlığı; **2**)Təlimdə bərabər imkanların yaradılması; **3**) Şagirdyönlülük; **4**) İnkişafyönlülük; **5**) Fə-aliyyətin stimullaşdırılması; **6**) Dəstəkləyici mühi-tin yaradılması prinsipləri diqqət mərkəzində saxlanıl-malıdır.

Ədəbiyyat

1. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə.Əlizadə. –Bakı: Pedaqogika, –2004. – 432s.
2. Mirzəcanzadə, A.X. İxtisasa giriş (Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti) / A.X. Mirzəcanzadə. –Bakı: BDU nəşriyyatı, –1990. –368s.
3. Metodika və pedaqogika (Yenilənmiş çərçivə sənədi əsasında vəsait). –Bakı: Maksimum Tədris Mərkəzi, –2024. –182s.
4. İbrahimov, F.N. Pedaqogika: Dərslik. 2 cilddə. I cild. / F.N. İbrahimov, R.L. Hüseynzadə. –Bakı: Mütərcim, –2013. –708 s.
5. Elmira Məmmədova. Texnoloji savadlılıq: Rəqəmsal dünyada uğurun açarı (tr.linkedin.com/posts/elmira-mammadova-01807722).
6. Feyziyev, C.Ə. Didaktika: Dərs vəsaiti / C.Ə. Feyziyev, F.N. İbrahimov, S.R. Bədiyev. –Bakı: Mütərcim, –2011. –624 s.
7. Ümumi psixologiya (professor A.V. Petrovskinin redaktorluğu ilə). –Bakı: Maarif, –1977. –494 s.
8. Veysova, Z. Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi / Z. Veysova. –Bakı: İnkişaf" elmi mərkəzi, –2013. –163 s.
9. Rasulov, R.A. ADPU-nun Şəki filialı 30 ildə: uğurlar, perspektivlər / R.A. Rasulov, F.N. İbrahimov, G.A. Abdullayeva. –Bakı: Mütərcim, –2022. –502 s.
10. Schwab, K. The Fourth Industral Revolution; World Economic Forum: –Geneva, Switzerland, 2016, İSSBN 97819448350020.
11. World Economic Forum Report(2016b). New Vision for Education: Fostering social and emotional learning through technology.http:// www 3.weforum.org/docs/ WEF New Vision for Educat ion.pdf.
12. Vichian P. Education 4.0: New Challenge of Learning // St.Theresa Journal of Humanities and Social Sciences, –2016, Vol 2, № 2. –pp.92-97.
13. Wilkesmann M. Wilkesmann U. "İndustry 4.0-organizing routines or innovations?"// VINE Journal of Information and Knowledge Management Systems, 2018, Vol 48, №2, pp238-254.
14. Hristian K. Challenges and Opportunities for Education in the Fourth İndustrial Revolution // African Journal of Public Affairs, 2019, Vol 11, №3, pp.78-94.
15. Sari L., Arif S. The Roles of Digital Literacy, Technology Literacy, and Human Literacy to Encourage Work Readiness of Accounting Education Students in the Fourth İndustrial Revolution Era// International Conference on Economics, Education, Business and Accounting, 2019.
16. Priya S. Digital Revolution of Education 4.0// International Journal of Engineering and Advanced Technology (İJEAT), 2019, Vol9, №2, pp.58-64.
17. Mascheroni G., Olafsson K. The mobil internet: Access, use, opportunities and dividies among European children// New media and Society, 2016, Vol 18,№8, pp.57-79.

18. Ercan Ö. Egitimde Yeni Yönelimlerin Değerlendirilmesi ve Eğitim 4.0//Universite Araşdırmaları Dergisi, 2018, Vol 1, №1, pp.25-30;
19. Ling Li. Educattion supply shain in the era of İndustry 4.0// System Research and Behavioral Science. 2020, Vol 37, №4, pp.579-592.
20. Fatih D., Elif İ., Nurdan K. Yüksek ögretimde Hedeflenen Dönüşümü Gerçekleştirme Araçlarından Eğitim Programı 4.0// Bayburt Eğitim Fakültesi Dergisi, 2019, Vol 14, №8, pp.432-466.
21. Abdullah D. Changing education and training paradigms from industrial 4.0 to education 4.0//İnternational Congress on Sosial Sciences //(İNCSOS 2018 Quds). 2018, Vol 13, №15, pp.147-171.
22. Hussin A. Education 4.0 Made Simple: İdeas For Teaching// International Journal of Education and Literacy Studies, 2017, Vol 6, №3, pp.92-98.
23. Dario A., Alessandro C., Marta F., Elpido R. Smart education in the context of İndustry 4.0 // IEEE Global Engineering Education Conference(EDUCON), 2019, pp.40-45.

Redaksiyaya daxil olub:17.03.2026

UOT 373.1

Gülnarə İbrahim qızı Abdulazimova
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində
Sənaye və Texnologiya Kollecinin müəllimi
https://orcid.org/0009-0003-8187-4315
E-mail.gulnare.abdulazm@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).205-209

AZƏRBAYCANDA TƏHSİLDƏ RƏQƏMSAL TRANSFORMASİYANIN TƏSİRİ: İMKANLAR VƏ ÇAĞIRIŞLAR

Gulnara Ibrahim Abdulazimova
lecturer at the College of Industry and Technology
at the Azerbaijan State University of Oil and Industry

THE IMPACT OF DIGITAL TRANSFORMATION ON EDUCATION IN AZERBAIJAN: OPPORTUNITIES AND CHALLENGES

Гюльнара Ибрагим гызы Абдулазимова
преподаватель Колледжа промышленности и технологий
при Азербайджанском Государственном Университете Нефти и Промышленности

ВЛИЯНИЕ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ НА ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ: ВОЗМОЖНОСТИ И ВЫЗОВЫ

Xülasə. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sahəsində dərin struktur dəyişikliklərinə səbəb olmuşdur. Rəqəmsal transformasiya təhsilin keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin fərdiləşdirilməsi və təhsilə əlçatanlığın genişləndirilməsi baxımından mühüm imkanlar yaradır. Lakin bu proses eyni zamanda infrastruktur çatışmazlıqları, pedaqoji kadrların rəqəmsal yetkinliyi, təhlükəsizlik riskləri və rəqəmsal bərabərsizlik kimi çağırışları da gündəmə gətirir. Məqalədə Azərbaycanda ümumi təhsil və ali təhsil səviyyəsində rəqəmsal transformasiyanın mövcud vəziyyəti təhlil edilir, dövlət siyasəti çərçivəsində həyata keçirilən layihələr nəzərdən keçirilir və beynəlxalq təcrübə ilə müqayisədə mövcud problemlərin həlli yolları təklif edilir.
Açar sözlər: *rəqəmsal transformasiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil sistemi, təhsilin keyfiyyəti, təhsilə əlçatanlıq, rəqəmsal bərabərsizlik, təhsil infrastrukturu*

Abstract. In the contemporary period, the rapid development of information and communication technologies has led to profound structural changes in the field of education. Digital transformation creates significant opportunities for improving the quality of education, personalizing the learning process, and expanding access to education. However, this process also brings a number of challenges, such as inadequate infrastructure, the level of digital maturity of teaching staff, security risks, and digital inequality. The article analyzes the current state of digital transformation in general and higher education in Azerbaijan, examines projects

implemented within the framework of state policy, and proposes solutions to existing problems based on a comparative analysis of international experience.
Keywords: *digital transformation, information and communication technologies, education system, quality of education, access to education, digital inequality, educational infrastructure*

Аннотация. В современный период стремительное развитие информационно-коммуникационных технологий привело к глубоким структурным изменениям в сфере образования. Цифровая транс-формация создаёт значительные возможности для повышения качества образования, индивидуализации учебного процесса и расширения доступа к обучению. Однако данный процесс одновременно выдвигает и ряд вызовов, таких как недостаточность инфраструктуры, уровень цифровой зрелости педагогических кадров, риски безопасности и цифровое неравенство. В статье анализируется текущее состояние цифровой трансформации в системе общего и высшего образования Азербайджана, рассматриваются проекты, реализуемые в рамках государственной политики, а также предлагаются пути решения существующих проблем на основе сравнительного анализа международного опыта.
Ключевые слова: *цифровая трансформация, информационно-коммуникационные технологии, система образования, качество образования, доступ к образованию, цифровое неравенство, образовательная инфраструктура*

XI əsrin əvvəllərindən başlayaraq qlobal miqyasda rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası ən prioritet dövlət siyasətlərindən birinə çevrilmişdir. UNESCO, Avropa Komissiyası və digər beynəlxalq qurumlar tərəfindən hazırlanmış strategiya sənədləri təhsildə rəqəmsal transformasiyanı dayanıqlı inkişafın əsas amili kimi dəyərləndirir (UNESCO, 2021; European Commission, 2020). Azərbaycan da son onillikdə bu qlobal tendensiyaya uyğun olaraq təhsil sistemində genişmiqyaslı islahatlar həyata keçirmişdir. Rəqəmsal transformasiya dedikdə təkcə texniki avadanlıqların təhsil müəssisələrinə təchiz edilməsi deyil, həm də tədris metodologiyalarının, idarəetmə proseslərinin, qiymətləndirmə sisteminin və təhsilverənlərin peşəkar inkişafının texnologiya əsasında yenidən qurulması başa düşülür. Azərbaycanda bu proses “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində də öz əksini tapmış, rəqəmsal iqtisadiyyata keçid və innovativ insan kapitalının formalaşdırılması hədəfləri müəyyən edilmişdir.

Tədqiqatın məlumat bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, Təhsil Nazirliyinin açıq məlumat.

Azərbaycanda təhsildə rəqəmsal transformasiyanın hüquqi əsasları ilk növbədə “ Təhsil haqqında” Qanunda (2009) təsbit edilmişdir. Sonrakı illərdə qəbul edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” (2013), 2019-2024-cü illərdə Azərbaycan Respublikasında təhsil sisteminin beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirilməsi üzrə Dövlət Proqramı” rəqəmsal infrastrukturun gücləndirilməsinə xüsusi diqqət ayırmışdır (Azərbaycan Respublikasının Nazirlər Kabineti, 2019). Xüsusi vurğulanmalıdır ki, 2020-ci ildə COVID-19 pandemiyası ilə əlaqədar təhsil müəssisələrinin distant təhsilə keçidi rəqəmsal transformasiyanı zərurətə çevirmişdir. Bu dövrdə Nazirlər Kabinetinin qərarı ilə “Distant təhsilin təşkili Qaydaları” təsdiq edilmiş, nəticədə respublika

üzrə 1,5 milyondan çox şagird və təxminən 150 min müəllim distant təhsil formatına cəlb edilmişdir.

Son dövrlərdə Rəqəmsal Azərbaycan 2025" strategiyası çərçivəsində təhsil ekosisteminin vahid rəqəmsal platformalar üzərində qurulması istiqamətində addımlar atılmışdır. Elektron məktəb, elektron tələbə, elektron jurnal kimi sistemlər tətbiq edilmişdir.

Təhsildə rəqəmsal transformasiyanın uğuru birbaşa texniki infrastrukturun vəziyyətindən asılıdır. Azərbaycanda ümumi təhsil müəssi-sələrinin sayı 2024-cü ilin məlumatlarına əsasən 4.500-dən çoxdur. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu məktəblərin təxminən 92%-i genişzolaqlı internetə qoşulmuşdur (Dövlət Statistika Komitəsi, 2024). Bununla belə, regionlar arasında rəqəmsal bölgü müşahidə edilir: Bakı və digər iri şəhərlərdə internet sürəti və keyfiyyəti yüksək olduğu halda, dağlıq və ucqar rayonlarda texniki problemlər davam edir.

Ali təhsil müəssisələrində vəziyyət nisbətən daha yaxşıdır. 2023-cü ilin məlumatlarına əsasən, dövlət ali məktəblərinin 100%-i yüksəksürətli internetə malikdir, 80%-dən çoxunda müasir laboratoriya və multimedia avadanlıqları quraşdırılmışdır. Lakin qeyri-dövlət ali məktəblərində bu göstəricilər xeyli aşağıdır.

Məktəblərin kompüter təchizatı sahəsində də irəliləyişlər var. 2021-2024-cü illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə 2.000-dən çox məktəbə müasir kompüter sinifləri verilmişdir. Hər 100 şagirdə düşən kompüterlərin sayı 2019-cu ildə 5,2 ikən 2024-cü ildə 8,7-ə yüksəlmişdir. Lakin OECD ölkələrində bu göstərici orta hesabla 15,2-dir.

Texnoloji infrastrukturun inkişafı ilə yanaşı, pedaqoji kadrların rəqəmsal bacarıqlarının artırılması transformasiyanın ən həssas nöqtələrindən biridir. Təhsil Nazirliyinin 2023-cü ildə apardığı sorğuya əsasən, müəllimlərin təxminən 63%-i rəqəmsal alətlərdən tədris prosesində müntəzəm istifadə etdiyini bildirmişdir. Lakin bu istifadə daha çox təqdimat hazırlamaq, video materialları göstərmək və elektron jurnalı doldurmaqla məhdudlaşır. İnteraktiv təhsil platformalarından, virtual laboratoriyalardan və tədrisin fərdiləşdirilməsi üçün proqram təminatlarından istifadə edən müəllimlərin nisbəti 25%-i keçmir [9].

Bu problemin həlli məqsədilə "Müəllimlərin ixtisasartırma proqramları"na rəqəmsal pedaqogika modulları daxil edilmişdir. 2022-2024-cü tədris illərində 45.000-dən çox müəllim "Rəqəmsal təhsil bacarıqları" kursunu bitirmişdir. Lakin bu kursların praktiki tətbiqə yönəldilməsi və davamlı mentorluq mexanizmləri ilə dəstəklənməsi zəruridir.

Beynəlxalq təcrübə göstərir ki, yalnız texniki təlimlər deyil, həm də müəllimlərin peşəkar şəbəkələri, təcrübə mübadiləsi platformaları və motivasiya mexanizmləri rəqəmsal yetkinliyin artırılmasında mühüm rol oynayır. Estoniyada "DigiTeacher" proqramı çərçivəsində hər bir məktəbdə rəqəmsal mentorlar fəaliyyət göstərir ki, bu da Azərbaycan üçün nümunə ola bilər.

Rəqəmsal transformasiyanın əsas elementlərindən biri keyfiyyətli lokal məzmunun yaradılmasıdır. Azərbaycanda bu sahədə ən mühüm addım "DİM-in distant təhsil platforması" və "E-Məktəb" sisteminin təkmilləşdirilməsi olmuşdur. "E-Məktəb" platforması hazırda 4.000-dən çox məktəbdə tətbiq edilir, 2 milyondan artıq istifadəçisi vardır. Platforma valideynlərə şagirdin davamiyyəti, qiymətləri və ev tapşırıqları barədə operativ məlumat almağa imkan verir.

Bununla yanaşı, Azərbaycan dilində interaktiv elektron dərsliklərin sayı məhduddur. 2024-cü ilə qədər yalnız riyaziyyat, fizika, kimya və Azərbaycan dili üzrə 25 elektron dərslik hazırlanmışdır. Halbuki tam orta təhsil üzrə ümumi fənlərin sayı 20-dən çoxdur. Bu, yerli istehsal olan rəqəmsal təhsil ekosisteminin hələ tam formalaşmadığını göstərir.

Ali təhsil səviyyəsində bəzi dövlət universitetləri (BDU, ADA, ADNSU) öz LMS (Learning Management System) sistemlərini qurmuş, xarici platformalarla (Coursera, edX, Khan Academy) əməkdaşlıq edirlər. Lakin universitetlərarası məzmun mübadiləsi sistemi yoxdur, bu da resursların təkrarlanmasına gətirib çıxarır.

Pandemiya dövrü Azərbaycanda distant təhsilin ən genişmiqyaslı sınağı oldu. 2020-ci ilin mart ayından etibarən bütün təhsil müəssisələri distant təhsilə keçdi. İlk aylarda infrastruktur, müəllim hazırlığı, internetə çıxış problemləri ciddi çətinliklər yaratdı. Təhsil Nazirliyinin qiymətləndirməsinə görə, distant təhsilin ilk dövründə şagirdlərin təxminən 15%-i tədris prosesindən kənarda qalmışdır.

Təcrübə göstərdi ki, distant təhsilin effektivliyi bir sıra amillərdən asılıdır: ailələrin texniki təchizatı, müəllim-şagird qarşılıqlı əlaqəsinin keyfiyyəti, təhsil platformalarının istifadəçi dostluğu. Pandemiyadan sonra hibrid təhsil modelləri aktuallaşmışdır. 2023-cü ildən etibarən bəzi pilot məktəblərdə "çevrilmiş sinif" (flipped classroom) və "hibrid sinif" modelləri tətbiq edilir.

Beynəlxalq tədqiqatlar göstərir ki, hibrid təhsil ənənəvi təhsillə müqayisədə şagirdlərin öyrənmə nəticələrini əhəmiyyətli dərəcədə dəyişməsə də, müstəqil öyrənmə bacarıqlarını, vaxtın idarə edilməsini və rəqəmsal savadlılığı artırır [10].

Azərbaycanda təhsildə rəqəmsal transformasiya prosesində bir sıra sistemli çağırışlar mövcuddur:

1. Rəqəmsal bərabərsizlik: Şəhər və kənd məktəbləri, dövlət və özəl təhsil müəssisələri arasında texniki təchizat və rəqəmsal resurslardan istifadə baxımından fərqlər qalmaqdadır. Azyaşlı uşaqları olan ailələrin yalnız 68%-i evdən kənarda təhsil üçün kifayət edəcək qədər qurğuya malikdir.

2. Təhlükəsizlik və məlumatların mühafizəsi: Rəqəmsal təhsil platformalarının genişlənməsi ilə şagirdlərin şəxsi məlumatlarının qorunması, kibertəhlükəsizlik təhdidləri aktual hala gəlmişdir. "E-Məktəb" sistemində 2022-ci ildə baş vermiş texniki nasazlıqlar bu sahədə ehtiyat sistemlərinin zəruriliyini göstərmişdir.

3. Pedaqoji innovasiyaların ləng yayılması: Müəllimlərin əksəriyyəti rəqəmsal alətləri ənənəvi pedaqoji yanaşmaları dəyişdirmədən istifadə edir. Bu, "rəqəmsal transformasiya" deyil, "rəqəmsal əlavə" xarakteri daşıyır (Selwyn, 2016).

4. Qiymətləndirmə sisteminin çevik olmaması: Rəqəmsal mühitdə formativ qiymətləndirmə, portfoliolar, avtomatlaşdırılmış testlər kimi müasir yanaşmalar

5. Beynəlxalq təcrübə və Azərbaycan üçün tövsiyələr kifayət qədər tətbiq edilmir. Mərkəzləşdirilmiş imtahan sistemi (DİM) əsasən kağız formada saxlanılır.

Rəqəmsal transformasiyada beynəlxalq təcrübənin öyrənilməsi Azərbaycan üçün dəyərli nəticələr verə bilər. Estoniya modeli dövlətin vahid rəqəmsal ekosistem qurması, bütün təhsil müəssisələrində eyni standartları tətbiq etməsi ilə seçilir.

Estoniyada "E-School" sistemi təkcə qiymət və davamiyyət deyil, həm də şagirdlərin təhsil trayektoriyasının analitikasını təqdim edir

Finlandiya modeli pedaqoji liderlik və müəllimlərin muxtariyyətinə əsaslanır. Burada rəqəmsal alətlərin seçimi məktəb səviyyəsində həyata keçirilir, dövlət isə məzmun və təhlükəsizlik standartlarını təmin edir.

Azərbaycan üçün aşağıdakı tövsiyələr irəli sürülə bilər:

- Vahid rəqəmsal təhsil platformasının yaradılması: Mövcud "E-Məktəb", "E-Tələbə" və universitet LMS-lərinin vahid interfeys və məlumat mübadiləsi standartı əsasında birləşdirilməsi.
- Müəllimlərin rəqəmsal kompetensiyalarının qiymətləndirilməsi və sertifikatlaşdırılması: DigCompEdu (European Framework for the Digital Competence of Educators) çərçivəsinə uyğun milli standartların tətbiqi.
- Kənd yerlərində internet infrastrukturunun gücləndirilməsi: Dövlət-özəl tərəfdaşlığı modeli ilə ucqar ərazilərdə peyk internet həllərinin tətbiqi.
- Rəqəmsal təhsil məzmununun lokallaşdırılması: Azərbaycan dilində açıq təhsil resurslarının (OER) yaradılması üçün qrant mexanizmlərinin tətbiqi.

Nəticə

Azərbaycanda təhsildə rəqəmsal transformasiya son beş ildə mühüm inkişaf yolu keçmişdir. Normativ-hüquqi baza təkmilləşdirilmiş, infrastruktur gücləndirilmiş, kütləvi distant təhsil təcrübəsi qazanılmışdır. Eyni zamanda, transformasiyanın dərinliyi hələ də qeyri-bərabərdir: texniki təchizat, pedaqoji hazırlıq, rəqəmsal məzmunun miqdarı və keyfiyyəti baxımından ciddi fərqlər mövcuddur.

Rəqəmsal transformasiya yalnız texnologiyaların tətbiqi deyil, təhsil fəlsəfəsinin, tədris mədəniyyətinin və idarəetmə modellərinin dəyişməsidir. Bu prosesin uğuru üçün siyasi iradə, davamlı maliyyələşdirmə, pedaqoji kollektivlərin fəal iştirakı və beynəlxalq təcrübənin lokal kontekstə uyğunlaşdırılması vacibdir.

Gələcəkdə süni intellekt, böyük verilənlər analitikası və adaptiv təlim sistemlərinin təhsilə inteqrasiyası yeni mərhələnin əsasını təşkil edəcəkdir. Azərbaycanın bu sahədə proaktiv mövqe tutması, həm milli insan kapitalının inkişafı, həm də qlobal rəqabət qabiliyyəti baxımından strateji əhəmiyyət daşıyır.

Problemin aktuallığı. Müasir qlobal inkişaf mərhələsində rəqəmsal texnologiyaların bütün sahələrə, xüsusilə də təhsilə sürətlə inteqrasiyası bu istiqamətdə elmi tədqiqatların aktuallığını əhəmiyyətli dərəcədə artırır. Təhsil sisteminin rəqəmsallaşması artıq alternativ deyil, sosial-iqtisadi inkişafın, insan kapitalının formalaşmasının və qlobal rəqabət qabiliyyətinin əsas şərtlərindən biri kimi çıxış edir. Bu baxımdan, Azərbaycanda təhsildə rəqəmsal transformasiyanın mövcud vəziyyətinin təhlili, əldə olunmuş nailiyyətlərin və qarşıda duran problemlərin sistemli şəkildə araşdırılması xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi Azərbaycanda təhsildə rəqəmsal transformasiya prosesinin kompleks, sistemli və müqayisəli şəkildə araşdırılması ilə müəyyən olunur. Məqalədə ilk dəfə olaraq ümumi və ali təhsil səviyyələrində rəqəmsal transformasiyanın əsas komponentləri (infrastruktur, pedaqoji kadrların rəqəmsal kompetensiyaları, rəqəmsal təhsil məzmunu və idarəetmə mexanizmləri) vahid analitik çərçivədə təhlil edilmişdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticə və təkliflər Azərbaycanda təhsildə rəqəmsal transformasiya prosesinin daha səmərəli təşkili və idarə olunması üçün tətbiqi əhəmiyyət daşıyır. Məqalədə irəli sürülən yanaşmalar və tövsiyələr təhsil siyasətinin formalaşdırılması, strateji planlaşdırma və təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi baxımından istifadə oluna bilər.

Ədəbiyyat

1. Abdullayev, A.A. Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi / A.A. Abdullayev. –Bakı: Elm və Təhsil, –2018. –256 s.
2. Əhmədov, G.M. Azərbaycan tarixinin tədrisi metodikası / G.M. Əhmədov. –Bakı: Təhsil, 2015. –312 s.
3. Hacıyev, A.N. Rəqəmsal təhsil mühiti və innovativ pedaqoji yanaşmalar / A.N. Hacıyev. –Bakı: ADPU-nun nəşriyyatı, –2020. –198 s.
4. Məmmədov, R.S. Tarixin tədrisində interaktiv metodların tətbiqi problemləri // Pedaqoji Universitetin Xəbərləri, –2019. № 3, – s. 45–52.
5. Vəliyev, K.Q. Müasir dövrdə təhsilin informasiyalaşdırılması və rəqəmsal transformasiya məsələləri / K.Q.Vəliyev. –Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, –2021. –174 s.
6. Həsənova, S., Qasımov, E. Ümumi təhsil müəssisələrində müəllimlərin rəqəmsal kompetensiyalarının qiymətləndirilməsi // Təhsil və İnnovasiya, – 2023. 11(1), – 22–35 s.
7. Means, B., Toyama, Y., Murphy, R., & Baki, M. The effectiveness of online and blended learning: A meta-analysis. Teachers College Record, 2013, 115(3), 1-47pp. https:/ / www. scirp. org/ reference/ referen cespapers? referenceid=3282967
8. Mishra, P., & Koehler, M.J. Technological pedagogical content knowledge: A framework for teacher knowledge // Teachers College Record, –2006. 108(6), – 1017–1054 p.

Redaksiyaya daxil olub: 29.04.2026

UOT 332.024.2

Sevda Hidayət qızı Axundova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktor müavini
https://orcid.org/0000-0001-9192-2307
E-mail: Sevda.appp@icloud.com
https://doi.org/10.69682/arti.2026.93(3).210-216

HEYDƏR ƏLİYEVİN TƏHSİL KONSEPSİYASI ƏSASINDA ORTA İXTİSAS TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNNOVATİV İNKİŞAF MODELİ

Sevda Hidayat Akhundova
deputy director of the Azerbaijan State Pedagogical College
under Azerbaijan State Pedagogical University

INNOVATIVE DEVELOPMENT MODEL OF SECONDARY SPECIALIZED EDUCATION INSTITUTIONS BASED ON HEYDAR ALIYEV'S EDUCATIONAL CONCEPT

Севда Хидайят гызы Ахундова
заместитель директора Азербайджанского Государственного Педагогического Колледжа при Азербайджанского Государственного Педагогического Университета

ИННОВАЦИОННАЯ МОДЕЛЬ РАЗВИТИЯ СРЕДНИХ СПЕЦИАЛЬНЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ НА ОСНОВЕ ОБРАЗОВАТЕЛЬНОЙ КОНЦЕПЦИИ ГЕЙДАРА АЛИЕВА

Xülasə. Bu məqalədə Ümummilli Lider Heydər Əliyev təhsil konsepsiyası əsasında orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf modeli kompleks şəkildə təhlil edilmişdir. Tədqiqat çərçivəsində müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas çağırışlar, xüsusilə əmək bazarının tələblərinə uyğun kadr hazırlığı, rəqəmsallaşma və təhsilin keyfiyyətinin artırılması məsələləri araşdırılmışdır. Məqalədə Ulu Öndərin təhsil siyasətinin nəzəri əsasları, onun milli təhsil sisteminin formalaşmasına və inkişafına təsiri şərh olunmuşdur.

Eyni zamanda orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf modeli nəzəri və praktik baxımdan təhlil edilmiş, bu modelin əsas komponentləri – modul və kompetensiya əsaslı tədris proqramları, dual təhsil sistemi, rəqəmsal texnologiyaların tətbiqi və işəgötürənlərlə əməkdaşlıq kimi istiqamətlər sistemli şəkildə izah olunmuşdur. Beynəlxalq təşkilatların (UNESCO, OECD, World Bank) yanaşmaları əsasında dünya təcrübəsi müqayisəli şəkildə qiymətləndirilmişdir.

Məqalədə, həmçinin Azərbaycan təcrübəsi xüsusi olaraq araşdırılmış, dövlət strategiyaları və normativ-hüquqi sənədlər əsasında orta ixtisas təhsil müəssisələrində həyata keçirilən islahatların nəticələrinin təhlili aparılmışdır. Müəyyənləşdirilmişdir ki, innovativ inkişaf modelinin tətbiqi təhsil sisteminin keyfiyyətini yüksəldir, məzunların əmək bazarına inteqrasiyasını sürətləndirir və insan kapitalının inkişafına müsbət təsir göstərir. Nəticə etibarilə, Heydər Əliyevin

təhsil konsepsiyası müasir şəraitdə orta ixtisas təhsil sisteminin dayanıqlı və rəqabətqabiliyyətli inkişafının əsasını təşkil edir.
Açar sözlər: *orta ixtisas təhsil müəssisələri, innovativ inkişaf, insan kapitalı*

Abstract. This article analyzes the innovative development model of vocational and secondary specialized education institutions based on the educational concept of Heydar Aliyev's. The study examines the key challenges faced by modern education systems, including the need for skilled workforce development aligned with labor market demands, digital transformation, and quality improvement in education. The theoretical foundations of Heydar Aliyev's educational policy and its role in shaping the national education system are discussed in detail.

The paper also provides a comprehensive analysis of the innovative development model of vocational education institutions. The main components of this model—competency-based curricula, modular education systems, dual education approaches, integration of digital technologies, and cooperation with employers—are systematically explored. Furthermore, international practices and recommendations from global organizations such as UNESCO, OECD, and the World Bank are evaluated comparatively.

In addition, the article focuses on Azerbaijan's experience, highlighting the implementation of state strategies and legal frameworks in the development of vocational education institutions. The findings indicate that the adoption of innovative development models enhances educational quality, improves graduates' employability, and contributes to human capital development. Overall, the study concludes that Heydar Aliyev's educational concept remains a fundamental basis for the sustainable and competitive development of vocational education systems in modern conditions.
Keywords: *vocational education, innovative development, human capital*

Аннотация. В данной статье комплексно анализируется инновационная модель развития средних специальных учебных заведений на основе образовательной концепции Гейдара Алиева. В рамках исследования рассматриваются ключевые вызовы современной системы образования, включая подготовку кадров в соответствии с требованиями рынка труда, цифровизацию и повышение качества образования. Подробно раскрываются теоретические основы образовательной политики Гейдара Алиева и ее влияние на формирование национальной системы образования. Особое внимание уделено анализу инновационной модели развития средних специальных учебных заведений. В статье системно рассматриваются основные компоненты данной модели: модульные и компетентностные образовательные программы, дуальная система обучения, внедрение цифровых технологий, а также сотрудничество с работодателями. Был проведен сравнительный анализ международного опыта с учетом рекомендаций таких организаций, как UNESCO, OECD и Всемирный банк. Кроме того, в статье исследуется опыт Азербайджана, в частности реализация государственных стратегий и нормативно-правовой базы в сфере профессионального образования. Результаты исследования показывают, что внедрение инновационной модели способствует повышению качества образования, улучшает трудоустройство выпускников и оказывает положительное влияние на развитие человеческого капитала. В целом делается вывод, что образовательная концепция Гейдара Алиева является основой устойчивого и конкурентоспособного развития системы профессионального образования.
Ключевые слова: *среднее специальное образование, инновационное развитие, человеческий капитал*

GİRİŞ

Müasir dövrdə qlobal iqtisadiyyatın bilik və innovasiya əsaslı inkişaf mərhələsinə keçidi təhsil sisteminin bütün pillələrində, xüsusilə orta ixtisas təhsil müəssisələrində struktur və məzmun baxımından köklü dəyişiklikləri zəruri etmişdir. İnsan kapitalının formalaşması və əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təmin olunması baxımından peşə-ixtisas təhsili sisteminin rolu daha da artmışdır. Bu kontekstdə Azərbaycanın təhsil siyasətində strateji yanaşmaların əsasını təşkil edən Heydər Əliyev irsi xüsusi əhəmiyyət kəsb edir. Ulu Öndərin müəyyən etdiyi dövlətçilik və təhsil fəlsəfəsi müasir təhsil sisteminin inkişaf istiqamətlərini müəyyən edən fundamental nəzəri baza kimi çıxış edir [1, s. 45].

Heydər Əliyevin rəhbərliyi dövründə təhsil sahəsində həyata keçirilən məqsədyönlü siyasət milli kadr potensialının gücləndirilməsi, təhsil infrastrukturunun yenilənməsi və təhsilin məzmununun müasirləşdirilməsi kimi prioritet istiqamətləri əhatə etmişdir. Bu siyasətin əsas xüsusiyyətlərindən biri təhsilin iqtisadi inkişafla üzvi əlaqədə nəzərdən keçirilməsi və əmək bazarının tələblərinə uyğun peşəkar mütəxəssis hazırlığının təmin edilməsidir [2, s. 78]. Xüsusilə orta ixtisas təhsil müəssisələrinin inkişafı ölkənin sənaye və xidmət sektorlarının dayanıqlı inkişafında mühüm rol oynayan kadr bazasının formalaşdırılması baxımından strateji əhəmiyyət daşımışdır.

Müasir mərhələdə Azərbaycanın təhsil siyasəti Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası çərçivəsində davam etdirilərək innovativ və rəqabətqabiliyyətli təhsil modelinin formalaşdırılmasına yönəlmişdir. Bu sənəddə təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və peşə-ixtisas təhsilinin əmək bazarı ilə inteqrasiyasının gücləndirilməsi əsas prioritetlər kimi müəyyən edilmişdir [4, s.12]. Eyni zamanda, *"Peşə təhsili və təlimi haqqında" Qanun* peşə təhsili sistemində institusional islahatların həyata keçirilməsi və müasir standartlara uyğunlaşdırılması üçün hüquqi baza yaratmışdır [5, s.9].

Beynəlxalq təcrübə də göstərir ki, innovativ iqtisadiyyat şəraitində orta ixtisas təhsil müəssisələrinin inkişafı yalnız ənənəvi tədris metodlarının təkmilləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda rəqəmsallaşma, praktikyönlü təlim və əmək bazarı ilə sıx əməkdaşlıq kimi komponentlərin inteqrasiyasını tələb edir. Bu baxımdan, UNESCO və OECD kimi beynəlxalq təşkilatların tövsiyələri peşə-ixtisas təhsilinin modernləşdirilməsi üçün mühüm metodoloji çərçivə təqdim edir [10, s.25; 11, s.34].

Beləliklə, qeyd olunan nəzəri və praktik yanaşmalar əsasında tədqiqatın aktuallığı ondan ibarətdir ki, Heydər Əliyevin təhsil konsepsiyası ilə müasir innovativ inkişaf meyilləri arasında qarşılıqlı əlaqənin elmi əsaslarla təhlili orta ixtisas təhsil müəssisələrinin daha səmərəli fəaliyyət modelinin formalaşdırılmasına imkan yaradır. Məqalənin məqsədi məhz bu konseptual yanaşmanı əsas götürərək orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf modelinin nəzəri-metodoloji əsaslarını müəyyənləşdirməkdən ibarətdir.

Heydər Əliyevin təhsil konsepsiyasının nəzəri əsasları və orta ixtisas təhsilinə təsiri

Müasir Azərbaycan təhsil sisteminin formalaşmasında Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji yanaşmalar mühüm nəzəri və metodoloji baza rolunu oynayır. Onun təhsil konsepsiyası yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda milli dövlətçilik ideologiyasının, insan kapitalının və sosial-iqtisadi inkişafın əsas

təminatçısı kimi çıxış edir. Bu yanaşma təhsili cəmiyyətin inkişafının aparıcı amili kimi dəyərləndirir və bütün təhsil pillələrinin, o cümlədən orta ixtisas təhsil müəssisələrinin inkişafında sistemli və məqsədyönlü siyasətin həyata keçirilməsini zəruri edir [1, s.52].

Heydər Əliyevin təhsil siyasətinin əsas istiqamətlərindən biri təhsilin iqtisadi inkişafla sıx inteqrasiyasıdır. Bu kontekstdə orta ixtisas təhsil müəssisələri əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayır. Onun çıxış və nitqlərində dəfələrlə vurğulandığı kimi, təhsil sistemi ölkənin sosial-iqtisadi inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi olmalı və istehsal sahələrinin ehtiyaclarına cavab verən kadr potensialı formalaşdırmalıdır [2, s.83]. Bu yanaşma müasir dövrdə peşə-ixtisas təhsilinin prioritet istiqamətə çevrilməsinin əsasını qoymuşdur.

Digər mühüm nəzəri aspekt təhsilin milli-mənəvi dəyərlər üzərində qurulmasıdır. Heydər Əliyev təhsilin yalnız texniki biliklərin ötürülməsi deyil, eyni zamanda vətəndaşlıq mövqeyinin, milli kimliyin və sosial məsuliyyətin formalaşdırılması nəzəri aspekt təhsilin milli-mənəvi dəyərlər üzərində qurulmasıdır. Heydər Əliyev təhsilin yalnız texniki biliklərin ötürülməsi deyil, eyni zamanda vətəndaşlıq mövqeyinin, milli kimliyin və sosial məsuliyyətin formalaşdırılması funksiyasını daşıdığını qeyd etmişdir. Bu baxımdan orta ixtisas təhsil müəssisələri yalnız peşəkar mütəxəssis deyil, həm də yüksək mənəvi keyfiyyətlərə malik vətəndaşların yetişdirilməsində mühüm rol oynayır [1, s. 60].

Müstəqillik dövründə həyata keçirilən təhsil islahatları da məhz bu konseptual yanaşmaya əsaslanaraq formalaşdırılmışdır. Xüsusilə Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası çərçivəsində təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin səmərəliliyinin artırılması və təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması əsas prioritetlər kimi müəyyən edilmişdir [4, s.14]. Bu strategiya orta ixtisas təhsil müəssisələrinin fəaliyyətinin yenidən qurulması, onların əmək bazarı ilə əlaqələrinin gücləndirilməsi və innovativ tədris metodlarının tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, *"Peşə təhsili və təlimi haqqında" Qanun* orta ixtisas təhsil sistemində institusional islahatların həyata keçirilməsi üçün hüquqi baza yaratmışdır. Bu qanun peşə təhsilinin məzmununun yenilənməsi, modul əsaslı təlim proqramlarının tətbiqi və işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsi kimi mühüm istiqamətləri əhatə edir [5, s.11]. Beləliklə, Heydər Əliyevin müəyyən etdiyi strateji kurs müasir qanunvericilik və dövlət proqramları vasitəsilə davam etdirilərək orta ixtisas təhsil müəssisələrinin inkişafında əsas istiqamətverici rol oynayır.

Nəticə etibarilə, Heydər Əliyevin təhsil konsepsiyası orta ixtisas təhsil müəssisələrinin inkişafında kompleks yanaşmanı – iqtisadi tələblərə uyğunluq, milli-mənəvi dəyərlərin qorunması və innovativ inkişafın təmin olunmasını – özündə birləşdirir. Bu konseptual əsaslar müasir dövrdə peşə-ixtisas təhsilinin rəqabətqabiliyyətli və dayanıqlı inkişaf modelinin formalaşdırılması üçün mühüm nəzəri baza kimi çıxış edir.

Orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf modeli və beynəlxalq təcrübə

Müasir dövrdə bilik iqtisadiyyatının sürətli inkişafı orta ixtisas təhsil müəssisələrinin fəaliyyətində keyfiyyətcə yeni mərhələnin başlanmasını şərtləndirmişdir. Bu

mərhələ yalnız tədris prosesinin təkmilləşdirilməsi ilə deyil, bütövlükdə təhsil sisteminin innovativ transformasiyası ilə xarakterizə olunur. Heydər Əliyev tərəfindən müəyyən edilmiş təhsil siyasəti prinsipləri – sistemlilik, iqtisadiyyatla inteqrasiya və milli prioritetlərə uyğunluq – bu transformasiyanın nəzəri əsasını təşkil edir [1, s.70].

İnnovativ inkişaf modeli çərçivəsində orta ixtisas təhsil müəssisələri yalnız bilik ötürən institut deyil, eyni zamanda əmək bazarının tələblərinə uyğun çevik və adaptiv insan kapitalı formalaşdıran sistem kimi çıxış edir. Bu modelin əsas xüsusiyyətlərindən biri təhsil prosesinin praktik yönümlülüyünün artırılması və istehsalatla inteqrasiyanın gücləndirilməsidir. Belə yanaşma tələbələrin peşə bacarıqlarını real iş mühitində formalaşdırmağa imkan verir və onların məşğulluq səviyyəsini yüksəldir [5, s.15].

Beynəlxalq təcrübədə bu istiqamətdə ən effektiv yanaşmalardan biri dual təhsil modelidir. Bu modeldə təhsil müəssisəsi ilə işəgötürənlər arasında sıx əməkdaşlıq qurulur və tələbələr paralel olaraq həm nəzəri biliklər, həm də praktik bacarıqlar əldə edirlər. OECD və UNESCO tərəfindən aparılan tədqiqatlar göstərir ki, bu model gənclərin əmək bazarına keçidini sürətləndirir və işsizlik səviyyəsinin azalmasına müsbət təsir göstərir [11, s.45; 10, s.33].

Digər mühüm istiqamət rəqəmsallaşmadır. Rəqəmsal texnologiyaların tətbiqi təhsil prosesində fərdiləşdirilmiş öyrənmə imkanlarını genişləndirir, interaktiv tədris mühitini formalaşdırır və innovativ bacarıqların inkişafını təmin edir. Bu baxımdan orta ixtisas təhsil müəssisələrində elektron təhsil platformalarının tətbiqi, simulyasiya proqramlarının istifadəsi və texnoloji laboratoriyaların yaradılması innovativ inkişaf modelinin ayrılmaz tərkib hissəsidir [9, s.61].

Aşağıdakı cədvəldə innovativ inkişaf modelinin əsas komponentləri və onların orta ixtisas təhsilinə təsiri sistemli şəkildə təqdim olunur:

Cədvəl 1. Orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf modelinin əsas komponentləri və təsirləri

Komponentlər	**Məzmunu**	**Təhsil sisteminə təsiri**	**Əmək bazarına təsiri**
Tədris proqramlarının modernləşdirilməsi	Modul və səriştəəsaslı proqramlar	Təhsilin keyfiyyətinin yüksəlməsi	İxtisaslı və çevik kadrların hazırlanması
Dual təhsil sistemi	Təhsil + istehsalat inteqrasiyası	Praktik bacarıqların inkişafı	Məşğulluq səviyyəsinin artması
Rəqəmsallaşma	E-learning, simulyasiya, texnoloji alətlər	İnnovativ öyrənmə mühiti	Rəqəmsal bacarıqların formalaşması
İşəgötürənlərlə əməkdaşlıq	Müəssisələrlə birgə proqramlar	Təhsil-istehsalat əlaqəsinin güclənməsi	Tələbələrin işlə təmin olunması
İdarəetmənin təkmilləşdirilməsi	Keyfiyyət təminatı və monitorinq	Səmərəli idarəetmə sistemi	Resursların səmərəli istifadəsi

Mənbə: [5; 9; 10; 11] əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Beləliklə, təqdim olunan innovativ model orta ixtisas təhsil müəssisələrinin fəaliyyətinin kompleks şəkildə yenilənməsini təmin edir və bu yanaşma Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası ilə müəyyən edilmiş prioritet istiqamətlərlə tam uzlaşır [4, s.19]. Nəticədə, bu modelin tətbiqi ölkədə rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasına və iqtisadi inkişafın davamlılığının təmin olunmasına xidmət edir.

3. Azərbaycan təcrübəsində orta ixtisas təhsil müəssisələrinin innovativ inkişafının praktik tətbiqi və perspektivləri

Müasir mərhələdə Azərbaycanda orta ixtisas təhsil müəssisələrinin inkişafı dövlətin sosial-iqtisadi strategiyasının mühüm tərkib hissəsi kimi çıxış edir. Bu istiqamətdə həyata keçirilən islahatlar Heydər Əliyev tərəfindən müəyyən edilmiş təhsil siyasətinin davamı olmaqla yanaşı, müasir qlobal çağırışlara uyğun innovativ yanaşmaların tətbiqini əhatə edir. Xüsusilə insan kapitalının inkişafı, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı və rəqəmsallaşma proseslərinin sürətləndirilməsi əsas prioritetlər kimi çıxış edir [1, s.74].

Azərbaycanda orta ixtisas təhsil sistemində aparılan islahatlar əsasən normativ-hüquqi bazanın təkmilləşdirilməsi, tədris proqramlarının modernləşdirilməsi və idarəetmə mexanizmlərinin yenilənməsi istiqamətlərində həyata keçirilmişdir. Bu baxımdan Peşə təhsili və təlimi haqqında Azərbaycan Respublikasının Qanunu peşə təhsilinin müasir tələblərə uyğun qurulması üçün əsas hüquqi baza yaratmışdır. Qanunda modul əsaslı təhsil proqramlarının tətbiqi, işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsi və təhsil prosesində praktik bacarıqların artırılması kimi mühüm istiqamətlər müəyyən edilmişdir [5, s.17].

Eyni zamanda, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası çərçivəsində orta ixtisas təhsil müəssisələrinin fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə keçirilməsi məqsədilə innovativ idarəetmə modelləri tətbiq olunmuşdur. Bu strategiya təhsil sisteminin rəqabətqabiliyyətliliyinin artırılması, beynəlxalq standartlara uyğunlaşdırılması və əmək bazarı ilə inteqrasiyanın gücləndirilməsini əsas hədəf kimi müəyyən edir [4, s.21].

Beynəlxalq təşkilatların qiymətləndirmələrinə əsasən, Azərbaycanda peşə-ixtisas təhsilində son illərdə müsbət dinamika müşahidə olunur. World Bank və OECD hesabatlarında qeyd olunur ki, ölkədə təhsil proqramlarının yenilənməsi və praktik yönümlü təlimin genişləndirilməsi əmək bazarının tələblərinə uyğunlaşmanı sürətləndirmişdir [12, s.95; 11, s.48].

Aşağıdakı cədvəldə Azərbaycanda orta ixtisas təhsil müəssisələrinin innovativ inkişafını xarakterizə edən əsas istiqamətlər və onların nəticələri sistemləşdirilmişdir:

Cədvəl 2. Azərbaycanda orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf istiqamətləri və nəticələri

İstiqamətlər	**Həyata keçirilən tədbirlər**	**Əldə olunan nəticələr**	**Perspektivlər**
Normativ-hüquqi baza	Yeni qanunlar və strategiyalar	Sistemli inkişaf təmin olunub	Hüquqi bazanın daha da təkmilləşdirilmə-si

Tədris proqramları	Modul və sərişdəsaslı proqramlar	Təhsil keyfiyyəti yüksəlib	Beynəlxalq standartlara tam uyğunlaşma
Dual təhsil modeli	İşəgötürənlərlə əməkdaşlıq	Praktik bacarıqlar artıb	Əmək bazarı ilə daha sıx inteqrasiya
Rəqəmsallaşma	Elektron təhsil və platformalar	Tədrisin səmərəliliyi yüksəlib	Rəqəmsal innovasiyaların geniş tətbiqi
Kadr hazırlığı	Müasir ixtisasların yaradılması	Rəqabətqabiliyyətli kadrlar formalaşıb	Yeni ixtisasların inkişafı

Mənbə: [4; 5; 11; 12] əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Beləliklə, Azərbaycanda orta ixtisas təhsil müəssisələrinin innovativ inkişafı kompleks yanaşma əsasında həyata keçirilir və bu proses Heydər Əliyev irsinin müasir şəraitdə uğurlu tətbiqi kimi qiymətləndirilə bilər. Aparılan islahatlar nəticəsində təhsil sisteminin keyfiyyəti yüksəlmiş, əmək bazarı ilə əlaqələr güclənmiş və insan kapitalının inkişafı üçün əlverişli şərait formalaşmışdır.

Nəticə etibarilə, innovativ inkişaf modelinin davamlı tətbiqi orta ixtisas təhsil müəssisələrinin gələcək inkişaf perspektivlərini daha da genişləndirir və Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılmasında mühüm rol oynayır.

NƏTİCƏ

Aparılmış tədqiqat göstərir ki, müasir dövrdə orta ixtisas təhsil müəssisələrinin inkişafı yalnız daxili institusional islahatlarla deyil, eyni zamanda milli təhsil siyasətinin strateji əsasları ilə sıx bağlıdır. Bu baxımdan Heydər Əliyev tərəfindən formalaşdırılmış təhsil konsepsiyası orta ixtisas təhsil sisteminin innovativ inkişafı üçün fundamental nəzəri və metodoloji baza kimi çıxış edir. Onun müəyyən etdiyi prinsiplər – təhsilin iqtisadiyyatla inteqrasiyası, milli-mənəvi dəyərlərə əsaslanması və insan kapitalının prioritet kimi qəbul edilməsi – müasir təhsil siyasətində öz aktuallığını qoruyub saxlayır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf modeli kompleks yanaşma əsasında formalaşır və bu modelin əsas komponentləri kimi tədris proqramlarının modernləşdirilməsi, dual təhsil sisteminin tətbiqi, rəqəmsallaşma proseslərinin genişləndirilməsi və əmək bazarı ilə inteqrasiyanın gücləndirilməsi çıxış edir. Bu istiqamətlər üzrə həyata keçirilən tədbirlər təhsilin keyfiyyətinin yüksəldilməsinə, praktik bacarıqların inkişafına və məzunların məşğulluq imkanlarının genişlənməsinə əhəmiyyətli təsir göstərir.

Azərbaycan təcrübəsi göstərir ki, dövlət tərəfindən qəbul olunmuş strateji sənədlər və normativ-hüquqi baza orta ixtisas təhsil müəssisələrinin inkişafında mühüm rol oynayır. Xüsusilə Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası və “Peşə təhsili və təlimi haqqında” qanun çərçivəsində həyata keçirilən islahatlar təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına və innovativ inkişaf modelinin tətbiqinə geniş imkanlar yaratmışdır. Bu proses nəticəsində təhsil müəssisələrinin fəaliyyətində çeviklik artmış, əmək bazarı ilə əlaqələr güclənmiş və kadr hazırlığının keyfiyyəti yüksəlmişdir.

Eyni zamanda beynəlxalq təcrübə ilə müqayisə göstərir ki, innovativ inkişaf modelinin davamlı tətbiqi üçün təhsil müəssisələri ilə işəgötürənlər arasında əməkdaşlığın

daha da genişləndirilməsi, rəqəmsal texnologiyaların tətbiqinin dərinləşdirilməsi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi zəruridir. Bu istiqamətlər üzrə görüləcək tədbirlər orta ixtisas təhsil müəssisələrinin rəqabətqabiliyyətliliyini artırmaqla yanaşı, ölkənin ümumi iqtisadi inkişafına da müsbət təsir göstərəcəkdir.

Nəticə olaraq qeyd etmək olar ki, Heydər Əliyevin təhsil konsepsiyası əsasında formalaşan innovativ inkişaf modeli orta ixtisas təhsil müəssisələrinin dayanıqlı və səmərəli fəaliyyətini təmin edən əsas istiqamətverici mexanizm kimi çıxış edir. Bu modelin ardıcıl və sistemli şəkildə tətbiqi Azərbaycanın insan kapitalının in-kişafına, əmək bazarının tələblərinə uyğun kadr hazırlığına və ümumilikdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə mühüm töhfə verəcəkdir.

Problemin aktuallığı. Müasir dövrdə əmək bazarının tələblərinin sürətlə dəyişməsi orta ixtisas təhsil müəssisələrinin innovativ inkişafını zəruri edir. Heydər Əliyev təhsil konsepsiyasının bu prosesdə tətbiqi mövzunun elmi və praktik baxımdan aktuallığını daha da artırır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri orta ixtisas təhsil müəssisələrində tədris proqramlarının modernləşdirilməsi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi üçün istifadə oluna bilər. Eyni zamanda, əldə olunan nəticələr əmək bazarına uyğun kadr hazırlığının artırılmasına və təhsil siyasətinin effektivliyinin yüksəldilməsinə xidmət edir.

Problemin elmi yeniliyi. Məqalədə Heydər Əliyevin təhsil konsepsiyası ilə müasir innovativ təhsil modelləri arasında qarşılıqlı əlaqə sistemli şəkildə təhlil edilmişdir. Bundan əlavə, orta ixtisas təhsil müəssisələrinin inkişafı üçün inteqrativ və kompleks innovativ model elmi əsaslarla təklif olunmuşdur.

Ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-XX cildlər. / –Bakı: Azərnəşr, –1997. – 2003. –8000 s.
2. Heydər Əliyev. Azərbaycan təhsilinin inkişafı ilə bağlı çıxışlar, nitqlər və müsahibələr. / –Bakı: Təhsil, –2004. –256 s.
3. Azərbaycan Respublikası. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. – Bakı: Qanun, –2009. –32 s.
4. Azərbaycan Respublikası Prezidenti. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. –Bakı, 2013. –40 s.
5. Azərbaycan Respublikası. Peşə təhsili və təlimi haqqında Azərbaycan Respublikasının Qanunu. –Bakı: Qanun, –2018. –28 s.
6. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Peşə təhsili sisteminin inkişaf konsepsiyası. –Bakı, 2019. –85 s.
7. Abbasov A.N. Milli təhsil sisteminin inkişaf problemləri və perspektivləri / A.N. Abbasov. –Bakı: Elm, –2016. –340 s.
8. Həsənov T.G. Təhsil menecmenti və innovativ inkişaf modelləri / T.G. Həsənov – Bakı: UNEC nəşriyyatı, –2019. –312 s.
9. UNESCO. Revisiting Global Trends in TVET: Reflections on Theory and Practice. –Paris: UNESCO, –2015. – 320 p.
10. UNESCO. Strategy for Technical and Vocational Education and Training (TVET) 2022–2029. –Paris: UNESCO, –2022. –80 p.
11. OECD. Education Policy Outlook: Azerbaijan. –Paris: OECD Publishing, –2020. – 120 p.
12. World Bank. Azerbaijan – Building Skills for the Future: Education Sector Analysis. –Washington DC: World Bank, –2018. –210 p.

Redaksiyaya daxil olmuşdur: 23.04.2026

UOT 332.024.2

Ruhiyyə Zahid qızı Mehdiyeva
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-7815-6816
E-mail: ruhi_mehdi@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).217-220

TƏHSİL MÜHİTİNİN İDARƏ EDİLMƏSİ VƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİR EDƏN ƏSAS AMİLLƏR

Ruhiyya Zahid Mehdiyeva
doctor of philosophy in pedagogy

MANAGEMENT OF THE EDUCATIONAL ENVIRONMENT AND THE MAIN FACTORS AFFECTING THE IMPROVEMENT OF EDUCATION QUALITY

Рухия Захид гызы Мехтиева
доктор философии по педагогике

УПРАВЛЕНИЕ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДОЙ И ОСНОВНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПОВЫШЕНИЕ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

Xülasə. Məqalədə təhsilin keyfiyyətinin yüksəldilməsinə və onun səmərəli idarəedilməsinə təsir göstərən əsas amillər müəyyənləşdirilmiş, rəqəmsal təlim idarəetmə sistemləri (Learning Menagement System (LMS)), Süni intellekt (artificial intelligence (Aİ)), virtual sinif otaqları və əməkdaşlıq platformaları kimi vasitələrin idarəetmədə oynadığı rol araşdırılmışdır. Eyni zamanda, bu amillərin müsbət təsirləri ilə yanaşı, mənfi təsirləri də məqalədə öz əksini tapmışdır.
Açar sözlər: *təhsilin idarəedilməsi, müasir texnologiya, texnoloji vasitələr, süni intellekt, rəqəmsal təlim idarəetmə sistemləri, virtual sinif, smart telefon, smart lövhələr*

Abstract. This article identifies the key factors influencing the improvement of education quality and its effective management, and examines the role of tools such as digital learning management systems (LMS), artificial intelligence (AI), virtual classrooms, and collaboration platforms in this management. The article also examines both the positive and negative consequences of these factors.
Keywords: *education management, modern technologies, technological tools, artificial intelligence, digital learning management systems, virtual classroom, smartphone, interactive whiteboards*

Аннотация. В статье определены основные факторы, влияющие на повышение качества образования и его эффективное управление, а также рассмотрена роль таких средств, как цифровые системы управления обучением (LMS), искусственный интеллект (ИИ), виртуальные классы и платформы для

совместной работы, в управлении. Одновременно в статье отражены как положительные, так и отрицательные последствия этих факторов.

***Ключевые слова**: управление образованием, современные технологии, технологические средства, искусственный интеллект, цифровые системы управления обучением, виртуальный класс, смартфон, интерактивные доски*

Təlim prosesində öyrənmə və öyrətmənin səmərəli olmasında, eləcə də təhsil mühitinin səmərəli idarə edilməsində bir sıra amillərin böyük rolu vardı. Onlardan ən təsirli gücə malik olan informasiya-kommunikasiya texnologiyaları və texnoloji vasitələrdir. Belə ki, müasir dövrdə texnologiyalar və texnoloji vasitələr həm təhsilin idarə olunmasında, həm də təlim prosesinin daha səmərəli reallaşmasına şərait yaradır.

Prof. A.N. Abbasova görə, "Təhsil sistemli bilik, bacarıq və vərdişlərə, təfəkkür üsullarına yiyələnmənin məqsədyönlü prosesi və nəticəsi olub, böyüyən nəslin həyata, əməyə və ictimai fəaliyyətə hazırlanmasına xidmət göstərir" [1, s.17].

Texnologiyanın sürətli inkişafı təhsil sektoruna da öz təsirini göstərir, dövrün tələblərinə cavab verən təhsil müəssisələrinin, sinif otaqlarının, təhsilverənlərin və idarəedənlərin olmasını zərurətə çevirir. Yeni texnologiya və texnoloji vasitələr təlim prosesinin idarəedilmə metodunu, dərsin çatdırılma üsulunu dəyişməyi tələb edir. Təhsil sahəsində texnologiyanın istifadəsi son dərəcə vacibdir və onlardan məqsədəuyğun faydalanan zaman təhsilalanların səmərəli təlim prosesinə malik olmalarına imkan yaranır. Təlim zamanı texnoloji vasitələrdən məqsədəuyğun istifadə təhsilalanların mövzunu daha mükəmməl anlaması, dərk etməsi və onların təfəkkürünün inkişaf etməsinə gətirib çıxarır.

Təhsildə texnologiyanın tətbiqi dedikdə, bu sahədə texnoloji vasitələrdən istifadə nəzərdə tutulur. İnternetin yaranması, smart telefonun, planşetlərin, smart lövhələrin (ağıllı lövhələrin), multimedia vasitələrinin meydana gəlməsi texnoloji inkişaf olaraq təhsil sektoruna da öz təsirini göstərir. Təhsildə texnologiyanın tətbiqi kateqoriyasına nümunə olaraq, təlim zamanı ağıllı lövhələrdən, multimedia vasitələrindən faydalanma, həmçinin onlayn dərslərin keçirilməsini, süni intellekt (Sİ) proqramlarından, interaktiv oyunlardan istifadə və s. göstərmək mümkündür. "İnteraktiv lövhələr, onlayn test sistemləri, e-platformalar və müxtəlif mobil tətbiqlər tədrisin səmərəliliyini yüksəldir" [2, s. 55].

Qeyd edək ki, texnologiyanın sürətli inkişafı təhsil sektorunu dəyişdirdi və o, tədris metodu kimi də hesab edilə bilər. Onun səmərəliliyi fənnin məzmununa uyğun tətbiq olunmasındadır. Belə ki, sinif otaqlarının smart lövhələr, proyektorlar və digər multimedia vasitələrilə təchizi öyrənmə və öyrətmə üsulunu da dəyişir. Məsələn, təhsilverənlər ənənəvi üsuldan fərqli olaraq, dərs zamanı müxtəlif təqdimat proqramlarından faydalanmaq mümkündür. Bu zaman nəzərə almaq lazımdır ki, təqdimatların hazırlanması və təqdim edilməsi humanitar fənlərin tədrisində funksional üsul ola bilər, lakin təhsilalanlara animasiyalar göstərmək üçün ağıllı lövhədən istifadə təbiət fənlərinin tədrisində daha səmərəli öyrənmə üsulu ola bilər.

Süni intellekt bütün sahələrə, eləcə də təhsil sahəsinə də öz təsirini göstərir. Lakin çalışmaq lazımdır ki, bundan məqsədimizə müvafiq səmərəli istifadə edək. Ona görə də təhsilverənlərin süni intellekt haqqında həm nəzəri bilikləri, həm də onun metodologiyasını mükəmməl bilmələri

vacibdir. Çünki bu, təhsilalanların işini asanlaşdırır, vaxt itkisinin qarşısını alır, Məsələn, süni intellekt üzərindən təhsilverənlərin hazırladıqları testlərin, digər tapşırıqların yoxlanılmasına; süni intellekt təhsilverənlərə cari planın hazırlanmasında yaradıcı materiallar və təqdimatlar hazırlamasına kömək edir və s.

Süni intellekt təhsilalanların öyrənmə prosesini maraqlı edir və fərdiləşdirir. "Eyni zamanda, Sİ interaktiv və fəal öyrənməni stimullaşdırır" [3, s.19]. Məsələn, hər insanın zəif və güclü tərəfləri var, yəni onların maraq dairəsi və qavrama tezliyi fərqlidir. Süni intellekt alqoritmləri də ona müraciət edənlərə fərdi yanaşaraq, ona xüsusi tədris planı təklif edir. Həmçinin təhsilalanlar istənilən zaman hər hansı bir məsələnin həllində çətinlik çəkdikdə Sİ chatbotları ona verilmiş məsələnin həllinə addım-addım kömək edir, mürəkkəb mövzuları onlara daha sadə şəkildə aydınlaşdıra bilir. Bununla da öyrənənlərin yoldaşlarından geri qalmayaraq özünəməxsus templə irəliləməsi müşahidə olunur. Hətta xüsusi qayğıya ehtiyacı olanlar üçün xüsusi imkanlar yaradır. Belə ki, eşitmə və ya görmə məhdudiyyətli şəxslər üçün nitqin mətnə və ya əksinə çevrilməsi, tərcümə edə bilməyə kömək göstərir.

Onu da nəzərə almaq lazımdır ki, süni intellektin təhsildə tətbiqinin müsbət tərəfləri ilə yanaşı, mənfi təsirləri də vardır. Buna nümunə olaraq, təhsilalanların bütün tapşırıqlarını süni intellektə yazdırması onların biliyinin zəifləməsinə, təfəkküründün inkişafdan qalmasına gətirib çıxaracaq ki, bu da onların müasir dövrün tələblərinə cavab verən bacarıqlarının inkişafına mənfi təsir göstərərcəkdir. Həmçinin müəllim-şagird ünsiyyətinin, əməkdaşlığının azalma riskini artıracaq. Amma onu da qeyd edək ki, süni intellekt təhsilverəni əvəz edə bilməz. Lakin onun imkanlarını genişləndirən və təhsili hər kəs üçün daha keyfiyyətli edən texnoloji vasitə rolunu oynaya bilər.

Təhsildə texnologiyanın tətbiqi dedikdə, informasiya texnologiyaları kimi başa düşülsə də, əslində burada paylanılan hər hansı vasitələri, məsələn, təhsil müəssisələrinin laboratoriyalarında istifadə olunan müxtəlif avadanlıqlar və resurslar texnoloji vasitələr hesab edilə bilər. İnformasiya texnologiyası isə, texnoloji cihazlar vasitəsilə insanlara informasiya xidmətlərinin göstərilməsini təmin edən alət və üsulların məcmusudur.

"Təhsildə İKT üç əsas sferada istifadə olunur: təhsil prosesinin idarə edilməsi; təlim; tədris materiallarının yaradılması" [4, s.184]. Müasir texnologiya inzibati tapşırıqları avtomatlaşdırmaq, kommunikasiyanı gücləndirmək, məlumat əsaslı qərarların qəbulunu təkmilləşdirmək, rəqəmsal təlim idarəetmə sistemləri (Learning Menagement System (LMS)), süni intellekt (artificial intelligence (Aİ)), virtual sinif otaqları və əməkdaşlıq platformaları kimi vasitələr təhsilin idarəedilməsinə öz müsbət təsirini göstərir. Təhsilin idarəedilməsində müasir texnologiyadan və texnoloji vasitələrdən istifadənin üstünlükləri və catışmazlıqları mövcuddur. Üstünlükləri olaraq aşağıdakıları qeyd edə bilərik:

- təhsilverənlərə dərslərini daha səmərəli keçməyə, təhsilalanların inkişafı haqqında sürətli rəy formalaşdırmağa şərait yarada bilir;
- lazımi məlumatlara tez bir zamanda yiyələnməkdə və bu və ya digər materialı, mövzunu səmərəli şəkildə mənimsəməkdə təhsilalanlara kömək göstərir, onların idrakı fəallığını artırır, motivasiyasını yüksəldir;
- dərsə marağı artırmaqla yanaşı, texnoloji nailiyyətlərlə ayaqlaşmağa,

texnoloji inkişafdan geri qalmamağa imkan verir;

- təhsilalanlarda tədqiqatçılıq bacarıqlarını formalaşdırır;
- fərdi yanaşmanı, fərqli öyrənmə üslubu olan təhsilalanların diqqətdən kənarda qalmamasını təmin edir. Bu isə onların nailiyyətlərinin yüksəlməsinə motivasiayasının artmasına səbəb olur;
- təhsilalanlarda analitik düşünmə bacarığını inkişaf etdirir;
- süni intellektlə işləyən alətlər imtahanların avtomatik qiymətləndirilməsi və təhsilalanların qeydlərinin idarə edilməsi, vaxta qənaət etmək və səhv etmə riskinin azalmasına səbəb olur.

Texnologiyanın müsbət təsirləri ilə yanaşı onun mənfi təsirləri də var. Mənfi təsirlər təxminən aşağıdakılardır:

- fiziki sağlamlığa zərərlidir;
- göz sağlamlığına zərərlidir;
- təhsilalanların sosiallaşmasına mane ola bilər;
- təhsilalanların cəmiyyətdən təcrid olunmasına səbəb ola bilər;
- süni intellektə həddən artıq etibar etmək təhsilalanların və idarəçilərin tənqidi düşünmə bacarıqlarına maneçilik törədə bilər.

Beləliklə, hər bir öyrədənin fənn bilikləri ilə yanaşı, onların müasir texnologiya və texnologiya vasitələri haqqında həm nəzəri bilikləri, həm də onun metodologiyasını mükəmməl bilməsi mütləqdir.

Artıq istənilən sahədə olduğu kimi, təhsilin idarəedilməsində də müasir texnologiyadan istifadə idarəetmə üçün rahatlıq və səmərəlilik təmin edir. Bura daxildir:

∗ müəssisənin strateji planlaşdırılması üçün lazım olan proseslərin reallaşdırılması;

∗ təhsilalanların məlumat bazasının yaradılması və qorunması;

∗ valideynlərlə əməkdaşlıq, digər fəaliyyətin asan və sürətli planlaşdırılması və s.

Onu da qeyd etmək lazımdır ki, təhsilin idarəedilməsində texnologiyadan istifadədə məsuliyyətli şəxs həmin müəssisənin rəhbəridir.

Məktəb rəhbərlərinin texnoloji bilik və bacarıqlarını öyrənmək məqsədilə 8 məktəb rəhbəri arasında sorğu aparılmışdır. Onlardan 4 nəfəri direktoru, 4 nəfəri isə direktor müavini olmuşdur. Sorğunun nəticələri:

– Müasir texnologiyaya sizin münasibətiniz necədir? - sualına 8 nəfərin hamısı müasir texnologiyanı əvəzolunmaz rahatlığı təmin edən, faydalı və hətta gələcək kimi dəyərləndiriblər. 3 nəfər isə, həm də onu qeyd edib ki, texnologiya rahatlıqdır, amma bunun sonunun necə olacağından narahatıq. Onların fikirlərinə görə, yeni bir tətbiq çıxır, onu tam öyrənənə qədər, başqa biri çıxır. Texnologiyanın belə sürətli inkişaf etməsi nəticəsində, təbii ki, hər kəsin onu eyni səviyyədə bilib və öz iş prosesində faydalanması mümkün deyil.

– İKT bacarığınızın hansı səviyyədədir? – sualına cavab olaraq 6 nəfər bildirib ki, öz işlərimi idarə edəcək qədər biliklərə malikdirlər, lakin lazım gəldikdə mütəxəssislərdən dəstək almalı da olurlar. 2 nəfər isə rəqəmsal bacarığının kifayət qədər olduğunu iddia edir.

– Texnologiyadan hansı işlərinizdə faydalanırsınız? – sualına sorğuda iştirak edənlərin hamısı hər vəziyyətdə texnologiyalardan istifadə etdiklərini bildirmişlər. Onlar qeyd edirlər ki, əvvəllər əl ilə etdikləri işləri indi internet üzərindən yerinə yetirirlər. Valideynlərlə əlaqə saxlamaq, sosial-mədəni tədbirlərin təşkili, əlaqə və kommunikasiya kimi işlər də buraya daxildir.

– İdarəetmədə texnologiyadan səmərəli istifadə üçün hansı işlər görülməlidir? – sualına soruşulanların

hər biri “ən böyük problemimiz texniki avadanlıqların tələblərə cavab verməməsi və kifayət qədər olmamasıdır” cavabını vermişdir.

Onların 6 nəfəri texnologiyanın istifadəsinə dair rəhbərlərə və müəllimlərə təlimlərin verilməsini məqsədəuyğun sanmışlar. Onu da xüsusi vurğulamışlar ki, bu tipli təlimlərdə iştirak ediblər, lakin həmin proqramların məzmunu yeni texnologiya və tətbiqləri heç də yetərincə əhatə etməyib. Sitat: “Nəzərə alsaq ki, texnologiya sürətli dəyişikliyə məruz qalır, onda bu proqramların da məzmunu mütəmadi yenilənməlidir”.

Nəticə: Hər bir müəssisənin təkmilləşdirilməsi və inkişaf etdirilməsi onu idarə edən rəhbərliyin üzərinə düşür. Müasir texnologiyanın sürətli inkişafı bütün sahələrə öz təsirini göstərdiyi kimi, təhsilin də inkişaf və dəyişikliyə məruz qalması qaçılmazdır. Bura həm təhsilin idarəedilməsi, həm də onun keyfiyyətinin yüksəldilməsi daxildir. Bunun üçün müasir tələblərə cavab verən məktəb modelinin qurulması üçün texnologiyanı mükəmməl bilən və idarəetmədə ondan istifadə etməyi bacaran müəssisə rəhbərlərinə ehtiyac vardır.

Problemin aktuallığı. Texnologiyanın inkişafı təhsil sahəsinə də öz təsirini göstərməkdədir. Müasir dövrdə keyfiyyətli idarəetməni təmin etmək və keyfiyyətli təhsil əldə etmək üçün texnologiyanı mükəmməl bilən və ondan istifadə etməyi bacaran kadra ehtiyac vardır. Nəzərə almaq lazımdır ki, düzgün idarə olunan prosesin nəticəsi uğurlu nailiyyətə gətirir.

Problemin yeniliyi ənənəvi idarəetmə mühitindən və ənənəvi tədrisdən rəqəmsal və müasir tələblərə cavab verən məktəb modelinə keçidə əsaslanır.

Problemin praktik əhəmiyyəti. Elmi məqalədə istifadə edilən ideya və fikirlərdən təhsil müəssisələrinin rəhbərləri müasir tələblərə cavab verən təhsil mühitinin yaradılması və təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə nəzəri fikirlər olaraq istifadə edə bilərlər.

Ədəbiyyat

1. Abbasov, A.N. Təhsil, tərbiyə, təlim və məktəbin idarə edilməsi haqqında elm // ARTİ-nin Elmi əsərləri, Cild 85, –2018, № 7, –s. 15-19.
2. Əhmədov, H.H. Xudiyeva F.T. Ümumtəhsil məktəblərində dərsdə müasir təlim metodlarından istifadə rəqabətəqabil təhsil məkanının təmin edilmə vasitəsi kimi // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun (ARTİ-nin) Elmi əsərləri, Cild 92, –2025. № 5, –s. 53-57.
3. Abbasov, Ə. Məmmədov, Z. Süni intellektin elmdə və təhsildə rolu: Çağırışlar, yeni imkanlar, etik məsələlər və gələcək perspektivlər // –Bakı: Azərbaycan Universitetinin Elmi jurnalı, İPƏK YOLU, No.3, –2025. –s. 11-24.
4. Məmmədova, G.S. İKT və müasir təhsil paradiqması // ARTİ-nin əsərləri, Cild 90, –2023. № 3, –s. 182-188.
5. Abbasov, A.N. Təlim prosesinə ənənəvi və müasir yanaşmalar / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik. – Bakı: Mütərcim, –2022. –s. 99-105.
6. Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası. https:// eqanun. az/ framework/ 59218
7. Əliquliyev R.M., Mahmudov R.Ş. Elm və təhsilin inteqrasiyasında informasiya-kommunikasiya texnologiyalarının rolu və perspektivləri // İnformasiya cəmiyyəti problemləri, –2017.№1, –s. 98–104
8. Mehdiyeva, R.Z. Təhsildə İKT-nin pedaqoji-psixoloji imkanları // –Bakı: Azərbaycan məktəbi, –2017. № 5, –s. 97-102.
9. Mehdiyeva, R.Z. Ümumi təhsildə İKT: kompetensiyalar, istifadə imkanları. ARTPİ, Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri. –Bakı, 2014. –s. 106-113.

10. Mehdiyeva R.Z.The role of information and communication technologies in inproving the quality education. Збірник наукових праць. Педагогічні науки. – Херсон, 2017. Випуск LXXVIII, том 1, –217
11. Сергеев, А.Н. Использование технологий социальных сетей при разработке образовательных ресурсов сетевых сообществ в Интернете // –Москва: Образование и общество, –2012. № 5, –с.158-165.

Redaksiyaya daxil olub: 11.03.2026

PSİXOLOGİYA
PSYCHOLOGY
ПСИХОЛОГИЯ

***U**OT 616.89-008.441.44*

Məhərrəm Sabir oğlu Əliyev
Azərbaycan Dillər Universitetinin elmlər doktoru proqramı üzrə qiyabi doktorantı,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya
kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3762-8745
E-mail: dos.m.aliyev@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).221-227

GƏNCLƏR ARASINDA İNTİHARA MEYİLLİLİYİN ÜMİDSİZLİK VƏ DEPRESSİYA İLƏ ƏLAQƏSİ

Maharram Sabir Aliyev
part-time doctoral student of the doctor of sciences program at
Azerbaijan University of Languages,
associate professor of the department of General psychology
at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in psychology

THE RELATIONSHIP BETWEEN SUICIDAL TENDENCIES AMONG YOUTH WITH HOPELESSNESS AND DEPRESSION

Магеррам Сабир оглы Алиев
докторант-заочник по программе доктора наук
Азербайджанского Университета Языков,
доцент кафедры Общей психологии
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по психологии

СВЯЗЬ МЕЖДУ СКЛОННОСТЬЮ К САМОУБИЙСТВУ СРЕДИ МОЛОДЕЖИ С БЕЗНАДЕЖНОСТЬЮ И ДЕПРЕССИЕЙ

Xülasə. Ümidsizlik və depressiyanın intihar səbəbləri kimi göstərilməsi gənclər arasında onların yayılmasını təhlükəli edir. Bu çərçivədə ümidsizlik və depressiya hallarının intihara meyilliliklə əlaqəsini tədqiqat predmeti etmişik. Apardığımız tədqiqat nəticəsində müəyyən edilmişdir ki, intihar düşüncəsi olan və intihara cəhd edən gənclərin intihar riski, ümidsizlik və depressiya balları və müvafiq olaraq sıra ortaları intihar düşüncəsi olmayan gənclərə nisbətdə daha yüksəkdir. İntihar

düşüncəsi amili (n=616) fonunda intihar riski ilə ümidsizlik ($r_{spearman}$ = .401; p < .001) arasında müsbət yönlü zəif anlamlı əlaqə, intihar riski ilə depressiya ($r_{spearman}$ = .507; p < .001) arasında müsbət yönlü orta anlamlı əlaqənin olduğunun aşkarlanması deməyə əsas verir ki, intihar düşüncəsi amili fonunda gənclərin ümidsizliyi və depressiya səviyyəsi artdıqca, onların intihar etmə riski də artır və əksinə. İntihara cəhd amili (n=186) fonunda intihar riski ilə ümidsizlik ($r_{spearman}$ = .487; p < .001) arasında müsbət yönlü zəif anlamlı əlaqə, intihar riski ilə depressiya ($r_{spearman}$ = .580; p < .001) arasında müsbət yönlü orta anlamlı əlaqənin olduğunun aşkarlanması deməyə əsas verir ki, intihara cəhd amili fonunda da gənclərin ümidsizliyi və depressiya səviyyəsi artdıqca, onların intihar etmə riski artır və əksinə.

Açar sözlər: *intihar, intihara meyillilik, intihar riski, intihar düşüncələri, intihara cəhd, ümidsizlik, depressiya, gənclik*

Abstract. The perception of hopelessness and depression as the causes of suicide among young people makes their spread dangerous. In this context, we focused our research on the relationship between hopelessness, depression, and suicidal tendencies. Our study found that the risk of suicide, hopelessness, and depression, and, accordingly, the average rates of young people with suicidal thoughts and suicide attempts, are higher than those of young people without suicidal thoughts. The identification of a positive, weakly significant relationship between the risk of suicide and hopelessness ($r_{spearman}$ = 0.401; p < 0.001) against the background of the suicidal thoughts factor (n = 616), as well as a positive, moderately significant relationship between the risk of suicide and depression ($r_{spearman}$ = 0.507; p < 0.001) provides grounds for asserting that as the level of hopelessness and depression in young people against the background of the suicidal thoughts factor increases, their risk of committing suicide also increases, and vice versa. The finding of a positive weak significant association between suicide risk and hopelessness ($r_{spearman}$ = 0.487; p < 0.001) and a positive moderate significant association between suicide risk and depression ($r_{spearman}$ = 0.580; p < 0.001) against the background of the suicide attempt factor (n=186) suggests that as the level of hopelessness and depression in young people against the background of the suicide attempt factor increases, their risk of committing suicide increases, and vice versa.

Key words: *suicide, suicidal tendency, suicidal risk, suicidal thoughts, suicide attempt, hopelessness, depression, youth*

Аннотация. Представление безнадежности и депрессии как причин самоубийств среди молодежи делает их распространение опасным. В этом контексте мы сделали предметом исследования взаимосвязь между безнадежностью, депрессией и суицидальными наклонностями. В результате нашего исследования было установлено, что показатели риска самоубийства, безнадежности и депрессии, а соответственно, средние показатели молодых людей с суицидальными мыслями и попытками самоубийства выше, чем у молодых людей без суицидальных мыслей. Выявление положительной слабой значимой связи между риском самоубийства и безнадежностью ($r_{spearman}$ = 0,401; p < 0,001) на фоне фактора суицидальных мыслей (n=616), а также положительной умеренно значимой связи между риском самоубийства и депрессией ($r_{spearman}$ = 0,507; p < 0,001) дает основания утверждать, что по мере повышения уровня безнадежности и депрессии у молодых людей на фоне фактора суицидальных мыслей, их риск совершения самоубийства также возрастает, и наоборот. Выявление положительной слабой значимой связи между риском самоубийства и чувством безнадежности ($r_{spearman}$ = 0,487; p < 0,001) и положительной умеренно значимой связи между риском самоубийства и депрессией ($r_{spearman}$ = 0,580; p < 0,001) на фоне фактора попытки самоубийства (n=186) предполагает, что по мере увеличения уровня безнадежности и

депрессии у молодых людей на фоне фактора попытки самоубийства, их риск совершения самоубийства возрастает, и наоборот.

Ключевые слова: *самоубийство, склонность к суициду, риск суицида, суицидальные мысли, попытка самоубийства, безнадежность, депрессия, молодежь*

Giriş

Elmi-populyar ədəbiyyatda intiharın izahına müxtəlif yanaşmalar ətraflı təsvir və təhlil olunsa da, psixoloji kontekstdə tam dolğun cavab verilmədiyi dəqiqdir. Biz müxtəlif səbəb və amillərin intiharı təşviq etdiyini bilirik, lakin o müddəadan çıxış edirik ki, intihara meyilli gənclərin (ümumən insanların) ümumortaq psixoloji "nöqtələri"nin olması böyük ehtimaldır. Belə "nöqtələr"dən biri Edwin S. Shneidman tərəfindən ruhi ağrı (psychache) olaraq adlandırılır və insan ruhunda baş verən dram kimi qəbul edilərək, frustrasiya yaxud təhrif olunmuş psixoloji tələbatlarla doğulduğu söylənilir (1). Müasir suisidologiya üçün bu yanaşmanın böyük önəmi vardır, belə ki, intiharın səbəbi kimi psixoloji meyar ön plana çıxarılır. Biz bu müddəanı daha irəli götürməyə çalışmaqla, ruhi ağrının da altında daha dərin psixoloji mexanizmlərin olduğunu iddia edirik.

İntiharı xarakterizə edən bəzi cəhətlər vardır: onu ehtimal etmək çətindir; o, ağır fəsadlara gətirib çıxara bilər; onun qarşısını almaq olar (2). Bu məqalədə əsas təhlil predmeti intihara meyilliliklə ümidsizlik və depressiya arasında nə kimi əlaqənin olması məsələsidir. İlk olaraq, bu mövzuda aparılan tədqiqatlar diqqəti cəlb edir.

Məqalələrdən birində depressiya, həyəcan-təşviş və intihara meyillilik arasında əlaqə müxtəlif tədqiqatlardan, xüsusilə iki fərqli müdaxilə proqramından misal gətirilərək (1.fluoksetin – antidepresan (60,6%), koqnitiv-davranış terapiyası (KDT) (43,2%), KDT+fluoksetin (71%) və platsebonun (34,8%); 2.sertraline – antidepresan (54.9%) , koqnitiv-davranış terapiyası (KDT) (59,7%), KDT+ sertraline (80,7%) və platsebonun (23,7%) təsiri fonunda) araşdırılır, KDT+fluoksetinin və fluoksetinin, o cümlədən, KDT+ sertraline, koqnitiv-davranış terapiyası (KDT) və sertraline-nin platsebo ilə müqayisədə daha effektiv olduğu qeyd edilir (3).

D.Harwitz və L.Ravizza öz məqalələrində intihar riski qrupunda baxılan xəstələrin yayılmış təzahürlərini, o cümlədən başlıca depressiv və bipolyar pozuntuların icmalını təsvir edirlər. Müəlliflər intihar riskinə şübhə doğuracaq məqamlarda xüsusilə depressiya simptomlarına diqqət edərək anamnez toplamağın vacibliyinə vurğu edirlər (2).

S.R.Furr və həmkarları öz işlərində xüsusi diqqəti kollec gəncləri arasında intihar və depressiyanın özünüqiymətləndirilməsi səviyyəsinə yetirilməklə yanaşı, buna şərait yaradan şərtlər və yardım müraciəti ilə bağlı davranışı da öyrənmişlər. Tədqiqat nəticələri göstərmişdir ki, kollecə daxil olan andan etibarən gənclərin 53 %-i depressiyaya, 9 %-i isə intihar düşüncəsinə qapılmışlar (4).

J.S.Westefeld və S.R.Furr qeyd edirlər ki, üç təhsil müəssisəsində cəmi 962 tələbənin depressiya və intihar təcrübəsini sorğularla öyrənmişlər. Nəticələr göstərmişdir ki, kolleclərin tələbə şəhərciyində depressiya və intihar halları geniş yayılmışdır, harda ki, depressiya, intihar düşüncələri və intihar davranışının da konkret səbəbləri vardır (5).

Keith Hawton və həmkarları depressiyadan əziyyət çəkən fərdlərin intihar riski amillərini araşdırmışlar. Müəyyən etmişlər ki, intiharla gerçək

əlaqəli əsas risk amillərinə kişi cinsi, psixi pozuntuların ailə anamnezi, öncəki intihar cəhdi, ağır depressiya, ümidsizlik və həyəcanı və alkoqol və narkotikdən sui-istifadəni də daxil etməklə, komorbid pozuntular aiddir (6).

B.W.Wanyoike tədqiqatında respondentlərin konkret nöqteyi-nəzərini müəyyənləşdirməyə yardımçı olan tematik təhlildən istifadə edərək qeyd edir ki, depressiya insanın sadəcə psixoloji rifahına deyil, həm də onun fiziki rifahına təsir göstərən həyəcan meyli olmaqla, intiharın əsas səbəblərindən birinə çevrilir (7).

H.Omar və J.Merrick vurğulayırlar ki, valideyn psixopatologiyası, depressiya və psixoaktiv maddələrdən sui-istifadə gənclər arasında intihar riski amilləridir. Müəlliflərin fikrincə, intiharın qarşısının alınmasının ən yaxşı üsulu depressiya və intihar riskini artıran digər psixi xəstəliklərin vaxtında aşkar edilməsi və müalicəsidir (8).

N.H.Kalin intihar və depressiya mövzusuna daha geniş prizmadan yanaşır. Müəllif müasir genetik, molekulyar, heyvanı modellərin, davranış və epidemioloji metodların istifadəsi ilə intihar riski və depressiyaya şərait yaradan amilləri daha yaxşı başa düşməyə cəhd edir. Xüsusilə onu qeyd edir ki, psixiatriyanın gələcəyi psixi xəstəliklərin əsasında duran molekulyar, neyron, davranış və şəxsiyyətlərarası mexanizm lərin tapılması qabiliyyətindən asılıdır, hansı ki, son nəticədə psixi xəstəliklərin daha effektiv fər di müalicə üsullarının işlənilməsinə gətirib çıxaracaq (9).

Metod

Tədqiqatda 534 nəfəri (86,7%) qadın, 82 nəfəri (13,3%) kişi olmaqla, cəmi 616 nəfər gənc iştirak etmişdir. Tədqiqatın məqsədindən asılı olaraq, “Suisidal düşüncələr şkalası” (A. Bek) (10), “Ümidsizlik şkalası” (A. Bek) (11) və “Depressiya şkalası” (A. Bek) (12) metodikaları istifadə edilmiş və əldə olunan məlumatlar iki amil (intihar düşüncəsi və intihara cəhd) üzərindən təhlil edilmişdir. Gənclərin hamısı sorğuda könüllü iştirak etmişdir. Sorğuda iştirak edən gənclərin 308 nəfəri (50%) “İntihar etməklə bağlı düşüncəniz olubmu?” sualına bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 308 nəfəri (50%) xeyr cavabı vermişdir. “İntihara cəhd etmisinizmi?” sualına isə gənclərin 93 nəfəri (50%) bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 93 nəfəri (50%) xeyr cavabı vermişdir. Sorğulardan əldə olunan məlumatlar İBM SPSS 27.0 kompüter proqramı ilə riyazi-statistik təhlil edilmişdir. Təhlil zamanı təsviri statistikadan, Kolmogorov-Smirnov normallıq testindən, Spearman’ın Ranq Korrelyasiya əmsalından və Mann-Whitney U testindən istifadə olunmuşdur.

Nəticə

Suisidal düşüncələr şkalasına görə, intihar düşüncəsinin üç komponenti qiymətləndirilmişdir: hazırlıq hərəkətləri, passiv intihar istəyi və aktiv intihar istəyi. Qeyd etməliyik ki, intihar riski üçün klinik əhəmiyyətli “həd” 6 bal (maksimum 38 bal) və yuxarısı hesab edilir; bal nə qədər yüksəkdirsə, risk də o qədər yüksəkdir.

Tədqiqatda əsas məqsəd intihar düşüncəsi (n=616) və intihara cəhd (n=186) amilləri fonunda gənclərin intihar riski, ümidsizlik və depressiya göstəricilərini müqayisə etmək, intihar düşüncəsi və intihara cəhdlə, o cümlədən intihar riski ilə ümidsizlik və depressiya arasında əhəmiyyətli korelyasiyanın olub-olmamasını müəyyən etmək olmuşdur. Öncə gənclərin iki amil (intihar düşüncəsi və intihara cəhd) fonunda intihar riski, ümidsizlik və depressiya göstəricilərinin normal paylanmaya uyğun olub-olmadığını müəyyən etmək üçün Kolmogorov-Smirnov testi keçirilmişdir (cədvəl 1).

Cədvəl 1-dən göründüyü kimi, intihar riski, ümidsizlik və depressiya göstəriciləri intihar düşüncəsi (n=616) və intihara cəhd (n=186) amilləri fonunda normal paylanmadan fərqlənir (p < .001)

Cədvəl 1.

Normallıq testi						
	Kolmogorov-Smirnov[a]			Shapiro-Wilk		
	Statistic	df	Sig.	Statistic	df	Sig.
İntihar riski	.124	616	.000	.919	616	.000
Ümidsizlik	.185	616	.000	.845	616	.000
Depressiya	.105	616	.000	.923	616	.000
İntihar riski	.117	186	.000	.945	186	.000
Ümidsizlik	.207	186	.000	.837	186	.000
Depressiya	.122	186	.000	.931	186	.000

Beləliklə, intihar düşüncəsi olan və olmayan (n=616), sonra isə intihara cəhd etmiş və etməmiş (n=186) gənclərin intihar riski, ümidsizlik və depressiya göstəriciləri arasında əhəmiyyətli fərqlərin olub-olmadığını aşkar etmək məq sədilə Mann-Whitney U testi tətbiq olunmuşdur. Bu test normal paylanma göstərməyən iki müstəqil qrup ortalamalarını qarşılaşdırmaq üçün istifadə olunan qeyri-paramertik yöntəmdir. Mann-Whitney *U* testi nəticəsində əldə olunan *Z* dəyəri isə test statistikası olmaqla, iki qrup arasındakı fərqin böyüklüyünü və statistik cəhətdən əhəmiyyətli olub-olmamasını göstərir. *Z-balı*, ve rilənlər nöqtəsinin verilənlər dəstinin ortalamasından neçə standart meyilə (kənaraçıxmaya) sahip olduğunu açıqlayan statistik ölçüdür. *Z-balının* pozitiv olması, verilənlər nöqtəsinin ortalamanın üstündə, *z-balının* neqativ olması isə, verilənlər nöqtəsinin ortalamanın altında olduğu anlamına gəlir. Bu dəyər *p* dəyəri ilə birlikdə təhlil olunur.

Aşağıdakı cədvəl 2-də intihar riski, ümidsizlik, depressiya və intihar düşüncəsi ilə bağlı sorğuların nəticələrinin orta qiymət, standart kənaraçıxma, minimum və maksimum kimi bəzi təsviri statistik göstəriciləri öz əksini tapmışdır.

Cədvəl 2.

Təsviri statistikalar					
	N	Mean	Std. Deviation	Minimum	Maximum
İntihar riski	616	9.89	7.349	0	42
Ümidsizlik	616	4.71	4.462	0	19
Depressiya	616	16.84	12.086	0	63
İntihar etməklə bağlı düşüncəniz olubmu?	616	1.50	.500	1	2

Daha sonrakı cədvəl 3-də intihar düşüncəsi olan (n=308) və olmayan (n=308) gənclərin intihar riski, ümidsizlik və depressiya göstəricilərinin sıra ortaları və sıraların cəmi verilmişdir. Cədvəl 3-dən görünür ki, intihar düşüncəsi olan gənclərin intihar riski, ümidsizlik və depressiya balları və müvafiq olaraq sıra ortaları intihar düşüncəsi olmayan gənclərə nisbətdə daha yüksəkdir.

Cədvəl 3.

Ranqlar				
	İntihar etməklə bağlı düşüncəniz olubmu?	N	Mean Rank	Sum of Ranks
İntihar riski	bəli	308	372.05	114591.50
	xeyr	308	244.95	75444.50
	Total	616		
Ümidsizlik	bəli	308	350.93	108086.50
	xeyr	308	266.07	81949.50
	Total	616		
Depressiya	bəli	308	368.47	113489.50
	xeyr	308	248.53	76546.50
	Total	616		

Bununla yanaşı, ən önəmli göstərici cədvəl 4-də verilir, belə ki, p < .001 olduğu üçün intihar riski (U = 27858.500; Z = -8.875; p < .001), ümidsizlik (U = 34363.500; Z = -5.952; p < .001) və depressiya (U = 28960.500; Z = -8.368; p < .001) göstəricilərinin intihar düşüncəsi olan və olmayan gənclər arasında anlamlı fərqlər göstərdiyini deyə bilərik.

Cədvəl 4.

Statistikalar testi			
	İntihar riski	Ümidsizlik	Depressiya
Mann-Whitney U	27858.500	34363.500	28960.500
Wilcoxon W	75444.500	81949.500	76546.500
Z	-8.875	-5.952	-8.368
Asymp. Sig. (2-tailed)	.000	.000	.000

Aşağıdakı cədvəl 5-də intihar riski, ümidsizlik , depressiya və intihara cəhd ilə bağlı sorğuların nəticələrinin orta qiymət, standart kənaraçıxma, minimum və maksimum kimi bəzi təsviri statistik göstəriciləri öz əksini tapmışdır.

Cədvəl 5.

Təsviri statistikalar					
	N	Mean	Std. Deviation	Minimum	Maximum
İntihar riski	186	12.25	8.298	0	37
Ümidsizlik	186	5.17	5.126	0	19
Depressiya	186	19.52	13.970	0	63
İntihara cəhd etmisinizmi?	186	1.50	.501	1	2

Daha sonrakı cədvəl 6-da intihara cəhd edən (n=93) və etməyən (n=93) gənclərin intihar riski, ümidsizlik və depressiya göstərcilərinin sıra ortaları və sıraların cəmi verilmişdir. Cədvəl 6-dan görünür ki, intihara cəhd edən gənclərin intihar riski, ümidsizlik və depressiya balları və müvafiq olaraq sıra ortaları intihara cəhd etməyən gənclərə nisbətdə daha yüksəkdir.

Cədvəl 6.

Ranqlar				
	İntihara cəhd etmisinizmi?	N	Mean Rank	Sum of Ranks
İntihar riski	bəli	93	124.98	11623.50
	xeyr	93	62.02	5767.50
	Total	186		
Ümidsizlik	bəli	93	107.72	10017.50
	xeyr	93	79.28	7373.50
	Total	186		
Depressiya	bəli	93	115.90	10779.00
	xeyr	93	71.10	6612.00
	Total	186		

Bununla yanaşı, ən önəmli göstərici cədvəl 7-də verilir, belə ki, $p < .001$ olduğu üçün intihar riski ($U = 1396.500$; $Z = --7.983$; $p < .001$), ümidsizlik ($U = 3002.500$; $Z = -3.624$; $p < .001$) və depressiya ($U = 2241.000$; $Z = -5.678$; $p < .001$) göstəricilərinin intihara cəhd edən və etməyən gənclər arasında anlamlı fərqlər göstərdiyini deyə bilərik.

Cədvəl 7.

Statistikalar testi			
	İntihar riski	Ümidsizlik	Depressiya
Mann-Whitney U	1396.500	3002.500	2241.000
Wilcoxon W	5767.500	7373.500	6612.000
Z	-7.983	-3.624	-5.678
Asymp. Sig. (2-tailed)	.000	.000	.000

Məlumatlar normal paylanmadığına görə, intihar düşüncəsi və intihara cəhd amilləri fonunda intihar riski, ümidsizlik və depressiya arasında korrelyasiyanın olub-olmadığını müəyyən etmək məqsədilə qeyri-parametrik meyar olan Spearman'ın Ranq Korrelyasiya əmsalı istifadə olunmuşdur.

Cədvəl 8-dən gördüyümüz kimi, intihar düşüncəsi amili (n=616) fonunda intihar riski ilə ümidsizlik ($r_{spearman} = .401$; $p < .001$) arasında müsbət yönlü zəif anlamlı əlaqə, intihar riski ilə depressiya ($r_{spearman} = .507$; $p < .001$) arasında müsbət yönlü orta anlamlı əlaqə olduğu aşkarlanmışdır. Belə qənaətə gəlmək olar ki, intihar düşüncəsi amili fonunda gənclərin ümidsizliyi və depressiya səviyyəsi artdıqca, onların intihar etmə riski də artır və əksinə.

Cədvəl 8.

Korrelyasiya		
	Ümidsizlik	Depressiya

Spearman's rho	İntihar riski	Correlation Coefficient	.401**	.507**
		Sig. (2-tailed)	.000	.000
		N	616	616

Cədvəl 9-dan gördüyümüz kimi, intihara cəhd amili (n=186) fonunda intihar riski ilə ümidsizlik ($r_{spearman}$ = .487; p < .001) arasında müsbət yönlü zəif anlamlı əlaqə, intihar riski ilə depressiya ($r_{spearman}$ = .580; p < .001) arasında müsbət yönlü orta anlamlı əlaqə olduğu aşkarlanmışdır. Belə qənaətə gəlmək olar ki, intihara cəhd amili fonunda da gənclərin ümidsizliyi və depressiya səviyyəsi artdıqca, onların intihar etmə riski artır və əksinə.

Cədvəl 9.

Korrelyasiya				
			Ümidsizlik	Depressiya
Spearman's rho	İntihar riski	Correlation Coefficient	.487**	.580**
		Sig. (2-tailed)	.000	.000
		N	186	186

Müzakirə

Aparılan tədqiqat nəticəsində məlum olur ki, ümidsizlik və depressiya ilə intihara meyillilik arasında istər intihar düşüncəsi, istərsə də, intihara cəhd amili fonunda əhəmiyyətli müsbət əlaqə vardır. Deməli, adı çəkilən amillər ortaq nöqtədə "görüşəndə" intihar riski artma ehtimalı göstərir. Ümidsizlik və depressiyanın intiharın səbəbi ola biləcəyi ilə bağlı tədqiqatlar yuxarıda da qeyd etdiyimiz kimi az deyildir. Bu da, əldə etdiyimiz nəticələrin müvafiq tədqiqatların bir qisminin nəticələri ilə səsləşdiyini vurğulayır.

Problemin aktuallığı. Ümidsizlik və depressiyanın intiharın əsas səbəblərindən biri kimi göstərilməsi gənclər arasında bu halların intihara cəhd riskini azaltmaq və ya yox etmək istiqamətində öyrənilməsini xüsusilə aktual edir.

Problemin elmi yeniliyi. İlk dəfə gənclərin intihar riski, ümidsizlik və depressiya göstəriciləri intihar düşüncəsi və intihar cəhdi amilləri fonunda müqayisə edilmiş, intihar düşüncəsi və intihara cəhdlə, o cümlədən intihar riski ilə ümidsizlik və depressiya arasında əlaqə təhlil edilmişdir.

Problemin praktik əhəmiyyəti. İntihar riski qrupuna daxil olan gənclərin öncədən aşkar edilməsi müvafiq istiqamətdə preventiv tədbirlərin vaxtında həyata keçirilməsini mümkün edir.

Ədəbiyyat

1. Шнейдман, Эдвин С. Душа самоубийцы: [Электронный ресурс] / Пер.с англ. – М.: Смысл, – 2001. – 319 с. URL:https://psv4.userapi.com/s/v1/d/35G9kRT_3bqlpmPtJ5eSUOixOHYYG-ruArjar_YvorTgpBOr51-Q33N2sr4UnZoyvPsyPIl0BoKnwzSYLDgUiDLpPO3-MesOk4Ib1jxgfB7tQBOyk/_Edvin_S_Shneydman_-_Dusha_samoubiytsy_-_2001_Teoria_ i_praktika _psikhologicheskoy_ pomoschi. pdf
2. Harwitz, D., Ravizza L. Suicide and depression. Emergency Medicine Clinics of North America. Volume 18, Issue 2, 1 May 2000, Pages 263-271 https://doi.org/10.1016/S0733-8627(05)70123-1

3. Ned H. Kalin. Anxiety, Depression, and Suicide in Youth American Journal of Psychiatry Volume 178, Issue 4 April 01, 2021. Pages 275-364 https://doi.org/10.1176/appi.ajp.2020.21020186
4. Furr, S. R., Westefeld, J. S., McConnell, G. N., & Jenkins, J. M. (2001). Suicide and depression among college students: A decade later. Professional Psychology: Research and Practice, 32(1), 97–100. https://doi.org/10.1037/0735-7028.32.1.97
5. Westefeld, J. S., & Furr, S. R. (1987). Suicide and depression among college students. Professional Psychology: Research and Practice, 18(2), 119–123. https://doi.org/10.1037/0735-7028.18.2.119
6. Keith Hawton, Carolina Casañas i Comabella, Camilla Haw, Kate Saunders. Risk factors for suicide in individuals with depression: A systematic review. Journal of Affective Disorders. Volume 147, Issues 1–3, May 2013, Pages 17-28 https://doi.org/10.1016/j.jad.2013.01.004
7. Wanyoike, B.W. Depression As A Cause of Suicide. The Journal of Language, Technology & Entrepreneurship in Africa (JOLTE), Vol. 5 no. 2. 2014, pages 58-68 URL: https://www.ajol.info/index.php/jolte/article/view/113173
8. Omar, H. & Merrick, J. (2013). The young and suicide. International Journal of Adolescent Medicine and Health, 25(1), 1-2. https://doi.org/10.1515/ijamh-2013-0001
9. Kalin, N. H. (2020). Insights Into Suicide and Depression. American Journal of Psychiatry, 177(10), 877–880. https://doi.org/10.1176/appi.ajp.2020.20081207
10. Когнитивная терапия депрессии: [Электронный ресурс] / А. Бек, А. Раш, Б. Шо, Г. Эмери. – Санкт-Петербург : Питер, – 2003. – 304 с. : ил.
11. URL:https://sptcentre.ru/wp-content/uploads/Бек-А-Раш-А-Шо-Б-Эмери-Г-Когнитивная-терапия-депрессии.pdf
12. Банников, Г.С., Вихристюк, О.В., Миллер, Л.В., Синицына, Т.Ю. Методические рекомендации (памятка) психологам образовательных учреждений по выявлению и предупреждению суицидального поведения среди несовершеннолетних: [Электронный ресурс] / – М.: ГБОУ ВПО МГППУ, –2013. – 40 с. URL:https://studfile.net/preview/3096366/
13. Alıyev, C. İnsanı tanımağın yolları / C. Alıyev, R. Mirzəyev. – Bakı: Hərbi nəşriyyat, – 2011. – 404 s.

Redaksiyaya daxil olub: 09.04.2026

UOT 316.6

Validə Rəcəb qızı Əliyeva
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti,
psixologiya üzrə fəlsəfə doktoru

https://orcid.org/0009-0000-3036-4874
E-mail: v.aliyeva1@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(3).228-232

MODERNLƏŞMƏ PROSESİNDƏ ÜNSİYYƏTİN ROLU VƏ SOSİAL-PSİXOLOJİ DƏYİŞİKLİKLƏR

Valida Radjab Aliyeva
associate professor at Azerbaijan State University of Economics
doctor of philosophy in psychology

THE ROLE OF COMMUNICATION IN THE PROCESS OF MODERNIZATION AND SOCIO-PSYCHOLOGICAL CHANGES

Валида Раджаб гызы Алиева
доцент Азербайджанского Государственного Экономического Университета,
доктор философии по психологии

РОЛЬ ОБЩЕНИЯ В ПРОЦЕССЕ МОДЕРНИЗАЦИИ И СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ИЗМЕНЕНИЯ

Xülasə. Məqalədə modernləşmə prosesinin cəmiyyət həyatında rolu və bu prosesin sosial-psixoloji dəyişikliklərə təsiri təhlil olunur. Müəllif modernləşməni yalnız texniki və iqtisadi yenilənmə kimi deyil, eyni zamanda insanların düşüncə tərzində, davranış modellərində və ünsiyyət formalarında baş verən dəyişikliklər sistemi kimi səciyyələndirir. Məqalədə ünsiyyətin insan fəaliyyətinin zəruri şərti olduğu, şəxsiyyətin formalaşmasında, özünüdərkin inkişafında və sosial münasibətlərin qurulmasında mühüm rol oynadığı əsaslandırılır. Ünsiyyətin verbal və qeyri-verbal aspektləri, sosial normalar və sosial nəzarət mexanizmləri ilə qarşılıqlı əlaqəsi geniş şəkildə şərh edilir. Nəticə etibarilə, məqalədə modernləşmə prosesində ünsiyyətin cəmiyyətin sosial-psixoloji strukturunun formalaşmasında əsas amillərdən biri olduğu elmi-pedaqoji və sosial-psixoloji baxımdan əsaslandırılır.
Açar sözlər: *modernləşmə, ünsiyyət, determinizm, dəyişiklik, sosial maneə, cəmiyyət, persepsiya, texniki tərəqqi refleksiya*

Abstract. The article analyzes the role of the modernization process in the life of society and its impact on socio-psychological changes. The author characterizes modernization not only as technical and economic renewal, but also as a system of changes occurring in people’s ways of thinking, behavioral models, and forms of communication. The article substantiates that communication is a necessary condition of human activity and plays an important role in personality formation, the development of self-awareness, and the construction of social relations. The verbal and non-verbal aspects of communication, as well as their interrelation with social norms and mechanisms of social control, are examined in detail. As a result, from scientific-pedagogical and socio-psychological perspectives, it is argued that in the process of modernization communication serves as one of the key factors in shaping the socio-psychological structure of society.
Keywords: *modernization, communication, determinism, change, social barrier, society, perception, technological progress, reflection*

Аннотация. В статье анализируется роль процесса модернизации в жизни общества и его влияние на социально-психологические изменения. Автор характеризует модернизацию не только как техническое и экономическое

обновление, но и как систему изменений, происходящих в образе мышления людей, моделях поведения и формах общения. В статье обосновывается, что общение является необходимым условием человеческой деятельности и играет важную роль в формировании личности, развитии самосознания и построении социальных отношений. Подробно раскрываются вербальные и невербальные аспекты общения, их взаимосвязь с социальными нормами и механизмами социального контроля. В результате с научно-педагогической и социально-психологической точек зрения обосновывается, что в процессе модернизации общение выступает одним из ключевых факторов формирования социально-психологической структуры общества.

Ключевые слова: *модернизация, общение, детерминизм, изменение, социальный барьер, общество, перцепция, технический прогресс, рефлексия*

Modernləşmə anlayışı cəmiyyətin zamanın tələblərinə uyğun şəkildə yenilənməsi və inkişaf etməsi prosesini ifadə edir. Bu proses elmi-texniki tərəqqi, iqtisadi dəyişikliklər, sosial münasibətlərin yenidən qurulması və mədəni transformasiya ilə müşayiət olunur. Modernləşmə yalnız xarici dəyişiklik deyil, həm də insanların düşüncə tərzində, davranış modellərində və ünsiyyət üsullarında dəyişiklik yaradır. Xüsusilə, qloballaşma şəraitində modernləşmə prosesi ünsiyyətin forma və məzmununa birbaşa təsir göstərir.

Qərbliləşmə (westernisation), ənənəvi düşüncə, inanc, həyat tərzi və sosial idarəetmə mexanizmlərini kökündən rədd edib bunların yerinə bu gün hegemon sivilizasiya olan qərb sivilizasiyasının yuxarıda sadalanan sahələrə uyğun dəyərlərini mənimsəmək, eyni zamanda qərb ölkələri xaricindəki ölkələri geri qalmış ölkələr olaraq qəbul edərək bütün sahələrdə qərbi təqlid etməkdir.

Modernləşmə cəmiyyətlərin tarixi inkişaf prosesində mühüm mərhələ kimi çıxış edir. O, sosial, iqtisadi, siyasi və mədəni sahələrdə baş verən yenilənmə və dəyişiklikləri ifadə edir. Müasir dövrdə modernləşmə yalnız texniki tərəqqi ilə məhdudlaşmır, eyni zamanda insanların düşüncə tərzinə, dəyərlərinə və ünsiyyət formasına da təsir göstərir. Bu baxımdan modernləşmə prosesinin cəmiyyətin sosial münasibətlərinə təsiri xüsusi əhəmiyyət kəsb edir. Tarixin hər mərhələsində cəmiyyətlər dəyişmiş və yenilənmişdir. Bu dəyişikliklərin ən mühüm formalarından biri modernləşmə prosesidir. Modernləşmə sadəcə texniki inkişaf deyil, insanların həyat tərzinin, dəyərlərinin və sosial münasibətlərinin yenidən formalaşması deməkdir. Bu dəyişikliklər isə ilk növbədə insanların bir-biri ilə ünsiyyətinə təsir göstərir. İnsanlar birgə yaşayış və birgə fəaliyyət zamanı daima bir-biri ilə informasiya mübadiləsi aparır, bir-birinə qarşılıqlı təsir göstərir və ya bir-birini qavrayır və anlayırlar. Başqa sözlə ünsiyyətə girirlər. İnsanın hər cür fəaliyyətində ünsiyyət zəruri şərt kimi özünü göstərir. Ünsiyyət olmadan insanların birgə fəaliyyəti həyata keçirməsi mümkün deyildir. Ünsiyyət prosesində insanlar nəinki sosial dəyişmələr haqqında məlumat əldə edir, eyni zamanda müxtəlif adət və vərdişlərə yiyələnir ki, bunlar da real varlığın dərk edilməsinə xüsusi istiqamət verir. Deməli, ünsiyyət, hər şeydən əvvəl, obyektiv varlığın dərk edilməsini təmin edən əsas şərtdir. Ünsiyyət eyni zamanda şəxsiyyətin formalaşmasına da müəyyən tərzdə istiqamət verir. Demək olar ki, şəxsiyyətin təşəkkülü müəyyən mənada ünsiyyət prosesinin məhluludur.

Psixoloji aspektdən ünsiyyət probleminin maraqlı cəhətlərindən biri də ondan ibarətdir ki, insanın özünü dərk etməsi, öz “mən”inə nəzər salması, özünü başqaları ilə müqayisə edərək qiymətləndirməsi belə

ünsiyyət prosesinin məhlulu kimi qəbul edilə bilir. İnsan yalnız başqaları ilə ünsiyyət prosesində onları dərk edir.

Psixoloqlar belə bir fikri əsaslandırırlar ki, ünsiyyətin köməyi ilə fəaliyyət təşkil olunur və zənginləşir. Ünsiyyətə girən tərəflər arasında birgə fəaliyyət planının tərtibi onların hər birindən fəaliyyətin məqsəd və vəzifələrini bilməyi, obyektin spesifikasını, öz imkanlarını aydınlaşdırmağı tələb edir. Ünsiyyətin bu prosesə daxil olması onun iştirakçılarının "razılıq" və ya "narazılığı" həyata keçirmələrinə imkan verir.

Təsadüfi deyildir ki, beynəlxalq əlaqələrin inkişafı müxtəlif dillərə malik olan insanların ünsiyyətində, informasiya mübadiləsində çətinliklər yaradır. Bu cür çətinliyi aradan qaldırmaq üçün müxtəlif ölkələrdən olan insanların başa düşə biləcəyi simvollardan istifadə edilir. Bu məqsədlə o qədər də çətin olmayan görmə simvolları dünya miqyasında geniş yayılmışdır. Bu cür simvollara aeroportlarda, avtotraslarda daha çox rast gəlmək olur. Həmin simvolların köməyi ilə insanlar dayanacaqlar, yeməkxanalar, yanacaq və təmir yerləri və s. barədə məlumat əldə edirlər.

Tədqiqatlar prosesində aşkara çıxarmışlar ki, çox vaxt bədənin, üzün ifadəli hərəkətləri, qeyri – verbal yolla çatdırılan məlumatlar həmsöhbətə verbal yoldan daha güclü təsir göstərir. Məsələn, insan sevincdən doğan göz yaşları ilə dostlarını inandırmağa çalışsa ki, "Məndə hər şey yaxşıdır!" onlar onun sözünə deyil, daha çox göz yaşına inanacaqlar.

Adətən modernləşmə prosesində fəaliyyət və ünsiyyət zamanı qarşılıqlı təsir müvafiq sosial normalar və sosial nəzarət əsasında həyata keçirildikdə özünün səmərəli nəticəsini verir.

Cəmiyyət spesifik sosial davranış normaları sistemi nümunələrini hazırlayır və müvafiq şəraitdə həmin normalara əməl etməyi özünün bütün üzvlərindən tələb edir. Bu normalar pozulduqda sosial nəzarət mexanizmi işə düşür (bəyənməmək, danlamaq, cəzalandırmaq şəklində) və davranışın korrersiyasına gətirib çıxarır. Burada həmin normaların cəmiyyətin bütün üzvləri tərəfindən qəbul olunması, həmin normaları etalon kimi qəbul etmələri və öz davranışlarını etalona uyğun qurmağa çalışmaları əsas şərtdir. Lakin bu hələ kifayət deyildir. Həmin normalara əməl olunmasına sosial nəzarət edilmədən bu normaların işləyəcəyi şübhə doğurur. Bunu gündəlik həyati faktlar da sübut edir. Adətən, sosial nəzarət zəif olduqda və ya ikili münasibət xarakteri daşıdıqda sosial normaların pozulması halları tez – tez özünü göstərir.

Qarşılıqlı təsir prosesində sosial nəzarət ünsiyyətdə olan adamların rollarına uyğun şəkildə həyata keçirilir. Psixologiyada rol altında kimin bu və ya digər mövqedən asılı olaraq hansı davranış modelini yerinə yetirməsi nəzərdə tutulur. Subyekt, bacı və ya qardaş, həkim və ya xəstə, müdir və ya işçi, ev yiyəsi və ya qonaq və s. rolunu yerinə yetirə bilər. Hər bir rol tamamilə müvafiq tələbə və ətrafdakılarının müvafiq gözləmələrinə cavab verməlidir. Adətən ünsiyyətdə olan adamlar bir- birindən öz rolunu onun gözlədiyi kimi yerinə yetirməsini istəyirlər. Məsələn, şagirdlər gözləyirlər ki, müəllim onlara yaxşı dərs desin, yüksək qiymət versin, onların istəyini yerinə yetirsin və s. Müəllim isə gözləyir ki, şagirdlər dərsə yaxşı hazırlaşsın, intizamı pozmasın, müəllimin tapşırıqlarını yerinə yetirsin. Məhz buna görə də müxtəlif rolları yerinə yetirən adamların qarşılıqlı təsiri onların rol gözləmələri ilə tənzim olunur. İnsanın istəyib – is-

təməməsindən asılı olmayaraq onu əhatə edənlər ondan müvafiq nümunəyə uyğun davranış gözləyirlər. Rolun bu və ya digər şəkildə yerinə yetirilməsi mütləq sosial qiymət alır, roldan hər hansı bir kənara çıxma halı bəyənilmir.

İnsanın başqalarının ondan eşitmək istədiklərini və onda görmək istədiklərini səhvsiz, dəqiq çatdırmaq qabiliyyət və bacarığı mərifət adlanır. Əgər subyektin prinsip və inamı ondan gözlənilənə ziddirsə onun başqa cür hərəkət etməsini mərifətsizlik adlandırmaq olmaz.

İnsanlar arasında ünsiyyətin xüsusi forması dostluq ünsiyyətidir. Dostluq davamlı fərdi – seçici qarşılıqlı münasibət və qarşılıqlı təsir sistemindən ibarətdir. Dostlar arasında olan ünsiyyət adamların bir – birilə qarşılıqlı bağlılığı, sədaqətliliyi, bir – biri ilə ünsiyyətdən məmnunluqları, bir – birindən qarşılıqlı hiss və arzuları gözləmələri ilə səciyyələnir. Dostluğun inkişafı qarşılıqlı anlama, ürəyiaçıqlıq, etibarlılıq, fəal qarşılıqlı kömək, bir – birinin işlərinə qarşılıqlı maraq, səmimilik və təmənnasız hisslərin olması kimi yazılmamış kodeksə əməl etməyi tələb edir. Dostluq kodeksinin ciddi şəkildə pozulması ya dostluğun dayandırılmasına, ya üzdən həyata keçən yoldaşlığa keçməsinə, ya da düşmənçiliyə səbəb ola bilər.

Ünsiyyət prosesinin xarakteri insanların birgə fəaliyyətinə, qarşılıqlı münasibətlərinə özünəməxsus təsir göstərir. Bir çox hallarda ünsiyyət prosesi münaqişələrlə müşayiət olunur və qarşılıqlı münasibətə neqativ təsir göstərir. Hamımız olmasaq da bəzilərimiz bu cür münaqişəli şəraitdən çıxmaq üçün müvafiq yol tapa bilmirik. Ünsiyyət zamanı baş verən bu cür maneələri aradan qaldırmaq yollarını nə orta, nə də ali məktəblərdə öyrətmirlər. Lakin sosial psixologiya və pedaqogikada bununla bağlı olduqca zəngin empirik və nəzəri məlumatlar toplanmışdır ki, onlardan istifadənin ünsiyyət maneələrinin qarşısını almaqda rolu inkarolunmazdır

Ünsiyyətin səmərəli keçməməsinə səbəb olan maneə kimi resipientin xətrinə dəyən söz və ifadələrdən istifadə edilməsini də qeyd etmək olar. Şübhəsiz dinləyiciyə “Sən qorxaqsan, tənbəlsən, satqınsan” və s. şəklində deyilən söz ciddi narazılığa səbəb ola bilər.

Ünsiyyətin səmərəliliyi və onun iştirakçılarının bu prosesdə qarşılıqlı təsirində maneə rolunu oynayan səbəblərdən biri də insanların həmin prosesdə ehtiyatlı hərəkət etməməsi, danışığında əmr üslubundan istifadə etmələri, başqa sözlə avtokratik mövqe tutmalarıdır.

Ünsiyyət zamanı mövcud ola biləcək maneələri azaltmaq və baş verə biləcək münaqişənin qarşısını almaq üçün “səmərəli ünsiyyət qay daları”ndan istifadə olunması zəruridir. Mütəxəssislər bu cür qaydalara aşağıdakıları aid edirlər:

1. Öz çıxışına başlamazdan əvvəl dinləyicilərə nələri çatdırmaq istədiyini bildirmək, başqa sözlə öz ideyalarını aydınlaşdırmaq zəruridir.
2. Qısa cümlələrlə (5 – 9 sözdən ibarət) danışmağa çalışın. Bu cür cümlələr qavrama və anlama üçün daha çox səmərəlidir.
3. Öz nitqinizdə fasilələrdən istifadə edin.
4. Öz nitqinizdə aydın olmayan, ikimənalı ifadələrdən eləcə də professionallıqdan qaçmağa çalışın.
5. Həmsöhbətinizin qeyri – verbal siqnallarına (mimika və jestlər və s.) nəzər salın.
6. Kateqoriyallıqdan qaçmağa çalışın. Nəzərə alın ki, sizin fikriniz yanlış ola bilər.
7. Ünsiyyət yeri və vaxtını düzgün seçin.
8. Daima öz nöqteyi-nəzərinizi dəyişdirməyə hazır olun.

9. Səmərəli dinləmə qaydasına əməl edin.

Bu qaydalar aşağıdakılardan ibarətdir:

- Həmsöhbətinizin sözünü kəsməyin.
- Həmsöhbətinizə qarşı diqqətli olun.
- Tələsik nəticə çıxarmayın.
- Həmsöhbətinizin ifadəsinə sakit reaksiya verin.
- Diqqətinizi yayındırmayın.
- Təfəkkür tempinizi nitqə uyğunlaşdırın.
- Həmsöhbətinizlə əks əlaqə yaratmağa çalışın.

Ünsiyyət prosesində insanlar təkcə informasiya mübadiləsi aparmaqla, bir-birinə qarşılıqlı təsir göstərməklə kifayətlənmir, eyni zamanda bir-birlərini qavrayır və anlayırlar. Bu ünsiyyətin perseptiv cəhətini təşkil edir. Ünsiyyətin perseptiv cəhəti heç də digər cəhətlərindən az əhəmiyyətə malik deyildir.

Həqiqi ünsiyyət o zaman mümkün olur ki, qarşılıqlı təsir prosesinə daxil olan insanlar özlərinin qarşılıqlı anlama səviyyələrini qiymətləndirə, tərəf müqabillərinin hansı keyfiyyətlərə malik olması barədə özlərinə hesabat verə bilsinlər. Ona görə də ünsiyyətin iştirakçıları şüurlarında bir-birinin daxili aləmini yaratmağa, hisslərini, davranış motivlərini, əhəmiyyətli obyektlərə münasibətini anlamağa cəhd göstərirlər. Başqa sözlə, bir-birini dəqiq qavramağa və anlamağa çalışırlar. Qavrama və anlama nə qədər dəqiq və ətraflı olarsa onların qarşılıqlı münasibətləri də bir o qədər səmərəli xarakter daşıya bilir. Fərd başqa adamları dərk etməklə onlarla birgə fəaliyyətin perspektivlərini daha yaxşı müəyyənləşdirmək imkanı əldə edir. Məhz onların daxili aləmlərinin dəqiq «öyrənilməsi» birgə fəaliyyətlərinin müvəffəqiyyətlə həyata keçməsi üçün mühüm şərtdir. İnsanın başqalarını qavraması zamanı təkcə subyektin başqalarını anlaması deyil, onunla ünsiyyətə girən, təmasda olan fərdin onu necə qavraması və anlamasına diqqət yetirilməsi də vacibdir. Subyektin ünsiyyətdə olduğu adamlar tərəfindən necə qavranıldığını dərk etməsi refleksiya formasında baş verir. Psixoloqlar refleksiyanı başqa adamları qavramanın tərkibinə daxil edirlər. Deməli, insanların bir-birini qavramasını güzgünün ikiqat əks etdirməsinə bənzətmək mümkündür. İnsan başqasını əks etdirməklə, həmin başqasını əks etdirmə güzgüsündə özünü də əks etdirir. Bu zaman ünsiyyətdə eyniləşdirmə və refleksiya vəhdətdə baş verir.

Beləliklə, modernləşmə prosesi cəmiyyətin bütün sahələrini əhatə edən mürəkkəb və çoxşaxəli dəyişikliklər sistemi kimi çıxış edir. Bu proses yalnız texniki və iqtisadi yenilənmə ilə məhdudlaşmır, eyni zamanda insanların düşüncə tərzinə, davranış modellərinə və sosial münasibətlərinə də təsir göstərir. Xüsusilə ünsiyyət müasir cəmiyyətin formalaşmasında və sosial dəyişikliklərin istiqamətlənməsində mühüm rol oynayır.

Modernləşmə şəraitində ünsiyyətin səmərəliliyi sosial normalara əməl olunmasından, qarşılıqlı anlama və hörmət prinsiplərinin qurulmasından asılıdır. Verbal və qeyri-verbal ünsiyyət vasitələrinin düzgün seçilməsi, sosial rolların adekvat yerinə yetirilməsi və refleksiya qabiliyyətlərin inkişafı sosial münasibətlərin sağlam şəkildə qurulmasına şərait yaradır.

Nəticə

Aparılan təhlil göstərir ki, modernləşmə prosesi cəmiyyətin struktur və funksional xüsusiyyətlərini köklü şəkildə dəyişdirən, çoxsəviyyəli və dinamik xarakter daşıyan sosial hadisədir. Bu proses yalnız elmi-texniki və iqtisadi yeni-

lənmə ilə məhdudlaşmır, eyni zamanda insanların şüurunda, dəyərlər sistemində, davranış modellərində və sosial münasibətlərində dərin transformasiyalara səbəb olur. Bu baxımdan modernləşmə fərdin və cəmiyyətin qarşılıqlı təsir mexanizmlərini yenidən formalaşdıran sosial-psixoloji dəyişikliklər kompleksi kimi çıxış edir. Tədqiqatın nəticələri əsasında demək olar ki, ünsiyyət modernləşmə prosesində sosial-psixoloji strukturun formalaşmasında əsas amillərdən biridir. Verbal və qeyri-verbal kommunikasiya vasitələrinin adekvat tətbiqi, sosial rolların düzgün icrası, sosial normalara riayət olunması və refleksiya qabiliyyətinin inkişafı sosial münasibətlərin sabitliyini və səmərəliliyini təmin edir. Ünsiyyət prosesində perseptiv mexanizmlərin – qarşılıqlı qavrama, anlama və əks əlaqənin – düzgün qurulması sosial maneələrin və münaqişələrin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Beləliklə, modernləşmə şəraitində cəmiyyətin dayanıqlı inkişafı üçün səmərəli ünsiyyət mədəniyyətinin formalaşdırılması strateji əhəmiyyət daşıyır. Sosial-psixoloji baxımdan əsaslandırmaq olar ki, ünsiyyət yalnız informasiya mübadiləsi vasitəsi deyil, həm də şəxsiyyətin təşəkkülü, sosial identikliyin qurulması və ictimai həmrəyliyin təmin edilməsinin fundamental şərtidir. Buna görə də modern cəmiyyətin inkişafında ünsiyyət mədəniyyətinin yüksəldilməsi elmi-pedaqoji və praktik müstəvidə prioritet istiqamətlərdən biri kimi qiymətləndirilməlidir.

Problemin aktuallığı. Modernləşmə prosesi müasir dövrdə cəmiyyətlərin sosial, iqtisadi, mədəni və texnoloji sahələrdə sürətlə dəyişməsini şərtləndirən əsas faktorlardan biridir. Qloballaşma, informasiya və kommunikasiya texnologiyalarının inkişafı, beynəlxalq əməkdaşlığın genişlənməsi və fərdi fəaliyyətin şaxələnməsi şəraitində ünsiyyətin rolu daha da aktuallaşır. İnsanların davranış modelləri, də-yərləri və sosial münasibətləri daim dəyişdiyi üçün ünsiyyət proseslərinin təhlili və səmərəli idarə olunması cəmiyyətin dayanıqlı inkişafı üçün vacibdir.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, modernləşmə prosesində ünsiyyətin sosial-psixoloji təsirləri sistemli şəkildə təhlil edilir və onun yalnız informasiya mübadiləsi vasitəsi olmadığını, həm də şəxsiyyətin formalaşması, sosial identikliyin qurulması və cəmiyyətin sosial-psixoloji strukturunun formalaşmasında aparıcı amil olduğunu göstərir.

Problemin praktik əhəmiyyəti. Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, modernləşmə şəraitində ünsiyyət proseslərinin səmərəli təşkilinə dair konkret tövsiyələr və metodoloji yanaşmalar təqdim olunur. Verbal və qeyri-verbal ünsiyyət vasitələrinin düzgün seçilməsi, sosial rolların adekvat icrası, sosial normalara riayət və refleksiya bacarıqlarının inkişaf etdirilməsi fərdlərin qarşılıqlı anlaşmasını, əməkdaşlığını və sosial münasibətlərinin stabilliyini təmin edir.

Ədəbiyyat

1. Bayramov, Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə**. –**Bakı: 2002. – 620 s.
2. Əmiraslanova, S.F**.** Ünsiyyətdə maneələr və onların aradan qaldırılması yolları haqqında // **–**Bakı: ADU-nun Elmi xəbərləri, –2013. № 3, –s. 330-334.
3. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / –Bakı: Pedaqogika, 2004. – 432 s.
4. Bayramov, Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. / –Bakı: Qapp-PoIiqraf, –2003, –356 s.

5. Anthony, G. Runaway World: How Globalisation is Reshaping Our Lives. / – London: Profile Books, –2002. –104.p
6. Ulrich Beck. *World at Risk*. / – Cambridge: Polity Press, –2009. –p. 27
7. Zygmunt Bauman. *Liquid Modernity* / – Cambridge: Polity Press, –2000. – p. 232
8. Manuel Castells. *The Rise of the Network Society* (2nd ed.). / –Oxford: Wiley-Blackwell, –2010. – p. 66
9. Ronald Inglehart & Christian Welzel. *Modernization, Cultural Change, and Democracy* / –Cambridge: Cambridge University Press, –2005. – p.344
10. Peter Wagner. *Modernity as Experience and Interpretation* / –Cambridge: Polity Press, –2008. – p. 296
11. Shmuel, N. Eisenstadt. Multiple Modernities /- New Brunswick: Transaction Publishers, - 2002. https://voidnetwork.gr/wp-content/uploads/2016/10/Multiple-Modernities-by-S.N.Eisenstadt.pdf
12. Jürgen Habermas. The Divided West. / Cambridge: Polity Press, –2006.
13. https:// onlinelibrary. wiley.com/doi/10.1111/j.1468-2427.2007.00749_3.x

Redaksiyaya daxil olub: 17.03.2026

UOT 159.9

Səbinə Hikmət qızı Əlizadə
Bakı Dövlət Universitetinin müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru
E-mail: sabina.az@gmail.com
Orchid: https://orchid.org/0000-0002-0717-7197

Zakir Əlisahib oğlu Əliyev
Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin müəllimi
https://doi.org/10.69682/arti.2026.93(3).233-236

MUĞAM İFASI ZAMANI XANƏNDƏNİN TAMAŞAÇIYA SOSİAL-PSİXOLOJİ TƏSİRİ

Sabina Hikmat Alizade
teacher at Baku State University,
PhD in Psychology

Zakir Alisahib Aliyev
teacher at Azerbaijan University Culture and Art

THE SOCİO-PSYCHOLOGİCAL İMPACT OF THE SİNGER ON THE AUİDİENCE DURİNG MUGHAM PERFORMANCE

Сабина Хикмет гызы Ализаде
преподаватель Бакинского государственного университета,
доктор философии по психологии

Закир Алисахиб оглу Алиев
преподаватель Азербайджанского государственного университета культуры и искусств

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОЕ ВОСДЕЙСТВИЕ ПЕВЦА НА ПУБЛИКУ ВО ВРЕМЯ ИСПОЛНЕНИЯ МУГАМА

Xülasə. Məqalədə Azərbaycan muğamının sosial-psixoloji xüsusiyyətləri xalqın duyğularını, düşüncə tərzini və sosial həyatını əks etdirən çox dərin fenomen kimi dəyərləndirilir. Tədqiqat göstərir ki, muğam insan psixikasında katarsis yaradan, emosional tənzimləməni təmin edən və kollektiv empatiyanı gücləndirən kompleks musiqi sistemidir. Muğamın improvizasiya xarakteri və mikrotonal quruluşu dinləyicinin həm şüurlu, həm də şüuraltı səviyyəsinə təsir göstərir. Məhz bu baxımdan xanəndə muğamı ifa edərkən öz yaşantılarını tamaşaçıya ötürür. Bu zaman onlar arasında xüsusi rabitə yaranır.

Açar sözlər: *muğam, musiqi psixologiyası, emosional tənzimləmə, katarsis, improvizasiya, musiqi terapiyası, tamaşaçı, xanəndə*

Abstract. The article evaluates the socio-psychological characteristics of Azerbaijani mugham as a very deep phenomenon reflecting the emotions, way of thinking and social life of the people. The study shows that mugham is a complex musical system that creates catharsis in the human psyche, provides emotional regulation and strengthens collective empathy. The improvisational nature and microtonal structure of mugham affect both the conscious and subconscious levels of the listener. It is from this perspective that the singer transmits his experiences to the audience while performing mugham. At this time, a special connection is created between them.

Keywords: *mugham, music psychology, emotional regulation, catharsis, improvisation, music therapy, audience, singer*

Аннотация. В статье оцениваются социально-психологические характеристики азербайджанского мугама как очень глубокого феномена, отражающего эмоции, образ мышления и социальную жизнь народа. Исследование показывает, что мугам — это сложная музыкальная система, которая вызывает катарсис в человеческой психике, обеспечивает эмоциональную регуляцию и укрепляет коллективную эмпатию. Импровизационный характер и микротональная структура мугама влияют как на сознательный, так и на подсознательный уровни слушателя. Именно с этой точки зрения певец передает свой опыт аудитории во время исполнения мугама. В это время между ними устанавливается особая связь.

Ключевые слова: *мугам, психология музыки, эмоциональная регуляция, катарсис, импровизация, музыкотерапия, аудитория, певец*

Xalq musiqisinin əsasını təşkil edən Azərbaycan muğamı Şərq musiqi mədəniyyətində xüsusi yer tutur və çoxəsrlik tarixi ənənələrə söykənir. Xalqın yaşadığı hiss və həyacanlar emosional – psixoloji səviyyədə muğamın məzmununda öz əksini tapır. Buna görə də muğam bütün dövrlərdə xalqın mənəvi-psixoloji dayağına çevrilmişdir. O musiqi mədəniyyətinin zirvəsi olduğu üçün, özünün ecazkar psixoloji təsir dairəsinə malikdir. Buna görə də təkcə ölkəmizdə deyil, dünyanın müxtəlif xalqları tərəfindən sevilir. Onun sevilməsinin səbəblərindən biri də oxunduğu zaman xanəndə ilə dinləyici arasında qarşılıqlı təmasın yaranmasıdır. Muğam oxunanda sanki dinləyicini ovsunlayır, onu öz təsir dairəsinə salır, ona yaşadığı hiss və həyacanları yenidən yaşamağa sövq edir. Bu qüdrətinə görə, muğam milli səviyyədən daha yülsəklərə qalxaraq, ümumbəşəri dəyərə çevrilə bilmişdir. Təsadüfi deyil ki, muğam UNESCO tərəfindən ümumbəşəri dəyər kimi qəbul edilmişdir. Z .Əli yevin qənaətincə, “onun qeyri-maddi mədəni irs kimi UNESCO tərəfindən tanınması muğamın yalnız milli deyil, ümumbəşəri əhəmiyyətini də təs-

diqləmiş olur. Azərbaycanın qədim musiqi irsi olan muğam sənətinin müasir dövrdə artan nüfuzu və geniş şəkildə təbliğində Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO - nun Xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətləri danılmazdır" (1, s.4).

Muğamın ecazkarlığı onun ifası zamanı xanəndə ilə tamaşaçı arasında sosial-psixoloji rabitənin yaranmasındadır. Muğamı təkcə musiqi kimi dəyərləndirmək səhv olardı, o çox aspektlidir. Onun həm tarixi, həm mədəni, həm mənəvi, həm siyasi kökləri vardır. Bu köklər onun insanlara təsir gücünü artırır. Muğam həmçinin sosial-psixoloji fenomendir. Xanəndə muğamı oxuyanda kütləyə onun həm tarixi, həm mədəni, həm mənəvi, həm siyasi köklərini açıb göstərə bilir. Onun bu qeyri-adi təsir qüvvəsi insanın hiss və həyəcanlarını yenidən yaşamağa, eyni zamanda düşünməyə sövq edir. Bu onu sübut edir ki, muğam yalnız musiqi forması deyil, həm də insan psixikasında katarsis, emosional tənzimləmə və kollektiv empatiya yaradan mürəkkəb emosional-psixoloji xarakter daşıyan bir sistemdir.

Muğamın əsas xüsusiyyətlərinə bunlar aid dir: lad sistemi, improvizasiya, kütləyə xitab, poetik mətnə uyğun olaraq hisslərin yaşanması və dinləyiciyə müvafiq yaşantıları ötürmək, empatiya yaratmaq – onu sosial- psixoloji baxımdan araşdırmaq üçün zəngin edir. Sadaladığımız bütün bu faktlar xanəndə-tamaşaçı münasibətlərində özünəməxsus yer alır. Bu konteksdə, xanəndənin sosial-psixoloji təsir gücünü araşdırmaq nəzəri problem kimi aktuallaşır.

Muğam bu gün cəmiyyətin aynası kimi mənalandırılır, buna səbəb Azərbaycan xalqının illərin süzgəcində süzülüb gələn həyat tərzini, sosial yaşantılarını, sevincini, kədərini, onun dəyərlər sistemini özündə ehtiva etməsidir. Bu mu ğamın milli kimlik və birlik hisslərini gücləndirməsində özünü ehtiva edir. O, insanları ortaq mə dəniyyətdə birləşdirir. Təsadüfi deyil ki, muğam kimi əfsanəvi musiqiyə sahib olmaq xalqın qürur mənbəyinə çevrilmişdir. Xalq onu misilsiz mənəvi sərvəti hesab edir və qoruyur. Onun bu günə qədər gəlib çatmasında məhz xalqın onu milli dəyər kimi dəyərləndirməsini və bu sərvəti yüksək qiymətləndirməsini səbəb kimi göstərə bilərik.

Muğam bu gün dövlətimiz tərəfindən xüsusi diqqətdə saxlanılır. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü ilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilib, Beynəlxalq muğam festivalları keçirilir. Görülən tədbirlər nəticəsində xalqın mədəni irsimizə sahib çıxmaq hissi daha da artır. Müxtəlif xarakterli musiqi janrlarının yaranması nəticəsində gənclər tərəfindən muğam janrına maraq itməyə başlayanda, qeyd olunan tədbirlər nəticəsində muğam öz aktuallığını artıra bilmiş və bunun nəticəsi olaraq, yeni nəsil gənc xanəndələr yaranmışdır.

Muğam hər zaman ictimai təsir qüvvəsi ilə seçilib, ətrafına çoxsaylı tamaşaçılar toplaya bilib. İnsanlar ən xoş günlərində – toyda, məclislərdə, bayramlarda, el şənliklərində muğamın ifa olunması tədbirdə əlavə şənlik yaradıb. Muğam həm insanlar arasında, həm də xanəndə-tamaşaçı arasında sosial münasibətlərin yaranması və möhkəmləndirməsilə seçilib.

Muğam mərhələli emosional inkişaf modelinə malikdir. İlk əvvəl, dinləyərkən başlanğıcda sakit və sabit emosional fon yaranır, sonrakı mərhələdə isə hiss - həyəcan artır və kuliminasiya nöqtəsində emosional partlayış baş verir. Bu mərhələ katarsis effekti yaranır. Bütün bu yaşantılar xanəndədən dinləyiciyə ötürülür. Katarsis tamaşaçıda daxili

emosional gərginliyinin azalması və psixoloji rahatlama ilə nəticələnir. Musiqi psixologiyası üzrə aparılan araşdırmalar göstərir ki, emosional intensivlik və dinamik dəyişkənlik dinləyicidə dopamin ifrazını artıraraq müsbət emosional vəziyyət yaradır. Emosional qavrayış dinləyicinin musiqidə emosiyaları (məsələn, "kədərli bir ifadə") özü hiss etmədən qavradığı və ya tanıdığı bütün halları özündə ehtiva edir. (4, s.10)

Bu təsir qüvvəsini şərti olaraq, mərhələlərə bölərək, onu aşağıdakı kimi izah edə bilərik:

- sakit başlanğıc zamanı daxili gərginlik mövcud olur;
- yüksəlmə emosional partlayışın yaranmasını şərtləndirir;
- kulminasiya katarsisə - emosional boşalmaya doğru istiqamətləndirir;
- sakitləşmə isə psixoloji balans yaradır.

Muğamın mikrotonal quruluşu, yəni yarımtonda kiçik intervallar dinləyicinin rasional analizindən daha çox intuitiv qavrayışına təsir edir. Uzun vokal improvizasiyalar və təkrarlanan melodik strukturlar meditasiyaya bənzər vəziyyət formalaşdıra bilir. Xanəndələrin ifasını analiz etdikdə görə bilərik ki, sadaladığımız halətləri onların özləri də yaşayır və onu dinləyiciyə də yaşatmış olurlar. Xüsusilə ifalarında emosional intensivlik və improvizasiya edən müğənnilər dinləyicidə dərin psixoloji rezonans yaratdığını müşahidə edə bilərik. Belə müğənnilərin ifaları zamanı da onun musiqini yaşadığını açıq-aşkar görmək olur. Bu vəziyyət şüuraltı emosional qatların aktivləşməsinə təkan verir:

- Mikrotonal keçidlər (yarımtondan da kiçik səslər) şüuraltı təsirə malikdir.
- Uzun vokal improvizasiyalar insanda dərin düşüncə halı formalaşdıra bilir.
- Təkrarlanan motivlər meditasiyaya yaxın vəziyyət yaradır.

Muğam dinləyicidən aktiv dinləmə tələb edir. İmprovizasiya elementləri dinləyicinin diqqətini daimi olaraq özündə saxlamağa malik olur. Bütün xanəndələr eyni cür ifa etsələr, tamaşaçıda xanəndənin ifasına maraq itər. Bunun üçün də diqqət yetirsək görə bilərik ki, xanəndələrin hər biri özünəməxsus improvizələrlə yadda qalmağa çalışırlar ki, tamaşaçı aktiv olaraq onları dinləyib təsirə düşə bilsinlər.

Bu zaman xanəndə yaşadığı həyat təcrübəsini sanki ifasına yansıdır: daxili emosional təcrübəsi musiqiyə sirayət edir; yaşadığı anlıq psixoloji vəziyyətini ifadə edir; öz fərdi "mən"ini təqdim edir.

Müxtəlif xanəndələr tərəfindən ifa olunan eyni muğamlar məhz yuxarıda sadaladığımız faktorlara görə fərqlənir. Tamaşaçı öz ruhuna uyğun olan xanəndənin ifasını bəyənir. Hər bir ifaçı öz yaşantısı və sosial təcrübəsinə uyğun formada qavrayır və təqdim edir.

Burada digər əsas məqam poetik uyğunluqdur, yəni sözlərə uyğun ifa etməli və yaşantını yansıtmalıdılar. Belə ifasi ilə xanəndənin yaratdığı sosial ünsiyyət emosional və sosial intellekti aktivləşdirir. Bu zaman dinləyici: melodiyanın inkişafını izləyir; emosional dəyişmələri hiss edir; improvizasiyanı təxmin etməyə çalışır.

Muğamın sakit hissələri relaksasiya effekti yaradır, kulminasiya mərhələsi isə emosional katarsisi təmin edir. Bu baxımdan muğam musiqi terapiyasında potensial vasitə kimi qiymətləndirilə bilər. Məhz bu yaşantılar bu musiqi janrını daima tələbatlı edir, ətrafına insanları cəmləyir.

Muğam konsertləri zamanı ifaçı və auditoriya arasında emosional rezonans yarandığını müşahidə edə bilərik. Bu sosial psixologiyada em-

patiya və kollektiv identifikasiya mexanizmləri ilə izah olunur. Bu yolla xanəndə ifası zamanı yaşadığı psixoloji halətləri tamaşaçılara da ötürə bilir, onların da empatiya hissi yaşamasına səbəkar olur. Muğam xalqın tarixi yaddaşını və kollektiv emosional təcrübəsini ifadə edir.

Muğam insan psixikasına ən dərindən təsir edən musiqi sistemlərindən biridir. Onun psixologiyasını emosional, idrak, şüuraltı və terapevtik aspektlərdən təhlil etmək olar.

Muğamın müalicəvi təsiri barədə tədqiqatlar göstərir ki, o, stressi azaldır, ürək ritmini stabilləşdirir, emosional gərginliyi yumşaldır. Muğamın yavaş temp mərhələləri parasimpatik sinir sistemini aktivləşdirir və sakitləşdirici effekt yaradır.

Muğam tək fərdi yox, kollektiv emosiyanı da ifadə edir: xalqın tarixi ağrılarını; qürurunu; yaddaşını psixoloji kod kimi daşıyır.

Azərbaycan muğamı yalnız musiqi forması deyil, simvolik-fəlsəfi sistemdir. Onu aşağıdakı istiqamətlərdə təhlil etmək mümkündür:

1. Struktur-fəlsəfi təhlil. Muğamın quruluşu insanın həyat fəlsəfəsinə bənzəyir. başlanğıc nöqtə; inkişaf mərhələsi; kulminasiya; eniş və sakitləşmə.

Bu modeli təhlil etsək, eynilə insanın yaş dövrlərini bizə xatırlatdığını görə bilərik.

Doğuluş (çağalıq) → Yetkinlik (yeniyetməlik-gənclik) → Zirvə (yetkinlik) → Sakitləşmə (qocalıq)

Burada musiqi zamanın axışını və varlığın dəyişməsini simvolizə edir.

2. Ontoloji (varlıq) təhlil. Muğam insanın daxili "mən"i ilə xarici aləm arasında körpü rolu oynayır. Səs burada sadəcə musiqi ahəngi deyil – ruhun təcəssümüdür. Hər bir xanəndənin ifasını unikallaşdıran improvizələridir. Muğamın improvizəsi isə göstərir ki: varlıq sabit deyil; insan daim dəyişir; hər ifa unikaldır.

Bu baxımdan muğam fəlsəfədəki ekzistensial yanaşmaya yaxınlaşır – insanın anlıq yaşantısı-mövcudluğu əsas kimi çıxış edir.

3. İrfani (mistik) təhlil. Muğamın melodik yüksəlişi sufi düşüncəsindəki "mərtəbə-mərtəbə yüksəliş" ideyasını xatırladır. Ruh cismani səviyyədən başlayır, hisslərdən keçir, mənəvi zirvəyə çatır. Müğənninin emosional ifasında xüsusilə biz bu mistik yüksəlişi açıq-aşkar hiss edirik. Emosional ifa adi oxuma deyil, sanki zikr və ya mənəvi təcrübədir.

4. Psixoloji təhlil. Muğam emosional spektri geniş olan janrdır: Segahda eşq və yanğı, rastda əzəmət və sabitlik, şurda lirizm və incə hisslər sezilir. Muğamdakı bu kontrastlıq onu göstərir ki, muğam insan psixikasının çoxqatlı modelidir. O, daxili gərginlikdən azad edir və katarsis yaradır.

5. Milli-mədəni təhlil. Muğam bizim tarixi yaddaşımızdır, kollektiv şüurumuzun mücəssiməsidir, milli identikliyin simvoludur. Onun qorunması və inkişafı Azərbaycan xalqının mədəniyyətinin davamlılığını təmin edir. Biz dünyada gedən qloballaşma proseslərinə qoşula bilirik, lakin muğam bizə milli kimliyimizi, tariximizi, bizə aid olanları unutmamağı, öz dəyərlərimizi qorumağı təbliğ edir.

Problemin aktuallığı. Muğam Azərbaycan xalqının mənəvi sərvətidir. O xalqın tarixini, mədəniyyətini, hiss və həyacanlarını özündə əks etdirir. Bu gün xalqımızı tanıdan musiqi kimi dünyanı fəth edir. Hazırda ölkəmizin musiqi dünyasında muğamın özünəməxsus çəkisi vardır. Muğam həmçinin sosial-psixoloji fenomendir. Bu konteksdə onun öyrənilməsi gənc nəslin sosiallaşması, onlarda vətənpərvərtlik hisslərinin formalaşması, xalqımızın tarixi ilə qürur duyması baxımından mühüm əhəmiyyət kəsb edir.

Problemin elmi yeniliyi. Muğam müxtəlif rakurslardan tədqiq edilmişdir. Psixoloqlar da bu məsələyə xüsusən son dövrlərdə daha çox müraciət edirlər. Muğamın sosial-psixoloji baxımdan təhlili mühüm əhəmiyyət kəsb edir. Məqalədə ifaçı və dinləyici arasında sosial-psixoloji bağlılığın emosional qatlarına diqqət yetirilir, bu prosesin mərhələləri açıqlanır və onun fəlsəfi, ontoloji, irfani, psixoloji və milli mədəni kontekstdən təhlili verilir.

Problemin praktik əhəmiyyəti. Məqalədə muğam xalqın milli-mənəvi sərvəti kimi dəyərləndirilir. Bu milli-mənəvi dəyərin qorunması və daha da yüksək səviyyədə dəyərləndirilməsi üçün onun muğam ifaçısı ilə dinləyici arasındakı emosional qatları açıqlanır. Muğamın bu konteksdən dəyərləndirilməsi onun xanındılərə dinləyicilərə emosional təsirini artırmağın yollarını göstərir.

Ədəbiyyat:

1. Bünyadzadə K. Muğam fəlsəfəsi. Bakı, Elm, 2018.
2. Əliyev Z. Azərbaycan ənənəvi musiqisində zərbi-muğamlar. Bakı, 2016.
3. Əliverdibəyov A. Rəsmli musiqi tarixi, Bakı, Şərq-Qərb, 2001.
4. Juslin, P. N., & Sloboda, J. A. Handbook of Music and Emotion. Oxford University Press, 2010.
5. Levitin, D. J. This Is Your Brain on Music. Dutton, 2006.

Redaksiyaya daxil olub:

İNKLÜZİV TƏHSİL, KORREKSİYA PEDAQOGİKASI, KORREKSİYA PSİXOLOGİYASI
INCLUSIVE EDUCATION, CORRECTIONAL PEDAGOGY, CORRECTIONAL PSYCHOLOGY
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ, КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА, КОРРЕКЦИОННАЯ ПСИХОЛОГИЯ

UOT 376

Naila Tofiq qızı Hüseynova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Məktəbəqədər təhsil fakültəsinin dekanı,
pedaqogika elmləri doktoru, dosent
https://orcid.org/0000-0002-9959-6996
E-mail.nailyahuseyn72@gmail.com

https://doi.org/10.69682/arti.2026.93(3).237-242

UŞAQ SEREBRAL İFLİCİ ZAMANI DİZARTRİYA VƏ ARTİKULYASİYA POZUNTULARININ LOQOPEDİK KORREKSİYASI

Naila Tofiq Huseynova
dean of the faculty of Preschool education of
Azerbaijan State Pedagogical University,
doctor of pedagogical sciences, associate professor

LOGOPEDIC CORRECTION OF DYSARTHRIA AND ARTICULATION DISORDERS IN CHILDREN WITH CEREBRAL PALSY

Наиля Тофиг гызы Гусейнова
декан факультета Дошкольного образования
Азербайджанского Государственного Педагогического Университета,
доктор педагогических наук, доцент

ЛОГОПЕДИЧЕСКАЯ КОРРЕКЦИЯ ДИЗАРТРИИ И АРТИКУЛЯЦИОННЫХ НАРУШЕНИЙ У ДЕТЕЙ С ДЕТСКИМ ЦЕРЕБРАЛЬНЫМ ПАРАЛИЧОМ

Xülasə. Məqalədə uşaq serebral iflici olan uşaqlarda müşahidə olunan dizartriya və artikulyasiya pozuntularının əsas xüsusiyyətləri təhlil edilmişdir. Nitq motorikasının pozulmasına təsir göstərən neyrofizioloji və pedaqoji amillər araşdırılmış, oral-motor reflekslərin rolu izah olunmuşdur. Loqopedik üz masaj, artikulyasiya gimnastikası və miogimnastikaya əsaslanan kompleks loqopedik yanaşmalar təqdim edilmişdir. Nəticədə müəyyən edilmişdir ki, sistemli və fərdiləşdirilmiş korreksiya proqramları nitq bacarıqlarının inkişafına və kommunikativ imkanların genişlənməsinə müsbət təsir göstərir.

Açar sözlər: *dizartriya, uşaq serebral iflici, artikulyasiya, loqopediya, nitq pozuntuları, oral-motor reflekslər, nitq motorikası*

Abstract. The article analyzes the main characteristics of dysarthria and articulation disorders in children with cerebral palsy. Neurophysiological and pedagogical factors affecting speech motor impairment are examined, and the role of oral-motor reflexes is explained. комплекс speech therapy approaches, including logofacial massage, articulation exercises, and myogymnastics, are presented. The findings indicate that systematic and individualized intervention programs contribute to the improvement of speech skills and communicative abilities.

Keywords: *dysarthria, cerebral palsy, articulation, speech therapy, speech disorders, oral-motor reflexes, speech motor skills*

Аннотация. В статье анализируются основные особенности дизартрии и артикуляционных нарушений у детей с детским церебральным параличом. Рассматриваются нейрофизиологические и педагогические факторы, влияющие на нарушение речевой моторики, а также роль орально-моторных рефлексов. Представлены комплексные логопедические подходы, включающие логофасциальный массаж, артикуляционную гимнастику и миогимнастику. Установлено, что системные и индивидуализированные коррекционные программы способствуют развитию речевых навыков и коммуникативных возможностей.

Ключевые слова: *дизартрия, детский церебральный паралич, артикуляция, логопедия, речевые нарушения, орально-моторные рефлексы, речевая моторика*

Giriş. Uşaq serebral iflici (USİ) olan uşaqlarda ən geniş yayılmış nitq pozuntularından biri dizartriyadır. Dizartriya artikulyasiya, fonasiya, nitq tənəffüsü və prosodikanın pozulması ilə xarakterizə olunan mürəkkəb motor nitq pozuntusudur. Bu vəziyyət mərkəzi sinir sisteminin zədələnməsi, əzələ tonusunun dəyişməsi və artikulyasiya aparatının hərəkət məhdudiyyətləri ilə əlaqədardır. USİ zamanı tez-tez nəfəsalma, səsvermə və artikulyasiya arasında koordinasiya pozulur. Bu isə səslərin qeyri-dəqiq tələffüzünə, nitqin ritm və intonasiyasının dəyişməsinə,

ümumilikdə isə nitqin anlaşıqlığının azalmasına səbəb olur. Bəzi hallarda artikulyasiya apraksiyası da müşahidə edilir ki, bu da nitq hərəkətlərinin planlaşdırılması və ardıcıllığının pozulması ilə müşayiət olunur.

Dizartriyanın korreksiyasında kompleks loqopedik yanaşma xüsusi əhəmiyyət daşıyır. Belə yanaşmalardan biri loqopedik üz masajdır. Bu metod artikulyasiya aparatının əzələlərinə, miofasial strukturlara və nitq motorikasına təsir göstərərək əzələ tonusunun normallaşmasına, hərəkət koordinasiyasının yaxşılaşmasına və nitq funksiyasının aktivləşməsinə şərait yaradır. Loqopedik üz masaj adətən mərhələli şəkildə tətbiq olunur: sinə, boyun və üz nahiyəsinin masajı, artikulyasiya orqanlarının daxili və xarici stimullaşdırılması, səs aparatının aktivləşdirilməsi, tənəffüs və artikulyasiya məşqləri, eləcə də nitqin avtomatlaşdırılması bu prosesin əsas komponentləridir [1].

Oral-motor reflekslərin vəziyyəti də nitq inkişafında mühüm rol oynayır. USİ olan uşaqlarda bu reflekslərin gec sönməsi və ya patoloji şəkildə qalması artikulyasiya hərəkətlərinin sərbəst inkişafına mane olur. Xüsusilə sorucu, axtarıcı və tonik reflekslərin davamlılığı dil, dodaq və çənə hərəkətlərinin koordinasiyasını çətinləşdirir. Buna görə də korreksiya prosesində reflekslərin tənzimlənməsi mühüm yer tutur. Artikulyasiya gimnastikası dizartriyanın korreksiyasında əsas vasitələrdən biridir. Bu məşqlər dilin, dodaqların, yanaqların və alt çənənin hərəkətliliyini artırır, əzələlərin elastikliyini və koordinasiyasını gücləndirir. Əvvəlcə passiv gimnastika tətbiq olunur, sonra isə aktiv məşqlərə keçilir. Miogimnastika isə üz və artikulyasiya əzələlərinin funksional aktivliyini artıraraq nitq motorikasının inkişafına kömək edir. [8]USİ olan uşaqlarda dizartriya və artikulyasiya pozuntularının korreksiyası kompleks, sistemli və fərdiləşdirilmiş yanaşma tələb edir. Loqopedik üz masaj, artikulyasiya gimnastikası, miogimnastika və oral-motor reflekslərin tənzimlənməsi birlikdə tətbiq edildikdə nitq bacarıqlarının inkişafında daha yüksək nəticələr əldə olunur.

Oral-motor reflekslərin və artikulyasiya motorikasının korreksiyası. Uşaq serebral iflici zamanı nitq pozuntularının dərinləşməsinə təsir göstərən mühüm amillərdən biri oral-motor reflekslərin vaxtında sönməməsi və onların patoloji şəkildə qalmasıdır. Normal ontogenetik inkişafda erkən reflektor reaksiyalar tədricən ixtiyari motor fəaliyyətlə əvəz olunur [3].

Lakin USİ olan uşaqlarda bu keçid prosesi ləngiyir və nəticədə ağız, dil, dodaq, çənə və udlaq nahiyəsinin hərəkətlərində koordinasiya pozuntuları meydana çıxır. Belə hallar nitq səslərinin formalaşdırılmasını çətinləşdirməklə yanaşı, udma, çeynəmə, nəfəsalma və fonasiya proseslərinə də mənfi təsir göstərir. Xüsusilə tonik reflekslərin artikulyasiya aparatının fəaliyyətinə təsiri nəzərəçarpacaq dərəcədədir. Labirint tonik refleksi dil kökü nahiyəsində əzələ gərginliyini artıraraq sərbəst artikulyasiya hərəkətlərini məhdudlaşdıra bilir.

Simmetrik və asimmetrik boyun tonik refleksləri isə dilin ucu, arxa hissəsi, yumşaq damaq və çənə hərəkətlərinin sinxronluğunu pozur. Nəticədə uşaqda nəfəsalma ilə səsvermə, səsvermə ilə artikulyasiya arasında zəruri koordinasiya formalaşmır. Bu pozuntular yalnız səs tələffüzünə deyil, nitqin axıcılığına, ritmik quruluşuna və intonasiya xüsusiyyətlərinə də təsir göstərir. Bu baxımdan, korreksiya prosesində reflektor aktivliyin azaldılması və ixtiyari artikulyasiya hərəkətlərinin təşkili əsas vəzifələrdən biri hesab

olunmalıdır. Loqopedik müdaxilə zamanı məqsəd yalnız patoloji reflekslərin zəiflədilməsi deyil, eyni zamanda uşağın sensor-motor nəzarət mexanizmlərinin gücləndirilməsi, kinestetik hissiyyatının inkişaf etdirilməsi və məqsədli nitq hərəkətlərinin formalaşdırılmasıdır.

Bu yanaşma nitq motorikasının bərpasında sistemli və elmi əsaslandırılmış istiqamət kimi çıxış edir. Artikulyasiya motorikasının inkişaf etdirilməsi dizartriyanın korreksiyasında aparıcı istiqamətlərdən biridir [4]. USİ olan uşaqlarda artikulyasiya aparatının əzələləri çox vaxt ya həddindən artıq gərgin, ya da funksional cəhətdən zəif olur. Bu səbəbdən ilk mərhələdə passiv artikulyasiya gimnastikasının tətbiqi məqsədəuyğun hesab edilir. Passiv gimnastika zamanı loqoped artikulyasiya orqanlarının müəyyən istiqamətlərdə hərəkətini təşkil etməklə uşaqda düzgün motor stereotiplərin formalaşmasına zəmin yaradır.

Bu mərhələdə əsas məqsəd hərəkətin istiqaməti, amplitudası və ardıcıllığı barədə ilkin kinestetik təsəvvür yaratmaqdır. Passiv mərhələdən sonra aktiv artikulyasiya gimnastikasına keçid edilir. Aktiv məşqlər uşağın müstəqil şəkildə dil, dodaq, yanaq və çənə hərəkətlərini icra etməsinə yönəlir. Bu məşqlər vasitəsilə hərəkətlərin dəqiqliyi, çevikliyi, keçid sürəti və koordinasiyası inkişaf etdirilir. Xüsusilə dilin yuxarı-aşağı, sağa-sola hərəkəti, uca qaldırılması, dodaqların gərilməsi, yumrulaşdırılması və müxtəlif fonemlərin artikulyasiyası üçün hazırlıq yaradan hərəkətlər mühüm əhəmiyyət daşıyır. Artikulyasiya məşqlərinin müntəzəm və ardıcıl tətbiqi tədricən düzgün səs tələffüzünün formalaşmasına zəmin yaradır.

Miogimnastika da bu prosesin vacib tərkib hissəsidir. Üz və mimik əzələlərin funksional fəallığının artırılması nitq motorikasının ümumi inkişafına müsbət təsir göstərir. Gözlərin açılıb-bağlanması, yanaqların şişirdilməsi, dodaqların “xortum”, “gülümsəmə”, “öpüş” vəziyyətinə gətirilməsi, hava axınının istiqamətləndirilməsi kimi məşqlər həm əzələlərin tonusunu tənzimləyir, həm də uşağın vizual-motor nəzarətini gücləndirir. Bu məşqlərin oyun elementləri ilə birləşdirilməsi uşağın motivasiyasını artırır və korreksiya prosesini daha məhsuldar edir. Nitq korreksiyası prosesində hipersalivasiya və hiperkinetik hərəkətlərin aradan qaldırılması da xüsusi diqqət tələb edir. Həddindən artıq tüpürcək axması uşağın həm artikulyasiya fəaliyyətinə, həm də sosial uyğunlaşmasına mənfi təsir göstərir [13].

Buna görə uşağa tüpürcəyi vaxtında udmaq, ağzını qapalı saxlamaq və udma hərəkətini nəzarətdə icra etmək vərdişi tədricən öyrədilməlidir. Eyni zamanda, qeyri-iradi dil və üz hərəkətlərinin zəiflədilməsi üçün statik vəziyyətin saxlanmasına əsaslanan tapşırıqlar tətbiq olunur. Bu cür məşqlər uşağın diqqətini nitq əzələlərinin idarəsinə yönəldir və ixtiyari motor nəzarətin formalaşmasına xidmət edir. Oral-motor reflekslərin tənzimlənməsi, passiv və aktiv artikulyasiya gimnastikası, miogimnastika, hipersalivasiya və hiperkinetik hərəkətlərin korreksiyası birgə şəkildə tətbiq edildikdə dizartriya zamanı nitq motorikasının inkişafı üçün daha əlverişli şərait yaranır. Bu yanaşma yalnız ayrıca səslərin formalaşdırılmasına deyil, bütövlükdə nitqin funksional və kommunikativ tərəfinin yaxşılaşdırılmasına xidmət edir.

Loqopedik üz masajın mərhələləri və praktik tətbiqi.

Uşaq serebral iflici olan uşaqlarda dizartriya və artikulyasiya pozuntularının korreksiyasında

loqopedik üz masaj mühüm terapevtik vasitələrdən biri kimi qiymətləndirilir [5]. Bu metodun əsas üstünlüyü ondadır ki, o, nitq aparatının yalnız lokal hissələrinə deyil, nitqin formalaşmasında iştirak edən miofasial və sensor-motor sistemə bütöv şəkildə təsir göstərir. Loqopedik üz masajın tətbiqi artikulyasiya əzələlərinin tonusunu tənzimləməyə, qan və limfa dövranını yaxşılaşdırmağa, proprioseptiv həssaslığı artırmağa və nitq hərəkətlərinin koordinasiyasını gücləndirməyə xidmət edir. Bu baxımdan, həmin metod nitq terapiyasında həm hazırlıq mərhələsi, həm də əsas korreksiya vasitəsi kimi çıxış edə bilər.

Loqopedik üz masajın elmi əsasını periferik təsirin mərkəzi sinir sistemində funksional dəyişikliklər yaratması prinsipi təşkil edir. Nitq motorikasının pozulması zamanı təkcə dil və dodaq əzələlərinin deyil, sinə, boyun, çənə, yanaq və mimik əzələlərin də funksional vəziyyəti dəyişir. Buna görə də korreksiya prosesində təsirin yalnız ağız boşluğu ilə məhdudlaşdırılması kifayət etmir. Əksinə, ilkin mərhələdə daha geniş anatomik sahələrdə aparılan stimullaşdırıcı və tənzimləyici təsirlər sonradan artikulyasiya aparatının daha səmərəli işləməsinə zəmin yaradır.

Praktik baxımdan loqopedik üz masajın mərhələli şəkildə təşkili daha məqsədəuyğun hesab edilir. Birinci mərhələdə sinə, boyun və üz nahiyəsinin hazırlanması həyata keçirilir. Bu mərhələdə əsas məqsəd ümumi əzələ gərginliyini azaltmaq, tənəffüsün ritmini sabitləşdirmək və üz-çənə zonasını daha məqsədli müdaxilə üçün hazırlamaqdır.

Boyun və çiyin nahiyəsindəki patoloji gərginliyin azaldılması xüsusilə vacibdir, çünki həmin nahiyələrdəki tonus pozuntusu nitq tənəffüsünə və fonasiya prosesinə birbaşa təsir göstərə bilir [12]. Sinə nahiyəsinin yüngül stimulasiyaedici işlənməsi isə nəfəsalma dərinliyinin və ritmikliyinin yaxşılaşmasına yardım edir.

İkinci mərhələdə üz, çənə, dodaq və yanaq əzələlərinin xarici masajı aparılır. Bu mərhələdə məqsəd mimik və artikulyasiya əzələlərinin funksional vəziyyətini normallaşdırmaq, onların elastikliyini artırmaq və hərəkət diapazonunu genişləndirməkdir. Dodaqların sıx bağlı qalması, çənənin həddindən artıq gərgin və ya əksinə, süst olması, yanaq əzələlərinin zəifliyi kimi hallar nitqin aydınlığına mənfi təsir göstərir. Xarici masaj üsulları bu əzələlərin tədricən aktivləşdirilməsinə və sonrakı artikulyasiya məşqlərinin daha məhsuldar icrasına şərait yaradır.

Üçüncü mərhələdə ağız boşluğu daxilində aparılan masaj və stimullaşdırıcı təsirlər xüsusi əhəmiyyət kəsb edir. Bu zaman dil, damaq, yanaqların daxili səthi və ağız dibində yerləşən strukturlar üzərində işlənilir. Burada əsas məqsəd dilin hərəkətliliyini artırmaq, onun kənar, ön və arxa hissələrinin daha diferensial fəaliyyətini təmin etmək, həmçinin ağız boşluğu daxilində kinestetik hissiyyatı gücləndirməkdir. Daxili masajın tətbiqi zamanı ehtiyatlılıq və peşəkar yanaşma zəruridir, çünki bu sahədə nəzarətsiz və kobud müdaxilə uşaqda qorxu, müqavimət və hətta əlavə reflektor gərginlik yarada bilər. Buna görə ağız daxilində aparılan manipulyasiyalar yalnız uyğun hazırlıqdan sonra və ardıcıl şəkildə təşkil olunmalıdır [10].

Dördüncü mərhələ fonasiya, tənəffüs və artikulyasiya proseslərinin inteqrasiyasına yönəlir. Nitq yalnız ayrıca hərəkətlərin cəmi deyil, koordinasiyalı funksional sistemdir. Buna görə masajdan sonra əldə edilən müsbət motor dəyişikliklər tənəffüs və səsvermə məşqləri ilə möhkəmləndirilməlidir. Bu mərhələdə uşağa nəfəsalma dərinliyinin tənzimlənməsi, hava axınının istiqamətləndirilməsi,

səsin başlanması və saxlanması, həmçinin artikulyasiya ilə fonasiya arasında keçidlərin qurulması öyrədilir. Belə inteqrativ yanaşma nitqin daha təbii və funksional formalaşmasına kömək edir.

Beşinci mərhələ nitqin avtomatlaşdırılması ilə bağlıdır. Loqopedik üz masaj yalnız hazırlıq xarakterli tədbir kimi deyil, həm də sonrakı səs, heca, söz və cümlə səviyyəsində aparılan korreksiya işinin əsasını təşkil edən vasitə kimi dəyərləndirilməlidir [16]. Əgər masaj nəticəsində əzələ tonusu stabilləşir, artikulyasiya orqanlarının hərəkəti yüngülləşir və kinestetik nəzarət güclənirsə, bu zaman səslərin qoyuluşu və onların nitqdə avtomatlaşdırılması daha səmərəli şəkildə həyata keçirilə bilir. Bu mərhələdə məqsəd yalnız səslərin izolyasiyada düzgün tələffüzü deyil, onların spontan nitqdə də qorunub saxlanılmasıdır.

Loqopedik üz masajın praktik tətbiqi zamanı fərdiləşdirilmiş yanaşma prinsipinə ciddi əməl olunmalıdır. USİ olan uşaqlarda klinik tablo eyni olmur; bəzi uşaqlarda spastiklik üstünlük təşkil etdiyi halda, digərlərində hipotonus, hiperkinetik hərəkətlər və ya qarışıq formalar müşahidə edilir. Buna görə də masajın intensivliyi, müddəti, tətbiq ardıcıllığı və istifadə olunan texnikalar uşağın nevroloji və nitq vəziyyətinə uyğun seçilməlidir [9].

Həmçinin uşağın yaşı, diqqət davamlılığı, emosional reaksiyası və motivasiya səviyyəsi də bu prosesdə nəzərə alınmalıdır. Metodun praktik səmərəliliyini artıran amillərdən biri də loqopedik üz masajın digər korreksiya vasitələri ilə inteqrativ şəkildə tətbiq edilməsidir. Təkcə masajın tətbiqi müəyyən müsbət nəticələr versə də, onun artikulyasiya gimnastikası, miogimnastika, nəfəs məşqləri və fonematik inkişaf tapşırıqları ilə birləşdirilməsi daha dayanıqlı nəticələrə gətirib çıxarır [18]. Bu halda korreksiya prosesi yalnız əzələ səviyyəsində deyil, funksional nitq fəaliyyəti səviyyəsində də möhkəmlənir. Bununla yanaşı, loqopedik üz masajın tətbiqində əks-göstərişlərin nəzərə alınması vacibdir. Kəskin somatik vəziyyətlər, infeksion xəstəliklər, xroniki patologiyaların kəskinləşmə mərhələsi, ağır psixi vəziyyətlər və uşağın prosedura tam müqaviməti zamanı bu müdaxilənin aparılması məqsədəuyğun hesab edilmir. Belə hallarda ilkin olaraq ümumi tibbi vəziyyət sabitləşdirilməli, daha sonra loqopedik müdaxiləyə keçilməlidir. Təhlükəsizlik və etik yanaşma bu metodun tətbiqində əsas şərtlərdən biridir.

Nəticə

Aparılan təhlil göstərir ki, uşaq serebral iflici olan uşaqlarda dizartriya və artikulyasiya pozuntuları mürəkkəb neyromotor və reflektor mexanizmlərlə bağlı olub, nitqin bütün komponentlərinə təsir göstərir. Bu səbəbdən onların korreksiyası yalnız artikulyasiya məşqləri ilə məhdudlaşmamalı, əzələ tonusunun tənzimlənməsi, oral-motor reflekslərin idarə olunması və sensor-motor koordinasiyanın inkişafını əhatə edən kompleks yanaşmaya əsaslanmalıdır. Loqo-fasial masaj, artikulyasiya gimnastikası və miogimnastikanın inteqrasiyası nitq bacarıqlarının formalaşmasında və kommunikativ fəaliyyətin yaxşılaşdırılmasında effektiv nəticələr verir. Erkən və fərdiləşdirilmiş müdaxilə isə uşaqların sosial uyğunlaşmasını və ümumi inkişafını əhəmiyyətli dərəcədə dəstəkləyir.

Problemin aktuallığı. Uşaq serebral iflici olan uşaqlarda dizartriya və artikulyasiya pozuntuları onların nitq inkişafına, ünsiyyət bacarıqlarına və sosial adaptasiyasına ciddi təsir göstərən əsas problemlərdən biridir. Müasir dövrdə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil və reabilitasiyasına diq-

qətin artması bu sahədə elmi araşdırmaların və praktik korreksiya üsullarının əhəmiyyətini daha da yüksəldir. Məqalədə məhz bu problemin nəzəri və praktik aspektləri araşdırılaraq kompleks loqopedik müdaxilənin rolu ön plana çıxarılmışdır.

Problemin elmi yeniliyi. Məqalədə uşaq serebral iflici zamanı müşahidə olunan dizartriya və artikulyasiya pozuntuları yalnız nitq qüsuru kimi deyil, pedaqoji, neyrofizioloji və sensor-motor baxımdan kompleks şəkildə təhlil edilmişdir. Tədqiqatda oral-motor reflekslərin nitq inkişafına təsiri, loqopedik üz masajın mərhələli tətbiqi və artikulyasiya gimnastikasının sistemli təşkili qarşılıqlı əlaqədə təqdim olunmuşdur.

Problemin praktik əhəmiyyəti. Məqalədə təqdim olunan müddəalar və korreksiya istiqamətləri loqopedlər, defektoloqlar, xüsusi təhsil müəllimləri, reabilitasiya mütəxəssisləri və valideynlər üçün praktik əhəmiyyət daşıyır. Burada göstərilən metod və yanaşmalar dizartriya və artikulyasiya pozuntuları olan uşaqlarla iş prosesində tətbiq oluna, fərdi korreksiya proqramlarının hazırlanmasında istifadə edilə bilər.

Ədəbiyyat

1. Duffy, J.R. Motor Speech Disorders: Substrates, Differential Diagnosis, and Management / J.R. Duffy. – St. Louis: Elsevier, 2013. – 528 p.
2. Kent, R.D. Research on speech motor control and dysarthria // Journal of Speech, Language, and Hearing Research. – 2000. Vol. 43, – pp. 145–156.
3. Pennington, L. Cerebral palsy and communication // Paediatrics and Child Health. – 2008. Vol. 18, No. 9, – pp. 405-409.
4. Pennington, L., Virella, D., Mjøen, T. et al. Development of The Viking Speech Scale to classify the speech of children with cerebral palsy // Research in Developmental Disabilities. – 2013. Vol. 34, No. 10, – pp. 3202–3210.
5. Mei, C., Reilly, S., Reddihough, D. et al. Speech in children with cerebral palsy // Developmental Medicine & Child Neurology. – 2020. Vol. 62, No. 11, – pp. 1307–1315.
6. Korkalainen, J., Tikkanen, H., Seller, D. et al. Motor Speech Interventions for Children With Cerebral Palsy: A Systematic Review // Developmental Medicine & Child Neurology. – 2023.
7. Fiori, S., Guzzetta, A., Martinelli, A. et al. PROMPT to improve speech motor abilities in children with cerebral palsy: a case series // Developmental Medicine & Child Neurology. – 2022.
8. Mou, Z., Zhao, W., Wang, J. et al. Quantitative analysis of vowel production in cerebral palsy children with dysarthria // Biomedical Signal Processing and Control. – 2020. Vol. 55, – Article 101637.
9. Langlois, C., Miller, N., Vitorino, J. et al. Effects of an intensive voice treatment on articulatory acoustic characteristics in children with cerebral palsy // Journal of Communication Disorders. – 2020. Vol. 87, – Article 106036.
10. Hüseynova, N.T. Açıq rinolaliyalı uşaqların əməliyyatdan sonra damaq-udlaq bağının fəallaşdırılması üzrə loqopedik işin strukturu // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2019. Cild 86, – № 6,– s. 98–103.

11. Hüseynova, N.T. İntellektual pozulmaları olan şagirdlərin tərbiyə prosesinin təşkili // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2021. Cild 88, № 6, – s. 65–70.
12. Hüseynova, N.T. Xüsusi məktəblərdə təlim metodları və təhsil prosesinin təşkil edilməsi formaları // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2023. Cild 90, № 6, – s. 193–197.
13. Hüseynova, N.T. İnklüziv pedaqogikanın təşviqi: müxtəlif siniflərdə differensial təlim strategiyaları // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2024. Cild 91, № 2, – s. 278–281.
14. Rosenbaum, P., Paneth, N., Leviton, A. et al. A report: the definition and classification of cerebral palsy // Developmental Medicine & Child Neurology. – 2007. Vol. 49, Suppl. 109, – pp. 8–14.
15. Strand, E.A. Treatment of motor speech disorders in children // Seminars in Speech and Language. – 2014. Vol. 35, No. 2, – pp. 79–89.
16. Лурия, А.Р. Высшие корковые функции человека / А.Р. Лурия. – Москва: МГУ, –2000. – 512 с.
17. Выготский, Л.С. Мышление и речь / Л.С. Выготский. – Москва: Лабиринт, –1999. –352 с.
18. Сахаровская, О.П. Логопедический альбом: комплексные занятия для закрепления звуков / О.П. Сахаровская. – Ростов н/Д: Феникс, –2020. – 160 с.

Redaksiyaya daxil olub: 14.04.2026

UOT 616.899

Ümit Ölmez Ali
Bakı Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
E-mail: umut.olmez@mail.ru
https://orcid.org/0009-0002-6791-503X
https://doi.org/10.69682/arti.2026.93(3).243-246

AUTİZM SPEKTR POZUNTULU UŞAQLARIN MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏN ORTA TƏHSİLƏ KEÇİD DÖVRÜNÜN TƏHLİLİ

Umit Olmez Ali
doctorial student in the program of doctor of philosophy of Baku State University,

ANALYSIS OF THE TRANSITION PERIOD FROM PRESCHOOL TO SECONDARY EDUCATION FOR CHILDREN WITH AUTISM SPECTRUM DISORDERS

Умит Олмез Али
докторант по программе доктора философии
Бакинского Государственного Университета

АНАЛИЗ ПЕРЕХОДНОГО ПЕРИОДА ДЕТЕЙ С РАССТРОЙСТВАМИ АУТИСТИЧЕСКОГО СПЕКТРА ОТ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ К СРЕДНЕМУ ОБРАЗОВАНИЮ

Xülasə. Autizm spektr pozuntulu uşaqların təhsilində hər bir yeni dövrə- yeni siniflərə keçid şagird, ailə, proqram, müəllimlər və məktəblə bağlı özünəməxsus əhəmiyyət kəsb edir və bu xüsusiyyətlər təhsil prosesinə təsir edir. Effektiv strategiyalara ailənin cəlb olunmasının təmin edilməsi, ailə ehtiyaclarının və prioritetlərinin müəyyən edilməsi, autizm spektr pozuntulu şagirdi yeni mühitə hazırlamaq, xidmət təminatçıları arasında məlumat mübadiləsi və əməkdaşlıq və xidmətlərdə davamlılığın təmin edilməsi daxildir. Tədqiqatlar göstərir ki, keçid dövrünün planlaşdırılmasının məqsədi xidmətlərin dəyişdirilməsi nəticəsində yaranan fərqləri, fasilələri minimuma endirmək və bununla da keçid zamanı stressi azaltmaqdır. Bu plan fərdi və ailəni proqrama istiqamətləndirmək yollarını sistematik şəkildə inteqrasiya etməli və fərd və ailəyə bacarıq və təhlükəsizliyin qurulmasında dəstək olmaq üsullarını müəyyən etməlidir. Məqalənin əsas məqsədi olaraq bu sahədə aparılmış beynəlxalq tədqiqatları öyrənmək və autizm spektr pozuntulu uşaqların məktəb prosesindəki keçidlərin daha effektiv şərtlərini təqdim etməkdir. Əldə edilmiş nəticələrə əsasən demək olar ki, əvvəlcədən hazırlanmış plana müvafiq iştirakçıların rolları və məsuliyyətləri, vaxt qrafiki, agentliklər arasında bölüşdürüləcək məlumat, ailənin iştirakı üçün aydın mexanizmlər və minimal məhdudlaşdırıcı mühit bu prosesdə aparıcı rol daşıyır. Müasir cəmiyyətimizdə xüsusi yanaşmaya ehtiyacı olan autizm spektr pozuntulu uşaqlar sosiologiya, pedaqogika və psixologiya elminin daim diqqət mərkəzində saxlanılmalıdırlar.

Açar sözlər: *autizm spektr pozuntusu, məktəbəqədər təhsil, təhsil yanaşmaları, orta məktəb, keçid dövrü, xüsusiyyətləri, fərdilik*

Abstract: Each new phase in the education of children with autism spectrum disorders - transition to new grades - has its own significance for the student, family, program, teachers, and school, and these characteristics affect the educational process. Effective strategies include ensuring family involvement, identifying family needs and priorities, preparing the student with autism spectrum disorders for the new environment, sharing information and collaboration among service providers, and ensuring continuity of services. Research shows that the goal of transition planning is to minimize the differences and interruptions that arise from changing services, thereby reducing stress during the transition. This plan should systematically integrate ways to guide the individual and family to the program and identify ways to support the individual and family in building skills and security. The main purpose of the article is to study international research conducted in this area and to present more effective conditions for transitions in the school process of children with autism spectrum disorders. Based on the results obtained, it can be said that the roles and responsibilities of the participants according to the pre-prepared plan, the timeline, the information to be shared between the agencies, clear mechanisms for family participation and the minimally restrictive environment play a leading role in this process. Children with autism spectrum disorders, who need a special approach in our modern society, should be kept in the constant focus of sociology, pedagogy and psychology.

Keywords: *autism spectrum disorder, preschool, educational approaches, secondary school, transition characteristics, individuality*

Аннотация. Каждый новый этап в образовании детей с расстройствами аутистического спектра – переход в новые классы имеет свое значение для ученика, семьи, программы, учителей и школы, и эти особенности влияют на образовательный процесс. Эффективные стратегии включают обеспечение вовлеченности семьи, выявление потребностей и приоритетов семьи, подготовку ученика с расстройствами аутистического спектра к новой среде, обмен информацией и сотрудничество между поставщиками услуг, а также обеспечение непрерывности предоставления услуг. Исследования показывают, что цель планирования перехода состоит в минимизации различий и перебоев, возникающих в связи со сменой услуг, тем самым снижая стресс во время перехода. Этот план должен систематически интегрировать способы сопровождения человека и семьи в программу и определять способы поддержки человека и семьи в развитии навыков и чувства защищенности. Главная цель статьи — изучить международные исследования, проведенные в этой области, и представить более эффективные условия для перехода в школьном процессе детей с расстройствами аутистического спектра. На основании полученных результатов можно сказать, что ведущую роль в этом процессе играют роли и обязанности участников в соответствии с заранее подготовленным планом, сроки, информация, которой должны обмениваться организации, четкие механизмы участия семьи и минимально ограничивающая среда. Дети с расстройствами аутистического спектра, нуждающиеся в особом подходе в нашем современном обществе, должны постоянно находиться в центре внимания социологии, педагогики и психологии.

Ключевые слова*: расстройство аутистического спектра, дошкольное учреждение, образовательные подходы, средняя школа, особенности адаптации, индивидуальность*

Giriş. Xüsusi ehtiyacı olan aldıqları xidmətlərdə dəyişikliklərə uşaqlar erkən uşaqlıq dövründə səbəb ola biləcək bir neçə keçid yaşa-

yırlar. Yeni proqrama keçərkən rast gəlinən dəyişikliklər bəzən uşağın və ailənin aldığı xidmətlərin keyfiyyətinin azalmasına və ya itirilməsinə səbəb ola bilər [1, səh.108-110]. Göndərən və qəbul edən qurumlar arasında qeyri-adekvat əməkdaşlıq, qurumlar arasında uyğunluq meyarlarının fərqliliyi, hər iki qurumda həyata keçirilən proqramların uyğunluğu və tədris metodlarının fərqliliyi də daxil olmaqla, çoxsaylı amillər uşağın uyğunlaşmasına, buna görə də onların yeni bacarıqlara yiyələnməsinə və ailənin göstərilən xidmətlərdən faydalanmasına təsir göstərə bilər [2. s. 2-3]. Bu problemləri minimuma endirməyin vacib amili keçid planlamasıdır [1, s. 112]. Keçid planının məqsədi yeni və mövcud proqramlar arasında körpü yaratmaqla uşaq üçün müsbət nəticələri maksimuma çatdırmaq, uşağın və ailənin yeni mühitə sürətli və uğurlu uyğunlaşmasını asanlaşdırmaqla stressi azaltmaq və xidmətlərin davamlılığını təmin etməkdir. Keçid planlaması bir proqramdan digərinə rəvan və uğurlu keçidi təmin etmək üçün ardıcıl və ya eyni vaxtda bir sıra tapşırıqların yerinə yetirilməsini tələb edir. Bu vəzifələrə qəbul edən proqramla əlaqə saxlamaq, yönləndirmə prosedurlarına başlamaq, potensial proqramlara baş çəkmək, uşağın qiymətləndirmə məlumatlarını yeniləmək, ailəni uşaq haqqında bütün müvafiq məlumatı qəbul edən proqrama ötürmək daxildir. Bundan əlavə, keçid planına prosesdə iştirak edən maraqlı tərəflərin rol və məsuliyyətləri, iş qrafiki, qurumlar arasında bölüşdürüləcək məlumatlar, ailənin iştirakını təmin etmək yolları, uşağın qiymətləndirilməsində səylərin təkrarlanmasını azaltmaq üçün prosedurlar və uşaq üçün ən az məhdudlaşdırıcı mühitlə bağlı məlumatlar daxil edilməlidir [3, s.123-125].

Ədəbiyyat təhlili. Məktəbəqədər təhsildən ibtidai məktəbə, orta məktəbə, sonra isə orta təhsilə keçid, şagirdin akademik həyatının və dolayısı ilə gələcəyinin planlaşdırılması ilə bağlı qərarların verildiyi dövrdür. Bu dövr, yeniyetməlik dövrünə keçidlə yanaşı, müxtəlif fiziki, emosional, psixososial, zehni və davranış dəyişiklikləri, qərarsızlıq və emosional eniş-yoxuşlarla xarakterizə olunan çətin bir dövrdür [4, s.127]. Uşaqları bu çətin və xaotik dövrü yaşasa da, ailələr də uşaqları kimi mübarizə aparırlar. Müəllimlərin münasibəti, tədris prioritetləri və ailələri ilə ünsiyyət də daxil olmaqla çoxsaylı amillər bu prosesə təsir göstərir [4, s.129].

Bütün şagirdlər kimi, xüsusi ehtiyacı olan uşaqlar, orta təhsili bitirməzdən əvvəl yetkinlik dövründə onlardan gözlənilən müxtəlif rollara hazırlaşmalıdırlar. Xüsusi qayğıya ehtiyacı olan öyrənənlərin cəmiyyətdə fəal və məhsuldar fərdlərə çevrilməsini təmin etmək əhəmiyyətli vaxt və səy tələb edir [4; 5]. Eyni zamanda, xüsusi qayğıya ehtiyacı olan tələbələrin məşğulluq imkanlarının artırılması və onların işçi qüvvəsində iştirakının təmin edilməsi üçün uzunmüddətli planlaşdırma, bu planların həyata keçirilməsi, əldə olunan məhsulların davamlı olaraq qiymətləndirilməsi, əldə edilən məlumatlar əsasında proses modifikasiyasına ehtiyac var [4;5,6 s.127-128; 7].

Müəlliflərin fikrincə dəstək proqramlarına neyropedaqoji yanaşmaya əsaslanan vacib elementlərin daxil edilməsi daha effektiv nəticələrin əldə edilməsində xüsusi əhəmiyyət kəsb edir [8, s.191-192].

Xüsusi ehtiyacı olan şəxslərə göstərilən təhsil xidmətlərinin əsas məqsədi onların mümkün qədər müstəqil və keyfiyyətli həyat sürmələrini təmin etməkdir. Xüsusi ehtiyacı olan şəxslərin sosial həyata və yetkinliyə keçidi zamanı müstəqilliyini

artırmaq üçün onlar bir sıra mühüm bacarıqlarla təchiz olunmalıdırlar [6;7, s.122-123]. Bu bacarıqlar ədəbiyyatda müstəqil həyat və ya sosial həyat bacarıqları kimi müəyyən edilir və onlar kifayət qədər müxtəlifdir. Müstəqil həyat və ya sosial həyat bacarıqları ədəbiyyatda ev təsərrüfatlarının idarə edilməsi, vaxtın idarə edilməsi, sağlamlıq və təhlükəsizlik bacarıqları, nəqliyyat, ictimai xidmətlər, geyim seçimi və qulluq, şəxsi qulluq və gigiyena, sosiallaşma bacarıqları, özünümüdafiə, asudə vaxt fəaliyyətləri, icma resurslarından məlumatlılıq və istifadə və s. kimi verilmişdir [7, s.125]. Fərdlər bu bacarıqları əldə etdikdə onların və ailələrinin həyat keyfiyyəti yaxşılaşacaq
[7, s.127].

Nəticə. Keçid planının gözlənilən faydalarına nail olmaq üçün proses boyu aşağıdakı məqamları nəzərə almaq faydalı olar:

– Planlaşdırma hərtərəfli olmalıdır.

– Planlaşdırma uşaq və ailənin yeni proqrama keçidindən ən azı üç ay (90 gün), ASD olan uşaqlar üçün isə ən azı altı ay (180 gün) əvvəl başlamalıdır.

– Keçid planlaması həm qurumlar daxilində, həm də qurumlar arasında aparılmalıdır.

– Göndərən və qəbul edən qurumlar arasında birgə planlaşdırma aparılmalıdır.

– Müşahidələr həm göndərən, həm də qəbul edən qurumlarda aparılmalıdır.

– Təcrübələr fərdi ehtiyacları qarşılamaq üçün çevik olmalıdır.

– Keçid prosesində iştirak edən maraqlı tərəflərin rolları və məsuliyyətləri müəyyən edilməlidir.

– Keçidlə bağlı maraqlı tərəflərin bilik və bacarıq ehtiyacları müəyyən edilməli və bu ehtiyacları qarşılamaq üçün planlar hazırlanmalıdır.

– Maraqlı tərəflər birgə işləməlidir.

– Məlumat göndərən və qəbul edən qurumlar arasında paylaşılmalıdır.

– İnstitutlararası ünsiyyətdə etimad yaranmalı və inam hissi aşılanmalıdır.

– İş qrafiki qurulmalı və ona ciddi əməl edilməlidir.

– Keçid prosesi zamanı müəyyən edilmiş rol və vəzifələri yerinə yetirmək üçün kifayət qədər vaxt və resurslar ayrılmalıdır.

– Ailələr öz uşaqlarının hüquqlarını müdafiə etməyə təşviq edilməlidir.

– Potensial pozuntuların qarşısını almaq və bərabər imkanları təmin etmək üçün keçid siyasəti və prosesləri daim nəzərdən keçirilməlidir.

– Uşağın xüsusiyyətləri, bilik, bacarıq və davranışları müəyyən edilməlidir.

– Uşaqlara akademik və ya akademik hazırlıq bacarıqlarından daha çox sosial, davranış və funksional bacarıqlar (sosial, ünsiyyət, özünə qulluq, problem həll etmə, tapşırıqla bağlı bacarıqlar və s.) öyrədilməlidir [9, s.152-155].

Problemin aktuallığı. Müasir dövrümüzdə artıq autizm spektr pozuntulu uşaqlar da məktəbəqədər təhsilə və daha sonrakı mərhələdə orta təhsilə cəlb edilməsi inkluziv təhsilin əsas məqsədlərindən birinə çevrilmişdir. Çoxsaylı proqramlar, dövlət, özəl və icma əsaslı yanaşmalarda bu prosesin daha effektiv həyata keçirilməsi üçün müxtəlif istiqamətlər işlənib hazırlanmışdır. Məhz bu səbəbdən məqalə aktuallıq kəsb etdiyini düşünmək olar.

Problemin yeniliyi. Autizm spektr pozuntulu uşaqların təhsil problemlərinə dair dünyanın müxtəlif ölkələrində fərqli tədqiqatlar aparılır. Ölkəmizdə də bu istiqamətdə işlər davam etdirilir. Bu tədqiqatda isə məktəbəqədər təhsildən orta təhsilə keçid prosesinin əsas məqamları təhlil edilmiş və müvafiq nəticələr təqdim edilmişdir.

Problemin praktik əhəmiyyəti. hazırlanmış məqalə tədqiqatçılar, bu sahədə çalışan mütəxəssislər və autizm spektr pozuntulu uşaqların valideynləri üçün xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Barnes, E. B., O'Flynn, J., & Saile, L. Autism spectrum disorders in young children. G. L. Ensher, D. A. Clark, N. S. Songer // –Families, infants, & young children at risk: Pathways to best practice –2009. –p.107-138.
2. Wang, M., Zhang, X., Zhong, L., Zeng, L., Li, L., & Yao, P. Understanding autism: Causes, diagnosis, and advancing therapies. // –Brain Research Bulletin, –2025. –227, 111411. https://www.sciencedirect.com/science/article/pii/S0361923025002230
3. Batu, E. S., & Uysal, A. Günümüz sınıflarına engelli çocukların katılımını destekleme. A. G. Akçamete (Ed.), //-Genel eğitim okullarında özel gereksinimi olan öğrenciler ve özel eğitim –Ankara: Kök Yayıncılık, –2007. –p. 113-140.
4. Simpson, R. L., de Boer-Ott, S. R., & Smith-Myles, B. Inclusion of learners with autism spectrum disorders in general education settings. // -Topics in Language Disorders, -2003-N.23. p.116-133.
5. Webber, J., & Scheuermann, B. Educating students with autism: A quick start manual. // –Texas: PRO-ED, Inc. –2008. –p. 416. https://www.proedinc.com/Products/12578/educating-students-with-autism-a-quick-start-manu.aspx
6. Williams, B. F., & Williams, R. L. Effective programs for treating autism spectrum disorder: Applied behavior analysis models// – NY and London: Routledge Taylor & Francis Group, –2001. –p.304.
7. Dunlop, G., Iovannone, R., & Kincaid, D. Essential components for effective autism educational programs. J.K. Luiselli, D. C. Russo, W. P. Christian and S. M. Wilczynski (Eds.). //Effective practices for children with autism: Educational and behavioral support interventions that work//.- New York: Oxford University Press. –2008. –p. 111-135.
8. Nuriyeva G. Neyropedaqoji yanaşmalar vasitəsilə öyrənmə prosesinin effektivliyinin artırılması.// Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2026-Cild 93, №1, -s.191-195 https://journals.arti.edu.az/issue/2026/vol93/1/1488/guler-gismet-nuriyeva
9. Wilkinson, L. A. Self-management for children with high-functioning autism spectrum disorders. //Intervention in School and Clinic- 2008. N.43, p.150-157

Redaksiyaya daxil olub: 29.04.2026

UOT 159.9

Zümrüd Çingiz qızı Abdullayeva
Bakı Dövlət Universitetinin Gender və tətbiqi psixologiya kafedrasının
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0009-0820-2911
E-mail: zumrudabdullayeva94@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(3).247-251

YAŞLI ƏHALİNİN RİFAH PROBLEMİNİN BEYNƏLXALQ TƏCRÜBƏLƏRƏ ƏSASƏN TƏHLİLİ

Zumrud Chingiz Abdullayeva
doctorial student in the program of doctor of philosophy of the department of Gender applied psychology of Baku State University

ANALYSIS OF THE PROBLEM OF THE WELL-BEING OF THE ELDERLY POPULATION BASED ON INTERNATIONAL EXPERIENCE

Зумруд Чингиз гызы Абдуллаева
докторант по программе доктора философии кафедры Гендерной прикладной психологии Бакинского Государственного Университета

АНАЛИЗ ПРОБЛЕМЫ БЛАГОПОЛУЧИЯ ПОЖИЛОГО НАСЕЛЕНИЯ НА ОСНОВЕ МЕЖДУНАРОДНОГО ОПЫТА

Xülasə. Müstəqil bir elm kimi inkişaf edən geriatrik (yaşlılıq) psixologiyasının ölkəmizdə çox qısa bir tarixi var. Buna görə də, hazırda tamamilə yeni prinsiplərin və yanaşmaların formalaşmasının, onların sosial-psixoloji və inkişaf psixologiyası tədqiqatlarının praktikasında tətbiqinin şahidi olduğumuz bir vaxtda “hazır” bilik formaları tapmaq çətindir. Lakin burada heç bir həqiqət mütləq deyil. Bundan əlavə, xüsusilə metodologiya, tədqiqat metodları və hətta terminologiya təkmilləşdirilərək razılaşdırıldığı üçün qocalmanın sosial psixologiyasının müstəqil elmi bir fənn kimi mövcud olmaq hüququ ilə bağlı sual yaranır. Bir çox sual sosial gerontologiya, sosial psixologiya, sosial iş nəzəriyyəsi və digər fənlər sahələri ilə bağlıdır. “Qocalmanın sosial psixologiyası” ifadəsinin özü bu fənnin elmi biliklər sistemində tutduğu xüsusi yeri göstərir. Elmlərin – psixologiya, sosiologiya və gerontologiyanın kəsişməsində meydana çıxan qocalma psixologiyası öz xüsusi statusunu qoruyub saxlayır, yəni bu fənlərin hər biri onu ayrılmaz bir hissə kimi əhatə edir. Bundan əlavə, qocalma problemləri təkcə psixoloqlar, sosioloqlar və həkimlər tərəfindən deyil, həm də iqtisadçılar, demoqraflar, politoloqlar, müəllimlər, sosial işçilər və digərləri tərəfindən öyrənilir.
Açar sözlər: *psixi sağlamlıq, rifah, yaşlanma, gerontologiya, psixoloji amillər*

Abstract. Developing as an independent science, the social psychology of aging has a very short history in our country. It has a longer history abroad. Therefore, it is difficult to find "ready-made" forms of knowledge when we are currently witnessing the formation of entirely new principles and approaches, their implementation in the

practice of socio-psychological and developmental psychology research. However, no truth here is absolute. Moreover, the question arises about the right of social psychology of aging to exist as an independent scientific discipline, especially since methodology, research methods, and even terminology are undergoing refinement and agreement. Many questions relate to the fields of social gerontology, social psychology, social work theory, and other disciplines. The very phrase "social psychology of aging" indicates the specific place this discipline occupies in the system of scientific knowledge. Having emerged at the intersection of sciences – psychology, sociology, and gerontology– the psychology of aging retains its special status, meaning that each of these disciplines includes it as an integral part. Moreover, the problems of old age are studied not only by psychologists, sociologists, and physicians, but also by economists, demographers, political scientists, educators, social workers, and others.
Keywords: *mental health, wellbeing, aging, gerontology, psychological factors*

Аннотация. Социальная психология старения, развиваясь как самостоятельная наука, имеет в нашей стране весьма короткую историю. За рубежом у нее более длительная история. Поэтому сложно найти «готовые» формы знания, когда мы наблюдаем формирование совершенно новых принципов и подходов, их внедрение в практику социально-психологических и возрастных исследований. Однако здесь нет абсолютной истины. Более того, возникает вопрос о праве социальной психологии старения на существование как самостоятельной научной дисциплины, тем более что методология, методы исследования и даже терминология находятся в процессе уточнения и согласования. Многие вопросы относятся к области социальной геронтологии, социальной психологии, теории социальной работы и других дисциплин. Само словосочетание «социальная психология старения» указывает на особое место, которое занимает эта дисциплина в системе научного знания. Возникнув на стыке наук – психологии, социологии и геронтологии – психология старения сохраняет свой особый статус, что обуславливает её неотъемлемую часть в каждой из этих дисциплин. Причём проблемами старости занимаются не только психологи, социологи и врачи, но и экономисты, демографы, политологи, педагоги, социальные работники и другие.
Ключевые слова: *психическое здоровье, благополучие, старение, геронтология, психологические факторы*

Giriş. Dünyanın bir sıra qabaqcıl ölkələrində əhalinin artan yaş statistikası və həmin əhali kütləsinin psixi sağlamlıq məsələləri təhlil edilir. Müəlliflər ilk növbədə ÜST-ın əhalinin yaşlanması prosesi, yaşlı əhalinin sürətlə artması ilə bağlı statistik məlumatları, 2025-ci ildə ümumdünya əhalisinin 1,2 milyardı, 2050-ci ildə isə 2 milyardını 60 yaşından yuxarı əhali təşkil edəcəyini vurğulamışlar. ÜST-in həyat keyfiyyətinə verdiyi izaha istinad edərək göstərmişlər ki, həyat keyfiyyəti geniş anlayış olub fiziki sağlamlıq, psixoloji vəziyyət, müstəqillik, sosial əlaqələr, şəxsi inanclar və ətraf mühit vacib məqamlarına olan münasibətləri özündə əks etdirir [1]. Yaşlılarda isə sağlamlıq vəziyyətində baş verən dəyişikliklər, yeni rollarına identifikasiya, imkanlar və sosial dəstək amilləri həyat keyfiyyətinə təsir göstərir [2, s.837]. Müəlliflər demoqrafik, sosio iqtisadi, sağlamlıq amillərini və şəxsi xarakterik keyfiyyətləri həyat keyfiyyəti göstəriciləri hesab edilə biləcəyini qeyd etmişlər [2, səh.838; 3; 4; 5, s. 921].

Ədəbiyyat təhlili. Müəlliflər tərəfindən icmada və qocalar evində olan şəxslərin həyat keyfiyyəti göstəricilərini müqayisə etdikdə nəticələr arası böyük fərq aşkar

edilməmişdir. Yalnız sosial amil üzrə icmada yaşayan yaşlı insanların göstəricisi qocalar evi göstəricilərindən yüksək olmuş və p=0,017 (p<0,05 şərti ödənilmişdir). Fiziki və ətraf mühit amili üzrə göstəricilər qocalar evində nisbətən yüksək olsa da p<0,05 şərti ödənilməmişdir. Müəlliflər toplanmış nəticələrə əsasən yaşlı şəxslərə fiziki reabilitasiya tədbirlərinin, psixoloji işin gücləndirilməsi, ətraf mühit amillərinin yaxşılaşdırılmasının tövsiyə etmiş və bu zaman həyat keyfiyyəti göstəricilərinin yüksəlməsini ehtimal etmişlər.

Digər tədqiqat Nappur, Mumbaidə müxətlif hospital və tədris müəssisələrində çalışan tədqiqatçılar Srinivasan P, Dharna Patel, Sadaf Amreen və həmkarları tərəfindən depressiya və həyat keyfiyyəti göstəriciləri arası korelyasiyanın aşkar edilməsi məqsədi ilə aparılmışdır. Müəlliflər tədqiqatı Utkhana və Nagpurda yaşlılar evində 50 şəxslə aparmış, Geriatric depression scale və WHO QOL-BREF sorğusu tətbiq edilmişdir. və məhz bu iki amil arası neqativ korelyasiya aşkar edilmişdir, nəticələr statistik əhəmiyyətə malik olmuşdur (p<0,05 şərti ödənilmişdir). Müəlliflər yaşlılarda depressiya, psixoloji rifah amilləri ilə bağlı əvvəlki araşdırmalara istinad edərək göstərmişlər ki, ümumi icmadan fərqli olaraq yaşlılar evində məskunlaşmış şəxslərin 85,7%ində aşağı həyat keyfiyyəti göstəriciləri, ödənişli qocalar evində olan şəxslərdə isə 63,6%ində orta həyat keyfiyyəti göstəriciləri qeydə alınmışdır [6, səh.165-167]. 2013-cü il Kayseridə 65 yaşdan yuxarı 136 nəfər şəxslə aparılan tədqiqatda isə həyat keyfiyyəti göstəricisi 43,4±10,3 idi, həmin iştirakçıların 47%ində aşağı həyat keyfiyyəti göstəriciləri qeydə alınmışdır [7, səh.2-4]. Həmçinin həmin müəlliflər də depressiya ilə sosial iştirakçılıq, bağlılıq amilləri arası neqativ korelyasiya aşkar etmişlər.

Demoqrafik dəyişənlər kimi yaş, cins, din, təhsil, ailə vəziyyəti, əvvəlki ailə quruluşu, əvvəlki məşğulluğu, gəlir mənbələri və yaşlılar evində qaldığı müddət amilləri götürülmüşdür.

Cədvəl 1. Depressiya üzrə göstəricilər

Göstərici	frequency	mean	percentage
No depression (0-4)	21	3,23	42
Mild depression (5-8)	20	6,10	40
Moderate depression (9-11)	8	9,63	16
Severe depression (12-15)	1	14	2

Cədvəl 2. Həyat keyfiyyəti göstəriciləri

Göstərici	frequency	mean	percentage
Zəif həyat keyfiyyəti (poor QOL)	14	60,78	28
Orta həyat keyfiyyəti (fair QOL)	30	83,06	60
Yaxşı həyat keyfiyyəti (good QOL)	6	103,00	12

Depressiya göstəriciləri 2-12 bal arası dəyişmiş, orta hədd 5,62; həyat keyfiyyəti göstəriciləri isə 45-113 bal arası dəyişmiş, orta hədd 79,22 olmuşdur. Bu iki göstərici arası yüksək neqativ korelyasiya Karl Pearson r=-0,578 (p=0,05). Həmçinin demoqrafik amillərdən təhsil səviyyəsi ilə depressiya göstəriciləri; təhsil səviyyəsi ilə həyat keyfiyyəti göstəriciləri arası assosiasiya aşkar edilmişdir (p<0,05). Müəlliflər savadsızlıq amili ilə zəif və aşağı həyat keyfiyyəti göstəriciləri arası əlaqə p<0,05 şərti ilə digər müəlliflər tərəfindən də sübut edildiyini (Jan Nilsson, 2005) bir daha vurğulamışlar.

Digər bir tədqiqat Braziliya Escola Paulista de Enfermagen Sao Paulo və Rio Grande Universitetləri əməkdaşları Luciana Magalhaes Vitorino, Lisiane Manganelli Girardi Paskulin, Lucila Amaral Carneiro Vianna tərəfindən icmada və müalicə, qayğı reabilitasiya mərkəzlərində olan yaşlı insanların həyat keyfiyyətini müqayisəli təhlil əsasında həyata keçirilmişdir. Müəlliflər əvvəlki 2 tədqiqatın statistik nəticələrinə əsasən təhlil aparmışlar. Həmin tədqiqatlarda 288 icmada yaşan, 76 nəfər isə mərkəzlərdə olan yaşlı şəxs iştirak etmişdir. Müəlliflər həyat keyfiyyəti anlayışının bir neçə izahını vermişlər, belə ki mədəni, etnik, dini və şəxsi aspektlər hər biri ayrı-ayrılıqda həyat keyfiyyətinə təsir göstərir. Həyat keyfiyyəti obyektiv və subyektiv parametrlərə əsaslanır. Subyektiv parametrlər rifah, xoşbəxtlik, şəxsi nailiyyətlər aiddir; obyektiv parametrlər isə sosial strukturdan irəli gələn tələbatlara olan məmnunluqla bağlıdır. Obyektiv parametrlərdə qərəzlilik yoxdur, lakin subyektiv parametrlərdə mühakimələr vardır. Bir daha müəlliflər ÜST-ın həyat keyfiyyəti ilə bağlı verdiyi izaha istinad edərək həyat keyfiyyətinin şəxsin öz mövqeyinə fərdi münasibəti, onu necə dərk etməsi ilə bağlamışlar. ÜST həyat keyfiyyətinin ölçülməsi ilə əlaqədar WHO QOL -100 sorğusu tərtib etmiş, standartlaşdırmışdır. Daha sonra sorğunun WHO QOL –OLD modeli işlənib hazırlanmışdır.

Müqayisəli təhlil zamanı müəlliflər Braziliyada 2004 və 2010-cu illərdə aparılmış tədqiqatların statistik nəticələrindən istifadə etmişlər. WHO QOL sorğusunun 4 bəndi üzrə -fiziki, psixoloji, sosial münasibətlər və ətraf mühit bəndləri üzrə müqayisə aparıldıqda əvvəlki 3 bənddə göstəricilər icmada yaşayan yaşlılarda nisbətən yüksək olmuşdur, yalnız sonuncu ətraf mühit bəndi üzrə qayğı mərkəzlərində yaşayan şəxslərin nəticələri nisbətən yüksək idi, lakin p>0,001 olduğundan statistik əhəmiyyətə malik olmamışdır. Təhsil səviyyəsi ilə həyat keyfiyyəti göstəriciləri arasında assosiasiya aşkar edilmişdir, belə ki, müəyyən təhsil səviyyəsinə malik yaşlılar asudə vaxt fəaliyyəti ilə məşğul olur, xəstəliklərlə mübarizə aparır; lakin heç bir təhsil səviyyəsinə malik olmayanlar xəstəliklərdən daha çox əziyyət çəkir, asudə vaxt fəaliyyəti növləri ilə məşğul olmurlar, müvafiq olaraq onlarda həyat keyfiyyəti göstəriciləri aşağı düşür. Müəlliflər yaşlıların icmada öz ailələri ilə yaşaması və ya hansısa sosial qayğı mərkəzlərində olması amili ilə həyat keyfiyyəti göstəriciləri arasında statistik əhəmiyyətə malik olan assosiasiya aşkar etməmiş və beləliklə bu amilin əhəmiyyətə malik olmadığını vurğulamışlar. Məhz asudə vaxt fəaliyyəti yaşlı insanların sosiallaşması, fiziki və psixi sağlamlığında mühüm rola malik olduğu əvvəlki müəlliflərin tədqiqatlarında da öz əksini tapmışdır [8, səh.525-526]

Tədqiqatda iştirak edən 102 nəfər yaşlı şəxsin orta yaş 74,47±6,60 olmuşdur; ən çox qeydə alınan

xəstəlik əzələ-dayaq funksiyaları (79,4%), ürək qan damar sistemi xəstəlikləri (76,5%) ilə bağlı qeydə alınmışdır. Barthel indeksi üzrə orta göstərici 98,44±17,15; 77 nəfər tam müstəqil olaraq gündəlik fəaliyyət növlərini özləri icra edə bilirdi, 22 nəfər qismən asılı, 3 nəfər isə tam olaraq digərlərindən asılı idilər. Depressiya üçün orta göstərici 56,19±10,74 (minimum 32,5; maksimum isə 83,75), yüngül depressiya ilə qiymətləndirilmişdir. Təşviş pozuntusu isə Bek təşviş pozuntusu sorğusuna əsasən yüngül təşviş pozuntusu olaraq qiymətləndirilmişdir (Standart yayınma əmsalı:13,88±8,90). Müəlliflər təşviş pozuntusu, depressiya və həyat keyfiyyəti göstəriciləri arası neqativ korelyasiya müəyyən etmişlər. Depressiya və təşviş pozuntuları həyat keyfiyyəti göstəricilərinə mənfi təsir göstərir.

Yaş artdıqca və həyat yoldaşı olmadan yaşamaq da öz növbəsində zəif həyat keyfiyyəti göstəricilərinə səbəb olur [9,10]. Yalnız təhsil səviyyəsi ilə həyat keyfiyyəti göstəriciləri arası əlaqə aşkar edilməmişdir. Müəlliflər beta əmsalı ilə depressiya və həyat yoldaşının itirilməsi amilinin həyat keyfiyyəti göstəricilərinə mənfi təsir etdiyini bildirmiş, məhz ailə amilinin həyat keyfiyyətinə vacib təsiri, yaşlılarda yalnızlıq və cəmiyyətdən təcrid olmanın qarşısı alması fikrini isə əvvəlki müəlliflərə istinadən bir daha vurğulamışlar [11, s.2198]. Sosial iqtisadi vəziyyət, gəlir səviyyəsi ilə həyat keyfiyyəti göstərici arası asılılıq İrlandiya tədqiqatçıları tərəfindən də müəyyən edilmişdir [12, s.12-14]. Sağlamlıq amilinin, uzun müddətli xronik xəstəliklərdən əziyyət çəkmə halları ilə həyat keyfiyyəti göstəriciləri arası əlaqə əvvəlki digər müəlliflər tərəfindən də qeydə alınmışdır [12, s. 13].

İngiltərədə aparılan uzunmüddətli tədqiqat işində isə yaşlılarda müstəqillik amilinin azalması həyat keyfiyyəti göstəricilərinin də aşağı düşməsinə səbəb olur qənaətinə gəlinmişdir. Oxşar nəticələr bir çox inkişaf etmiş ölkələrdə aparılan bir başqa tədqiqatda da əksini tapmışdır.

Nəticə. Yaşlıların psixoloji rifahının yaxşılaşdırılması müstəqillik, məqsəd və həyat məmnuniyyətini inkişaf etdirmək üçün sosial, fiziki və emosional ehtiyacları qarşılayan vahid bir yanaşma tələb edir. Əsas amillər güclü sosial əlaqələr, tənhalığın azaldılması və mənalı fəaliyyətlərlə məşğul olmaqdır. Psixi sağlamlıq xidmətlərinə, fiziki sağlamlığa və koqnitiv bacarıqların stimullaşdırılmasına üstünlük vermək psixoloji sağlamlıqla bağlı problemlərin qarşısını almaq və həyat keyfiyyətini artırmağa kömək edir.

Yaşlıların psixoloji rifahının əsas komponentləri:

– Sosial əlaqələr: İcma, ailə və sosial qruplar vasitəsilə aktiv iştirak tənhalığı azaltmaq üçün vacibdir.

– Məzmun və məna kəsb edən fəaliyyət: Könüllülükdə, hobbilərdə və ya təhsildə iştirak məqsəd və məmnunluq hissi yaradır.

– Fiziki sağlamlığın nəzarətdə saxlanması: Mütəmadi məşq, düzgün qidalanma və xroniki xəstəliklərin idarə edilməsi birbaşa daha yaxşı psixoloji sağlamlıqla bağlıdır.

– Emosional və koqnitiv dəstək: Məsləhət kimi ruhi sağlamlıq xidmətlərinə çıxış, yaşlı yetkinlərdə narahatlıq və depressiyanın müalicəsi üçün təsirlidir.

– Azadlıq və təhlükəsizlik: Təhlükəsiz, rahat və müstəqil yaşayış mühiti şəxsin rifah halına kömək edir.

Ümumi çətinliklər nələrdir? İlk olaraq tənhalıq və sosial təcrid xüsusi qeyd edilir. Sosial təcrid rifah halının ağırlaşması üçün əsas risk faktoru. Digər məqam isə rol dəyişiklikləri ilə bağlıdır. Təqaüdə çıxma və məqsəd

itkisi, bu da çətinliyə səbəb ola bilər. Həmçinin həyat yoldaşlarının və ya həmyaşıdlarının itkisi ilə mübarizə aparmaq, bu da ağır tənhalığa səbəb ola bilər.

Müəlliflər qeyd edir ki, yaşlı əhali psixoloji terapiyalara çox yaxşı cavab verirlər, çox vaxt gənc əhaliyə nisbətən daha effektiv nəticələr əldə etmək olur. Bu səbəbdən sosial və psixoloji tədbirlərin aparılması xüsusi olaraq vurğulanır.

Tədqiqatın məhdud tərəfləri olaraq qeyd etmək lazımdır ki, hazırlanmış məqalə beynəlxalq təcrübəyə istinad edir. Gələcəkdə bu sahədə geniş miqyaslı sorğular aparılaraq tədqiqatlara əsaslanan araşdırmalara ehtiyac vardır.

Problemin aktuallığı. Bu gün dünyada və ölkəmizdə geriatrik psixologiya elmi və bu aspektdə aparılan geniş tədqiqatlar xüsusi vüsət alır. Yaşlı əha linin sayının artması öz növbəsində bir sıra problemlərin və sualların yaranmasına gətirib çıxarır. Məhz bu səbəbdən də onların rifah halının tədqiqi və öyrənilməsi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Qeyd etmək lazımdır ki, yaşlı əhalinin rifah halının öyrənilməsinə dair ölkəmizdə çox az sayda tədqiqat və araşdırılmalar aparılıb. Bu tədqiqatda müqayisə təhlil təqdim edilmişdir.

Problemin praktik əhəmiyyəti. tədqiqat və araşdırılmış məqalələr bu sahədə çalışan, tədqiqat aparan tələbə və xidmət işçiləri üçün xüsusi maraq kəsb edə bilər.

Ədəbiyyat

1. Ümumdünya Səhiyyə Təşkilatı//- 2025 https://www.who.int/tools/whoqol
2. Huppert, F. A., & So, T. T. C. Flourishing across Europe: Application of a new conceptual framework for defining well-being // Social Indicators Research, -2013. 110(3), -p. 837–861.
3. Li, N., & He, M. Intergenerational support and subjective wellbeing of the elderly in Mainland China: The role of perceived health. //SAGE Open, 13(2). -2023 https://doi.org/10.1177/215824402311590
4. Bai, Z., Li, Y., & Shao, T. Community-based interventions for older adults: Effects on health and well-being outcomes// – A systematic review. Frontiers in Public Health, 2025-13, 1378902. https://doi.org/10.3389/fpubh.2025.1378902
5. Bowling, A. Development and validation of the Older People's Quality of Life Questionnaire (OPQOL). //Journal of Epidemiology and Community Health, -2009-63(12), 921–926. https://doi.org/10.1136/jech.2009.087452
6. Gupta A, Mohan U, Singh SK, Manar MK, Tiwari SC, Singh VK. Home away from Home: Quality of Life, Assessment of Facilities and Reason for Settlement in Old Age Homes of Lucknow, India.//- Indian Journal of Community Health [Internet]. – 2014-26(2):165-169. https:// www.iapsmupuk.org/journal/index.php/IJCH/article/view/396
7. Fenol, V., Ünalan, D., Soyuer, F., & Argün, M. Research Article The Relationship between Health Promoting Behaviors and Quality of Life in Nursing Home Residents in Kayseri.//-Journal of Geriatrics- 2014. P.1-9. http://dx.doi.org/10.1155/2014/839685

8. Bowling, A., & Stenner, P. Validation of a short measure of quality of life for older people: The OPQOL-brief. //- The Gerontologist, 2011-51(4), 524–537. https://doi.org/10.1093/geront/gnr030
9. Chang, E.-S., Kannoth, S., Levy, S., Wang, S.-Y., Lee, J. E., & Levy, B. R. Ageism and psychological well-being among older adults: A systematic review. //-The Gerontologist, 2020-60(3), p.513–e533. https://doi.org/10.1093/geront/gnz153
10. Hyde, M., Wiggins, R. D., Higgs, P., & Blane, D. B. Developing and validating a measure of quality of life in early old age: The CASP-19. //-Ageing and Mental Health, -2023-7(3), 186–194. https://doi.org/10.1080/1360786031000101157
11. Power, M., Quinn, K., & Schmidt, S. The WHOQOL-OLD module: Development and psychometric properties. //-Quality of Life Research, 2005-14(10), p.2197–2214. https://doi.org/10.1007/s11336-005-7380-9
12. Ryff, C. D. Psychological well-being revisited: Advances in the science and practice of eudaimonia. //- Psychotherapy and Psychosomatics, 2014- 83(1), 10–28. https://doi.org/10.1159/000353263
13. Stoner, C. R., Orrell, M., & Spector, A. Measuring the well-being of people with dementia: A conceptual scoping review. //-Health and Quality of Life Outcomes, 2019-17, p.19-35. https://doi.org/10.1186/s12955-019-1080-3

Redaksiyaya daxil olub: 04.03.2026

MÜNDƏRİCAT
CONTENTS
ОГЛАВЛЕНИЕ

BAŞ REDAKTORDAN
FROM THE EDITOR-IN-CHIEF
ОТ ГЛАВНОГО РЕДАКТОРА

PROFESSOR HÜSEYN MUSTAFA OĞLU ƏHMƏDOV – 100
PROFESSOR HUSEYN MUSTAFA AHMADOV–100
ПРОФЕССОР ГУСЕЙН МУСТАФА ОГЛУ АХМЕДОВ –100

Akif Abbasov
Azərbaycanda pedaqogika elminin inkişafında mühüm rol oynamış alim: akademik Hüseyn Əhmədov
A scholar who played an important role in the development of pedagogical science in Azerbaijan: Academician Huseyn Ahmadov 5
Учёный, сыгравший важную роль в развитии педагогической науки в Азербайджане: академик Гусейн Ахмедов

PROFESSOR NURƏDDIN MUSTAFA OĞLU KAZIMOV – 100
PROFESSOR NUREDDIN MUSTAFA KAZIMOV – 100
ПРОФЕССОР НУРАДДИН МУСТАФА ОГЛУ КАЗЫМОВ – 100

Akif Abbasov, **Rəhiməxanım Məmmədzadə**
100 illiyin işığında
In the light for 100 years 11
В свете столетия

ÜMUMPEDAQOJİ PROBLEMLƏR
GENERAL PEDAGOGICAL PROBLEMS
ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

Hümeyir Əhmədov, **Lalə Məmmədli, Pərvin Əlizadə**
Türkoloji qurultay və türk dünyasında təhsilin elmi-metodoloji əsaslarının formalaşması
(1926-2026: yüzillik perspektivdə elmi-pedaqoji təhlil)
Turkological congress and formation of scientific-methodological bases of education in the turkish world (1926-2026: scientific-pedagogical analysis in a centennial perspective) 16
Тюркологический конгресс и формирование научно-методологических основ образования в тюркском мире (1926-2026: научно-педагогический анализ в столетней перспективе)

İlham Cavadov
Təhsilin keyfiyyətinin təmin olunmasının nəzəri, pedaqoji və praktik əsasları: strategiyalar və tətbiq imkanlar
Theoretical, pedagogical and practical foundations of ensuring quality education: 22
strategies and implementation oppprtunities
Теоретические, педагогические и практические основы обеспечения качества образования: стратегии и возможности внедрения

Sahib Məmmədov, İlahə Əmrahzadə
Ümumtəhsil məktəblərində şagirdlərin psixoloji sağlamlığı və fərdi təhsil məsələləri
Psychologıcal health of students and ıssues of ındıvıdual educatıon ın general educatıon schools 26
Психологическое здоровье учащихся и вопросы индивидуального обучения в
общеобразовательных школах

Çinarə Qəhrəmanova
İqtisadçı kadrların hazırlanmasında işgüzar kommunikasiyanın rolu və mövcud problemlər
The role of business communication in the training of economic specialists and exiting problems 30
Роль деловой коммуникации в подготовке экономических кадров и существующие проблемы

Elnurə Səfərova, Günel Məmmədova
Pedaqoji təcrübənin təşkilində STEAM və ənənəvi metodologiyaların nəticələrinin qiymətləndirilməsi
Evaluation of the results of applying STEAM and traditional methodologies in the organization of pedagogical practice 37
Оценивание результатов применения STEAM и традиционных методологий в организации педагогической практики

Afət Şövkət qızı Namətova
Ekoloji təhsil müasir pedaqoji prosesin prioritet istiqaməti kimi
Environmental education as a priority direction of the modern pedagogical process 41
Экологическое образование как приоритетное направление современного педагогического процесса

Elvin Səmədov, Əbdüləzim Talıbi
Təhsildə məqsəd və metodikanın əhəmiyyəti
The importance of goals and methodological approaches in educationt 45
Важность целей и методики в образовании

Səadət Vaqif qızı Mənəfova
Məktəblilərin şəxsiyyətinin formalaşmasinda müasir pedaqogikanin rolu
The role of modern pedagogy in the formation of school students' personality 52
Роль современной педагогики в формировании личности школьников

METODİKA: FƏNLƏRİN TƏDRİSİ
METHODOLOGY: TEACHING SUBJECTS
МЕТОДИКА: ПРЕПОДАВАНИЕ ПРЕДМЕТОВ

Aytən Süleymanova
V-IX siniflərdə interaktiv metodların sistemli tətbiqi əsasında təlim prosesinin səmərəliliyinin artırılması
Improving the efficiency of the teaching process through the systematic application of interactive methods in grades V-IX 58
Повышение эффективности учебного процесса посредством систематического применения интерактивных методов в V-IX классах

Mətanət Həsənova
Öyrənmədə müvəffəqiyyəti müəyyən edən daxili və xarici amillər
Internal and external factors that determine success in learning 69
Внутренние и внешние факторы, определяющие успех в обучении

FƏNLƏRARASI İNTEQRASİYA

INTER-SUBJECT INTEGRATION
МЕЖДИСЦИПЛИНАРНАЯ ИНТЕГРАЦИЯ

Günay Nağıyeva
Vətəndaşlıq keyfiyyətlərinin formalaşması üçün pedaqoji əsas kimi fənlərarası inteqrasiya
Interdisciplinary integration as a pedagogical basis for forming citizenship qualities 74
Междисциплинарная интеграция как педагогическая основа формирования гражданских качеств

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING THE AZERBAIJANI LANGUAGE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Səminə Abdullayeva
Azərbaycan dilində nisbi məhdud işlənən sözlərin norması
The norm of relatively limited-use words in the Azerbaijani language 80
Норма относительно ограниченно- употребляемых слов в азербайджанском языке

ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING LITERATURE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ЛИТЕРАТУРЫ

Xəyalə Qəhrəmanova
Ədəbiyyat fənnində simuliyasiya əsaslı tədrisin şagird bacarıqlarına müsbət təsiri
The positive impact of simulation-based teaching in literature on student skills 86
Положительное влияние симуляционного обучения на развитие навыков учащихся в преподавании литературы

TARİXİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING HISTORY
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ

Sevil Bəhrəmova
Tarixin məzmun xətləri əsasında tədrisin əhəmiyyəti
The importance of teaching history based on content lines 90
Значение преподавания истории на основе содержательных линий

Leyla Orucova
Ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisinin şəxsiyyətin formalaşmasında rolu
The role of integrative teaching of Azerbaijan history with the history of other turkish peoples and states in higher schools in the formation of personality 96
Роль интегративного преподавания в высших учебных заведениях истории Азербайджана с историей других тюркских народов и государств в формировании личности

RİYAZİYYATIN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHİNG MATHEMATİCS
МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ

Vüsalə Məmmədova, Ülviyyə Əliyeva 101
Bakalavriat səviyyəsində məntiq məsələlərinin tədrisi metodikası: analitik və tənqidi düşüncənin elmi əsasları

Methodology of teaching logic problems at the undergraduate level: scientific foundations of analytical and critical thinking
Методика преподавания логических задач на уровне бакалавриата: научные основы аналитического и критического мышления

XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING FOREIGN LANGUAGES
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ

Günay Şirəliyeva
Yuxarı kurslarda məzmunla ingilis dilinin inteqrasiyası: **CLIL** modelinin tədris strategiyaları və çağırışları
Integration of english with content in higher courses: teaching strategies and challenges of the **CLIL** model 107
Интеграция английского языка с предметным содержанием на старших курсах: стратегии преподавания и вызовы модели **CLIL**

FİZİKİ TƏRBİYƏNİN, İDMAN TƏLİMİNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI
THEORY AND METHODOLOGY OF PHYSICAL UPBRİNGİNG AND SPORTS TRAINING
ТЕОРИЯ И МЕТОДОЛОГИЯ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ И СПОРТИВНОЙ ПОДГОТОВКИ

Gülbaba Quliyev
Fiziki tərbiyə prosesində şagirdlərin gigiyena mədəniyyətinin mahiyyəti, məqsədi və vəzifələləri
The essence, purpose and objectives of hygienic culture schoolchildren in the process of physical education 114
Сущность, цель и задачи гигиенической культуры школьников в процессе физического воспитания

TƏRBİYƏ MƏSƏLƏLƏRİ
EDUCATIONAL ISSUES
ВОПРОСЫ ВОСПИТАНИЯ

Lalə Məmmədli
Fəal həyat mövqeyinə yiyələnməyin vacibliyi
The importance of making an active life position 119
Важность выбора активной жизненной позиции

Adilə Nəzərova
Mənəvi tərbiyə və mərhələli inkişaf: İmam qəzali modeli müasir pedaqogikada
Spiritual education and staged development: Imam ghazali's model in modern pedagogy 123
Духовное воспитание и поэтапное развитие: модель Имама Газали в современной педагогике

Əsmət İsmayılxanova
Yeniyetmə və gənclərdə milli-mənlik şüurunun formalaşdırılması
Shaping national self-consciousness among teenagers and youth 128
Формирование национального самосознания у подростков и молодёжи

Gülşən Həsənova 133
Pedaqoji kadr hazirliğinda humanist dəyərlərin formalaşdirilmasi problemi
The problem of forming humanistic values in teacher training
Проблема формирования гуманистических ценностей в подготовке

педагогических кадров

MƏKTƏBƏQƏDƏR TƏHSİL
PRESCHOOL EDUCATION
ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ

Gülxar Quliyeva
Məktəb təliminə hazırlıq dövründə uşaqların estetik - yaradıcı inkişafı
Aesthetic creative development of children during the period of preparation for school education 137
Эстетико-творческое развитие детей в период подготовки к школьному обучению

İBTİDAİ TƏHSİLİN PEDAQOGİKASI VƏ METODİKASI
PEDAGOGY AND METHODS OF PRIMARY EDUCATION
ПЕДАГОГИКА И МЕТОДИКА НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ

Məhbubə Məmmədova
Müasir pedaqoji ideyalara əsasən ibtidai təhsil prosesinin təşkili və inkişaf istiqamətləri
Organızatıon and development dırectıons of the prımary educatıon process based on modern pedagogical ideas 142
Организация и направления развития процесса начального образования на основе современных педагогических идей

Hafiz Əliyev
Şagirdin özünənəzarəti və daxili təşkilatlanması ibtidai sinifdə yaranmaqda olan münaqişələrin qarşısının alınmasının amillərindən biri kimi
Self-discipline and internal organization of a student as one of the factors in preventing emerging conflicts in primary school 147
Самодисциплина и внутренняя организованность учащегося как один из факторов
предотвращения зарождающихся конфликтов в начальных классах

Xatirə Qocayeva
İbtidai sinif şagirdlərinin öyrənmə motivasiyasının yüksəldilməsində oyun əsaslı təlim metodlarının tətbiqi
The application of game-based learning methods in increasing the learning motivation of primary school students 153
Применение игровых методов обучения в повышении учебной мотивации учащихся начальных классов

Günel Məmmədova
“İbtidai sinif müəllimi” ixtisası üzrə təhsil alan tələbələrdə tədqiqat bacarıqlarının inkişafında ali təhsil müəllimlərinin nəzəri və metodoloji hazırlığının rolu
The role of theoretical and methodological training of higher education ınstructors in the development of research skills of students specializing in primary school teaching 157
Роль теоретической и методической подготовки преподавателей высших учебных заведений в развитии исследовательских навыков у студентов, обучающихся по специальности «Учитель начальных классов»

ALİ MƏKTƏB PEDAQOGİKASI
PEDAGOGY OF HIGHER EDUCATION
ПЕДАГОГИКА ВЫСШЕЙ ШКОЛЫ

Lalə Əbilova
Ailə-məktəb əməkdaşlığının müasir modeli
A modern model of family-school cooperation 163
Современная модель сотрудничества семьи и школы

Mailxan Abdin
Əsas beynəlxalq universitet reytinqlərinin müqayisəli metodoloji təhlili (QS, THE, ARWU)
Comparative methodological analysis of the major international universıty rankings (QS, THE, ARWU) 168
Сравнительный методологический анализ основных международных рейтингов университетов (QS, THE, ARWU)

Xavərxanım Bakıxanova
Ali təhsil müəssisələrində tələbələrin sosio-emosional kompetensiyalarının inkişafı
Development of students' socıo-emotional competences in higher educational institutions 175
Развитие социо-эмоциональных компетенций студентов в высших учебных заведениях

MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ
HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT
ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ

Təranə Paşayeva
Səfərəli Bəy Vəlibəyovun pedaqoji irsində oxuyub anlama bacarıqlarının inkişafı
Development of reading comprehension skills in Safaralı Bay Valıbayov’s pedagogical heritage 180
Развитие навыков понимания прочитанного в педагогическом наследии Сафарали-бека Велибекова

TƏHSİLDƏ SÜNİ İNTELLEKT PROBLEMİ
THE PROBLEM OF ARTIFICIAL INTELLIGENCE IN EDUCATION
ПРОБЛЕМА ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ОБРАЗОВАНИИ

Mehriban Həsənova
Müəllimlərin pedaqoji səriştələrinin süni intellekt dəstəyi ilə inkişafı
Development of teachers' pedagogical competencies through artificial intelligence support 184
Развитие педагогических компетенций учителей при поддержке искусственного интеллекта

Fidan Əskərova
Təhsil 4.0 və süni intellekt əsaslı təlim texnologiyalarının bakalavr səviyyəsində tətbiqi
Application of education 4.0 and artificial intelligence-based educational technologies at the bachelor's level 191
Применение Образования 4.0 и обучающих технологий на основе искусственного интеллекта на уровне бакалавра

İNFORMASİYA MƏDƏNİYYƏTİ VƏ TEXNOLOJİ SAVADLILIQ
INFORMATION CULTURE AND TECHNOLOGICAL LITERACY
ИНФОРМАЦИОННАЯ КУЛЬТУРА И ТЕХНОЛОГИЧЕСКАЯ ГРАМОТНОСТЬ

Firədun İbrahimov, Sevinc Kərimova
İnformasiya mədəniyyətinin və texnoloji savadlılığın subyektinə məxsus bacarıqların şagirdlərdə formalaşdırılması mühitinin tənzimlənməsi
Regulation of the environment for developing students’ skills related to information culture and technological literacy 195
Регулирование среды формирования у учащихся навыков, относящихся к субъекту информационной культуры и технологической грамотности

RƏQƏMSAL BACARIQLAR VƏ TEXNOLOGİYALAR
DIGITAL SKILLS AND TECHNOLOGY
ЦИФРОВЫЕ НАВЫКИ И ТЕХНОЛОГИИ

Gülnarə Abdulazimova
Azərbaycanda təhsildə rəqəmsal transformasiyanın təsiri: imkanlar və çağırışlar
The impact of digital transformation on education in Azerbaıjan: opportunities and challenges 205
Влияние цифровой трансформации на образование в Азербайджане: возможности и вызовы

İNNOVATİV İNKİŞAF MODELİ
INNOVATIVE DEVELOPMENT MODEL
ИННОВАЦИОННАЯ МОДЕЛЬ РАЗВИТИЯ

Sevda Axundova
Heydər Əliyevin təhsil konsepsiyası əsasında orta ixtisas təhsil müəssisələrinin innovativ inkişaf modeli
Innovatıve development model of secondary specıalızed educatıon ınstıtutıons based on Heydar Alıyev’s educatıonal concept 210
Инновационная модель развития средних специальных учебных заведений на основе образовательной концепции Гейдара Алиева

TƏHSİLİN İDARƏOLUNMASI MƏSƏLƏLƏRİ
ISSUES OF EDUCATION MANAGEMENT
ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ

Ruhiyyə Mehdiyeva
Təhsil mühitinin idarə edilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir edən əsas amillər
Management of the educational environment and the main factors affecting the improvement of education quality 217
Управление образовательной средой и основные факторы, влияющие на повышение качества образования

PSİXOLOGİYA
PSYCHOLOGY
ПСИХОЛОГИЯ

Məhərrəm Əliyev
Gənclər arasında intihara meyilliliyin ümidsizlik və depressiya ilə əlaqəsi
The relationship between suicidal tendencies among youth with hopelessness and depression 221
Связь между склонностью к самоубийству среди молодежи с безнадежностью и депрессией

Validə Əliyeva
Modernləşmə prosesində ünsiyyətin rolu və sosial-psixoloji dəyişikliklər
The role of communication in the process of modernization and socio-psychological changes 228
Роль общения в процессе модернизации и социально-психологические изменения

Səbinə Hikmət qızı Əlizadə
Muğam ifasi zamani xanəndənin tamaşaçiya sosial-psixoloji təsiri
The socio-psychological impact of the singer on the auidience during mugham performance 233
Социально-психологическое восдействие певца на публику во время исполнения мугама

İNKLÜZİV TƏHSİL, KORREKSİYA PEDAQOGİKASI, KORREKSİYA PSİXOLOGİYASI
INCLUSIVE EDUCATION, CORRECTIONAL PEDAGOGY, CORRECTIONAL PSYCHOLOGY
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ, КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА, КОРРЕКЦИОННАЯ ПСИХОЛОГИЯ

Naila Hüseynova
Uşaq serebral iflici zamanı dizartriya və artikulyasiya pozuntularının loqopedik korreksiyası
Logopedic correction of dysarthria and articulation disorders in children with cerebral palsy 237
Логопедическая коррекция дизартрии и артикуляционных нарушений у детей с детским церебральным параличом

AUTİZM MƏSƏLƏLƏRİ
AUTISM ISSUES
ПРОБЛЕМЫ АУТИЗМА

Ümit Ölmez Ali
Autizm spektr pozuntulu uşaqların məktəbəqədər təhsildən orta təhsilə keçid dövrünün təhlili
Analysis of the transition period from preschool to secondary educatıon for children with autism spectrum disorders 243
Анализ переходного периода детей с расстройствами аутистического спектра от дошкольного образования к среднему образованию

AHILLARLA SOSİAL İŞ FƏNNİNİN TƏDRİSİ
TEACHING SOCIAL WORK WITH ELDERLY PEOPLE
ПРЕПОДАВАНИЕ ДИСЦИПЛИНЫ СОЦИАЛЬНАЯ РАБОТА С ПОЖИЛЫМИ ЛЮДЬМИ

Zümrüd Abdullayeva
Yaşlı əhalinin rifah probleminin beynəlxalq təcrübələrə əsasən təhlili
Analysis of the problem of the well-beıng of the elderly population based on international experience 247
Анализ проблемы благополучия пожилого населения на основе международного опыта

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ

Jurnalımızın son səhifələrində azərbaycanca, rusca və ingilis dilində "Məqalələrin yazılışına verilən tələbləri‖ əks etdirmişik. Bəzi müəlliflər həmin tələbləri ciddi şəkildə nəzərə aldıqları halda digər müəlliflər mövcud qaydaları gözləmədən redaksiyaya məqalə gətirir, yaxud elektron poçtla göndərirlər. Bu isə, o deməkdir ki, təqdim olunan məqalə işlənmək üçün geri qaytarılmalı, yaxud da redaksiya tərəfindən redaktə edilməlidir.

Belə məqalələr, adətən zəif olur, özündə elmi ideya əks etdirmir, təsviri xarakter daşıyır, məqalənin sonunda verilən ədəbiyyat siyahısı da necə gəldi formalaşdırılır.

2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının yeni Əsasnaməsi təsdiq olunmuş, dissertasiyaların, avtoreferatların, ədəbiyyat siyahısının tərtibinə yeni tələblər verilmişdir.

Ölkəmizdə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərdə öz məqalələrini görmək istəyən alimlər, gənc tədqiqatçılar – doktorantlar və dissertantlar "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i ilə tanış olmalı, həm dissertasiyalarında, həm məqalələrində, həm də konfrans materiallarında mövcud tələbləri nəzərə almalıdırlar.

"İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i aşağıdakı bölmələrə ayrılır: nəşrin növü; biblioqrafik təsvirin forması; nümunələr.

Tələblərə diqqət yetirək:

Çoxcildli nəşrlər belə yazılır: 1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 45. 2013. – 384 s.

2. Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H. Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.

Müəllifi göstərilməyən nəşrlər: Azərbaycan bayatıları / tərt. ed. B.Abdulla – Bakı: XXI Yeni nəşrlər evi, – 2004. – 304 s.

Müəllifi dörd nəfərədək olan nəşrlər, o cümlədən bir müəllifli nəşrlər:

Əlizadə, Ə.Ə. Qadın psixologiyası: Fəlsəfi-psixoloji esselər / Ə.Ə. Əlizadə. – Bakı: Təhsil, – 2015. – 416 s.

İki və üç müəllifli nəşrlər:

Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Dərs vəsaiti. / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021. – 608 s.

Müəllifi dörd və daha çox olan nəşrlər. Dörd və beş müəllifli nəşrlər: Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti / Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.İ. Eminov [və b.] – Bakı: Adiloğlu, – 2003. – s. 48

Beşdən çox müəllifli nəşrlər:

Kurikulum bələdçisi: İzahlar və tətbiqlər / Ə.M. Abbasov [və b.] – Bakı: Elm və təhsil, – 2019. – 320 s.

Jurnal məqalələri: Məmmədli L.A. Şagirdlərin milli qəhrəmanların nümunəsində tərbiyə olunması // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2020. № 6, – s. 59-62.

Müəllifi üçdən çox olan jurnal məqalələri:

Rüstəmov, Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə. Rüstəmov, İ.A. Yolçuyev, Ə.T. Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.

Konfrans materialları: Аббасов, А.Н. Подготовка подростков и молодежи к семейной жизни // Материалы 66-й Международной научно-практической конференции на тему: «Актуальные вопросы науки», Москва: Спутник: -10 августа 2020, с. 33-37

Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 89 , № 6, 2022, № 5

Dissertasiyalar: Əmirəliyeva, İ.B. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2013. – 147 s.

Dissertasiyanın avtoreferatı: Əliyev, R.S. Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / - Bakı, 2003. - 29 s.; 218

Scientific Works of the Institute of Education of the Republic of Azerbaijan, Volume: 90, Number: 2, 2023

Elektron resurslar: Меликов, А. Легенда о любви [Звукозапись] / – Баку, 1994. – CDROM. Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T. Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm

Normativ-hüquqi sənədlər: Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.

Qəzet məqalələri: Abbasov, A.N. Pedaqoji internatura // Azərbaycan müəllimi. -2020, 22 avqust. – s. 6

Arxiv materialları: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq 1.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Elmi əsərlər"inə pedaqogikanın, təhsil, təlim və tərbiyənin, didaktikanın, təhsilin idarə olunmasının müxtəlif məsələləri ilə bağlı məqalə yazan alimlərə, gənc tədqiqatçılara xahişimiz budur ki, istifadə edilmiş ədəbiyyatın siyahısını hazırlayarkən yuxarıda göstərilən qaydalara əməl etsinlər.

TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ TƏLƏBLƏR

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalələrdə öz əksini tapan fikirlər müəlliflərə aid olmalıdır. İstifadə edilmiş fotolar açıq mənbələrdən götürülməlidir. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması məqalə müəlliflərinin məsuliyyətindədir.
4. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
5. Təqdim olunan məqalələrdə müəlliflərə aid Orcid öz əksini tapmalıdır.
6. Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir Hər məqaləyə adları çəkilən dillərdə xülasələr və açar sözlər yazılır. Xülasədə irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
7. Məqalələr Azərbaycan. dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman - 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (filəşkartda) təqdim olunmalıdır.
8. Məqalə A4 formatında hazırlanmalı, səhifə kənarları aşağıdakı kimi müəyyən edilməlidir: sol kənar – 3 sm, sağ kənar – 1,5 sm, yuxarı və aşağı kənarlar – hər biri 2 sm.
9. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə müəllif(lər)in adı, atasının adı və soyadı; ikinci sətirdə elmi dərəcəsi və elmi adı (yaxud doktorant də dissertant olması və s.); üçüncü sətirdə iş yeri, vəzifəsi; dördüncü sətirdə böyük hərflərlə məqalənin adı. Daha sonra bu qaydada həmin məlumatlar rus və ingilis dillərində təkrar edilir.
10. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
11. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və ümumtəhsil, yaxud orta ixtisas təhsili müəssisəsinin pedaqoji şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
12. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
13. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

14. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
15. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
16. Daha sonra istinad olunmuş ədəbiyyatın siyahısı verilir.
17. Məqalə müəlliflərinin hüquqları qorunur.
18. Jurnalda “ardı növbəti nömrədə” adı altında seriya məqalələr dərc olunmur.
19. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.
20. Təqdim olunan məqalələrdə Web of Science və ya SCOPUS bazasında yerləşən jurnalların ayrı-ayrı nömrələrində və eyni zamanda Azərbaycan Respublikasının Təhsil İnstitutun Elmi əsərlərinin müxtəlif nömrələrində dərc olunmuş məqalələrə istinadlar vacibdir.
21. Məqalənin sonunda rəyçilərin adı, atasının adı və soy adı, elmi dərəcəsi və elmi adı; sonrakı sətirdə məqalə müəllifinin elektron ünvanı (E-mail) göstərilməlidir.
22. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar əlavə olunur: məqalə müəllif (lər)inin adı, atasının adı soyadı, işlədiyi müəssisə (hansı müəssisədə doktorant və dissertant olması) və müəssisənin ünvanı, müəllif(lər)in vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ev ünvanı, elektron poçt ünvanı (Email).

REQUIREMENTS FOR SUBMITTED ARTICLES

1. Submitted articles should not be published or accepted for publication in other editions.
2. Articles should reflect the results of recent research, be rich in new ideas and they must comply with the requirements for writing scientific articles.
3. The opinions reflected in the articles should belong to the authors. The used photo materials must be taken from open sources. Ensuring compliance with anti-plagiarism and other research ethics requirements is the responsibility of the article authors.
4. When the facts of plagiarism are discovered, the publication of the article is stopped.
5. Submitted articles must include the ORCID of the authors.
6. The text of the article should be about 6-8 pages. Keywords for the article should be presented in three languages: Azerbaijani, Russian and English.
7. The text of the article should be presented on the flash card together with the electronic version, with an interval of 1.5; 14 point Times New Roman font - Latin alphabet in Azerbaijani, Cyrillic in Russian, and English alphabet (USA) in English.
8. Articles are published in one of three languages - Azerbaijani, Russian and English. A summary of the article is provided in 3 languages (Azerbaijani, Russian and English). The article should reflect the main scientific provisions presented in the summary, the conclusions drawn from the study, the theoretical and practical significance of the problem should be presented. The article must be prepared in A4 format, the page margins must be defined as follows: left margin – 3 cm, right margin – 1.5 cm, top and bottom margins – 2 cm each.
9. The article is written in the following order: on the first line the name, surname and patronymic of the author (s); the second line contains the academic degree and academic title (doctoral student or candidate for a degree, etc.); the third line indicates the place of work, position; the fourth line represents the title of the article in capital letters. Then in this order the same information is repeated in Russian and English.
10. It is undesirable to have more than three co-authors.
11. The Editorial Board has the right to make changes and reductions in the article.
12. Two expert reviews should be provided together with the article: heads of department or chair, as well as extract from the protocol of Academic Council of the higher school and the Pedagogical Council of general or secondary special education institutions.
13. The authors of the article are responsible for the accuracy of the facts and information provided in the article. The proposed scientific provisions should belong to the author and the source of used theoretical ideas must be indicated.
14. The articles should refer to works published in the last 5-10 years. The list of references given at the end of the article should not be numbered in alphabetical order, but in the order in which the indicated literature appears in the text, for example [1] or [1, p. 119]. If the same literature is repeated elsewhere in the text, then the same literature should be indicated under the previous number.
15. The journal publishes articles related to its profile.
16. At the end of a scientific article, the relevance should be justified according to the nature of the article and the area of science, scientific novelty, importance of its application, economic efficiency, etc. should be clearly indicated.
17. Then a list of references is provided.
18. The rights of the authors of the article are protected.
19. The journal does not publish a series of articles under the heading “continued in the next issue”.

20. Summary of articles in different languages should be the same and consistent with the content of the article.

21. In the presented articles, references to articles published in individual issues of journals included in the Scopus and Web of Science database, as well as in various issues of the Institute of Education of the Republic of Azerbaijan's scientific papers, are important.

22. At the end of the article the name, patronymic and last name of the reviewers, their academic degree and academic title should be indicated; the next line should contain the email address of the author of the article.

23. The following information about the author is added to the article: name, surname, patronymic of the author (authors), the institution where he works (doctoral student or candidate for a degree), address of the institution, position, academic degree and the title of the author (s), home and work phones, home address, email address.

ТРЕБОВАНИЯ К ПРЕДСТАВЛЕННЫМ СТАТЬЯМ

1. Принимаются статьи, не представленные в других редакциях.

2. Статьи должны отражать результаты последних исследований, быть богатыми новыми идеями, в них должны быть соблюдены требования, предъявляемые написанию научных статей.

3. Идеи, отраженные в статьях, должны принадлежать авторам. Используемые фотоматериалы должны быть взяты из открытых источников. Авторы статьи несут ответственность за соблюдение антиплагиатных и других требований исследовательской этики.

4. При обнаружении фактов плагиата публикация статьи прекращается.

5. В представленных статьях должен быть указан ORCID авторов.

6. Текст статьи должен составлять восемь и более страниц. Ключевые слова для статьи должны быть представлены на трех языках: азербайджанском, русском и английском.

7. Текст статьи должен быть представлен на флеш-карте вместе с электронным вариантом, с интервалом 1,5; шрифтом 14 Times New Roman - латинского алфавита на азербайджанском языке, кириллицы на русском языке, и английским алфавитом (США) на английском языке

8. Статья должна быть подготовлена в формате A4, поля страниц должны быть определены следующим образом: левое поле – 3 см, правое поле – 1,5 см, верхнее и нижнее поле – по 2 см каждое.

9. Статьи публикуются на одном из трех языков - азербайджанском, русском и английском. Резюме статьи предоставлено на 3 языках (азербайджанском, русском и английском). В статье должны быть отражены основные научные положения, изложенные в резюме, выводы, сделанные из исследования, должна быть представлена теоретическая и практическая значимость проблемы.

10. Статья должна быть написана в следующем порядке: на первой строке имя, фамилия и отчество автора (авторов); вторая строка содержит ученую степень и ученое звание (диссертант или докторант и т. д.); третья строка указывает место работы, должность; на четвертой строке представлено название статьи прописными буквами. Затем эта же информация повторяется на русском и английском языках.

11. Нежелательно иметь более трех соавторов.

12. Редакция имеет право вносить необходимые изменения, сокращения и правки в статью. Статьи сопровождаются отзывами двух специалистов, выдержками из протоколов заседаний кафедры или факультета, а также Ученого совета высшего учебного заведения и педагогического совета общеобразовательного или среднего специализированного учебного заведения.

13. Авторы статьи несут ответственность за достоверность приведенных в статье фактов и информации. Предлагаемые научные положения должны

принадлежать автору и должен быть указан источник используемых теоретических идей.

14. Ссылки следует давать на работы, опубликованные за последние 5-10 лет. Список литературы, приведенный в конце статьи, должен быть пронумерован не в алфавитном порядке, а в том порядке, в котором указанная литература появляется в тексте, например [1] или [1, стр. 119]. Если та же самая литература повторяется в другом месте в тексте, то эта же литература должна быть указана под предыдущим номером.

15. Журнал публикует статьи, имеющие отношение к его профилю.

16. В конце научной статьи должна быть обоснована актуальность в соответствии с характером статьи и областью науки, четко указана научная новизна, важность ее применения, экономическая эффективность и т.д.

17. Затем предоставляется список использованной литературы.

18. Права авторов статьи защищены.

19. Журнал не публикует серии статей под заголовком «продолжение в следующем номере».

20. Аннотация статей на разных языках должны быть одинаковыми и соответствовать содержанию статьи.

21. В представленных статьях важны ссылки на статьи, опубликованные в отдельных выпусках журналов, размещенных в базах данных Web of Science или SCOPUS, а также в различных номерах «Научных трудов» Института Образования Азербайджанкой Республики..

22. В конце статьи должно быть указано имя, отчество и фамилия рецензентов, их ученая степень и ученое звание; следующая строка должна содержать адрес электронной почты автора статьи.

23. В статью добавляется следующая информация об авторе: имя, фамилия, отчество автора (авторов), учреждение, где он работает (докторантом или диссертантом которого является) адрес учреждения, должность, ученая степень и звание автора(ов), домашний и рабочий телефоны, домашний адрес, электронная почта (E-mail).

e-mail: gulizade.gunel@mail.ru
https://journals.arti.edu.az/

Çapa imzalanıb: 14.05.2026
Format: 84x108 1/8. Qarnitur: Times.
Həcmi: 16,5 ç.v. Tiraj: 200. Sifariş № 115.

MÜTƏRCİM TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
(012) 596 21 44;
e-mail: mutarjim@mail.ru